# AZƏRBAYCAN PROKURORLUĞU

Elmi-praktiki jurnal

XÜSUSİ BURAXILIŞ

107 İL

№ 3 / 2025

www.genprosecutor.gov.az



**“Azərbaycan yeni bir dövrə qədəm qoyub. Biz həm müharibəni udduq, həm də sülhü qazandıq. İşğala son qoyduq və bərpa işlərinə başladıq. Ədalət zəfər çaldı, suverenlik möhkəmləndi və sülh de-fakto təmin olundu. Biz bu müsbət təcrübəmizi paylaşmağa hazırıq. Son illərdə əldə etdiyimiz nailiyyətlər yalnız Azərbaycanın qələbəsi və uğuru deyil. Bu, həm də beynəlxalq hüququn sonda mütləq üstünlük təşkil etməsinin sübutudur”.**

*İlham Əliyev*
*Azərbaycan Respublikasının Prezidenti*

# AZƏRBAYCAN PROKURORLUĞU

**Təsisçi:**
Azərbaycan Respublikasının
Baş Prokurorluğu

**REDAKSİYA HEYƏTİ**

**Baş redaktor:**
Heydər Məmmədov

**Baş redaktorun müavini:**
Fazil Həsənəliyev

**Redaksiya heyətinin üzvləri:**
Tural Aslanov
Natiq Hüseynov
Aynur Osmanova
Səbuhi Alıyev
Elnur Musayev
Vüqar Əliyev
Natiq Abdullayev
Asəf Sarıkişiyev
Şəfahət İmranov

**Məsul katib:**
Fərizə Mirzəyeva

**Redaksiyanın ünvanı:**

Bakı şəhəri, Binəqədi rayonu,
Süleyman Sani Axundov küçəsi 160.

**Telefon:** 361 14 26
**www.genprosecutor.gov.az**

*Elmi-praktiki jurnalın 3-cü nömrəsi*

*İyul - Sentyabr (2025-ci il, Xüsusi buraxılış)*

"Media haqqında" Azərbaycan Respublikası Qanununa müvafiq qaydada təsis edilmişdir.

Jurnal 2003-cü ildən etibarən rübdə bir dəfə dövriliklə dərc edilir.

Azərbaycan Respublikası Baş prokurorunun 19 may 2021-ci il tarixli, 09/06 nömrəli əmri ilə "Azərbaycan Prokurorluğu" elmi-praktiki jurnalının redaksiya heyətinin yeni tərkibi təsdiq edilmişdir. "Azərbaycan Prokurorluğu" elmi-praktiki jurnalının fəaliyyəti üçün məsul qurum Baş Prokurorluğun Elm-Tədris Mərkəzidir.

Yazılardakı məlumatların doğruluğuna jurnalın redaksiya heyəti məsuliyyət daşımır.

Jurnalda dərc edilmiş məlumatlardan istifadə zamanı jurnala istinad etmək vacibdir.

Azərbaycan Respublikası Baş Prokurorluğunun mətbəəsində səhifələnmiş və 350 nüsxə kağız, 150 nüsxə elektron daşıyıcıda çap edilmişdir.

*Jurnalın çapına məsul:* Rövşən Abdullayev
*Texniki heyət:* Samir Vahidov, Səttar Əliyev

Çapa imzalanmışdır: 29.10.2025
60x84 1/8 formatda 260 səhifə həcmdədir.

© "Azərbaycan Prokurorluğu", 2025

# MÜNDƏRİCAT

## ÖLKƏDƏ


**5** Özbəkistan Prezidenti Şavkat Mirziyoyev ölkəmizə səfər etmişdir
**21** İlham Əliyevin Ağdam və Xankəndiyə səfəri
**24** İlham Əliyev Birləşmiş Ərəb Əmirliklərinə işgüzar səfərə getmişdir
**27** İlham Əliyevin Füzuliyə, Şuşaya, Ağdama və Xocalıya səfəri
**36** İlham Əliyevin Amerika Birləşmiş Ştatlarına işgüzar səfəri
**50** İlham Əliyevin Gəncə, Kəlbəcər və Ağdərəyə səfəri
**68** İlham Əliyevin Çinə işgüzar səfəri
**77** İlham Əliyevin Füzuli, Xocalı, Xocavənd və Xankəndiyə səfəri
**95** Prezident İlham Əliyev "Qarabağ" klubunu təbrik etdi
**96** BMT-nın Baş Assambleyasının 80-ci sessiyası
**107** İlham Əliyevin Yevlax və Gəncəyə səfəri


## PROKURORLUQDA


**116** MDB-yə üzv dövlətlərin Baş Prokurorlarının Əlaqələndirmə Şurasının İcraçı katibi Yuri Nikolayeviç Jdanov ölkəmizdə işgüzar səfərdə olmuşdur
**117** Baş prokuror Kamran Əliyevin rəhbərlik etdiyi nümayəndə heyəti Ankara səfəri çərçivəsində görüşlər keçirib
**119** Baş Prokurorluqda cari ilin birinci yarısında görülmüş işlərin yekunları və qarşıda duran vəzifələrə dair Geniş Kollegiya iclası keçirilib
**123** Baş prokuror MDB-yə üzv dövlətlərin Baş Prokurorlarının Əlaqələndirmə Şurasının İcraçı katibini qəbul edib
**124** "Ümummilli Lider Heydər Əliyev müstəqil Azərbaycan Konstitusiyasının müəllifidir" mövzusunda beynəlxalq konfrans
**128** Azərbaycan Respublikasının Baş prokuroru Kamran Əliyev Türkiyə Respublikasında səfərdə olub
**130** Azərbaycan Respublikasının Baş prokuroru Sinqapurda işgüzar səfərdə olmuşdur
**132** Baş prokuror Naxçıvan Muxtar Respublikası Prokurorluğunda əməliyyat müşavirəsi keçirib
**134** Slovakiya Respublikasının Baş Prokurorunun rəhbərlik etdiyi nümayəndə heyəti Azərbaycanda səfərdə olmuşdur
**136** Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev tərəfindən "Suverenliyin keşiyində: Konstitusiyada prokurorluğun statusu" mövzusunda keçirilən beynəlxalq konfransın iştirakçılarına müraciət
**137** "Suverenliyin keşiyində: Konstitusiyada Prokurorluğun statusu" mövzusunda beynəlxalq konfrans
**144** Tanzaniya Birləşmiş Respublikasının Dövlət Prokurorluğunun direktorunun rəhbərlik etdiyi nümayəndə heyəti Azərbaycanda səfərdə olmuşdur
**146** Laos Xalq Demokratik Respublikası Ali Xalq Prokurorluğunun Baş prokurorunun rəhbərlik etdiyi nümayəndə heyəti Azərbaycanda səfərdə olmuşdur
**147** Keniya Respublikasının Dövlət Prokurorluğunun nümayəndə heyəti Lənkəranda olub
**148** Laos Xalq Demokratik Respublikası Ali Xalq Prokurorluğunun Baş Prokurorunun rəhbərlik etdiyi nümayəndə heyəti Şamaxıda səfərdə olub
**149** Baş Prokurorluqda şəhid olan prokurorluq əməkdaşlarının ailə üzvləri, prokurorluğun veteranları və vətən müharibəsində iştirak edən prokurorluq işçiləri ilə görüş keçirilib
**150** Baş prokuror Özbəkistanda səfərdə olmuşdur
**153** Baş Prokurorluğun rəhbərliyi 27 sentyabr – Anım Günü münasibətilə Zəfər parkını ziyarət edib
**154** Prokurorluq əməkdaşları 1 Oktyabr - Prokurorluq İşçilərinin Peşə Bayramı Gününə həsr olunmuş tədbirdə iştirak edib
**155** Prokurorluq əməkdaşları ağacəkmə kampaniyası keçirib
**156** Prokurorluq orqanlarının yaradılmasının 107-ci ildönümü münasibətilə tədbir keçirilib
**159** Baş prokurorun yerlərdə qəbulları
**165** Xarici ölkə prokurorluqlarının nümayəndələri Qarabağ Universitetində olub


## BEYNƏLXALQ ƏLAQƏLƏR


**166** Ölkəmizdə həyata keçirilən korrupsiyaya qarşı mübarizə tədbirləri İqtisadi Əməkdaşlıq və İnkişaf Təşkilatının (OECD) ekspertləri tərəfindən yüksək qiymətləndirilmişdir
**167** Azərbaycan Respublikası Baş Prokurorluğunun nümayəndə heyəti MDB-yə üzv dövlətlərin Baş prokurorlarının müavinlərinin görüşündə iştirak edib
**168** Baş Prokurorluğun nümayəndə heyəti Türkiyə Ədliyyə Akademiyasında olub
**169** Baş Prokurorluğun nümayəndəsi beynəlxalq iclasda iştirak edib
**170** Baş Prokurorluğun nümayəndələri beynəlxalq forumda iştirak ediblər
**171** Baş Prokurorluğun nümayəndəsi kibercinayətkarlıqla mübarizədə beynəlxalq əməkdaşlığa dair seminarda çıxış edib


## PROKURORLUQDA


**172** Gənc prokurorluq əməkdaşları üçün peşə vərdişlərinin formalaşması məqsədilə hazırlıq kursu təşkil edilib
**173** "Yüksəliş" müsabiqəsinin qalibi, Azərbaycan Respublikasının Baş prokuroru yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsinin əməkdaşı ilə tələbələr arasında görüş keçirilib

# MÜNDƏRİCAT


**174** "Konstitusiya və Suverenlik İli" çərçivəsində Baş Prokurorluq tərəfindən işğaldan azad olunmuş Ağdamda regional konfrans keçirilib

**176** Baş Prokurorluqda Milli Mətbuat Günü münasibətilə media nümayəndələri ilə görüş keçirilib

**178** Azərbaycan Respublikası Dövlət Sərhəd Xidmətinin inzibati binasında Dövlət Sərhəd Xidməti ilə birgə korrupsiyaya qarşı mübarizənin əhəmiyyəti mövzusunda maarifləndirici tədbir keçirilmişdir

**179** Baş Prokurorluğun nümayəndəsi dövlət qurumları İT rəhbərlərinin VI Zirvə Toplantısında iştirak edib

**180** Baş Prokurorluqda kriminoloji təhlil mövzusunda distant kurs keçirilib

**181** Prokurorluq orqanlarında könüllü qanvermə aksiyası keçirilib

**182** Baş Prokurorluqda "Azərbaycan Respublikasının Konstitusiyası və Dövlət Suverenliyi" mövzusunda hüquq viktorinası keçirilib

**183** Azərbaycan Respublikasının Baş Prokurorluğuna hakimliyə namizədlərin təlim səfəri təşkil olunub

**184** Prokurorluq əməkdaşları uşaq və körpələr evlərini ziyarət edib

**185** Prokurorluğun 107-ci ildönümünə həsr olunmuş interaktiv istintaq kvesti keçirilib

**186** Baş prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsində əməliyyat müşavirəsi keçirilib

**187** Hərbi prokuror Naxçıvanda görüş keçirib

**188** Hərbi Prokurorluq: Birinci yarımildə qeydə alınmış cinayətlər ötən ilin müvafiq dövrü ilə müqayisədə 10 faiz azalıb

**190** Hərbi prokuror DSX-nin çətin relyefdə qulluq edən hərbi qulluqçuları ilə görüşüb

**190** Hərbi Prokurorluqda "962" Etimad xətti yaradılıb

**191** Hərbi prokuror Heydər Əliyev adına Hərbi İnstitutun kursantları ilə görüşüb

**192** Hərbi Prokurorluqda milli prokurorluq orqanlarının yaradılmasının 107-ci ildönümünə həsr olunmuş tədbir keçirilib

**193** Naxçıvan Muxtar Respublikası Prokurorluğunda "Açıq qapı" günü keçirilib

**194** Naxçıvan Muxtar Respublikası Prokurorluğunda əməliyyat müşavirəsi keçirilib

**195** Naxçıvan Muxtar Respulikası Pokurorluğunun təşkilatçılığı ilə kiberhücumlara qarşı mübarizə və təhlükəsizlik tədbiləri ilə bağlı tədbirlər davam etdrilir

**196** Naxçıvan Dövlət Universitetində "Gələcək peşəm: prokuror" adlı tədbir keçirilib

**197** Naxçıvan Muxtar Respublikası Prokurorluğu tərəfindən Muxtar Respublikanın mərkəzi və yerli icra hakimiyyəti orqanlarında "Ümummilli Lider Heydər Əliyev müstəqil Azərbaycan Konstitusiyasının müəllifidir" mövzusunda tədbirlər keçirilib

**198** Naxçıvan Muxtar Respublikası Prokurorluğunun rəhbər heyəti və əməkdaşları 1 oktyabr – "Prokurorluq iş-çilərinin peşə bayramı günü" münasibəti ilə Ümummilli Lider Heydər Əliyevin abidəsini və Şəhidlər xiyabanınl ziyarət edib

**199** Bakı şəhər prokurorluğunun 2025-ci ilin I yarımilinə həsr olunmuş əməliyyat müşavirəsi keçirilib

**201** Bakı şəhər prokurorluğunda "Azərbaycan Prokurorluğu: Suverenliyin təminatında rolu" adlı seminar keçirilib

**202** Bakı şəhər prokurorluğunda "Açıq qapı" günü keçirilib


## PROKURORLUQ VƏ CƏMİYYƏT


**204** Mətbuat xidmətinin məlumatı

**210** *Fazil Həsənəliyev* – İbtidai araşdırmaya prosessual rəhbərliyin və istintaqa nəzarət fəaliyyətinin həyata keçirilməsinin təşkili və istiqamətləri

**214** *Anar Həsənov* – Süni intellekt – cinayətin subyekti

**215** *Faiq Səfərov* – Konstitusion vəzifələr və vətəndaşlıq borcu


## GƏNC HÜQUQŞÜNASLARIN MƏQALƏLƏRİ


**218** *Yusif Mirzəzadə* – Türk dövlətlərində prokurorluq orqanlarının konstitusional-hüquqi statusu və müqayisəli təhlili

**224** *Dinara Damirova* – Prosecutor's Role in protecting Rights

**227** *Лала Бабазаде* – Прокуратура XXI века и её роль в обществе: цифровизация, глобальные вызовы и практика Азербайджана


## HƏMKARLARIMIZLA MÜSAHİBƏ


**231** Tonqa Krallığının Antikorrupsiya Müvəkkili ilə müsahibə

**232** Uqanda Hökumətinin Baş Müfəttişinin müavini xanım Patricia Achan Okiria ilə müsahibə


## XARİCİ HƏMKARLARIN TƏCRÜBƏSİ


**235** *Рыскелдиев Е.К.* – Противодействие киберпреступлениям в странах Организации Тюркских государств: проблемы и перспективы сотрудничества


## PROKURORLUĞUN VETERANLARI


**237** Prokurorluğun veteranları yubileyləri münasibətilə Baş prokuror adından təbrik edilib

**237** Veteran prokurorluq işçiləri təbrik edilib

**238** Prokurorluğun veteranları və gənc prokurorluq işçiləri arasında görüş keçirilib

**239** Baş prokurorun adından veterana təbrik məktubu təqdim edilib

**240** Prokurorluğun veteranı Durhəsən İmanovun müsahibəsi


## HÜQUQİ AKTLAR


**243** Qanunvericiliyə dəyişikliklər

# Özbəkistan Prezidenti Şavkat Mirziyoyev ölkəmizə səfər etmişdir



2025-ci ilin iyulun 2-də Azərbaycana dövlət səfərinə gələn Özbəkistan Respublikasının Prezidenti Şavkat Mirziyoyev Azərbaycan Prezidenti İlham Əliyev tərəfindən qarşılandı. Özbəkistan Respublikasının və Azərbaycan Respublikasının Dövlət himnləri səsləndirildi.

Həmin gün ölkəmizin və Özbəkistanın başçılarının iştirakı ilə Azərbaycan-Özbəkistan Ali Dövlətlərarası Şuranın ikinci iclası keçirilib.

İclasda çıxış edən **Azərbaycan Prezidenti İlham Əliyev** dedi:

– Hörmətli Şavkat Miromonoviç, əziz Qardaşım, bir daha Azərbaycana xoş gəlmisiniz deyirəm. Sizi və nümayəndə heyətinin üzvlərini salamlayıram. Əminəm ki, Özbəkistan Prezidentinin dövlət səfəri ölkələrimiz arasında qardaşlıq münasibətlərinin inkişafında daha bir mühüm mərhələ olacaq. Biz dostuq, qardaşıq, Müttəfiqlik münasibətləri haqqında Müqavilənin imzalandığı andan artıq müttəfiqlərik. Keçən il Daşkənddə biz rəsmən müttəfiq olduq. Müttəfiqlik münasibətləri haqqında Müqavilə dövlətlərarası münasibətlərin ali formasıdır. Bu gün Dövlətlərarası Şuranın ikinci iclası çərçivəsində biz hesabatları dinləyəcək, qəbul etdiyimiz qərarların yerinə yetirilməsi üzrə növbəti tapşırıqlar verəcək və minimum yaxın bir neçə ay müddətinə tədbirlər proqramını müəyyənləşdirəcəyik.

Ölkələrimizi həm tarix, həm mədəniyyət, həm ortaq dil və etnik yaxınlıq birləşdirir. Bu, möhkəm bünövrədir. Biz Özbəkistan-Azərbaycan qardaşlığının gözəl binalarını inşa edirik. Ölkəmizə göstərdiyiniz diqqətə görə Sizə təşəkkür etmək istərdim. Hökumət üzvləri və müxtəlif strukturların rəhbərləri səviyyəsində də müntəzəm təmaslar həyata keçirilir. Bu yaxınlarda Hökumətlərarası Komissiyanın növbəti iclası olub. Artıq dediyim kimi, bu gün nəticələri dinləyəcəyik.









Əminəm ki, onlar prinsipcə bizi sevindirəcək. Həm də Sizinlə razılaşdığımız kimi və hökumətlərimizin üzvlərinə verdiyimiz tapşırıqlara əsasən, biz bütün qərarlara və onların yerinə yetirilməsinə nəzarət edirik. Həmçinin qardaş Özbəkistanı tarixi hadisə – futbol üzrə Özbəkistan yığmasının dünya çempionatının final mərhələsinə çıxması münasibətilə təbrik etmək istərdim. Bu, Özbəkistanın dünyanın aparıcı idman dövlətləri sırasında olduğu Yay Olimpiya Oyunlarından sonra son dövrlərdə idmanda ikinci tarixi nailiyyətidir. Bu nailiyyət həm də çox böyük potensialdan – insan potensialından, gənclik potensialından və təbii ki, dövlətin və Prezidentin düzgün siyasətindən xəbər verir. Biz buna öz uğurumuz kimi sevinirik. Əminəm ki, siz orada, o cümlədən Azərbaycanı da təmsil edəcəksiniz.

**Özbəkistan Prezidenti Şavkat Mirziyoyev** dedi:

– Hörmətli İlham Heydər oğlu, əziz Qardaşım, çox sağ olun.

Həqiqətən də bu, gözlədiyimiz səfərdir. Biz Azərbaycana məmnuniyyətlə, öz evimizə, yaxın qardaşlarımızın yanına gəldiyimiz kimi gəlirik. Şəxsən öz adımdan, nümayəndə heyətimizin adından təyyarənin endiyi andan təkcə mənə deyil, həm də bütün nümayəndə heyətimizə göstərilən çox təntənəli qəbula görə minnətdaram. Mən buna görə ayrıca təşəkkür etmək istəyirəm.

Əlbəttə, son illər münasibətlərimiz indi Sizin də dediyiniz kimi, tamamilə başqa səviyyəyə yüksəlir. Bizim real uğurlarımız var. Sizin də qeyd etdiyiniz kimi, biz artıq müttəfiqik. Bu, artıq bütün mətləblərdən xəbər verir. Hökumətlərarası səviyyədə, müttəfiqlik diplomatiyasında bunlar onu göstərir ki, biz artıq yaxın qonşular, yaxın dostlarıq. Bütün razılaşmalarımız da yüksək səviyyədə olacaq, Sizinlə razılığa gəldiyimiz kimi, nəzarət olunacaq və həllini tapacaq.

Biz iki yaxın xalqıq və tarixdə ortaq tərəflərimiz, ruhən, əxlaq, dünyaya baxış nöqteyi-nəzərindən çoxlu ümumi cəhətimiz var, dilimiz birdir, mədəniyyətimiz birdir, bir çox məsələni həll edirik. Bu gün məhdud dairədə tariximizi çox xatırladıq. Əlbəttə, çox şey əldən verilib. Amma biz Sizinlə onların yerini doldururuq. Biz bu gün göstəriş verəcəyik, onların yerini dolduracağıq və nəzarətə götürdüyümüz bütün məsələlər mütləq yerinə yetiriləcək.

Əlbəttə, demək istəyirəm ki, dünən tarixdə ilk parlamentlərarası forum uğurla keçirildi. Mənə məruzə etdilər, sizin və bizim deputatlar danışdılar. Bu da münasibətlərin artıq başqa fərqli səviyyəsidir. Hökumətlərarası Komissiya çox yaxşı səviyyədə keçdi. İki sədr görüşür, bir-birini çox yaxşı başa düşürlər. Mənə çox xoşdur ki, onların real nəticələri var. Son vaxtlar Təhlükəsizlik şuralarının görüşləri oldu, bir yol xəritəsi imzalandı. Bu da çox məsələdən xəbər verir.

İlham Heydər oğlu, mən də Sizi təbrik etmək istəyirəm - Azərbaycanın minifutbol komandası dünya çempionudur. Böyük futbola bir addım qaldığını gördük və həqiqətən də sevindik.







Sonradan, Azərbaycan Respublikası ilə Özbəkistan Respublikası arasında imzalanmış sənədlərin Azərbaycan Prezidenti İlham Əliyevin və Özbəkistan Prezidenti Şavkat Mirziyoyevin iştirakı ilə mübadiləsi mərasimi olub.

İlham Əliyev və Şavkat Mirziyoyev Azərbaycan Respublikasının və Özbəkistan Respublikasının Ali Dövlətlərarası Şurasının ikinci iclasının Qərarını imzaladılar.

Ardınca Prezidentlər Bakıda "Özbəkistan" parkının təməlini qoyublar.

"Özbəkistan" parkı böyükmiqyaslı mədəni-rekreasiya layihəsidir. Burada Özbəkistanın, o cümlədən Daşkənd, Səmərqənd, Buxara, Xivə və Kokand regionlarının zəngin tarixini, memarlığını və mədəniyyətini əks etdirəcək nadir mühit yaradılacaq. Sahəsi 5 hektar olacaq park Özbəkistanın xəritəsi formasında salınacaq. Burada muzey, kinoteatr, amfiteatr, qüllə, Özbəkistanın milli mətbəx nümunələrinin təqdim olunacağı restoran və kafelər, ticarət zonası, suvenir və hədiyyələr mağazaları, zoopark, mehmanxana da fəaliyyət göstərəcək. Parkın əsas obyektləri Buxara, Səmərqənd və Xivədəki memarlıq nümunələri olacaq.

Paytaxtdakı Ağ Şəhərdə salınacaq bu park Azərbaycan və Özbəkistan dövlətləri və xalqları arasında tarixən mövcud olan qardaşlığın, dostluğun rəmzidir. Bu parkın salınması ilə xalqlarımızın mədəni əlaqələri daha da möhkəmlənəcək.



Sonradan, dövlətimizin başçısı və Özbəkistanın Prezidenti bu ölkənin Azərbaycandakı səfirliyinin Bakıda yeni binasının açılışında iştirak ediblər.

Dövlət başçıları Özbəkistan səfirliyinin yeni binasının açılışını bildirən rəmzi lenti kəsdilər.

Prezidentlər İlham Əliyev və Şavkat Mirziyoyev səfirliyin binasının infrastrukturu ilə tanış oldular, burada diplomatlar üçün yaradılmış şəraitə baxdılar. Müasir tələblərə cavab verən yeni kompleks iki qardaş ölkə arasında çoxtərəfli strateji tərəfdaşlıq münasibətlərinin və müttəfiqliyin gələcək inkişafına yönəlib.

Bina ilə tanışlıqdan sonra Prezidentlər İlham Əliyev və Şavkat Mirziyoyev səfirliyin Fəxri qonaqlar kitabına ürək sözlərini yazdılar.

Son olaraq Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Özbəkistan Respublikasının Prezidenti Şavkat Mirziyoyev Xəzər dənizinin sahilində yerləşən "Sea Breeze" istirahət mərkəzində olublar.

"Sea Breeze"in təsisçisi Emin Ağalarov Azərbaycanın və Özbəkistanın dövlət başçılarına kurort ərazisində









İstirahət zonaları, parklar və çimərliklər üçün artıq 150 hektardan çox ərazi ayrılıb. Kurort-şəhərdə sakinlər və qonaqlar üçün rahat şəraitin yaradılması, eləcə də onların asudə vaxtının səmərəli təşkili məqsədilə zəruri infrastruktur qurulub, məktəb, uşaq bağçası, xəstəxana tikilib. Aparılan abadlıq işləri çərçivəsində təxminən 10 milyon bitki və ağac əkilib, nəticədə yaşıllıq sahələrinin ümumi ərazisi 300 hektara çatıb.

Bakının mərkəzindən cəmi 30 dəqiqəlik məsafədə yerləşən və müxtəlif formatda çoxsaylı

həyata keçirilən və qarşıdakı dövr üçün planlaşdırılan layihələr barədə məlumat verib.

Hazırda 500 hektar ərazini əhatə edən "Sea Breeze"də indiyədək 3 milyon kvadratmetrdən çox yaşayış və kommersiya daşınmaz əmlak layihəsi həyata keçirilib və istifadəyə verilib. Ötən dövr ərzində kompleksin ərazisində 500-dən artıq daşınmaz əmlak obyekti tikilib. Ərazidə artıq 20 min sakin yaşayır və 2028-ci ilə qədər onların sayı 50 mindən çox olacaq. Bütövlükdə layihə tam başa çatdırıldıqdan sonra burada 500 min sakin yaşayacaq. Bundan başqa, ümumilikdə, 50 hektar sahəni əhatə edən aypara şəklində nadir süni yarımadanın yaradılması nəzərdə tutulub.

daşınmaz əmlak obyektlərini bir araya gətirən "Sea Breeze" dünya miqyasında nadir layihə hesab olunur. Onun əsas layihələri sahilboyu yerləşir.

Hazırda "Sea Breeze" ərazisində 6560 nəfər işlə təmin olunub, gələcəkdə bu rəqəmin əhəmiyyətli dərəcədə artırılması planlaşdırılır. Layihəyə qoyulan ümumi investisiyanın həcmi artıq 3 milyard ABŞ dollarına çatıb, növbəti beş ildə isə 10 milyard dollardan çox sərmayə cəlb olunması nəzərdə tutulur.

Həmçinin Emin Ağalarov Çarvak su anbarında həyata keçiriləcək "Sea Breeze Uzbekistan" layihəsinin yenilənmiş master-plan konsepsiyasını təqdim edib.

# Azərbaycan və Özbəkistan prezidentləri Xankəndidəki "Businesstex JV" tikiş fabrikinin fəaliyyəti ilə tanış olublar



2025-ci il İyulun 3-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Özbəkistan Respublikasının Prezidenti Şavkat Mirziyoyev Xankəndi şəhərindəki Azərbaycan-Özbəkistan birgə müəssisəsi olan "Businesstex JV" tikiş fabrikinin fəaliyyəti ilə tanış olublar.

Fabrikdə müxtəlif növ parçadan 150 çeşiddə kişi, 300 çeşiddə qadın və 150 çeşiddə uşaq geyimləri istehsal olunur. Gələcəkdə kişi köynəklərinin, xüsusi təyinatlı və hərbi geyimlərin istehsalı planlaşdırılır. Hazırda fabrikdə hər gün 2500 ədəd müxtəlif trikotaj məhsulları istehsal edilir ki, bu rəqəmin 10 minə çatdırılması nəzərdə tutulur. Məhsulların 80 faizinin müxtəlif ölkələrə ixracı həyata keçiriləcək. Layihənin ilkin mərhələsi üzrə peşəkar təlim keçmiş 250 nəfər hazırda işlə təmin olunub. Ümumilikdə müəssisədə 500 iş yerinin yaradılacaq. Fabrikdə əsasən işğaldan azad edilmiş ərazilərə qayıdan və ətraf rayonlarda yaşayan vətəndaşlar işlə təmin olunurlar.

Müəssisədə icra olunan layihənin ilkin investisiya dəyəri 6 milyon manat təşkil edir, xammal tədarükü üçün birgə sənaye əməkdaşlığı həyata keçirilir. Fabrik yerli, Türkiyə, Özbəkistan və Çin xammalı əsasında fəaliyyət göstərir. Müəssisənin qurulmasına İqtisadiyyat Nazirliyinin tabeliyində Azərbaycan Biznesinin İnkişafı Fondu (ABİF) tərəfindən 3.5 milyon manat güzəştli kredit ayrılıb, təqribən 640 min manat məbləğində ƏDV və gömrük rüsumlarından azadolma tətbiq edilib. Müəssisənin fəaliyyəti regionda qeyri-neft ixracının artımına əhəmiyyətli töhfə verəcək.

Qeyd edək ki, Xankəndi tikiş fabrikinin qurulması Azərbaycan və Özbəkistan arasında iqtisadi və investisiya əməkdaşlığının dərinləşdirilməsinə dair iki ölkənin dövlət başçılarının tapşırıqları əsasında həyata keçirilib. Azərbaycan-Özbəkistan birgə müəssisəsi olan bu tikiş fabriki ölkələrimiz arasında uğurlu



əməkdaşlığın rəmzidir. Layihə ölkəmizdə yüngül sənayenin inkişafı üçün yeni imkanlar yaratmaqla yanaşı, Azərbaycan ilə Özbəkistan arasında ənənəvi dostluq və iqtisadi tərəfdaşlıq əla3qələrinin inkişafına xidmət edir.



# ECO-nun 17-ci Zirvə görüşünün iştirakçıları Ağdamdakı “İmarət” Kompleksində Qarabağ atlarının “Zəfər” şousunu izləyiblər



2025-ci il iyulun 3-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev, Özbəkistan Respublikasının Prezidenti Şavkat Mirziyoyev, Qırğız Respublikasının Prezidenti Sadır Japarov, Şimali Kipr Türk Cümhuriyyətinin Prezidenti Ersin Tatar və İqtisadi Əməkdaşlıq Təşkilatının (ECO) Xankəndi şəhərində keçiriləcək 17-ci Zirvə görüşünün iştirakçıları Ağdamdakı “İmarət” Tarix-Memarlıq Muzey Kompleksində Qarabağ atlarının “Zəfər” şousunu izləyiblər.

Əvvəlcə Azərbaycan Prezidenti və qonaqlar çay süfrəsi arxasında söhbət etdilər.

Sonra Qarabağ atlarının “Zəfər” şousu başladı.

Hərbi orkestrin ifasında milli musiqi nümunələrimiz, “Sərhədçi” rəqs ansamblının rəqsləri və Dövlət Sərhəd Xidmətinin süvarilər dəstəsinin Qarabağ atları üzərində göstərdiyi igidlik və cəsarət nümunələri böyük maraqla qarşılandı. Şou müddətində süvarilərimiz yüksək peşəkarlıq nümayiş etdirdilər.

Sonra qonaqlar avtobusla Ağdam şəhərini gəzdilər.






# Azərbaycan, Özbəkistan və Qırğızıstan prezidentləri Ağdamda Şahbulaq qalasında olublar





2025-ci il iyulun 3-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev, Özbəkistan Respublikasının Prezidenti Şavkat Mirziyoyev və Qırğız Respublikasının Prezidenti Sadır Japarov Ağdamda Şahbulaq qalasında olublar.

Dövlət başçıları əvvəlcə xatirə şəkli çəkdirdilər.

Bildirildi ki, hazırda abidədə Azərbaycan dövləti tərəfindən bərpa işlərinə başlanılıb.

# Xankəndi şəhərində İqtisadi Əməkdaşlıq Təşkilatının 17-ci Zirvə görüşü keçirilib




2025-ci il iyulun 4-də Xankəndi şəhərində İqtisadi Əməkdaşlıq Təşkilatının (ECO) 17-ci Zirvə görüşü keçirilib.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev İqtisadi Əməkdaşlıq Təşkilatının 17-ci Zirvə görüşündə iştirak edən dövlət və hökumət başçılarını, nümayəndə heyətlərinin rəhbərlərini qarşıladı.

Sonra birgə foto çəkdirildi.

Prezident İlham Əliyev Zirvə görüşündə çıxış etdi.

## Prezident İlham Əliyevin çıxışı

– Hörmətli dövlət və hökumət başçıları.

Hörmətli Zirvə görüşünün iştirakçıları.

İqtisadi Əməkdaşlıq Təşkilatının (ECO) 17-ci Zirvə görüşündə iştirak etmək üçün qədim Azərbaycan torpağı olan Qarabağa, Xankəndiyə xoş gəlmisiniz.

Qazaxıstana ECO-ya uğurlu sədrliyi münasibətilə təşəkkürümü bildirirəm.




Azərbaycan artıq üçüncü dəfədir ki, ECO-nun Zirvə görüşünə ev sahibliyi edir. Əvvəlki iki Zirvə görüşü 2006-cı və 2012-ci illərdə paytaxt Bakıda keçirilmişdir.

Bugünkü Zirvə görüşünün Qarabağda, Xankəndidə təşkil edilməsinin xüsusi mənası var. Ermənistanın işğalından azad edilmiş torpaqlarımızda artıq bir neçə mühüm beynəlxalq tədbir keçirilmişdir. Şuşada 2023-cü ildə ECO-nun Nazirlər Şurasını, 2024-cü ildə Türk Dövlətləri Təşkilatının ilk qeyri-rəsmi Zirvə görüşünü və bu ilin may ayında Laçında Azərbaycan, Türkiyə və Pakistan rəhbərlərinin üçtərəfli Zirvə görüşünü qeyd etmək istərdim.

Bu gün isə ECO-nun Zirvə görüşü Xankəndidə, yeni inşa edilmiş Konqres Mərkəzində keçirilir.

İşğaldan azad edilmiş bütün Qarabağ və Şərqi Zəngəzurda hazırda genişmiqyaslı bərpa-quruculuq işləri aparılır.

Ermənistan Azərbaycan ərazilərinin təxminən 20 faizini 30 ilə yaxın işğal altında saxlamış, etnik təmizləmə həyata keçirmiş, bir milyondan artıq soydaşımızı öz dədə-baba torpağından didərgin salmışdır.

Azərbaycan xalqı və dövləti heç vaxt işğalla barışmamışdır. Dəfələrlə Ermənistana və onun arxasında duran dövlətlərə bildirirdik ki, əgər Ermənistan işğal edilmiş torpaqlardan öz xoşu ilə çıxmasa, biz öz ərazi bütövlüyümüzü hərbi yolla bərpa edəcəyik. Əfsuslar olsun ki, Ermənistan və onun havadarları bizim bu xəbərdarlığımızı ciddi qəbul etməyiblər. Nəticədə peşman olublar.



2020-ci ildə 44 günlük Vətən müharibəsi zamanı Azərbaycan Ermənistanı döyüş meydanında darmadağın edərək 300-dən çox şəhər və kəndi azad etdi. Ermənistan 2020-ci il noyabrın 10-da kapitulyasiya aktı imzalamağa məcbur oldu.

İşğal dövründə Ermənistan şəhər və kəndlərimizi, mədəni və dini abidələrimizi yer üzündən silmişdir. 67 məsciddən 65-i Ermənistan tərəfindən yerlə-yeksan edilib, qalan ikisi isə ciddi zərər görüb, donuz və inək tövləsi kimi istifadə olunub. Bu, İslam dininə və dünya müsəlmanlarına qarşı hörmətsizlik və təhqir idi.

Qəbiristanlıqlar da vandalizmə məruz qalıb, dağıdılıb, qəbir daşları talanaraq Ermənistana aparılıb.

Dövlət qurumlarından ibarət komissiya öz işinə xarici ekspertləri cəlb edərək, beynəlxalq təcrübədən yararlanmaqla işğal nəticəsində Azərbaycana vurulmuş zərəri təxminən 150 milyard ABŞ dolları məbləğində qiymətləndirmişdir.

Ermənistan torpaqlarımızda bir milyondan çox mina basdırıb. Vətən müharibəsindən bu günə qədər 400-ə yaxın soydaşımız mina partlaması nəticəsində həlak olub və ya ağır yaralanıb.

İndi Azərbaycan Ermənistanın xarabazara çevirdiyi torpaqlarda yeni şəhərlər və kəndlər inşa edir. “Böyük Qayıdış” Proqramı icra edilir. Bu günə qədər 16 şəhər və kəndə keçmiş məcburi köçkünlərin qayıdışını təmin etmişik. Hazırda azad edilmiş ərazilərdə 50 mindən çox insan yaşayır, çalışır və təhsil alır.

Ermənistandan deportasiya olunmuş Qərbi azərbaycanlıların hüquqlarının təmin olunması da böyük əhəmiyyət kəsb edir. Keçən ay İslam Əməkdaşlıq Təşkilatının İstanbulda keçirilmiş Nazirlər Şurasında Ermənistandan zorla didərgin salınmış azərbaycanlıların qayıdış hüququna dəstək ifadə edən qətnamənin bütün 57 üzv ölkənin yekdil qərarı ilə qəbul olunmasını yüksək qiymətləndiririk.

Bu qətnamə ilə yanaşı, Nazirlər Şurasının yekunlarına dair “İstanbul Bəyannaməsi”ndə indiki Ermənistan ərazisindən zorla qovulmuş azərbaycanlıların geri qayıdış hüququ təsdiqlənir və Ermənistanın Qərbi Azərbaycan İcması ilə dialoqu rədd etməsi qınanılır.

Qərbi azərbaycanlıların Ermənistandakı öz dədə-baba torpağına sülh yolu ilə qayıdışının təmin edilməsi sahəsində səylər bundan sonra da davam etdiriləcək.

Xanımlar və cənablar, Azərbaycan ECO-nun işində həmişə fəal iştirak etmişdir. ECO-ya üzv ölkələrlə əlaqələrimiz uğurla inkişaf edir.

Keçən il tarixdə ilk dəfə olaraq ECO məkanında COP29 konfransı keçirilmişdir. Bu konfransda 197 ölkə, 70 dövlət və hökumət başçısı iştirak etmiş, 77 min şəxs qeydiyyatdan keçmişdir.

Konfransda əldə edilmiş əsas nailiyyətlər inkişaf etməkdə olan ölkələrə maliyyə yardımının 100 milyarddan 300 milyard ABŞ dollarına qədər artırılması, İtki və Zərər Fondunun işlək vəziyyətə gətirilməsi və karbon bazarları barədə razılaşmalardan ibarət olmuşdur.

Azərbaycanın təşəbbüsü ilə bu il ilk dəfə ECO Həftəsi keçirilir. Şuşada ECO-nun Biznes-Forumu, Ağdamda Gənclər Forumu, Laçında isə Qadınlar Forumu təşkil edilmişdir. Forumda iştirak etmiş nümayəndələr bu gün burada görülmüş işlərlə bağlı məruzələr təqdim edəcəklər.

ECO-nun Azərbaycanda yerləşəcək Tədqiqat Mərkəzinin və Təmiz Enerji Mərkəzinin fəaliyyətə başlamasının təmin olunması istiqamətində işlər davam edir.

2026-cı ilin Şuşa şəhərinin "ECO-nun Turizm paytaxtı" elan edilməsinə görə təşəkkürümü bildirirəm.

İqtisadi sahədə əməkdaşlığı dərinləşdirmək üçün bu gün müzakirə ediləcək məsələlər xüsusi əhəmiyyət kəsb edir. Azərbaycana gəldikdə, bizim ölkəmizdə çox müsbət sərmayə iqlimi vardır. Son 20 il ərzində Azərbaycan iqtisadiyyatına 350 milyard ABŞ dollarına yaxın sərmayə qoyulmuşdur ki, bunun da yarısı xarici sərmayədir.

Bu gün Azərbaycan bir çox ölkələrin enerji təhlükəsizliyini təmin edir və müxtəlif qaz boru kəmərləri vasitəsilə 12 ölkəyə təbii qaz ixrac edir. Bu göstəriciyə görə biz dünyada ön sıralardayıq.

Şərq-Qərb və Şimal-Cənub nəqliyyat dəhlizləri Azərbaycan ərazisindən keçir və ECO-ya üzv ölkələrin əksəriyyəti bu dəhlizlərdən istifadə edir.

Əziz dostlar, əminəm ki, bugünkü müzakirələrimiz səmərəli olacaq və ölkələrimiz arasında əməkdaşlığın daha da inkişafına öz müsbət töhfəsini verəcək. Sağ olun.

***

Sonra İqtisadi Əməkdaşlıq Təşkilatının 16-cı Zirvə görüşünün sədri, Özbəkistan Respublikasının Prezidenti Şavkat Mirziyoyev çıxış etdi.

## Prezident Şavkat Mirziyoyevin çıxışı

– Hörmətli nümayəndə heyətlərinin rəhbərləri.



Nadir tarixi və mədəni irsi təcəssüm etdirən gözəl Xankəndi şəhərində, qədim Qarabağ torpağında sizinlə görüşməkdən olduqca məmnunam. Əsl qardaşlar kimi biz bu bölgənin sülh və inkişaf məkanına çevrilməsindən çox şadıq. Mən ECO Zirvə görüşünü bu torpaqda yüksək səviyyədə təşkil etdiyinə və səmimi qonaqpərvərlik göstərdiyinə görə Azərbaycan Respublikasının Prezidenti Zati-aliləri İlham Əliyevə ən dərin təşəkkürümü bildirmək istəyirəm.

Daşkənddə tarixi görüşümüzdən sonra təşkilatın təsisat imkanlarının gücləndirilməsində və yeni sahələrdə əməkdaşlığın qurulmasında nəzərəçarpan irəliləyiş sizinlə birgə əldə edilmişdir. Fürsətdən istifadə edərək, təşkilatımızda Qazaxıstan Respublikasının səmərəli sədrliyini qeyd etmək istəyirəm.

Biz, həmçinin məmnunuq ki, uzun fasilədən sonra Əfqanıstanın keçid hökuməti Zirvə görüşümüzdə öz nümayəndə heyəti ilə iştirak edir. Əslində, biz qonşu Əfqanıstanı təşkilatımızın ayrılmaz hissəsi, geniş iqtisadi əməkdaşlığın və regional nəqliyyat proseslərinin mühüm üzvü kimi görürük və onu öz tərəfimizdən geniş şəkildə dəstəkləyirik.

Hörmətli görüş iştirakçıları, bu tədbir çətin anlarda baş tutur və dünya ictimaiyyəti mühüm mərhələlərdən keçir. Bu, tam aydındır. Çünki münaqişə və mübahisələrin əksər hissəsi təşkilatımızın ərazisində baş verməkdədir. Son aylarda Cənubi Asiya və Orta Şərqdə baş verən hadisələr hamımızda böyük narahatlıq doğurdu. Beynəlxalq hüquq və qlobal təhlükəsizlik təsisatlarının sarsılması dialoq və əməkdaşlıq imkanlarını daraldır, güc və zorakılığa yol açır. Xüsusən də təşkilatımızın üzvü olan İran İslam Respublikasına qarşı hərbi əməliyyatlar öz növbəsində bütün regionu müharibəyə sürükləmək və böyükmiqyaslı ətraf mühit fəlakətinin baş verməsi təhlükəsini yaratdı. Beləliklə, biz İran ilə İsrail arasında əldə olunmuş atəşkəs razılaşmasını dəstəkləyirik. Bu qərarı regionda gərginliyin azaldılması və sabitliyin bərpası istiqamətində atılan mühüm addım hesab edirik. İnanırıq ki, bu razılaşma diplomatik və konstruktiv danışıqlarla bütün məsələlərin həlli

üçün möhkəm əsas yaradacaq. Nəzərə alsaq ki, kütləvi qırğın silahlarının yayılmaması beynəlxalq təhlükəsizliyin ən təxirəsalınmaz məsələlərindən birinə çevrilir, biz bir daha nüvə silahından azad zonaların coğrafiyasını genişləndirmək üçün qlobal ictimaiyyətə çağırış edirik. Qeyd edilməlidir ki, Orta Şərqdə dayanıqlı sülh və sabitlik İsrail-Fələstin münaqişəsinin ədalətli və düzgün həlli olmadan əldə edilə bilməz. Biz beynəlxalq ictimaiyyəti Qəzza zolağında hərbi əməliyyatların dayandırılmasına, aclıq və qeyri-insani şəraitdən əziyyət çəkənlərə humanitar yardımın göstərilməsində bütün maneələrin aradan qaldırılmasına və müstəqil Fələstin dövlətinin BMT-nin qətnamələrinə uyğun qurulmasına öz tərəfimizdən çağırırıq.

Hörmətli görüş iştirakçıları, hər hansı sülh və inkişafın bünövrəsi öncə iqtisadi əməkdaşlığa söykənir. Ona görə təşkilat daxilində tərəfdaşlığımız nəinki təbiidir, o cümlədən böyük strateji əhəmiyyətə malikdir. Görüşün gündəliyinə uyğun olaraq, mən diqqətinizi bir neçə məsələyə cəlb etmək istəyirəm. Əvvəlcə biz təşkilatımızın orta və uzunmüddətli inkişaf prioritetlərini aydın şəkildə müəyyən etməliyik. Bunun üçün "İqtisadi əməkdaşlığın strateji məqsədləri 2035" adlı konsepsiyanı qəbul etmək zəruridir. Ticarət, sərmayə, nəqliyyat, enerji, sənaye, kənd təsərrüfatı, ekologiya, turizm və təhsil kimi ənənəvi sahələrlə yanaşı, biz, həmçinin innovasiya, süni intellekt və rəqəmsal texnologiyalar üzrə əməkdaşlığın gücləndirilməsinə xüsusi diqqət yetirməliyik. Əmtəə və xidmətlərdə ticarətin asanlaşdırılması, texniki və qeyri-tarif maneələrin tədricən aradan qaldırılması və elektron ticarətin inkişafı xüsusilə vacibdir. Qeyd etmək istərdim ki, qarşılıqlı ticarətimizin cari həcmi aşağı olaraq qalır. 2024-cü ildə bu rəqəm 95 milyard dollar olub və ölkələrimizin ümumi ticarət dövriyyəsinin cəmi 10 faizini təşkil edir. Biz həmin sahədə strateji məsələləri müzakirə etmək üçün bu il Daşkənddə ticarət nazirlərimizin toplantısını keçirməyi və ticarətin asanlaşdırılması sazişinin imzalanmasını təklif edirik. Bundan əlavə, kənd təsərrüfatı, ticarət və əmtəənin məhdudiyyətsiz təchizatı üzrə məlumatların sürətli mübadiləsi üçün "yaşıl dəhlizlər" sistemini yaratmaq çox vacibdir. Sərmayə əməkdaşlığımızı yeni səviyyəyə qaldırmaq üçün "ECO invest" uzunmüddətli proqramını qəbul etmək və sərmayə mühitinin daha şəffaf və cəlbedici olması təşəbbüsü ilə çıxış etmişik. Bu proqramın əsas məqsədi özəl investorları, bankları və beynəlxalq maliyyə təsisatlarını regionumuzda perspektivli layihələrə cəlb etməkdən ibarətdir.

Digər prioritet sahə də var. Son geosiyasi hadisələr təchizat zəncirlərinin pozulması risklərini bir daha göstərdi, alternativ nəqliyyat dəhlizlərinin strateji əhəmiyyətini nümayiş etdirdi. Bunu biz həmin hadisələrdə gördük. Çin-Qırğızıstan-Özbəkistan dəmir yolu layihəsinin ötən il başlanması mühüm hadisə idi. Gələcəkdə bu dəmir yolu xətti Transəfqan dəhlizi ilə birləşəcək və böyük regionumuzda tranzit şəbəkələrini səmərəli şəkildə bir araya gətirəcək. İnanırıq ki, məhz rəqəmsal nəqliyyat və gömrük ofisinin yaradılması təşəbbüsünün həyata keçirilməsi labüddür. Çünki bunun sayəsində biz nəqliyyat və logistika sektorlarında rəqəmsallaşmanı sistemli şəkildə təşkil edəcəyik və beləliklə, ekspert səviyyəsində danışıqları daha da gücləndirəcəyik.

Mühüm məsələlərə gəldikdə, yeni aviareyslərin açılması, o cümlədən məhz hava nəqliyyatı şirkətləri arasında əməkdaşlığın innovativ şəkildə həyata keçirilməsi, marketinq strategiyalarının gücləndirilməsi turizm və aviasiya sektorlarının inkişafına böyük təkan verəcək. Bu məsələlərin müzakirəsi məqsədilə Səmərqənddə Milli Hava Yolu Şirkətləri Forumunun təşkil olunmasını təklif edirik. Ümumiyyətlə, təşkilatımız daxilində turizm xidmətlərinin daha da genişləndirilməsi ilə bağlı yol xəritəsinin inkişaf etdirilməsinin bizim bu məqsədə xidmət edəcəyinə əminik və hesab edirik ki, bu potensial turizm imkanlarımızı iki dəfə artıracaq.

Mən diqqətinizi digər bir mühüm məsələyə cəlb etmək istəyirəm. Əsas məsələ ondan ibarətdir ki, bizim hökumətlər qlobal iqlim gündəliyində öz səylərini əlaqələndirməli və birləşdirməlidirlər. Biz Bakıda COP29 qlobal iqlim sammitinin uğurla keçirilməsindən sonra əldə edilmiş razılaşmaların və öhdəliklərin tam şəkildə icrasını qəti şəkildə dəstəkləyirik. Biz, eyni zamanda, təşkilatımızın məhz quraq yerlərdə ağacların əkilməsinə, o cümlədən istirahət zonalarının yaradılmasına yönəlmiş "Yaşıl təşəbbüsü"nü dəstəkləyirik.

Hörmətli nümayəndə heyətinin rəhbərləri, biz təşkilatımızın fəaliyyətinin daha da gücləndirilməsində yüksəksəviyyəli komitənin səylərini alqışlayırıq. İnanırıq ki, bu komitə növbəti Zirvə görüşü üçün təkliflərin hazırlanmasında və təşkilatımızda funksional islahatların aparılmasında, onların gücləndirilməsində öz töhfəsini verəcəkdir. Bu islahatlar birmənalı olaraq bizim əməkdaşlığımızı yeni səviyyəyə qaldıracaq, təşkilatımızın beynəlxalq nüfuzunu və təsirini gücləndirəcək, onun işinin müasir tələblərə uyğun qurulmasına səbəb olacaq.

Əminəm ki, bugünkü Zirvə görüşü bizim məqsədlərimizə, planlarımıza nail olmaq işinə təkan verəcək, çoxtərəfli və praktiki əməkdaşlığımızı yeni səviyyəyə qaldıracaq.

Diqqətinizə görə təşəkkür edirəm.

***

Tədbir digər çıxışlarla davam edib.



**İran İslam Respublikasının Prezidenti Məsud Pezeşkian** çıxışında İqtisadi Əməkdaşlıq Təşkilatına üzv ölkələr arasında Azad Ticarət Zonasının yaradılmasına diqqət çəkərək, təşkilatın 17-ci Zirvə görüşünə ev sahibliyi etdiyinə görə Azərbaycana minnətdarlığını bildirdi və dedi:

– Zati-aliləri, Azərbaycan Respublikasının möhtərəm Prezidenti İlham Əliyev, İqtisadi Əməkdaşlıq Təşkilatının 17-ci Zirvə görüşünə ev sahibliyi etdiyinizə və səxavətli qonaqpərvərliyinizə görə Sizə və hörmətli Azərbaycan xalqına minnətdarlığımı bildirmək istəyirəm.



**Qırğız Respublikasının Prezidenti Sadır Japarov** bərpaolunan enerji mənbələri üzrə və rəqəmsal sahədə əməkdaşlığın, nəqliyyat-logistika əlaqələrinin inkişaf etdirilməsinin vacibliyini vurğuladı və iqlim dəyişikliklərinin iqtisadiyyatın şaxələnməsinə təsirindən danışdı. Prezident İqtisadi Əməkdaşlıq Təşkilatının Zirvə görüşünün Xankəndidə keçirilməsinin əhəmiyyətinə toxunaraq bildirdi:

– Görüşümüzün Azərbaycanın Qarabağ bölgəsində yerləşən, sülh rəmzi olan tarixi Xankəndi şəhərində keçirilməsi xüsusi əhəmiyyət kəsb edir. Hörmətli İlham Heydər oğlu, ənənəvi səmimi qonaqpərvərliyinizə və bu tədbiri belə yüksək səviyyədə təşkil etdiyinizə görə Sizə və qardaş Azərbaycan xalqına səmimi-qəlbdən təşəkkürümü bildirirəm.



**Pakistan İslam Respublikasının Baş naziri Məhəmməd Şahbaz Şərif** Zirvə görüşünün yüksək səviyyədə təşkil edildiyini deyərək, təşkilatın daha da güclənməsi istiqamətində Azərbaycanın səylərini xüsusi vurğuladı:

– Əvvəlcə icazə verin, əziz qardaşım, Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevi təbrik edim. O, ECO-nun 17-ci Zirvə görüşünə uğurla sədrlik edir. Həmçinin biz ona minnətdarıq ki, belə bir tarixi, gözəl Xankəndi şəhərində bizə bu cür səmimi qonaqpərvərlik göstərilmişdir. Xanımlar və cənablar, eyni zamanda, qeyd etmək istərdim ki, təşkilatımızın üzv dövlətləri arasında əməkdaşlığın dərinləşdirilməsində göstərdiyiniz səyləri yüksək dəyərləndirirəm.



**Tacikistan Prezidenti Emoməli Rəhmon** ticarət, nəqliyyat, energetika, sənaye, kənd təsərrüfatı sahələrində əməkdaşlığın inkişafından danışaraq, geniş və əlaqələndirilmiş işbirliyinin müasir təhdidlərlə mübarizədə səmərəli ola biləcəyini diqqətə çatdırdı. O, Azərbaycanda keçirilən Zirvə görüşünün münasibətlərin hərtərəfli inkişafına töhfə verəcəyinə əminliyini bildirərək dedi:

– Mən əvvəlcə bugünkü görüşün təşkilinə və səmimi qəbula görə Azərbaycan Respublikasının Prezidenti möhtərəm İlham Əliyevə minnətdarlığımı bildirirəm. Eyni zamanda, hörmətli İlham Heydər oğlu, mən Sizi təşkilatımızın 17-ci Zirvə görüşünün sədri seçilməyiniz münasibətilə təbrik edirəm.



**Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan** Zirvə görüşünün keçirildiyi Xankəndi şəhərinin Qafqaz regionunda yeni inkişaf və sülh mərkəzinə çevriləcəyini vurğuladı, həmçinin Şuşa şəhərinin 2026-cı ildə İqtisadi Əməkdaşlıq Təşkilatının turizm paytaxtı seçilməsi münasibətilə Azərbaycanı təbrik edərək bildirdi:

– Can Azərbaycanın səmimi qonaqpərvərliyi ilə bu gözəl şəhərdə bizi qəbul edən Prezident İlham Əliyev qardaşım başda olmaqla bütün rəsmi şəxslərə və Azərbaycan xalqına təşəkkür edirəm. Tədbirimizin işğaldan azad edilmiş bir şəhərdə - Xankəndidə keçirilməsi Zirvə görüşümüzə xüsusi bir əhəmiyyət və məna qazandırır. İlham qardaşımın uzaqgörən yanaşması ilə bu qədim şəhərin Qafqazın yeni inkişaf və sülh mərkəzi olacağına ürəkdən inanıram.

Bugünkü müzakirələrimizin və iyulun 1-dən etibarən keçirilən qadın, gənclər və biznes forumlarının ölkələrimiz və bölgəmiz üçün xeyirli olmasını arzu edirəm.

Əziz qardaşlarım, ticarətdən nəqliyyata, ətraf mühitdən enerjiyə qədər müxtəlif sahələrdə geniş potensiala sahib təşkilatımızın bu Zirvə görüşünün iqlim dəyişikliyinə həsr edilməsinin son dərəcə doğru olduğunu düşünürəm. Azərbaycanda təşkil ediləcək Təmiz Enerji və Araşdırma mərkəzlərinin qurulmasına dair sənədlərin təsdiqlənməsi prosesinin ölkəmizdə son mərhələdə olduğunu da diqqətinizə çatdırmaq istəyirəm.

Şuşanın 2026-cı il İqtisadi Əməkdaşlıq Təşkilatının "Turizm paytaxtı" seçilməsi münasibətilə Prezident, dostum cənab İlham Əliyevin şəxsində bütün azərbaycanlı qardaşlarımızı təbrik edirəm.



**Qazaxıstanın Baş naziri Oljas Bektenov** Zirvə görüşünün Xankəndidə keçirilməsinin Azərbaycanın sülh və inkişafa dəstəyini ifadə etdiyini söylədi:

– İlk növbədə, Azərbaycan Respublikasının Prezidenti Zati-aliləri cənab İlham Əliyevə səmimi qonaqpərvərliyə və bu mühüm Zirvə görüşünün tarixi və gözəl Xankəndi şəhərində yüksək səviyyədə təşkil etdiyinə görə ürəkdən minnətdarlığımı bildirmək istəyirəm. Biz bu Zirvə görüşünün bu şəhərdə keçirilməsini vacib hesab edirik, eyni zamanda, Qazaxıstan Respublikasının Prezidenti Kasım-Jomart Tokayevin salamlarını Sizə çatdırırıq. Tədbirin burada təşkil olunmasını Azərbaycanın sülhə, inkişafa və regional inteqrasiyaya sadiqliyinin parlaq nümunəsi kimi görürük. Şübhəsiz ki, qardaş Azərbaycanın sədrliyi ilə keçirilən İqtisadi Əməkdaşlıq Təşkilatının 17-ci Zirvə görüşü regional tərəfdaşlığın daha da inkişafına yeni təkan verəcəkdir.



**Əfqanıstan Baş nazirinin müavini Əbdül Qəni Bərадər** İqtisadi Əməkdaşlıq Təşkilatının 17-ci Zirvə görüşünün təşkilinə görə Azərbaycana təşəkkür etdi. O, ölkəsinin ECO üzvləri ilə strateji əlaqələri həyata keçirməkdə maraqlı olduğunu bildirdi:

– Bizə göstərilmiş qonaqpərvərliyə və yaradılmış gözəl şəraitə görə Azərbaycan Prezidentinə səmimi-qəlbdən təşəkkür edirəm. Bu mötəbər Zirvə görüşü burada baş tutub. Zirvə görüşü əlamətdar tarixi məqamdır və bizim üçün bir bələdçidir. Bu, regional əməkdaşlığa, qarşılıqlı anlaşmaya və tərəqqiyə xidmət edən bir tədbirdir.



**Türkmənistan Nazirlər Kabinetinin sədr müavini, xarici işlər naziri Rəşid Meredov** İqtisadi Əməkdaşlıq Təşkilatının çoxtərəfli əməkdaşlığın inkişafında mühüm platforma olduğunu vurğuladı və tədbirə dəvət üçün Azərbaycan Prezidentinə təşəkkür edərək dedi:

– Əvvəlcə icazə verin, Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevə bugünkü Zirvə görüşündə iştirak etmək üçün Türkmənistan rəhbərliyinə göndərdiyi dəvətə görə təşəkkürümü bildirim. Fürsətdən istifadə edərək, mən Türkmənistanın Prezidenti Sərdar Berdiməhəmmədovun və Türkmən xalqının Milli Lideri, Türkmənistan Xalq Məsləhətinin Sədri Qurbanqulu Berdiməhəmmədovun ECO-nun üzv dövlətlərinin rəhbərlərinə, hökumət başçılarına və Azərbaycan Prezidentinə salamlarını və dərin ehtiramını bildirim. ECO Zirvə görüşünün işini yaxşı təşkil etdiyinə və yüksək qonaqpərvərliyə görə Türkmənistanın nümayəndə heyəti adından Azərbaycan tərəfinə səmimi təşəkkürümü bildirmək istəyirəm.



**Şimali Kipr Türk Cümhuriyyətinin Prezidenti Ersin Tatar** Azərbaycanın işğaldan azad olunmuş torpaqlarının uğurla bərpasından və belə mötəbər Zirvə görüşünün tarixi və qədim Azərbaycan şəhəri Xankəndidə təşkil edilməsindən məmnunluğunu bildirdi:

– İlk növbədə, bu mühüm Zirvə görüşünə ev sahibliyi edən Azərbaycan Respublikasının Prezidenti qardaşım cənab İlham Əliyevə və İqtisadi Əməkdaşlıq Təşkilatına Baş katib Əsəd Məcid Xanın timsalında təşəkkürlərimi bildirirəm.

Bu görüşün qardaş ölkə Can Azərbaycanın tarixi və qədim şəhəri Xankəndidə keçirilməsi bizi xüsusilə məmnun etmişdir. Beş illik qısa müddətdə bu Vətən torpaqlarının Qarabağ Fatehi cənab İlham Əliyevin liderliyi və bənzərsiz xalq həmrəyliyi ilə yenidən dirçəldilməsi bizləri də qürurlandırmaqdadır. Qarabağ Azərbaycan, Azərbaycan Qarabağdır!



**Nigeriya Federativ Respublikasının büdcə və iqtisadi planlama naziri Abubakar Atiku Baqudu** Zirvə görüşünə ev sahibliyi edən Azərbaycana qonaqpərvərliyə görə təşəkkürünü bildirərək dedi:

– Dəvətə və səmimi qonaqpərvərliyə görə Azərbaycan Respublikasının Hökumətinə və xalqına minnətdarlığımı bildirirəm. Qlobal iqtisadi qeyri-müəyyənlik fonunda, qlobal birliyin mühüm yol ayrıcında olduğu bir vaxtda bu önəmli Zirvə görüşünə ev sahibliyi etdiyinə görə Azərbaycan Prezidenti cənab İlham Heydər oğlu Əliyevə təşəkkürümü bildirirəm. Bundan əlavə, 20 il əvvəl Nigeriya səfirliyinin Azərbaycan Respublikasında akkreditasiyasına icazə verən Zati-alilərinə təşəkkür edirik.



**BMT Baş katibinin müavini, Asiya və Sakit okean üzrə İqtisadi və Sosial Komissiyanın icraçı katibi Armida Salsiah Aliscahbana** iqlim dəyişikliyi ilə mübarizədə Azərbaycanın səylərini xüsusi vurğuladı:

– BMT-nin Mərkəzi Asiya İqtisadiyyatları üzrə Xüsusi Proqramının birinci Zirvə toplantısının təşəbbüskarı olmaqla, 2024-cü ildə BMT-nin İqlim dəyişikliyi konfransına və ECO-nun bu Zirvə görüşünə ev sahibliyi etməklə çoxtərəfli əməkdaşlığın inkişafında göstərdiyi liderliyə görə Azərbaycan Respublikasının Prezidentinə səmimi təşəkkürümü bildirirəm. Bu görüş ECO-nun 2025-ci il üzrə baxışını əks etdirməklə yanaşı, təşkilatın davamlı və iqtisadi dayanıqlılığa doğru ümumi yollarını yenidən müəyyən etməyə yönəlmiş iqlimədavamlı gələcək üçün yeni ECO istiqaməti çərçivəsində baş tutur. Keçən il ilk dəfə olaraq qlobal orta temperatur sənayedən əvvəlki səviyyədən 1,5 dərəcə yuxarı qalxdı. Son proqnozlar göstərir ki, qlobal temperatur yaxın beş ildə bu səviyyədə qalacaq və yaxud da ona yaxın olacaqdır. Bu, hələ də Paris Sazişinin həddinin daimi pozulması deyilsə də, qətiyyətli addımlar üçün imkanların sürətlə daraldığından xəbər verir. Mən bu fürsətdən istifadə edərək, sizin hamınızı komissiyamızın 2026-cı ilin aprelində Bakıda keçiriləcək 82-ci sessiyasına dəvət etmək istərdim. Həmin tədbirin mövzusu heç kəsi kənarda qoymamaq, cəmiyyətin inkişaf etdirilməsindən ibarət olacaqdır. Mən Azərbaycan Respublikasının Prezidenti Zati-aliləri cənab İlham Əliyevə təşəkkürümü bildirirəm ki, o, belə bir mühüm təşəbbüsə öz dəstəyini vermişdir.

Sonra **Türkiyənin ailə və sosial xidmətlər naziri Mahinur Özdəmir Göktaş, Azərbaycanın iqtisadiyyat naziri Mikayıl Cabbarov və Pakistan Milli Assambleyasının üzvü Seyyidə Ənnah Batul** çıxış etdilər.



Sonda çıxış edən **İqtisadi Əməkdaşlıq Təşkilatının Baş katibi Əsəd Məcid Xan** Prezident İlham Əliyevin uzaqgörənliyi sayəsində bir çox ilklərə imza atıldığını bildirdi və qeyd etdi ki, Azərbaycan həm ECO üçün yeni standartlar müəyyən edir, həm də təşkilat daxilində həmrəyliyi gücləndirir:

– Cəsarətin, möhkəmliyin və dirçəliş ruhunun qüdrətli rəmzi kimi dayanan Qarabağın gözəl Xankəndi şəhərində bu tarixi Zirvə görüşünə hazırlıq işlərinə yüksək səviyyədə nəzarət etdiyinə görə Zati-aliləri Prezident İlham Əliyevə ən səmimi təşəkkürümüzü bildiririk. Zati-aliləri, liderliyiniz və uzaqgörənliyiniz sayəsində bu Zirvə görüşündə bir sıra ilklərə imza atdıq. Birincisi, biz bu Zirvə görüşü çərçivəsində qeyd olunan ilk ECO həftəsində təkcə regionun rəhbərliyini, bir sıra xüsusi qonaqları deyil, həm də ECO təşkilatının bütün ailəsini bir araya gətirə bildik. Bu, bizim ilk ECO həftəsi çərçivəsində baş tutmuşdur. Həmçinin bu Zirvə görüşündə ilk dəfə olaraq biz ECO-nun 2035-ci ilədək yeni strateji məqsədlərini hazırlamaq üçün hökumətlərdən başqa, digər maraqlı dairələri, o cümlədən qadınları, gəncləri və özəl sektoru da cəlb etdik. Aydındır ki, Azərbaycan ECO-nun Zirvə görüşü üçün nəinki yeni standartı müəyyən etdi, yeni meyarları ortaya çıxardı, həm də çox vacib hesab olunan ECO ailə ruhunun yaradılması istiqamətində mühüm addım atdı. Ümidvarıq ki, gələcək Zirvə görüşləri bu təcrübəni davam etdirəcək.

***

Zirvə görüşünə yekun vuran **Prezident İlham Əliyev** dedi:

– Hörmətli dövlət və hökumət başçıları.

Hörmətli Zirvə görüşünün iştirakçıları.

Əziz dostlar.

İqtisadi Əməkdaşlıq Təşkilatının (ECO) 17-ci Zirvə görüşü başa çatır.

Bu Zirvə görüşündə iştirakınıza, fikir və təkliflərinizə görə hər birinizə təşəkkürümü bildirirəm.

Xankəndi Zirvə görüşü bizim dostluğumuzun daha bir bariz nümunəsinə çevrildi.

Əminəm ki, səsləndirilən fikirlər və təkliflər katiblik tərəfindən ümumiləşdiriləcək və ECO-nun gələcək fəaliyyətində, o cümlədən 2026-2035-ci illər üçün inkişaf sənədinin hazırlanmasında nəzərə alınacaq.

Həm Zirvə görüşünün, həm də Biznes-Forumun, Gənclər Forumunun və Qadınlar Forumunun keçirilməsinə verdikləri dəstəyə görə ECO-nun Baş katibi cənab Əsəd Xana və katibliyə təşəkkür edirəm.

Son olaraq, ECO Həftəsinə töhfə vermiş forumların iştirakçılarına və məruzəçilərə təşəkkürümü bildirirəm.

Beləliklə, Zirvə görüşü bağlı elan olunur. Bir daha hər birinizə öz dərin minnətdarlığımı bildirirəm. Sağ olun.





# İlham Əliyevin Ağdam və Xankəndiyə səfəri




2025-ci il iyulun 3-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Əhmədbəyli-Füzuli-Şuşa yolunun açılışında iştirak edib.

Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyinin İdarə Heyətinin sədri Saleh Məmmədov Prezident İlham Əliyevə görülmüş işlər barədə məlumat verdi.

Mövcud yolun uzunluğu 101 kilometr, yeni yolun uzunluğu isə 81,7 kilometrdir. Yeni yol məsafəni 19,3 kilometr qısaldacaq. Birinci texniki dərəcəyə uyğun olan yolun ilk 48 kilometri 6, qalan 33,7 kilometri isə 4 hərəkət zolağından ibarətdir. Yolboyu 1 qovşaq, 11 körpü, 7 tunel, 6 viaduk, yeraltı keçidlər və digər zəruri infrastruktur yaradılıb. Layihə çərçivəsində inşa edilən körpülərin ümumi uzunluğu 1557 metrdir. Viadukların bəzilərinin tikintisi zamanı Azərbaycanda ilk dəfə olaraq aşırım qəliblərin üfüqi sürüşdürülməsi üsulu ilə betonlama işləri yerinə yetirilib. İnşaat işləri zamanı yolboyu dəmir-beton və metal sədd çəpərlər, işıqlandırma sistemi quraşdırılıb. Əhmədbəyli-Füzuli-Şuşa avtomobil yolu başlanğıcını Hacıqabul-Horadiz-Ağbənd-Zəngəzur dəhlizi magistral avtomobil yolundan götürməklə Füzuli, Xocavənd, Xocalı və Şuşanı birləşdirir.

Qeyd edək ki, bu yol dövlətimizin başçısının Sərəncamı ilə təsdiq olunmuş "Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərinə Böyük Qayıdışa dair I Dövlət Proqramı"na əsasən inşa olunub. Layihənin icrası daxili yol şəbəkəsinin şaxələndirilməsi, bölgə ilə respublikanın digər rayonlarının nəqliyyat əlaqəsinin yaxşılaşdırılması baxımından əhəmiyyətlidir. Bundan başqa, bu yol beynəlxalq nəqliyyat dəhlizlərinin ölkəmizdən keçən hissəsinin də tərkibinə aid olmaqla çox mühüm rol oynayır. Yeni yol, eyni zamanda, bölgədə turizmin inkişafına və iqtisadi fəallığı artırmağa da böyük töhfə verəcək.

# İlham Əliyev Xankəndi Dəmir Yolu və Avtovağzal Kompleksinin təməlini qoyub



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev 2025-ci il iyulun 3-də Xankəndi Dəmir Yolu və Avtovağzal Kompleksinin təməlini qoyub.

Rəqəmsal inkişaf və nəqliyyat naziri Rəşad Nəbiyev və "Azərbaycan Dəmir Yolları" QSC-nin sədri Rövşən Rüstəmov dövlətimizin başçısına görüləcək işlər və "Ağdam-Xankəndi dəmir yolu" layihəsi barədə məlumat verdilər.

Bildirildi ki, Bərdə-Ağdam dəmir yolu xəttinin davamı olan Ağdam–Xankəndi dəmir yolu xəttinin uzunluğu 28 kilometr, yan yollarla birlikdə 34,7 kilometrdir. Ağdam–Xankəndi dəmir yolu xətti, o cümlədən 4 körpü, 5 yolötürücü, 3 piyada keçidi, 2 suötürücü boru üzrə layihələndirmə



işləri tamamlanıb. Bu dəmir yolu xətti boyunca 3 stansiyanın – Əsgəran və Xocalı stansiyalarının, Xankəndi Dəmir Yolu və Avtovağzal Kompleksinin, mühəndis qurğularının, körpülərin, yolötürücülərin, avtomobil, piyada və kənd təsərrüfatı təyinatlı keçidlərin və digər zəruri infrastrukturun tikintisi nəzərdə tutulur. Layihənin icra müddəti 2025–2026-cı illəri əhatə edəcək.

Diqqətə çatdırılıb ki, artıq Xankəndi Dəmir Yolu və Avtovağzal Kompleksinin layihələndirilməsinə başlanılıb. Kompleksin sahəsi 6,4 hektar təşkil edəcək. Beşmərtəbəli kompleksin ərazisində 2 dəmir yolu platformasının və 12 avtobus dayanacağının inşası nəzərdə tutulub. Kompleksin binası gözləmə zalı, bilet kassaları, tibb məntəqəsi, ana və uşaq otağı, mağazalar, restoranlar, inzibati və toplantı otaqları, uşaq əyləncə mərkəzi, açıq tipli terras və istirahət guşələrindən ibarət olacaq. Kompleksin dəmir yolu bölməsi gündəlik 800-1000 nəfər, avtovağzal isə 1000-1200 nəfər sərnişinə xidmət edəcək.

Qeyd edək ki, Ümummilli Lider Heydər Əliyevin təşəbbüsü və rəhbərliyi ilə Ağdam–Xankəndi dəmir yolu 1979-cu ildə inşa olunub. Qarabağın inkişafına hər zaman böyük diqqət yetirən Ulu Öndər bu regiona dəmir yolu xətlərinin çəkilməsinə xüsusi əhəmiyyət verirdi. Bakı–Yevlax–Xankəndi dəmir yolunun açılması nəticəsində Qarabağın sosial-iqtisadi və mədəni inkişafı daha da sürətlənib.

## İlham Əliyev Xankəndi Konqres Mərkəzinin açılışında iştirak edib



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev 2025-ci il iyulun 3-də Xankəndi Konqres Mərkəzinin açılışında iştirak edib.

Müasir texniki avadanlıqlarla təchiz olunmuş Konqres Mərkəzi 6500 kvadratmetr sahəni əhatə edir. Burada teatral üslubda 600, ziyafət üslubunda isə 350 nəfərlik tədbir zalları, iclas, konfrans otaqları və digər müxtəlif təyinatlı otaqlar yaradılıb.




Özündə müasirliklə milli memarlıq ənənələrini birləşdirən Mərkəzin binasında müxtəlif konqreslər, konfranslar, seminarlar, işgüzar görüşlər, ölkə və beynəlxalq əhəmiyyətli digər tədbirlərin keçirilməsi üçün geniş imkanlar var. Konqres Mərkəzinin fəaliyyətinin ilkin mərhələsində 12 nəfər daimi iş yeri ilə təmin olunub. Onlardan 8-i Xankəndi, Xocalı, Kəlbəcər və işğaldan azad olunmuş digər ərazilərin sakinləridir. Yüksək funksionallığı və müasirliyi ilə diqqət çəkən Konqres Mərkəzi işğaldan azad olunmuş ərazilərimizin sosial-iqtisadi potensialının inkişafına xidmət edən mühüm layihələrdən biridir.

Bu Mərkəzin yaradılması bir daha sübut edir ki, işğaldan azad olunmuş torpaqlarımızın dirçəldilməsi istiqamətində Azərbaycan dövlətinin həyata keçirdiyi layihələr ardıcıl və sürətlə davam edir.



# İlham Əliyev Birləşmiş Ərəb Əmirliklərinə işgüzar səfərə getmişdir



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev 2025-ci il iyulun 9-da Birləşmiş Ərəb Əmirliklərinə işgüzar səfərə gəlib.

Əbu-Dabinin Zayed Beynəlxalq Aeroportunda dövlətimizin başçısının şərəfinə fəxri qarovul dəstəsi düzülmüşdü.

Prezident İlham Əliyevi Birləşmiş Ərəb Əmirliklərinin vitse-prezidenti, Baş nazirin müavini, Prezident Divanının rəhbəri Şeyx Mansur bin Zayed Əl Nəhyan və digər rəsmi şəxslər qarşıladılar.



# İlham Əliyevin Əbu-Dabidə Birləşmiş Ərəb Əmirliklərinin Prezidenti ilə görüşü olub



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 2025-ci il iyulun 9-da Əbu-Dabidə Birləşmiş Ərəb Əmirliklərinin Prezidenti Şeyx Məhəmməd bin Zayed Al Nəhyan ilə görüşü olub.

Söhbət zamanı dostluq və qardaşlığa əsaslanan Azərbaycan-Birləşmiş Ərəb Əmirlikləri əlaqələrinin strateji tərəfdaşlıq xarakteri daşıdığı, siyasi münasibətlərimizin yüksək səviyyədə olduğu, iqtisadi-ticari əməkdaşlığın inkişaf etdiyi vurğulandı.

Prezident İlham Əliyevin bu ilin yanvarında Birləşmiş Ərəb Əmirliklərinə, Prezident Şeyx Məhəmməd bin Zayed Al Nəhyanın isə Azərbaycana səfərləri məmnunluqla xatırlandı, həmin səfərlər zamanı müxtəlif sahələri əhatə edən ikitərəfli gündəliyimizlə bağlı geniş müzakirələrin aparıldığı qeyd olundu.



Görüşdə ikitərəfli əlaqələrə dair fikir mübadiləsi aparıldı, enerji, o cümlədən bərpaolunan enerji sahəsində ölkələrimiz arasında uğurlu əməkdaşlığın həyata keçirildiyi qeyd olundu və bu istiqamətdə perspektiv layihələr müzakirə edildi.

SOCAR-la ADNOC, həmçinin ölkəmizlə "Masdar" şirkəti arasında bərpaolunan enerji sahəsində əməkdaşlıqdan məmnunluq bildirildi.

Söhbət zamanı İqtisadi Əməkdaşlıq Təşkilatının Xankəndi şəhərində keçirilmiş Zirvə görüşünün əhəmiyyətinə toxunuldu və Birləşmiş Ərəb Əmirliklərinin bu tədbirdə yüksək səviyyədə təmsil olunması təqdir edildi.

Sonra prezidentlərin iştirakı ilə "Azərbaycan Respublikası Hökuməti ilə Birləşmiş Ərəb Əmirlikləri Hökuməti arasında Hərtərəfli İqtisadi Tərəfdaşlıq Sazişi" imzalandı.

Görüşün sonunda dövlətimizin başçısı Birləşmiş Ərəb Əmirliklərinin Prezidentinə xatirə hədiyyəsi təqdim etdi.



# Əbu-Dabidə Prezident İlham Əliyevin Ermənistanın Baş naziri Nikol Paşinyanla görüşü olub





2025-ci il iyulun 10-da Birləşmiş Ərəb Əmirliklərinin Əbu-Dabi şəhərində Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və Ermənistan Respublikasının Baş naziri Nikol Paşinyanın əvvəlcə nümayəndə heyətlərinin iştirakı ilə görüşü keçirilib.

Sonra görüş təkbətək formatda davam edib.

# İlham Əliyevin Füzuliyə, Şuşaya, Ağdama və Xocalıya səfəri

## Türkmənistan Xalq Məsləhətinin sədri Qurbanqulu Berdiməhəmmədov Füzuli rayonuna gəlib






Azərbaycanda səfərdə olan Türkmənistan Xalq Məsləhətinin sədri Qurbanqulu Berdiməhəmmədov 2025-ci il iyulun 17-də Füzuli rayonuna gəlib.

Füzuli Beynəlxalq Hava Limanında ali qonağın şərəfinə fəxri qarovul dəstəsi düzülmüşdü.

Qurbanqulu Berdiməhəmmədovu Azərbaycan Prezidenti İlham Əliyev qarşıladı.

Füzuli Beynəlxalq Hava Limanında Türkmənistan Xalq Məsləhətinin sədrinə işğaldan azad olunmuş ərazilərimizdə inşa edilən Füzuli, Zəngilan və Laçın Beynəlxalq Hava limanları haqqında məlumat verildi.

## İlham Əliyev və Türkmənistan Xalq Məsləhətinin sədri Şuşada inşa edilmiş birinci yaşayış kompleksində olublar

2025-ci il iyulun 17-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Türkmənistan Xalq Məsləhətinin sədri Qurbanqulu Berdiməhəmmədov Şuşa şəhərində inşa edilmiş birinci yaşayış kompleksində olublar.

Şuşa rayonunda Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəsi Aydın Kərimov dövlətimizin başçısına və Türkmənistan Xalq Məsləhətinin sədrinə kompleks barədə məlumat verdi.





İyirmi üç binadan ibarət yaşayış kompleksinin ümumi sahəsi 8 hektara yaxındır. Bu kompleksin təməlini 2021-ci ilin avqustunda Azərbaycan Prezidenti qoyub. Yaşayış kompleksində ümumilikdə 450 mənzil var. Onlardan 28-i birotaqlı, 195-i ikiotaqlı, 190-ı üçotaqlı, 30-u dördotaqlı, 7-si isə beşotaqlıdır. Burada keçmiş məcburi köçkünlər və Şuşa şəhərində müxtəlif dövlət qurumlarında çalışan şəxslər üçün xidməti mənzillər istifadəyə verilib. Bu yaşayış kompleksinə indiyədək 376 keçmiş məcburi köçkün ailəsi, ümumilikdə isə 1409 nəfər köçürülüb. Ərazidə geniş abadlıq və yaşıllaşdırma işləri həyata keçirilib.

## İlham Əliyev və Qurbanqulu Berdiməhəmmədov Şuşadakı Yaradıcılıq Mərkəzində “Heydər Əliyev və Qarabağ” sərgisi ilə tanış olublar

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Türkmənistan Xalq Məsləhətinin sədri Qurbanqulu Berdiməhəmmədov 2025-ci il iyulun 17-də Şuşada Heydər Əliyev Fondu tərəfindən bərpa edilən Yaradıcılıq Mərkəzində “Heydər Əliyev və Qarabağ” sərgisi ilə tanış olublar.

Ölkə əhəmiyyətli memarlıq abidələri siyahısında olan bu binada vaxtilə Ağa Qəhrəman Mirsiyab oğlunun Karvansarası yerləşib. Heydər Əliyev Fondu tərəfindən 2022-ci ildən aparılan bərpa işləri zamanı bina ilkin vəziyyətinə qaytarılıb. Yaradıcılıq Mərkəzi 2023-cü il mayın 10-da istifadəyə verilib.

Sərgidə Ulu Öndər Heydər Əliyevin Qarabağın sosial, iqtisadi, siyasi və mədəni inkişafında xidmətlərini əks etdirən nadir fotoşəkillər, sənədlər və videomateriallar nümayiş olunur. Burada, eyni zamanda, Ümummilli Liderin vaxtilə Qarabağa səfərlərinə, keçirdiyi müxtəlif görüş və tədbirlərə aid fotolar da yer alıb.



Qeyd edək ki, 1969-cu ildən Qarabağın və Şərqi Zəngəzurun tarixində böyük dönüş dövrü başladı. Dahi şəxsiyyət mürəkkəb tarixi şəraitdə belə bölgə həyatının bütün sahələrində geniş islahatlar aparmağa nail oldu. 1979-cu ildə Ağdam–Xankəndi dəmir yolunun istismara verilməsi Qarabağın digər rayonlarımızla təsərrüfat və iqtisadi cəhətdən daha sıx birləşdirilməsi baxımından Ulu Öndərin strateji addımı olmaqla yanaşı, həm də böyük tarixi xidməti idi.

## İlham Əliyev və Türkmənistan Xalq Məsləhətinin sədri Şuşada Natəvanın, Bülbülün və Üzeyir Hacıbəylinin güllələnmiş heykəllərinə baxıblar








2025-ci il iyulun 17-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Türkmənistan Xalq Məsləhətinin sədri Qurbanqulu Berdiməhəmmədov Azərbaycanın tanınmış şəxsiyyətləri Natəvanın, Bülbülün və Üzeyir Hacıbəylinin işğal dövründə ermənilər tərəfindən güllələnmiş heykəllərinə baxıblar.

İşğal zamanı ermənilərin bu heykəlləri Ermənistana apararaq əritmək istədikləri barədə Qurbanqulu Berdiməhəmmədova məlumat verilib. Ulu Öndər Heydər Əliyevin müdaxiləsi nəticəsində heykəllər Ermənistandan alınaraq Azərbaycana gətirilib və bir müddət Bakıda İncəsənət Muzeyinin həyətində saxlanılıb. Şuşa işğaldan azad olunduqdan sonra isə həmin heykəllər öz əvvəlki yerlərinə qaytarılıb.

## Azərbaycan Prezidenti və Türkmənistan Xalq Məsləhətinin sədri Şuşada Yuxarı Gövhər Ağa məscidini ziyarət ediblər





2025-ci il iyulun 17-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Türkmənistan Xalq Məsləhətinin sədri Qurbanqulu Berdiməhəmmədov Şuşada Yuxarı Gövhər Ağa məscidini ziyarət ediblər.

Qurbanqulu Berdiməhəmmədovun diqqətinə çatdırıldı ki, vaxtilə işğal edilmiş bütün ərazilərimizdə olduğu kimi, Şuşada da tarixi abidələr, o cümlədən məscidlər dağıdılıb, təhqir edilib. Şəhərin 17 məscidindən 16-sı işğalçılar tərəfindən dağıdılmışdı. Şuşa işğaldan azad edildikdən sonra Azərbaycan Prezidentinin tapşırığı ilə dərhal məscidlərin bərpa edilməsi işinə başlanılıb. Erməni vandalizminə məruz qalan tarixi-dini abidələrdən biri də Yuxarı Gövhər Ağa məscidi olub. Heydər Əliyev Fondu tərəfindən burada həyata keçirilmiş bərpa işlərinə 2021-ci ilin sonlarından başlanıb. 2023-cü il mayın 10-da isə Prezident İlham Əliyev, birinci xanım Mehriban Əliyeva və ailə üzvlərinin iştirakı ilə məscidin əsaslı yenidənqurma və bərpadan sonra açılışı olub.

Yuxarı Gövhər Ağa məscidi ölkə əhəmiyyətli tarixi-mədəniyyət abidələri siyahısındadır.

## İlham Əliyev və Türkmənistan Xalq Məsləhətinin sədri Qurbanqulu Berdiməhəmmədov Cıdır düzündə olublar



2025-ci il iyulun 17-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Türkmənistan Xalq Məsləhətinin sədri Qurbanqulu Berdiməhəmmədov Cıdır düzündə olublar.

Burada Qarabağ atlarının təqdimatı keçirilib.

Prezident İlham Əliyev Türkmənistan Xalq Məsləhətinin sədri Qurbanqulu Berdiməhəmmədova “Dostluq” adlı Qarabağ atını hədiyyə edib.



## İlham Əliyev Ağdam şəhər 1 nömrəli tam orta məktəbin binasının açılışında iştirak edib






Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev 2025-ci il iyulun 18-də 960 şagird yerlik Ağdam şəhər 1 nömrəli tam orta məktəbin binasının açılışında iştirak edib.

Elm və təhsil naziri Emin Əmrullayev dövlətimizin başçısına məktəbdə yaradılan şərait barədə məlumat verdi.

Qeyd edək ki, bu təhsil ocağının təməli 2021-ci il mayın 28-də Prezident İlham Əliyev tərəfindən qoyulub. Bu ilin fevralında isə dövlətimizin başçısı və birinci xanım Mehriban Əliyeva burada aparılan tikinti işləri ilə tanış olublar.

Məktəbin binası "Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərinə Böyük Qayıdışa dair I Dövlət Proqramı"nın icrası çərçivəsində inşa edilib. Binada 43 sinif, 16 inzibati otaq, 7 otaqdan ibarət STEAM adlandırılan elm, texnologiya, mühəndislik, sənət və riyaziyyat mərkəzi, müasir texnoloji avadanlıqla təchiz edilmiş fizika, kimya və biologiya laboratoriyaları, informatika və çağırışaqədərki hazırlıq otaqları, kitabxana, muzey, 352 yerlik yeməkxana fəaliyyət göstərəcək. Bundan başqa, məktəbdə müxtəlif tədbirlərin keçirilməsi üçün 468 yerlik akt zalı və iki qapalı idman zalı, açıq havada futbol və basketbol meydançaları da müəllim və şagirdlərin ixtiyarına verilib.

Bu gün Qarabağda təhsil sahəsində müasir tələblərə cavab verən maddi-texniki bazanın yaradılması ən önəmli məsələlərdən biridir. Prezident İlham Əliyevin rəhbərliyi ilə işğaldan azad edilən ərazilərimizdə hazırda təhsil infrastrukturunun bərpası və bu sahənin inkişafı istiqamətində çox mühüm işlər görülür. İstifadəyə verilən Ağdam şəhər 1 nömrəli tam orta məktəb bunun daha bir nümunəsidir.

## İlham Əliyev Xocalı kərpic zavodunun açılışında iştirak edib



2025-ci il iyulun 18-də Prezident İlham Əliyev Xocalı kərpic zavodunun açılışında iştirak edib.

Bu istehsal müəssisəsi rayonun Daşbulaq kəndində inşa olunub. Layihə dəyəri 8,5 milyon manat olan müəssisədə 60 nəfər daimi işlə təmin edilib. İşçilərin əksəriyyəti işğaldan azad edilmiş rayonların sakinləridir. Gələcəkdə zavodda iş yerlərinin sayının 120-yə çatdırılması nəzərdə tutulur.

Müəssisənin illik istehsal gücü 16,2 milyon ədəd kərpic təşkil edir. Zavodda müasir alman və Türkiyə texnologiyaları,





eyni zamanda, enerji səmərəliliyinə və ətraf mühitin qorunmasına yönəlmiş texnologiyalar tətbiq olunur.

Zavod üçün əsas xammal mənbəyi Xocalı şəhərinin yaxınlığında yerləşən "Xocalı" gil yatağıdır. Müəssisənin sahəsi bir hektara yaxındır. Bundan əlavə, 6,5 hektar ərazi xammalın saxlanılması üçün ayrılıb.

Müəssisə işğaldan azad edilmiş ərazilərin rezidentlərinə təqdim olunan bütün güzəşt və azadolmalardan yararlanacaq. İşğaldan azad edilmiş ərazilərdə vergi, sosial sığorta və digər güzəştlərin tətbiqi bu ərazilərimizin iqtisadi potensialının reallaşdırılması, biznes üçün əlverişli mexanizmlərin yaradılması, məşğulluğu artıran sahibkarlıq fəaliyyətinin təşviq edilməsi kimi məsələlərdə çox mühüm rol oynayır. Bu ərazilərimizdə investor və sahibkarlar üçün əlverişli şərait yaradılır. Ümumilikdə, ölkəmizdə Prezident İlham Əliyevin rəhbərliyi ilə sənayeləşmə siyasəti sistemli və ardıcıl şəkildə aparılır. Bu məsələdə isə texnoloji modernləşmə və innovativ istehsal sahələrinin artırılması əsas prioritetlərdəndir.

## İlham Əliyev Xocalının Xanyurdu kəndində olub, sakinlərlə görüşüb

Prezident İlham Əliyev 2025-ci il iyulun 18-də Xocalının Xanyurdu kəndində olub.

Dövlətimizin başçısı kəndə köçən sakinlər Rasim Cavadovun və Kərəm Abbasovun evlərində oldu.

Qeyd edək ki, Xanyurdu kəndi Xocalı rayonunun Ballıca kənd inzibati ərazi dairəsinə daxildir. Kənddə 40 fərdi ev artıq əsaslı bərpa olunub, ilin sonunadək daha 65 fərdi evin bərpası nəzərdə tutulub, 2026-cı ildə isə 93 fərdi ev təmir və bərpa olunacaq. Bu il iyulun 14-də 33 ailə, ümumilikdə 122 nəfər doğma Xanyurdu kəndinə qayıdıb.

Hazırda kəndin sosial infrastrukturunun müasir səviyyədə qurulması üçün zəruri işlər görülür. 14 kilometr uzunluğunda 10 kV-luq elektrik xətti təmir-bərpa edilib, sayğaclaşdırma prosesinə başlanılıb, 10 kilometrdən çox uzunluğu olan təbii qaz xətti çəkilib, 4 kilometr uzunluğunda mövcud xətt bərpa olunub, artezian quyusu,





həcmi 400 kubmetr olan su anbarı və içməli su şəbəkəsi təmir edilib, 10,4 kilometr uzunluğunda rabitə xətti çəkilib, abonentlərin stasionar telefon, internet və İPTV xidmətləri ilə əhatə edilməsi təmin olunub. İki kilometrdən çox uzunluğu olan kənddaxili yollar asfaltlanıb. Ümumtəhsil müəssisəsinin binasının təmir-bərpası ilə bağlı hazırlıq işləri görülür, ambulatoriya mərkəzi və market üçün nəzərdə tutulan bina əsaslı təmir edilir. Kənddə bir hektar sahədə istirahət parkı salınıb.

Prezident İlham Əliyev Təzəbinə və Xanyurdu kəndlərinə köçən sakinlərlə görüşdü, onlarla söhbət etdi.

**Sakinlər:** Hörmətli Prezidentimiz, eşq olsun Sizə! Allah Sizi qorusun! Allah Sizin üstünüzdə yar olsun! Bizim burada olmağımızın səbəbkarı sizsiniz. Bu, Sizin gərgin əməyinizin nəticəsidir.

**Sakin:** Ürəyim Sizə qurban. Xoş gəlmisiniz!

**Prezident İlham Əliyev:** Siz də xoş gəlmisiniz.

**Sakin:** Bu günümüzə şükür, Allah xanımınızı qorusun! Allah Sizi qorusun! Bu günü bizə yaşatdığınız üçün Allah üstünüzdə yar olsun! 200 neçə illik qara buludu üstümüzdən götürdünüz. Ağlasam, məni qınamayın. Sevinc göz yaşlarıdır.

**Prezident İlham Əliyev:** Sağ olun.

**Sakin:** Sağ olun, var olun, öpürəm. Allah Sizi qorusun! Amin!

**Prezident İlham Əliyev:** Sağ olun. Siz də xoş gəlmisiniz. Artıq bir neçə gündür ki, doğma torpağınızda yerləşmisiniz, şərait də yaxşıdır. Mən bu gün həm Təzəbinə kəndində, həm də Xanyurduda şəraitlə tanış







oldum. Biz iki gözəl kəndi demək olar ki, yenidən bərpa etdik və sizin sərəncamınıza verdik.

**Sakinlər:** Çox sağ olun, minnətdarıq.

**Prezident İlham Əliyev:** Burada rahat yaşayın, xoşbəxt yaşayın, siz buna layiqsiniz. Siz uzun illər çətin şəraitdə yaşamısınız – çadır şəhərciklərində, vaqonlarda, yataqxanalarda, uşaq bağçalarında, məktəblərdə, orada-burada, çox çətin şəraitdə. Amma inamınızı itirməmisiniz. İnanırdınız ki, doğma Vətənə qayıdacaqsınız. O gün də gəldi. İndi də belə gözəl, mənzərəli, səfalı yerlərdə yaşayırsınız və bu onu göstərir ki, ədalət hər zaman zəfər çalmalıdır. Amma ədaləti təmin etmək üçün gərək gücün və yumruğun olsun.

**Sakin:** Cənab Prezident, Allah Sizə qüvvət versin! Sizin gərgin əməyiniz öz yerində. Sinəsini düşmən gülləsinə sipər edən şəhidlərimizə Allah rəhmət eləsin, qazilərimizin canını sağ eləsin.

**Prezident İlham Əliyev:** Amin.

**Sakin:** Allah Sizi, xanımınızı qorusun. Var olun. Bu gün Sizinlə burada üz-üzə durmaqdan qiymətli heç nə yoxdur.

**Prezident İlham Əliyev:** Sağ olun.

**Sakin:** Cənab Prezident, bir dəqiqə olar?

**Prezident İlham Əliyev:** Bəli, buyur.

**Sakin:** Səhər-səhər mən evdən çıxanda, bağışlayın, bizim xanım dedi: Kişi, ən xoşbəxt insansan ki, bu gün Prezidentlə görüşəcəksən. Allah haqqı, elə belə də dedi.

**Prezident İlham Əliyev:** Sağ olun. Bütün qohumlara, ailə üzvlərinə salam yetirin. İndi siz buraya birinci köçənlərdənsiniz, amma bunun ardı gəlir. Bir, bəlkə də bir neçə aydan sonra burada, hər iki kənddə yəqin ki, minlərlə insan yaşayacaq. Dövlət bütün şəraiti yaradıb - evlər, həyətyanı sahələr, içməli su, təbii qaz, elektrik. Yəni, yenə də deyirəm, siz buna layiqsiniz.

**Sakin:** Maşallah, hər şey yüksək səviyyədədir.

**Prezident İlham Əliyev:** Çünki ən ağır vəziyyətdə yaşayanlar siz olmusunuz. Bütün bu otuz il ərzində yenə də, necə deyərlər, öz iradənizi göstərərək inanırdınız ki, bu tarixi gün gələcək və biz bu torpaqlara qayıdacağıq və qayıtmışıq. Həm 2020-ci ilin Vətən müharibəsi, həm də 2023-cü ilin antiterror əməliyyatı bizim şanlı qələbələrimizdir. Allah şəhidlərimizə rəhmət eləsin. Bundan sonra biz burada əbədi yaşayacağıq.

Daha heç kim bizi bu yerlərdən çıxara bilməz.

**Sakin:** O günlər dalda qaldı.

**Prezident İlham Əliyev:** O, qaldı.

**Sakin:** Ulu Öndərə də Allah qəni-qəni rəhmət eləsin ki, bizi Sizə tapşırıb.

**Digər sakin:** Ali Baş Komandanımızı Allah var eləsin, həmişə ucalarda olsun!

**Prezident İlham Əliyev:** Sağ olun. Təbrik edirəm, təbriklər. Harada yaşamısınız işğal dövründə?

**Sakin:** Pirşağı qəsəbəsində.

**Prezident İlham Əliyev:** Pirşağıda, sanatoriyada.

**Sakin:** Siz gəlmişdiniz oraya.

**Prezident İlham Əliyev:** Bəli. Orada şərait də çox ağır idi, çətin idi.

**Sakin:** Şükür bugünkü günümüzə.

**Digər sakin:** O vaxt mənim oğlum dağda şəhid oldu.

**Prezident İlham Əliyev:** Allah rəhmət eləsin.

**Sakin:** Sağ olun.



**Prezident İlham Əliyev:** Sizi təbrik edirəm. İndi burada xoşbəxt yaşayın. Allah sizi də qorusun, uşaqlarınızı da.

**Qadın sakin:** Mehriban xanıma salamlarımızı çatdırın, "Dəmir yumruğ"a güvənirik. Təşəkkür edirik.

**Prezident İlham Əliyev:** Mütləq söyləyəcəyəm. Onun da sizə salamı var.

**Digər qadın sakin:** Şəhid bacısıyam. Sizə çox minnətdarıq.

**Prezident İlham Əliyev:** Sağ olun.

**Digər qadın sakin:** Çox sağ olun, var olun. Allah Sizi var eləsin, Allah dövlətimizi qorusun.

**Prezident İlham Əliyev:** Sağ olun, bir daha təbrik edirəm.

**Sakin:** Çox sağ olun, cənab Prezident, bu yumruğunuz həmişə düşmənlərin üstündə olsun. Allah Sizdən razı olsun, Allah Sizi qorusun. Sizi dövlətimizin üstündən əskik etməsin.

**Prezident İlham Əliyev:** Sağ olun.

**Sakinlər:** Sağ olun, tez-tez gəlin.



# İlham Əliyevin Amerika Birləşmiş Ştatlarına işgüzar səfəri





Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Amerika Birləşmiş Ştatlarının (ABŞ) Prezidenti Donald Trampın dəvəti ilə Vaşinqtona işgüzar səfərə gəlib.

Dövlətimizin başçısını “Joint Base Andrews” hərbi hava bazasında rəsmi şəxslər qarşılayıblar.

## Vaşinqtonda Azərbaycan Prezidenti İlham Əliyevin ABŞ Prezidentinin xüsusi elçisi Stiv Uitkoff ilə görüşü olub



2025-ci il avqustun 7-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Vaşinqtonda ABŞ Prezidentinin xüsusi elçisi Stiv Uitkoff ilə görüşüb.

Əvvəlcə dövlətimizin başçısı İlham Əliyevin və ABŞ Prezidentinin xüsusi elçisi Stiv Uitkoffun iştirakı ilə SOCAR-la “ExxonMobil” şirkəti arasında “Əməkdaşlıq haqqında Memorandum” imzalanıb.

Sənədi Azərbaycan Respublikasının iqtisadiyyat naziri Mikayıl Cabbarov və “ExxonMobil” şirkətinin vitse-prezidenti Con Ardill imzalayıblar.

Sonra dövlətimizin başçısı İlham Əliyev ilə ABŞ Prezidentinin xüsusi elçisi Stiv Uitkoffun görüşü olub.

Görüşdə Prezident İlham Əliyevin ABŞ Prezidenti Donald Trampın dəvəti ilə Vaşinqtona işgüzar səfərinin ikitərəfli münasibətlərimizin gündəliyinin və regional məsələlərin müzakirəsi üçün yaxşı fürsət yaratdığı bildirildi.

Söhbət zamanı Azərbaycan Respublikası ilə Amerika Birləşmiş Ştatlarının strateji müstəvidə əməkdaşlığının inkişaf perspektivləri, Ermənistanla Azərbaycan arasında normallaşma prosesi və regiondakı sülh gündəliyinə dair fikir mübadiləsi aparıldı.

## İlham Əliyev Ağ Evə gəldi




2025-ci il avqustun 8-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Ağ Evə gəldi.

Amerika Birləşmiş Ştatlarının Prezidenti Donald Tramp dövlətimizin başçısını qarşıladı.

Ağ Evdə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Amerika Birləşmiş Ştatlarının Prezidenti Donald Tramp ilə görüşü oldu.

Sonra Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Amerika Birləşmiş Ştatlarının Prezidenti Donald Tramp Azərbaycan Respublikası ilə Amerika Birləşmiş Ştatları arasında Strateji Tərəfdaşlıq Xartiyasının hazırlanması məqsədilə Strateji İşçi Qrupunun yaradılması haqqında Azərbaycan Respublikası Hökuməti və Amerika Birləşmiş Ştatları Hökuməti arasında Anlaşma Memorandumunu imzaladılar.






## Azərbaycanın və ABŞ-ın prezidentləri, Ermənistanın Baş naziri Ağ Evdə mətbuata bəyanatla çıxış ediblər



Amerika Birləşmiş Ştatlarının Prezidenti Donald Tramp, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Ermənistan Respublikasının Baş naziri Nikol Paşinyan avqustun 8-də Ağ Evdə mətbuata bəyanatla çıxış ediblər.

Əvvəlcə ABŞ Prezidenti mətbuata bəyanatla çıxış etdi.

### Prezident Donald Trampın bəyanatı



– Bu ölkələr uzun illər ərzində – 35 il müharibə şəraitində olublar. İndi isə onlar dostdur və bundan sonra uzun müddət dost qalacaqlar. Bu gün Ağ Evdə Ermənistan ilə Azərbaycan arasında sülh sammitində hər kəsi qəbul etməkdən böyük şərəf duyuram. Mən böyük insanların bir araya toplanmasından böyük zövq alıram və burada məhz bu baş verir. İki uzaqgörən lider – Prezident Əliyev və Baş nazir Paşinyanı Vaşinqtona səfər edərək bu mühüm bəyannamənin imzalanması münasibətilə təbrik edirəm. Bu, çox vacib bir sənəddir. Mənə bildirildi ki, keçmişdə tərəflər dəfələrlə buna nail olmağı mümkün hesab ediblər, lakin bu baş verməyib. Mən, həmçinin Dövlət katibi Marko Rubio, xüsusi elçi Stiven Uitkoff və Dövlət Departamentində çalışan heyətlərə təşəkkürümü bildirmək istərdim. Eyni zamanda, sizin ölkələrdən də burada dövlət rəsmiləri var və onlar da bu işlərə böyük diplomatik dəstək veriblər.

Ermənistan və Azərbaycan 35 ildən artıq müharibə şəraitində olub. Bu münaqişə uzun illər ərzində insanlara əziyyət və məhrumiyyət gətirmişdir. Bir çox ölkələr, həmçinin Avropa İttifaqı, Rusiya bunun üzərində

gərgin çalışıb, lakin buna nail ola bilməyib. Ayaq üstə yuxulayan Co Bayden də bu məsələ ilə məşğul olmağa çalışıb, ancaq nəticəsi necə olub bəllidir. O, yəqin ki, bu işə 12 dəqiqə vaxt sərf edib.

Bu razılaşma ilə biz sülhü təmin etməyə müvəffəq olmuşuq. Biz bir az əvvəl oval ofisdə bu sazişə aid olan çoxsaylı sənədləri və vacib elementləri imzaladıq. Ermənistan ilə Azərbaycan kommersiya və səyahət əlaqələrinin qurulmasına, diplomatik münasibətlərin yaradılmasına sadiqliyini vurğulayır, bir-birinin ərazi bütövlüyünə və suverenliyinə hörmət bəslədiyini bəyan edir. Bu iki şəxs o qədər də tez-tez görüşmürdü, ancaq bundan sonra aralarında gözəl münasibətlər olacaq. Mənim üçün böyük şərəf doğuran məqam bu bəyanatda TRIPP, yəni, "Trampın Beynəlxalq Sülh və Rifah Marşrutu"nun öz əksini tapmasıdır. Bu xüsusi tranzit ərazi vasitəsilə Azərbaycan Ermənistanın suverenliyinə qəti şəkildə hörmət çərçivəsində özünün Naxçıvan bölgəsinə tam çıxış əldə edəcək. Yəni, bunun nəticəsində hər iki tərəf üçün xüsusi əhəmiyyət daşıyan bu ərazidə birgə əməkdaşlıq mümkün olacaq.

Ermənistan ABŞ-la birlikdə bu dəhlizin inkişafı ilə bağlı xüsusi tərəfdaşlıq yaradır. Bu tərəfdaşlıq 99 illik olacaq və bizə vəd verilib ki, bu müddət uzadıla bilər. Bəli, siz bizə söz verdiniz. Orada Amerika infrastruktur şirkətlərinin böyük layihələrlə məşğul olacağını gözləyirik. Onlar bu iki ölkədə çalışmağı arzulayır və bu işlərə böyük maliyyə vəsaiti ayıracaqlar. Bu, üç ölkəyə iqtisadi səmərə gətirəcək və vacib bir region üçün çox əhəmiyyətli xəbərdir.

Bununla yanaşı, ABŞ hər iki ölkə ilə enerji, ticarət, texnologiya sahələrində əməkdaşlığın genişləndirilməsinə dair ikitərəfli sazişlər imzalayır. O cümlədən süni intellekt sahəsində. Enerji sahəsinə gəldikdə, burada ölkəmizi energetika naziri Kris Rayt təmsil edir və o, bu işi hər kəsdən gözəl bilir. Onun mənə verdiyi məlumata görə, bu sahə münbitdir və görüləcək işlər var. Mən onun fəaliyyətini yüksək qiymətləndirirəm və ölkədə benzinin qiymətinin ciddi ucuzlaşmasında onun böyük əməyi var. Biz, həmçinin bəlkə tarixdə heç vaxt olmadığı qədər neft və qaz quyuları qazırıq və bu, hələ başlanğıcdır.

Biz, həmçinin müdafiə sahəsində Azərbaycan ilə Amerika Birləşmiş Ştatları arasında əməkdaşlığa olan məhdudiyyəti aradan qaldırırıq. Bu, həm Sizin və həm də mənim üçün əhəmiyyətli məsələdir. Bir Prezident olaraq mənim ən böyük istəyim dünyada sülhün və sabitliyin bərqərar edilməsidir.

İndi isə sözü Azərbaycan Prezidentinə vermək istərdim.

***

Azərbaycan Prezidenti mətbuata bəyanatla çıxış etdi.

**Prezident İlham Əliyevin bəyanatı**



– Təşəkkür edirəm cənab Prezident. ABŞ Prezidenti tərəfindən bu tarixi tədbirə dəvət edilməyimdən şərəf duyuram. Birincisi, bu gün biz Azərbaycan ilə ABŞ arasında ikitərəfli, dövlətlərarası münasibətlərimizdə yeni tarix yazırıq. Biz strateji tərəfdaşlıq yoluna qədəm qoyuruq və bir neçə ay ərzində Strateji Tərəfdaşlıq Xartiyası işlənib hazırlanacaq. Bu isə Azərbaycan üçün tarixi nailiyyətdir. Çünki dünyanın ən qüdrətli ölkəsi ilə strateji tərəfdaşlıq münasibətlərinə malik olmaq həm fürsətdir, həm də məsuliyyət. Bu strateji tərəfdaşlıq formatı bir çox vacib sahələri əhatə edir - qarşılıqlı sərmayə, ticarət, enerji, bağlılıq, tranzit, süni intellekt, müdafiə sahəsində kontraktlar və terrorizmlə mübarizə. Bu günədək bu sahələrdə əməkdaşlığımız olub və ümid edirəm ki, gələcəkdə də fəal əməkdaşlığımız olacaqdır. Bu, Azərbaycan üçün inkişaf yolunda iqtisadiyyatın şaxələndirilməsi, bu gün olduğu kimi, işsizliyin aşağı səviyyədə saxlanılması və gələcəyə böyük nikbinliklə baxmaq üçün yeni imkanlar yaradır.

Həmçinin cənab Prezidentə məhdudiyyətlərin aradan qaldırılmasına görə təşəkkürümü bildirirəm. Azərbaycana qarşı həmin məhdudiyyətlər 1992-ci ildə - müstəqilliyinin bərpasından bir il sonra tətbiq edilib. Bizə qarşı tətbiq edilmiş bu məhdudiyyət 33 ildən sonra bu gün aradan qaldırıldı. Həqiqətən bu gün Azərbaycan xalqının yaddaşına həm qürur, həm də Prezident Trampa minnətdarlıq hissi ilə həkk olunacaq. Onun



həm Azərbaycana olan münasibəti və təkcə bizim regionumuz deyil, - bu gün mən bunu fikir mübadiləmizdə qeyd etdim, - cəmi bir neçə ay ərzində Prezident Tramp Afrikada, Asiyada və nəhayət, Cənubi Qafqazda 30 il ərzində əldə oluna bilinməyəni təmin etdi. Biz insanların qurban verilməsi, böyük itkilər ilə nəticələnən iki çox ağır müharibə aparmalı olduq. Prezident Tramp və onun komandası, bizim yaxşı dostumuz Stiven Uitkoff olmasaydı, Ermənistan və Azərbaycan yəqin ki, hələ də sonsuz danışıqlar prosesində idilər.

Bu, həqiqətən tarixi gündür – biz Qafqazda sülhü bərqərar edirik və bu fürsət təkcə bizim regionla məhdudlaşmayacaq. Prezident Trampın düzgün qeyd etdiyi kimi, "Trampın Beynəlxalq Sülh və Rifah Marşrutu" yeni bağlantı əlaqələri yaradacaq, sədləri aradan qaldıracaq və sərmayələr, firavanlıq, sabitlik sayəsində çoxsaylı ölkələr üçün bağlantı imkanları yaradacaq. Azərbaycan və Ermənistan Sovet İttifaqının süqutu nəticəsində eyni vaxtda müstəqillik əldə edib. Ancaq artıq o vaxt biz müharibə şəraitində idik. Biz müharibələrə, işğal dövrünə və qan tökülməsinə uzun illər sərf etdik. Bu gün tarixi gündür, çünki biz sülhü bərqərar edirik. Prezident Tramp Qafqaza sülh gətirir və biz buna görə ona minnətdarıq. Əminəm ki, Ermənistan ilə Azərbaycan sülhün əldə olunması üçün özlərində cəsarət və məsuliyyət tapacaq, xalqlarımız da barışacaqlar. Biz qarşıdurma və qan tökülməsi səhifəsini çevirəcəyik, uşaqlarımız üçün işıqlı və təhlükəsiz gələcək təmin edəcəyik. Mən çox şadam ki, biz bu gün yeni, gözəl tarix yazırıq.

Cənab Prezident, ölkələrimiz, regionumuz və bütün dünya üçün gördüyünüz işlərə görə bir daha təşəkkür edirəm.

**Prezident Donald Tramp:** Hər iki şəxs böyük liderdir. Siz neçə ildir ölkənizdə rəhbər vəzifədə çalışırsınız?

**Prezident İlham Əliyev:** 22 ildir.

**Prezident Donald Tramp:** 22 il. Bu o deməkdir ki, Siz güclü və ağıllı insansınız, regionunuz dünyanın gözəl bölgəsidir. Bu işdə iştirak etmək mənim üçün böyük şərəfdir.

Söz verilir Ermənistanın Baş naziri Nikol Paşinyana.

***

Ermənistanın Baş naziri bəyanatla çıxış etdi.

**Baş nazir Nikol Paşinyanın bəyanatı**

– Təşəkkür edirəm, cənab Prezident.

Xanımlar və cənablar. Bu gün biz Ermənistan-Azərbaycan münasibətlərində mühüm nailiyyət əldə etdik. Biz keçmiş tariximizdən fərqli olacaq yeni hekayənin təməlini qoyuruq. Bu sıçrayış Prezident Trampın şəxsi iştirakı və regionumuzda sülhün bərqərar edilməsinə güclü sadiqliyi olmadan mümkün deyildi. Sülh sazişinin paraflanması ölkələrimiz arasında onilliklərdir davam edən münaqişəyə son qoyulmasına yol açacaq, onlar üçün bir-birinin suverenliyinə və ərazi bütövlüyünə tam hörmətlə yanaşaraq, yeni dövrü başladacaq. Bu gün Prezident Trampın şahidliyi ilə onun da imzaladığı bəyannamə daha çox əminlik və inam yaradır ki, biz Cənubi Qafqazda sülh, rifah, təhlükəsizlik və iqtisadi əməkdaşlıq səhifəsini açırıq. Bu baxımdan, icazə verin, suverenlik, ərazi bütövlüyü və yurisdiksiya prinsipləri əsasında regionda nəqliyyat yollarının açılmasına dair razılaşmanı qeyd edim. Mən çox məmnunam ki, bütöv bir bölgənin imkanlarını təmin edəcək bağlantılar layihəsi sayılan "Trampın Beynəlxalq Sülh və Rifah Marşrutu"nun qurulması üçün Ermənistan ABŞ-la birgə işləyəcək.

TRIPP yolu uzunmüddətli fayda gətirəcək strateji iqtisadi imkanlar açacaq. Onun sayəsində infrastruktura sərmayələr, daha geniş regional bağlantılar təşviq olunacaq, münaqişənin həllində carçı kimi tanınan ABŞ

rəhbərliyi ilə əməkdaşlıq güclənəcək. Mən Ermənistan ilə Azərbaycan arasında vəziyyəti tam dəyişən nəticələrin əldə olunmasına görə Prezident Trampa və onun heyətinə təşəkkürümü bildirmək istəyirəm.

Bu gün əldə etdiyimiz razılaşma çox əhəmiyyətlidir. Bu, ölkələrimiz və regionumuz üçün uğurdur, dünya üçün uğurdur. Çünki daha dinc region daha təhlükəsiz dünya deməkdir. Bu, qısaca desək, gücə əsaslanan sülh deməkdir. Cənab Prezident, bu gün əldə olunan böyük nailiyyət qlobal rəhbərliyinizin daha bir təzahürüdür və sizin dünya miqyasında sülh yaradan insan və dövlət xadimi kimi irsinizdir.

Sülhün bərqərar olunması uzaqgörənlik, siyasi cəsarət və qətiyyət tələb edir. Lakin ən vacibi odur ki, o, bu işlərə inamı tələb edir. "İncil"də yazıldığı kimi, "sülh yaradanlar xoşbəxtdirlər, çünki onlar Allahın oğulları adlandırılacaqlar. Tanrı onların yolunu açıq etsin".









Təşəkkür edirəm və hamımızı təbrik edirəm. Prezident Əliyev, Sizi və hamımızı, Azərbaycan, Ermənistan və ABŞ-dan olan həmkarları, regionumuzun bütün xalqlarını, ölkələrimizin bütün insanlarını təbrik edirəm.

Hamıya təbriklərimi çatdırıram, çünki dediyim kimi, bununla birmənalı olaraq daha yaxşı dünya qurulacaq. Sağ olun.

**Prezident Donald Tramp:** Əla. Sağ olun.

***

Sonra Amerika Birləşmiş Ştatlarının Prezidenti, Azərbaycan Respublikasının Prezidenti və Ermənistan Respublikasının Baş naziri "Trampın Beynəlxalq Sülh və Rifah Marşrutu" Sammitinin nəticələri ilə bağlı birgə bəyannaməni imzaladılar.

***

**Prezident Donald Tramp:** Bu, həqiqətən böyük nailiyyətdir və sizləri təbrik edirəm. Siz iki inanılmaz lidersiniz. Adınız tarixə düşəcək. Mən münaqişənin nə qədər uzun çəkdiyini oxudum. Siz bundan keçmisiniz. Bəzi insanlar gözləntilərinizi doğrultmayıb və sair. Bəlkə siz kimisə qane etməmisiniz. Bilmirəm bunlar sizdə necə olub. Lakin adətən işlər bu cür gedir. Lakin həmin məsələ çox, çox xüsusidir. Beləliklə, mən, ümumiyyətlə, həmin məsələnin ortasında qalmaq istəməzdim, lakin bəzi suallar veriləcək. Həmin məsələyə aid suallar olacaq. Bu gün ərzində biz digər məsələləri də elan edəcəyik.

***

Sonra suallar cavablandırıldı.

**Sual:** Qarabağ ermənilərinə qayıtmaq imkanı veriləcəkmi? Həmçinin Prezident Trampa Nobel Sülh Mükafatının verilməsi barədə aparılan söhbətlərə münasibətiniz necədir?

**Baş nazir Nikol Paşinyan:** Düşünürəm ki, Prezident Tramp Nobel Sülh Mükafatına layiqdir. Biz onun namizədliyini dəstəkləyəcəyik və təşviq edəcəyik. Təbii haldır. Bir sözlə, düşünürəm ki, bu gün keçirilən tədbir onun bariz nümunəsidir. Ümidvarıq ki, siz bizi dəvət edəcəksiniz.

**Prezident Donald Tramp:** Bəli. Siz ön cərgədə oturacaqsınız.

**Baş nazir Nikol Paşinyan:** Bəli. Bəli.

**Prezident Donald Tramp:** Çox sağ olun.

**Baş nazir Nikol Paşinyan:** Biz lehinəyik.

**Prezident Donald Tramp:** Çox sağ olun.

**Prezident İlham Əliyev:** Olar bir təklif verim?

**Donald Tramp:** Bəli.

**Prezident İlham Əliyev:** Bəlkə Prezident Trampa Nobel Sülh Mükafatının verilməsi məqsədilə Nobel Komitəsinə birgə müraciətin göndərilməsində Baş nazir Paşinyanla razılaşaq. Çünki üç onillikdən artıq müharibədə olmuş ölkələrin rəhbərlərinin burada tarixi imza atmaları həqiqətən böyük əhəmiyyət kəsb edir. Bu, Prezident Trampın rəhbərlik səylərinin nəzərəçarpan nəticəsidir. Heç kəs buna nail ola bilməyib. 1990-cı illərin əvvəlindən burada çox prezidentlər olub, Minsk qrupu olub. Yeri gəlmişkən, 1992-ci ildə fəaliyyətə başlamış həmin qrupa bu gün biz erməni həmkarımla son qoyuruq. ATƏT-in vasitəçiliyi ilə aparılan danışıqlar üç onillikdən çox çəkdi və heç bir nəticə vermədi.



Bəs əgər Nobel Sülh Mükafatı Prezident Trampa verilməsə, kimə verilməlidir? Mən heç bir iş görməmiş, lakin mükafat almış şəxslərlə bağlı Nobel Sülh Mükafatının çox müəmmalı qərarlarının tarixinə varmaq istəməzdim. Lakin Prezident Tramp altı ay ərzində möcüzə yaratdı. Bir sözlə, düşünürəm ki, erməni həmkarım da dəstəkləyəcək. Auditoriyanın reaksiyasından hesab edirəm ki, biz qayıdan kimi birgə məktubun hazırlanması üzərində razılığa gələcəyik.

Ümid edirəm ki, mən, həmçinin Prezidentin mükafatlandırma mərasiminə qoşulacağam. Ümidvarıq ki, o, bizi mərasimə dəvət edəcək.

**Prezident Donald Tramp:** Sağ olun. Siz təbii ki, olacaqsınız. Çox sağ olun.

**Baş nazir Nikol Paşinyan:** İndi imzalamaq üçün layihəmiz varmı?

**Prezident Donald Tramp:** Baxarıq, necə olacaq.

**Prezident İlham Əliyev:** Biz imzalamaq istərdik.

**Prezident Donald Tramp:** Çox sağ olun. Çox yaxşı. Bilirsiniz, burada və orada hər zaman kiçik problemlər olur, elə deyilmi? Böyük problemlər həll olunub. Ən böyüklər artıq geridə qaldı.

**Prezident İlham Əliyev:** İlk növbədə, qeyd etmək istərdim ki, bu gün biz artıq neçə vaxtdır danışıqlar prosesində olan sülh sazişini parafladıq. Onun burada, dünyanın bir nömrəli paytaxtında, dünyanın bir nömrəli ofisində və Birləşmiş Ştatların hörmətli Prezidenti qarşısında paraflanması faktı göstərir ki, tərəflərdən heç biri geri çəkilməyəcək. Bununla bağlı heç bir şübhə yoxdur.

Əgər bizlərdən kimsə, Baş nazir Paşinyan və ya mənim özüm geriyə çəkilmək istəsəydik, buraya gəlməzdik. Beləliklə, Siz, eləcə də Azərbaycan ictimaiyyəti tam əmin ola bilər ki, bu gün baş verən hadisə Qafqaza sülh, uzunmüddətli sülh, əbədi sülh gətirəcək.



**Prezident Donald Tramp:** Həqiqətən, çox əla bəyanatdır.

**Baş nazir Nikol Paşinyan:** Üzr istəyirəm, tam razıyam. Heç bir əlavəm də yoxdur.

**Prezident Donald Tramp:** İki əla bəyanatdır, bununla belə, əla hazırlanmış bəyanatdır. Oldu. Gəlin, bir neçə sual da dinləyək. Buyurun.

**Sual:** Cənab Prezident, Cənubi Qafqazda bir çoxları Amerikanın Azərbaycanla ikitərəfli münasibətlərdə olan maneələrin və dünyanın həmin hissəsindəki sülhün olmamasının günahını Sizin sələfiniz Co Bayden və onun Dövlət katibi Antoni Blinkenin üzərinə qoyur. Ölkənizin və administrasiyanızın Azərbaycan və Ermənistanla tərəfdaşlığının gücləndirilməsi Sizin üçün nə dərəcədə əhəmiyyətlidir? Bu, Sizin irsiniz üçün nə kimi əhəmiyyət kəsb edir?

**Prezident Donald Tramp:** Bəli, mənim üçün əhəmiyyətlidir. Bilirsiniz, keçmişdə nəyin baş verdiyini bilirəm, çünki çox oxumuşam və onlar arasında uzun müddət çox ağır münasibətlər olub. Yəni, müharibə olub. Bir çox dövrlərdə müharibə olub. Amma işlər düzəlir və ona görə onlar əla insanlardır.

Mən Ermənistandan çox insanı tanıyıram. Hər iki ölkədən çox insanı tanıyıram və onlar inanılmaz şəxslərdir. Baş vermiş hadisələr gərək olmayaydı. Arzu edirdim ki, burada daha tez olum. Əgər seçkilər başqa cür keçsəydi, bu gün hər şey əla olardı. Mən ziddiyyətli danışmaq istəmirəm, lakin qeyd edirəm ki, seçkilər saxtalaşdırılmışdı.

Məsələni dörd il tez həll edə bilərdim. Lakin həqiqət göz qarşısındadır. Əgər seçkilər saxtalaşdırılmasaydı, mən burada dörd il əvvəl olardım. Biz həmin müqaviləni dörd il əvvəl imzalaya bilərdik. Lakin bu, baş vermədi. Bayden administrasiyası həqiqətən çox az iş gördü, əslində, heç nə etmədi. Bu iş üçün heç nə etmədilər. Mənim solumda və sağımda iki çox ağıllı insan əyləşib. Onlarla tanış oldum, onlar çox ağıllı insanlardır. Düşünmürəm ki, onlar nə vaxtsa məni məyus etsinlər. Onlar müəyyən işlərə görə mənə zəng edə bilərlər. İndi mən onları sınaqdan keçirəcəyəm və onlar mənə zəng edəcəklər, çünki bunu sevirlər. Lakin onlar hər hansı problem yaratmayacaqlar.

Bizim çox əhatəli sazişimiz var. Bu, sülh sazişidir, atəşkəs deyil. Bu, elə bir məsələ deyil ki, sonraya saxlayaq. Bu, sülh sazişidir və onlar bir-biri ilə çoxlu işgüzar əlaqələr yaradacaqlar. Onlar Birləşmiş Ştatlarla iş quracaqlar və mən isə hər zaman, ən azı burada olduğum zaman onların nə dərəcədə ağıllı, nə dərəcədə yaxşı insan olduqlarını xatırlayacağam.

Ticarət və digər məsələlərə gəldikdə, biz hər zaman 100 faiz dərəcəsində işləyirik. Biz onlara yaxşı olması üçün öz yolumuzla gedəcəyik. Onlar çox yaxşı iş gördülər və çox cəsarət göstərdilər. Onlar dünyanın çox mürəkkəb, olduqca çətin bölgəsindən gəliblər. Bu, dünyanın çox çətin, lakin mühüm hissəsidir. Onlar ağıllı, lakin məğrur insanlardır. Bilirsiniz, onların böyük enerji sərvətləri var. Mən Kris ilə söhbət etdim və o dedi ki, onların sərvəti çox böyükdür. Lakin sərvət hər zaman problemləri həll etmir. Başqa məsələlər tələb olunur. Onlar çox xoş təəssürat bağışlayan iki liderdir və onlarla işləmək şərəfdir.

Mən həyatları xilas etmək istəyirəm. İnsan həyatını xilas etməkdən məmnun oluram. Bu belədir! Bilirsiniz, insan həyatını xilas etdiyin təqdirdə, dinc, sülhsevər dünya yaranır. Adətən, bu, kifayət qədər yaxşı nəticə verir. Mən hər kəsə, xüsusən də bu gün addım atmağa cəsarətli olmuş iki böyük liderə təşəkkürümü bildirirəm. Onlar tarix kitablarına düşəcəklər. Burada iştirak etmək böyük şərəfdir.

Çox sağ olun.

## Azərbaycan Prezidentinin və Ermənistanın Baş nazirinin Vaşinqton şəhərində keçirilmiş görüşünə dair Birgə Bəyannamə imzalanıb



2025-ci il avqustun 8-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev, Amerika Birləşmiş Ştatlarının Prezidenti Donald Tramp və Ermənistan Respublikasının Baş naziri Nikol Paşinyan Azərbaycan Respublikasının Prezidentinin və Ermənistan Respublikasının Baş nazirinin Amerika Birləşmiş Ştatlarının Vaşinqton şəhərində keçirilmiş görüşünə dair Birgə Bəyannaməni imzaladılar.



**Azərbaycan Respublikasının Prezidenti və Ermənistan Respublikasının Baş nazirinin Amerika Birləşmiş Ştatlarının Vaşinqton şəhərində keçirilmiş görüşünün nəticələrinə dair**

## BİRGƏ BƏYANNAMƏ

Biz, Azərbaycan Respublikasının Prezidenti və Ermənistan Respublikasının Baş Naziri 8 avqust 2025-ci il tarixində Amerika Birləşmiş Ştatlarının Vaşinqton şəhərində görüşərək, aşağıdakıları bəyan edirik:

1. Biz və Amerika Birləşmiş Ştatlarının Prezidenti Donald Tramp "Azərbaycan Respublikası və Ermənistan Respublikası arasında sülhün və dövlətlərarası münasibətlərin təsis olunması haqqında Saziş"in razılaşdırılmış mətninin tərəflərin xarici işlər nazirləri tərəfindən paraflanmasına şahidlik etdik. Bu kontekstdə, biz Sazişin imzalanması və yekun olaraq ratifikasiyası üçün əlavə tədbirlərin görülməsinin davam etdirilməsinə ehtiyac olduğunu qəbul etdik və ölkələrimiz arasında sülhün təmin edilməsi və gücləndirilməsinin vacibliyini vurğuladıq;

2. Biz, həmçinin Avropada Təhlükəsizlik və Əməkdaşlıq Təşkilatının (ATƏT) Minsk Prosesi və onunla əlaqəli strukturlarının bağlanmasına dair Azərbaycan Respublikasının xarici işlər naziri və Ermənistan Respublikasının xarici işlər naziri tərəfindən ATƏT-ə birgə müraciətin imzalanmasına şahidlik etdik. Biz ATƏT-in bütün iştirakçı dövlətlərini bu qərarı qəbul etməyə çağırırıq;

3. Biz regionda və onun qonşuluğunda dövlətlərin suverenliyi, ərazi bütövlüyü və yurisdiksiyasına hörmət əsasında sülhün, sabitliyin və rifahın təşviqi üçün iki ölkə arasında ölkədaxili, ikitərəfli və beynəlxalq nəqliyyatın təmini məqsədilə kommunikasiyaların açılmasının əhəmiyyətini bir daha təsdiq etdik. Bu səylər Azərbaycan Respublikasının əsas hissəsi və onun Naxçıvan Muxtar Respublikası arasında maneəsiz bağlantını və Ermənistan Respublikası üçün beynəlxalq və ölkədaxili bağlantılar üzrə qarşılıqlı faydaları ehtiva edir;

4. Ermənistan Respublikası Ermənistan Respublikasının ərazisində "Beynəlxalq Sülh və Rifah naminə Tramp Marşrutu" (TRIPP) bağlantı layihəsi üçün çərçivənin müəyyən edilməsi məqsədilə Amerika Birləşmiş Ştatları və qarşılıqlı müəyyən edilmiş üçüncü tərəflər ilə əməkdaşlıq edəcəkdir. Biz bu məqsədə ən qısa zamanda nail olmaq üçün xoş niyyətlə səy göstərməyə dair qətiyyətimizi təsdiq edirik;

5. Biz BMT Nizamnaməsi və 1991-ci il Almatı Bəyannaməsinə uyğun olaraq, keçmiş münaqişənin əsiri olmayan parlaq gələcək yoluna qədəm qoyulmasına olan ehtiyacı qəbul edirik. Dərin insan iztirablarına səbəb olmuş münaqişədən sonra nəhayət ki, beynəlxalq sərhədlərin toxunulmazlığı və ərazi əldə olunması üçün güc tətbiq etmənin yolverilməzliyi əsasında dövlətlərimizin qonşuluq münasibətlərinin qurulmasına başlaması üçün şərtlər yaradılmışdır. Yenidən təftiş mövzusu olmayan və heç bir zaman olmayacaq bu reallıq dövlətlərimiz arasında düşmənçilik səhifəsinin bağlanmasına yol açır. Biz indi və gələcəkdə hər hansı bir qisas cəhdini qətiyyətlə rədd edir və istisna edirik;

6. Biz bu Zirvə görüşünün regionda qarşılıqlı hörmət və sülhün irəlilədilməsi üçün möhkəm təməl təşkil edəcəyinə əminliyimizi ifadə edirik;

7. Biz bu vacib Zirvə görüşünə ev sahibliyi çərçivəsində səmimi qonaqpərvərliyə və Azərbaycan Respublikası ilə Ermənistan Respublikası arasında ikitərəfli əlaqələrin normallaşdırılmasının irəlilədilməsinə vacib töhfələrinə görə Amerika Birləşmiş Ştatlarının Prezidenti Donald Trampa dərin minnətdarlığımızı ifadə edirik.

Bu Bəyannamə 8 avqust 2025-ci il tarixində Amerika Birləşmiş Ştatlarının Vaşinqton şəhərində imzalanmışdır.

**İlham ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

**Nikol PAŞİNYAN**
**Ermənistan Respublikasının Baş naziri**

*Şahidlik etdi:*
**Donald Tramp**
**Amerika Birləşmiş Ştatlarının Prezidenti**

## Vaşinqtonda Azərbaycan Respublikası Hökuməti ilə Amerika Birləşmiş Ştatları Hökuməti arasında Anlaşma Memorandumu imzalanıb

2025-ci il avqustun 8-də Vaşinqtonda Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Amerika Birləşmiş Ştatlarının Prezidenti Donald Tramp Azərbaycan Respublikası ilə Amerika Birləşmiş Ştatları arasında Strateji Tərəfdaşlıq Xartiyasının hazırlanması məqsədilə Strateji İşçi Qrupunun yaradılması haqqında Azərbaycan Respublikası Hökuməti və Amerika Birləşmiş Ştatları Hökuməti arasında Anlaşma Memorandumunu imzaladılar.





Sonra dövlət başçıları söhbət etdilər.

**Prezident İlham Əliyev dedi:** 33 il davam edən sanksiyaların sonu Prezident Trampın sayəsində mümkün oldu.

**Prezident Donald Tramp dedi:** Xalqınız böyük xalqdır. Bizim şəxsi tanışlığımızdan əvvəl belə Siz mənim haqqımda gözəl sözlər söylədiniz. Hətta bizim seçkilərdə qalib gəlməyimizdən əvvəl.

**Prezident İlham Əliyev:** Bəli, Sizin qalib olmağınızdan əvvəl. Bu, mənim səmimi sözlərim idi. Siz ilk prezidentlik dövrünüzdə gördüyünüz işlərə görə Azərbaycan xalqının və beynəlxalq ictimaiyyətin rəğbətinə layiqsiniz. Son bir neçə ay ərzində Siz Asiya, Afrika və nəhayət Cənubi Qafqaza sülh gətirdiniz. İnanılmazdır.

**Prezident Donald Tramp:** Pakistan və Hindistan arasında qarşıdurma. Bu, ciddi məsələ idi, çünki hər ikisi nüvə silahına malik ölkədir.

**Prezident İlham Əliyev:** Kamboca və Tailand.

**Prezident Donald Tramp:** Bəli, böyük işlər gördük. Siz də həmin işləri görərdiniz. Sizin münaqişə də ciddi məsələdir, nə qədər sürdü döyüşlər – 33, 35 il?

**Prezident İlham Əliyev:** Bəli, münaqişə 1988-ci ildə başlayıb. Lakin hərbi qarşıdurmanın fəal fazası 1991-1992-ci illərdə başlayıb.

**Prezident Donald Tramp:** Lakin münaqişə həll edilmirdi.

**Prezident İlham Əliyev:** Xeyr. Müharibə 1994-cü ildə dayandı və sonsuz, mahiyyətdən məhrum olan danışıqlar dövrü başladı.

**Prezident Donald Tramp:** Bu, çox ciddi bir məsələdir.

**Prezident İlham Əliyev:** Əlbəttə, Siz möcüzəyə imza atdınız.

**Prezident Donald Tramp:** Ancaq mətbuat bunu heç vaxt eşitmək istəmir.





**Prezident İlham Əliyev:** Azərbaycan mətbuatı bunu işıqlandıracaq.

**Prezident Donald Tramp:** Siz böyük lidersiniz.

**Prezident İlham Əliyev:** Böyük lider mənim yanımda əyləşib.

**Prezident Donald Tramp:** Mənim Sizin üçün hədiyyəm var. İcazə verin, onu təqdim edim. Zənnimcə, bəyənəcəksiniz.

**Prezident İlham Əliyev:** Mənim 9 nəvəm var, icazə versəniz, hamısını götürərdim.

**Prezident Donald Tramp:** Sizin 9 nəvəniz var? Mənə əlavə sikkə verin. Siz gözəl danışıq aparırsınız. Bu sikkələr hamının xoşuna gəlir. Dünyanın ən gözəl sikkəsidir. Bəlkə də dünyanın ən bahalı sikkəsidir. Heyət üzvləri yaxınlaşın və şəklinizi də çəksinlər.

Sonda Ağ Evin rəmzi açarını Prezident İlham Əliyevə təqdim edən **Prezident Donald Tramp dedi:** Sizə daha bir hədiyyəm var. Bu, Ağ Evin rəmzi açarıdır. Mən bunu nadir hallarda təqdim edirəm.

**Azərbaycan Respublikası ilə Amerika Birləşmiş Ştatları arasında Strateji Tərəfdaşlıq Xartiyasının hazırlanması məqsədilə Strateji İşçi Qrupunun yaradılması haqqında Azərbaycan Respublikası Hökuməti və Amerika Birləşmiş Ştatları Hökuməti arasında**

**ANLAŞMA MEMORANDUMU**

Azərbaycan Respublikasının Hökuməti və Amerika Birləşmiş Ştatlarının Hökuməti (bundan sonra – "İştirakçılar") aşağıdakı razılaşmaları əldə ediblər:

**I. Məqsəd**

Bu Anlaşma Memorandumunun (bundan sonra – "Memorandum") məqsədi İştirakçılar arasında strateji münasibətlərin möhkəmlənməsinə yönəlmiş Strateji Tərəfdaşlıq Xartiyasının altı ay müddətində hazırlanması üçün Strateji İşçi Qrupunun yaradılmasıdır.

İştirakçılar Strateji İşçi Qrupunda aşağıdakı üç sahəyə diqqət yönəltmək niyyətindədirlər:

Enerji, ticarət və tranzit daxil olmaqla regional bağlantılar;

Süni intellekt və rəqəmsal infrastruktur daxil olmaqla iqtisadi sərmayələr;

Müdafiə məhsullarının satışı və terrorizmə qarşı mübarizə daxil olmaqla təhlükəsizlik sahəsində əməkdaşlıq.

**II. Əməkdaşlıq sahələri**

İştirakçılar aşağıdakılar daxil olmaqla, lakin bununla məhdudlaşmayaraq, bir sıra sahələrdə əməkdaşlıq etmək niyyətindədirlər:

Enerji sahəsində sərmayələrin və regional bağlantılar üzrə infrastrukturun genişləndirilməsi;

Müdafiə və terrorizmə qarşı mübarizə sahəsində daha möhkəm əməkdaşlığın qurulması;

Regional iqtisadi və ticarət əməkdaşlığının inkişaf etdirilməsi;

Süni intellekt üzrə tərəfdaşlıqların və rəqəmsal infrastruktur sahəsində sərmayələrin inkişaf etdirilməsi.

**III. Ümumi müddəalar**

1. Müddət: Bu Memorandum İştirakçılar tərəfindən imzalandığı tarixdən qüvvəyə minir və bir il müddətində qüvvədə qalır. Memorandum İştirakçıların qarşılıqlı yazılı razılığı ilə uzadıla bilər. Hər bir İştirakçı istənilən vaxt bu Memorandumda iştirakını dayandıra bilər. İştirakı dayandıran tərəf digər İştirakçıya diplomatik kanallar vasitəsilə altmış (60) gün əvvəlcədən yazılı qaydada bildiriş verməlidir.

2. Layihələrin davam etmə müddəti: İştirakçılar tərəfindən başqa qərar verilmədiyi təqdirdə, bu Memoranduma xitam verilməsi iki İştirakçı arasında bu Memorandum çərçivəsində artıq başlanmış və tamamlanmamış layihələrə və fəaliyyətlərə təsir göstərmir.

3 .Dəyişikliklər: İştirakçılar qarşılıqlı yazılı qərarla bu Memorandumu dəyişdirə bilərlər.

4. Memorandumun təsiri: Bu Memorandum beynəlxalq hüquq və ya daxili qanun üzrə heç bir hüquq və öhdəlik yaratmır. İştirakçılar bu Memorandumun maliyyə öhdəliyi daşımadığını xüsusi olaraq qəbul edirlər. İştirakçılar öz əlahiddə və unikal missiya və mandatlarını, məsuliyyət və hesabatlılıqlarını qoruyub saxlamaq niyyətindədirlər. Bu Memorandum çərçivəsində İştirakçılar arasında əməkdaşlığın tərəfdaşlıq və ya digər hüquqi şəxs və ya qurum kimi təfsir edilməsi nəzərdə tutulmur. Hər bir İştirakçının bu Memorandumla bağlı çəkdiyi bütün xərcləri özü tərəfindən qarşılaması gözlənilir. İştirakçılar bu Memorandumu İştirakçılar arasında bu Memorandum imzalanmazdan əvvəl və ya sonra bağlanmış razılaşmalara xələl gətirmədən icra etmək niyyətindədirlər. Bu Memorandumda heç nəyin eksklüziv işçi münasibəti kimi təfsir edilməsi nəzərdə tutulmur.

5. Vaşinqton şəhərində 8 avqust 2025-ci il tarixində ingilis dilində iki orijinal nüsxədə imzalanıb.

| | |
|---|---|
| **Azərbaycan Respublikası Hökuməti adından** | **Amerika Birləşmiş Ştatları Hökuməti adından** |

## Azərbaycanın və Ermənistanın xarici işlər nazirləri sülhə dair saziş layihəsini paraflayıblar və ATƏT-in fəaliyyətdə olan sədrinə birgə müraciəti imzalayıblar



2025-ci il avqustun 8-də Vaşinqtonda Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Amerika Birləşmiş Ştatlarının Prezidenti Donald Tramp və Ermənistan Respublikasının Baş naziri Nikol Paşinyanla görüşü çərçivəsində Azərbaycan Respublikasının xarici işlər naziri Ceyhun Bayramov və Ermənistan Respublikasının xarici işlər naziri Ararat Mirzoyan "Azərbaycan Respublikası və Ermənistan Respublikası arasında sülhün və dövlətlərarası münasibətlərin təsis edilməsinə dair Saziş" layihəsini parafladılar və Azərbaycan Respublikası və Ermənistan Respublikası xarici işlər nazirlərinin ATƏT-in fəaliyyətdə olan sədrinə birgə müraciətini (ATƏT-in Minsk Prosesinin, ATƏT-in fəaliyyətdə olan sədrinin Minsk konfransının müzakirəsində olan münaqişə üzrə şəxsi nümayəndəsi və Yüksək Səviyyəli Planlaşdırma Qrupunun bağlanması barədə) imzaladılar.



# İlham Əliyevin Gəncə, Kəlbəcər və Ağdərəyə səfəri

### İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Gəncə şəhərində olublar







Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva 2025-ci il avqustun 20-də Gəncə şəhərində olublar.

Dövlətimizin başçısı və birinci xanım Ulu Öndər Heydər Əliyevin şəhərin mərkəzində ucaldılan abidəsini ziyarət edərək, önünə gül dəstələri qoyublar.

Gəncə Şəhər İcra Hakimiyyətinin başçısı Niyazi Bayramov Prezident İlham Əliyevə və birinci xanım Mehriban Əliyevaya şəhərdə aparılan tikinti-quruculuq işləri barədə məlumat verdi.

Bildirilib ki, III MDB Oyunlarına hazırlıq çərçivəsində Gəncə şəhərində bütün aidiyyəti qurumlar səfərbər olunub, genişmiqyaslı abadlıq-quruculuq, təmir-bərpa və tikinti işləri həyata keçirilir.

Gəncə Şəhər İcra Hakimiyyəti və “Azərbaycan Avtomobil Yolları” Dövlət Agentliyi tərəfindən indiyədək 120-dən çox küçənin asfalt örtüyü yenilənib, əsaslı təmir işləri görülüb. Yenidənqurma işləri şəhərdəki bir neçə parkı da əhatə edib. Bütün bunlarla yanaşı, küçələrin işıqlandırılması, şəhərin müxtəlif yerlərində yeni yaşıllıqların salınması istiqamətində bir sıra işlər görülüb.

“Bakı Abadlıq Xidməti” MMC tərəfindən şəhərin 637 yaşayış və qeyri-yaşayış binasının fasadı təmir edilib, 1159 binanın dam örtüyü və 49 küçədə, prospektdə işıqlandırma sistemləri, 62 ünvanda fasad işıqlandırılması yenilənib, 24 fəvvarədə təmir və bərpa işləri görülüb, 27 min kvadratmetr sahədə piyada yolları bərpa edilib.

## İlham Əliyev Kəlbəcər şəhərinin sakinləri ilə görüşüb, onlara mənzillərin açarlarını təqdim edib



2025-ci il avqustun 21-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Kəlbəcər şəhərində 1-ci yaşayış kompleksinin ərazisində fərdi və çoxmərtəbəli evlərdə yaradılan şəraitlə tanış olub, buraya köçən sakinlərlə görüşüblər.

Dövlətimizin başçısı görüşdə çıxış etdi.

**Prezident İlham Əliyevin çıxışı**

– Əziz kəlbəcərlilər, Kəlbəcərə xoş gəlmisiniz!

Bu gün sizin həyatınızda tarixi bir gündür. Doğma Vətənə, doğma şəhərə 32 ildən sonra qayıdırsınız və bu münasibətlə sizi ürəkdən təbrik edirəm. Biz ədaləti bərpa etdik, haqqımızı bərpa etdik və bugünkü tədbir bir daha onu göstərir ki, Azərbaycan xalqı iradəli xalqdır. Azərbaycan xalqı öz doğma torpağına bağlıdır və bütün çətinliklərə baxmayaraq, işğal dövründə biz nəinki inamımızı itirməmişik, hər birimiz – bütün xalq hər gün bu müqəddəs günü yaxınlaşdırırdı.

Dövlət sizin üçün burada gözəl şərait yaradıb. Kəlbəcər şəhəri indi dünyanın ən gözəl mənzərəli şəhərlərindən birinə çevrilir. Siz artıq birinci yaşayış kompleksində evlərlə təmin olunursunuz, amma inşaat işləri bununla bitmir. Bu gün təməlini qoyduğum növbəti yaşayış komplekslərində yaxın gələcəkdə sizin qohumlarınız, dostlarınız gəlib yerləşəcək. Birinci mərhələdə “Böyük Qayıdış” Proqramı çərçivəsində Kəlbəcər şəhərində dörd yaşayış kompleksinin inşası nəzərdə tutulur və bu binalarda 10 mindən çox insan yaşayacaq. Təbii ki, lazım olan bütün digər infrastruktur layihələri də icra edilibdir. İşıq, su, təbii qaz çəkilib, yollar salınıb, minalardan təmizləmə işi aparılıb. İndi Kəlbəcər şəhərində gözəl məktəb tikilir və gələn il istifadəyə veriləcək. Ancaq builki dərs ilini kəlbəcərli uşaqlar modul tipli məktəbdə oxuyacaqlar.

Bu gün, o cümlədən ona görə tarixi bir gündür ki, ölkəmizin ən böyük rayonu olan Kəlbəcər və onun şəhəri artıq canlanır, buraya həyat qayıdır və əminəm ki, siz burada rahat yaşayacaqsınız. Siz buna layiqsiniz. Uzun illər ərzində ağır şəraitdə – çadırlarda, uyğunlaşdırılmış binalarda, uşaq bağçalarında, yataqxanalarda - müxtəlif yerlərdə yaşamısınız, həyatınız çox ağır olub.

Kəlbəcərin işğalı bizim üçün bütün başqa yaşayış məntəqələrimizin işğalı kimi böyük faciə idi. Ancaq Kəlbəcərin işğalı strateji nöqteyi-nəzərdən Azərbaycan üçün çox böyük problemlər yaradırdı. Çünki Ermənistanla ovaxtkı Dağlıq Qarabağ Muxtar Vilayəti arasında coğrafi bağlantı yaradılırdı. 1992-ci ilin may ayında Şuşa və Laçının işğal altına düşməsi artıq o bağlantını yaratmışdı və o vaxt “Laçın dəhlizi”



adlandırılan yol faktiki olaraq bizim torpaqlarımızın gələcək işğalına yol açmışdı. Kəlbəcərin işğalı isə çox böyük bir coğrafi ərazi üzrə Ermənistanla keçmiş “Dağlıq Qarabağ” arasında coğrafi bağlantı yaratmışdır və beləliklə, digər torpaqlarımızın işğalına yol açmışdır. Əfsuslar olsun ki, ovaxtkı Azərbaycan rəhbərliyi xəyanətkarlıq və satqınlıq siyasəti apararaq doğma diyarımızı qoruya bilməmişdir. Hələ 1992-ci ilin may ayında Şuşa və Laçının işğal altına düşməsi o vaxt hakimiyyətə can atan AXC-Müsavat cütlüyünün xəyanəti nəticəsində mümkün olmuşdur. Alınmaz qalamız Şuşa demək olar ki, ermənilərə təhvil verilmişdir.

Mənfur cütlük bundan istifadə edərək bir ay sonra məhz Şuşa və Laçın faciəsi üzərində hakimiyyətə gəldi, doğma diyarınızı qoruya bilmədi, ya da qorumaq istəmədi.

Kəlbəcərin 1993-cü il aprelin əvvəlində işğal altına düşməsi məhz ovaxtkı xəyanətkar rəhbərliyin bəd əməllərinin nəticəsi olmuşdur. Ondan sonrakı dövrü hamımız yaxşı xatırlayırıq. Uzun sürən danışıqlar heç bir nəticə verməmişdi, verə də bilməzdi. Çünki birincisi, Ermənistan bir qarış torpaq qaytarmaq fikrində deyildi və danışıqlarda, sadəcə olaraq, görüntü yaratmaq naminə iştirak edirdi. Bu məsələ ilə məşğul olmalı olan üç ölkə – Fransa, Rusiya və Amerika məsələni həll etmək əvəzinə, münaqişəni dondurmaq istiqamətində işlər aparırdı və faktiki olaraq erməni işğalına hüquqi don geyindirmək üçün dəridən-qabıqdan çıxırdı. Məhz buna görə münaqişə sülh yolu ilə həll olunmadı. Əgər Ermənistana qarşı o vaxt ciddi sanksiyalar tətbiq edilsəydi, əgər işğalçı dövlət böyük dövlətlər tərəfindən cəzalandırılsaydı, əlbəttə ki, Ermənistan bizim torpaqlarımızı sülh yolu ilə qaytara bilərdi və əminəm ki, qaytaracaqdı. Sadəcə olaraq, onlara qarşı zərrə qədər təzyiq göstərilmədi, əksinə, onlar üçün bütün imkanlar açılmışdı. Bəzi ölkələr onlara milyardlarla dollar dəyərində pulsuz silahlar verirdi. İkinci Qarabağ müharibəsi və antiterror əməliyyatı nəticəsində məhv etdiyimiz və hərbi qənimət kimi götürdüyümüz Ermənistan ordusuna xaricdən verilən silahların qiyməti təqribən 5-6 milyard dollar dəyərindədir. Təbii ki, Ermənistanın bu qədər silah almaq üçün pulu yox idi. Bütün bu silahlar onlara pulsuz verilirdi, bir məqsədlə ki, işğal davam etsin, bir məqsədlə ki, azərbaycanlılar heç vaxt öz dədə-baba torpaqlarına qayıtmasınlar, bir məqsədlə ki, Ermənistanla Azərbaycan arasında bu münaqişə sülh yolu ilə həll olunmasın. Mən bunu dəfələrlə demişəm və bu, tam həqiqətdir. Mən 2003-cü ildən 2020-ci ilə qədər bu danışıqlarda iştirak etməyə məcbur idim. Demişdim ki, bu məsələni həll etmək mandatı olan ölkələr faktiki olaraq işğalı əbədi etmək istəyirlər. Biri silahlar, biri siyasi dəstək, biri isə digər imtiyazlar verirdi. Məhz buna görə məsələ öz həllini tapmırdı. Kiməsə elə gələ bilərdi ki, Azərbaycan xalqı bununla barışacaq, halbuki mən dəfələrlə demişdim ki, biz bu məsələ ilə heç vaxt barışmayacağıq. Hələ 2003-cü ildə prezident vəzifəsinə seçiləndə bunu demişdim, ondan sonrakı dövrlərdə dəfələrlə demişdim və nəinki demişdim, hər gün, hər saat biz bu müqəddəs Zəfər günümüzü yaxınlaşdırırdıq. Güclü iqtisadiyyat qurduq, beynəlxalq müstəvidə Ermənistanı işğalçı dövlət kimi ifşa etdik. Bir çox aparıcı beynəlxalq təşkilatlar bizim səylərimiz nəticəsində mövqeyimizi qəbul etməyə məcbur olmuşdur. Güclü ordu yaratdıq, ən müasir silahlar aldıq və gənc nəsil yetişdirdik. O gənc nəsil ki, Vətən müharibəsində sinəsini qabağa verib torpaqlarımızı düşməndən azad etdi. Allah bütün şəhidlərimizə rəhmət eləsin. Biz bu Zəfərə görə onlara, onlar kimi 10 minlərlə Azərbaycan əsgər və zabitinə borcluyuq.

Azərbaycan dövləti və Azərbaycan xalqı bir yumruq kimi birləşdi və biz Ermənistanı cəmi 44 gün ərzində kapitulyasiya aktını imzalamağa məcbur etdik. 44 günlük Vətən müharibəsi şanlı tariximizdir. Biz hər gün irəli gedirdik. Bir dənə də olsun döyüş meydanını tərk edən olmamışdır. Bir dənə də olsun fərari olmamışdır. Yəni bu, xalqımızın yüksək keyfiyyətlərini göstərir və onu göstərir ki, bütün xalqımız və Silahlı Qüvvələr Vətən uğrunda ölümə getməyə hazır idi. Ermənistan ordusunda isə özlərinin dediklərinə görə 12 min fərari olmuşdur. Vətən müharibəsi başa çatanda Kəlbəcər, Laçın, Ağdamın böyük hissəsi hələ işğal altında idi.

Ancaq biz kapitulyasiya aktı nəticəsində Ermənistanı məcbur etdik ki, bu bölgələri bizə qaytarsın və bunu etməyə məcbur olmuşdur. Yəni, Kəlbəcər bir güllə atılmadan azad edildi. Siz kəlbəcərlilər bu bölgənin relyefini, iqlimini çox yaxşı bilirsiniz. Mən də çox yaxşı bilirəm, çünki dəfələrlə burada olmuşam və əvvəlki dövrlərdə buraya Ömər aşırımından keçmişəm.





Kəlbəcəri 2020-ci ilin sonunda, – artıq qış başlamışdır, – hərbi yolla azad etmək böyük itkilərlə nəticələnərdi. Təbii ki, biz azad edəcəkdik. Çünki Ermənistan ordusunu biz o vaxt demək olar ki, məhv etmişdik. Ancaq onların güclü istehkamları var idi. O vaxt Ağdərə rayonu bizim nəzarətimizdə deyildi. Tək yeganə istiqamət Murov istiqamətindən idi və yenə də deyirəm, biz böyük itkilər verə bilərdik. Ona görə tarix bir daha göstərdi ki, 2020-ci il noyabrın 10-da müharibənin dayandırılması ən düzgün addım idi. Ancaq bununla bərabər, o vaxt hələ də torpaqlarımızın bir hissəsi nəzarətimizdə deyildi. O vaxtdan 2023-cü il sentyabrın 19-na qədər bizim qarşımızda duran əsas hədəf ölkəmizin suverenliyini tam bərpa etmək idi. O tarixi siz yaxşı xatırlayırsınız, həm dırnaqarası Laçın dəhlizini yox etmək və bunu Laçın-Xankəndi yoluna çevirmək, həm Ermənistan-Azərbaycan sərhədində Laçın istiqamətində nəzarət-buraxılış məntəqəsinin yaradılması, eyni zamanda, 2020-ci ilin noyabrından 2023-cü ilin sentyabrına qədər önəmli strateji nöqtələrin götürülməsi, "Fərrux", "Qırxqız", "Sarıbaba" əməliyyatları - bütün bunlar şanlı tariximizdir və bütün bunlar məqsədyönlü siyasətimizin bir hissəsi idi. Təbii ki, o vaxt biz bir çox şeyləri dilə gətirmirdik, buna ehtiyac da yox idi. Ancaq hədəfə doğru gedirdik ki, bizim torpağımızda bir dənə də olsun separatçı qalmamalıdır. Separatizmin başı əzilməlidir, kökü kəsilməlidir və bunu da etdik. Cəmi bir neçə saat davam edən antiterror əməliyyatı nəticəsində separatçı xunta kapitulyasiya aktına imza atdı. Öz saxta dırnaqarası respublikasının guya süquta uğramasını əks etdirən sənəd imzaladı.

Bizim üçün 2023-cü ilin 19-20 sentyabrı 8 noyabr qədər şərəfli və tarixi günlərdir. O vaxtdan bu yana Azərbaycan xalqı sülh şəraitində yaşayır və əminəm, bundan sonra da sülh şəraitində yaşayacaq. Bilirsiniz ki, Ermənistan-Azərbaycan normallaşması prosesi demək olar ki, başa çatıb və imzalanmış sənədlər bizim maraqlarımızı tam təmin edir. Biz istədiyimizə nail olmuşuq, mənfur Minsk qrupu artıq son günlərini yaşayır. Faktiki olaraq o, heç bir fəaliyyət göstərmirdi və göstərə də bilməzdi. Ancaq hüquqi cəhətdən mövcud idi, indi onun da sonu yaxınlaşır.

Ermənistanla sülh müqaviləsinin müəllifi də bizik, o bəndlərin tərtibatında da bizim mövqeyimiz hər zaman əsas götürülmüşdür. Bu sənədin paraflanması faktiki olaraq Ermənistan-Azərbaycan qarşıdurmasına son qoyur. Bununla bərabər, bizim tarixi diyarımız olan Naxçıvanla quru bağlantısı da təmin edildi. 2020-ci ilin noyabrından son günlərə qədər biz təkidlə bu məsələni daim gündəlikdə saxlayırdıq və müxtəlif yollarla bu məqsədə çatmaq üçün səylər göstərirdik və nəhayət, biz buna da nail olduq. Artıq Ermənistan bu öhdəliyi də üzərinə götürmüşdür və ümid edirəm ki, yaxın bir neçə il ərzində biz qatarlarla və avtomobillərlə Azərbaycanın əsas hissəsindən Naxçıvana gedə biləcəyik. Eyni zamanda, bu, təkcə Azərbaycanın iki hissəsini bir-biri ilə birləşdirməyəcək. Bu, eyni zamanda, beynəlxalq nəqliyyat dəhlizinə çevriləcək. İndi Azərbaycan



ərazisindən bir neçə nəqliyyat dəhlizi keçir və bu, əlbəttə ki, ölkəmizin önəmini artırır. Bir dəhliz də məhz bu istiqamət üzrə gedəcək. Artıq Zəngilana qədər dəmir yolunun inşası uğurla davam edir, yəqin ki, gələn il başa çatacaq. Biz indi Naxçıvan Muxtar Respublikasında dəmir yolunu tam müasirləşdirəcəyik. Ermənistan ərazisində də dəmir yolunun tikintisi nəzərdə tutulur. Yəni, Ermənistan bu öhdəliyi də üzərinə götürüb və bu, bizim növbəti tarixi uğurumuzdur.

Azərbaycan xalqı ən yüksək beynəlxalq müstəvidə öz böyüklüyünü bir daha göstərmişdir. Həm Vətən müharibəsi, həm antiterror əməliyyatı nəticəsində yaratdığımız yeni reallıqlar dünya tərəfindən qəbul edildi. Bu da çox vacib idi. Çünki Vətən müharibəsindən və xüsusilə 2023-cü ilin sentyabr əməliyyatından sonra Ermənistanın havadarları, müxtəlif ölkələr və dairələr bizə qarşı kampaniyaya başlamışdılar. Azərbaycanı cəzalandırmaq, Azərbaycana qarşı sanksiyalar tətbiq etmək və digər səylər göz önündə idi. Düzdür, onların heç biri həyata keçmədi. Bizim kifayət qədər güclü tərəfdaşlarımız var və beynəlxalq təşkilatlar çərçivəsində mövqeyimiz hər zaman ədalətli mövqe kimi qəbul olunub. Çünki biz öz torpağımızda müharibə aparmışıq. Bəzi başqa ölkələr kimi heç bir ölkənin torpağını zəbt etməmişik, etnik təmizləmə aparmamışıq, heç bir ölkənin şəhər və kəndlərini viran qoymamışıq. Biz öz torpağımızda döyüşmüşük, düşməni böyrü üstə qoymuşuq və ərazi bütövlüyümüzü bərpa etmişik, o cümlədən BMT Təhlükəsizlik Şurasının qətnamələri əsasında. Ancaq buna baxmayaraq, Ermənistana himayədarlıq edən ölkələr bizə qarşı daim hərəkətdə idi və Vaşinqton şəhərində, dünyanın bir nömrəli ofisində imzalanmış sənədlər bütün bu səylərə də son qoydu.

Yəni, dünya birliyi, beynəlxalq aləm bizim Qələbəmizi və yeni reallıqları tam qəbul etmişdir və bu da özlüyündə tarixi hadisədir. Çünki sirr deyil ki, həm işğal dövründə, həm də müharibə dövründə Ermənistanı dəstəkləyən böyük dövlətlər bizə hər zaman böyük problemlər yaradırdı və yarada bilərdi. Bizim gücümüz, xalqımızın iqtidarla bir yerdə olması, hərbi Zəfərimiz, cəmiyyətdəki ovqat, vətənpərvərlik ruhu - bütün bu amillər bütün dünyaya göstərdi ki, hər kəs bizimlə hesablaşmalıdır və bizimlə hesablaşmayan nəticədə peşman olur. Bunu Ermənistan-Azərbaycan müharibəsi, Vətən müharibəsi, müharibədən sonrakı dövr göstərmişdir və bunu bugünkü reallıqlar da göstərir.

Azərbaycan ləyaqətli ölkədir, güclü ölkədir, heç kimə məsləhət görmürük ki, nə vaxtsa bizə qarşı hansısa bəd əməllər haqqında düşünsün. Hər halda son 80 il ərzində dünyada Azərbaycan qədər tam və mütləq qələbə qazanan ikinci ölkə olmamışdır. İndi dünyada gedən prosesləri görürsünüz. Müxtəlif yerlərdə toqquşmalar, müharibələr, hərbi cinayətlər baş alıb gedir. Amma heç kim tam qələbə qazanmayıb. Müharibələr davam edir, daha böyük coğrafiyanı əhatə edir və yəqin ki, davam edəcək. Yəni, bax, bu siyasi məsələlərin inkişafı bunu göstərir. Tək yeganə ölkə bizik. Yeganə xalq bizik ki, tam Qələbə qazandıq, mütləq Qələbə qazandıq. Düşməni kapitulyasiya aktını imzalamağa məcbur etdik və eyni zamanda, sülhün təminatçısı da Azərbaycandır.

Biz düşməndən qisasımızı döyüş meydanında aldıq. Biz bir daha xalqımızın böyüklüyünü göstərdik. Onların bizə etdiklərini biz onlara etmədik. Halbuki onların etdikləri heç vaxt yaddaşımızdan silinməyəcək. O cümlədən kəlbəcərlilərə qarşı edilən hərbi cinayətlər, soyqırımı, Xocalı soyqırımı, digər bölgələrdən olan vətəndaşlarımıza qarşı düşmənçilik, ədavət və vəhşilik heç vaxt yaddaşımızdan silinməyəcək və silinməməlidir. Bunu mən həm müharibəni qazanan ölkənin Ali Baş Komandanı kimi və bu gün Ermənistanla, məğlub edilmiş Ermənistanla sülh prosesinin iştirakçısı kimi deyirəm. Biz istəmirik ki, müharibə olsun. Biz sülh istəyirik. Ancaq heç vaxt o qanlı tarix yaddaşımızdan silinməməlidir, heç vaxt şirin sözlərə aldanmamalıyıq,



ayıq olmalıyıq. Təbii ki, bizim Silahlı Qüvvələrimiz hər an, hər gün dövlətimizin maraqlarının, təhlükəsizliyin keşiyindədir. Biz mümkün olan təhlükə mənbələrini izləyirik, görürük və görəcəyik. Biz hərbi gücümüzü artırırıq. İkinci Qarabağ müharibəsindən sonra həm Xəzər dənizindəki, həm də bütün digər silahlı qüvvələrimizin inkişafı ilə əlaqədar minlərlə, - sayını demək istəmirəm, amma böyük sayda, - xüsusi təyinatlı qüvvələrimizin say tərkibini artırmışıq, yeni komando qüvvələri yaradılıb.

Pilotsuz uçuş aparatlarının ən müasirləri, yeni artilleriya sistemləri ölkəmizə gətirilib. İndi yeni döyüş təyyarələri üzrə kontraktlar bağlanıb və mövcud olan təyyarələr tam müasirləşdirilib. Biz hər an müharibəyə hazır olmalıyıq. Çünki dünyada proseslər elə istiqamətdə gedir ki, bilmək olmaz, sabah nə olacaq. Bizim təhlükəsizliyimizin qarantı biz özümüzük - dövlət, xalq və Silahlı Qüvvələrimiz. Ona görə, əgər kiminsə xəstə ağlına Azərbaycana qarşı hər hansı bir təxribat törətmək gələrsə, məncə, yenə də peşman olacaq. Biz isə bundan sonra müzəffər xalq və müzəffər, qalib dövlət kimi yaşayacağıq.

Bizim işimiz quruculuqdur. Onlar bütün şəhər və kəndlərimizi viran qoyublar. Kəlbəcər şəhərində bir dənə salamat bina qalmamışdır. Kəlbəcərin heç bir kəndində bir dənə də bina qalmamışdır. O, vəhşilik idi. O, insanlığa sığmayan hərəkət idi və bunu bir nəfər yox, 10 nəfər yox, kütləvi surətdə edirdilər. Onlar gərək bu məsələlərlə məşğul olsunlar, hansı cəmiyyətdə yaşayır Ermənistan? O cəmiyyət ki, işğal dövründə talançılığı özü üçün əsas gəlir mənbəyi etmişdir. Bu cəmiyyət xəstədir və mən bunu açıq deyirəm. Mən heç kimi təhqir etmək istəmirəm. Biz onlara nə etmişik ki, nə pislik etmişik ki, bu qədər vəhşiliklə üz-üzə qalaq?! Bütün şəhər və kəndlər dağıdılıb, məscidlər dağıdılıb, təhqir edilib, insanlar qətlə yetirilib, öldürülüb, yandırılıb. Hətta İkinci Qarabağ müharibəsindən sonra bizdən vasitəçilər tərəfindən vaxt istəmişdilər, burada öz şələşülələrini yığmaq üçün. Biz hətta vaxt da verdik onlara. Nə etdilər? Yandırdılar, ağacları qırdılar. İnsan bunu edər? Axı, bunu təkcə separatçıların başçıları etməyiblər. Kütləvi surətdə ediblər. Yəni, biz bilməliyik ki, kiminlə üz-üzəyik, bizim qonşumuz kimdir. Keçmişimizi heç vaxt unutmamalıyıq və ayıq olmalıyıq. Əminəm ki, bütün bu amillər imkan verəcək ki, üstünlük hər zaman bizdə olsun. Bu gün bunu yenə də deyirəm, biz qalib xalq kimi bəyan edirik. Biz o pisliyi, vəhşiliyi unutmayacağıq. Ancaq biz bundan sonra heç kimlə müharibə aparmaq fikrində deyilik. Əgər bizə qarşı hər hansı bir təhlükə çıxarsa, onda yenə də bizim dəmir yumruğumuzu hər kəs görəcək. Bu gün bu gözəl binaların ətrafında bizim görüşümüz də çox böyük rəmzi məna daşıyır. Onlar buranı dağıdıblar, biz isə qurub-yaratmışıq və sizi bu münasibətlə bir daha təbrik edirəm. Rahat yaşayın, sizə cansağlığı, xoşbəxtlik arzulayıram. Sağ olun.

***

**Prezident İlham Əliyev:** Kim söz demək istəyir?

**Sakin Cəlil Alıyev:** Cənab Prezident, cənab Ali Baş Komandan, çox hörmətli Mehriban xanım, Sizi kəlbəcərlilər adından salamlayırıq. Doğma yurdumuza xoş gəlmisiniz! Bütün çıxışlarınızı diqqətlə izlədik, bəyənirik, alqışlayırıq. Bütün bu hadisələrin qəhrəmanı Sizsiniz. Bir daha Sizə təşəkkür edirik. Bilirik ki, Kəlbəcər xalqı, Kəlbəcər camaatı aşıqlar diyarıdır, şairlər diyarıdır. Ona görə də gözəl şairimiz Sücaət 32 il bundan qabaq yazırdı:

**Sücaət, neyləyək, baxt belə baxtdır,**
**Darıxma, hər şeyi həll edən vaxtdır.**
**Bir gün gülə-gülə qayıdacaqdır,**
**Ağlaya-ağlaya köçən Kəlbəcər.**

Bu hadisələrin səbəbkarı Sizsiniz. Sizə təşəkkür edirəm. Sağ olun, var olun.



**Prezident İlham Əliyev:** Təşəkkür edirəm, sağ olun.

**Cəlil Alıyev:** Həmişə Sizin yanınızda durmalıyıq. Bir olmalıyıq. Yumruq kimi birləşməliyik. "Böyük Qayıdış"ı başa çatdırmalıyıq. Mənim qızım Hökumənin sözü olmasın, hər şey yaxşı olacaq. Bir daha təşəkkür edirəm Sizə.

**Sakin Fənarə Sadıqova:** Möhtərəm Ali Baş Komandan, cənab Prezidentimiz, çox sevimli əzizimiz Mehriban xanım, əziz qonaqlar və həmvətənlərim. Bu gün illərdən sonra böyük qürur hissi ilə doğma yurdum cənnət Kəlbəcərimdə Sizi salamlayıram. Dahi Ulu Öndərimizin başladığı siyasəti Siz məharətlə, qətiyyətlə, yuxusuz gecələrinizə, gərgin günlərinizə baxmayaraq davam etdirərək bəşəriyyətdə analoqu olmayan Zəfər tarixi yazdınız. İşğal olunan torpaqlarımızı geri qaytardınız, cənab Prezident. Bir sıra çox vacib sazişlərə imza atdınız. Biz Sizinlə qürur duyuruq. Biz həmişə Sizin yanınızdayıq. Allah Ulu Öndərimizə rəhmət eləsin ki, Sizin kimi ləyaqətli davamçı qoyubdur. Sizin prezidentlərlə görüşlərinizi hər dəfə televiziyada izləyərkən şux duruşunuzu, natiqliyinizi böyük həyəcan və sevinc hissi ilə müşahidə edirik – Siz əsl poliqlotsunuz. Siz müxtəlif dillərdə çox natiq danışırsınız, onların özlərindən də gözəl olur. Biz bununla qürur duyuruq. Bu istedad Allah tərəfindən hər prezidentə verilmir.

Cənab Prezident, mən bir haşiyə çıxmaq istəyirəm. Üzrlü sayın, mən bunu deməsəm, atamın ruhu məni bağışlamaz. Hələ 1992-ci ildə hərc-mərclik, özbaşınalıq baş alıb gedəndə sadə sürücü olan atam, - o Kəlbəcərdə yaxşı insan kimi tanınırdı, – bu hadisələrdən çox narahat idi. Atam gedib, – o vaxt Ulu Öndərimiz Ali Sovetin sədri idi, – öz adından ona teleqram vurur ki, Azərbaycan batır, Siz burada lazımsınız. Ulu Öndərimiz 1998-ci ildə prezident seçiləndə atamın çıxışını verirlər. Sonra Prezidentimiz bayrağı öpür və kürsüyə qalxır. O, mənim atamdır. Çox əfsuslar olsun ki, atam Şuşanın alındığı gün dünyasını dəyişdi.

**Prezident İlham Əliyev:** Allah rəhmət eləsin!

**Fənarə Sadıqova:** Allah ölənlərimizə rəhmət eləsin. Atalarımızın ruhu şaddır bu gün. Ulu Öndər Sizin kimi layiqli övladı yerində qoyub gedib. Bu gün mənim atamın da ruhu şaddır, biz bu arzumuza çatmışıq. Doğma Kəlbəcərimizdə, eləcə də Qarabağda böyük quruculuq işi gedir. Bunu Siz edirsiniz. Biz Sizə minnətdarıq. Şəhidlərimizə Allahdan rəhmət, qazilərimizə cansağlığı diləyirik. Möhtərəm Prezidentimiz, biz Sizə bu ağır işinizdə, bu fəaliyyətinizdə uğurlar, ailənizə, özünüzə cansağlığı arzulayırıq. Biz həmişə Sizin arxanızdayıq. Sizin dediyiniz kimi, "Yaşasın Azərbaycan! Qarabağ Azərbaycandır!".

**Prezident İlham Əliyev:** Sağ olun, xoş sözlərə görə təşəkkürümü bildirirəm.

Kəlbəcər ölkəmizin ən gözəl rayonlarından biridir. Hər dəfə buraya gələndə Mehriban xanım və mən maşından izləyirik və bir-birimizə deyirik ki, nə gözəl diyardır, nə gözəl mənzərədir. Bunun dünyada tayı-bərabəri yoxdur. Amma siz də yaxşı bilirsiniz ki, Kəlbəcər həmişə ucqar rayon sayılırdı, çünki yollar yox idi. Yüz il bundan əvvəl, ümumiyyətlə, yol yox idi, ancaq atlarla hərəkət etmək mümkün idi. Ondan sonra sovet hakimiyyəti dövründə çəkilmiş o yollar da çox təhlükəli idi, ensiz idi. Biz Mehriban xanımla işğaldan sonra ilk dəfə Kəlbəcərə, təbii ki, Ömər aşırımından gəldik. O vaxt o yol da demək olar ki, yox idi, bir cığır idi və həm də çox təhlükəli idi. Amma o qədər əzəmətli mənzərə ilə üzləşdik ki, çətinlik heç özünü hiss etdirmirdi. Göygöldən gələndə Ömər aşırımından hər dəfə aşağıya baxarkən bu təbiətə valeh olurduq. Eyni zamanda, mən o vaxt dərhal göstəriş verdim ki, biz mütləq Gəncə istiqamətindən Kəlbəcərə müasir yol çəkməliyik. Çünki bilirsiniz ki, o vaxt biz Ağdərə-Kəlbəcər yolundan istifadə edə bilmirdik. Ona görə dərhal işlər başlandı və bu gün biz Mehriban xanımla Kəlbəcərə gələndə daha Ömər aşırımından yox, ilk dəfə olaraq tuneldən keçdik. Bu da uzunluğuna görə Avropada beşinci tuneldir. Təxminən 12 kilometr uzunluğunda ən böyük tunel. Amma yol boyunca beş tunel artıq var. Ən uzun tuneli də biz bu gün açdıq. Düzdür, hələ yəqin ki, yeddi-səkkiz ay vaxt lazım olacaq ki, onun içərisi də tam düzəlsin. Ondan sonra Kəlbəcərdən Gəncəyə, Göygölə

getmək çox rahat olacaq. Yəni, biz Kəlbəcəri ölkəmizin qərb bölgəsi ilə birləşdiririk.

Digər yol, – onu da biz indi inşa edirik, – Ağdərə-Kəlbəcər yoludur. O da Naftalandan gələn yoldur. O yol olub, işğal dövründə işğalçılar istifadə ediblər. Mən o yol ilə də gəlmişəm. O da çox narahat yoldur. Kələ-kötür yoldur. Ona görə biz o yolu da genişləndiririk, düzəldirik.



Üçüncü istiqamət isə Kəlbəcər-Laçın yoludur. Mən o vaxt Göygöldən Kəlbəcərə, Kəlbəcərdən ta Laçına qədər getmişdim. Mən ömrümdə bunun kimi təhlükəli yol görməmişdim və siz də o yolu yəqin ki, xatırlayırsınız. İndi biz o yolu da dördzolaqlı tunellərlə, körpülərlə tamamilə yeni görkəmə salırıq. Laçının Qorçu kəndində beynəlxalq hava limanı da istifadəyə verilib. Biz o yerin seçilməsində də çətinlik çəkirdik. Çünki Kəlbəcərdə və Laçında bir dənə də düz yer tapa bilməmişdik ki, orada uçuş-enmə zolağı inşa edilsin. Bir dənə də düz yer yoxdur. Amma mən istəyirdim ki, aeroport həm Kəlbəcərə, həm Laçın şəhərinə yaxın olsun. Ona görə o yer seçildi. Dedilər ki, burada da bunu etmək mümkün deyil, gərək dağları kəsək. Dedim kəsmək lazımdırsa, kəsək. Əminəm ki, bu aeroport sayəsində bura gələnlər üçün çox gözəl bir turizm mərkəzi olacaq. Yəni, üç istiqamətdən yol, – Gəncə, Laçın, hətta Zəngilandan ta Kəlbəcərə qədər, bir də Naftalan, Ağdərə, Sərsəng, Kəlbəcər, – üç tərəfdən rahat əlaqələndirmə olacaq və əlbəttə ki, bu, bölgənin canlandırılması üçün böyük imkanlar yaradacaq: iş adamları, hotellər, turizm kompleksləri. Yəni, planlarımız çox böyükdür. Mən artıq bəyan etmişdim ki, biz kanat yollarını da çəkməyə başlayırıq. Birincisi, Laçında. Siz Laçın şəhərini də yaxşı tanıyırsınız, Həkəri çayından da Laçının yuxarı məhəlləsinə məsafə böyükdür. Həm də hündürlük fərqi də böyükdür. Laçın şəhərində kanat yolu yəqin ki, gələn il hazır olacaq. İkinci kanat yolu isə Xankəndi-Şuşadır, onun da təməlini qoyduq. Üçüncü kanat yolu da Kəlbəcərdə olacaq. Onun da yerinə baxmışıq. Bura çox gözəl mənzərəli yerlərdir, həm də cənnətdir. Amma buranı cənnət etmək üçün gərək bax, belə gözəl şərait olsun. Bunu da biz edirik. Ona görə bir daha sizi təbrik edirəm. Xoşbəxt yaşayın, cansağlığı arzulayıram. Sağ olun.



***

Sonra açarların təqdim edilməsi mərasimi oldu.

**Sakin Hikmət Şahmuradov:** Çox sağ olun, cənab Prezident, təşəkkür edirəm, minnətdaram. İcazənizlə, cənab Prezident, Sizə öz təşəkkürümü, minnətdarlığımı bildirirəm. Sizin çıxışlarınıza hər zaman diqqətlə qulaq asmışıq. Sizi fəxarətlə izləyirik, cənab Prezident. Mən Sizi sülhün, xoşbəxtliyin banisi kimi tanıyıram. Mən ümidvaram ki, Sizin bu missiyanız dünyada öz sözünü deyəcək və bəşəriyyət Sizdən örnək götürərək sülhü bərqərar edəcək. Dünyamız da, Azərbaycanımız da xoşbəxt, əmin-amanlıq şəraitində yaşayacaq.

**Sakin Fənarə Sadıqova:** Allah Sizi və sevdiklərinizi qorusun. Tunel üçün də xüsusi təşəkkürümü bildirirəm, var olasınız.

**Prezident İlham Əliyev:** İndi Gəncəyə buradan, Kəlbəcərdən yəqin ki, 1 saat yarıma gedəcəksiniz. Bir

məsələni də demək istəyirəm. Bu gün tunelin açılışını edəndə bir göstəriş də verdim. İndi onun üzərində işləyəcəklər ki, Toğanalıdan ta Gəncəyə qədər də baxsınlar, biz o yolu da qısaldaq, çünki o yol da bir az narahatdır. Orada da bəlkə bir yox, bir neçə tunel inşa ediləcək. O olarsa, onda Gəncədən Kəlbəcərə rahat 1 saat, 1 saat 10 dəqiqəyə gəlmək mümkün olacaq.

**Sakin Fənarə Sadıqova:** Necə deyək, Siz çox namümkünü mümkün etdiniz. Var olun!

Mehriban xanım, istəyərdim Sizi qucaqlayım. Biz Sizi sevirik, Allah balalarınızı qorusun, Allah Sizə uzun ömür versin, var olun, biz Sizi çox sevirik.

***

Sonra birgə foto çəkdirildi.

***

**Sakin:** Qoy hər zaman Azərbaycan bizi uğurları ilə sevindirsin. Bütün əmin-amanlıq, xoşbəxtlik həmişə xalqımızla olsun.

**Prezident İlham Əliyev:** Köçkünlük dövrü bitdi. İndi burada yerləşirsiniz. O biri yaşayış kompleksləri də tikiləcək. Bura gözəl bir şəhər olacaq.

**Sakin:** Sizin rəhbərliyinizlə. İnşallah. Allah Sizi var eləsin.

**Prezident İlham Əliyev:** Sovet vaxtında buranın əhalisi nə qədər idi?

**Sakin:** Şəhərin əhalisi 7-8 min nəfər idi.

**Prezident İlham Əliyev:** 7-8 min. İndi bu dörd yaşayış kompleksində 10 min nəfər yaşayacaq.

**Sakinlər:** İnşallah.

**Prezident İlham Əliyev:** Yəni, ovaxtkından daha çox. Amma gələcəkdə əlbəttə ki, daha çox. Sən işğal dövründə harada yaşamısan? Bakıda?

**Sakin:** Bəli.

**Prezident İlham Əliyev:** İstisu indi məşhurlaşır. Prezidentlərə göndərirəm. Amerikaya da aparmışam özümlə.

**Qadın sakin:** Mən Sizə təşəkkürümü bildirirəm. Atam 1993-cü ildə şəhid olub.

**Prezident İlham Əliyev:** Allah rəhmət eləsin.

**Qadın sakin:** Bu gün Sizinlə, ailə üzvlərinizlə, dövlətimizlə fəxr edirəm. Ona görə ki, atamın şəhid olduğu bu torpağa mən bu gün Sizin sayənizdə ayaq basa bilmişəm, gələ bilmişəm. Sizə minnətdarlığımı bildirirəm. Bütün xalqımız Sizinlə qürur duyur. Hər zaman var olasınız.

**Prezident İlham Əliyev:** Allah bütün şəhidlərimizə rəhmət eləsin. Onların qanı yerdə qalmayıb.

**Qadın sakin:** Qalmayıb, bəli, çox şükür.

**Prezident İlham Əliyev:** Onların qanını yerdə qoymadıq. Həm Birinci, həm İkinci Qarabağ müharibələrinin şəhidlərinin qisasını biz döyüş meydanında aldıq. Bu, bütün şəhid övladları üçün bir təsəllidir.

**Qadın sakin:** Bu gün biz qürur hissi ilə buradayıq, torpağımızdayıq. Sizin sayənizdə. Minnətdarıq Sizə.

**Mehriban xanım Əliyeva:** Siz də gəlin, bu tərəfdə dayanın.

**Qadın sakin:** Yanınıza keçmək olar?

**Prezident İlham Əliyev:** Bəli. İşğal dövründə harada yaşamısan?

**Qadın sakin:** Mən Göygöldə.

**Prezident İlham Əliyev:** Göygöldə?

**Qadın sakin:** Bəli. Arzu edirəm verdiyiniz bu açarlar xeyirli qapılar açsın, İnşallah.

**Prezident İlham Əliyev:** Bəli. Gəlin. Burada iş yerləri ilə bağlı da tədbirlər görülür. Burada həm yaşayış, həm iş yerləri olmalıdır.

**Qadın sakin:** İnşallah.

**Prezident İlham Əliyev:** Burada gözəl məktəb tikilir.

**Qadın sakin:** Bəli, Allah Sizi var eləsin.

**Sakinlər:** İnşallah, İnşallah, əsl vətənpərvərlər yetişsin.

**Qadın sakin:** Bu oğlan ikinci sinifdə oxuyurdu. İndi bu gün gözəl İstisuyumuzun laboratoriyasında işləyir.

**Prezident İlham Əliyev:** İndi orada işləyir?

**Sakin:** Bəli, orada işləyir. Mən yerimizlə, yurdumuzla, xalqımızla fəxr edirəm.

**Prezident İlham Əliyev:** İstisuyu da biz bərpa etdik, birinci layihələrdən biri idi. Özü də biləsiniz, sovet vaxtındakı İstisu ilə indikinin arasında böyük fərq var.

**Sakinlər:** Bəli.

**Prezident İlham Əliyev:** İndi laboratoriyadan keçirmişik, xarici mütəxəssislər baxıblar. Onun tərkibində bəzi maddələr var ki, standartlara uyğun deyildi, tam təmizləndi, indi dünyanın ən yaxşı suyu oldu.

**Qadın sakin:** Bəli, təmizləmədə iştirak edirəm.

**Prezident İlham Əliyev:** Siz də orada işləyirsiniz?

**Qadın sakin:** Bəli. Cənab Prezident, Sizinlə şəkil çəkdirmək olar?

**Prezident İlham Əliyev:** Bəli, gəlin.

**Kişi sakin:** Çox sağ olun.

**Prezident İlham Əliyev:** Sağ olun. Anandır?

**Qadın sakin:** Buraya gəlmişik, Allah qoysa, burada çalışacağıq.

**Prezident İlham Əliyev:** Məsələn, neçə dəqiqəyə gedirsən?

**Qadın sakin:** 15 dəqiqəyə çatıram.

**Prezident İlham Əliyev:** 15 dəqiqəyə. Gələn il hotel də istifadəyə veriləcək. Orada da yüzlərlə iş yeri olacaq.

**Qadın sakin:** Allah qismət eləsin.

**Prezident İlham Əliyev:** “İstisu” sanatoriyasını da dağıdıblar, görmüsünüz? Bilmirəm, getmisiniz ya yox. Amma indi necə gözəl tikilib, görmüsünüz?

**Kişi sakin:** Çox gözəldir.

**Prezident İlham Əliyev:** Gəlin, hamımız birlikdə şəkil çəkdirək.

**Kişi sakin:** Çox sağ olun, cənab Prezident. Allah Sizə ömür versin. Allah Sizi var eləsin.

**Qadın sakin:** Qızım gəlir, gəlsin onunla da çəkdirək?

**Mehriban xanım Əliyeva:** Gəlsin, əlbəttə. Balacanı da gətirib. Üçaylıq körpəsi ilə gəlib.

**Qadın sakin:** Birinci dəfədir Kəlbəcərə ayaq basır.

**Prezident İlham Əliyev:** Bəli, nə gözəl.

**Mehriban xanım Əliyeva:** Üç ayı oldu. Bu, Əli balamızdır?

**Qadın sakin:** Bəli.

**Mehriban xanım Əliyeva:** Əliş, gedək, görək.

**Qadın sakin:** Çox sağ olun, Allah sizlərə cansağlığı versin. Mehin, gəl də, istəmirdin Mehriban xanımla şəkil çəkdirmək?

**Qadın sakin:** Gəlirəm.

**Mehriban xanım Əliyeva:** Gör kimi gətirirəm? Əli balamızı.

**Prezident İlham Əliyev:** Gəl balaca, bir yerdə şəkil çəkdirək. Anası hansıdır?

**Mehriban xanım Əliyeva:** Nənə də gəlsin.

**Prezident İlham Əliyev:** Nənəsi haradadır?

**Mehriban xanım Əliyeva:** Nənə də buradadır.

**Qadın sakin:** Allah sizlərə cansağlığı versin.





**Prezident İlham Əliyev:** Adı Əlidir?

**Sakin:** Bəli, Əlidir.

**Qadın sakin:** Allah saxlasın.

**Mehriban xanım Əliyeva:** Allah saxlasın, böyük oğlan olsun.

**Qadın sakin:** Allah hamınıza cansağlığı versin.

**Digər qadın sakin:** Çox sağ olun, minnətdaram Sizə.

**Qadın sakin:** Bizim də Mehriban xanımla şəklimizi çək.

**Kişi sakin:** Müharibə qurtaran vaxt mən bir şeir yazmışdım. Onun axırıncı kupletini deyim.



**Adaşımdır Baş Komandan,**
**Saxlasın Ulu Yaradan,**
**Bu əsgərdən, bu ordudan,**
**İlham, tərif yaz dəftərə,**
**Bəyan olsun nəsillərə,**
**Əhsəndir bu hünərə,**
**Gəlin gedək Kəlbəcərə.**

**Prezident İlham Əliyev:** Çox sağ olun.

**Qadın sakin:** Kitabı da gətirmişik, Sizə təqdim etməyə.

**Prezident İlham Əliyev:** Sağ olun.

**Qadın sakin:** Həmişə bayraqların uca olsun, heç vaxt enməsin.

**Prezident İlham Əliyev:** Enməyəcək İnşallah. Ancaq biz qabağa gedəcəyik. Burada şəraitiniz necədir? Yaxşıdır?

**Qadın sakin:** Bəli, çox sağ olun.

**Prezident İlham Əliyev:** Bəli, mən də baxdım, çox gözəldir. Geniş otaqlardır, qaz da var. Sovet vaxtında burada qaz olmayıb.

**Qadın sakin:** Yox, olmayıb, məcburən meşələri qırırdıq.

**Prezident İlham Əliyev:** Bəli, meşələri qırırdılar. Buraya qaz çəkmək asan məsələ deyildi.

**Qadın sakin:** Çox çətindir.

**Kişi sakin:** Dağları yarıb gətirmək çox çətindir.

**Qadın sakin:** Görürük, neçə yerdə quruculuq işləri görürsünüz. Allah Sizə ömür versin.

**Prezident İlham Əliyev:** Olmalıdır, siz neçə il əziyyət içində yaşamısınız. Həm fiziki əziyyət, həm mənəvi əzablar çəkmisiniz.

**Qadın sakin:** Bəli, mənəvi əzablar çox çəkmişik.

**Prezident İlham Əliyev:** Çətin, çadır şəhərciyi. Öz yerindən didərgin düşmək çox ağır taledir. Özü də bir il yox, on il yox, otuz il.

**Kişi sakin:** 32 il.

**Prezident İlham Əliyev:** Bəli, 1993-cü ilin aprelindən çıxmısınızsa 32 il. Ona görə, sizin üçün ən gözəl şərait yaradılmalıdır. Bu da İsveçrə layihəsidir. İsveçrədəki şəhərlərə tam uyğundur. Bəli, həm memarlıq, həm də daxildəki dizayn baxımından. Bilirsiniz, İsveçrə dünyada insanın həyat keyfiyyətinə görə birinci yerdədir. Ona görə, biz Kəlbəcər üçün bunu seçmişik.

**Kişi sakin:** Bu havaya, bu iqlimə yaraşandır elə.

**Prezident İlham Əliyev:** Bəli. Necə də gözəldir, o tərəf, bu tərəf gözəl binalardır. Cansağlığı ilə yaşayın.

**Kişi sakin:** Çox sağ olun, cənab Prezident.

**Prezident İlham Əliyev:** Sağlığınıza qismət.

**Kişi sakin:** Allah Sizi var eləsin.

**Qadın sakin:** Təşəkkür edirik. Allah Sizi qorusun.

## İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Gəncə şəhərində bazalt məhsullarının istehsalı müəssisəsinin təməlqoyma mərasimində iştirak ediblər







2025-ci il avqustun 20-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Gəncə şəhərində “Azerbazalt” MMC-nin bazalt məhsullarının istehsalı müəssisəsinin təməlqoyma mərasimində iştirak ediblər.

“Azerbazalt” MMC-nin təsisçisi Rafət Əliyev dövlətimizin başçısına və birinci xanıma müəssisə haqqında məlumat verdi.

Bildirildi ki, burada bazalt tozu və onun əsasında orqanik gübrə istehsalı həyata keçiriləcək. Layihə iki mərhələdə icra olunacaq. Birinci mərhələnin investisiya dəyəri 27 milyon manat təşkil edəcək.

İqtisadiyyat Nazirliyinin tabeliyində Azərbaycan Biznesinin İnkişafı Fondu layihədə 30 faiz paya malikdir. Ümumi sahəsi 4 hektar olan zavodda ildə 360 min ton orqanik gübrənin istehsalı planlaşdırılır. İsveç və Türkiyə texnologiyaları əsasında qurulacaq müəssisədə əsas xammal kimi Göygöl rayonunun “Çaykənd” yatağından çıxarılan yüksəkkeyfiyyətli bazaltdan istifadə ediləcək. Layihənin birinci mərhələsində 200 nəfərin daimi işlə təmin edilməsi nəzərdə tutulur. Layihənin ikinci mərhələsində isə bazalt əsasında yüksək texnoloji innovativ məhsulların – bazalt lifi, 3D printer üçün xammal olan filamenin və digər sənaye materiallarının istehsalı həyata keçiriləcək. Bu isə öz növbəsində layihəyə əlavə strateji dəyər verməklə yanaşı, müdafiə, tikinti və yüksək texnologiyalar sektorlarının müasir və davamlı məhsullarla təmin olunmasına töhfə verəcək. Layihənin ikinci mərhələsi çərçivəsində 300 nəfər işlə təmin olunacaq. Məhsullar həm daxili tələbatı ödəyəcək, həm də xarici bazarlara ixrac olunacaq.

Qeyd edək ki, xüsusilə yüksək texnoloji bazalt məhsullarına beynəlxalq bazarlarda böyük tələbat var. Bazalt mənşəli məhsullar kənd təsərrüfatı və sənaye sahələri üçün yüksək dəyərə malik, ekoloji cəhətdən təhlükəsiz və çoxfunksiyalı materiallardır. Vulkanik mənşəli və yüksək mineral tərkibli bazalt tozu torpağın qida balansını bərpa edir, strukturunu yaxşılaşdırır və məhsuldarlığı artırır, su hövzələrinin turşulaşmasının qarşısını alır. Bazalt liflərindən isə filtrasiya, səsboğucu, istilik buraxmayan, korroziyaya davamlı örtüklər, beton üçün qatqı və tikinti sahəsində istifadə olunan digər yüksək dayanıqlı materiallar istehsal edilir. Bu materiallar yüksək istilik müqaviməti, dayanıqlılığı və ekoloji təmizliyi ilə seçilir. Həmin xüsusiyyətlərinə görə bazalt lifləri aviasiya, raket texnikası, müdafiə və avtomobil sənayesi kimi yüksək texnoloji sahələrdə geniş istifadə olunur.

Bu müəssisənin yaradılması yerli resursların əlavə dəyərə çevrilməsi, ekoloji və dayanıqlı istehsal modeli ilə Azərbaycanın qeyri-neft sənayesinin inkişafına xidmət edəcək, rəqabətqabiliyyətli və ixracyönümlü məhsul istehsalını artıracaq. Müəssisədə xammal kimi yerli bazaltdan istifadə isə daxili təbii ehtiyatların səmərəli dəyərləndirilməsini təmin etməklə, istehsal zəncirini möhkəmləndirəcək.

## İlham Əliyev və birinci xanım Mehriban Əliyeva "Hacıkənd" istirahət kompleksinin tikintisi ilə tanış olublar



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva 2025-ci il avqustun 20-də "Hacıkənd" İstirahət Kompleksinin tikintisi ilə tanış olublar.



Prezidentin İşlər müdiri Ramin Quluzadə dövlətimizin başçısına və birinci xanıma görülən, həmçinin həyata keçiriləcək işlər barədə məlumat verib.

Bildirilib ki, Gəncə şəhərinin Hacıkənd qəsəbəsi və Göygöl rayonunun Bənövşəli kəndinin ərazisini əhatə edən Kompleksin ümumi sahəsi 23 hektara yaxındır.

Eyni vaxtda 452 qonağın qəbulu üçün nəzərdə tutulan Kompleks müxtəlif kateqoriyalı 133 nömrədən, 19 birmərtəbəli standart və 10 ikimərtəbəli VIP kottecdən ibarət olacaq. Füsunkar təbiət mənzərələri ilə zəngin bu məkanda milli və beynəlxalq mətbəxin ləziz təamlarının təqdim olunacağı restoran və kafelər fəaliyyət göstərəcək. Burada qonaqlara istirahətlə yanaşı, sağlamlıqlarını təmin etmək məqsədilə də zəruri şərait yaradılacaq. Onların qapalı hovuzda istirahət etməsi, ənənəvi SPA xidmətlərindən istifadəsi, müasir idman avadanlıqları ilə təchiz olunmuş fitnes zalından faydalanması nəzərdə tutulur.

Kompleksdə istirahətin daha əyləncəli keçməsi üçün karaoke, masaüstü oyunlar otağı və uşaqlar üçün unudulmaz anlar vəd edən rəngarəng xüsusi zonaların fəaliyyət göstərməsi planlaşdırılır. Ərazidə yerləşəcək futbol və basketbol meydançaları, yürüş zolaqları qonaqlara dağ mənzərələri fonunda fəal istirahət imkanı təqdim edəcək.

Eyni zamanda, Kompleksdə işgüzar görüşlər, konfranslar və müxtəlif təyinatlı tədbirlərin təşkili üçün müasir texniki avadanlıqla təchiz ediləcək teatral üslubda 90 nəfərlik konfrans zalı yaradılacaq.

Kompleks fəaliyyətə başladıqdan sonra burada ümumilikdə 300-ə yaxın iş yerinin açılması nəzərdə tutulur.

Qeyd edək ki, bu istirahət mərkəzinin istifadəyə verilməsi bölgədə turizm potensialının möhkəmləndirilməsinə, məşğulluğun səviyyəsinin artırılmasına, ümumilikdə sosial-iqtisadi inkişafa böyük töhfə verəcək. Beləliklə, Qafqaz dağlarının ətəyində, sıx meşələrlə əhatələnmiş "Hacıkənd" İstirahət Kompleksi qonaqlara təbiət qoynunda istirahət imkanları təqdim etməklə regionun turizm xəritəsində mühüm yer tutacaq.

## İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Kəlbəcər şəhərində 4-cü yaşayış kompleksinin təməlqoyma mərasimində iştirak ediblər

2025-ci il avqustun 21-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Kəlbəcər şəhərində 4-cü yaşayış kompleksinin təməlqoyma mərasimində iştirak ediblər.

Azərbaycan Respublikası Prezidentinin Kəlbəcər rayonunda xüsusi nümayəndəsi Bəşir Hacıyev kompleksdə yaradılacaq şərait barədə dövlətimizin başçısına və birinci xanıma məlumat verdi.

Bildirildi ki, bu yaşayış kompleksinin ərazisi 10 hektara yaxın olacaq. Buraya ümumilikdə 807 ailənin köçürülməsi nəzərdə tutulur. Yaşayış kompleksində 128 birotaqlı, 304 ikiotaqlı, 293 üçotaqlı, 82 dördotaqlı olmaqla 807 mənzil inşa ediləcək. Burada 4 mərtəbəli 26 binanın inşası planlaşdırılır. Binaların 1-ci mərtəbəsində məişət və ticarət obyektləri yaradılacaq. Yaşayış kompleksində sakinlərin rahatlığı və asudə vaxtlarının səmərəli təşkili üçün idman meydançaları, velosiped yolları salınacaq, istirahət guşələri, söhbətgahlar, uşaqlar üçün oyun guşələri inşa olunacaq. Binaların hamısı daimi su, elektrik enerjisi və yüksəksürətli internetlə təchiz ediləcək. Ərazidə, həmçinin geniş miqyasda yaşıllıq zonalarının salınması nəzərdə tutulur.






## İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Kəlbəcərdə “Aşağı Vəng”, “Nadirxanlı” və “Çaykənd” kiçik su elektrik stansiyalarının açılışında iştirak ediblər



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva 2025-ci il avqustun 21-də Kəlbəcər rayonunun Vəng kəndində “AzərEnerji” ASC-nin “Aşağı Vəng”, “Nadirxanlı” və “Çaykənd” kiçik su elektrik stansiyalarının açılışında iştirak ediblər.

"AzərEnerji" ASC-nin sədri Baba Rzayev dövlətimizin başçısına və birinci xanıma stansiyalar barədə məlumat verdi.

Qeyd edək ki, Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarının "yaşıl enerji" zonasına çevrilməsi ilə bağlı Prezident İlham Əliyevin qarşıya qoyduğu tapşırıqlara uyğun olaraq Kəlbəcər rayonunda 8,6 meqavatlıq "Aşağı Vəng" və 8,8 meqavatlıq "Nadirxanlı" kiçik su elektrik stansiyaları tikilib. Bu stansiyaları su ilə təmin etmək üçün Lev çayının Tərtər çayına qovuşmasından sonra baş suqəbuledici, eyni zamanda, Tutqu çayının Tərtər çayına qovuşan hissəsində ikinci suqəbuledici yaradılıb. Kaskad su elektrik stansiyaları silsiləsinə daxil olan bu stansiyalar üçün çətin relyefdə ümumilikdə 9300 metr uzunluğunda derivasiya borusu çəkilib. Çay balıqlarının derivasiya borusuna daxil olmasının qarşısının alınması və onların çay ekosistemində saxlanılması üçün xüsusi hidrotexniki qurğularla təchiz olunan suqəbuledicilərdə bütün ekoloji normalara riayət edilib. Hər iki stansiyada quraşdırılmış hidroaqreqatlar zərərli maddələrin suya qarışmasının qarşısını almaqla yanaşı, onun keyfiyyət göstəricilərində heç bir dəyişiklik etmədən suyu aşağı axarda yenidən çaya qaytarır.




Müasir avadanlıqlarla təchiz edilmiş stansiyalar ölkə enerjisisteminin mərkəzləşdirilmiş SCADA sisteminə inteqrasiya olunub. Burada istehsal edilən ekoloji təmiz yaşıl enerji ilə təxminən 25 min nəfər elektrik enerjisi ilə təmin olunacaq.

"Aşağı Vəng" və "Nadirxanlı" stansiyalarında il ərzində 48 milyon kilovat-saat elektrik enerjisinin istehsal edilməsi nəzərdə tutulur. Qənaət edilən təbii qazın həcmi 12,5 milyon kubmetr təşkil edəcək ki, bununla da il ərzində 23 min ton karbon qazının atmosferə atılmasının qarşısı alınacaq. Kəlbəcər rayonunun 8 nəfər sakini stansiyalarda işlə təmin olunub.

"Çaykənd" Kiçik Su Elektrik Stansiyasının isə gücü 5 MVt-dır. Bu, "AzərEnerji" tərəfindən Kəlbəcərdə istismara verilən sayca onbirinci "yaşıl enerji" obyektidir. Stansiya ölkənin ən böyük bolsulu çaylarından birinin - Tərtər çayının üzərində yeni yaradılmış baş suqəbuledicidən 8 min 500 metrlik derivasiya borusu ilə gələn su ilə təchiz olunur. Təxminən 7 min nəfəri ekoloji təmiz yaşıl enerji ilə təmin edəcək stansiyada "ətraf mühitə dost texnologiyalar" tətbiq ediləcək. Rəqəmsal qaydada açılıb-qoşulma, intellektual idarəetmə, operativ monitorinq və təhlil aparılması ilə yanaşı, stansiyaya Bakıdan nəzarət etmək də mümkün olacaq. Stansiyanın enerjisistemə inteqrasiya üçün 5 kilometr uzunluğunda 10 kV-luq elektrik xətti çəkilib. Stansiya ölkə enerjisisteminin mərkəzləşdirilmiş SCADA sisteminə inteqrasiya edilib. Stansiyada il ərzində 15 milyon kilovat-saat elektrik enerjisinin istehsalı, bununla da 3.2 milyon kubmetr təbii qaza qənaət edilməsi və 6 min ton karbon qazının atmosferə atılmasının qarşısının alınması nəzərdə tutulur. Burada 4 nəfər Kəlbəcər sakini işlə təmin olunub.

Prezident İlham Əliyev "Aşağı Vəng", "Nadirxanlı" və "Çaykənd" kiçik su elektrik stansiyalarının açılışını etdi.

Xatırladaq ki, dövlətimizin başçısının göstərişi ilə həyata keçirilən işlər nəticəsində Qarabağ və Şərqi Zəngəzurda əlavə 3 su elektrik stansiyasının istismara verilməsi ilə bu cür stansiyaların sayı ümumilikdə 38-ə, ümumi gücü isə 307 MVt-a çatdırılıb. Sistemli şəkildə tikilib istismar olunan bu stansiyalar artıq iqtisadiyyata, "yaşıl enerji"nin genişlənməsinə, ətraf mühitin qorunmasına öz töhfəsini verir. Bu günə qədər su elektrik stansiyalarında 1,5 milyard kVts yaşıl enerji istehsal olunub, 335 milyon kubmetr qaza qənaət edilib, 620 min ton karbon qazının atmosferə atılmasının qarşısı alınıb. Su elektrik stansiyaları azsulu dövrdə 80 MVt, bolsulu dövrdə isə 200 MVt-dan artıq gücdə 24 saat fasiləsiz yaşıl enerji istehsal edir.

## İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Ağdərədə Vəngli və Kolatağ kəndlərinin sakinləri ilə görüşüblər



2025-ci il avqustun 21-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Ağdərə rayonunun Vəngli kəndində fərdi evlərin və infrastrukturun bərpası sahəsində görülən işlərlə tanış olub, kənd sakini Vəkil Mamedovun evinə baş çəkiblər.

Sonra dövlətimizin başçısı və birinci xanım Vəngli və Kolatağ kəndlərinin sakinləri ilə görüşüb söhbət ediblər.

**Prezident İlham Əliyev:** Salam, xoş gəlmisiniz.

**Sakinlər:** Cənab Prezident, xoş gəlmisiniz.

**Prezident İlham Əliyev:** Mən bilirəm ki, Kolatağ və Vəngli kəndlərinə keçmiş köçkünlər artıq 5-6 gün bundan əvvəl gəliblər. Xoş gəlmisiniz.



**Sakinlər:** Çox sağ olun. Siz də xoş gəlmisiniz.

**Prezident İlham Əliyev:** Burada sizin üçün çox gözəl şərait yaradılıb. Mənzillər hamısı təmirli, şərait, həyətyanı sahələr, su, bütün infrastruktur, hər şey var. Ən önəmlisi də gözəl təbiət və Vətən torpağı. Bu münasibətlə sizi təbrik edirəm.

**Sakinlər:** Bəli, cənab Prezident, var olun.

**Prezident İlham Əliyev:** Bu gün Mehriban xanımla Kolatağ kəndində də olduq, indi burada - Vəngli kəndindəyik. Biz burada əvvəllər də olmuşuq. Keçən dəfə gələndə bu kənd bərbad vəziyyətdə idi. İndi buranı belə gözəl bərpa etdik, təmir etdik. Burada rahat yaşamaq üçün bütün şərait var.

**Sakinlər:** Allah Sizi qorusun, Azərbaycanın uzunömürlü Prezidenti, Sizi öpürük. Sizə cansağlığı, uzun ömür arzulayırıq. Allah Sizi qorusun! Başına dönüm. Gələn ayaqlarınıza qurban. Sizə gələn azar bizə gəlsin. Bu günə görə Allahımızdan çox razıyıq. Şükür bu günü bizə yaşatdınız, arzumuza çatdıq. Allah daim köməyiniz olsun!

**Kişi sakin:** Ulu Öndərimizin dediyi kimi, ata-baba torpaqlarımıza qayıtdıq.

**Prezident İlham Əliyev:** Allaha şükür, təbriklər.

**Qadın sakin:** Allah Sizi qorusun, cənab Prezident.

**Prezident İlham Əliyev:** Çox sağ olun. Burada, doğma torpaqda rahat, salamat yaşayın.

**Sakinlər:** Allah Sizə uzun ömür versin, bu xalqın, bu camaatın üstündən əskik eləməsin. Şükür bu günümüzə, dünya durduqca durasınız.







**Prezident İlham Əliyev:** Siz də sağ olun. Xoş gəlmisiniz.

**Kişi sakin:** Allah Sizi qorusun!

**Prezident İlham Əliyev:** Burada elə gözəl hava var ki, heç Bakıda belə hava yoxdur.

**Sakinlər:** Allah Sizi Azərbaycanın üstündən əskik eləməsin. Allah Sizə uzun ömür, cansağlığı versin. Dünya durduqca balalarınla birlikdə var olasınız.

**Prezident İlham Əliyev:** Köçkünlük dövrü bitdi, getdi.

**Sakinlər:** Çox sağ olun, Allah Sizə uzun ömür versin. Allah köməyiniz olsun, Siz bizim alnımızdan ləkəni götürdünüz, şükür bu günümüzə.

**Prezident İlham Əliyev:** Uzun illər köçkünlük həyatı yaşamaq böyük əzabdır.

**Kişi sakin:** Çox zülmdür, zülm çəkmişik.

**Prezident İlham Əliyev:** Həm fiziki, həm mənəvi əzab. Torpaqları da biz döyüşərək aldıq. Heç kim onları bizə qaytarmadı.

**Sakinlər:** Allah o yumruğunuzu çox möhkəm eləsin. Allah Sizi Azərbaycanın üstündən əskik etməsin, amin. Uzun ömür, cansağlığı arzulayırıq.

**Prezident İlham Əliyev:** Sağ olun. Gəlin, birlikdə şəkil çəkdirək.

**Sakinlər:** Şükür bu günümüzə. Arzumuz idi, arzumuza çatdıq. İmişlidə, Kürdəmirdə yaşadıq.

**Prezident İlham Əliyev:** Orada da qaçqın düşərgəsində?

**Sakinlər:** Şəhərcikdə. Bizi dolandırmısınız. Başqa ölkələrdə köçkünlərə baxırıq, Sizə minnətdarıq. Siz bizə yaxşı baxmısınız, Sizdən hərtərəfli razıyıq. Uzunömürlü Prezidentimiz ol! Allahdan arzu edirəm "Dəmir yumruğ"unuz var olsun. Qarabağ Azərbaycandır! Yaşasın Prezidentimiz! Yaşasın Azərbaycan! Millətimiz sağ olsun! Yaşasın bizim Prezidentimiz!

**Prezident İlham Əliyev:** Sağ olun. Görünür, bu cavan qızlar işğal dövründə dünyaya gəliblər.

**Sakinlər:** Bəli, bəli.

**Gənc qız:** Bəli, cavan olsaq da, həmişə ürəyimiz Vətənlə döyünüb.

**Qadın sakin:** 1992-ci ildə buradan piyada getmişəm, nə zülmlə, nə zillətlə. İndi Allaha şükür, arzumuza çatdıq. Allah, Prezidentimiz İlham Əliyevi var elə, bizi bu günə çatdırdı. Tanrı, Mehriban xanımı var elə, dövlətimizi uca elə. Öpürəm Sizi. Allah ömrümdən kəsib Sizin ömrünüzə calasın.

**Prezident İlham Əliyev:** Birlikdə deyəkmi Qarabağ Azərbaycandır!?

**Sakinlər:** Qarabağ Azərbaycandır! Yaşasın bizim Lider! Allah köməyiniz olsun!

**Prezident İlham Əliyev:** Salamat qalın.

**Sakinlər:** Yaxşı yol.

***

Qeyd edək ki, Prezident İlham Əliyev, birinci xanım Mehriban Əliyeva və oğulları Heydər Əliyev 2023-cü il noyabrın 7-də Vəngli kəndində olublar.

Xaçın çayının sahilində yerləşən kənd Ağdərə rayonunun eyniadlı inzibati ərazi dairəsinə daxildir. Kənd 1992-ci ildə Ermənistan silahlı qüvvələri tərəfindən işğal edilmişdi. 2023-cü ilin sentyabrında Azərbaycan Ordusu tərəfindən həyata









keçirilmiş antiterror tədbirləri nəticəsində kənd işğaldan azad olunub.

Kənddəki 391 fərdi evdən 52-si yararsız, 339-u isə qismən yararlı olub. 60 fərdi ev artıq əsaslı bərpa edilib, sentyabrın 1-dək daha 60 fərdi evin bərpası nəzərdə tutulub, 2026-cı ildə isə 219 fərdi ev təmir və bərpa olunacaq.

Bu il avqustun 15-də 22 ailə, ümumilikdə 83 nəfər doğma Vəngli kəndinə qayıdıb. Avqust ayının sonunadək isə daha 38 ailə (143 nəfər) bu kəndə köçürüləcək.

Hazırda Vəngli kəndində müasir sosial infrastrukturun qurulması istiqamətində işlər davam etdirilir. Belə ki, 4 transformator və 3 kilometr uzunluğunda mövcud elektrik xətti təmir edilib, əlavə olaraq 1,5 kilometr uzunluğunda xəttin çəkilməsi işləri görülür. Kənddə 60 ev su ilə təmin olunub, sentyabr ayının sonlarınadək kəndin içməli su ilə təminatı tam başa çatdırılacaq. Mövcud qaz xətti bərpa olunub, 3 min 500 poqonometr xəttin isə bərpası nəzərdə tutulub. Bundan başqa, kəndə yeni qaz xətti çəkilib və əlavə olaraq yeni hissənin çəkilişi planlaşdırılır.

Kənddə istirahət parkı salınıb. Sakinlərin istirahəti və asudə vaxtlarının səmərəli təşkili üçün parkda hər cür şərait yaradılıb. Ərazidə bayraq meydanı, idman və uşaq oyun meydançaları, rekreasiya zonası və yaşıllıq zolağı salınıb.

# İlham Əliyevin Çinə işgüzar səfəri

## Tiencin şəhərində İlham Əliyevin Çinin Sədri Si Cinpin ilə görüşü keçirilib



2025-ci il avqustun 31-də Çinin Tiencin şəhərində Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Çin Xalq Respublikasının Sədri Si Cinpin ilə görüşü olub.

Əvvəlcə Azərbaycan Prezidenti İlham Əliyev və Çin Xalq Respublikasının Sədri Si Cinpin birgə foto çəkdirdilər.

Prezident İlham Əliyevi "mənim əziz dostum" deyərək salamlayan Çin Xalq Respublikasının Sədri Si Cinpin dövlətimizin başçısına onun dəvətini qəbul edərək "ŞƏT plyus" formatında Zirvə toplantısında, həmçinin Çinin xarici hərbi müdaxilə və faşizm üzərində qələbəsinin 80 illiyi münasibətilə keçiriləcək təntənəli tədbirlərdə və hərbi paradda iştirakına görə təşəkkürünü bildirdi.

Si Cinpin Azərbaycan ilə Çin arasında 30 ildən artıq dövr ərzində uğurlu əməkdaşlıq münasibətlərinin qurulduğunu və hazırda əlaqələrimizin hərtərəfli strateji tərəfdaşlıq müstəvisində inkişaf etdiyini vurğulayaraq, Prezident İlham Əliyevin Çin Xalq Respublikasına dövlət səfərini məmnunluqla xatırladı, bu səfər çərçivəsində aparılmış müzakirələrin əhəmiyyətinə toxundu.

Çin Xalq Respublikasının Sədri ölkələrimiz arasında ticarət dövriyyəsinin artdığını, energetika, o cümlədən bərpaolunan enerji, rəqəmsallaşma sahələrində əməkdaşlığın genişləndiyini vurğuladı. Si Cinpin "Bir kəmər, bir yol" layihəsi çərçivəsində də Azərbaycan-Çin əməkdaşlığının möhkəmləndiyini deyərək, Azərbaycan ərazisindən Çin mallarının daşınmasının əhəmiyyətini qeyd etdi, bu xüsusda Trans-Xəzər marşrutunun önəminə toxundu.

Çin Xalq Respublikasının Sədri bildirdi ki, ölkəsi Azərbaycanın Şanxay Əməkdaşlıq Təşkilatı ilə əlaqələrinin genişlənməsini dəstəkləyir.

Si Cinpin Azərbaycan ilə Ermənistan arasında davamlı sülhün təmin olunması istiqamətində birbaşa



dialoqun əhəmiyyətini qeyd etdi. Həmçinin Çin Xalq Respublikasının Sədri ölkəmizin suveren inkişaf modelinin Çin tərəfindən dəstəkləndiyini dedi, Çinin başqa ölkələrin daxili işlərinə qarışmamaq prinsipinə sadiq olduğunu vurğuladı.

Dövlətimizin başçısı dəvətə görə təşəkkürünü bildirdi, Çin Xalq Respublikasının xarici hərbi müdaxilə üzərində qələbəsinin 80 illiyi münasibətilə təbriklərini çatdırdı.

Prezident İlham Əliyev də öz növbəsində Çin Xalq Respublikasına dövlət səfərini məmnunluqla xatırlayaraq, səfər zamanı Si Cinpinlə görüşlərini və aparılmış dialoqun iki ölkə arasında əməkdaşlığın hərtərəfli inkişafına ciddi təkan verdiyini qeyd etdi, müfəssəl strateji tərəfdaşlığa dair imzalanmış sənədin əhəmiyyətini vurğuladı.

Azərbaycan Prezidenti ölkəmizin xarici siyasətində Çin Xalq Respublikası ilə əlaqələrin inkişaf etdirilməsinin prioritet istiqamətlərdən biri olduğunu bildirdi.

Dövlətimizin başçısı Azərbaycanın Tayvan, Honkonq və Sincan-Uyğur Muxtar Rayonu məsələlərində Çinin mövqeyini dəstəklədiyini və Tayvanda keçirilmiş seçkiləri pisləyən ilk ölkələrdən biri olduğunu qeyd etdi.

Prezident İlham Əliyev ölkələrimiz arasındakı ticarət münasibətlərində əsaslı artımın müşahidə olunduğunu dedi. Dövlətimizin başçısı “Bir kəmər, bir yol” layihəsinə toxunaraq, onun vacib tərkib hissəsi olan və Azərbaycan ərazisindən keçən Orta Dəhliz vasitəsilə daşımaların, xüsusilə Çin yüklərinin daşınmasının artmasını bu dəhlizin səmərəliliyinin və cəlbediciliyinin nümunəsi kimi qiymətləndirdi.

Prezident İlham Əliyev, həmçinin Azərbaycan ilə Ermənistan arasında normallaşma və sülh gündəliyi üzrə danışıqların ikitərəfli əsasda aparıldığını dedi, artıq iki ölkə arasında sülhün bərqərar olduğunu vurğuladı.

Görüşdə ölkələrimizin beynəlxalq təşkilatlar çərçivəsində də daim bir-birini dəstəklədiyi məmnunluqla qeyd edildi. Vizasız gediş-gəlişə dair sənədin qüvvəyə minməsindən sonra son dövrlərdə turizm sahəsində əlaqələrin inkişaf etdiyi vurğulandı.

Söhbət zamanı Azərbaycanla Çin arasında əməkdaşlığın perspektivlərinə dair geniş fikir mübadiləsi aparıldı.

## İlham Əliyev Tiencində "China Energy Engineering Corporation Limited" şirkətinin rəhbəri vəzifəsini icra edən Ni Cen ilə görüşüb



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev 2025-ci il avqustun 31-də Çinin Tiencin şəhərində "China Energy Engineering Corporation Limited" ("Energy China") şirkətinin prezidenti və sədri vəzifəsini icra edən Ni Cen ilə görüşüb.

Görüşdə ölkəmizlə, həmçinin SOCAR ilə bu şirkət arasında alternativ və bərpaolunan enerji layihələrini əhatə edən səmərəli əməkdaşlıqdan məmnunluq bildirildi.

Bu xüsusda, "Energy China"nın yaşıl enerji sahəsində, o cümlədən Azərbaycanda günəş elektrik stansiyalarının, dənizdə külək enerjisi stansiyalarının tikintisi sahəsində əməkdaşlığı vurğulandı.



Ni Cen ölkəmizdə yeni layihələr, o cümlədən tullantı sularının təmizlənməsi, emalı və təkrar istifadəsi, su ehtiyatlarının idarə edilməsi ilə bağlı əməliyyatların optimallaşdırılması, həmçinin su hövzələrində fotovoltaik elektrik panellərinin birgə inşası layihələrini həyata keçirməkdə maraqlı olduqlarını bildirdi.

## Tiencində dövlət və hökumət başçılarının və xanımlarının şərəfinə ziyafət verilib, konsert proqramı təqdim olunub



2025-ci il avqustun 31-də "Tianjin Meijiang" Beynəlxalq konqres və sərgi mərkəzində Çin Xalq Respublikasının Sədri Si Cinpin və birinci xanım Pen Liyuanın adından dövlət və hökumət başçıları və xanımlarının şərəfinə ziyafət verilib, konsert proqramı təqdim olunub.

Çin Xalq Respublikasının Sədri Si Cinpin və birinci xanım Pen Liyuan Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevi və birinci xanım Mehriban Əliyevanı qarşıladılar.

Sonra dövlət və hökumət başçıları və xanımları birgə foto çəkdirdilər.







## Tiencində Azərbaycan Prezidenti İlham Əliyevin Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanla görüşü olub





2025-ci il sentyabrın 1-də Çinin Tiencin şəhərində Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğanla görüşü olub.

Görüşdə qardaşlıq və strateji müttəfiqliyə əsaslanan ikitərəfli əlaqələrimizin bütün istiqamətlərdə, o cümlədən enerji, nəqliyyat sahələrində daha da genişlənməsindən məmnunluq ifadə olunub.

Söhbət zamanı SOCAR ilə Türkiyənin “Botaş” şirkəti arasında əməkdaşlığa toxunulub və bu xüsusda Azərbaycan qazının Qətərin maliyyə dəstəyi ilə Türkiyə ərazisindən Suriyaya çatdırılmasının önəmi qeyd edilib. Həmçinin Azərbaycanla Türkiyənin digər ölkələrdə birgə enerji layihələrinin icrasına dair məsələlər müzakirə olunub.

Bir neçə gün əvvəl Qars-İğdır-Dilucu dəmir yolu xəttinin təməlinin qoyulmasının əhəmiyyəti vurğulanıb, Azərbaycanda, o cümlədən Naxçıvan regionunda həyata keçirilən dəmir yolu layihələri barədə fikir mübadiləsi aparılıb.

Görüşdə Azərbaycanla Ermənistan arasında normallaşma prosesi müzakirə olunub və bu xüsusda Türkiyənin regional məsələlərdə sabitləşdirici rolu yüksək qiymətləndirilib.

Türk Dövlətləri Təşkilatının bu il Azərbaycanda keçiriləcək növbəti Zirvə görüşünün əhəmiyyətinə toxunulub.

Dövlət başçıları Azərbaycan-Türkiyə strateji müttəfiqlik əlaqələrinin perspektivləri və qarşılıqlı maraq doğuran digər məsələlərlə bağlı fikir mübadiləsi aparıblar.

## İlham Əliyev Tiencində Asiya İnfrastruktur İnvestisiya Bankının prezidenti ilə görüşüb



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev 2025-ci il sentyabrın 1-də Çinin Tiencin şəhərində Asiya İnfrastruktur İnvestisiya Bankının prezidenti Cin Liqun ilə görüşüb.

Görüşdə Azərbaycanla Asiya İnfrastruktur İnvestisiya Bankı arasında əlaqələrin mövcud səviyyəsindən məmnunluq ifadə olundu, bankın ölkəmizlə müxtəlif sahələrdə, o cümlədən yaşıl enerji sahəsində uğurlu əməkdaşlığı qeyd edildi.

Söhbət zamanı Orta Dəhliz, metro tikintisi, su, yaşıl enerji ilə bağlı gələcək əməkdaşlıq məsələləri müzakirə olundu.

Sonda strateji əməkdaşlıq üzrə imzalanmış birgə bəyannamə dövlətimizin başçısının və bankın prezidentinin iştirakı ilə mübadilə edildi.



## İlham Əliyevin Ermənistanın Baş naziri Nikol Paşinyan ilə görüşü olub



Şanxay Əməkdaşlıq Təşkilatının (ŞƏT) Sammiti çərçivəsində 2025-ci il sentyabrın 1-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Ermənistan Respublikasının Baş naziri Nikol Paşinyan ilə görüşüb.

Liderlər Azərbaycan-Ermənistan sülh gündəliyini müzakirə edərək, konstruktiv dialoqun, qarşılıqlı etimadın və regional sabitliyin əhəmiyyətini vurğulayıblar. Hər iki lider sülhün və normallaşma prosesinin irəlilədilməsinə dair beynəlxalq dəstəyi bir daha təsdiqləyən son Vaşinqton Sammiti zamanı əldə edilən müsbət dinamikanı qeyd ediblər.

Tərəflər təmasları davam etdirmək barədə razılığa gəliblər.

## Çinin Tiencin şəhərində "ŞƏT plyus" formatında görüş keçirilib

Çinin Tiencin şəhərində "ŞƏT plyus" formatında görüş keçirilib.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev tədbirdə çıxış edib.



**Prezident İlham Əliyevin çıxışı**




– Hörmətli Çin Xalq Respublikasının Sədri Si Cinpin.

Hörmətli nümayəndə heyətlərinin rəhbərləri, xanımlar və cənablar.

İlk növbədə, ŞƏT Sammitinə dəvətə, səmimi qəbula və tədbirin yüksək səviyyədə təşkilinə görə Sədr Si Cinpinə səmimi minnətdarlığımı bildirirəm.

Dost Çin dövlətini ŞƏT-də uğurlu sədrliyi münasibətilə təbrik edir, qarşıya qoyulan məsələlərin həyata keçirilməsində uğurlar arzulayıram.

Azərbaycanla Çin arasında səmimi dostluq münasibətləri və hərtərəfli strateji tərəfdaşlıq bağları mövcuddur. Bu əlaqələrin dərinləşdirilməsi Azərbaycanın xarici siyasətinin mühüm istiqamətlərindən biridir.

Son iki ildə əlaqələrimiz keyfiyyətcə yeni səviyyəyə yüksəlib. Ötən il Astanada keçirilmiş ŞƏT Sammiti çərçivəsində biz strateji tərəfdaşlıq qurduq. Bu il mənim Çinə dövlət səfərim zamanı hərtərəfli strateji tərəfdaşlıq münasibətlərinin təsis edilməsi barədə Birgə Bəyanat imzalandı. Bu tarixi hadisə Azərbaycan-Çin münasibətlərində yeni bir səhifə açdı.

Azərbaycan beynəlxalq sülhün, təhlükəsizliyin və inkişafın təşviqi məqsədilə Çin tərəfindən irəli sürülmüş Qlobal İnkişaf Təşəbbüsünü, Qlobal Təhlükəsizlik Təşəbbüsünü və Qlobal Sivilizasiya Təşəbbüsünü fəal şəkildə dəstəkləmişdir. Biz, həmçinin Çin Xalq Respublikasının Sədri tərəfindən irəli sürülmüş Qlobal İdarəetmə Təşəbbüsünü dövlətlərin suveren bərabərliyi, BMT Nizamnaməsi və beynəlxalq hüquqa hörmət əsasında beynəlxalq münasibətlərin yaxşılaşdırılmasına yönəlmiş mühüm və vaxtında atılmış bir addım kimi alqışlayırıq.

Azərbaycan ilə Çin arasındakı qarşılıqlı fəaliyyət ikitərəfli gündəliyin bütün spektri üzrə möhkəmlənir. Bu, siyasi, iqtisadi-ticari, sərmayə, enerji, nəqliyyat-logistika sahələrini, rəqəmsal iqtisadiyyatın, elm və texnologiyanın, təhsil və mədəniyyətin inkişafını ehtiva edir. Bu ilin iyul ayından bəri hər iki ölkənin vətəndaşları üçün vizasız rejim tətbiq olunur ki, bu da turizmin inkişafına təkan verir.

Azərbaycan regionda Çinin etibarlı tərəfdaşıdır. Biz beynəlxalq və regional sülhün və təhlükəsizliyin qorunmasına töhfə veririk, genişmiqyaslı iqtisadi, nəqliyyat və enerji layihələri həyata keçiririk.

Azərbaycan Çin Xalq Respublikasının Sədri tərəfindən irəli sürülmüş “Bir kəmər, bir yol” təşəbbüsünü ilk dəstəkləyən ölkələrdən biridir. Bu istiqamətdə ciddi praktiki layihələr reallaşdırırıq.

Azərbaycan Avrasiyanın nəqliyyat-logistika mərkəzlərindən biridir. Biz beynəlxalq nəqliyyat dəhlizlərini fəal şəkildə inkişaf etdirir, müasir infrastruktur yaradırıq. Şərq-Qərb və Şimal-Cənub dəhlizləri yeni iqtisadi və nəqliyyat perspektivləri yaradıb.

Azərbaycan Ələt Beynəlxalq Dəniz Limanının buraxılış qabiliyyətini ildə 15 milyon tondan 25 milyon tona çatdırmaq niyyətindədir.

Orta Dəhliz Azərbaycan vasitəsilə Çin və Mərkəzi Asiyanı Avropa ilə birləşdirən etibarlı və təhlükəsiz marşrutdur. 2022-ci ildən bəri Orta Dəhliz üzrə Azərbaycan vasitəsilə yükdaşımaların həcmi təxminən 90 faiz artıb. Yüklərin bu dəhliz üzrə keçid müddəti əhəmiyyətli dərəcədə azalıb.

Azərbaycanın əsas hissəsi ilə Naxçıvan Muxtar Respublikası arasında bağlantının yaradılması üzrə bu yaxınlarda əldə olunmuş razılaşmalar beynəlxalq yükdaşımalar üçün tranzit imkanlarının genişlənməsinə xidmət edəcək.

Əminəm ki, yaxın gələcəkdə Zəngəzur dəhlizi həm Orta Dəhlizin, həm də Şimal-Cənub dəhlizinin növbəti mühüm seqmentinə çevriləcək, sülhü, çoxtərəfli tərəfdaşlığı möhkəmləndirəcək və Azərbaycan sərhədinin şərqində, qərbində, şimalında və cənubunda yerləşən yaxın və uzaq qonşularımıza fayda gətirəcək.

Sonda hörmətli Sədr Si Cinpinə dəvətə görə bir daha təşəkkürümü bildirir, Sammit iştirakçılarına səmərəli iş arzulayıram.

## Pekində yapon işğalına qarşı Çin xalq müqaviməti və İkinci Dünya müharibəsində Qələbənin 80-ci ildönümünə həsr olunmuş parad keçirilib



2025-ci il sentyabrın 3-də Çinin paytaxtı Pekində yapon işğalına qarşı Çin xalq müqaviməti və İkinci Dünya müharibəsində qazanılmış Qələbənin 80-ci ildönümünə həsr olunmuş parad keçirilib.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva paradı izləmək üçün Çinin paytaxtı Pekindəki Tiananmen Meydanına gəliblər.

Çin Xalq Respublikasının Sədri Si Cinpin və birinci xanım Pen Liyuan Prezident İlham Əliyevi və birinci xanım Mehriban Əliyevanı qarşılayıblar.





# İlham Əliyevin Füzuli, Xocalı, Xocavənd və Xankəndiyə səfəri

## İlham Əliyev Füzuli rayonunun yeni salınacaq Qaraxanbəyli kəndinin təməlini qoyub






Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev 2025-ci il sentyabrın 14-də Füzuli rayonunun yeni salınacaq Qaraxanbəyli kəndinin təməlini qoyub.

Ağdam, Füzuli və Xocavənd rayonlarında Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəsi Emin Hüseynov dövlətimizin başçısına görüləcək işlər barədə məlumat verdi.

Bildirildi ki, yeni salınacaq kəndə Ermənistanın işğalı zamanı dağıdılmış Qaraxanbəyli və Merdinli kəndlərinin sakinləri yerləşdiriləcək.

Layihə iki mərhələdə icra olunacaq. Gələn il yekunlaşdırılması nəzərdə tutulan birinci mərhələ 87 hektara yaxın ərazidə həyata keçiriləcək. Bu mərhələdə 404 ailənin, ümumilikdə 1861 nəfərin köçürülməsi nəzərdə tutulur. Ərazidə 81 ədəd iki, 202 ədəd üç, 101 ədəd dörd, 20 ədəd beşotaqlı olmaqla 404 fərdi ev inşa ediləcək. Kənddə sosial infrastrukturun, o cümlədən inzibati və xidmət binalarının, məktəbin, uşaq bağçasının, tibb məntəqəsinin inşası, 16 kilometrə yaxın daxili yolların, həmçinin elektrik, qaz, su və kanalizasiya xətlərinin çəkilməsi planlaşdırılır.

2027–2030-cu illəri əhatə edəcək ikinci mərhələ isə 230 hektara yaxın ərazidə icra olunacaq. Həmin dövr buraya 1075 ailənin, ümumilikdə 4093 nəfərin köçürülməsi nəzərdə tutulur. İki, üç, dörd və beşotaqlı olmaqla 771 fərdi ev və iki-üçmərtəbəli yaşayış binaları inşa ediləcək. İkinci mərhələ çərçivəsində də məktəbin və 2 uşaq bağçasının inşası planlaşdırılır. Əhalinin və evlərin sayı kəndin 20 illik perspektiv inkişafı nəzərə alınmaqla müəyyən edilib.

## İlham Əliyev Qırmızı Bazar, Hadrut qəsəbələrinin və Sos kəndinin sakinləri ilə görüşüb

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev 2025-ci il sentyabrın 14-də Xocavənd rayonunun Qırmızı Bazar qəsəbəsində Qırmızı Bazar, Hadrut qəsəbələrinin və Sos kəndinin sakinləri ilə görüşüb.



Dövlətimizin başçısı sakinlərlə söhbət etdi.

**Qadın sakin:** Xoş gəlmisiniz.

**Prezident İlham Əliyev:** Sağ olun, siz də xoş gəlmisiniz.

**Qadın sakin:** Xoş gəlmisiniz, şükür bugünkü günümüzə, 30 illik həsrətə son qoyduq.

**Prezident İlham Əliyev:** Xoş gəlmisiniz, son qoyduq.

**Qadın sakin:** Allah canınızı sağ eləsin.




**Prezident İlham Əliyev:** Sağ olun.

**Kişi sakin:** Hörmətli Prezident, xoş gəlmisiniz.

**Qadın sakinlər:** Allah köməyiniz olsun.

**Prezident İlham Əliyev:** Çox sağ olun.

**Digər kişi sakin:** Xoş gəlmisiniz. Siz gələn yollar, ayağınız dəyən torpaqlar cənnətə dönür.

**Prezident İlham Əliyev:** Sağ ol.

**Kişi sakin:** 30 il işğalda olmuş torpaqlarımızı geri qaytardınız, bizim torpağımızı, vətənimizi bizə qaytardınız.

**Prezident İlham Əliyev:** Elədir, siz də xoş gəlmisiniz.

**Kişi sakin:** Çox sağ olun, var olun, minnətdarıq.

**Qadın sakin:** Allah Sizə dəyməsin.

**Prezident İlham Əliyev:** Sağ olun, xoş gördük. Salaməleyküm.

**Kişi sakin:** Xoş gəlmisiniz, Allah köməyiniz olsun.

**Sakinlər:** Sağ olun. Xoş gəlmisiniz, Allah köməyiniz olsun, Allah Sizə cansağlığı versin. Şükür bugünkü günümüzə, Allah canınızı sağ eləsin. Bütün bunları Siz etdiniz.

**Prezident İlham Əliyev:** Doğrudan da tarixi günlər yaşayırıq. Sizi ürəkdən təbrik edirəm.

**Sakinlər:** Çox sağ olun.

**Prezident İlham Əliyev:** Doğma Qarabağ torpağında artıq gəlib yerləşdiniz. Burada bir neçə kəndin sakinləri görüşə gəlib. Bu gün bir neçə kənddə olmuşam, sabah da davam edəcək. Bütün Qarabağ artıq tam nəzarət altındadır və bildiyiniz kimi, bu ərazi iki il bundan əvvəl işğalçılardan azad edildi. Elə bu günlərdə - sentyabrın 19-20-də şanlı Ordumuz separatçılığa son qoydu. Onunla da separatçılığın kitabı bağlandı və Azərbaycan tam suverenliyini bərpa etdi. “Böyük Qayıdış” Proqramı da uğurla icra edilir. Biz təqribən iki aydan sonra tarixi Zəfərimizin beşillik yubileyini qeyd edəcəyik.






Son beş ilin tarixi Zəfər tarixidir, şanlı tariximizdir və şadam ki, siz artıq öz doğma dədə-baba torpağınıza gəlmisiniz, yerləşmisiniz. Sizin üçün burada şərait yaradılıb, evlər tikilib, təmir edilib. Bütün şərait var -– su, qaz, elektrik, istilik, məktəb, tibb məntəqəsi, yollar. Ən önəmlisi bura doğma Qarabağ diyarıdır. Gözəl mənzərəli yerlərdir, hər tərəf dağ, meşə, bulaq, su da boldur. Yəni, burada, sadəcə olaraq, rahat yaşamaq, qurub-yaratmaq, uşaqları böyütmək, onlara yaxşı tərbiyə vermək üçün bütün şərait var. Yəni, artıq Azərbaycan xalqı bundan sonra sülh içində yaşayacaq.

**Sakinlər:** Amin.

**Prezident İlham Əliyev:** Amma sülh şəraitində yaşamaq üçün əlbəttə ki, güc lazım idi. Allah bütün şəhidlərimizə rəhmət eləsin. Bilirsiniz, biz uzun illər çalışırdıq ki, Qarabağ münaqişəsi sülh yolu ilə həll olunsun. Ancaq Ermənistan tərəfi, onun arxasında duranlar başqa fikirdə idilər. Yəni, onlar torpağımızı geri qaytarmaq fikrində deyildilər. Onlar və onların arxasında duranlar, böyük dövlətlərin rəhbərləri onlara ürəkdirək verərək elə bil ki, bu işğalı daimi etmək istəyirdilər. Amma bir şeyi hesablaya bilməmişdilər, o da Azərbaycan xalqının iradəsi, gücü, Vətən torpağına olan bağlılığı, Azərbaycan əsgərinin şücaəti, qəhrəmanlığı və xalqımızın birliyidir. Onu hesablaya bilməmişdilər. Əgər Ermənistan rəhbərliyi vaxtında mənim sözlərimə baxıb bizim torpaqlardan öz xoşu ilə çıxsaydı, İkinci Qarabağ müharibəsinə, antiterror əməliyyatına ehtiyac qalmazdı, üç mindən çox şəhidimiz olmazdı.

**Sakinlər:** Allah rəhmət eləsin.



**Prezident İlham Əliyev:** Allah onlara rəhmət eləsin. Ancaq Vətən uğrunda şəhid olmaq, əlbəttə ki, böyük qəhrəmanlıqdır və onların xatirəsini biz əbədi yadımızda saxlayacağıq, onların xatirəsinə əbədi hörmət edəcəyik.

Bu gün biz bu gözəl Qarabağ diyarında yığışmışıq. Bunun əsas səbəbi xalqımızın birliyidir və gənc nəslin vətənpərvərlik ruhunda tərbiyə almasıdır. Biz bütün dünyaya sübut etmişik ki, güclü xalqıq, iradəli xalqıq, döyüş meydanında da qələbə qazanmışıq, sülhə də hər zaman hazır idik. Amma sülh ədalətli sülh olmalı idi, beynəlxalq hüquq və tarixi ədalət üzərində sülh olmalı idi. Son beş ilin tarixi onu göstərdi ki, heç bir xarici qüvvə bizim iradəmizə təsir edə bilmədi. 2023-cü ilin sentyabr hadisələri, antiterror əməliyyatı bir daha göstərdi ki, heç kim bizim qabağımızda dura bilməz. Çünki bizim işimiz haqq işidir, biz öz torpağımız uğrunda vuruşmuşuq, bizim başqa ölkələrin torpağında gözümüz yoxdur, amma öz torpağımızdan bir qarış belə heç kimə güzəştə gedən deyilik və bunu sübut etmişik. Bu gün bütün dünya Azərbaycan xalqını haqlı olaraq müzəffər xalq kimi tanıyır. 44 gün və bir gün - heç bir ölkə son 80 il ərzində belə mütləq, tam və ədalətli qələbə qazanmamışdır. Bununla fəxr edirik. Fəxr edirik, necə ki, müharibədə döyüşmüşük, vuruşmuşuq, eləcə də sülh şəraitində qurub-yaradırıq. Ermənilər bizim torpaqlarımızı viran qoyublar. Sizin yaşadığınız kənd və şəhərləri yerlə-yeksan etmişdilər. Özlərinin yaşadıqları şərait elə idi ki, necə deyərlər, özünə hörmət edən insan heç vaxt orada yaşamazdı. Amma görün, biz beş il ərzində şəhərlər, kəndlər, körpülər, tunellər, su anbarları, elektrik stansiyaları qurmuşuq. Yəni, burada – Qarabağda və Zəngəzurda gedən quruculuq dünyanın heç bir yerində yoxdur. Əsas odur ki,

Azərbaycan xalqı rahat yaşasın, xoşbəxt yaşasın, sülh içində yaşasın. Sizi təbrik edirəm.

İşğal dövründə harada yaşamısınız?

**Qadın sakin:** Mingəçevirdə yaşamışıq.

**Sakinlər:** Allah canınızı sağ eləsin. Çox sağ olun. Allah Sizi başımızın üstündən əskik etməsin.

**Kişi sakin:** Cənab Prezident, bizə bu sevinci, bu hissi yaşatdığınıza görə Sizə çox-çox minnətdarıq. Allah dövlətimizi, Sizi, Bayrağımızı qorusun. Yaşasın Azərbaycan! Siz demişkən, Qarabağ Azərbaycandır!

**Digər kişi sakin:** Çox sağ olun, var olun. Sizin ayağınız dəyən yerlər cənnətə dönür. Bu gün biz 30 il həsrətində qaldığımız torpaqlarımıza, dədə-baba yurdumuza qayıtmışıq. Sizə minnətdarlığımızı bildiririk. Allah Sizə uzun ömür, cansağlığı versin.

**Prezident İlham Əliyev:** Harada yaşamısınız işğal dövründə?

**Kişi sakin:** Bir müddət Beyləqanda yaşamışıq, sonra isə Bakıya köçmüşük. Bu günə şükür. Allah Sizi var eləsin, öz torpaqlarımızda daimi yaşayacağıq.






**Prezident İlham Əliyev:** İndi doğma torpağa qayıtmısınız. Amma gənc qızlar görünür ki, buranı heç vaxt görməyiblər, eləmi? Amma yenə də qayıdıblar. Siz harada yaşamısınız?

**Gənc qız:** Biz Qaradağda, Lökbatanda.

**Prezident İlham Əliyev:** Bura kurort yerdir, həm havası, həm suyu.

**Qadın sakinlər:** Çox qəşəngdir, havası çox təmizdir. Nəvələrim beş gündür ki, burada qəşəng dincəlir, istirahət edirlər.

**Prezident İlham Əliyev:** Bəh, bəh, bəh, Allaha şükür.

**Sakinlər:** Allah canınızı sağ eləsin.

**Kişi sakin:** Bu xalqın yolunda çəkdiyiniz əziyyətə, gördüyünüz işlərə görə hamımız Sizə təşəkkür edirik. Çox sağ olun. Dəmir yumruq yerindədir!

**Prezident İlham Əliyev:** Sağ olun.

## İlham Əliyev Qarabağ Universitetinin Klinikası binasının, Tibb və sağlamlıq elmləri fakültəsinin tədris korpusunun açılışında iştirak edib





Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev 2025-ci il sentyabrın 14-də Xankəndi şəhərində Qarabağ Universitetinin Klinikasının binasının, Tibb və sağlamlıq elmləri fakültəsinin tədris korpusunun açılışında iştirak edib.

Elm və təhsil naziri Emin Əmrullayev, Qarabağ Universitetinin rektoru Şahin Bayramov və Qarabağ Universitetinin Klinikasının rəhbəri, Tibb və sağlamlıq elmləri fakültəsinin dekanı Samir Babayev dövlətimizin başçısına yaradılan şərait barədə məlumat verdilər.

Bildirildi ki, yeni tədris ilindən Qarabağ Universitetində Tibb və sağlamlıq elmləri fakültəsi fəaliyyətə başlayacaq. Fakültənin tədris korpusu müasir tələblərə cavab verən avadanlıqla təchiz edilib. Binada 10 dərs və 9 auditoriya otağı, 3 laboratoriya, iş və imtahan otaqları, istirahət zonaları, kitabxana, brifinq zalları yaradılıb. Burada, həmçinin mikrobiologiya, histologiya laboratoriyaları, hüceyrə yetişdirmə və digər inzibati otaqlar fəaliyyət göstərəcək. Fakültədə yerli və xarici ekspertlərin birgə hazırladığı, beynəlxalq təcrübələrə əsaslanan altıillik tibb və dördillik tibb bacısı proqramlarının tədrisi həyata keçiriləcək. Burada tətbiq olunacaq müasir təhsil modeli tələbələrin nəzəri biliklərini Qarabağ Universitetinin Klinikasında praktik vərdişlərə çevirməyə imkan yaradacaq. Tələbələrə tədqiqat aparmaq və liderlik keyfiyyətlərini inkişaf etdirmək üçün də hərtərəfli imkanlar veriləcək. Fakültənin fərqli xüsusiyyətlərindən biri isə seçmə fənn olaraq incəsənət proqramının tədris planına daxil edilməsidir. İncəsənət tələbələrin özünüifadə, qrup daxilində əməkdaşlıq və ünsiyyət bacarıqlarının inkişafı baxımından mühüm əhəmiyyət kəsb edir.

Dövlətimizin başçısı Qarabağ Universitetinin Klinikasının binasında yaradılmış şəraitlə tanış oldu. Klinika Prezident İlham Əliyevin bu ilin fevralında imzaladığı Fərmana əsasən yaradılıb. Klinikanın binasında 23 həkim otağı, laboratoriyalar, rentgen, təcili yardım, maqnit rezonans tomoqrafiya (MRT), kompüter tomoqrafiyası (KT) və angio otaqları fəaliyyət göstərəcək. Qısa müddət ərzində ali təhsil ocağında tibb sahəsi üzrə müasir tədris infrastrukturu yaradılıb. Klinika Qarabağ Universitetində tibb ixtisası üzrə təhsil alan tələbələrin peşəkar kadr kimi hazırlanmasını təmin edəcək, bu sahədə elmi tədqiqatlar aparmağa, həmçinin regionda əhalinin sağlamlığının qorunmasında mühüm rol oynayacaq. Burada, eyni zamanda, tədris, tədqiqat və tibbi xidmət fəaliyyəti həyata keçiriləcək.

Qarabağ Universitetində Klinikanın yaradılması, həmçinin Tibb və sağlamlıq elmləri fakültəsinin fəaliyyətə başlaması yeni dövrün çağırışlarına uyğun peşəkar tibb mütəxəssislərinin hazırlanması istiqamətində atılmış mühüm addımlardan biridir. Digər tərəfdən, klinikada həyata keçiriləcək elmi tədqiqatlar Qarabağ Universitetinin akademik nüfuzunun və beynəlxalq reytinqinin artmasına, eləcə də ölkəmizdə tibb elminin inkişafına öz töhfəsini verəcək. Bütün bunlar, eyni zamanda, xarici tələbələrin də bu ali təhsil ocağına marağını artıracaq.








## İlham Əliyev Xocalının Daşbulaq kəndində tut bağında görülmüş işlərlə tanış olub





Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev 2025-ci il sentyabrın 15-də Xocalı rayonunun Daşbulaq kəndində 13 hektar sahədə salınmış tut bağında olub.

Dövlətimizin başçısına görülmüş işlər barədə məlumat verildi.

Bildirildi ki, burada Çin Xalq Respublikasından idxal olunmuş 130 min ting əkilib. Tut bağında damcılı suvarma sistemi yaradılıb.

Qeyd olunub ki, 2026-cı ildə 100 ton, 2030-cu ildə isə 500 ton tut yarpağının istehsalı planlaşdırılır. Proqnozlaşdırılan barama istehsalı gələn ildən başlayaraq 5 il ərzində 60 tondur. Bu ilin oktyabr-noyabr aylarında əlavə 150 hektar sahədə damcılı suvarma sisteminin tətbiqi və təxminən 1,5 milyon tut tinginin əkilməsi, klaster modeli əsasında tut bağının salınması, ətrafda kümxanaların qurulması, ipəkqurdunun bəslənməsi, yaş barama istehsalı, həmçinin məhsulun emal prosesinin həyata keçirilməsi nəzərdə tutulur. Burada 25 nəfər daimi işlə təmin olunub. Mövsümi işlərə isə 750 nəfər cəlb ediləcək.

## İlham Əliyev Xocalı rayonunun Badara kəndində olub







Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 15-də Xocalı rayonunun Badara kəndində olub.

Silahlı Qüvvələrimizin 2023-cü ilin sentyabrında həyata keçirdikləri antiterror əməliyyatı zamanı Azərbaycanın nəzarətinə keçən kəndlərdən biri də Badaradır.

Qeyd edək ki, o vaxtdan indiyədək kənddə sosialyönümlü bir sıra layihələr icra olunub. Belə ki, mövcud elektrik və qaz xətləri bərpa olunub, transformator quraşdırılıb, sayğaclaşdırma işləri görülüb, yeni qaz xətti çəkilib, rabitə xətləri üçün dirəklər basdırılıb, kabelin çəkilişi davam etdirilir. Badarada park və bayraq meydanı yaradılıb, yollara asfalt döşənib.

Kəndin ərazisində ümumilikdə 313 fərdi ev var ki, onlardan da 55-i yararsız, 258-i isə qismən yararlıdır. Artıq 15 fərdi ev bərpa olunub. Cari ilin sonunadək 115, gələn il isə 128 evin bərpası planlaşdırılır. Artıq 14 ailə (55 nəfər) kəndə köçüb.

Dövlətimizin başçısı kəndə köçmüş Barat Novruzovun evinə baş çəkib, ailə üzvləri ilə söhbət edib.

## İlham Əliyev Xocalının Badara, Daşbulaq, Seyidbəyli və Şuşakənd kəndlərinin sakinləri ilə görüşüb



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev 2025-ci il sentyabrın 15-də Xocalı rayonunun Badara kəndində Badara, Daşbulaq, Seyidbəyli və Şuşakənd kəndlərinin sakinləri ilə görüşüb.

Görüşdə çıxış edən dövlətimizin başçısı **İlham Əliyev dedi:**

– İlk növbədə, sizi ürəkdən təbrik edirəm, doğma Qarabağ torpağına qayıtmısınız. Əminəm ki, bundan sonra həyatınızda ancaq sevincli günlər olacaq. O əzab-əziyyət, ədalətsizlik, haqsızlıq arxada qaldı. Azərbaycan dövləti sizin üçün bütün şəraiti yaradıb. Evlər gözəl təmir olunur, bütün infrastruktur - yollar, təbii qaz və elektrik enerjisi, su. Ən önəmlisi isə siz doğma Qarabağ diyarında artıq əbədi yaşayacaqsınız – siz və sizin davamçılarınız. Bu, ədalətin təntənəsidir. Biz ədaləti bərpa etdik, ilk növbədə, öz haqqımızı bərpa etdik, erməni işğalına son qoyduq. Bunu mərhələli yollarla etdik.

Bildiyiniz kimi, İkinci Qarabağ müharibəsi başa çatanda hələ ki, biz bu bölgəyə nəzarət etmirdik. Bunun səbəblərini də bilirsiniz. Ancaq 2020-ci il noyabrın 10-dan ta 2023-cü il sentyabrın 19-na qədər bizim bir məqsədimiz var idi – ölkə suverenliyini tam bərpa etmək. Bunu da etdik, erməni işğalına son qoyduq, separatçılığa son qoyduq, haqq-ədaləti bərpa etdik və indi qurub-yaradırıq.

Uzun illər köçkün həyatı yaşamış insanlar ən gözəl şəraitə layiqdirlər. Mən xatırlayıram, o vaxt işğal dövründə köçkünlərlə çoxsaylı görüşlərimdə deyirdim ki, sizin üçün dövlət şərait yaratmağa çalışır və biz bunu etmişdik. Təqribən 300 minə yaxın keçmiş köçkün dövlət tərəfindən evlərlə, mənzillərlə təmin edilmişdi. Ancaq hər dəfə çadır şəhərciyinin açılışında deyirdim ki, bu, müvəqqəti yaşayış yeridir. Qarabağ azad olunandan sonra sizin üçün Qarabağda daha gözəl şərait yaradacağıq, o da oldu.

Əlbəttə ki, bütün dünya bu gün Azərbaycan haqqında danışır. Öz doğma torpağı uğrunda Azərbaycan qədər vuruşan, döyüşən, qan tökən, şəhid verən və qalib gələn ikinci ölkə yoxdur. Nə vaxtsa olar, olar, olmaz, olmaz. Qələbəmizi təmin edən xalqımızın iradəsidir, xalqımızın öz doğma torpağına olan bağlılığıdır, bizim müştərək iradəmizdir, bizim döyüşkən xasiyyətimizdir. Eyni zamanda, necə ki, döyüş meydanında düşməni məğlub etdik, onu kapitulyasiya aktını imzalamağa məcbur etdik, eyni qayda ilə sülhə də yol açdıq ki, bundan sonra heç vaxt müharibə olmasın. Biz heç vaxt müharibə istəməmişik və mən 17 il Ermənistan rəhbərləri ilə danışıqlar aparmışam. Onları inandırmağa çalışmışam ki, əgər siz öz xoşunuzla torpağımızdan çıxmasanız, müharibə qaçılmazdır. Amma onlar hesab edirdilər ki, bu olmayacaq. Hesab edirdilər ki, onların arxasında duran böyük dövlətlər, güclər, onlara silah verən, pul verən, siyasi dəstək verən onları hər dəfə, hər zaman qoruyacaq. Amma bizim iradəmizi düzgün hesablaya bilməmişdilər. Amma mən dəfələrlə onlara demişdim ki, öz xoşunuzla çıxın. Hətta İkinci Qarabağ müharibəsindən sonra, artıq bizim şanlı Zəfərimizdən sonra, Şuşanın azad olunmasından sonra onlara deyirdim ki, Azərbaycanda separatçılığa yer yoxdur. Gəlin, Azərbaycan qanunlarına tabe olun, gəlin, Azərbaycan vətəndaşlığını qəbul edin və burada yaşayın, sizə söz deyən olmayacaq. Yenə də bizə qarşı həm hərbi təxribatlar, həm siyasi təxribatlar, yekəxanalıq və faktiki olaraq, mənfi münasibət özünü göstərdi. Ona görə 19-20 sentyabr antiterror əməliyyatı onlara dərs oldu və hamıya dərs oldu. Cəmi bir neçə saat davam edən hərbi əməliyyat separatçıların kökünü kəsdi və onların ümid bağladıqları yerlər də səssiz qaldı. Çünki Azərbaycan Ordusu qarşısında heç kim dura bilməzdi, Azərbaycan xalqı qarşısında heç kim dura bilməzdi, ona görə ki, biz haqlıyıq. Bu gün haqlı olduğumuzu bir daha burada sübut edirik. Onlar şəhər və kəndlərimizi yerlə-yeksan etmişdilər, biz isə qurub-yaradırıq. Bütün Qarabağ, bütün Şərqi Zəngəzur tikinti meydançasıdır. Qısa müddət ərzində bu gözəl evlərin bərpası, tikintisi,



bütün infrastrukturun yaradılması bizim gücümüzü, niyyətimizi göstərir. Əsas odur ki, bütün siyasi addımlarımızın mərkəzində Azərbaycan vətəndaşı dayanır. Siz - Azərbaycan vətəndaşları, erməni işğalından əziyyət çəkən Qarabağ bölgəsinin sakinləri bu gün ən gözəl şəraitə layiqsiniz. Mən sizi təbrik edirəm, sizə xoşbəxt həyat arzulayıram və biz burada əbədi yaşayacağıq.

**Sakin:** Hörmətli cənab Prezident, xocalılılar adından, keçmiş məcburi köçkünlər adından Sizi salamlayıram, "Xoş gəlmisiniz!" deyirəm. Biz Sizin dediyiniz kimi, uzun müddət ağır şəraitdə yaşamışıq. İndi Sizin başçılığınızla, Sizin qayğınızla gözəl evlərdə məskunlaşmışıq, yaşayırıq, buranın gözəl təbiəti var. Mənim ağlıma belə bir beyt gəldi:

**"Yaxşı ki, dünyada yaxşılar varmış,**
**Yoxsa qərq olardıq yaman əlində".**

Sağ olun, Siz dünyanın ən yaxşı Prezidentisiniz.

**Digər kişi sakin:** Hörmətli cənab Prezident, xoş gəlmisiniz. Mən də millətimiz adından, camaatımız adından Sizə "Xoş gəlmisiniz!" deyirik. Bu, Sizin daxili və xarici siyasətin bəhrəsidir ki, biz bu gün öz torpağımıza qayıtmışıq. Balaca bir ölkə Sizin siyasətiniz nəticəsində hegemon dövlətlərlə yanaşı gedir. Siz Amerika kimi, Çin kimi ölkələrlə bir yerdəsiniz, onların başçıları ilə bir yerdə oturub-durursunuz. Onların başçıları Sizin siyasətinizi bəyəndikləri üçün o sıralarda gedirsiniz. Mən Sizə uzun ömür, cansağlığı arzulayıram. Gələcəkdə bundan da böyük nailiyyətlər arzu edirəm.

**Qadın sakin:** Möhtərəm cənab Prezident, bu gün mən qürur hissi duyuram. Bir şəhid nəvəsi olaraq, şəhid gəlini olaraq, veteran bacısı olaraq Sizin qarşınızda baş əyirəm. Allah şəhidlərimizə rəhmət eləsin, qazilərimizə cansağlığı versin. Siz Zəfər dastanını qızıl hərflərlə yazan böyük Liderimizsiniz. Dünyada tayı-bərabəri olan belə bir Müzəffər Ali Baş Komandan yoxdur.

**Prezident İlham Əliyev:** Sağ ol, qızım.



**Qadın sakin:** Bu Qələbənizlə dünya səviyyəsində bütün ilklərə imza atdınız. Allah-taala Sizə cansağlığı versin. Ulu Öndər Heydər Əliyev irsini davam etdirdiyinizə, ata vəsiyyətini layiqincə yerinə yetirdiyinizə görə Sizinlə fəxr edirik.

**Kişi sakin:** Cənab Prezident, biz hamımız bu gün çox sevinirik. Bu gün ata-babalarımızın, Ulu Öndərimizin ruhu şaddır. Həqiqətən də bu gün sevincimizin həddi-hüdudu yoxdur. Öz doğma torpaqlarımızdayıq. Buna görə də hər birimiz Sizə minnətdarıq, öz dərin hörmətimizi bildiririk.

Şair deyir:

**Bütün dünya-aləm bunu bilirdi,**
**Bizim idi, bizim oldu Qarabağ.**
**Dost kövrəlib, düşmən bizə gülürdü,**
**Şükür Allaha, sona yetdi bu sınaq,**
**Bizim idi, bizim oldu Qarabağ.**

**Kamil oğlu, belə qeyrətli hanı?**
**44 günə şoka saldı dünyanı,**
**“Dəmir yumruq”la aldı Şuşanı,**
**Şuşamızda dalğalanır al bayraq,**
**Bizim idi, bizim oldu Qarabağ.**

**Digər kişi sakin:** Cənab Ali Baş Komandan, Vətən müharibəsi iştirakçısı kiçik çavuş Quliyev, sağ ol.

**Qadın sakin:** Qardaşımdır.

**Kişi sakin:** Fəxr edirik Sizinlə, bəli, Sizinlə fəxr edirik.

**Digər kişi sakin:** Ali Baş Komandan, ehtiyatda olan zabit, baş leytenant Alıyev. Müharibə əlili, birinci qrup.

**Prezident İlham Əliyev:** Birinci Qarabağ müharibəsində vuruşmusan?

**Kişi sakin:** Bəli, ön cəbhədə xidmət etmişəm.

**Prezident İlham Əliyev:** Sağ olun.

**Digər kişi sakin:** Sizinlə fəxr edirik. Həyat yoldaşımdır, cənab Prezident.



**Prezident İlham Əliyev:** Sağ olun, təbrik edirəm. Təbriklər.

**Qadın sakin:** Sizinlə fəxr edirik. Allah bu günü bizə qismət etdi, həm vətənimizi, həm də Sizinlə görüşməyimizi.

**Sakinlər:** Çox şadıq. Hamı şaddır. Bu sevinci bizə bəxş etdiniz. Çox sağ olun.

**Prezident İlham Əliyev:** Xoşbəxt yaşayın. Allah şəhidlərimizə rəhmət eləsin.

**Qadın sakin:** Hər iki valideynim, hər iki qardaşım burada şəhid olub.

**Prezident İlham Əliyev:** Onların qanı yerdə qalmadı.

**Sakinlər:** Qalmadı, qalmadı, alındı. Çox sağ olun, təşəkkür edirik. Cənab Prezident, qarşınızda baş əyirik, Sizin sayənizdə bu gün biz bu torpaqlara gəldik.

**Prezident İlham Əliyev:** Sağ olun.

**Digər qadın sakin:** Cənab Prezident, xoş gəlmisiniz. Sizin siyasətiniz sayəsində artıq biz bu torpaqlardayıq. Atalarımızın, babalarımızın bizə nağıl kimi təsvir etdiyi bu torpaqları bizə realda yaşatdığınıza görə Sizə təşəkkür edirik, xoş gəlmisiniz.

**Prezident İlham Əliyev:** Sağ olun bir daha.

**Qadın sakin:** Mən bütün xalqımızı təbrik edirəm ki, Sizin kimi Prezidentimiz var.

**Prezident İlham Əliyev:** Sağ olun, çox sağ olun.

**Kişi sakin:** Allah “dəmir yumruğ”unuzu həmişə güclü eləsin.

**Prezident İlham Əliyev:** Əgər lazım olsa, yerindədir, yerində.

**Kişi sakin:** Qoy yerində olsun ki, yenə lazım olsa, vaxtında ensin.

**Qadın sakin:** Allah Sizi Azərbaycanın üstündən əskik etməsin.

**Prezident İlham Əliyev:** Özün yazmısan bu şeiri?

**Kişi sakin:** Cənab Prezident, Sizinlə qürur duyuruq.

**Digər kişi sakin:** Özü yazmasa da, gözəl şeirdir, çox gözəldir.

**Prezident İlham Əliyev:** Gözəl şeirdir. Sağ olun bir daha.

**Kişi sakin:** Cənab Prezident, çox sağ olun, çox səmimisiniz, təşəkkür edirik.

**Prezident İlham Əliyev:** Sağ olun, burada, doğma Qarabağ torpağında xoşbəxt yaşayın.

**Sakinlər:** Çox sağ olun, cənab Prezident. Allah Sizə dəyməsin, Allah razı olsun.

**Tələbə qız:** Salam. Mən Qarabağ Universitetinin Hüquqşünaslıq fakültəsinin ikinci kurs tələbəsiyəm. Burada təkcə Xocalı sakini kimi yox, həm də şəhid bacısı kimi iştirak edirəm. Qardaşım Sərvan Mehralıyev Aprel döyüşlərində qəhrəmancasına şəhid olub.




**Prezident İlham Əliyev:** Allah rəhmət eləsin.

**Tələbə qız:** Sizin dəstəyinizi nəinki bir şəhid bacısı, həm bir tələbə, həm də bir keçmiş məcburi köçkün kimi daim hiss etmişəm və buna görə də böyük minnətdarlığımı bildirirəm. Çox sağ olun.

**Prezident İlham Əliyev:** Sağ ol. Burada, Xankəndidə həyatın necə keçir, yaxşıdır?

**Tələbə qız:** Bəli, əla. Hamı razıdır, hamının ürəyincədir.

**Prezident İlham Əliyev:** Çox gözəl. Dünən Tibb fakültəsinin yeni klinikasının açılışını etdik, tələbələrin sayı çoxalacaq, 100 nəfər də tibb klinikasına daxil oldu. Yəni, bir neçə ildən sonra orada minlərlə tələbə olacaq. Yəni, Xankəndi tələbələr şəhəri olacaq. Bütün tələbə yoldaşlarına məndən salam söylə. Sağ olun.

**Sakinlər:** Çox sağ olun. Allah Sizi qorusun. Çox sağ olun, cənab Prezident. Xoş gəlmisiniz Qarabağımıza. Allah Sizi ailənizin, bu millətin başı üstündən əskik etməsin. Yumruğunuz da Azərbaycana tərs baxanın başına dəysin. Çox xoşbəxtik, Allah sizi qorusun.

**Prezident İlham Əliyev:** Sağ olun, sizə cansağlığı, xoşbəxtlik.

**Kişi sakin:** Bu gün bizimlə burada olmağınız bizim üçün şərəfdir. Allah Sizi qorusun.

**Prezident İlham Əliyev:** Sağ olun. Gəlin şəkil çəkdirək.

Sonra birgə şəkil çəkdirildi.






## Birləşmiş Ərəb Əmirliklərinin Prezidenti Azərbaycana rəsmi səfərə gəlib



2025-ci il sentyabrın 16-da Birləşmiş Ərəb Əmirliklərinin Prezidenti Şeyx Məhəmməd bin Zayed Al Nəhyan Azərbaycana rəsmi səfərə gəlib.

Füzuli Beynəlxalq Hava Limanında ali qonağın şərəfinə fəxri qarovul dəstəsi düzülmüşdü.

Azərbaycan Respublikası Prezidenti İlham Əliyev Birləşmiş Ərəb Əmirliklərinin Prezidenti Şeyx Məhəmməd bin Zayed Al Nəhyanı qarşıladı.

Füzuli Beynəlxalq Hava Limanında Birləşmiş Ərəb Əmirliklərinin Prezidentinə işğaldan azad olunmuş ərazilərimizdə inşa edilmiş Füzuli, Zəngilan və Laçın Beynəlxalq Hava limanları haqqında məlumat verildi.








## Birləşmiş Ərəb Əmirliklərinin Prezidentinin Şuşada rəsmi qarşılanma mərasimi olub







2025-ci il sentyabrın 16-da Şuşada Birləşmiş Ərəb Əmirliklərinin Prezidenti Şeyx Məhəmməd bin Zayed Al Nəhyanın rəsmi qarşılanma mərasimi olub.

Hər iki ölkənin dövlət bayraqlarının dalğalandığı meydanda Birləşmiş Ərəb Əmirliklərinin Prezidentinin şərəfinə fəxri qarovul dəstəsi düzülmüşdü.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Birləşmiş Ərəb Əmirliklərinin Prezidenti Şeyx Məhəmməd bin Zayed Al Nəhyan fəxri qarovul dəstəsinin qarşısından keçdilər.

Fəxri qarovul dəstəsinin rəisi Birləşmiş Ərəb Əmirliklərinin Prezidentinə raport verdi.

Birləşmiş Ərəb Əmirliklərinin və Azərbaycan Respublikasının Dövlət himnləri səsləndi.

Fəxri qarovul dəstəsi hərbi marşın sədaları altında Azərbaycan Prezidenti İlham Əliyevin və Birləşmiş Ərəb Əmirliklərinin Prezidenti Şeyx Məhəmməd bin Zayed Al Nəhyanın qarşısından keçdi.

Azərbaycan nümayəndə heyətinin üzvləri Birləşmiş Ərəb Əmirliklərinin Prezidentinə, Birləşmiş Ərəb Əmirliklərinin nümayəndə heyətinin üzvləri isə Azərbaycan Prezidentinə təqdim olundular.

Dövlət başçıları rəsmi foto çəkdirdilər.

## Prezidentlər İlham Əliyevin və Şeyx Məhəmməd bin Zayed Al Nəhyanın geniş tərkibdə görüşü olub



2025-ci il sentyabrın 16-da Şuşada Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Birləşmiş Ərəb Əmirliklərinin Prezidenti Şeyx Məhəmməd bin Zayed Al Nəhyan ilə geniş tərkibdə görüşü olub.

Görüşdə çıxış edən **Prezident İlham Əliyev dedi:**

– Hörmətli cənab Prezident, əziz qardaşım.

Azərbaycana, Qarabağa xoş gəlmisiniz. Əminəm ki, Sizin səfəriniz ölkələrimiz arasındakı qardaşlıq, dostluq əlaqələrinə yeni təkan verəcək. Biz Sizinlə həm Azərbaycanda, həm də Birləşmiş Ərəb Əmirliklərində tez-tez görüşürük. Siz keçən il iki dəfə Azərbaycana səfər etmisiniz. Bu il bir neçə ay bundan əvvəl mən Sizin ölkənizə səfər etmişəm. Bugünkü səfəriniz xüsusi əhəmiyyət daşıyır. Çünki Siz Qarabağa, işğaldan azad edilmiş torpaqlara səfər edirsiniz və bu, bizi, bütün Azərbaycan xalqını çox məmnun edir. Bizim əlaqələrimiz qardaşlıq, dostluq üzərində qurulub. Bu gün imzalanmış çoxsaylı sənədlər bizim əlaqələrimizi yeni səviyyəyə qaldıracaq. İmzalanmış hər bir sənəd böyük əhəmiyyət daşıyır. Onların arasında xüsusilə Hərtərəfli Strateji Tərəfdaşlıq haqqında Birgə Bəyannaməni qeyd etmək istərdim. Bu, bizim siyasi əlaqələrimizi ən yüksək zirvəyə qaldıran bir sənəddir.

Bizim siyasi əlaqələrimiz çox uğurla inkişaf edir. Biz hər zaman beynəlxalq təşkilatlarda bir-birimizin yanındayıq, bir-birimizi dəstəkləyirik. Son vaxtlar qarşılıqlı sərmayə qoyuluşu bizi çox şad edir. Neft-qaz sahəsində əməkdaşlıq dərinləşir. Bu gün imzalanmış sənədlər arasında nəqliyyat sektorundakı əməkdaşlıq böyük perspektivə malikdir. Biz xüsusilə ölkənizə və ölkənizin şirkətlərinə minnətdarıq ki, Azərbaycanın bərpaolunan enerji növlərinin işlənilməsi istiqamətində bizə çox böyük dəstək vermişlər. Birləşmiş Ərəb Əmirliklərinin şirkətləri burada bizim strateji tərəfdaşlarımızdır, əsas investordur və Azərbaycanda istifadəyə verilmiş birinci Günəş Elektrik Stansiyasının tikintisi və investisiyaları ölkənizin bizə dəstəyi nəticəsində mümkün olmuşdur. Bilirsiniz ki, planlarımız daha genişdir, bir neçə giqavat bərpaolunan enerji növünün yaxın gələcəkdə Azərbaycanda istehsalı məhz Sizin şəxsi göstərişinizin və ölkənizin şirkətlərinin fəaliyyəti nəticəsində mümkün olacaqdır.

Digər investisiyayönümlü layihələr üzərində işləyirik. Bugünkü nümayəndə heyətlərinin tərkibi özlüyündə bir göstəricidir. Bu göstərir ki, bizim əlaqələrimiz nə qədər çoxşaxəlidir, nə qədər dərindir, səmimidir və məhsuldardır.

Əziz qardaşım, Qarabağa səfər etdiyiniz üçün Sizə bir daha təşəkkürümü bildirmək istəyirəm. Azərbaycana, Qarabağa xoş gəlmisiniz!

**Birləşmiş Ərəb Əmirliklərinin Prezidenti Şeyx Məhəmməd**

**bin Zayed Al Nəhyan çıxış edərək dedi:**

– Əziz qardaşım, cənab Prezident.

Dost ölkənizə səfər etməyim və Sizinlə görüşməyim məni həqiqətən çox sevindirib. Qonaqpərvərliyinizə görə Sizə dərin minnətdarlığımı bildirmək istəyirəm. Bugünkü görüşümüz bizim bu il ərzində üçüncü görüşümüzdür. Həqiqətən bizim bu ilin iyul ayında Əbu-Dabidəki görüşümüz çox səmərəli və ikitərəfli əməkdaşlığımızın yeni mərhələsinin əsası oldu. İnşallah, ikitərəfli əməkdaşlığımız və əlaqələrimiz, dostluğa, xeyir-bərəkətə əsaslanan münasibətlərimiz ölkələrimizin və xalqlarımızın rifahının daha da artması istiqamətində davam edəcəkdir.

Qardaşım, cənab Prezident, Birləşmiş Ərəb Əmirlikləri ilə Azərbaycan arasında münasibətlər ötən onilliklər ərzində ardıcıl inkişaf etmişdir və xüsusilə də qeyri-neft sektorunda ticarət dövriyyəsi 2024-cü ildə 2,24 milyard dollara qədər artmışdır.

İyul ayında ölkələrimiz hərtərəfli iqtisadi əməkdaşlıq haqqında Saziş imzalamışdır. Bu sənəd iqtisadi əlaqələrimizə yeni bir təkan vermişdir. İnşallah, bizim müştərək iqtisadi hədəflərimizi həyata keçirmək üçün onun çox böyük təsiri olacaqdır. Biz Birləşmiş Ərəb Əmirliklərində bu əməkdaşlığı genişləndirməyə davam etməkdə maraqlıyıq, ələlxüsus da inkişaf sektoruna aid olan iqtisadiyyat və bərpaolunan enerji, qida təhlükəsizliyi, həmçinin mədəniyyət sahələrində və əlbəttə ki, digər əhəmiyyətli sahələrdə. Çünki bu sahələr bizim gələcəyimiz üçün çox böyük nəticələr vəd edir.



Cənab Prezident, dost ölkənizlə ikitərəfli əlaqələrimizi gücləndirmək və genişləndirmək üçün xüsusi və böyük marağımız var, onu daha yüksək səviyyəyə qaldırmağı arzulayırıq. Biz hər iki tərəfə fayda gətirəcək və davamlı inkişafa töhfə verəcək yeni əməkdaşlıq fürsətlərinin daim axtarışındayıq.

Cənab Prezident, Siz də qeyd etdiyiniz kimi, enerji sahəsində əməkdaşlığımızda indiyədək əldə etdiyimiz irəliləyişlər məni çox sevindirir. Şübhə yoxdur ki, bu gün ölkələrimiz arasında hərtərəfli strateji tərəfdaşlığa dair imzalanmış Bəyannamə hər iki tərəfin qarşılıqlı münasibətlərini daha da inkişaf etdirmək və yüksək səviyyəyə qaldırmaq iradəsini əks etdirir.

Cənab Prezident, Azərbaycanla Birləşmiş Ərəb Əmirlikləri arasında mədəniyyət sahəsində əməkdaşlığın böyük əhəmiyyəti var. Belə ki, bu sahə ikitərəfli əlaqələri inkişaf etdirməyin mühüm istiqamətidir. Çünki hər iki ölkə mədəni mübadilənin xalqlararası münasibətlərin və əməkdaşlığın körpüsü olduğuna inanmaqla, öz zəngin, çoxnövlü mədəni mirasını qorumaqda maraqlıdır.

Qardaşım, cənab Prezident, Birləşmiş Ərəb Əmirlikləri Qafqaz regionunda sülh və əmin-amanlığın bərqərar olmasına çox böyük əhəmiyyət verir, Azərbaycan başda olmaqla, bütün xalqların mənafeyi üçün bölgənin bütün ölkələri ilə əlaqələrini və əməkdaşlığını inkişaf etdirməkdə maraqlıdır. Bu xüsusda Azərbaycanla Ermənistan arasındakı sülh müqaviləsinin imzalanması istiqamətində əldə edilmiş nailiyyətlərin və müsbət inkişafın davam etməsini səbirsizliklə gözləyirik. Bu münasibətlə Birləşmiş Ərəb Əmirlikləri dövlətinin regionda sülhün və əmin-amanlığın bərqərar olmasına, buradakı xalqların sülh şəraitində yaşamasına hər cür dəstək verməyə hazır olduğunu bir daha vurğulayırıq.

Çıxışımın sonunda qardaşım, cənab Prezident, qonaqpərvərliyinizə görə Sizə bir daha təşəkkürümü bildirir, dost ölkənizə və xalqınıza daim əmin-amanlıq və rifah arzulayıram. Çox sağ olun.

Sonra Azərbaycan Respublikası ilə Birləşmiş Ərəb Əmirlikləri arasında imzalanmış sənədlərin Azərbaycan Prezidenti İlham Əliyevin və Birləşmiş Ərəb Əmirliklərinin Prezidenti Şeyx Məhəmməd bin Zayed Al Nəhyanın iştirakı ilə mübadiləsi mərasimi olub.

İmzalanmış sənədləri Azərbaycanın xarici işlər naziri Ceyhun Bayramov və Birləşmiş Ərəb Əmirliklərinin dövlət naziri Səid Əl Haceri mübadilə etdilər.

Qeyd edək ki, Birləşmiş Ərəb Əmirliklərinin Prezidenti Şeyx Məhəmməd bin Zayed Al Nəhyanın ölkəmizə səfəri çərçivəsində “Azərbaycan Respublikası ilə Birləşmiş Ərəb Əmirlikləri arasında Hərtərəfli Strateji Tərəfdaşlıq Əlaqələri haqqında Birgə Bəyannamə”, "Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi ilə Birləşmiş Ərəb Əmirliklərinin İnsan Resursları və Əmirlikləşmə Nazirliyi arasında işçi qüvvəsinin mütəşəkkil qaydada müvəqqəti işə cəlb olunması sahəsində əməkdaşlıq haqqında Anlaşma Memorandumu”, “Azərbaycan Respublikasının Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi ilə Birləşmiş Ərəb Əmirliklərinin Energetika və İnfrastruktur Nazirliyi arasında nəqliyyat sahəsində əməkdaşlıq haqqında Anlaşma Memorandumu”, “Azərbaycan Respublikasının Energetika Nazirliyi ilə Birləşmiş Ərəb Əmirliklərinin Energetika və İnfrastruktur Nazirliyi arasında enerji sahəsində əməkdaşlıq haqqında Anlaşma Memorandumu”, “Azərbaycan Respublikasının Baş Prokurorluğu ilə Birləşmiş Ərəb Əmirliklərinin Federal Dövlət Prokurorluğu arasında Anlaşma Memorandumu”, “Azərbaycan Respublikasının Dövlət Reklam Agentliyi ilə Birləşmiş Ərəb Əmirliklərinin Media Şurası arasında Anlaşma Memorandumu”, “Azərbaycan Respublikasının Dövlət Turizm Agentliyi ilə Birləşmiş Ərəb Əmirliklərinin İqtisadiyyat və Turizm Nazirliyi arasında turizm əməkdaşlığı haqqında Anlaşma Memorandumu”, “Azərbaycan Respublikasının Kiçik və Orta Biznesin İnkişafı Agentliyi ilə Birləşmiş Ərəb Əmirliklərinin Ticarət və Sənaye Palataları Federasiyası arasında Azərbaycan-BƏƏ Birgə Biznes Şurasının yaradılması haqqında Anlaşma Memorandumu”, “Azərbaycan Respublikasının Energetika Nazirliyi ilə “Masdar” şirkəti arasında Azərbaycan Respublikasının yaşıl enerji zonalarında əməkdaşlıq haqqında Anlaşma Memorandumu”, “Azərbaycan Respublikasının Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi ilə “Presight” şirkəti arasında Azərbaycan Respublikasının 2025–2028-ci illər üçün Süni İntellekt Strategiyasının icrası üzrə əməkdaşlığa dair Anlaşma Memorandumu”, “Bakı Gəmiqayırma Zavodu” MMC ilə “Əbu-Dabi Limanları Şirkəti” ASC arasında iki ədəd konteyner gəmisinin tikintisinə və satışına dair Müqavilə”, “Azərbaycan Respublikasının Elm və Təhsil Nazirliyi ilə “Presight” şirkəti arasında təhsildə süni intellektin (Aİ) istifadəsinin artırılması sahəsində Anlaşma Memorandumu”, “Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi ilə XRG ASC arasında Cənub Qaz Dəhlizində investisiya haqqında Anlaşma Memorandumu” və “Azərbaycan İnvestisiya Holdinqi ilə “Əbu-Dabi inkişaf Holdinq Şirkəti” ASC arasında “Azər-Türk Bank”ın sərmayələşdirilməsi haqqında Anlaşma Memorandumu” imzalanıb.

## Azərbaycanın və Birləşmiş Ərəb Əmirliklərinin prezidentləri Milli Xalça Muzeyinin Şuşa filialında olublar





2025-ci il sentyabrın 16-da Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Birləşmiş Ərəb Əmirliklərinin Prezidenti Şeyx Məhəmməd bin Zayed Al Nəhyan Milli Xalça Muzeyinin Şuşa filialında olublar.

Ali qonağa filialın fəaliyyəti barədə məlumat verildi.

Bildirildi ki, Milli Xalça Muzeyinin Şuşa filialının XIX əsrin ikinci yarısında tikilmiş binası şəhərin Yuxarı məhəlləsində yerləşir. İşğal dövründə bina yararsız hala düşdüyündən və tarixi görkəminə müdaxilələr edildiyindən burada 2021-ci ildən etibarən Heydər Əliyev Fondu tərəfindən bərpa işlərinə başlanılmışdı.

İşğal dövründə Azərbaycan Milli Xalça Muzeyi filialda saxlanılan sənət nümunələrinin təhlükədə olduğunu nəzərə alaraq, 1992-ci il fevralın 29-da onların təxliyəsini təşkil etmişdi. Beləliklə, Şuşa filialının kolleksiyasındakı 246 eksponatdan 183-ü Bakıya gətirilmişdi. Şəhər işğal altında olduğu dövrdə Şuşa filialı öz fəaliyyətini Azərbaycan Milli Xalça Muzeyində davam etdirirdi. İndi burada vaxtilə təxliyə olunmuş və əsasən XVIII-XX əsrlərə aid eksponatlarla yanaşı, son illər filialın kolleksiyasına daxil edilən dəyərli xalçalar da sərgilənir. Muzeydə ümumilikdə 115 ədəd xovlu və xovsuz xalça, xalça məmulatları, arxeoloji materiallar, milli tikmə və geyim dəstləri, zərgərlik və bədii metal nümunələri yenidən nümayiş olunur.



## Prezident İlham Əliyev və Prezident Şeyx Məhəmməd bin Zayed Al Nəhyan Yeni Şuşa məscidində tikinti işlərinin gedişi ilə tanış olublar





Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Birləşmiş Ərəb Əmirliklərinin Prezidenti Şeyx Məhəmməd bin Zayed Al Nəhyan 2025-ci il sentyabrın 16-da Yeni Şuşa məscidində tikinti işlərinin gedişi ilə tanış olublar.

Prezidentin köməkçisi Anar Ələkbərov dövlətimizin başçısına və Birləşmiş Ərəb Əmirliklərinin Prezidentinə həyata keçirilən işlər barədə məlumat verdi.

Qeyd edək ki, təməli 2021-ci ildə Prezident İlham Əliyev tərəfindən qoyulan bu məscid tarixi şəhər olan Şuşada modern memarlıq nümunəsi kimi seçiləcək. Dövlətimizin başçısının tapşırığına uyğun olaraq, məscidin forması 8 rəqəmini əks etdirəcək ki, bu da Şuşanın işğalçılardan azad olunduğu günü – Zəfər Gününü simvolizə edəcək. Şuşanın və Qarabağın işğaldan ilin on birinci ayında azad edilməsinin rəmzi kimi məscidin iki minarəsi 11 rəqəmi formasında olacaq. Şəhərin yuxarı hissəsində inşa olunan bu ibadət ocağının binasının xarici səthi Şuşanın qədim məscidinin minarələrində istifadə edilən həndəsi naxışlarla bəzədiləcək.

## Prezidentlər İlham Əliyev və Şeyx Məhəmməd bin Zayed Al Nəhyan Cıdır düzündə Qarabağ atlarının şousunu izləyiblər



2025-ci il sentyabrın 16-da Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Birləşmiş Ərəb Əmirliklərinin Prezidenti Şeyx Məhəmməd bin Zayed Al Nəhyan Cıdır düzündə Qarabağ atlarının şousunu izləyiblər.

Dövlətimizin başçısı Birləşmiş Ərəb Əmirliklərinin Prezidentinə "Ərgünəş" adlı Qarabağ atını hədiyyə edib.

Azərbaycanın və Birləşmiş Ərəb Əmirliklərinin prezidentləri Şuşa qalasının önündə foto çəkdiriblər.









# Prezident İlham Əliyev “Qarabağ” klubunu təbrik etdi

17 sentyabr 2025-ci il tarixində Azərbaycan Prezidenti İlham Əliyev “Qarabağ” futbol klubunu UEFA Çempionlar Liqasının Liqa mərhələsində “Benfika”nı səfərdə 3:2 hesabı ilə məğlub etməsi ilə əlaqədar təbrik edib:

“Qitənin ən nüfuzlu klub turnirində – Çempionlar Liqasının əsas mərhələsində ilk qələbəsini qazanması münasibətilə Ağdamın “Qarabağ” futbol klubunu ürəkdən təbrik edirəm. Bu, Azərbaycan futbolunun, Azərbaycan idmanının tarixi zəfəridir. “Qarabağ”ın Avropanın köklü klublarından biri olan “Benfika” ilə səfər matçında oyunun gedişində möhtəşəm geridönüş edərək parlaq qələbə çalması onun məğlubedilməz ruhunu, mübarizə əzmini göstərir.

Bu qələbə ilə doğma komandamız Azərbaycan xalqına böyük sevinc bəxş etmişdir. Hər bir azərbaycanlı Avropada xariqələr yaradan “Qarabağ”la qürur duyur. Komandamıza Çempionlar Liqasının növbəti oyunlarında uğurlar və yeni-yeni zəfərlər arzu edirəm”.

Eyni zamanda klubunun prezidenti Tahir Gözel bildirib ki, Azərbaycan futbolu tarixinə Çempionlar Liqasının əsas mərhələsində əldə olunan ilk qələbə kimi düşən bu oyun ölkə başçısına həsr edilir: “Bu qələbəni Qarabağın fatehi, tarixi şəxsiyyət, xalqın böyük və dahi rəhbəri, Ali Baş Komandan cənab İlham Əliyevə həsr edirik”.

# BMT-nın Baş Assambleyasının 80-ci sessiyası

## İlham Əliyev BMT Baş Assambleyasının 80-ci sessiyasında iştirak etmək üçün Nyu-Yorka səfərə gəlib





2025-ci il sentyabrın 22-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev BMT Baş Assambleyasının 80-ci sessiyasında iştirak etmək üçün Amerika Birləşmiş Ştatlarının Nyu-York şəhərinə işgüzar səfərə gəlib.



Prezident İlham Əliyevi və birinci xanım Mehriban Əliyevanı Nyu-York şəhərinin "John F.Kennedy" Beynəlxalq Hava Limanında rəsmi şəxslər qarşılayıblar.

## İlham Əliyev Nyu-Yorkda "Neuberger Berman" şirkətinin sədri və baş icraçı direktoru ilə görüşüb

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev 2025-ci il sentyabrın 22-də Nyu-Yorkda "Neuberger Berman" şirkətinin sədri və baş icraçı direktoru Corc Volker ilə görüşüb.

Görüşdə Azərbaycan ilə "Neuberger Berman" şirkəti arasında əməkdaşlığın cari vəziyyəti və inkişaf perspektivləri ətrafında fikir mübadiləsi aparılıb.



Prezident İlham Əliyev ölkəmizin beynəlxalq maliyyə qurumları və nüfuzlu investisiya şirkətləri ilə əməkdaşlığın genişləndirilməsinə önəm verdiyini vurğulayaraq, bu xüsusda "Neuberger Berman" şirkəti ilə tərəfdaşlığın bundan sonra da uğurla davam edəcəyinə inamını ifadə edib.

Söhbət zamanı Azərbaycan Respublikası Dövlət Neft Fondunun 2016-cı ildən etibarən bu şirkətlə səmərəli tərəfdaşlığının ölkəmizin maliyyə sektorunun inkişafına və beynəlxalq investisiya imkanlarının genişlənməsinə töhfə verdiyi vurğulanıb.

Corc Volker rəhbərlik etdiyi şirkətin qlobal maliyyə və investisiya fəaliyyəti barədə məlumat verərək, Azərbaycanla əməkdaşlıqdan məmnunluğunu ifadə edib. O, regionda baş verən iqtisadi proseslərin şirkət üçün əhəmiyyətini vurğulayıb, yeni layihələr çərçivəsində tərəfdaşlığın genişləndirilməsi üçün mövcud imkanların dəyərləndirildiyini bildirib.

Qeyd edək ki, 1939-cu ildə Nyu-Yorkda təsis olunmuş "Neuberger Berman" qlobal investisiya idarəetmə şirkətidir. Hazırda şirkət beynəlxalq institutlar, məsləhətçilər və fərdi investorlar üçün yarım trilyondan çox ABŞ dolları məbləğində aktivləri idarə edir.

### İlham Əliyev və birinci xanım Mehriban Əliyeva BMT Baş Assambleyasının 80-ci sessiyası çərçivəsində keçirilən yüksəksəviyyəli müzakirələrdə iştirak ediblər





2025-ci il sentyabrın 23-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva BMT-nin Nyu-Yorkda yerləşən mənzil-qərargahında Baş Assambleyanın 80-ci sessiyası çərçivəsində keçirilən yüksəksəviyyəli müzakirələrdə iştirak ediblər.

BMT-nin Baş katibi Antonio Quterreş dövlətimizin başçısı İlham Əliyevi və birinci xanım Mehriban Əliyevanı salamlayıb.

Qeyd edək ki, BMT-nin Nyu-Yorkdakı mənzil-qərargahında keçirilən Baş Assambleyanın 80-ci sessiyasında 150-dən çox dövlət və hökumət başçısı iştirak edir. "Birlikdə daha yaxşı: 80 il və daha çox sülh, inkişaf və insan hüquqları naminə" mövzusuna həsr olunmuş sessiyada qlobal gündəlikdə duran məsələlərə aid, o cümlədən dünyanın bəzi yerlərində davam edən münaqişələr, Dayanıqlı İnkişaf Məqsədləri, iqlim böhranı və digər mövzularda müzakirələr aparılır. Sessiya sentyabrın 30-dək davam etmişdir.

### İlham Əliyev BMT-nin Nyu-Yorkdakı mənzil-qərargahında Yunanıstanın Baş naziri ilə görüşüb



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 2025-ci il sentyabrın 23-də BMT-nin Nyu-Yorkdakı mənzil-qərargahında Yunanıstan Respublikasının Baş naziri Kiriakos Mitsotakis ilə görüşü olub.

Yunanıstanın Baş naziri Azərbaycan ilə Ermənistan arasında münasibətlərin normallaşdırılması və Vaşinqtonda keçirilmiş tarixi görüş münasibətilə təbriklərini çatdırdı, əldə olunmuş nailiyyətlərin regional sülhün gücləndirilməsi baxımından əhəmiyyətini qeyd etdi.

Dövlətimizin başçısı təbriklərə görə təşəkkürünü bildirdi. Azərbaycanın regionda sülh gündəliyinin təşəbbüskarı olduğunu deyən Prezident İlham Əliyev Vaşinqtonda keçirilmiş görüşün Azərbaycanla Ermənistan arasında sülh gündəliyinin irəli aparılması baxımından önəminə toxundu və bu prosesdə ABŞ Prezidenti Donald

Trampın mühüm rolunu qeyd etdi. Vaşinqton görüşündə Azərbaycanın əsas hissəsi ilə onun Naxçıvan Muxtar Respublikası arasında maneəsiz nəqliyyat dəhlizinin yaradılmasına dair əldə olunmuş razılaşmanın regional bağlantılar baxımından mühüm əhəmiyyət daşıdığı vurğulandı.

Söhbət zamanı Azərbaycanla Yunanıstan arasında enerji sahəsində uğurlu əməkdaşlıq qeyd edildi, iqtisadiyyat, ticarət və turizm sahələrində əlaqələrin genişləndirilməsinin, Hökumətlərarası Komissiyanın fəaliyyətinin canlandırılmasının vacibliyinə toxunuldu.

## İlham Əliyev BMT-nin Nyu-Yorkdakı mənzil-qərargahında Avropa Şurasının Baş katibi ilə görüşüb



2025-ci il sentyabrın 23-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev BMT-nin Nyu-Yorkdakı mənzil-qərargahında Avropa Şurasının Baş katibi Alen Berse ilə görüşüb.

Avropa Şurasının Baş katibi Ermənistanla Azərbaycan arasında əldə olunmuş nailiyyətlər münasibətilə dövlətimizin başçısına təbriklərini çatdırdı.

Prezident İlham Əliyev təbriklərə görə minnətdarlığını bildirdi.

Söhbət zamanı Vaşinqton görüşündə ATƏT-in Minsk qrupunun fəaliyyətinin dayandırılmasına, iki ölkə arasında münasibətlərin normallaşmasına dair sazişin paraflanmasına və Amerika Birləşmiş Ştatlarının Prezidenti Donald Trampın şahidliyi ilə imzalanmış Vaşinqton Bəyannaməsinin əhəmiyyətinə toxunuldu. Bütün bunların regionda davamlı sülhün təmin olunması baxımından vacibliyi qeyd edildi.

Alen Berse Avropa Şurasının regional sülh gündəliyini dəstəklədiyini vurğuladı.

Avropa Şurasının Baş katibi COP29 dövründə Azərbaycana səfərini, həmin vaxt və digər beynəlxalq tədbirlər çərçivəsində dövlətimizin başçısı ilə görüşlərini məmnunluqla xatırladı.

Görüşdə Azərbaycanla Avropa Şurası arasında əməkdaşlıq məsələlərinə dair fikir mübadiləsi aparıldı.

## İlham Əliyev BMT-nin Nyu-Yorkdakı mənzil-qərargahında Finlandiya Prezidenti ilə görüşüb



2025-ci il sentyabrın 23-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin BMT-nin Nyu-Yorkdakı mənzil-qərargahında Finlandiya Respublikasının Prezidenti Aleksandr Stubb ilə görüşü olub.

Finlandiya Prezidenti Ermənistanla Azərbaycan arasında münasibətlərin normallaşması və Vaşinqtonda əldə edilmiş tarixi nailiyyətlər münasibətilə dövlətimizin başçısına təbriklərini çatdırdı. Aleksandr Stubb Finlandiyanın regionda sülhü daim dəstəklədiyini qeyd etdi.

Prezident İlham Əliyev təbriklərə görə təşəkkürünü bildirdi. Dövlətimizin başçısı məhz Finlandiyanın ATƏT-ə sədrliyi dövründə ATƏT-in Minsk qrupunun fəaliyyətinin dayandırılması ilə əlaqədar qərarın qəbul edildiyini vurğuladı. Prezident İlham Əliyev Azərbaycanla Ermənistanın sülh dövrünə qədəm qoyduqlarını qeyd etdi.

Söhbət zamanı sülh gündəliyinin irəli aparılması üçün birgə səylərin vacibliyi vurğulandı.

Görüşdə Azərbaycanla Finlandiya arasında ikitərəfli, həmçinin beynəlxalq təşkilatlar çərçivəsində əməkdaşlıq məsələlərinə toxunuldu, Azərbaycan-Avropa İttifaqı əlaqələrinə dair fikir mübadiləsi aparıldı.

## İlham Əliyev və birinci xanım Mehriban Əliyeva BMT Baş Assambleyasının 80-ci sessiyası ilə əlaqədar rəsmi qəbulda iştirak ediblər



Sentyabrın 23-də Nyu-Yorkda Amerika Birləşmiş Ştatlarının Prezidenti Donald Trampın və birinci xanım Melaniya Trampın adından BMT Baş Assambleyasının 80-ci sessiyası ilə əlaqədar rəsmi qəbul təşkil olunub.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva tədbirdə iştirak ediblər.

Rəsmi qəbulda çıxış edən **Amerika Birləşmiş Ştatlarının Prezidenti Donald Tramp dedi:** Ermənistan və Azərbaycan. Mən Sizə təşəkkür etmək istəyirəm, dostum. Oradakı münaqişənin iyirmi iki il davam etdiyini dediniz, düzdür, 22 il? Bu 22 il ərzində Siz müharibə şəraitində idiniz.

**Prezident İlham Əliyev:** Daha da çox.

**Prezident Donald Tramp:** Bundan da çox?

**Prezident İlham Əliyev:** 30 ildən artıq. Siz möcüzə yaratdınız, cənab Prezident. Təşəkkür edirəm.

**Prezident Donald Tramp:** Mən bir neçə dost qazandım. Təşəkkür edirəm. Çox gözəl oldu. Bu gün Yaxın Şərq ölkələrinin liderləri ilə gözəl bir görüş keçirdik. Onlar möhtəşəm insanlardır və mənim dostlarımdır. Biz onları bir araya gətirməli və həmin müharibəyə tez bir zamanda son qoymalıyıq. Bunu tez etmək istəyirik və məncə, biz həqiqətən yaxşı bir plan hazırlamışıq. Məncə, o, tez həyata keçirilə bilər.

Bilmirəm, bunu Sizin planınız qədər tez həyata keçirə biləcəyik ya yox. Bütün bu illər ərzində buna cəsarət lazım idi. Bu, həqiqətən Sizin və yeni dostunuzun sayəsindədir. Həqiqətən yaxşıdır. Necə gedir işlər? Yaxşıdır? Atışma yoxdur? Heç nə yoxdur?

**Prezident İlham Əliyev:** Xeyr, xeyr. Hər şey tamamilə bitib. Avqustun 8-də buna son qoyuldu.

**Prezident Donald Tramp:** Mən Sizinlə həqiqətən fəxr edirəm. Siz çox gözəl insansınız.

Mən bu zalda olan bəziləriniz ilə görüşmüşəm, bir çoxunuzu yaxşı tanıyıram. Siz möhtəşəm insanlarsınız. Siz ən yüksək səviyyəli liderlərsiniz. Sizin gördüyünüz işlər möhtəşəmdir. Düşünün, ölkələrinizin milyonlarla əhalisi



var və siz bu ölkələrə uğurla rəhbərlik edirsiniz, dünya miqyasında liderlik edirsiniz. Məhz buna görə də buradasınız. Sadəcə demək istəyirəm ki, sizinlə bir yerdə olmaq mənim üçün şərəfdir. Sizinlə əl sıxmağı səbirsizliklə gözləyirəm. Birlikdə bu işlərdən zövq alacağıq. Biz dinc dünyada yaşayacağıq.

**Birinci xanım Melaniya Tramp:** Mən bu gün günorta "Gələcəyi birlikdə qurmaq" adlı möhtəşəm təşəbbüsə ev sahibliyi etdim. Ümid edirəm ki, bütün birinci xanımlar və həyat yoldaşları gələn il birinci rübdə Ağ Evdə mənə qoşulacaqlar və dünyadakı uşaqlar üçün uğur qazanacağıq. Təşəkkür edirəm.

## İlham Əliyev Nyu-Yorkda ABŞ Ticarət Palatasının baş vitse-prezidenti ilə görüşüb



2025-ci il sentyabrın 24-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Nyu-Yorkda ABŞ Ticarət Palatasının baş vitse-prezidenti Kuş Çoksi ilə görüşü olub.

Söhbət zamanı Azərbaycanla ABŞ arasında münasibətlərin strateji tərəfdaşlıq müstəvisinə qalxması, hazırda iqtisadi-ticari əlaqələrimizin genişləndirilməsi üçün böyük imkanların olduğu bildirildi.

Azərbaycanla Amerika Birləşmiş Ştatları arasında Strateji Tərəfdaşlıq Xartiyasının hazırlanması məqsədilə Strateji İşçi Qrupunun yaradılması haqqında imzalanmış Anlaşma Memorandumundan irəli gələn enerji, bağlantılar, süni intellekt və digər sahələrdə əməkdaşlığa dair müzakirələr aparıldı.

Azərbaycanın və ABŞ-ın biznes dairələri arasında birbaşa əlaqələrin yaradılmasının və biznes nümayəndə heyətlərinin qarşılıqlı səfərlərinin təşkilinin vacibliyinə toxunuldu, turizm sahəsində əməkdaşlığın inkişafı üçün böyük potensialın olduğu qeyd edildi.

Kuş Çoksi biznes imkanlarının dəyərləndirilməsi üçün geniştərkibli heyətlə tezliklə Azərbaycana səfər etmək niyyətində olduğunu bildirdi.

## İlham Əliyev Nyu-Yorkda Portuqaliya Prezidenti ilə görüşüb



2025-ci il sentyabrın 24-də Nyu-Yorkda Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Portuqaliya Respublikasının Prezidenti Marselo Rebelo de Souza ilə görüşüb.

Portuqaliya Prezidenti, ilk növbədə, dövlətimizin başçısına Azərbaycanla Ermənistan arasında münasibətlərin normallaşdırılması və sülh gündəliyinin irəli aparılması ilə bağlı Amerika Birləşmiş Ştatlarının Prezidenti Donald Trampın şahidliyi ilə əldə olunmuş nailiyyətlər münasibətilə təbriklərini çatdırdı.

Prezident İlham Əliyev təbriklərə görə təşəkkürünü bildirdi. Vaşinqtonda keçirilmiş Zirvə toplantısının tarixi əhəmiyyət kəsb etdiyini deyən dövlətimizin başçısı Azərbaycanın regionda sülh gündəliyinin təşəbbüskarı olduğunu bildirərək, ölkəmizin bundan sonra da bölgədə sülhün gücləndirilməsi üçün səylərini davam etdirəcəyini vurğuladı.

Görüşdə Azərbaycanla Portuqaliya arasında müxtəlif sahələrdə əlaqələrin inkişafının, siyasi məsləhətləşmələrin davam etdirilməsinin və nümayəndə heyətlərinin qarşılıqlı səfərlərinin əhəmiyyəti qeyd olundu, beynəlxalq təşkilatlar çərçivəsində əməkdaşlıq məsələlərinə toxunuldu.

## İlham Əliyev Nyu-Yorkda “Global Infrastructure Partners” şirkətinin təsisçisi, sədri və baş icraçı direktoru ilə görüşüb



2025-ci il sentyabrın 24-də Nyu-Yorkda Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin qlobal infrastruktur investisiya idarəetmə şirkəti “Global Infrastructure Partners”in təsisçisi, sədri və baş icraçı direktoru Adebayo Oqunlesi ilə görüşü olub.

Görüşdə infrastruktur sahəsində beynəlxalq tərəfdaşlıq imkanları və bu sahəyə yönələn birgə investisiyaların regional iqtisadi əlaqələrin genişləndirilməsində rolu müzakirə edilib.

Prezident İlham Əliyev 2024-cü ildən Azərbaycan Respublikası Dövlət Neft Fondu ilə bu şirkət arasında qurulan uğurlu tərəfdaşlığı vurğulayaraq, xüsusilə İtaliyanın aparıcı sürətli dəmir yolu operatoru “Italo”ya yatırılan birgə sərmayəni səmərəli əməkdaşlığın nümunəsi kimi qiymətləndirdi. Dövlətimizin başçısı, həmçinin şirkətin hava limanlarının idarə olunması, enerji keçidi və süni intellekt infrastrukturu kimi sahələrdə təcrübəsinin gələcək əməkdaşlıq üçün böyük imkanlar açdığını dedi.

Adebayo Oqunlesi Azərbaycanın strateji coğrafi mövqeyinin və dayanıqlı inkişaf prioritetlərinin infrastruktur sahəsində uzunmüddətli investisiyalar üçün mühüm imkanlar yaratdığını vurğuladı. O, rəhbərlik etdiyi şirkətin enerji keçidi, nəqliyyat və rəqəmsal infrastruktur sahələrində Azərbaycanla əməkdaşlığı dərinləşdirməkdə maraqlı olduğunu bildirdi.

Qeyd edək ki, “Global Infrastructure Partners” şirkəti 2006-cı ildə ABŞ-da təsis edilib. Hazırda təxminən 170 milyard ABŞ dolları məbləğində aktivləri idarə edən şirkətin Nyu-York, London, Sinqapur, Sidney və digər qlobal maliyyə mərkəzlərində ofisləri fəaliyyət göstərir. “Global Infrastructure Partners”in nəzarət etdiyi bərpaolunan enerji sahəsindəki şirkət ABŞ-da bu sahədə aparıcı şirkətlərdən biridir.

## İlham Əliyev BMT-nin Baş katibi Antonio Quterreş ilə görüşüb



2025-ci il sentyabrın 25-də BMT-nin mənzil-qərargahında Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Birləşmiş Millətlər Təşkilatının Baş katibi Antonio Quterreş ilə görüşüb.

Əvvəlcə dövlətimizin başçısı BMT-nin fəxri qonaqlar kitabını imzaladı.

Sonra Azərbaycan Prezidenti İlham Əliyev və BMT-nin Baş katibi Antonio Quterreş birgə foto çəkdirdilər.

Baş katib Ermənistanla Azərbaycan arasında sülh gündəliyinin irəliləndilməsi və əldə olunmuş tarixi nəticələr münasibətilə dövlətimizin başçısına təbriklərini çatdırdı.

BMT-nin Qaçqınlar üzrə Ali Komissarı vəzifəsində Azərbaycana səfərini xatırlayan Antonio Quterreş həmin vaxt ölkəmizdə qaçqın və məcburi köçkünlərin ağır vəziyyəti ilə yerində tanış olduğunu dedi. O, bütün bu məsələlərin artıq keçmişdə qaldığını sevinc hissi ilə vurğulayaraq, Azərbaycan hökuməti tərəfindən məcburi



köçkünlərin öz doğma yurdlarına qayıtmaları ilə əlaqədar böyükmiqyaslı layihələr həyata keçirdiyini qeyd etdi.

BMT-nin Baş katibi COP29-un Azərbaycanda uğurla keçirilməsi və beynəlxalq iqlim gündəliyinin irəli aparılması baxımından əldə olunmuş nailiyyətlər münasibətilə də dövlətimizin başçısını təbrik etdi və bu tədbirin yüksək səviyyədə keçirilməsi ilə bağlı təşəkkürünü çatdırdı.

Antonio Quterreş BMT ilə Azərbaycan arasında əməkdaşlığın inkişafından məmnunluğunu ifadə edərək, hazırda ölkəmizin bu təşkilatın digər regionlarda fəaliyyətini dəstəklədiyinə görə minnətdarlığını bildirdi, beynəlxalq böhranların aradan qaldırılmasında Azərbaycanla BMT arasında əməkdaşlıq üçün böyük perspektivlərin olduğunu qeyd etdi.

Azərbaycanın çoxtərəfli diplomatiyada fəal roluna toxunan BMT-nin Baş katibi Qoşulmama Hərəkatında ölkəmizin uğurlu sədrliyini də vurğuladı, Azərbaycanın artıq donor ölkə olaraq BMT-nin müxtəlif institutlarının fəaliyyətinə göstərdiyi dəstəyin yüksək qiymətləndirildiyini bildirdi.

BMT-nin Baş katibi ölkəmizin regional əməkdaşlıq layihələrinin inkişafındakı, həmçinin Mərkəzi Asiya ilə regional nəqliyyat bağlantılarının yaradılmasındakı rolunu qeyd etdi.



Dövlətimizin başçısı təbriklərə görə minnətdarlığını bildirdi.

Prezident İlham Əliyev Ermənistanla Azərbaycan arasında münasibətlərin normallaşdırılması və sülh gündəliyi ilə bağlı əldə olunmuş nəticələrin tarixi əhəmiyyət daşıdığını vurğuladı. İki ölkə arasındakı münasibətlərin və regiondakı vəziyyətin tamamilə dəyişdiyini deyən dövlətimizin başçısı bildirdi ki, Azərbaycan və Ermənistan müstəqilliklərini əldə edəndən bəri regionda sülh olmayıb. Hazırda isə bölgədə sülh mövcuddur. Hər iki ölkənin sülh şəraitində yaşamağa öyrəşdiklərini vurğulayan Prezident İlham Əliyev bunun həm Azərbaycan, həm də Ermənistan üçün mühüm və tarixi önəm kəsb etdiyini diqqətə çatdırdı.

Dövlətimizin başçısı da öz növbəsində işğaldan azad olunmuş ərazilərimizdə görülən genişmiqyaslı bərpa və quruculuq işlərini qeyd etdi. Bu xüsusda Prezident İlham Əliyev 53 mindən artıq keçmiş məcburi köçkünün öz doğma torpaqlarına qayıtdığını, Azərbaycanın "Böyük Qayıdış" Proqramına uyğun olaraq genişmiqyaslı bərpa və quruculuq işlərini həyata keçirdiyini bildirdi.

Dövlətimizin başçısı Azərbaycanın donor kimi COVID-19 zamanı 80-dən çox ölkəyə yardım göstərdiyini qeyd etdi və bundan sonra da regional, həmçinin beynəlxalq sülh gündəliyini dəstəkləyərək bu işə öz töhfəsini verəcəyini dedi.

2026-cı ildə ölkəmizdə BMT-nin Ümumdünya Şəhərsalma Forumu kimi böyük tədbirinin keçiriləcəyinə toxunan Prezident İlham Əliyev vurğuladı ki, bu tədbir Azərbaycanın şəhərsalma, xüsusən də postmünaqişə şəraitində şəhərsalma sahəsində əldə etdiyi zəngin təcrübəsinin beynəlxalq ictimaiyyətlə bölüşməsi üçün yaxşı fürsət yaradır.

## İlham Əliyev BMT Baş Assambleyasının 80-ci sessiyasında çıxış edib



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev 2025-ci il sentyabrın 25-də Nyu-Yorkda BMT Baş Assambleyasının 80-ci sessiyasında çıxış edib.

**Prezident İlham Əliyevin çıxışı**

– Xanımlar və cənablar.

Uzun illər ərzində mən bu kürsüdən Azərbaycana qarşı törədilmiş təcavüz, işğal və ədalətsizlik faciələri barədə danışmışam. Bu gün isə qələbəyə və sülhə aparan uzun yolumuzdan, Azərbaycan tarixində yeni dövrdən, Vətən müharibəsi ilə işğala necə son qoyulduğundan, sülhü siyasi vasitələrlə necə təmin etməyimizdən danışacağam.

Otuz ilə yaxın müddətdə Azərbaycanın suveren ərazisinin təqribən iyirmi faizi Ermənistanın hərbi işğalı altında qaldı. Ermənistanın həyata keçirdiyi etnik təmizləmə siyasəti və hərbi cinayətlər nəticəsində bir milyon azərbaycanlı öz yurd-yuvasından didərgin salındı. Onların fundamental insan hüquqları kobud şəkildə pozuldu. Birləşmiş Millətlər Təşkilatının Təhlükəsizlik Şurasının 1993-cü ildə qəbul etdiyi dörd qətnamədə Ermənistan silahlı qüvvələrinin işğal olunmuş ərazilərdən dərhal, tam və qeyd-şərtsiz çıxarılması tələb olundu. Təəssüf ki, bu qətnamələr heç vaxt icra edilmədi. Ermənistan beynəlxalq ictimaiyyət tərəfindən heç bir sanksiyaya məruz qalmadığı üçün qətnamələrə nümayişkaranə şəkildə məhəl qoymadı.

1992-ci ildə münaqişənin həlli üçün təsis edilmiş ATƏT-in Minsk qrupu isə öz missiyasını yerinə yetirə bilmədi. Onun həmsədrləri beynəlxalq hüququn norma və prinsiplərini təmin etmək əvəzinə, status-kvonu qoruyub saxlamağa və münaqişənin dondurulmasına çalışdılar.

Otuz ilə yaxın müddətdə davam edən səmərəsiz danışıqlardan sonra 2020-ci ildə Azərbaycan BMT Nizamnaməsinin 51-ci maddəsinə uyğun olaraq, özünümüdafiə hüququndan istifadə etməyə məcbur oldu. Ermənistan müharibə zamanı şəhərlərimizə və kəndlərimizə ballistik raketlər atdı, onları kasetli mərmilərlə bombaladı, 100-dən çox günahsız mülki vətəndaşımızı qətlə yetirdi. Azərbaycan isə müharibəni beynəlxalq humanitar hüquqa tam riayət etməklə apardı. Biz mülki şəxslərin mühafizəsini təmin etdik, qeyri-hərbi infrastrukturu hədəfə almaqdan çəkindik. 44 günlük Vətən müharibəsi zamanı Silahlı Qüvvələrimiz işğal altındakı əraziləri azad etdi, Azərbaycanın ərazi bütövlüyünü beynəlxalq hüquqa və BMT Təhlükəsizlik Şurasının müvafiq qətnamələrinə uyğun olaraq bərpa etdi.



2020-ci il noyabrın 10-u Ermənistanın kapitulyasiyası və təqribən 30 ilə yaxın işğaldan sonra Azərbaycanın ərazi bütövlüyünün bərpası kimi tarixə düşdü.

Azərbaycan Zəfər müharibəsindən dərhal sonra ərazi bütövlüyünün və suverenliyin qarşılıqlı şəkildə tanınması əsasında Ermənistanla münasibətlərdə yeni səhifə açmağa hazır olduğunu bəyan etdi. Biz beynəlxalq hüquqa əsaslanan beş təməl prinsip irəli sürdük, sülh müqaviləsi layihəsini təqdim etdik. Daha sonra layihə mətni üzrə 2022-ci ilin oktyabrından 2025-ci ilin yayına qədər davam edən danışıqlar prosesi bizim təşəbbüsümüzlə başladı. Müxtəlif təxribatlara baxmayaraq, danışıqlar yalnız ikitərəfli əsasda aparıldığına, hər hansı bir kənar müdaxilə olmadığına görə müsbət nəticələr verdi.

Bu il avqustun 8-də Vaşinqtonda, Ağ Evdə ABŞ, Azərbaycan və Ermənistan liderlərinin iştirakı ilə Azərbaycanın və Ermənistanın xarici işlər nazirləri sülh müqaviləsinin mətnini parafladılar. Həmin gün Azərbaycan Prezidenti və Ermənistanın Baş naziri Birgə Bəyanat imzaladılar. ABŞ Prezidenti Donald Tramp da buna şahid qismində imza atdı. Bundan əlavə, Azərbaycan və Ermənistan artıq sülh prosesinə aidiyyəti olmayan köhnəlmiş mexanizm kimi ATƏT-in Minsk qrupunun və əlaqədar strukturlarının bağlanması üçün birgə müraciət ünvanladılar. Beləliklə, sentyabrın 1-də ATƏT bu strukturların birdəfəlik bağlanması barədə qərar qəbul etdi.

Regional bağlantılar davamlı sülh istiqamətində baxışlarımızın əsasını təşkil edir. Vaşinqton Sammitinin mühüm nəticələrindən biri də Zəngəzur dəhlizindən maneəsiz keçidi təmin edəcək və regional bağlantıları möhkəmləndirəcək "Beynəlxalq Sülh və Rifah naminə Tramp Marşrutu"dur (TRIPP).

Vaşinqton Sammiti, həmçinin Azərbaycan-ABŞ münasibətlərində yeni mərhələnin başlanmasına işarədir. Azərbaycanla Birləşmiş Ştatlar arasında Strateji Tərəfdaşlıq Xartiyasının hazırlanması məqsədilə Strateji İşçi Qrupunun yaradılması haqqında iki hökumət arasında Anlaşma Memorandumunu Prezident Donald Tramp ilə birgə imzaladıq. Bu, siyasi, iqtisadi, enerji, regional bağlantılar, müdafiə, təhlükəsizlik və digər sahələrdə tərəfdaşlıq üçün yeni üfüqlər açır.

Eyni zamanda, Prezident Trampın 1992-ci ildə Azadlığa Dəstək Aktına 907-ci düzəliş şəklində Azərbaycana qarşı tətbiq olunmuş sanksiyaların icrasını dayandırması qərarı da tarixi addımdır. ABŞ Konqresinin 907-ci düzəlişi birdəfəlik ləğv etməsi ikili standartların mirasına son qoymaqla, Azərbaycanın qlobal təhlükəsizlik və sabitliyə töhfə verdiyi bir dövrdə etimad və əməkdaşlığı möhkəmləndirərdi.

Ümumilikdə avqust ayında ABŞ-a səfərim zamanı əldə edilmiş razılaşmalar tarixi əhəmiyyət daşıyır.

Azərbaycan-ABŞ münasibətlərində yeni səhifə açdığına, münasibətləri strateji tərəfdaşlıq səviyyəsinə yüksəltmək qərarına və Azərbaycan ilə Ermənistan arasında sülh prosesinə dəstəyinə görə ABŞ Prezidenti Donald Trampa təşəkkür edirəm.

Azərbaycan 2020-ci ildə Vətən müharibəsində Qələbədən dərhal sonra azad edilmiş ərazilərdə genişmiqyaslı yenidənqurma proqramına start verdi. Ermənistan işğal dövründə yüzlərlə şəhər və kəndimizi yerlə-yeksan etdi, 65 məscidi məqsədli şəkildə dağıtdı. Hərbi cinayətkarlar tərəfindən 30 ilə yaxın müddətdə idarə olunan Ermənistanın siyasəti bu idi. Biz isə yerlə-yeksan edilmiş kənd və şəhərləri yenidən qururuq. "Böyük Qayıdış" Proqramı çərçivəsində artıq 50 mindən çox insan azad edilmiş torpaqlarda yaşayır, işləyir və təhsil alır.

Postmünaqişə dövründə Azərbaycanın qarşısında duran ən ağır humanitar problemlərdən biri də Ermənistan işğalı dövründə yerləşdirilmiş minaların yaratdığı təhlükədir. 2020-ci ilin noyabrından bu günədək 400-dən çox azərbaycanlı mülki şəxs və hərbçi mina partlayışları nəticəsində həlak olub və ya ağır yaralanıb. Bu geniş mina təhdidi köçkünlərin təhlükəsiz qayıdışına və bərpa layihələrinin həyata keçirilməsinə əngəl törədir.

Eynilə, 1990-cı illərin əvvəllərindən bəri Ermənistanın təcavüzü və işğalı zamanı itkin düşmüş dörd minə yaxın azərbaycanlının faciəli taleyi xüsusi diqqət və tədbir görülməsini tələb edir.

Xanımlar və cənablar, qlobal çağırışlara gəldikdə, biz inanırıq ki, cavab tədbirləri inklüziv, ədalətli və ümumbəşəri olmalıdır.

Azərbaycan bir çox təşəbbüslərlə dayanıqlı həll variantlarının təşviqinə aydın sadiqliyini göstərdi.

Ötən il iqlim fəaliyyəti, yaşıl keçid və maliyyəyə ədalətli çıxış məsələlərində mühüm nəticələr əldə olunmuş COP29-a ev sahibliyi etməkdən qürur duyduq. COP29-un ev sahibi kimi bütün tərəflərin, xüsusən də inkişaf etməkdə olan ölkələrin səslərinin eşidilməsini təmin etməklə, iddialı və balanslı nəticələrə yönəlmiş danışıqlara rəhbərlik etdik.

COP29-da qəbul edilmiş, Bakı Maliyyə Hədəfi kimi də tanınan Yeni Kollektiv Kəmiyyət Hədəfi (NCQG) qlobal iqlim maliyyəsində tarixi mərhələdir. Bu öhdəlik 2035-ci ilə qədər inkişaf etmiş ölkələrin dövlət mənbələrindən inkişaf etməkdə olan ölkələrə illik 100 milyard ABŞ dolları məbləğində ilkin iqlim maliyyələşdirmə hədəfini hər il ən azı 300 milyard ABŞ dollarına çatdırmağı nəzərdə tutur. Azərbaycan, həmçinin Paris Sazişinin 6-cı maddəsinə uyğun olaraq, karbon bazarları üçün uzun müddətdir gözlənilən çərçivəni uğurla yekunlaşdıraraq, Paris Sazişinin qəbulundan doqquz il sonra onun tam fəaliyyətə başlamasını təmin etdi. İqlim dəyişikliyinə məruz qalan həssas icmalara vacib dəstək verən İtki və Zərərlərə Cavab Fondunun tam fəaliyyət göstərməsi üçün COP29-da bir neçə əsas saziş imzalandı.

Yaşıl keçidə ciddi şəkildə sadiq qalmaqla yanaşı, qarşımıza real olmayan hədəflər qoymamalıyıq. Dünya bu gün və yaxın gələcəkdə mədən yanacaqları olmadan yaşaya bilməz.

Enerji təhlükəsizliyi sülh, regional bağlantılar və iqtisadi inkişafla əlaqəlidir. Azərbaycan bu məqsədlərin qlobal səviyyədə irəlilədilməsində fəal rol oynamaqda davam edir. Azərbaycan bir çox ölkələrin enerji təhlükəsizliyinin təmin edilməsində özünü etibarlı və əvəzolunmaz tərəfdaş kimi təsdiqləyib. Şaxələndirilmiş neft və qaz kəmərləri vasitəsilə Xəzər regionunun beynəlxalq bazarlara birləşdirilməsində strateji rol oynayırıq.

Hazırda biz 14 ölkəyə təbii qaz ixrac edirik. Bununla Azərbaycan boru kəməri vasitəsilə qaz təmin edən ölkələrin sırasında dünyada birinci yeri tutur. Bu, Avropada və onun hüdudlarından kənarda enerji təhlükəsizliyinin təmin edilməsində və təchizat marşrutlarının şaxələndirilməsində bizim strateji rolumuzu əks etdirir. Bundan əlavə, son vaxtlar Azərbaycan və Suriya enerji təchizatı, infrastrukturun inkişafı və münaqişədən sonra yenidənqurma işlərinə diqqət yetirərək ikitərəfli tərəfdaşlığı gücləndirib. Bu ilin avqust ayından Azərbaycan Türkiyə ərazisindən Suriyaya təbii qaz tədarük etməyə başlayıb və bununla da ölkənin elektrik enerjisi çatışmazlığını əhəmiyyətli dərəcədə azaldıb.

Azərbaycan, həmçinin Günəş, külək və su elektrik enerjisi kimi bərpaolunan enerji mənbələrinə böyük sərmayələr cəlb edir. 2030-cu ilə qədər enerji istehsalımızın təxminən 40 faizi bərpaolunan mənbələr hesabına təmin ediləcək.

Şərq-Qərb və Şimal-Cənub dəhlizləri kimi bağlantı layihələri ölkəmizdən keçir. 2022-ci ildən bəri Orta Dəhlizlə yükdaşımalarda təqribən 90 faiz artımın şahidi olmuşuq. Dəhliz boyu tranzit müddətləri əhəmiyyətli dərəcədə azalıb. Xəzərin ən böyük ticarət donanması, yaxın illərdə gücü ildə 25 milyon tona çatacaq Ələt Beynəlxalq Ticarət Limanı, Bakı–Tbilisi–Qars dəmir yolu, 9 beynəlxalq hava limanı, regionun ən böyük yükdaşıma aviaşirkəti və digər amillər Azərbaycanı beynəlxalq nəqliyyat qovşaqlarından birinə çevirib.

Rəqəmsal bağlantılar sahəsində əməkdaşlıq üçün böyük potensial mövcuddur. Azərbaycan "Rəqəmsal İpək Yolu" kimi əhəmiyyətli layihə vasitəsilə rəqəmsal transformasiya təşəbbüsünü irəlilədir. Bu layihəyə Azərbaycanın əsas regional



rəqəmsal mərkəzə çevrilməsinə şərait yaradacaq Xəzər dənizinin dibi ilə qabaqcıl fiber-optik kabel şəbəkəsinin qurulması planları da daxildir.

Azərbaycan neft və qaz sektorundan əlavə, iqtisadiyyatının şaxələndirilməsinə, qeyri-neft sektorunun inkişafına, islahatlar və şəffaflıq vasitəsilə investisiya mühitinin yaxşılaşdırılmasına diqqət yetirməklə mühüm iqtisadi artıma nail olub. Yoxsulluğun və işsizliyin tarixi minimum həddə – 5 faizə endirilməsi ölkəmizin daha bir nailiyyətidir.

Bu yaxınlarda iki aparıcı beynəlxalq reytinq agentliyi (“Moody’s” və “Fitch”) Azərbaycanın reytinqini artırdı. Çox güclü xarici balans, aşağı dövlət borcu və suveren fondun böyük aktivləri əsas güclü tərəflər kimi göstərilməklə, Azərbaycana sərfəli investisiya dərəcəsi verildi. Bu, ölkəmizdə iqtisadi dayanıqlılığın, güclü fiskal intizamın və əlverişli investisiya mühitinin səviyyəsini təsdiq edir. Xarici borcumuz ÜDM-in cəmi 6,5 faizini təşkil edir ki, bu da dünyada ən aşağı göstəricilərdən biridir. Azərbaycanın valyuta ehtiyatları xarici borcumuzdan təxminən 16 dəfə artıqdır.

2022-ci ildə Xəzəryanı Dövlətlərin Dövlət Başçılarının Zirvə Görüşündə Xəzər dənizində ətraf mühitin pozulması məsələsini qaldırdım. Bu gün vəziyyət daha acınacaqlıdır. Xəzər dənizi sürətlə azalır. Əsas səbəb iqlim dəyişməsi deyil. Gözlənilməz nəticələri olan ekoloji faciəni dayandırmaq üçün Xəzəryanı dövlətlərin birgə səyləri zəruridir. Azərbaycan, həmçinin həmin problemin həlli üçün BMT ilə də sıx əməkdaşlığa hazırdır.

Xanımlar və cənablar, Azərbaycan qlobal səviyyədə humanitar yardım səyləri ilə qürur duyur. Biz təbii fəlakətlərdən, münaqişələrdən və səhiyyə sahəsində böhranlardan zərər çəkən ölkələrə yardım göstəririk. Azərbaycan COVID-19 pandemiyasına qarşı cavab tədbirləri istiqamətində 80-dən çox ölkəyə qoruyucu avadanlıqlar, tibbi cihazlar və vaksinlər ianə edib və maliyyələşdirib.

Azərbaycan yeni bir dövrə qədəm qoyub. Biz həm müharibəni udduq, həm də sülhü qazandıq. İşğala son qoyduq və bərpa işlərinə başladıq. Ədalət zəfər çaldı, suverenlik möhkəmləndi və sülh de-fakto təmin olundu. Biz bu müsbət təcrübəmizi paylaşmağa hazırıq.

Son illərdə əldə etdiyimiz nailiyyətlər yalnız Azərbaycanın qələbəsi və uğuru deyil. Bu, həm də beynəlxalq hüququn sonda mütləq üstünlük təşkil etməsinin sübutudur.

Bizim baxışlarımız aydındır. Bunlar beynəlxalq hüquqa əsaslanan sülh və inkişaf, dövlətlərin daxili işlərinə qarışmama, qarşılıqlı hörmət və əməkdaşlıqdır.

Gəlin, birlikdə ikili standartların aradan qalxdığı, ədalətin selektiv olmadığı, qanunun aliliyinə hörmət edildiyi, sülhün təkcə sözlərlə deyil, əməli addımlarla təmin olunduğu bir dünya quraq.

Təşəkkür edirəm.

# Prezident İlham Əliyevin Yevlax və Gəncəyə səfəri

## İlham Əliyev Gəncə şəhər stadionunun açılışında iştirak edib






Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev 2025-ci il sentyabrın 27-də Gəncə Stadionunun açılışında iştirak edib.

Dövlətimizin başçısına stadion barədə məlumat verildi.

Bildirildi ki, ərazisi 10 hektardan çox olan stadionun tamaşaçı tutumu 15 min 343 nəfərdir. Ərazidə AFFA tərəfindən köməkçi məşq meydançaları və futbol akademiyasının binası tikilib. Stadionda futbolçular üçün soyunub-geyinmə, konfrans, tibb, hakimlər, texniki heyət üçün otaqlar və digər zəruri sahələr yaradılıb. UEFA-nın 4-cü kateqoriya standartlarına uyğun inşa edilən arena müasir işıqlandırma, səs, yayım, internet, təhlükəsizlik sistemləri ilə təchiz olunub.

Qeyd edək ki, Prezident İlham Əliyev 2023-cü ilin oktyabrında stadionun tikintisi ilə bağlı Sərəncam imzalayıb. Onun təməli isə ötən ilin aprelində dövlətimizin başçısı tərəfindən qoyulub. Bu ilin avqustunda Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva stadionda aparılan tikinti işlərinin gedişi ilə tanış olublar.

Beynəlxalq səviyyədə idman ölkəsi kimi nüfuzunu getdikcə möhkəmləndirən Azərbaycanın bölgələrində bu sahənin inkişafı dövlətimizin prioritet istiqamətlərindən biridir. Son illərdə regionlarda tikilən və yenidən qurulan idman kompleksləri yerlərdə idmanın kütləviləşməsinə mühüm töhfə verir, gənc nəslin sağlam böyüməsində əhəmiyyətli rol oynayır. Eyni zamanda, Azərbaycan müntəzəm olaraq qitə və dünya miqyaslı mötəbər idman yarışlarına ev sahibliyi etməklə, özünün yüksək təşkilatçılıq qabiliyyətini nümayiş etdirir. Belə müasir idman arenalarının istifadəyə verilməsi ölkəmizin digər bölgələrində olduğu kimi, Gəncədə də istər yerli, istərsə də beynəlxalq yarışların yüksək səviyyədə keçirilməsinə hərtərəfli şərait yaradacaq.

## İlham Əliyev Gəncə Memorial Kompleksinin açılışında iştirak edib







Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev 2025-ci il sentyabrın 27-də – Anım Günündə Gəncə Memorial Kompleksinin açılışında iştirak edib.

Əvvəlcə dövlətimizin başçısı memorial lövhənin qarşısına əklil qoydu.

Azərbaycan Prezidenti Anım Günü ilə əlaqədar Gəncə Memorial Kompleksində saat 12:00-da Vətən müharibəsi şəhidlərinin xatirəsini bir dəqiqəlik sükutla yad etdi.

Sonra Dövlət Şəhərsalma və Arxitektura Komitəsinin sədri Anar Quliyev dövlətimizin başçısına kompleks barədə ətraflı məlumat verdi.

Prezident İlham Əliyevin 2022-ci ilin yanvarında təməlini qoyduğu bu kompleks İkinci Qarabağ müharibəsi zamanı Ermənistanın raket hücumlarının qurbanı olmuş günahsız insanların əziz xatirəsini əbədiləşdirmək və müharibənin acı reallıqlarını gələcək nəsillərə çatdırmaq məqsədi daşıyır.

Bu ilin martında Birinci vitse-prezident, Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyeva qızları Leyla və Arzu Əliyeva ilə birlikdə layihə ilə tanış olub, avqust ayında isə Prezident İlham Əliyev və birinci xanım kompleksdə görülən işlərin gedişinə baxış keçiriblər.

Xatırladaq ki, cəbhə xəttindən 80 kilometr aralıda yerləşən Gəncə şəhəri Vətən müharibəsi dövründə oktyabrın 4-ü, 5-i, 8-i, 11-i və 17-də Ermənistan silahlı qüvvələrinin “Toçka-U”, “Smerç”, “SCUD” və digər raket sistemlərindən atəşə məruz qalıb. Bu amansız hücumlar nəticəsində 6-sı uşaq olmaqla, 26 mülki şəxs həyatını itirib, 142 dinc sakin isə yaralanıb.

Bildirildi ki, Memorial məhz həmin zərbələrdən birinin endirildiyi ərazidə – yaşayış binalarının yerində inşa olunub və 4 hektar sahəni əhatə edir. Orijinal memarlıq həlli ilə seçilən abidə spiralvari forması ilə raketin yerdə buraxdığı iz – krateri simvolizə edir. Kompleksin açıq meydanında isə dağıdılmış binaların qalıqları xüsusi instalyasiya şəklində qorunub saxlanılıb.

Aypara formalı ikimərtəbəli binanın ümumi sahəsi 2400 kvadratmetrdir. Birinci mərtəbədə muzey ekspozisiyası, ikinci mərtəbədə isə seminar, təlim və müxtəlif tədbirlərin keçirilməsi üçün nəzərdə tutulmuş çoxfunksiyalı zal yerləşir.

Muzeydə “XX əsrin əvvəli”, “Deportasiya və məcburi köçkünlük”, “Soyqırımı və kütləvi qırğınlar”, “Atəşkəs və Vətən müharibəsi dövrü”, “İtkin düşənlər, kütləvi məzarlıqlar, mina terroru” və “İşıqlı gələcəyə doğru” mövzularına həsr olunmuş zallar fəaliyyət göstərir.

Ekspozisiya ziyarətçilərə əvvəlcə XX əsrin əvvəllərində baş verən faciələri, o cümlədən 1918-ci ilin mart soyqırımını tarixi faktlarla təqdim edir. Burada, həmçinin 1948–1953-cü illərdə soydaşlarımızın Qərbi Azərbaycandan kütləvi deportasiyası əks etdirilib. İnteraktiv bölmədə arxiv materialları, tarixi sənədlər və dağıdılmış mədəni irs nümunələri ilə tanış olmaq mümkündür.

Növbəti bölmələrdə 1987–1994-cü illərdə Azərbaycan xalqının üzləşdiyi etnik təmizləmə cinayətləri, dinc əhaliyə qarşı törədilmiş soyqırımlar və sistemli qırğınlar haqqında məlumatlar yer alıb. Muzeyin ayrıca hissəsi isə müasir dövrdə – atəşkəs illərində, Vətən müharibəsi günlərində və ondan sonrakı mərhələdə mülki əhalinin məqsədli şəkildə hədəfə alınması faktlarına həsr olunub.





Ekspozisiyanın son hissəsi uzun illər davam edən haqsızlıqlara baxmayaraq, mübarizliyini qoruyan Azərbaycan xalqının əzmkarlığının və qələbə əzminin təntənəsinə həsr olunub.

Sonra Prezident İlham Əliyev Gəncə Memorial Kompleksində Ermənistanın raket hücumu zamanı hər iki valideynini itirən Nilay Əliyeva və onun babası Zahid Babazadə ilə görüşdü.

***

Qeyd edək ki, bu memorial yalnız bir abidə deyil, həm də beynəlxalq ictimaiyyətə ünvanlanmış çağırışdır. Ermənistanın dinc əhalimizə qarşı törətdiyi raket hücumları təkcə Cenevrə konvensiyalarını deyil, həm də bəşəriyyətin ən fundamental mənəvi dəyərlərini pozurdu. Azərbaycan isə müharibə dövründə beynəlxalq hüququn tələblərinə sadiq qalaraq yalnız legitim hərbi hədəfləri vurub, qisasını döyüş meydanında alıb.

Gəncə Memorial Kompleksi həm də gələcək nəsillər üçün tariximizin canlı yaddaş salnaməsi olacaq bir məkandır. Bu şərəfli tarixi isə Ümummilli Lider Heydər Əliyevin əsasını qoyduğu siyasəti uğurla davam etdirən Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan xalqı yazdı.

Allah şəhidlərimizə rəhmət eləsin!

## İlham Əliyev Yevlax Olimpiya İdman Kompleksinin açılışında iştirak edib






Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev 2025-ci il sentyabrın 27-də Yevlax Olimpiya İdman Kompleksinin açılışında iştirak edib.

Gənclər və idman naziri Fərid Qayıbov dövlətimizin başçısına kompleksdə yaradılan şərait barədə məlumat verdi.





Bildirildi ki, tikintisinə 2024-cü ildə başlanılan kompleksin ərazisi 5,8 hektardır. Burada açıq havada idman meydançaları, stadion, 1100 tamaşaçı yerlik universal idman, güləş, cüdo, bədii gimnastika, boks, kikboksinq, taekvondo, karate, fitnes və trenajor zalları, üzgüçülük hovuzu yaradılıb. Bunlardan başqa, kompleksdə iclas zalı, kafe, hakim, məşqçilər, həkim, şərhçilər üçün otaqlar, restoran, 42 yerlik mehmanxana binası da fəaliyyət göstərəcək.

Azərbaycanın ev sahibliyi etdiyi Müstəqil Dövlətlər Birliyi ölkələrinin III Oyunları zamanı boks idman növü üzrə yarışlar Yevlax Olimpiya İdman Kompleksində təşkil olunacaq.

Son illərdə idman sahəsində görülmüş məqsədyönlü işlər nəticəsində Azərbaycan beynəlxalq yarışların keçirildiyi əsas mərkəzlərdən birinə çevrilib. Müxtəlif idman yarışları üzrə Dünya və Avropa çempionatları, həmçinin Birinci Avropa Oyunları, İslam Həmrəyliyi Oyunları, Formula 1 kimi mötəbər tədbirlərin uğurla təşkili Azərbaycanın bu sahədə yüksək təşkilatçılıq bacarığını nümayiş etdirib. Müstəqil Dövlətlər Birliyi ölkələrinin III Oyunlarının Azərbaycanda keçirilməsi də ölkəmizə beynəlxalq idman ictimaiyyəti tərəfindən olan etimadın təzahürüdür.

Şübhəsiz ki, Azərbaycanın dünyada idman ölkəsi kimi tanınması, mötəbər idman tədbirlərinin keçirilməsi üçün ölkəmizin seçilməsi həm də paytaxt Bakı ilə yanaşı, regionlarımızda müasir idman infrastrukturunun yaradılması ilə də bağlıdır.

## İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Gəncədə keçirilən III MDB Oyunlarının təntənəli açılış mərasimini izləyiblər

2025-ci il sentyabrın 28-də Gəncədə III MDB Oyunlarının təntənəli açılış mərasimi keçirilib.

Tədbirdən əvvəl Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Vətən müharibəsi zamanı Gəncəyə raket hücumları nəticəsində valideynlərini, ailə üzvlərini və yaxın qohumlarını itirmiş, həmçinin xəsarət almış uşaqlarla görüşüblər.

Sonra dövlətimizin başçısı və birinci xanım açılış mərasimini izləyiblər.

Əvvəlcə Azərbaycan Respublikasının üçrəngli Bayrağı arenaya gətirilib və Dövlət Himnimizin sədaları altında ucaldılıb.

Sonra III MDB Oyunlarında iştirak edən ölkələrin idmançılarının təntənəli paradı olub.

Açılış mərasimində Azərbaycan Bayrağını karateçimiz Asiman Qurbanlı və taekvondoçumuz Zemfira Həsənzadə arenaya gətiriblər.

Sonra III MDB Oyunlarının Təşkilat Komitəsinin sədri Samir Şərifov çıxış edərək dedi:



– Zati-aliləri, Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev.

Zati-aliləri, Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban xanım Əliyeva.

Hörmətli qonaqlar, atletlər, məşqçilər və idmansevərlər.

Sizi Azərbaycanın qədim diyarı Gəncə şəhərində salamlayır, Müstəqil Dövlətlər Birliyi ölkələrinin III Oyunlarına xoş gəlmisiniz deyirəm.







Bu gündən etibarən Gəncə və daha altı şəhərimiz – Şəki, Qəbələ, Yevlax, Mingəçevir, Göygöl və Xankəndi III MDB Oyunlarına ev sahibliyi edəcək.

On gün davam edəcək yarışlarda Müstəqil Dövlətlər Birliyi ölkələrindən, həmçinin onlara qatılan Türkiyə, Pakistan, Oman, Kuba və Küveytdən 2400 nəfərlik idman nümayəndə heyətləri iştirak edəcək.

Dahi Azərbaycan şairi və mütəfəkkiri Nizami Gəncəvinin vətəni, qədim mədəniyyəti və zəngin tarixi olan Gəncə hazırda Müstəqil Dövlətlər Birliyinin idman paytaxtıdır.

Əminik ki, yeni istifadəyə verilən möhtəşəm Gəncə Stadionunda açılışını etdiyimiz bu idman oyunları dostluq, sülh, qarşılıqlı hörmət meyarlarına əsaslanan ədalətli mübarizə meydanı olacaq, ölkələrimiz və xalqlarımız arasında əməkdaşlığın genişlənməsinə, münasibətlərin daha da dərinləşməsinə mühüm töhfə verəcək.

Azərbaycanda idmanın inkişafına böyük əhəmiyyət verilir. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin xüsusi diqqət və qayğısı sayəsində ölkəmiz beynəlxalq idman ailəsinin nüfuzlu və etibarlı üzvlərindən birinə çevrilmişdir. Azərbaycan müxtəlif illərdə ən mötəbər beynəlxalq yarışlara ev sahibliyi etməklə bacarıqlı təşkilatçı kimi özünü təsdiq etmişdir. Bakıda 2015-ci ildə Birinci Avropa Oyunları, 2017-ci ildə IV İslam Həmrəyliyi Oyunları, eləcə də müxtəlif növlər üzrə dünya və qitə çempionatları yüksək səviyyədə keçirilmişdir.

İnanırıq ki, III MDB Oyunları da bu baxımdan əlamətdar olacaq. Oyunların paytaxt Bakıdan kənarda keçirilməsi ölkəmizin regionlarında da güclü infrastrukturun, idmanın inkişafı üçün lazımi şəraitin yaradıldığını göstərir.







İrimiqyaslı idman yarışlarının ölkənin regionlarında təşkilinə göstərdiyi qayğıya və verdiyi dəstəyə görə Azərbaycan Respublikasının Prezidentinə dərin minnətdarlığımızı ifadə edirik.

Təşkilat Komitəsi olaraq bildiririk ki, şəhərlərimiz MDB Oyunlarının keçirilməsinə, idmançıları azərbaycanlılara xas qonaqpərvərliklə qəbul etməyə tam hazırdır.





Əziz idmançılar və qonaqlar, əminik ki, Azərbaycan bu günlər ərzində sizin üçün ikinci eviniz kimi doğma olacaq. Siz gözəl və zəngin təəssürat toplayacaq, yeni dostlar qazanacaqsınız.

Müstəqil Dövlətlər Birliyi ölkələrinin III Oyunlarında iştirak edən bütün atletlərə uğurlar arzulayırıq. Ümidvarıq ki, onların əzmkarlığı layiqincə qiymətləndiriləcək.

Bu idman bayramı ölkələrimiz arasında həmrəyliyin möhkəmlənməsində yeni bir mərhələ açacaq və Oyunların şüarında deyildiyi kimi, hər bir ürəkdə qələbə işığı yandıracaq.

***

Mərasim iştirakçılarını salamlayan Müstəqil Dövlətlər Birliyinin Baş katibinin müavini Nurlan Seytimov dedi:

– Axşamınız xeyir, əziz dostlar. İcazə verin, sizi Müstəqil Dövlətlər Birliyinin Baş katibi Sergey Nikolayeviç Lebedevin məktubu ilə tanış edim.

"III MDB Oyunlarının təşkilatçılarına, iştirakçılarına və qonaqlarına.

Müstəqil Dövlətlər Birliyi İcraiyyə Komitəsi adından sizi qonaqpərvər Azərbaycan Respublikasında keçirilən III MDB Oyunlarının açılışı münasibətilə ürəkdən salamlayıram.

Xalqlarımızın idman birliyinin parlaq rəmzinə çevrilən bu möhtəşəm idman hadisəsi yalnız atletlərin ən yüksək peşəkarlığını nümayiş etdirmək üçün bir platforma deyil, həm də MDB ölkələri arasında dostluq əlaqələrinin möhkəmlənməsinə, mədəniyyət və idman sahələrində çoxtərəfli əməkdaşlığın inkişafına xidmət edir.

MDB Oyunları idmanın dövrümüzün ən güclü həmrəylik simvollarından biri olduğunun bariz nümunəsidir. Bir neçə gün ərzində Azərbaycan Respublikasının yeddi şəhəri iştirakçıların və tamaşaçıların zövq alacağı möhtəşəm bir idman bayramına ev sahibliyi edəcək.

Gənclərin çoxsaylı çağırışlarla üz-üzə qaldığı dövrdə idman zamanla sınaqdan keçmiş bir yolu – intizam, məqsədyönlülük və sağlam həyat tərzi yolunu təşviq və təklif edir.

Bu keyfiyyətlər gəncləri yalnız uğurlu idmançılara deyil, həm də istənilən fəaliyyət sahəsində əsl liderlərə çevirir.

Əminəm ki, III MDB Oyunları Birliyin idman hərəkatı tarixində parlaq iz buraxacaq və humanitar əməkdaşlığın daha da möhkəmlənməsinə xidmət edəcək.

Bütün gənc atletlərə idman qələbələri, yeni rekordlar və şəxsi inkişaf arzulayıram. Qoy bu Oyunlar həm idman arenalarında, həm də ölkələrimizin rifahı naminə görülən yaradıcı işlərdə yeni nailiyyətlərə ruhlandırsın.

Müstəqil Dövlətlər Birliyinin Baş katibi Sergey Nikolayeviç Lebedev".

***

Daha sonra idmançıların və onların məşqçilərinin andiçmə mərasimi olub.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev III MDB Oyunlarını açıq elan edib.

Tədbir bədii hissə ilə davam edib.

Sonda Gəncə səması al-əlvan atəşfəşanlığa qərq olub.

***

Qeyd edək ki, Gəncə şəhəri III MDB Oyunlarının "İdman Paytaxtı" seçilib. Bu qərar MDB-yə üzv dövlətlərin Bədən Tərbiyəsi və İdman Şurasının Belarusun paytaxtı Minskdə keçirilən iclasında qəbul edilib.

Oktyabrın 8-dək davam edən III MDB Oyunlarında yarışlar 12 idman məkanında keçirilib və atletlər 23 idman növü üzrə 1694 medal (505 qızıl, 505 gümüş, 684 bürünc) uğrunda mübarizə aparıblar. Bundan əlavə, qalib komandaların uğuruna ən çox töhfə verən idmançılar da xüsusi mükafatlarla təltif ediliblər.

Xatırladaq ki, I MDB Oyunları 2021-ci ildə Rusiyanın Kazan şəhərində, II Oyunlar isə 2023-cü ildə Belarusun paytaxtı Minskdə keçirilib.

# AZƏRBAYCAN RESPUBLİKASININ PROKURORLUĞU



# MDB-yə üzv dövlətlərin Baş Prokurorlarının Əlaqələndirmə Şurasının İcraçı katibi Yuri Nikolayeviç Jdanov ölkəmizdə işgüzar səfərdə olmuşdur

MDB-yə üzv dövlətlərin Baş Prokurorlarının Əlaqələndirmə Şurasının İcraçı katibi Yuri Nikolayeviç Jdanov iyulun 8-də ölkəmizə işgüzar səfər edib.

Səfər çərçivəsində Azərbaycan Respublikasının Baş prokuroru ilə cənab Yuri Jdanov arasında görüş baş tutub.








Görüşdə qarşılıqlı maraq doğuran bir sıra məsələlər, o cümlədən MDB çərçivəsində prokurorluq orqanları arasında əməkdaşlığın gücləndirilməsi, cinayətkarlıqla mübarizə və vətəndaşların hüquq və azadlıqlarının müdafiəsi sahəsində təcrübə mübadiləsinin önəmi müzakirə olunub. Həmçinin təşkilatın fəaliyyətinin daha da təkmilləşdirilməsi istiqamətində fikir mübadiləsi aparılıb.

Baş prokuror Kamran Əliyev MDB Baş Prokurorlarının Əlaqələndirmə Şurasının fəaliyyətinin yüksək qiymətləndirdiyini ifadə edərək, qurumun bütün MDB məkanında hüquqi əməkdaşlığın inkişafında oynadığı rolu vurğulayıb. Eyni zamanda, qonağa Azərbaycan Prokurorluğunda son illər ərzində aparılan islahatlar, struktur dəyişiklikləri və yeni yaradılmış Kibertəhlükəsizlik şöbəsi barədə ətraflı məlumat verilib.

Bundan başqa görüş çərçivəsində MDB-yə üzv dövlətlərin Baş Prokurorlarının Əlaqələndirmə Şurasının yaradılmasının 30 illiyi münasibətilə yubiley tədbirlərinin təşkili və cari ilin oktyabr ayında Tacikistanda keçiriləcək Şuranın 35-ci iclasına hazırlıq məsələləri müzakirə edilib.

Səmimi qəbula görə təşəkkürünü bildirən Yuri Jdanov, Rusiya Federasiyasının Baş prokuroru İqor Krasnovun salamlarını çatdıraraq, Azərbaycan Respublikası ilə hüquqi sahədə əməkdaşlığın möhkəmləndirilməsinə böyük önəm verdiklərini qeyd edib. O, Azərbaycanın təşkilatın fəaliyyətində fəal iştirakını və verdiyi töhfələri yüksək dəyərləndirib.

Cənab Jdanov MDB-yə üzv dövlətlərin Baş Prokurorlarının Əlaqələndirmə Şurası tərəfindən son dövrlər həyata keçirilən layihələr və tədbirlər haqqında ətraflı məlumat verərək, Şura nəzdində Kibertəhlükəsizlik Mərkəzinin təsis olunduğunu bildirib. O, Azərbaycan Baş Prokurorluğunun nümayəndə heyətini həmin mərkəzin fəaliyyəti ilə yaxından tanış olmaq məqsədilə təlim səfərinə dəvət edib.

Daha sonra Şuranın İcraçı katibi Baş Prokurorluğun Tarix muzeyi ilə tanış olub. Muzeydə Ulu Öndər Heydər Əliyevin həyat və yaradıcılığına həsr olunan guşə, Müzəffər Ali Baş Komandan, Prezident İlham Əliyevin fəaliyyəti, onun rəhbərliyi ilə 44 günlük Vətən müharibəsində torpaqlarımızın işğaldan azad edilməsinə həsr olunmuş bölmə, eləcə də Azərbaycan Prokurorluğunun tarixi və eksponatlar qonaqda zəngin təəssürat oyadıb.

# Baş prokuror Kamran Əliyevin rəhbərlik etdiyi nümayəndə heyəti Ankara səfəri çərçivəsində görüşlər keçirib

Azərbaycan və Türkiyə prokurorluqları arasında işgüzar əlaqələrin daha da genişləndirilməsi məqsədilə Azərbaycan Respublikasının Baş prokuroru Kamran Əliyevin rəhbərlik etdiyi nümayəndə heyəti Türkiyə Respublikası Ali Məhkəməsinin Baş prokuroru Muhsin Şentürkün dəvəti ilə iyulun 22-də Ankara şəhərinə səfərə gəlmişdir.




Səfər çərçivəsində nümayəndə heyəti Ankarada Ümummilli Lider Heydər Əliyevin adını daşıyan parkı ziyarət edərək abidəsi önünə əklil qoyub və Ulu Öndərin xatirəsini dərin ehtiramla yad edib. Daha sonra nümayəndə heyəti Türkiyə Respublikasının banisi Mustafa Kamal Atatürkün dəfn olunduğu Anıtqəbiri ziyarət edərək, onun məzarı önünə əklil qoyublar. Baş prokuror Kamran Əliyev Anıtqəbirin Şərəf kitabına ürək sözlərini yazıb.



Türkiyə Ali Məhkəməsinin Baş Prokurorluğunda keçirilmiş görüşdə Muhsin Şentürk ölkələrimizin hüquq-mühafizə orqanları arasında mövcud yüksək səviyyəli əməkdaşlığın əhəmiyyətini vurğulayıb.

Baş prokuror Kamran Əliyev göstərilən yüksək qonaqpərvərliyə görə təşəkkürünü bildirərək, Azərbaycan və Türkiyə arasındakı qardaşlıq münasibətlərinin Ümummilli Lider Heydər Əliyevin "Bir millət, iki dövlət" və Mustafa Kamal Atatürkün "Azərbaycanın sevinci bizim sevincimizdir, Azərbaycanın kədəri bizim kədərimizdir" kəlamlarında öz əksini tapdığını, hər iki ölkənin dövlət başçılarının siyasi iradəsi ilə həyata keçirilən strateji layihələrin xalqlarımızın rifahına xidmət etdiyini qeyd edib.



Görüş zamanı hüquqi əməkdaşlıqla bağlı geniş fikir mübadiləsi aparılıb, Türk Dövlətləri Təşkilatına üzv dövlətlərin Baş prokurorları Şurası, Beynəlxalq Prokurorlar Assosiasiyası və digər çoxtərəfli platformalar çərçivəsində birgə fəaliyyətin əhəmiyyəti vurğulanıb. Həmçinin hüquqi əməkdaşlıq sahəsində mövcud müqavilə bazasının təkmilləşdirilməsi və yeni imkanların nəzərdən keçirilməsi müzakirə olunub.

Həmin gün nümayəndə heyəti Türkiyə Ali Məhkəməsinin sədri Ömər Kərkəz ilə də görüşüb. Görüşdə ölkələ-

rimizin prokurorluq, məhkəmə və ədliyyə sistemləri arasında əməkdaşlığın uğurla davam etdiyi bildirilib. Tərəflər hakim və prokurorların ixtisasartırma təlimlərinin təşkilinin vacibliyini qeyd edərək gələcəkdə də bu istiqamətdə əlaqələrin inkişaf etdiriləcəyinə əminlik ifadə ediblər.

İyulun 22-də nümayəndə heyəti Türkiyənin ədliyyə naziri Yılmaz Tunç ilə görüş keçirib. Görüşdə hüquqi yardım, ekstradisiya, təlim səfərləri və Türk Ədliyyə Təlim Şəbəkəsi çərçivəsində əməkdaşlıq, eyni zamanda Azərbaycan Respublikası Baş Prokurorluğunun Elm-Tədris Mərkəzi ilə Türkiyə Ədliyyə Akademiyası arasında əməkdaşlıq imkanları müzakirə olunub.

Səfər çərçivəsində, həmçinin, Türkiyə Respublikasının Baş Ombudsmanı Mehmet Akarca ilə də görüş keçirilib. Görüş zamanı insan hüquq və azadlıqlarının təmin olunması, hüquqi maarifləndirmə sahəsində birgə təşəbbüslər və institusional əməkdaşlığın genişləndirilməsi imkanları ətrafında ətraflı fikir mübadiləsi aparılıb. Tərəflər bu sahədə qarşılıqlı təcrübə mübadiləsinin əhəmiyyətini qeyd edərək, qurumlar arasında əlaqələrin gələcəkdə daha da möhkəmləndirilməsi və birgə layihələrin reallaşdırılması ilə bağlı razılıq ifadə ediblər.

Görüşlərdə ölkəmizin Türkiyədəki fövqəladə və səlahiyyətli səfiri Rəşad Məmmədov iştirak edib.

Səfər çərçivəsində, həmçinin Baş prokuror Kamran Əliyev ölkəmizin Türkiyədəki səfirliyini ziyarət edərək səfirliyin heyəti ilə görüşmüş, ölkələrimiz arasında müxtəlif sahələrdə əlaqələrin və əməkdaşlığın gücləndirilməsi barədə barədə fikir mübadiləsi aparıb.











# Baş Prokurorluqda cari ilin birinci yarısında görülmüş işlərin yekunları və qarşıda duran vəzifələrə dair Geniş Kollegiya iclası keçirilib



İyulun 24-də Baş prokuror Kamran Əliyevin rəhbərliyi ilə videokonfrans rejimində Azərbaycan Respublikasının Prokurorluğu orqanları tərəfindən 2025-ci ilin birinci yarımilində cinayətkarlığa qarşı mübarizə, ədalət mühakiməsinin həyata keçirilməsində iştirak, qanunların icra və tətbiq olunmasına nəzarət, cinayət mühakimə və cinayət təqibindən kənar icraatlarda insan hüquq və azadlıqlarının müdafiəsi və qanunla müəyyən edilmiş digər sahələrdə görülmüş işlərin vəziyyəti və qarşıda duran vəzifələrin müzakirəsinə həsr olunmuş Geniş Kollegiya iclası keçirilib.

Giriş nitqi ilə çıxış edən Baş prokuror Kamran Əliyev cari ilin xalqımız, o cümlədən hüquq ictimaiyyəti üçün əlamətdar hadisələrlə zəngin bir il olduğunu bildirib.

Qeyd edilib ki, Ümummilli Lider Heydər Əliyevin anadan olmasının 102-ci ildönümünə təsadüf edən 2025-ci ilin Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin 28 dekabr 2024-cü il tarixli Sərəncamı əsasında Azərbaycan Respublikasında "Konstitusiya və Suverenlik ili" elan edilməsi hər birimiz üçün tarixi bir anlam kəsb etməkdədir.

Çıxış zamanı müasir Azərbaycanın banisi, görkəmli dövlət xadimi Ulu Öndər Heydər Əliyevin ölkəmizin hüquqi və demokratik dövlət olaraq formalaşmasındakı rolu və bu istiqamətdə uzaqgörənliklə atdığı qətiyyətli addımlar, həyata keçirdiyi hüquqi islahatlar, xüsusən müstəqil Azərbaycan Respublikası Konstitusiyasının hazırlanaraq qəbul edilməsi ilə bağlı göstərdiyi misilsiz xidmətlər vurğulanıb.

Bildirilib ki, son dövrlərdə dünyada müşahidə olunan geosiyasi gərginliklərə və ikili standartlara əsaslanan bir sıra beynəlxalq təzyiqlərə baxmayaraq Prezident cənab İlham Əliyevin rəhbərliyi altında cari ilin birinci yarımilində də ölkə iqtisadiyyatında davamlı inkişaf və müasir infrastrukturun yaradılması istiqamətində mühüm addımlar atılmış, siyasi və strateji tərəfdaşlıq sahəsində əlaqələrimiz daha da gücləndirilmişdir.

Bununla yanaşı, 2025-ci ilin birinci yarımilində də işğaldan azad edilmiş Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarının inkişafı, həmin ərazilərdə aparılan quruculuq işləri ölkə rəhbəri və Birinci vitse-prezident Mehriban xanım Əliyeva tərəfindən daim diqqət mərkəzində saxlanılmış, eyni zamanda yurdlarına geri qayıtmış vətəndaşların rifahının yaxşılaşdırılması və işlə təmini məqsədi ilə yeni istehsal müəssisələri açılmışdır.

Baş prokuror bildirib ki, 2025-ci ilin birinci yarımili prokurorluq orqanları üçün də əlamətdar hadisələrlə zəngin olmuşdur. Belə ki, 2025-ci il



may ayında Birləşmiş Millətlər Təşkilatının Korrupsiyaya qarşı mübarizə aparan hüquq-mühafizə orqanlarının Qlobal Əməliyyatlar Şəbəkəsi – GlobE Network çərçivəsində 92 ölkədən 120-dən çox dövlət qurumunun 300-dən yuxarı nümayəndəsinin iştirakı ilə Altıncı Plenar İclas Bakı şəhərində keçirilmişdir.

Baş prokuror Kamran Əliyev prokurorluğun əsas fəaliyyət istiqamətləri üzrə görülən işlərə və statistik göstəricilərə istinad etməklə hesabat dövründə Respublikada kriminogen durumun nəzarətdə saxlanıldığını, daxili işlər, dövlət təhlükəsizliyi və digər hüquq mühafizə orqanları ilə əlaqəli şəkildə ölkəmizdə ictimai-siyasi sabitliyin qorunduğunu, cinayətkarlığa qarşı mübarizənin gücləndirilməsi sahəsində zəruri tədbirlərin görüldüyünü, bunun da nəticəsində qeydə alınan cinayətlərin sayında əhəmiyyətli azalmanın olduğunu bildirib.

Bildirilib ki, cari ilin birinci yarımilində ölkə ərazisində 17049 cinayət qeydə alınmaqla onların 90,2 faizinin açılması təmin edilmiş, ümumilikdə ölkə üzrə cəmi 7477 cinayət işinin istintaqı tamamlanmışdır ki, onlardan 536-ı prokurorluq orqanlarında istintaq edilmişdir. Prokurorluq orqanları tərəfindən 340, ümumilikdə isə digər istintaq qurumları ilə birgə 5839 cinayət işinin ibtidai istintaqı yekunlaşdırılaraq baxılması üçün məhkəmələrə göndərilmişdir.

Prokurorluq orqanlarında ibtidai istintaqı apararaq yekunlaşmış cinayət işləri və tamamlanmış araşdırma materialları üzrə ümumilikdə 55 milyon 783 min manat məbləğində maddi ziyan vurulduğu müəyyən edilərək istintaq tədbirləri ilə onun 37,7 faizinin, yəni 21 milyon 26 min manat hissəsinin ödənilməsinə nail olunmuş, habelə 13 milyon 788 min manat məbləğində əmlak üzərinə həbs qoyulmuşdur.

Qeyd edildi ki, cənab Prezident İlham Əliyevin 7 may 2021-ci il tarixli Fərmanına uyğun olaraq istifadəyə verilmiş “Elektron prokurorluq” informasiya sisteminin texniki və funksional imkanları əhəmiyyətli dərəcədə təkmilləşdirilmiş, bir sıra digər dövlət informasiya resursları ilə inteqrasiya təmin edilmişdir.

Hesabat dövründə ölkə rəhbərinin siyasi fəaliyyətinin əsas prioritet istiqamətlərindən biri olan korrupsiyaya və rüşvətxorluğa qarşı barışmaz mübarizə xətti əvvəlki illərdə olduğu kimi ardıcıl şəkildə davam etdirilmişdir. Bu çərçivədə Baş prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsi tərəfindən vətəndaşları ciddi narahat edən korrupsiya xarakterli cinayətlərin və hüquqpozmaların daha geniş yayıldığı idarəetmə və xidmət sahələri müəyyən edilmiş, həmin əməlləri törətmiş vəzifəli şəxslər məhkəmə məsuliyyətinə verilmişdir. Eyni zamanda, Baş İdarənin əməliyyat qurumları tərəfindən həyata

keçirilən əməliyyat tədbirləri nəticəsində 10 şəxs cinayət başında yaxalanmış, əməliyyat üsul və vasitələrindən istifadə etməklə korrupsiya hüquqpozmaları barədə əldə edilmiş məlumatlar əsasında 59 cinayət işi başlanmışdır.

Hesabat dövründə Baş Prokurorluğun İstintaq idarəsi tərəfindən 39 şəxs barəsində 31 cinayət işinin ibtidai istintaqı tamamlanaraq baxılması üçün məhkəmələrə göndərilmiş, bunlardan 2 şəxs barəsində 2 iş qəsdən adam öldürmə faktları ilə bağlı olmuşdur. Həmçinin, 3 şəxs barəsində qiyabi icraat başlanaraq məhkəməyə göndərilməsi təmin edilmişdir.

Baş prokuror 2025-ci ilin birinci yarımilində qeydə alınmış qeyri-aşkar cinayətlərin açılmasında, habelə ictimai sabitliyin və təhlükəsizliyin təmin edilməsi ilə bağlı prokurorluq orqanları ilə daxili işlər orqanları arasında səmərəli və koordinasiyalı fəaliyyəti xüsusi qeyd etmişdir.

Hesabat dövründə bütün instansiya məhkəmələri üzrə 11.170 şəxs barəsində 10.046 iş üzrə dövlət ittihamının müdafiəsi təmin olunmuş, prokurorluq orqanları tərəfindən 658 apellyasiya və 198 kassasiya protestləri verilmiş, 441 apellyasiya protesti və 49 kassasiya protestləri təmin olunmaqla nəticədə məhkəmə səhvlərinin yuxarı instansiya məhkəmələri tərəfindən aradan qaldırılması təmin olunmuşdur.

Bildirilib ki, hesabat dövründə tabe rayon (şəhər) prokurorluqlarının fəaliyyətində də qənaətbəxş nəticələr əldə olunub, 2024-cü ilin birinci yarımili ilə müqayisədə adam öldürmə cinayətləri 21 vahid azalaraq törədilmiş 54 cinayətdən 53-nün açılması, bağlı qalmış 1 qəsdən adam öldürmə cinayət işinin isə cari ilin iyul ayında açılması təmin olunub.

Təəssüf hissi ilə qeyd edilmişdir ki, Ermənistan tərəfinin apardığı mina terroru nəticəsində 2025-ci ilin birinci yarımilində mina və partlamamış hərbi sursat partlayışları nəticəsində 18 nəfər müxtəlif dərəcəli bədən xəsarəti almışdır. 2020-ci ilin noyabr ayından hazırki vaxtadək isə ümumilikdə 400 şəxs bu terrorun qurbanı olmuş, onlardan 70 nəfəri həlak olmuş, 330 nəfəri müxtəlif dərəcəli bədən xəsarəti almışdır.

Cari ilin birinci yarımilində istintaq, təhqiqat və əməliyyat-axtarış fəaliyyətində qanunların icrasına nəzarətin səmərəliliyinin artırılması məqsədilə prosessual rəhbərlik və effektiv nəzarətin həyata keçirilməsini təmin edəcək mexanizmin təkmilləşdirilməsi üçün zəruri tədbirlər görülməklə cinayət işləri üzrə icraata xitam verilməsinə dair 490 qərar əsassız və qanunsuz hesab edilərək ləğv olunub.

2025-ci ilin birinci yarımili ərzində cinayət təqibindən kənar icraatlarla əlaqədar inzibati xəta haqqında protokol tərtib etmək səlahiyyətinə malik qurumlarla işgüzar əlaqələrin qurulması təmin olunmaqla 1891 inzibati xəta haqqında iş üzrə icraatın başlanması haqqında qərar qəbul edilib.

Qeyd edilib ki, Baş Prokurorluğun “Çağrı Mərkəzi”nə 2025-ci ilin birinci yarımilində daxil olmuş müraciətlərdən 14263 müraciət üzrə vətəndaşlara onları maraqlandıran müvafiq hüquqi izahlar verilib, 2146 məlumat isə cinayət xarakterli olduğu üçün qeydə alınaraq araşdırılması aidiyyəti struktur qurumlara tapşırılıb.

Kollegiya iclasında qeyd olunmuşdur ki, ötən yarımildə xidməti, icra və əmək intizamının möhkəmləndirilməsi istiqamətində görülən tədbirlər nəticəsində prokurorluq işçilərinin fəaliyyətində qanunsuzluqlara və etik davranış qaydalarına zidd hallara qarşı tələbkarlıq daha da artırılmış, bu məqsədlə aparılmış xidməti yoxlamalar nəticəsində müxtəlif növ intizam xətalarına yol verdikləri üçün 12 prokurorluq əməkdaşı intizam məsuliyyətinə cəlb olunmuş, onlardan 1-nə irad bildirilmiş, 7-nə töhmət və ya şiddətli töhmət elan edilmiş, 2 nəfər tutduğu vəzifədən azad olunmuş, 2 nəfər prokurorluq orqanlarından xaric edilmişdir.

Həmçinin diqqətə çatdırılmışdır ki, hesabat dövründə kadr işinin düzgün təşkili və onun müasir tələblərə uyğun şəkildə təkmilləşdirilməsi istiqamətində mühüm tədbirlər həyata keçirilmiş, habelə nümunəvi fəaliyyətlərinə görə 132 prokurorluq işçisi həvəsləndirilmiş, 44 nəfər vəzifədə irəli çəkilmiş, eyni zamanda işə qəbul olunmaq istəyən şəxslər üçün ötən yarımildə 50 ştat vahidi üzrə 27-ci növbəti müsabiqə elan edilmişdir.

Hesabat dövründə azyaşlı uşaqların hüquqların müdafiəsi istiqamətində zəruri tədbirlər görülmüş, bu istiqamətdə valideynlik hüquqlarının məhdudlaşdırılması ilə bağlı 3 mülki iddia qaldırılmışdır.

Cari ilin birinci yarımilində prokurorluq orqanlarının beynəlxalq nüfuzunun artırılması istiqamətində xarici ölkələrin müvafiq orqanları və beynəlxalq təşkilatlarla əlaqələr genişlənib, Baş Prokurorluğun Beynəlxalq hüquqi əməkdaşlıq idarəsinin həyata keçirdiyi tədbirlər nəticəsində 42 təqsirləndirilən şəxsin ölkə xaricindən ekstradisiyası təmin edilib.

Vurğulanıb ki, 2025-ci ilin birinci yarımilində də vətəndaşların müraciətlərinə baxılması və onların qəbulu işinin düzgün təşkili daim diqqətdə



saxlanılmış, Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin tapşırığına uyğun olaraq Baş prokuror tərəfindən Respublikanın 13 şəhər və rayonunda 400-dən artıq vətəndaşın qəbulu həyata keçirilmişdir. Vətəndaşların müraciətlərində qaldırılan və birbaşa prokurorluq orqanlarının səlahiyyətlərinə aid məsələlərin qanunvericiliyə uyğun həllinin təmin edilməsi məqsədilə Baş Prokurorluğun aidiyyəti struktur qurumlarının rəhbərlərinə və müvafiq ərazi prokurorlarına konkret göstərişlər verilmişdir.

Kollegiya iclasında hesabat dövründə əldə olunmuş müsbət nəticələrlə yanaşı, fəaliyyətin ayrı-ayrı istiqamətləri üzrə mövcud çatışmazlıqlar da diqqət mərkəzində saxlanılmış, bu halların aradan qaldırılması məqsədilə Baş Prokurorluğun aidiyyəti struktur qurumların rəhbərlərinin iştirakı ilə geniş təhlillər aparılmışdır. İstintaq işi və ibtidai araşdırmalara prosessual rəhbərliyin təşkili, fiziki və hüquqi şəxslərə dəymiş zərərin ödənilməsi, vətəndaş müraciətlərinə baxılması və onların qəbulu ilə bağlı fəaliyyətin səmərəli təşkili istiqamətində konkret və təxirəsalınmaz tədbirlərin görülməsi qarşıya mühüm vəzifə kimi qoyulmuşdur.

Baş Prokurorluğun əlaqədar struktur qurumları və müvafiq tabe prokurorlar tərəfindən daxili işlər orqanları ilə qarşılıqlı əlaqədə cinayətlərin qarşısının alınması üçün kompleks və məqsədyönlü tədbirlərin görülməsinin vacibliyi vurğulanmışdır.

Daha sonra Azərbaycan Respublikası Baş prokurorunun birinci müavini Elçin Məmmədov, müavinləri Elmar Camalov, Heydər Məmmədov, Baş prokurorun müavini – Baş prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsinin rəisi Nazim Rəcəbov və Baş prokurorun müavini – Azərbaycan Respublikasının Hərbi prokuroru Bəhruz Əhmədov, Naxçıvan Muxtar Respublikasının prokuroru Sənan Paşayev, Bakı şəhər prokuroru Elşən Abbasov hesabat dövründə fəaliyyət, bu zaman yol verilmiş nöqsanlar və onların aradan qaldırılması istiqamətində görülməli tədbirlər barədə, Hacıqabul, Balakən rayon və Füzuli hərbi prokuroru hesabat dövründə görülmüş işlərlə bağlı məruzələrlə çıxış edib, müzakirələr ətrafında fikir mübadiləsi aparılmaqla qarşıda duran vəzifələrə dair tapşırıqlar verilib.

Kollegiya iclasına yekun vuran Baş prokuror Kamran Əliyev daim dövləti maraqların keşiyində mətinliklə durmuş, bu istiqamətdə qanunla üzərilərinə qoyulmuş vəzifələri layiqincə yerinə yetirmiş prokurorluq əməkdaşlarının tarixi və mənəvi mahiyyət kəsb edən bu ildə də Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin rəhbərliyi altında həyata keçirilən dövlət siyasətinin uğurla davam etdirilməsi amalında xalqımızın və dövlətimizin maraq və mənafeyinə təhdid doğuran bütün neqativ hal və ünsürlərə münasibətdə qətiyyətli mövqe tutacaqlarına, qanunla səlahiyyətlərinə aid edilmiş bütün fəaliyyət istiqamətləri üzrə öz öhdəliklərini yüksək peşəkarlıqla icra edəcəklərinə əminliyini ifadə edib.

# Baş prokuror MDB-yə üzv dövlətlərin Baş Prokurorlarının Əlaqələndirmə Şurasının İcraçı katibini qəbul edib






Cari ilin 21 avqust tarixində "Ümummilli Lider Heydər Əliyev müstəqil Azərbaycan Konstitusiyasının müəllifidir" mövzusunda Laçın rayonunda keçirilməsi nəzərdə tutulmuş beynəlxalq konfransda iştirak etmək məqsədilə MDB-yə üzv dövlətlərin Baş Prokurorlarının Əlaqələndirmə Şurasının İcraçı katibi Yuri Nikolayeviç Jdanovun rəhbərlik etdiyi nümayəndə heyəti ölkəmizə işgüzar səfər edib.

Səfər çərçivəsində Azərbaycan Respublikasının Baş prokuroru ilə cənab Yuri Jdanov arasında ikitərəfli görüş keçirilib.

Baş prokuror Kamran Əliyev qonaqları salamlayaraq, MDB Baş Prokurorlarının Əlaqələndirmə Şurasının fəaliyyətini yüksək qiymətləndirdiyini ifadə edib, qısa müddət ərzində ölkəmizə ikinci səfərinin təşkilinin önəmini vurğulayaraq, bunun qurumlarası münasibətlərin yüksək səviyyədə olmasının göstəricisi olduğunu bildirib.

Səmimi qəbula görə təşəkkürünü bildirən Yuri Jdanov, Rusiya Federasiyasının Baş prokuroru İqor Krasnovun salamlarını çatdıraraq, Azərbaycan Respublikası ilə hüquqi sahədə əməkdaşlığın möhkəmləndirilməsinə böyük önəm verdiklərini qeyd etmiş, Azərbaycan Prokurorluğunun təşkilatın fəaliyyətində aktiv iştirakını və verdiyi töhfələri yüksək dəyərləndirib.

Görüş çərçivəsində MDB-yə üzv dövlətlərin Baş Prokurorlarının Əlaqələndirmə Şurasının yaradılmasının 30 illiyi münasibətilə yubiley tədbirlərinin təşkili və cari ilin oktyabr ayında Tacikistanda keçiriləcək Şuranın 35-ci iclasına hazırlıq məsələləri müzakirə edilib.

## "Ümummilli Lider Heydər Əliyev müstəqil Azərbaycan Konstitusiyasının müəllifidir" mövzusunda beynəlxalq konfrans




Avqustun 22-də Laçında Baş Prokurorluq tərəfindən təşkil olunan "Ümummilli Lider Heydər Əliyev müstəqil Azərbaycan Konstitusiyasının müəllifidir" mövzusunda beynəlxalq konfrans keçirilib.

Konfransda Baş prokuror Kamran Əliyev, Laçın rayonunda Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəsi Məsim Məmmədov, MDB-yə üzv dövlətlərin Baş Prokurorlarının Əlaqələndirmə Şurasının icraçı katibi Yuri Nikolayeviç Jdanov və onun müavini Abduraxmon Xotambekov, Türkiyə Respublikasının Ali Məhkəməsinin Baş Prokurorluğunun prokurorları Ahmet Gökay Aktaş və Mustafa Yakar, eləcə də Gürcüstan Baş Prokurorluğunun əməkdaşı Temur Tsindeliani, Baş Prokurorluğun rəhbər heyəti, Baş prokuror yanında Elmi-Məsləhət Şurasının üzvləri, ərazi və hərbi prokurorlar, eləcə də digər mötəbər qonaqlar iştirak ediblər.



Tədbir başlamazdan öncə Ulu Öndər Heydər Əliyev və vətənimizin azadlığı uğrunda canlarını qurban verən şəhidlərimizin əziz xatirəsi konfrans iştirakçıları tərəfindən bir dəqiqəlik sükutla yad olunub, Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilib.

Konfrans iştirakçılarını salamlayan Baş prokuror Kamran Əliyev müstəqil Azərbaycan Respublikasının ilk Konstitusiyasının qəbulunun müasir Azərbaycanın



memarı, Ümummilli Lider Heydər Əliyevin adı ilə bağlı olduğunu qeyd edərək bildirib ki, bu, müstəqillik tariximizin ən mühüm və əlamətdar hadisələrindən biri olmaqla yanaşı, Ümummilli Lider Heydər Əliyevin Azərbaycan dövlətçiliyi qarşısındakı böyük xidmətlərindən biridir.

Prezident İlham Əliyevin rəhbərliyi altında hüquqi islahatların uğurla davam etdirildiyini qeyd edən Baş prokuror dövlət suverenliyinin qorunması və bərpası sahəsində ölkə başçısının fəaliyyətini xüsusi vurğulayıb.

Qeyd edib ki, dövlət başçısı İlham Əliyev və Birinci Vitse-Prezident Mehriban Əliyevanın davamlı diqqət və qayğısı nəticəsində suveren ölkəmizin bütün bölgələrində, xüsusilə işğaldan azad olunmuş ərazilərdə, o cümlədən konfransın keçirildiyi Laçın rayonunda genişmiqyaslı abadlıq və quruculuq işləri görülür, eləcə də Böyük Qayıdış strategiyası uğurla icra olunur.

Baş prokuror həmçinin qeyd edib ki, Konstitusiyada təsbit olunmuş suverenlik prinsipləri prokurorluğun fəaliyyətinin əsasını təşkil edir. Bununla yanaşı, müstəqil Azərbaycan Konstitusiyası ölkəmizdə dövlət hakimiyyətinin yeganə mənbəyinin Azərbaycan xalqı olduğunu müəyyən etməklə yanaşı, insan və vətəndaş hüquq və azadlıqlarının təmin olunmasını dövlətin ali məqsədi kimi bəyan edib.

Kamran Əliyev bildirib ki, Azərbaycan Konstitusiya layihəsini hazırlamaq üçün Ulu Öndər Heydər Əliyevin sədrliyi ilə 33 nəfərdən ibarət Konstitusiya Komissiyası yaradılıb:

"Konstitusiya layihəsi ümumxalq müzakirəsindən sonra, 1995-ci il noyabrın 12-də keçirilən və seçicilərin 86 faizinin iştirak etdiyi 91,9 faiz səs çoxluğu ilə referendumda qəbul edilmiş və 1995-ci il noyabrın 27-də isə qüvvəyə minmişdir.

Baş prokuror qeyd edib ki, 5 bölmə, 12 fəsil, 158 maddədən ibarət müstəqil Azərbaycanın Konstitusiyası Azərbaycan Respublikasında dövlət hakimiyyətinin yeganə mənbəyinin Azərbaycan xalqı olduğunu müəyyən etməklə yanaşı insan və vətəndaş hüquq və azadlıqlarının təmin olunmasını dövlətin ali məqsədi kimi bəyan edir:

"Hakimiyyət bölgüsünün əsas prinsiplərini müəyyənləşdirir, insan və vətəndaş hüquqlarının,









azadlıqlarının müdafiəsini qanunvericilik, icra və məhkəmə hakimiyyəti orqanları üzərinə ümdə vəzifə olaraq qoyur. Şəxsiyyətin toxunulmazlığı, insan həyat və sağlamlığının qorunması, layiqli həyat səviyyəsinin təmin olunması, humanizm prinsipləri Azərbaycan Konstitusiyasının başlıca mahiyyətini təşkil etməklə yanaşı, həmçinin ölkəmizin ümumbəşəri qəbul edilmiş demokratik ideya və prinsiplərə sadiqliyinə dəlalət edir".

Baş prokuror həmçinin bildirib ki, 8 avqust 2025-ci il tarixli Vaşinqton görüşü Cənubi Qafqazda dayanıqlı sülhün və təhlükəsizliyin təmin olunması baxımından tarixi dönüş nöqtəsidir və ABŞ-ın paytaxtı Vaşinqtonda, Ağ Evdə Azərbaycan ilə Ermənistan arasında sülh müqaviləsinin paraflanması bu ilin ən mühüm hadisələrindən biridir:

"Bu hadisə Azərbaycanın beynəlxalq aləmdə suveren hüquqlarının tam şəkildə tanınmasının təsdiqidir. Bu diplomatik uğur ölkəmizin artan nüfuzunun, Prezident cənab İlham Əliyevin qətiyyətli və hərtərəfli siyasətinin nəticəsidir".

Baş prokuror tərəfindən qeyd olunub ki, yeni reallıqlar fonunda strateji əhəmiyyət daşıyan məsələlərdən biri Zəngəzur dəhlizinin açılmasıdır. Bu layihə Azərbaycanın əsas hissəsi ilə Naxçıvan arasında quru əlaqəsini təmin etməklə yanaşı, bütövlükdə regionun nəqliyyat xəritəsini dəyişəcək, iqtisadi və siyasi inteqrasiyaya böyük töhfə verəcək:

"Prezident İlham Əliyevin vurğuladığı kimi, Zəngəzur dəhlizi təkcə Azərbaycanın milli maraqlarını təmin etmir, eyni zamanda beynəlxalq əməkdaşlıq, ticari əlaqələr və qlobal təhlükəsizlik baxımından mühüm əhəmiyyət kəsb edir. Onun açılması suverenliyimizin praktiki gücünün, Azərbaycanın regiondakı lider mövqeyinin daha bir göstəricisi olacaq".

Çıxış edən Laçın rayonunda Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəsi Məsim Məmmədov işğaldan azad edildikdən sonra Laçın rayonunda aparılan geniş bərpa və yenidənqurma işləri barədə iştirakçılara məlumat verib, habelə qeyd edib ki, indiyədək Laçına 936 ailə, ümumilikdə 3516 nəfər köçürülüb.

MDB-yə üzv dövlətlərin Baş Prokurorlarının Əlaqələndirmə Şurasının icraçı katibi Yuri Nikolayeviç Jdanov bildirib ki, Azərbaycan torpağında, MDB-yə üzv dövlətlərin də bir hissəsi olduğu o nəhəng ölkənin rəmzlərinə çevrilən böyük şəxsiyyətləri və nailiyyətləri yada salmamaq mümkün deyil:

"Yaşadığım dövrün bir nümayəndəsi kimi qeyd edə bilərəm ki, böyükmiqyaslı Baykal-Amur magistralının tikintisi layihəsinin uğurla həyata keçirilməsində həmin illərdə SSRİ Nazirlər Soveti sədrinin birinci müavini olmuş, ikiqat Sosialist Əməyi Qəhrəmanı Heydər Əliyevin həlledici rolu olub! Bu görkəmli şəxsiyyət yalnız Azərbaycan xalqının qəhrəmanı deyildi! Biz hamımız onu böyük hörmət və minnətdarlıq hissi ilə xatırlayırıq!"

Onun sözlərinə görə, müasir dövr həm cəmiyyətin, həm də prokurorluq orqanlarının qarşısında yeni çağırışlar gətirir. Narkotik vasitələrin qanunsuz dövriyyəsi, qaçaqmalçılıq, mülkiyyət hüquqları sahəsində pozuntular – bütün bunlar dövrün çağırışlarıdır və prokurorluq bu təhlükəli təzahürlərlə mübarizənin ön cəbhəsində dayanır:

"Kiberməkanda baş verən cinayətkarlıqla mübarizənin vacibliyini xüsusilə vurğulamaq istəyirəm. Kibercinayətkarlıq inkişaf etmiş ölkələrdən inkişaf etməkdə olan ölkələrə qədər demək olar ki, bütün dövlətlərin bəlasına çevrilmişdir, vətəndaşlardan – ən zənginindən ən kasıbına qədər, onun hədəfi isə maddi vəziyyətindən asılı olmayan bütün vətəndaşlar, həmçinin korporasiyalar və hətta bütöv dövlətlərdir! Biz hamımız kibercinayətkarlarla mübarizə sahəsində uğurlu təcrübələrin, məlumatların mübadiləsi, MDB-yə üzv dövlətlərin prokurorluq əməkdaşlarının qarşılıqlı ixtisasartırması istiqamətində səylərimizi birləşdirməliyik.

Cinayətkarlığa qarşı mübarizədə həmkarlarım üçün müxtəlif ölkələrin qanunvericiliklərini və təcrübələrini öyrənmək imkanını verən vahid mərkəzin yaradılması məsələsini qaldırmağı zəruri hesab edirəm”.

Beynəlxalq konfransın iştirakçısı Türkiyə Respublikasının Ali Məhkəməsinin Baş Prokurorluğunun prokuroru Ahmet Gökay Aktaş bildirib ki, qanunun aliliyi, əsas hüquq və azadlıqların təminatı, hakimiyyət bölgüsü kimi prinsiplər müasir konstitusiyaların əsasını təşkil edir: "Konstitusiyanın 30 illik yubileyi təkcə Azərbaycan üçün deyil, dost və qardaş ölkələr kimi bizim üçün də mənalı və qürurverici bir hadisədir.

Türkiyə Cümhuriyyəti Prokurorluğu olaraq dost ölkələrin, xüsusilə Azərbaycanın məhkəmə qurumları ilə bilik və təcrübə mübadiləsinə böyük əhəmiyyət veririk. Ortaq hüquq mədəniyyətimiz, oxşar konstitusiya yanaşmalarımız, qarşılıqlı etimad bu əməkdaşlığın daha da möhkəmlənməsinə zəmin yaradır”.







Gürcüstan Baş Prokurorluğunun əməkdaşı Temur Tsindeliani deyib ki, konstitusiya olmasaydı, qanunlar öz əsaslarını itirər, dövlət qurumları legitimlikdən məhrum olardı:

“Vətəndaşları özbaşına hakimiyyətdən qoruyan qalxan, hüquqi və siyasi sistemimizi istiqamətləndirən kompasdır. İndi bu konstitusiya çərçivəsində prokurorluq çox xüsusi yer tutur. Onun rolu təkcə hüquqi deyil, həm də konstitusion və sosialdır. Prokurorluq dövlətin qanunları həyata keçirmək vəzifəsi ilə vətəndaşın ədalət mühakiməsi hüququnun kəsişməsində dayanır”.

Çıxışlardan sonra konfrans iştirakçıları tərəfindən mövzu ətrafında və qarşılıqlı əməkdaşlıq üzrə faydalı müzakirələr aparılıb.

Tədbirdə “Xalqın adamı” adlı sənədli film nümayiş etdirilib, Ümummilli Lider Heydər Əliyevin konstitusiya quruculuğundakı rolu və müasir suveren dövlətçiliyin formalaşmasındakı xidmətləri bir daha xatırlanıb.

Tədbir çərçivəsində həmçinin, Qarabağ regionunda çalışan, xidməti vəzifələrinin icrasında fərqlənmiş prokurorluq əməkdaşlarına, o cümlədən hərbi prokurorluq əməkdaşlarına Baş prokuror Kamran Əliyev tərəfindən həvəsləndirmə qaydasında mükafatlar təqdim edilib.

Sonda xatirə fotoşəkli çəkilib.



# Azərbaycan Respublikasının Baş prokuroru cənab Kamran Əliyev Türkiyə Respublikasında səfərdə olub





Sentyabrın 1-də Azərbaycan Respublikası Baş prokuroru Kamran Əliyevin rəhbərlik etdiyi nümayəndə heyəti "2025-2026 Yeni Ədliyyə İli Açılış Tədbiri"ndə iştirak etmək üçün qardaş Türkiyə Respublikasının Ankara şəhərinə işgüzar səfər edib.

İlk olaraq nümayəndə heyəti Ankarada ümummilli lider Heydər Əliyevin adını daşıyan parkı ziyarət edərək abidəsi önünə əklil qoyub və Ulu Öndərin xatirəsini dərin ehtiramla yad edib.

Rəsmi tədbirdə Türkiyə Respublikasının vitse-prezidenti Cevdet Yılmaz, Ali Məhkəmənin sədri Ömər Kərkəz, Baş prokuror Muhsin Şəntürk, Ədliyyə naziri Yılmaz Tunç, həmçinin çoxsaylı hakim və prokurorlar, eləcə də digər xarici qonaqlar da iştirak ediblər.

Açılış nitqi ilə çıxış edən vitse-prezident Cevdet Yılmaz məhkəmə və prokurorluq orqanlarının ədalət mühakiməsinin təmin edilməsində xüsusi rolunu vurğulayaraq, yeni ədliyyə ilinin başlanması münasibətilə tədbir iştirakçılarını təbrik edib. O, eyni zamanda, Azərbaycan Respublikasının Baş prokuroru Kamran Əliyevi və Ali Məhkəmənin sədri İnam Kərimovu salamlayaraq, Türkiyə ilə Azərbaycan arasında qardaşlıq münasibətlərinin möhkəm təməllər üzərində qurulduğunu və qarşılıqlı əlaqələrin daim inkişaf etdiyini diqqətə çatdırıb.

Vitse-prezidenti Cevdet Yılmaz heyət rəhbərlərini qəbul edərək, Azərbaycan və Türkiyə arasında bütün sahələrdə, xüsusilə hüquq-mühafizə əməkdaşlığında əldə olunan nailiyyətlərin davamlı xarakter daşıdığını, dövlət başçıları cənab İlham Əliyev və cənab Rəcəb Tayyib Ərdoğanın birgə siyasi iradəsi ilə münasibətlərin ən yüksək – müttəfiqlik səviyyəsinə yüksəldiyini qeyd edib.









Səfər çərçivəsində Kamran Əliyev Türkiyə Respublikasının Baş prokuroru Muhsin Şəntürk, Ali Məhkəmənin sədri Ömər Kərkəz, Ədliyyə naziri Yılmaz Tunç və başqa xarici həmkarları ilə görüşlər keçirib.

Görüşlərdə hüquqi əməkdaşlığın möhkəmləndirilməsi, təcrübə mübadiləsinin genişləndirilməsi, eləcə də qarşılıqlı maraq doğuran digər məsələlər üzrə səmərəli fikir mübadiləsi aparılıb.

# Azərbaycan Respublikasının Baş prokuroru Sinqapurda işgüzar səfərdə olmuşdur



Azərbaycan Respublikasının Baş prokuroru Kamran Əliyevin rəhbərlik etdiyi geniş tərkibli nümayəndə heyəti Beynəlxalq Prokurorlar Assosiasiyasının (BPA) 30-cu illik konfransı və ümumi yığıncağında iştirak məqsədilə 07–10 sentyabr 2025-ci il tarixlərində Sinqapurda işgüzar səfərdə olub.

"Prokurorun dəyişən rolu və cinayət mühakimə sisteminin idarə edilməsi" mövzusuna həsr olunmuş konfrans çərçivəsində hüquq-mühafizə orqanlarının fəaliyyətində müasir informasiya-kommunikasiya texnologiyalarının tətbiqi, o cümlədən süni intellektdən istifadə imkanları, prokurorluq orqanlarının kiberci-



nayətkarlıqla mübarizə təcrübəsi, rəqəmsal sübutların cinayət mühakimə icraatında istifadəsi, əməkdaşlıq əlaqələrinin daha da möhkəmləndirilməsi, yeni çağırışlara uyğun birgə təşəbbüslərin həyata keçirilməsi və bu kimi aktual məsələlər müzakirə olunub.





Dünya prokurorlarını bir araya gətirən Assosiasiyanın 30 illik yubileyinə təsadüf edən konfransın açılış mərasimində Sinqapur Respublikasının Prezidenti Tarman Şanmuqaratnam, Baş prokuroru Lüsyen Vonq və Beynəlxalq Prokurorlar Assosiasiyasının Prezidenti Xuan Batista Mahikes çıxış edərək qonaqları salamlayıblar.

Tədbirin açılışında çıxış edən rəsmi şəxslər konfransın cinayətkarlığın müasir təzahürlərinə qarşı mübarizədə beynəlxalq əməkdaşlığın gücləndirilməsinə mühüm töhfə verəcəyini qeyd edib, onun məhsuldar nəticələr verəcəyinə inamlarını ifadə ediblər.

Açılış mərasimində Beynəlxalq Prokurorlar Assosiasiyasının rəhbərliyi tərəfindən çıxış zamanı ötən il Bakı şəhərində keçirilmiş Assosiasiyanın 29-cu illik konfransı xatırlanaraq, bu tədbirin təşkilatın tarixində dünyanın dörd bir yanından ən çox sayda prokurorun iştirak etdiyi mötəbər platformaya çevrildiyi xüsusi vurğulanıb.

Səfər zamanı Baş prokuror Kamran Əliyev Sinqapurun Baş prokuroru Lüsyen Vonq ilə görüş keçirib. Görüş zamanı Kamran Əliyev həmkarına Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən genişmiqyaslı islahatlar nəticəsində ölkədə korrupsiyaya qarşı sistemli mübarizə sahəsində görülən işlər barədə ətraflı məlumat verib. Eyni zamanda, bu sahədə Sinqapurun uğurlu təcrübəsinin öyrənilməsi və tətbiqi istiqamətində maraqlı olduqlarını bildirib.

Görüşdə müasir cinayət formalarının qarşısının alınması, gələcək əməkdaşlığın müqavilə-hüquq bazası ilə möhkəmləndirilməsi və kadr hazırlığı məsələləri müzakirə olunub.

Baş prokuror tədbirin yüksək səviyyədə təşkil olunmasını təqdir edib, göstərilən qonaqpərvərliyə görə Sinqapur tərəfinə təşəkkürünü bildirib və konfransın işinə uğurlar arzulayıb.

Bundan əlavə, tədbir çərçivəsində Baş prokuror Kamran Əliyev Niderland, Gürcüstan, Qazaxıstan, Estoniya, Sloveniya, Lixtenshteyn, Türkiyə, Timor-Leste və Omanın Baş prokurorları, habelə Çin Xalq Respublikasının Baş prokurorunun müavini ilə ikitərəfli görüşlər keçirib. Görüşlərdə qarşılıqlı maraq doğuran məsələlər, o cümlədən ekstradisiya, cinayət işləri üzrə hüquqi yardım və digər aktual əməkdaşlıq istiqamətləri ətrafında fikir mübadiləsi aparılıb.

Səfər çərçivəsində növbəti günlərdə digər ölkələrin prokurorluq orqanlarının rəhbərləri ilə görüşlərin keçirilməsi və əməkdaşlıq imkanlarının daha da genişləndirilməsi nəzərdə tutulur.

Tədbirdə, həmçinin, ölkəmizin İndoneziya Respublikasındakı fövqəladə və səlahiyyətli səfiri Ramil Rzayev də iştirak edib.

# Baş prokuror Naxçıvan Muxtar Respublikası Prokurorluğunda əməliyyat müşavirəsi keçirib



Sentyabrın 18-də Baş prokuror Kamran Əliyev Naxçıvana səfər edib.

Səfər çərçivəsində Naxçıvan Muxtar Respublikası Prokurorluğunda Baş prokurorun rəhbərliyi ilə Muxtar Respublika, Naxçıvan hərbi, Naxçıvan şəhər və digər tabe rayon prokurorluqların əməkdaşlarının iştirakı ilə əməliyyat müşavirəsi keçirilib.

Müşavirə iştirakçıları əvvəlcə Ulu Öndər Heydər Əliyevin Naxçıvan şəhərindəki abidəsini ziyarət edərək önünə gül dəstələri qoyub, unudulmaz xatirəsini dərin ehtiramla yad edib.

Daha sonra müşavirə iştirakçıları tərəfindən Ulu Öndərin və Azərbaycanın Respublikasının ərazi bütövlüyü və suverenliyi uğrunda canlarından keçmiş şəhidlərimizin ruhu 1 dəqiqəlik sükutla yad edilib.

Müşavirədə giriş nitqi ilə çıxış edən Baş prokuror Azərbaycan Respublikasında 2025-ci ilin "Konstitusiya və Suverenlik ili" elan olunmasının birliyimizin, həmrəyliyimizin, müstəqilliyimizin və ərazi bütövlüyümüzün bariz nümunəsi olduğunu bildirərək, Ulu Öndər Heydər Əliyevin prokurorluq orqanlarının inkişafına verdiyi töhfə, habelə Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin rəhbərliyi altında ölkəmizdə, o cümlədən hüquq sistemində aparılmış islahatlar, işğaldan azad olunmuş ərazilərimizdə birinci vitse-prezident Mehriban xanım Əliyevanın da yaxından iştirakilə bərpa və yenidənqurma prosesləri ilə əlaqədar çoxsaylı infrastruktur layihələrinin həyata keçirilməsi ilə bağlı ətraflı məlumat verib.



Bundan sonra Naxçıvan Muxtar Respublikasında cinayətkarlığın dinamikasına,

cinayət mühakimə icraatında insan və vətəndaş hüquq və azadlıqlarının müdafiəsi sahəsində görülmüş işlərin vəziyyətinə toxunulmaqla əldə olunan uğurlar, habelə yol verilmiş nöqsanlar müzakirə edilib.

Müşavirədə, həmçinin Naxçıvan Muxtar Respublikası prokuroru Sənan Paşayev Muxtar Respublikanın prokurorluq orqanlarında görülən işlər barədə çıxış edərək, Baş Prokurorluğun muxtar respublika prokurorluğuna daima diqqət və qayğısı, eləcə də digər-hüquq mühafizə orqanları ilə əlaqəli şəkildə fəaliyyət barədə ətraflı məruzə ilə çıxış edib.





Əməliyyat müşavirəsinə yekun vuran Baş prokuror Kamran Əliyev prokurorluq orqanlarının digər hüquq mühafizə orqanları ilə əlaqəli şəkildə bundan sonra da üzərlərinə düşən vəzifələri layiqincə yerinə yetirəcəyinə əminliyini ifadə edərək, xidməti fəaliyyətin təkmilləşdirilməsi istiqamətində müvafiq tapşırıqlar verib.

Daha sonra Baş Prokuror Naxçıvan Muxtar Respublikası prokurorluğunun və Naxçıvan hərbi prokurorluğunun bir qrup əməkdaşını xidmətdə fərqləndiklərinə görə prokurorluq orqanlarının yaranmasının 107-ci ildönümü ərəfəsində təltif edib.

Sonda xatirə fotoşəkili çəkilib.



# Slovakiya Respublikasının Baş Prokurorunun rəhbərlik etdiyi nümayəndə heyəti Azərbaycanda səfərdə olmuşdur







Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin rəhbərliyi ilə ölkəmizdə həyata keçirilən hüquqi və institusional islahatlar, xüsusilə şəffaflıq, hesabatlılıq və korrupsiyaya qarşı mübarizə sahəsində atılan məqsədyönlü addımlar beynəlxalq ictimaiyyət tərəfindən yüksək qiymətləndirilir. Bu kontekstdə Azərbaycan Prokurorluğu beynəlxalq əməkdaşlığın genişləndirilməsi və qabaqcıl təcrübə mübadiləsinin təşviqi istiqamətində fəal siyasət həyata keçirir.

Bu çərçivədə, Slovakiya Respublikasının Baş prokuroru Maroş Jilinkanın rəhbərlik etdiyi nümayəndə heyəti ölkəmizdə səfərdə olmuşdur.

Sentyabrın 19-da nümayəndə heyəti Fəxri xiyabanda xalqımızın Ümummilli Lideri, müasir müstəqil dövlətimizin memarı və qurucusu Heydər Əliyevin xatirəsini ehtiramla yad edərək məzarı önünə əklil qoyub. Eyni zamanda, Şəhidlər xiyabanı ziyarət olunub, Azərbaycanın müstəqilliyi və ərazi bütövlüyü uğrunda canlarını fəda etmiş qəhrəman Vətən övladlarının məzarları üzərinə çiçəklər düzülüb.

Daha sonra Azərbaycan Respublikasının Baş prokuroru Kamran Əliyev Maroş Jilinkanın rəhbərlik etdiyi nümayəndə heyəti ilə görüş keçirib.

Baş prokuror görüşdə Azərbaycan və Slovakiya arasında yüksək səviyyəli münasibətlərin strateji tə-

rəfdaşlıq xarakteri daşımasını, dövlət başçılarının ölkələrimizi və xalqlarımızı birləşdirən dostluq və qarşılıqlı əməkdaşlıq əlaqələrinin əhəmiyyətini, Slovakiya şirkətlərinin Qarabağda bərpa işlərinə verdiyi töhfələri, eləcə də ticarət, texnologiya və sənaye sahələrində əməkdaşlığın genişlənməsi fonunda prokurorluq orqanları arasında da peşəkar əlaqələrin gücləndirilməsinin vacibliyini qeyd edib.

Bundan başqa görüşdə Azərbaycanda həyata keçirilən hüquq islahatları, o cümlədən prokurorluq orqanlarının fəaliyyətində operativlik və hesabatlılığın artırılması məqsədilə tətbiq olunan Elektron Prokurorluq İnformasiya Sistemi (EPIS) barədə məlumat verilib.

Tərəflər həmçinin Azərbaycan Prokurorluğunun beynəlxalq və regional təşkilatlarla, habelə digər ölkələrin prokurorluq və hüquq-mühafizə orqanları ilə səmərəli əməkdaşlığına toxunaraq hüquqi dialoqun intensivləşdirilməsi, təcrübə mübadiləsi, ekstradisiya və hüquqi yardım sahəsində əməkdaşlığın genişləndirilməsi məsələlərini müzakirə ediblər.

Slovakiya Respublikasının Baş Prokuroru Maroş Jilinka çıxışında Azərbaycanda həyata keçirilən hüquqi islahatların beynəlxalq hüquq və ədalət prinsiplərinə uyğunluğunun mühüm əhəmiyyət kəsb etməsini vurğulayaraq ölkəmizin hüquq sisteminin inkişafı istiqamətində atdığı addımların təqdirəlayiq olduğunu qeyd edib.

Görüşdə, həmçinin korrupsiyaya qarşı mübarizə sahəsində beynəlxalq əməkdaşlığın gücləndirilməsi, cinayətkarlığa qarşı mübarizədə bilik və təcrübə mübadiləsi, eləcə də beynəlxalq hüquq normalarına uyğun fəaliyyətin daha da inkişaf etdirilməsi məsələləri də diqqət mərkəzində olub.

Sonda Azərbaycan Respublikasının Baş Prokurorluğu ilə Slovakiya Respublikasının Baş Prokurorluğu arasında Anlaşma Memorandumu imzalanıb.

Qonaqlar, həmçinin, Baş Prokurorluğun Tarix muzeyi ilə tanış olub, onlara prokurorluğun fəaliyyəti ilə bağlı eksponatlar barədə ətraflı məlumat verilib.









## Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev tərəfindən "Suverenliyin keşiyində: Konstitusiyada prokurorluğun statusu" mövzusunda keçirilən beynəlxalq konfransın iştirakçılarına

# M Ü R A C İ Ə T



**Hörmətli tədbir iştirakçıları,**

Sizi "Suverenliyin keşiyində: Konstitusiyada Prokurorluğun statusu" mövzusunda keçirilən beynəlxalq konfransda səmimi-qəlbdən salamlayıram.

2025-ci il ölkəmizdə "Konstitusiya və Suverenlik İli" elan edilmişdir. Bu heç də təsadüfi deyildir. Belə ki, bu il biz Azərbaycan Respublikasının Konstitusiyasının qəbul edilməsinin 30 illiyini və tarixi Zəfərimizin 5 illiyini qeyd edirik.

Ölkəmiz öz müstəqilliyini 1991-ci ildə bərpa etsə də, o dövrdə hökm sürən ictimai-siyasi vəziyyət, həmçinin Ermənistan Respublikasının hərbi təcavüzü səbəbindən milli konstitusiyamızın qəbulu yalnız 1995-ci ildə mümkün olmuşdur. Müstəqilliyimizi qazanandan sonra 30 ilə yaxın bir dövrdə torpaqlarımızın əhəmiyyətli hissəsi Ermənistanın işğalı altında olmuşdur. Azərbaycan xalqının əzmkarlığı, silahlı qüvvələrimizin rəşadəti sayəsində 2020-ci ildə 44 günlük Vətən müharibəsi nəticəsində torpaqlarımız işğaldan azad edilmiş, 2023-cü ildə həyata keçirilmiş antiterror əməliyyatı nəticəsində Azərbaycanın ərazi bütövlüyü və suverenliyi tam bərpa olunmuşdur. Bununla da Konstitusiyamızın hüquqi qüvvəsi ölkənin bütün ərazisinə şamil edilmişdir.

Tarixi zəfərimizdən dərhal sonra Qarabağ və Şərqi Zəngəzur bölgəsində geniş bərpa və quruculuq işlərinə başlanmış, minlərlə insan öz doğma yurdlarına qayıtmışdır. Baş vermiş bütün faciələrə baxmayaraq, Azərbaycan hər zaman sülh gündəliyinin tərəfdarı olmuş, bu istiqamətdəki səylərimiz cari ilin 8 avqust tarixində Vaşinqtonda sülh sazişinin paraflanması ilə nəticələnmişdir.

**Hörmətli konfrans iştirakçıları,**

Dost ölkələrin milli prokurorluq xidmətlərinin rəhbər şəxslərinin də daxil olduğu nümayəndə heyətlərinin bu tədbirə qatılması dövlətlərarası əməkdaşlığın inkişaf etdirilməsinə verdikləri önəmin təzahürüdür. Milli prokurorluq orqanları cinayətkarlığın bütün təzahürlərinə, o cümlədən dövlətin konstitusiya quruluşunun əsaslarına qəsd edən cinayətlərə qarşı mübarizənin ön sırasında dayanırlar. Bununla da onlar təkcə qanunçuluğun təmin edilməsi vəzifəsini yerinə yetirmir, eyni zamanda konstitusion nizamın və suverenliyin qorunmasına xidmət edirlər. Bu baxımdan prokurorluq orqanları da dövlət suverenliyinin keşikçiləri hesab olunurlar. Sizə bu şərəfli missiyada uğurlar arzu edirəm.

Əminəm ki, hazırkı tədbir prokurorluq fəaliyyəti ilə bağlı qabaqcıl təcrübələrin mübadiləsi, ümumi çağırışların müəyyən edilməsi və onların birgə həlli yollarının müzakirəsi, qarşılıqlı əməkdaşlığın gücləndirilməsi məqsədlərinə töhfə verəcəkdir.

Sizi Azərbaycanda bir daha salamlayır, konfransın işinə müvəffəqiyyətlər diləyirəm.

**İlham Əliyev**
**Azərbaycan Respublikasının Prezidenti**
Bakı şəhəri, 19 sentyabr 2025

# “Suverenliyin keşiyində: Konstitusiyada Prokurorluğun statusu” mövzusunda beynəlxalq konfrans

## Keniya Respublikasının Dövlət Prokurorluğunun Direktorunun rəhbərlik etdiyi nümayəndə heyəti Azərbaycanda səfərdə olmuşdur



Keniya Respublikasının Dövlət Prokurorluğunun Direktoru Renson Mulele İnqonqanın rəhbərlik etdiyi nümayəndə heyəti ölkəmizdə səfərdə olmuşdur.

2025-ci il sentyabrın 20-də Baş prokuror Kamran Əliyev Renson Mulele İnqonqanın rəhbərlik etdiyi nümayəndə heyəti ilə görüş keçirib.



Görüşdə Baş prokuror Azərbaycan və Keniya arasında əməkdaşlığın yüksək səviyyəyə çatdırıldığını, hər iki ölkənin dövlət başçılarının səyləri nəticəsində ortaq prinsiplərə və əməkdaşlığa əsaslanan güclü siyasi əlaqələrin yüksələn xətlə inkişaf etməkdə olduğunu xüsusi qeyd edərək, ölkələrimiz arasında müxtəlif sahələrdə, o cümlədən prokurorluq orqanları arasında dinamik inkişaf edən əlaqələri vurğulayıb.

Bundan başqa Azərbaycan Prokurorluğunun beynəlxalq və regional təşkilatlarla, habelə digər ölkələrin prokurorluq və hüquq-mühafizə orqanları ilə səmərəli əməkdaşlığına toxunan Baş prokuror hüquqi dialoqun intensivləşdirilməsi, təcrübə mübadiləsi sahəsində əməkdaşlığın genişləndirilməsi məsələləri barədə danışıb.

Baş prokuror, həmçinin cari ilin iyun ayında Millətlər Birliyinə (Commonwealth of Nations) üzv ölkələrin baş prokurorlarının 23-cü Konfransında iştirak etməkdən məmnunluğunu ifadə edərək rəhbərlik etdiyi nümayəndə heyətinin Nayrobi və Mombasa şəhərində işgüzar səfəri zamanı göstərilən yüksək qonaqpərvərliyə və səmimi qəbula görə təşəkkürünü bildirib.

Keniya Respublikasının Dövlət Prokurorluğunun Direktoru Renson İnqonqa çıxışında ötən il ərzində Azərbaycana həyata keçirdiyi işgüzar səfərləri qeyd edərək, Beynəlxalq Prokurorlar Assosiasiyasının 29-cu illik konfransının, həmçinin COP29 çərçivəsində hüquq-mühafizə orqanlarının iqlim dəyişiklikləri ilə mübarizədə səfərbər olunmasına həsr olunmuş plenar iclasın yüksək səviyyədə təşkil edilməsini vurğulayaraq, Azərbaycan dövlətini və prokurorluğunu təbrik edib. Təmsil etdiyi qurumun Azərbaycan Prokurorluğu ilə əlaqələrin inkişafına böyük önəm verdiyini qeyd edərək, qurumlarımız arasında əməkdaşlığın genişlənəcəyinə əminliyini ifadə edib.



Görüşdə hüquqi sahədə əməkdaşlığın genişləndirilməsi, 2024-cü ildə Bakıda imzalanmış Anlaşma Memorandumunun icrası, cinayətkarlığa qarşı mübarizədə bilik və təcrübə mübadiləsi kimi məsələlər diqqət mərkəzində olub.

## Uqanda Respublikasının Dövlət Prokurorluğunun direktorunun rəhbərlik etdiyi nümayəndə heyəti Azərbaycanda səfərdə olmuşdur





Uqanda Respublikasının Dövlət prokurorluğunun direktoru Odumbi Ceyms Overin rəhbərlik etdiyi nümayəndə heyəti ölkəmizdə səfərdə olmuşdur.

2025-ci il sentyabrın 20-də Baş prokuror Kamran Əliyev Odumbi Ceyms Overin rəhbərlik etdiyi nümayəndə heyəti ilə görüş keçirib.

Görüşdə Azərbaycan ilə Uqanda arasında qarşılıqlı dəstək və müxtəlif sahələrdə, o cümlədən hüquqi əməkdaşlıqla bağlı möhkəmlənən yüksək səviyyəli tərəfdaşlıq münasibətləri xüsusilə vurğulanıb.

Azərbaycanın "ASAN xidmət" modelinin Uqandada uğurla tətbiqindən söz açan Baş prokuror Kamran Əliyev Qoşulmama Hərəkatı (QH) çərçivəsində ölkələrimiz arasında yüksək səviyyəli əməkdaşlığın mövcudluğunu vurğulayıb.

Bundan başqa, Baş prokuror Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin sədrliyi və təşəbbüskarlığı ilə ölkəmizin QH-nin son sədri kimi Uqanda ilə Hərəkatın prinsiplərinin təşviqində sıx əməkdaşlıq etdiyini qeyd edib, eləcə də hazırda Uqandanın QH-ın sədri olduğu dövrdə də bu əməkdaşlığın uğurla inkişaf etdiyini qeyd edib.

Səmimi qəbula və qonaqpərvərliyə görə təşəkkürünü bildirən Odumbi Ceyms Over təmsil etdiyi qurumun Azərbaycanla əlaqələrin inkişafına böyük önəm verdiyini qeyd edərək, iki ölkənin prokurorluq orqanları arasında əməkdaşlığın genişlənəcəyinə əminliyini ifadə edib.



Sonda Azərbaycan Respublikasının Baş Prokurorluğu ilə Uqanda Respublikasının Baş Prokurorluğu arasında Anlaşma Memorandumu imzalanıb.

Tərəflər imzalanmış Anlaşma Memorandumunun institusional münasibətlərdə tarixi mərhələ təşkil etdiyini vurğulayaraq Anlaşma Memorandumunun prokurorluqlar arasında əlaqələrin inkişafına töhfə verəcəyinə əminliklərini ifadə edib.

Qonaqlar, həmçinin Baş Prokurorluğun Tarix muzeyi ilə tanış olub, onlara prokurorluğun fəaliyyəti ilə bağlı eksponatlar barədə ətraflı məlumat verilib.

## Azərbaycan Prokurorluğunun təşkilatçılığı ilə paytaxtda "Suverenliyin keşiyində: Konstitusiyada Prokurorluğun statusu" mövzusunda beynəlxalq konfrans keçirilib




"Konstitusiya və Suverenlik İli" çərçivəsində, həmçinin, Azərbaycan Prokurorluğunun peşə bayramı və 107 illiyi ərəfəsində Azərbaycan Respublikası Baş Prokurorluğunun təşkilatçılığı ilə Bakıda Heydər Əliyev Mərkəzində sentyabrın 22-də "Suverenliyin keşiyində: Konstitusiyada Prokurorluğun statusu" mövzusunda





dəyirmi masa formatında beynəlxalq konfrans keçirilib.

Konfransda Uqanda, Laos, Tanzaniya, Keniyanın prokurorluq qurumlarının rəhbərləri və Türkiyə Baş Prokurorluğunun nümayəndələri, habelə Azərbaycan Respublikası Baş Prokurorluğunun rəhbərliyi və digər prokurorluq əməkdaşları iştirak edib.



Konfrandan əvvəl iştirakçılar Fəxri xiyabanda xalqımızın Ümummilli Lideri, müasir müstəqil dövlətimizin memarı və qurucusu Heydər Əliyevin xatirəsini ehtiramla yad edərək məzarı önünə əklil qoyub. Eyni zamanda, Şəhidlər xiyabanı ziyarət olunub, Azərbaycanın müstəqilliyi və ərazi bütövlüyü uğrunda canlarını fəda etmiş qəhrəman Vətən övladlarının məzarları üzərinə çiçəklər düzülüb.

Konfransda Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin iştirakçılara müraciəti Baş prokuror Kamran Əliyev tərəfindən səsləndirilib.

Daha sonra isə iştirakçılar Azərbaycanda prokurorluq orqanlarının yaranma tarixindən müasir dövrədək keçdiyi inkişaf mərhələlərini, ölkəmizdə qanunun aliliyinin təmin olunması və ədalətin bərqərar edilməsində oynadığı mühüm rolu əhatəli şəkildə əks etdirən, Azərbaycan Prokurorluğunun peşə bayramı və 107 illiyinə həsr olunmuş videoçarxa baxıblar.

Konfransda çıxış edən Baş prokuror Kamran Əliyev Ermənistanın Azərbaycanın suveren ərazilərini işğal etməsi nəticəsində minlərlə insanın həlak olduğunu, mülkiyyətə, iqtisadiyyata, ətraf mühitə, tarix-mədəniyyət abidələrinə külli miqdarda ziyan dəydiyini iştirakçıların diqqətinə çatdırıb.

Baş prokuror, həmçinin xatırladıb ki, Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan ordusu 2020-ci ildə 44 günlük İkinci Qarabağ müharibəsində tarixi qələbə qazanıb. Bundan başqa, 2023-cü il sentyabrın 19-dan 20-dək Azərbaycanın separatçı Qarabağ bölgəsində əməliyyat aparan antiterror əməliyyatları zamanı 30 ilə yaxın işğal altında olan ərazilər azad edildi. Azərbaycanın suverenliyi tam bərpa olundu, Konstitusiya bütün ölkəyə şamil olundu.

Baş prokuror əlavə edib ki, suveren ərazilərimiz işğaldan azad edildikdən dərhal sonra Prezident İlham Əliyevin rəhbərliyi və Birinci vitse-prezident Mehriban xanım Əliyevanın fəal iştirakı ilə genişmiqyaslı bərpa və quruculuq işlərinə başlanılıb. "Ağıllı" kənd və şəhərlər salındı, yeni iş yerləri, istehsalat, təhsil müəssisələri yaradıldı, o cümlədən Xankəndində Qarabağ Universitetinin əsası qoyuldu.

Xatırladılıb ki, Azərbaycan hətta işğal zamanı da sülh yolu ilə nizamlanmaya nail olmaq üçün səylər göstərib; BMT-nin Azərbaycan torpaqlarının işğalını tanıyan və onların qeyd-şərtsiz azad edilməsini tələb





edən dörd qətnaməsinə baxmayaraq, Ermənistan işğal etdiyi torpaqları qaytarmayıb. "Azərbaycan həmişə olduğu kimi, sülhün tərəfdarı olaraq qalır. Bu il avqustun 8-də Vaşinqtonda, Ağ Evdə Azərbaycan və Ermənistan arasında sülh sazişinin imzalanması bunun bariz nümunəsidir. Bu sənəd təkcə iki dövlət arasında münasibətlərin yeni səhifəsi deyil, həm də Cənubi Qafqazda dayanıqlı sülhün və təhlükəsizliyin, habelə iqtisadiyyatın daha da inkişaf etdirilməsinin təmin olunması baxımından tarixi dönüş nöqtəsidir. Eyni zamanda bu sənəd Azərbaycanın suverenliyinin dünya miqyasında tanınmasıdır" – Baş prokuror vurğulayıb.

Bundan başqa qeyd olunub ki, yeni geosiyasi reallıqlar fonunda Zəngəzur dəhlizinin açılması strateji əhəmiyyətli mövzu olaraq qalır. Bu layihə Azərbaycanla Naxçıvan Muxtar Respublikası arasında quru əlaqəsini təmin edəcək, regionun nəqliyyat xəritəsini dəyişdirəcək, iqtisadi və siyasi inteqrasiyaya mühüm töhfə verəcək.

Kamran Əliyev xatırladıb ki, Azərbaycan

Prokurorluğu yüz ildən artıq bir tarixə malikdir. Çətin və mürəkkəb sınaqlarla zəngin bu şərəfli və məsuliyyətli tarixi yolda prokurorluq institutu bir neçə inkişaf mərhələsindən keçib. Müstəqil Azərbaycanın ilk Konstitusiyası milli prokurorluq orqanlarının dövlətin və cəmiyyətin həyatında yeri və roluna da yeni baxış gətirib. Azərbaycan Respublikasının Konstitusiyasının 133-cü maddəsi "Azərbaycan Respublikasının Prokurorluğu" adlandırılmaqla prokurorluq orqanlarının səlahiyyəti, strukturu, habelə onun fəaliyyəti ilə bağlı bir sıra mühüm müddəaları müəyyən etməkdədir. Prokurorluq məhkəmə hakimiyyətinə aid edilsə də, əsas qanun prokurorluğun müstəqilliyini təsbit edib.

Baş prokuror qeyd edib ki, Konstitusiya və sahəvi qanunlarla prokurorluq dövlətin və cəmiyyətin mənafeyini müdafiə edən ali orqan kimi müəyyən edilib: "Əminliklə deyə bilərik ki, Prokurorluğun Azərbaycan Konstitusiyasında müəyyən edilmiş statusu qanunun aliliyinin təmin olunması, insan və vətəndaş hüquqlarının müdafiəsi, dövlətin və cəmiyyətin maraqlarının qorunması sahəsində müstəqil və obyektiv fəaliyyət göstərməsinə təminat verir. Prokurorluq institutu həm hüquqi dövlətin möhkəmlənməsinə, həm də cəmiyyətimizin demokratik inkişafına mühüm xidmət göstərir. İnanıram ki, bu konfrans qarşılıqlı əlaqələrimizin daha da inkişaf etdirilməsinə xidmət edəcək."




Keniya Respublikasının Dövlət Prokurorluğunun Direktoru Renson Mulele İnqonqa çıxışı zamanı vurğulayıb ki, bu gün Azərbaycan və Keniyanı birləşdirən ortaq dəyərlər ədalət, hüququn aliliyi və insan hüquqlarına hörmətdir. Çıxışçı vuruğulayıb ki, 1995-ci ildə ümumxalq referendumu ilə qəbul edilmiş bu Konstitusiya Azərbaycanın suverenliyinin, birliyinin və hüququn aliliyi əsasında demokratik dövlət qurmaq əzm və iradəsinin canlı ifadəsidir: "O, bərabərlik, insan ləyaqəti və sosial ədalət prinsiplərini təsbit edir və bununla da hər bir vətəndaşın hüquq və azadlıqlarının təmin edildiyi möhkəm bünövrə yaradır. Konstitusiyanın ən mühüm xüsusiyyətlərindən biri dövlət hakimiyyətinin mənbəyi kimi xalqı tanımasıdır. Bu fundamental prinsip idarəetmənin xalqın iradəsindən qaynaqlandığını və onların rifahı naminə həyata keçirildiyini təmin edir. Prokurorlar olaraq bizim vəzifəmiz bu hüquqların yalnız mətnlərdə qalmamasını, vətəndaşların gündəlik həyatında real şəkildə hiss olunmasını təmin etməkdir. Hər bir cinayət işində təqsirsizlik prezumpsiyasını qorumaq, ədalətli məhkəmə təminatını və qurbanların ləyaqətini müdafiə etmək məsuliyyətimizdir".




Laos Xalq Demokratik Respublikasının Ali Xalq Prokurorluğunun Baş prokuroru Saysana Kotputan isə qeyd edib ki, Bakıda keçirilən beynəlxalq konfrans əməkdaşlığın genişlənməsi üçün yeni imkanlar açır. Bu elə bir platformadır ki, burada öz təcrübəmizi bölüşə bilərik. O öz ölkəsində Ali Xalq Prokurorluğunun fəaliyyətindən bəhs edib.

Bildirib ki, Laosda Konstitusiya 1992- ci ildə qəbul olunub və mühüm milli sənədləri özündə əks etdirir: "Laosun Ali Xalq Prokurorluğu Konstitusiyada qanunların düzgün icrasına nəzarət edən, təqsirləndirilən şəxslərin məhkəməyə verilməsi səlahiyyətinə malik olan orqan kimi təsbit edilib. Ali Xalq Prokurorluğu Konstitusiya ilə verilən səlahiyyətləri lazımı şəkildə həyata keçirir. Biz bu səlahiyyətləri layiqli formada xalq qarşısında icra edirik. Vətəndaşların hüquqlarının təşviqinə, xüsusilə, ədliyyə sektorunda böyük önəm verilir. Bu hüquqlar bir sıra qanunlarda aydın şəkildə təsbit edilib. Laos Ali Xalq Prokurorluğu vətəndaşların hüquqlarını təmin edən, xarici müdaxilə olmadan ittiham orqanı kimi öz rolunu icra etməkdədir. Öz vəzifələrini icra edərkən bütün səviyyələrdə xalq prokurorları qanuna əməl etməlidir. Onlar bunu gündəlik fəaliyyətində vacib amil hesab edirlər. Təqsirləndirilən şəxslərin hüquqlarına Xalq Prokurorluğu nəzarət edir. Biz öz ölkəmizdə bununla bağlı müvafiq mexanizmləri yaratmışıq. İctimaiyyət fikirlərini "Qaynar xətt" vasitəsilə bildirə bilər. Prokurorluğun müstəqilliyini qorumaq məqsədilə güclü daxili nəzarət mexanizmi də mövcuddur. Laos Ali Xalq Prokurorluğu hüququn aliliyini möhkəmləndirmək məsuliyyətini öz üzərində daşıyır".




Türkiyə Respublikasının Ali Məhkəməsinin prokuroru Tayfun Gün Türkiyədə konstitusiya prosesinin müxtəlif mərhələləri barədə məlumat verib. O, 1921-ci il Konstitusiyasında prokurorluq institutuna yer verilmədiyini, lakin sonrakı konstitusiyalarda məhkəmələrin müstəqilliyi, hakim və prokurorların təminatı ilə bağlı müddəaların təsbit olunduğunu diqqətə çatdırıb. Tayfun Gün qeyd edib ki, prokurorluq dövlətin suverenliyinin qorunmasında, ictimai qaydanın təmin olunmasında və cinayətlərin qarşısının alınmasında mühüm institut kimi çıxış edir. Onun sözlərinə görə, prokurorlar istintaq mərhələsində araşdırma aparmaqla, məhkəmə mərhələsində isə dövlət ittihamını müdafiə etməklə ədalətin bərqərar olunmasına xidmət edirlər.




Tanzaniya Birləşmiş Respublikasının Dövlət prokurorluğunun direktoru Silvester Antoni Mvakitalu qeyd edib ki, qanunun aliliyinin qorunmasında prokurorluq orqanlarının səmərəli fəaliyyəti üçün milli və beynəlxalq qurumlar arası əməkdaşlıq zəruridir: "Prokurorluq orqanları arasında əməkdaşlıq təcrübə mübadiləsi və birgə təlimlər vasitəsilə bilik mübadiləsi yolu ilə fəaliyyətin təkmilləşdirilməsində mühüm vasitədir. Ölkəm adından Tanzaniya və Azərbaycan Respublikasının prokurorluq orqanları arasında Anlaşma Memorandumunun imzalanacağına sevinirəm. Bu memorandum iki prokurorluq orqanı arasında uzunmüddətli və davamlı əməkdaşlıq çərçivəsini formalaşdıracaq mühüm sənəd olacaqdır".




Uqanda Respublikasının Dövlət prokurorluğunun direktoru Odumbi Ceyms Over vurğulayıb ki, bugünkü dəyirmi masa ölkələrimizin prokurorluq institutlarını birləşdirən ortaq dəyərlərin nümayişidir. Konstitusiya çərçivələrimizlə bağlı fikir mübadiləsi etməklə prokurorluğun müstəqilliyinin müxtəlif istiqamətlərdə necə möhkəmləndirilə biləcəyi barədə anlayışımızı dərinləşdirə, konstitusiyanın inkişafı və qanunun aliliyi ilə bağlı dəyərli perspektivlərə töhfə verə bilərik.

"Bu dialoq bizə həm də birgə araşdırmalar və yaranan təhdidlər üzrə bilik mübadiləsi aparmaq və ya beynəlxalq forumlarda prokurorluq standartlarının uyğunlaşdırılması vasitəsilə praktiki əməkdaşlığı genişləndirmək imkanı verir. Qarşılaşdığımız çağırışlar qlobal xarakter daşıyır, korrupsiya, mütəşəkkil cinayətkarlıq və demokratik təsisatlar üçün təhlükələr sərhədləri aşır. Beləliklə, biz bu görüşdən konstitusiya mandatlarımızın xalqlarımızın suverenliyini qorumaqla bu çağırışlara necə uyğunlaşa biləcəyini müzakirə etmək üçün platforma kimi istifadə edə bilərik. Mən sizin hamınızla səmərəli fikir mübadiləsi aparmaq, təcrübələrinizdən öyrənmək və öz təcrübəmizi daha çox bölüşmək üçün can atıram. Bu müzakirələr təkcə bizim müvafiq institutlarımızı gücləndirməyəcək, həm də ədalətin qlobal çərçivəsinə töhfə verəcək. Bu qeydlərlə bir daha azərbaycanlı həmkarlarımıza tərəfdaşlığa və bu nəcib işlə bağlı göstərilən fədakarlığa görə bütün iştirakçılara dərin minnətdarlığımı bildirirəm", – deyə Odumbi Ceyms Over fikirlərinə yekun vurub.

Çıxışlardan sonra konfrans iştirakçıları mövzu ətrafında geniş və səmərəli müzakirələr aparıblar.

Fikir mübadiləsi zamanı prokurorluq orqanlarının konstitusion statusunun möhkəmləndirilməsinin, onların fəaliyyətinin şəffaf, effektiv və hüquqi dövlət prinsiplərinə uyğun təşkil olunmasının əhəmiyyəti xüsusi vurğulanıb.

Həmçinin beynəlxalq təcrübə və əməkdaşlıq nümunələri müzakirəyə çıxarılaraq, ölkəmizdə prokurorluğun fəaliyyətinin inkişaf etdirilməsi, hüquq mühafizə sisteminin təkmilləşdirilməsi və ədalətin daha da möhkəmləndirilməsi istiqamətində perspektivlər müəyyən edilib.

# Tanzaniya Birləşmiş Respublikasının Dövlət Prokurorluğunun direktorunun rəhbərlik etdiyi nümayəndə heyəti Azərbaycanda səfərdə olmuşdur



Tanzaniya Birləşmiş Respublikasının Dövlət prokurorluğunun direktoru Silvester Antoni Mvakitalunun rəhbərlik etdiyi nümayəndə heyəti ölkəmizdə səfərdə olmuşdur.

2025-ci il sentyabrın 22-də Baş prokuror Kamran Əliyev Silvester Antoni Mvakitalunun rəhbərlik etdiyi nümayəndə heyəti ilə görüş keçirib.

Baş prokuror görüşdə Azərbaycan ilə Tanzaniya arasında qarşılıqlı dəstək və müxtəlif sahələrdə əməkdaşlıqla möhkəmlənən yüksək səviyyəli tərəfdaşlıq münasibətlərini vurğulayaraq Tanzaniyanın Qoşulmama Hərəkatı və Birləşmiş Millətlər Təşkilatı da daxil olmaqla müxtəlif beynəlxalq platformalarda Azərbaycana dəstək nümayiş etdirdiyini qeyd



edib.Həmçinin, görüşdə Tanzaniyanın prokurorluq orqanlarının Azərbaycanla əlaqələri gücləndirməyə göstərdiyi səylərin yüksək qiymətləndirildiyi vurğulanıb.

Tanzaniya tərəfi çıxışında Azərbaycan Prokurorluğu ilə təmsil etdiyi qurum arasında əlaqələrin inkişafına böyük önəm verdiyini qeyd edərək, əməkdaşlığın genişlənəcəyinə əminliyini ifadə edib.

Sonda Azərbaycan Respublikasının Baş Prokurorluğu ilə Tanzaniyə Birləşmiş Respublikasının Baş Prokurorluğu arasında Anlaşma Memorandumu imzalanıb.

Tərəflər imzalanmış Anlaşma Memorandumunun institusional münasibətlərdə tarixi mərhələ təşkil etdiyini vurğulayaraq bu sənədin prokurorluqlar arasında əlaqələrin inkişafına töhfə verəcəyinə əminliklərini ifadə edib.

Daha sonra qonaqlar Baş Prokurorluğun Tarix muzeyi ilə tanış olub, onlara prokurorluğun fəaliyyəti ilə bağlı eksponatlar barədə ətraflı məlumat verilib.







# Laos Xalq Demokratik Respublikası Ali Xalq Prokurorluğunun Baş prokurorunun rəhbərlik etdiyi nümayəndə heyəti Azərbaycanda səfərdə olmuşdur

Laos Xalq Demokratik Respublikası Ali Xalq Prokurorluğunun Baş prokuroru Saysana Kotputanın rəhbərlik etdiyi nümayəndə heyəti ölkəmizdə səfərdə olmuşdur.

2025-ci il sentyabrın 25-də Baş prokuror Kamran Əliyev Saysana Kotputanın rəhbərlik etdiyi nümayəndə heyəti ilə görüş keçirib.







Baş prokuror görüşdə ölkələrimiz arasında Ümummilli Lider Heydər Əliyevin Azərbaycana rəhbərlik etdiyi zaman, yəni 1995-ci ildən diplomatik əlaqələrin qurulmasını, həmin vaxtdan etibarən iki ölkə arasında siyasi, iqtisadi-ticarət və mədəni əlaqələrin müvəffəqiyyətlə davam etdirilməsini, hazırda da dövlət başçılarımız arasındakı yaxşı münasibətlərin olmasını və bunun qarşılıqlı əlaqələrin bütün sahələrinə özünün müsbət təsirini göstərməsini vurğulayıb.

Ötən ilin sentyabr ayında Şərq İqtisadi Forumu çərçivəsində Laoslu həmkarı ilə aralarında keçirilmiş ikitərəfli görüşü xatırladan Baş prokuror həmin görüşdə müzakirə edilmiş əməkdaşlıq perspektivlərinin prokurorluqlarımız arasında əlaqələrin inkişafına müsbət təsirini qeyd edib.

Bundan başqa görüşdə Azərbaycanda həyata keçirilən hüquq islahatları, o cümlədən prokurorluq orqanlarının fəaliyyətində operativlik və hesabatlılığın artırılması məqsədilə tətbiq olunan Elektron Prokurorluq İnformasiya Sistemi (EPIS) barədə məlumat verilib.

Laos Xalq Demokratik Respublikası Ali Xalq Prokurorluğunun Baş Prokuroru Saysana Kotputan çıxışında səmimi qəbula və qonaqpərvərliyə görə təşəkkürünü bildirərək təmsil etdiyi qurumun Azərbaycan Respublikasının Prokurorluq orqanları ilə əməkdaşlıqdan məmnunluğunu ifadə edib, səfərin əlaqələrin gələcəkdə də inkişaf etdirilməsi, eyni zamanda ikitərəfli münasibətlərin daha da möhkəmlənməsi üçün faydalı olacağını qeyd edib.

Tərəflər həmçinin Azərbaycan Prokurorluğunun beynəlxalq və regional təşkilatlarla, habelə digər ölkələrin prokurorluq və hüquq-mühafizə orqanları ilə səmərəli əməkdaşlığına toxunaraq hüquqi dialoqun intensivləşdirilməsi, təcrübə mübadiləsi sahəsində əməkdaşlığın genişləndirilməsi, cinayətkarlıqla mübarizə sahəsində tərəfləri maraqlandıran bir sıra digər məsələləri müzakirə ediblər.

Sonda Azərbaycan Respublikasının Baş Prokurorluğu Laos Xalq Demokratik Respublikası Ali Xalq Prokurorluğu arasında Anlaşma Memorandumu imzalanıb.

Qonaqlar, həmçinin, Baş Prokurorluğun Tarix muzeyi ilə tanış olub, onlara prokurorluğun fəaliyyəti ilə bağlı eksponatlar barədə ətraflı məlumat verilib.



## Keniya Respublikasının Dövlət Prokurorluğunun nümayəndə heyəti Lənkəranda olub



Keniya Respublikasının Dövlət Prokurorluğunun Direktoru Renson Mulele İnqonqanın rəhbərlik etdiyi nümayəndə heyətinin ölkəmizə səfəri çərçivəsində nümayəndə heyəti Baş prokurorun müavini Heydər Məmmədovun müşayiəti ilə Lənkəran şəhərinə səfər edib.

Qonaqlar Lənkəranda Heydər Əliyev Xatirə Parkını ziyarət edib, Lənkəran Tarix-Diyarşünaslıq Muzeyinin ekspozisiyası ilə tanış olub, həmçinin "Laran" MMC-nin qənnadı məhsullarının istehsalı müəssisəsi, "Azərxalça" ASC-nin Lənkəran filialı və "Yaşıl Çay" fermer təsərrüfatının çay plantasiyasının fəaliyyəti ilə yaxından maraqlanıblar.

Nümayəndə heyəti Lənkəranda yaradılmış müasir infrastruktur, mədəni irsin qorunması və iqtisadi sahədə əldə olunan nailiyyətlər barədə məlumatlandırılaraq, səfərin onlarda xoş təəssürat yaratdığını vurğulayıb.







# Laos Xalq Demokratik Respublikası Ali Xalq Prokurorluğunun Baş Prokurorunun rəhbərlik etdiyi nümayəndə heyəti Şamaxıda səfərdə olub



Laos Xalq Demokratik Respublikası Ali Xalq Prokurorluğunun Baş Prokuroru Saysana Kotputanın rəhbərlik etdiyi nümayəndə heyəti ölkəmizdə işgüzar səfər çərçivəsində nümayəndə heyəti Baş prokurorun birinci müavini Elçin Məmmədovun müşayiəti ilə 2025-ci il sentyabrın 25-də Şamaxı şəhərinə səfər edib.

Qonaqlar Şamaxıda Şamaxı Cümə Məscidi, Nəsirəddin Tusi adına Şamaxı Astrofizika Rəsədxanasını ziyarət ediblər.

Nümayəndə heyəti həmçinin Nəsimi – Şeir, Mənəviyyat və İncəsənət Festivalında iştirak edərək ölkəmizin zəngin mədəni irsi və incəsənət ənənələri ilə yaxından tanış olub, “Meysəri” şərab zavoduna isə baş çəkərək istehsal prosesi və yerli iqtisadi uğurlar barədə məlumat alıblar.

Səfər zamanı qonaqlara Azərbaycanın müasir infrastruktur layihələri, mədəni irsin qorunması sahəsində həyata keçirilən tədbirlər və iqtisadi nailiyyətlər barədə ətraflı məlumat verilib. Nümayəndə heyəti səfərin onlarda dərin və xoş təəssürat yaratdığını vurğulayıb.

Azərbaycan ilə Laos arasında hüquqi sahədə əməkdaşlığın möhkəmləndirilməsi, təcrübə mübadiləsi və qarşılıqlı layihələrin həyata keçirilməsi perspektivləri səfər çərçivəsində diqqət mərkəzində olub.



# Baş Prokurorluqda şəhid olan prokurorluq əməkdaşlarının ailə üzvləri, prokurorluğun veteranları və vətən müharibəsində iştirak edən prokurorluq işçiləri ilə görüş keçirilib











2025-ci il sentyabrın 24-də Baş prokuror Kamran Əliyevin rəhbərliyi ilə 1–Oktyabr Azərbaycan Respublikası prokurorluq işçilərinin peşə bayramı günü və prokurorluq orqanlarının yaranmasının 107-ci ildönümü münasibətilə Azərbaycan Respublikası Prokurorluğunun veteranları, Vətən müharibəsində iştirak etmiş prokurorluq əməkdaşları, I və II Qarabağ müharibəsində şəhid olmuş prokurorluq işçilərinin ailələri ilə görüş keçirilib.

İlk öncə Azərbaycan Respublikasının qurucusu və memarı Ulu Öndər Heydər Əliyevin və ölkəmizin ərazi bütövlüyü və suverenliyi uğrunda canlarından keçən şəhidlərimizin əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib.

Baş prokuror çıxışında qeyd edib ki, Ümummilli Lider Heydər Əliyevin uzaqgörən siyasətini dövrün tələblərinə uyğun şəkildə uğurla davam etdirən Vətən müharibəsinin qalibi, möhtərəm Prezident İlham Əliyevin rəhbərliyi ilə Silahlı Qüvvələrimiz 30 ildən artıq işğalda qalmış torpaqlarımızı azad etmiş, lokal antiterror tədbirləri ilə isə separatçı qüvvələrin fəaliyyətinə son qoyularaq vətəndaşlarımızın təhlükəsizliyi və dövlətimizin suverenliyi tam təmin olunmuşdur. Bu tarixi nailiyyətlər ölkəmizin son iki əsrlik tarixində qızıl hərflərlə yazılmış hadisələrdir.

Kamran Əliyev, həmçinin, vurğulayıb ki, Prezident İlham Əliyev və Birinci vitse-prezident Mehriban xanım Əliyevanın yorulmaz səyləri nəticəsində Qarabağ və digər azad edilmiş ərazilərdə genişmiqyaslı bərpa-quruculuq işləri aparılır, şəhid ailələri, qazilər və müharibə veteranlarına göstərilən yüksək diqqət isə bütün cəmiyyətimiz üçün nümunədir.

Baş prokuror çıxışında vurğulayıb ki, şəhid olan prokurorluq əməkdaşlarının ailə üzvləri, prokurorluğun veteranları və vətən müharibəsində iştirak edən prokurorluq işçilərinə göstərilən diqqət və qayğı daim ön plandadır.

İştirakçılar şəhid ailələrinə və veteranlara göstərilən diqqət və qayğıya görə ölkə rəhbərliyinə dərin minnətdarlıqlarını bildirərək dövlət tərəfindən onların sosial müdafiəsinin daha da yaxşılaşdırılması istiqamətində həyata keçirilən işlərdən danışıb, həmçinin göstərilən dəstək və qayğıdan məmnunluqlarını ifadə ediblər.

Tədbirə yekun vuran Baş prokuror prokurorluğun şəhid olmuş əməkdaşlarının ailələrinin sosial müdafiəsinin gücləndirilməsi, onların problemlərinin vaxtında həlli ilə bağlı bundan sonra da daim işlər görüləcəyini qeyd edib, prokurorluq orqanlarının onlara, həmçinin prokurorluğun veteranlarına hər zaman dəstək olacağını vurğulayıb.

# Baş prokuror Özbəkistanda səfərdə olmuşdur





Azərbaycan Respublikasının Baş prokuroru Kamran Əliyevin rəhbərlik etdiyi nümayəndə heyəti 2025-ci il sentyabrın 24-də Özbəkistana rəsmi səfərə gəlib.

Əvvəlcə Özbəkistan Baş Prokurorluğunda ikitərəfli görüş keçirilib. Görüşdə ölkəmizin nümayəndə heyətini səmimi salamlayan Özbəkistanın Baş prokuroru Niqmatilla Yuldaşev dövlətlərimiz arasında bütün sahələrdə daim inkişaf edən tərəfdaşlıq münasibətlərindən, o cümlədən prokurorluq orqanları arasında olan yüksək səviyyəli əməkdaşlıq münasibətlərindən məmnunluğunu ifadə edib. O, həm ikitərəfli, həm də çoxtərəfli səviyyələrdə, beynəlxalq təşkilatlar çərçivəsində qarşılıqlı fəaliyyətin səmərəliliyini qeyd edərək, iki dövlətin prokurorluq orqanları arasında qarşılıqlı münasibətlərin bundan sonra da uğurla davam etdiriləcəyinə əminliyini bildirib.

Baş prokuror Kamran Əliyev yüksək qonaqpərvərliyə və səmimi qəbula görə həmkarına minnətdarlığını bildirərək, təməli xalqımızın Ümummilli Lideri Heydər Əliyev tərəfindən qoyulmuş və onun layiqli davamçısı Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilən Özbəkistan – Azərbaycan münasibətlərinin siyasi, iqtisadi, mədəni və digər sahələrdə də inkişaf etdirildiyini, hər iki dövlət başçısının siyasi iradələrinin təzahüri kimi 23 avqust 2024-cü il tarixdə Daşkənd şəhərində imzalanmış "Azərbaycan Respublikası ilə Özbəkistan Respublikası arasında müttəfiqlik münasibətləri haqqında Müqavilə"dən sonra reallaşan strateji layihələrin ölkələrimizi daha da yaxınlaşdıracağını, xalqlarımızın rifahına xidmət göstərəcəyini qeyd edib.

Baş prokuror, həmçinin, 44 günlük Vətən müharibəsində əldə olunan tarixi zəfərdən sonra, Özbəkistan dövləti tərəfindən Qarabağda aparılan geniş quruculuq bərpa işlərinə göstərilmiş dəstəyi xüsusi vurğulayaraq, 23 avqust 2023-cü il tarixdə inşa olunan Mirzə Uluqbəy adına 1 nömrəli tam orta məktəbin açılışını, hər iki dövlət başçısının iştirakları ilə cari ilin 2 iyul tarixində Bakı şəhərində Özbəkistan səfirliyinin yeni binasının açılışını və həmin tarixdə dövlət başçıları tərəfindən "Özbəkistan" parkının təməlinin qoyulmasını qeyd edib.

Görüşdə qarşılıqlı maraq doğuran bir sıra məsələlər müzakirə edilməklə gələcək əməkdaşlığın fəaliyyət istiqamətləri ətrafında fikir mübadiləsi aparılıb.





Görüş çərçivəsində Baş prokurorlar tərəfindən mövcud sahəvi əlaqələrin gələcəkdə daha da intensivləşdirilməsi məqsədilə “Azərbaycan Respublikasının Baş Prokurorluğu ilə Özbəkistan Respublikasının Baş Prokurorluğu arasında 2026-2027-ci illər üçün nəzərdə tutulmuş Əməkdaşlıq Proqramı” imzalanıb.

Proqramda tərəflərin “Cinayət yolu əldə edilmiş aktivlərinin xaricdən qaytarılması mexanizmləri” mövzusunda seminarda, prokurorluq orqanlarının kadr hazırlığı və ixtisasartırılması üzrə Özbəkistan Respublikasının Hüquq-mühafizə Akademiyasının illik konfransında iştirakları, həmçinin “Prokurorun işlərə məhkəmələrdə baxılmasında iştirakı” mövzusunda seminarın və “Prokurorluq orqanlarının fəaliyyətinin rəqəmsallaşdırılması” mövzusunda “dəyirmi masanın” təşkili nəzərdə tutulub.








Bundan başqa, Baş prokuror Kamran Əliyev sentyabrın 25-də Türk Dövlətləri Təşkilatına üzv Dövlətlərin Baş Prokurorları Şurasının 4-cü iclasında iştirak edib.

Baş prokuror çıxışında mühüm tədbirin təşkilinə görə Özbəkistan Respublikasının Baş prokuroru Niqmatulla Yuldaşevə dərin minnətdarlığını bildirib, Azərbaycan Respublikasında ölkə başçısının rəhbərliyi ilə həyata keçirilən dövlət siyasətinin əsas istiqamətlərindən biri kimi rəqəmsallaşma və elektron idarəetmənin inkişafı olduğunu vurğulayaraq, Azərbaycan Prokurorluğunun fəaliyyətində müasir informasiya-kommunikasiya texnologiyalarının tətbiqini işıqlandırıb.

Nümayəndə heyəti xalqımızın Ümummilli Lideri Heydər Əliyevin şərəfinə Özbəkistanın Daşkənd şəhərində salınmış meydanı ziyarət edib, orada dünya şöhrətli siyasi xadimin abidəsinin önünə gül dəstələri qoyaraq əziz xatirəsini ehtiramla yad edib.

Daha sonra nümayəndə heyəti, ölkəmizin Özbəkistan Respublikasındakı səfirliyinə gələrək, səfirliyin əməkdaşları ilə görüşüb.

Səfər çərçivəsində Baş prokuror Kamran Əliyev İqtisadi Əməkdaşlıq Təşkilatına (İƏT) üzv dövlətlərin Baş prokurorlarının Daşkənddə keçirilən 6-cı iclasında iştirak edib.

Baş prokuror çıxışında ekologiya və ətraf mühitin qorunması sahəsində qanunun aliliyinin təmin olunmasında prokurorluq orqanlarının roluna toxunaraq, ekoloji cinayətlərin qlobal problemə çevrildiyini vurğulayıb. Azərbaycanın bu istiqamətdə həyata keçirdiyi tədbirlər, xüsusilə də COP29-un Bakıda uğurla təşkil olunması və “Baku Call to Action” təşəbbüsünün qəbul edilməsinin regional və beynəlxalq əməkdaşlıq üçün əhəmiyyətli hüquqi əsas yaratdığı diqqətə çatdırılıb.

Baş prokuror həmçinin bildirib ki, Azərbaycanın Baş Prokurorluğu dövlət orqanları ilə sıx əməkdaşlıq şəraitində ekoloji qanunvericiliyin icrasına nəzarəti həyata keçirir, təbiətə vurulan ziyanın aradan qaldırılmasını təmin edir və bu sahədə beynəlxalq tərəfdaşlarla təcrübə mübadiləsinə xüsusi önəm verir.








Vurğulanıb ki, Xəzəryanı ölkələr kimi, Xəzər dənizinin ekologiyasına qarşı törədilən cinayətlərlə mübarizədə də birgə səylərin gücləndirilməsi vacibdir.

Tədbir çərçivəsində həmçinin “İqtisadi Əməkdaşlıq Təşkilatına üzv dövlətlərin Baş prokurorlarının 6-cı iclasının Daşkənd Bəyannaməsi” qəbul olunub.

Bəyannamədə üzv dövlətlərin prokurorluq orqanlarının cinayətkarlıqla, xüsusilə korrupsiya və ekoloji cinayətlərlə mübarizədə rolunun gücləndirilməsi, kiber və maliyyə cinayətlərinə qarşı regional əməkdaşlığın artırılması, həmçinin davamlı inkişaf və ətraf mühitin qorunması sahəsində birgə fəaliyyətin vacibliyi vurğulanıb.

Səfər zamanı Baş prokuror tərəfindən xarici həmkarlarla ikitərəfli görüşlər də keçirilib.

Tacikistan Respublikasının Baş prokuroru Həbibullo Vohidzoda ilə keçirilmiş görüşdə ölkələrimiz arasında yüksək səviyyəli münasibətlər, hüquq mühafizə orqanlarının əməkdaşlığı, eləcə də beynəlxalq təşkilatlar çərçivəsində qarşılıqlı dəstəyin davam etdirilməsi məsələləri müzakirə olunub.

Tərəflər transsərhəd cinayətkarlıq və digər çağırışlarla mübarizədə birgə fəaliyyətin gücləndirilməsinin vacibliyini vurğulayıblar.

İran İslam Respublikasının nümayəndə heyəti ilə keçirilmiş görüşdə hər iki ölkənin prokurorluq orqanları arasında mövcud əməkdaşlığın daha da genişləndirilməsi, qarşılıqlı təcrübə mübadiləsinin aparılması və hüquqi yardım mexanizmlərinin səmərəli tətbiqi məsələləri müzakirə olunub.

Tərəflər həmçinin regional sabitliyin möhkəmləndirilməsi, terrorçuluq, narkotik vasitələrin qanunsuz dövriyyəsi və digər transmilli cinayətlərlə mübarizə sahəsində birgə addımların əhəmiyyətini xüsusi vurğulayıblar.

İkitərəfli görüşlərdə, həmçinin, cinayət işləri üzrə qarşılıqlı hüquqi yardım, ekstradisiya, cinayət yolu ilə əldə edilmiş əmlakın leqallaşdırılması, korrupsiya cinayətləri və qarşılıqlı maraq doğuran digər mövzular ətrafında səmərəli fikir mübadiləsi aparılıb.

# Baş Prokurorluğun rəhbərliyi 27 sentyabr – Anım Günü münasibətilə Zəfər parkını ziyarət edib



Baş prokuror Kamran Əliyev və prokurorluğun rəhbər heyəti şəhidlərin xatirəsini ehtiramla yad edərək abidə önünə gül dəstələri düzüblər.



# Prokurorluq əməkdaşları 1 Oktyabr - Prokurorluq İşçilərinin Peşə Bayramı Gününə həsr olunmuş tədbirdə iştirak edib



1 Oktyabr - Prokurorluq işçilərinin peşə bayramı günü və Milli Prokurorluğun yaradılmasının 107-ci ildönümü ilə əlaqədar 2025-ci il sentyabrın 29-da prokurorluq əməkdaşları Azərbaycan Dövlət Akademik Filarmoniyasında keçirilən tədbirdə iştirak edib.

Tədbirdə Baş Prokurorluğun rəhbərliyi, habelə prokurorluq əməkdaşları, prokurorluğun veteranları və Baş prokuror yanında Elmi-Məsləhət Şurasının üzvləri iştirak edib.

Konsertdə solistləri bədii rəhbər və baş dirijor Azərbaycan Respublikasının Xalq artisti Ağaverdi Paşayevin rəhbərliyi altında Azərbaycan Dövlət Xalq Çalğı Alətləri Orkestri müşayiət edib.



# Prokurorluq əməkdaşları ağacəkmə kampaniyası keçirib









Milli prokurorluq orqanlarının yaradılmasının 107-ci ildönümü, habelə 1 oktyabr – Azərbaycan Respublikası prokurorluq işçilərinin peşə bayramı günü münasibətilə sentyabrın 30-da Baş Prokurorluq, Hərbi Prokurorluq, Baş prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsi, Naxçıvan Muxtar Respublikasının Prokurorluğu, Bakı şəhər və paytaxtın tabe rayon prokurorluqlarının əməkdaşları, prokurorluğun veteranları, həmçinin, Ekologiya və Təbii Sərvətlər Nazirliyinin rəhbərliyi, nazirliyin əməkdaşları, Muxtar Respublikanın Ekologiya və Təbii Sərvətlər Nazirliyinin əməkdaşları, eləcə də könüllülərin iştirakı ilə növbəti ağacəkmə kampaniyası keçirib.

Tədbir çərçivəsində Abşeron yarımadası və Naxçıvan Muxtar Respublikasında torpaq-iqlim şəraitinə uyğun ümumilikdə 1500-dən çox zeytun və eldar şamı ağacları əkilib.

Kampaniyadan sonra Baş prokuror Kamran Əliyev prokurorluğun veteranları ilə görüşərək onlarla səmimi söhbət edib.

# Prokurorluq orqanlarının yaradılmasının 107-ci ildönümü münasibətilə tədbir keçirilib











Milli prokurorluq orqanlarının yaradılmasının 107-ci ildönümü münasibətilə Baş Prokurorluğun rəhbərliyi 2025-ci il oktyabrın 1-də Fəxri xiyabana gələrək, Ulu Öndər Heydər Əliyevin xatirəsini dərin ehtiramla yad edib, məzarı önünə gül dəstələri qoyub.

Həmçinin, görkəmli oftalmoloq-alim, akademik Zərifə xanım Əliyeva, tanınmış dövlət xadimi Əziz Əliyev və professor Tamerlan Əliyevin də xatirələri yad edilib, məzarları üzərinə gül dəstələri düzülüb.

Sonra Şəhidlər xiyabanına gələn prokurorluğun kollektivi Azərbaycanın müstəqilliyi və azadlığı uğrunda şəhid olmuş qəhrəman Vətən övladlarının xatirəsinə dərin ehtiramlarını bildirib, "Əbədi məşəl" abidəsini ziyarət ediblər.

Daha sonra Baş Prokurorluğun inzibati binasında 1 oktyabr – Azərbaycan Respublikası Prokurorluğunun yaradılmasının 107-ci ildönümü münasibətilə tədbir keçirilib.




Azərbaycanın müstəqilliyi və ərazi bütövlüyü uğrunda şəhid olmuş qəhrəman vətən övladlarının əziz xatirəsi bir dəqiqəlik sükutla yad edildikdən və Azərbaycan Respublikasının dövlət himni səsləndirildikdən sonra Baş prokuror Kamran Əliyev prokurorluq orqanlarında çalışan bütün əməkdaşları, veteranları, onların ailə üzvlərini peşə bayramı münasibətilə təbrik edib.

Çıxış zamanı Baş prokuror Kamran Əliyev ölkəmizin ictimai-siyasi həyatında son dövrdə baş verən mühüm hadisələrdən bəhs edib. Qeyd olunub ki, dövlət başçısı cənab İlham Əliyevin ABŞ-yə tarixi səfəri çərçivəsində Azərbaycan ilə Ermənistan arasında sülh sazişinin 2025-ci il avqustun 8-də Ağ Evdə paraflanması Azərbaycan Prezidentinin hərbi uğurlarından sonra növbəti siyasi nailiyyəti və qələbəsidir. Həmçinin 907-ci düzəlişin tətbiqinin dayandırılması barədə Amerika Birləşmiş Ştatları Prezidenti tərəfindən Prezident İlham Əliyevlə görüş çərçivəsində sərəncam imzalanması dövlətimizin başçısının diplomatik sahədə əsas uğurlarından biridir

Bundan başqa, vurğulandı ki, Prezident İlham Əliyevin cari il sentyabrın 25-də BMT Baş Assambleyasının 80-ci sessiyasında 44 günlük Vətən müharibəsindən sonra Azərbaycanın qarşısında açılan yeni mərhələni və bu mərhələnin regionda yaratdığı siyasi, iqtisadi və təhlükəsizlik reallıqlarını dünya ictimaiyyətinə çatdırdığı tarixi çıxışı, eləcə də ölkə başçısının regional və qlobal əhəmiyyətli təşəbbüsləri Azərbaycanın beynəlxalq nüfuzunun, suverenlik və ərazi bütövlüyünün tam bərqərar edilməsinin bariz göstəricisidir.

Baş prokuror bildirib ki, prokurorluq orqanlarının yaranmasının 107-ci ildönümü Vətən müharibəsində möhtəşəm Zəfərimizin 5 illiyi ilə eyni dövrə təsadüf edir. Məhz Ali Baş Komandan cənab İlham Əliyevin müdrik rəhbərliyi, xalq-ordu birliyi nəticəsində dövlətimizin ərazi bütövlüyü bərpa edilib, işğaldan azad olunmuş torpaqlarda geniş bərpa-quruculuq işləri aparılır.

Kamran Əliyev 2025-ci ilin ölkəmizdə “Konstitusiya və Suverenlik İli” elan edilməsinin mühüm tarixi hadisə olduğunu vurğulayaraq, Ulu Öndər Heydər Əliyevin müəllifi olduğu Konstitusiyanın dövlətimizin müstəqilliyinin, hüquqi və dünyəvi dövlət quruculuğunun möhkəm təməli olduğunu diqqətə çatdırıb. Qeyd olunub ki, məhz bu hüquqi əsaslar üzərində prokurorluğun müasir statusu və səlahiyyətləri müəyyən edilib.

Çıxış zamanı ölkəmizin ev sahibliyi etdiyi mötəbər beynəlxalq tədbirlərin təkcə Azərbaycanın beynəlxalq nüfuzunun möhkəmlənməsinə deyil, eyni zamanda regionların sosial-iqtisadi inkişafına verdiyi mühüm töhfələr xüsusi vurğulanıb.

Baş prokuror dövlətimizin Birinci vitse-prezidenti Mehriban Əliyevanın həyata keçirdiyi humanitar təşəbbüslərin, təhsil, mədəniyyət və sosial sahələrdə gördüyü genişmiqyaslı işlərin ölkəmizin beynəlxalq nüfuzunun möhkəmlənməsində mühüm rol oynadığını xüsusi qeyd edərək bu sahədə əldə olunmuş nailiyyətlərdən danışıb, prokurorluq orqanlarının da dünya miqyasında nüfuzlu tərəfdaşlıqlarını daha da möhkəmləndirəcəyini diqqətə çatdırıb.

Baş prokuror prokurorluq orqanlarında son illərdə həyata keçirilmiş struktur dəyişiklikləri, şəffaf kadr siyasəti, maddi-texniki bazanın gücləndirilməsi, “Elektron Prokurorluq” İnformasiya Sisteminin tam şəkildə













bütün prokurorluq orqanlarında tətbiqi, işğaldan azad edilmiş ərazilərdə prokurorluq orqanlarının fəaliyyətinin bərpası istiqamətində görülən işlər barədə ətraflı məlumat verib. Qeyd olunub ki, prokurorluq işçilərinin 93 faizdən çoxu məhz müsabiqə yolu ilə seçilmiş gənc, peşəkar kadrlardan ibarətdir.

Çıxışın sonunda əminliklə qeyd olunub ki, hər bir prokurorluq əməkdaşı bundan sonra da fəaliyyətini insan və vətəndaş hüquq və azadlıqlarının qorunmasına, ictimai-siyasi sabitliyin təmin edilməsinə və qanunçuluğun möhkəmləndirilməsinə həsr edəcək, dövlət başçısı tərəfindən göstərilən yüksək etimadı doğrultmaq üçün bütün bilik və bacarığını səfərbər edəcəkdir.

Daha sonra xidməti fəaliyyətlərində fərqləndiklərinə görə mükafatlandırılmış prokurorluq əməkdaşlarının təltif olunması, prokurorluq orqanlarının yaradılmasının 107-ci ildönümü münasibətilə ali təhsil müəssisələrinin tələbə və kursantları arasında təşkil olunmuş interaktiv istintaq kvestinin, "Azərbaycan Respublikasının Konstitusiyası və Dövlət Suverenliyi" mövzusunda keçirilmiş hüquq viktorinasının qaliblərinin, eləcə də prokurorluq əməkdaşları və veteranları arasında keçirilmiş şahmat turnirinin qaliblərinin mükafatlandırılması mərasimi keçirilib.

Tədbir zamanı çıxış edən prokurorluğun veteranları Ələmdar Məmmədov və Mircavan Kazımov prokurorluq orqanlarının şərəfli inkişaf yolundan bəhs edərək, dövlətimizin başçısı cənab İlham Əliyevin və Birinci vitse-prezident Mehriban Əliyevanın rəhbərliyi ilə ölkəmizdə bütün sahələrdə həyata keçirilən genişmiqyaslı islahatların prokurorluq orqanlarının fəaliyyətinə də müsbət təsir göstərdiyini vurğulayıblar. Veteranlar, onlara göstərilən diqqət və qayğını yüksək qiymətləndirərək, bu münasibəti prokurorluq ailəsinə verilən dəyərin bariz nümunəsi kimi qeyd edib, əməkdaşları peşə bayramı münasibətilə təbrik ediblər.

İştirakçılar Azərbaycanda prokurorluq orqanlarının yaranma tarixindən müasir dövrədək keçdiyi inkişaf mərhələlərini, ölkəmizdə qanunun aliliyinin təmin olunması və ədalətin bərqərar edilməsində oynadığı mühüm rolu əhatəli şəkildə əks etdirən, Azərbaycan Prokurorluğunun peşə bayramı və 107 illiyinə həsr olunmuş videoçarxa baxıblar.

Tədbirin yekununda Baş prokuror bir daha əməkdaşları təbrik edərək onlara peşəkar fəaliyyətlərində uğurlar arzu edib.

# Baş prokurorun yerlərdə qəbulları

**Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin tapşırıqlarına uyğun olaraq prokurorluq orqanları tərəfindən vətəndaşların qəbulu daim diqqətdə saxlanılmaqla onların ərizə və şikayətlərinin yerində dinlənilərək həll olunması üçün müvafiq tədbirlər görülür.**

**YARDIMLI RAYONU**





2025-ci il iyulun 4-də Baş prokuror Kamran Əliyev Yardımlı rayon prokurorluğunun inzibati binasında Yardımlı, Masallı, Cəlilabad rayonu və digər bölgələrdən olan vətəndaşları qəbul edib.

Qəbuldan əvvəl Baş prokuror xalqımızın Ümummilli Lideri Heydər Əliyevin rayonun mərkəzində ucaldılmış abidəsini ziyarət edərək əziz xatirəsini ehtiramla yad edib.

Qəbulda iştirak edən 19 nəfər vətəndaşın müraciətində konkret cinayət işlərinin istintaqı, törədilmiş cinayətlər barədə məlumatların araşdırılması zamanı yol verilmiş qanun pozuntuları və məhkəmədə baxılan cinayət işləri üzrə dövlət ittihamının müdafiəsinə dair məsələlərin bilavasitə prokurorluqda və ya aidiyyəti icra orqanlarında operativ həlli üçün müvafiq göstərişlər verilib.



## NƏRİMANOV RAYONU










2025-ci il iyulun 11-də Baş prokuror Kamran Əliyev Bakı şəhəri Nərimanov rayon prokurorluğunun inzibati binasında Nərimanov rayonu və digər bölgələrdən olan vətəndaşları qəbul edib.

Qəbulda iştirak edən 52 nəfər vətəndaşın müraciətində konkret cinayət işlərinin istintaqı, törədilmiş cinayətlər barədə məlumatların araşdırılması zamanı yol verilmiş qanun pozuntuları və məhkəmədə baxılan cinayət işləri üzrə dövlət ittihamının müdafiəsinə dair məsələlərin bilavasitə prokurorluqda və ya aidiyyəti icra orqanlarında operativ həlli üçün müvafiq göstərişlər verilib.

## ZAQATALA RAYONU



2025-ci il iyulun 18-də Baş prokuror Kamran Əliyev Zaqatala rayon prokurorluğunun inzibati binasında Zaqatala, Şəki, Qax, Balakən rayonu və digər bölgələrdən olan vətəndaşları qəbul edib.

Qəbuldan əvvəl Baş prokuror xalqımızın Ümummilli Lideri Heydər Əliyevin rayonun mərkəzində ucaldılmış abidəsini ziyarət edərək əziz xatirəsini ehtiramla yad edib.






Qəbulda iştirak edən 27 nəfər vətəndaşın müraciətində konkret cinayət işlərinin istintaqı, törədilmiş cinayətlər barədə məlumatların araşdırılması zamanı yol verilmiş qanun pozuntuları və məhkəmədə baxılan cinayət işləri üzrə dövlət ittihamının müdafiəsinə dair məsələlərin bilavasitə prokurorluqda və ya aidiyyəti icra orqanlarında operativ həlli üçün müvafiq göstərişlər verilib.

## XƏTAİ RAYONU



2025-ci il avqustun 1-də Baş prokuror Kamran Əliyev Bakı şəhəri Xətai rayon prokurorluğunun inzibati binasında Xətai rayonu və digər bölgələrdən olan vətəndaşları qəbul edib.

Qəbulda iştirak edən 33 nəfər vətəndaşın müraciətində konkret cinayət işlərinin istintaqı, törədilmiş cinayətlər barədə məlumatların araşdırılması zamanı yol verilmiş qanun pozuntuları və məhkəmədə baxılan cinayət işləri üzrə dövlət ittihamının müdafiəsinə dair məsələlərin bilavasitə prokurorluqda və ya aidiyyəti icra orqanlarında operativ həlli üçün müvafiq göstərişlər verilib.



## XAÇMAZ RAYONU

2025-ci il avqustun 15-də Baş prokuror Kamran Əliyev Xaçmaz rayon prokurorluğunun inzibati binasında Xaçmaz, Quba, Qusar, Şabran, Siyəzən, Xızı rayonu və digər bölgələrdən olan vətəndaşları qəbul edib.

Qəbuldan əvvəl Baş prokuror xalqımızın Ümummilli Lideri Heydər Əliyevin rayonun mərkəzində ucaldılmış abidəsini ziyarət edərək əziz xatirəsini ehtiramla yad edib.

Qəbulda iştirak edən 43 nəfər vətəndaşın müraciətində konkret cinayət işlərinin istintaqı, törədilmiş cinayətlər barədə məlumatların araşdırılması zamanı yol verilmiş qanun pozuntuları və məhkəmədə baxılan cinayət işləri üzrə dövlət ittihamının müdafiəsinə dair məsələlərin bilavasitə prokurorluqda və ya aidiyyəti icra orqanlarında operativ həlli üçün müvafiq göstərişlər verilib.







## NƏSİMİ RAYONU





2025-ci il avqustun 29-da Baş prokuror Kamran Əliyev Bakı şəhəri Nəsimi rayon prokurorluğunun inzibati binasında Nəsimi rayonu və digər bölgələrdən olan vətəndaşları qəbul edib.

Qəbulda iştirak edən 38 nəfər vətəndaşın müraciətində konkret cinayət işlərinin istintaqı, törədilmiş cinayətlər barədə məlumatların araşdırılması zamanı yol verilmiş qanun pozuntuları və məhkəmədə baxılan cinayət işləri üzrə dövlət ittihamının müdafiəsinə dair məsələlərin bilavasitə prokurorluqda və ya aidiyyəti icra orqanlarında operativ həlli üçün müvafiq göstərişlər verilib.

## YASAMAL RAYONU



2025-ci il sentyabrın 5-də Baş prokuror Kamran Əliyev Bakı şəhəri Yasamal rayon prokurorluğunun inzibati binasında Yasamal rayonu və digər bölgələrdən olan vətəndaşları qəbul edib.

Qəbulda iştirak edən 47 nəfər vətəndaşın müraciətində konkret cinayət işlərinin istintaqı, törədilmiş cinayətlər barədə məlumatların araşdırılması zamanı yol verilmiş qanun pozuntuları və məhkəmədə baxılan cinayət işləri üzrə dövlət ittihamının müdafiəsinə dair məsələlərin bilavasitə prokurorluqda və ya aidiyyəti icra orqanlarında operativ həlli üçün müvafiq göstərişlər verilib.



**NAXÇIVAN**



2025-ci il sentyabrın 18-də Baş prokuror Kamran Əliyev Naxçıvan Muxtar Respublikası prokurorluğunun inzibati binasında Naxçıvan şəhər, Babək, Culfa, Kəngərli, Ordubad, Sədərək, Şahbuz və Şərur rayonlarından olan vətəndaşları qəbul edib.

Qəbuldan əvvəl Baş prokuror xalqımızın Ümummilli Lideri Heydər Əliyevin şəhərin mərkəzində ucaldılmış abidəsini ziyarət edərək əziz xatirəsini ehtiramla yad edib.

Qəbulda iştirak edən 46 nəfər vətəndaşın müraciətində konkret cinayət işlərinin istintaqı, törədilmiş cinayətlər barədə məlumatların araşdırılması zamanı yol verilmiş qanun pozuntuları və məhkəmədə baxılan cinayət işləri üzrə dövlət ittihamının müdafiəsinə dair məsələlərin bilavasitə prokurorluqda və ya aidiyyəti icra orqanlarında operativ həlli üçün müvafiq göstərişlər verilib.



**Qəbullardan sonra prokurorluq əməkdaşları ilə görüş keçirən Kamran Əliyev onlara konkret tapşırıqlar verib, vətəndaşların müraciətlərinə obyektiv baxılması və qəbulu işinin düzgün təşkilinə görə tabe prokurorların fərdi məsuliyyət daşıdığını diqqətə çatdırıb.**



# Xarici ölkə prokurorluqlarının nümayəndələri Qarabağ Universitetində olub






Azərbaycan Respublikasının Baş prokurorunun müavini Heydər Məmmədov MDB-yə üzv dövlətlərin Baş Prokurorlarının Əlaqələndirmə Şurasının icraçı katibi Yuri Nikolayeviç Jdanov, onun müavini Abduraxmon Xotambekov, Türkiyə Respublikasının Ali Məhkəməsinin Baş Prokurorluğunun prokurorları Ahmet Gökay Aktaş və Mustafa Yakar, eləcə də Gürcüstan Baş Prokurorluğunun əməkdaşı Temur Tsindeliani ilə birgə 2025-ci il 21–22 avqust tarixlərində Şuşa və Xankəndi şəhərlərinə səfər edib.

Əvvəlcə Şuşa şəhərində olan qonaqlar Heydər Məmmədovun müşayiətilə Yuxarı Gövhər Ağa məscidini, Molla Pənah Vaqifin muzey-məqbərə kompleksini, Cıdır düzünü və digər tarixi-mədəni abidələri ziyarət ediblər. Şuşanın özünəməxsus memarlıq üslubu, qədim tarixi və füsunkar təbiət mənzərələri nümayəndə heyətində dərin təəssürat yaradıb. Qonaqlar şəhəri mədəni və tarixi baxımdan böyük dəyərə malik bir irs nümunəsi kimi dəyərləndiriblər.

Daha sonra səfər Xankəndi şəhərində davam edib. Zəfər meydanı ilə tanışlıqdan sonra qonaqlar Qarabağ Universitetini ziyarət edib və Universitetin rektoru Şahin Bayramov tərəfindən qarşılanaraq onlara təhsil ocağı barədə məlumat verilib, ali təhsil müəssisəsində aparılan işlər, qarşıda duran vəzifələr haqqında ətraflı danışılıb.

Ziyarət zamanı nümayəndə heyəti ali təhsil müəssisəsində həyata keçirilən elmi-tədris prosesi, akademik mühit və inkişaf perspektivləri ilə tanış olublar. Nümayəndə heyətləri Universitetin müasir yanaşmalar əsasında fəaliyyət göstərməsini yüksək qiymətləndirib, burada formalaşan təhsil mühitinin regionun intellektual inkişafına töhfə verəcəyini vurğulayıb, eləcə də gələcəkdə bu təhsil ocağı ilə əməkdaşlıq təklifinə müsbət yanaşıblar.

Səfər çərçivəsində nümayəndələr Xankəndi şəhərinin mərkəzində yerləşən memarlıq abidələrinə, mədəniyyət ocaqlarına və digər tarixi məkanlara da baxış keçiriblər. Qonaqlar Xankəndidə aparılan bərpa və inkişaf işlərini təqdirlə qarşılayıb, şəhərin həm tarixini qoruyan, həm də müasirliyə inteqrasiya olunan simasını yüksək qiymətləndiriblər.

# Ölkəmizdə həyata keçirilən korrupsiyaya qarşı mübarizə tədbirləri İqtisadi Əməkdaşlıq və İnkişaf Təşkilatının (OECD) ekspertləri tərəfindən yüksək qiymətləndirilmişdir



7-10 iyul tarixlərində İqtisadi Əməkdaşlıq və İnkişaf Təşkilatının (OECD) Fransa Respublikasının Paris şəhərindəki qərargahında Şərqi Avropa və Mərkəzi Asiya üzrə Antikorrupsiya Şəbəkəsinin (ACN) 24-cü Plenar iclası və Şəbəkənin İdarə Heyətinin 30-cu görüşü keçirilmişdir.

Qeyd edilən tədbirlərdə ölkəmiz Azərbaycan Respublikasının Baş prokurorunun müavini - Baş prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsinin rəisi Nazim Rəcəbovun rəhbərlik etdiyi, Ali Məhkəmənin sədr müavini, Məhkəmə-Hüquq Şurasının üzvü Çingiz Əsgərov, Baş Prokurorluğun Beynəlxalq hüquqi əməkdaşlıq idarəsinin rəisi Səbuhi Alıyev, Korrupsiyaya qarşı Mübarizə üzrə Komissiyanın katibi Təbriz Musayev və digər əməkdaşlardan ibarət nümayəndə heyəti tərəfindən təmsil olunmuşdur.

Plenar iclasda Şəbəkənin İstanbul Anti-Korrupsiya Fəaliyyət Planının V monitorinq mərhələsi çərçivəsində ölkəmiz üzrə daha öncə təqdim edilmiş tövsiyələrin icrası ilə əlaqədar tərəqqi hesabatı müzakirə edilərək qəbul edilmişdir.

Dəyərləndirmə nəticəsində ixtisaslaşmış anti-korrupsiya qurumunun fəaliyyəti, dövlət satınalmalarında şəffaflıq, həmçinin məhkəmə sisteminin müstəqilliyinin təmini və digər istiqamətlərdə görülmüş tədbirlərin müsbət nəticələri vurğulanmışdır. Xüsusilə qeyd edilməlidir ki, ölkəmizdə həyata keçirilən korrupsiyaya qarşı mübarizə üzrə dövlət siyasəti ekspertlər tərəfindən olduqca yüksək qiymətləndirilmiş və müvafiq sahədə əldə etdiyi nəticələrə görə Azərbaycan region ölkələri arasında ilk yerlərdən birini tutur.



Bununla yanaşı, iclasda Ukrayna, Moldova və digər ölkələr üzrə dəyərləndirmə hesabatları qəbul edilmiş, Şəbəkənin 2023-2026-cı illər üzrə İş Proqramının icrası, habelə həyata keçirilmiş müxtəlif regional layihələr müzakirə edilmişdir.

Nümayəndə heyətimiz Şəbəkənin İdarə Heyətinin iclasında çıxış edərək son dövrdə ölkəmizdə korrupsiya və oxşar neqativ halların qarşısının alınması və ona qarşı mübarizə ilə bağlı həyata keçirilmiş tədbirlər barəsində geniş məlumat vermişdir.

# Azərbaycan Respublikası Baş Prokurorluğunun nümayəndə heyəti MDB-yə üzv dövlətlərin Baş prokurorlarının müavinlərinin görüşündə iştirak edib

2025-ci ilin 27 avqust tarixində Azərbaycan Respublikası Baş prokurorunun müavini Heydər Məmmədov və Baş Prokurorluğun Beynəlxalq hüquqi əməkdaşlıq idarəsinin rəisi Səbuhi Alıyev Rusiya Federasiyasının paytaxtı Moskva şəhərində təşkil olunan MDB-yə üzv dövlətlərin Baş prokurorlarının müavinlərinin görüşündə iştirak edib.





MDB-nin və bir sıra dövlət qurumlarının yüksək vəzifəli təmsilçilərinin iştirakı ilə keçirilən tədbir çərçivəsində hüquq-mühafizə sahəsində qarşılıqlı əməkdaşlığın mövcud vəziyyəti və perspektivləri, transsərhəd cinayətkarlığa qarşı birgə mübarizənin təşkili, həmçinin regional və beynəlxalq əməkdaşlığın daha da genişləndirilməsi məsələləri müzakirə olunub.

Görüşdə Heydər Məmmədov çıxış edərək, Koordinasiya Şurası çərçivəsində həyata keçirilən islahatların əhəmiyyətini, prokurorluqlar arasında qarşılıqlı hüquqi yardım və ekstradisiya sahəsində mövcud əməkdaşlıq təcrübəsini, habelə beynəlxalq və regional təşkilatlarda Azərbaycanın fəallığını diqqətə çatdırıb.

Baş prokurorun müavini, o cümlədən Azərbaycan Respublikası Baş Prokurorluğunun təşkilatçılığı ilə ölkəmizdə bir sıra nüfuzlu beynəlxalq tədbirlərin — Beynəlxalq Prokurorlar Assosiasiyasının 29-cu illik iclası, BMT-nin İqlim Dəyişikliyi üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyası (COP29) çərçivəsində "Gücləndirilmiş İqlim Fəaliyyəti üçün Hüquq-mühafizə orqanlarının səfərbər edilməsi" adlı yüksək səviyyəli plenar iclası və UNODC-nin GlobE şəbəkəsinin plenar toplantısının təşkil olunduğunu qeyd edib.



Səfər çərçivəsində, həmçinin Heydər Məmmədov MDB-yə üzv dövlətlərin Baş Prokurorluqlarının nümayəndə heyətləri ilə görüşlər keçirib.

# Baş Prokurorluğun nümayəndə heyəti Türkiyə Ədliyyə Akademiyasında olub





Azərbaycan Respublikası Baş prokurorunun rəhbərlik etdiyi nümayəndə heyətinin Türkiyə Respublikasına səfəri çərçivəsində 2025-ci il iyul ayının 22-də nümayəndə heyətinin üzvləri ilə Türkiyə Ədliyyə Akademiyasında görüş keçirilib.

Nümayəndə heyətini salamlayan Türkiyə Ədliyyə Akademiyasının rəhbəri Bekir Altun iki ölkənin prokurorluq orqanları arasında qarşılıqlı əlaqələrin uğurla inkişaf etdiyini bildirib.

Səmimi qəbula görə təşəkkürünü bildirən nümayəndə heyətinin üzvü, Azərbaycan Respublikası Baş Prokurorluğunun Elm-Tədris Mərkəzinin rəisi Fazil Həsənəliyev 2021-ci ildə imzalanmış Baş Prokurorluğun Elm-Tədris Mərkəzi ilə Türkiyə Ədliyyə Akademiyası arasında "Hüquq sahəsində tədris və tədqiqat fəaliyyəti ilə prokuror və prokuror vəzifəsinə namizədlərin təliminə yönəlmiş əməkdaşlıq haqqında" anlaşma memorandumuna uyğun olaraq, həmçinin Türk Ədliyyə Təlim Şəbəkəsi çərçivəsində Türkiyə Ədliyyə Akademiyası ilə Baş Prokurorluğun Elm-Tədris Mərkəzi arasında əməkdaşlığın uğurla davam etdirildiyini qeyd etməklə bu günə qədər əldə edilmiş uğurları diqqətə çatdırıb.



Görüş zamanı prokurorların təlimi, hüquqi əməkdaşlıq, təlim səfərləri və digər sahələrdə qarşılıqlı əlaqələrin bundan sonra da inkişaf etdiriləcəyi bildirilərək qarşılıqlı maraq doğuran məsələlər ətrafında müzakirələr aparılıb.

Nümayəndə heyəti Türkiyə Ədliyyə Akademiyasının inzibati binası, kitabxanası, tədris korpusları və yataqxanaları ilə yaxından tanış olublar.

# Baş Prokurorluğun nümayəndəsi beynəlxalq iclasda iştirak edib






Ölkəmiz sülh və təhlükəsizliyə dair tematik məsələlərin təşviq edilməsi üçün Birləşmiş Millətlər Təşkilatının aidiyyəti qurumları, o cümlədən terrorçuluğa, mütəşəkkil cinayətkarlığa, narkotik vasitələrin yayılmasına qarşı mübarizə və digər müvafiq sahələrdə həmin təşkilatın Narkotiklər və Cinayətkarlığa qarşı Mübarizə Ofisi (UNODC) ilə səmərəli əməkdaşlıq edir.

11-13 sentyabr tarixlərində Türkmənistanın Aşqabad şəhərində UNODC-nin Mərkəzi Asiya və Cənubi Qafqaz Şəbəkəsinin (CASC) növbəti plenar görüşü baş tutub. CASC şəbəkəsinin plenar iclasları ona üzv olan dövlətlərin səlahiyyətli orqanları arasında qarşılıqlı əlaqə kanallarının yaradılması üçün mühüm vasitə olmaqla Mərkəzi Asiya və Cənubi Qafqazda regional cinayətkarlıqla mübarizə çərçivəsində qarşılıqlı hüquqi yardım və ekstradisiya məsələlərinin həllinə yönəlib.

İclasın əsas məqsədi Şəbəkəyə üzv dövlətlərin müsbət təcrübəsinin yayılması, əməkdaşlığın daha səmərəli aparılması üçün görülməli tədbirlərin, çətinlik doğuran məsələlərin, həmçinin Şəbəkə çərçivəsində köməklik göstərilmiş işlər üzrə fəaliyyətin və statistik göstəricilərin müzakirəsi olub.

Baş Prokurorluğun Beynəlxalq hüquqi əməkdaşlıq idarəsinin Ekstradisiya və hüquqi yardım şöbəsinin prokuroru Fuad Hüseynov müvafiq sessiyada çıxış edərək, Baş Prokurorluğun cinayət işləri üzrə hüquqi yardım və ekstradisiya məsələlərində tətbiq etdiyi yeni üsul və yanaşmaların, rəqəmsallaşma ilə bağlı ölkəmizin cinayət-prosessual qanunvericiliyində edilmiş dəyişikliklərin, həmçinin "Elektron Prokurorluq" İnformasiya Sistemindən istifadənin qeyd olunan sahədə səmərəliliyin artırılmasına verdiyi töhvə barədə məlumat verib.

Həmçinin, görüşdə mütəşəkkil cinayətkarlıq, o cümlədən insan alveri, narkotik vasitələrin qanunsuz dövriyyəsi və kibercinayətkarlıq məsələlərində təcrübə mübadiləsi aparılmaqla, müxtəlif ölkələrin ekstradisiya və hüquqi yardım sahəsində mərkəzi orqanlarının qabaqcıl təcrübələri müzakirə edilib.

## Baş Prokurorluğun nümayəndələri beynəlxalq forumda iştirak ediblər



Cari il 24-25 sentyabr tarixlərində Qazaxıstan Respublikasının Türkistan şəhərində "Dövlət ittihamı institutunun təkmilləşdirilməsi: problemlər və inkişaf yolu" mövzusunda Beynəlxalq Forum keçirilib. Tədbirdə Qazaxıstan Respublikasının Baş prokuroru və rəhbər heyəti ilə yanaşı, Azərbaycan, Türkiyə, Macarıstan, Özbəkistan, Türkmənistan və Qırğızıstan prokurorluqlarının nümayəndələri iştirak edib.

Forumda Azərbaycan Respublikası Baş Prokurorluğunu Dövlət ittihamının müdafiəsi üzrə idarənin şöbə rəisi Binnət Həsənov və həmin şöbənin prokuroru Eldar Məmmədov təmsil edib.

Beynəlxalq tədbirdə çıxış edən Binnət Həsənov "Azərbaycan Respublikasının məhkəmələrində dövlət ittihamının müdafiəsinin xüsusiyyətləri" mövzusunda məruzə ilə çıxış edərək, ölkəmizin müvafiq sahədə əldə etdiyi təcrübəni iştirakçılarla bölüşüb.

Forum çərçivəsində məhkəmələrdə dövlət ittihamının müdafiəsi, informasiya-kommunikasiya texnologiyalarının tətbiqi, qabaqcıl beynəlxalq təcrübənin öyrənilməsi və digər mövzular ətrafında geniş fikir mübadiləsi aparılıb, qarşılıqlı əməkdaşlığın daha da dərinləşdirilməsi barədə müzakirələr keçirilib.

Tədbir iştirakçıları Türkistan vilayət prokurorluğunun inzibati binasının həyətində xatirə ağacı əkib, həmçinin şəhərin tarixi-mədəni məkanlarına ekskursiya ediblər.



# Baş Prokurorluğun nümayəndəsi kibercinayətkarlıqla mübarizədə beynəlxalq əməkdaşlığa dair seminarda çıxış edib



Azərbaycan Respublikasının Baş Prokurorluğu sülhün və təhlükəsizliyin möhkəmləndirilməsi istiqamətində beynəlxalq təşəbbüslərə və çoxtərəfli əməkdaşlığa daim böyük önəm verir. Bu çərçivədə Birləşmiş Millətlər Təşkilatının aidiyyəti qurumları, xüsusilə də Narkotiklər və Cinayətkarlığa qarşı Mübarizə İdarəsi (UNODC) ilə səmərəli əməkdaşlıq həyata keçirilir.

22–24 sentyabr tarixlərində Qazaxıstan Respublikasının paytaxtında, Baş Prokurorluq yanında Hüquq mühafizə orqanlarının Akademiyası və UNODC-nin Mərkəzi Asiya və Cənubi Qafqaz regionu üzrə hüquqi əməkdaşlıq şəbəkəsinin (CASC) birgə təşkilatçılığı ilə "Cinayət işləri üzrə elektron sübutlar və kibercinayətkarlıq sahəsində beynəlxalq əməkdaşlıq" mövzusunda regional seminar keçirilib.

CASC şəbəkəsi üzrə əlaqələndirici şəxslərin dəvət olunduğu tədbirdə Rumıniya Respublikasından dəvət olunmuş ekspertlər kibercinayətkarlığın müasir çağırışları, rəqəmsal sübutların toplanması və saxlanılması, kriptoaktivlərin qeyri-qanuni dövriyyəsi, rəqəmsal kriminalistika sahəsində beynəlxalq təcrübə və əməkdaşlıq mexanizmləri barədə təqdimatlar ediblər.

Azərbaycanı tədbirdə Baş Prokurorluğun Beynəlxalq hüquqi əməkdaşlıq idarəsinin Ekstradisiya və hüquqi yardım şöbəsinin prokuroru Nigar Yahyazadə təmsil edib. O, "Kibercinayətkarlıqla mübarizə sahəsində beynəlxalq əməkdaşlıq və qarşılıqlı hüquqi yardımın əsasları" mövzusunda məruzə ilə çıxış edərək ölkəmizin bu sahədə əldə etdiyi təcrübəni, beynəlxalq müqavilələr çərçivəsində qarşılıqlı hüquqi yardım mexanizmlərini və gələcək əməkdaşlıq imkanlarını iştirakçıların diqqətinə çatdırıb.

Seminar çərçivəsində iştirakçı ölkələrin nümayəndələri arasında faydalı fikir mübadiləsi aparılıb, kibercinayətkarlığa qarşı mübarizədə regional və beynəlxalq əməkdaşlığın gücləndirilməsinin xüsusi əhəmiyyəti vurğulanıb.

Tədbirin sonunda bütün iştirakçılara təşkilatçılar tərəfindən sertifikatlar təqdim edilib.



# Gənc prokurorluq əməkdaşları üçün peşə vərdişlərinin formalaşması məqsədilə hazırlıq kursu təşkil edilib





10 iyun – 1 iyul 2025-ci il tarixlərində Azərbaycan Respublikasının prokurorluq orqanlarına 2025-ci ildə müsabiqə yolu ilə ilk dəfə qulluğa qəbul olunmuş 56 işçi üçün hazırlıq kurs təşkil edilib.

Qarışıq formatda təşkil edilən kursa təlimçi qismində prokurorluq orqanlarının təcrübəli işçiləri ilə yanaşı, ədliyyə orqanlarının ekspertiza sahəsində işləyən peşəkar ekspertləri və Bakı Dövlət Universitetinin müəllimləri cəlb olunub.

Tədris proqramında praktiki əhəmiyyət kəsb edən, öyrənilməsi dövlət proqramlarında nəzərdə tutulan, eləcə də praktiki fəaliyyətdə əhəmiyyətli, habelə mürəkkəb xarakter daşıyan mövzulara üstünlük verilib.





# "Yüksəliş" müsabiqəsinin qalibi, Azərbaycan Respublikasının Baş prokuroru yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsinin əməkdaşı ilə tələbələr arasında görüş keçirilib



Azərbaycan Respublikası Prezidentinin müvafiq Sərəncamı əsasında təsis edilmiş birinci "Yüksəliş" müsabiqəsinin qalibi, Azərbaycan Respublikasının Baş prokuroru yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsinin əməkdaşı, Orxan Qazızadə müsabiqənin Mentorluq proqramı çərçivəsində Bakı Dövlət Universiteti və Prezident yanında Dövlət İdarəçilik Akademiyasının tələbələri ilə Azərbaycan Respublikasının Baş prokuroru yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsində görüşüb.

Görüşdə tələbələrə Baş İdarənin strukturu, funksiyaları ilə bağlı, habelə idarə və şöbələrinin fəaliyyəti barədə geniş məlumat verilib, korrupsiyaya qarşı mübarizə sahəsində əməliyyat-axtarış tədbirləri və Baş İdarənin fəaliyyətinə dair videoçarx təqdim edilib.

Sonda prokurorluq orqanlarının fəaliyyət istiqamətləri üzrə fikir mübadiləsi aparılaraq tələbələri maraqlandıran suallar cavablandırılıb.



# "Konstitusiya və Suverenlik İli" çərçivəsində Baş Prokurorluq tərəfindən işğaldan azad olunmuş Ağdamda regional konfrans keçirilib



Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin Sərəncamı ilə 2025-ci ilin "Konstitusiya və Suverenlik İli" elan olunması münasibətilə ölkə üzrə prokurorluq orqanları tərəfindən silsilə tədbirlər həyata keçirilir.

Bu tədbirlərin davamı olaraq, 2025-ci il iyulun 15-də işğaldan azad olunmuş Ağdam şəhərində yerləşən "Aghdam City Hotel"də Baş Prokurorluğun təşkilatçılığı ilə "Konstitusiya və Suverenlik: Hüquqi Dövlətin Təməli" mövzusunda regional konfrans keçirilib.

Konfransda 9 rayon (şəhər) prokurorluqlarının media ilə işləməyə məsul əməkdaşları, dövlət və qeyri-hökumət təşkilatları, media qurumları, təhsil müəssisələri və hüquq-mühafizə orqanlarının nümayəndələri iştirak ediblər.

Tədbirdən öncə konfrans iştirakçıları Ümummilli Lider Heydər Əliyevin Ağdam şəhərində ucaldılmış abidəsini ziyarət edərək, onun əziz xatirəsini ehtiramla yad ediblər. Daha sonra Ulu Öndər Heydər Əliyev və Azərbaycanın suverenliyi uğrunda canlarını fəda etmiş şəhidlərin xatirəsi bir dəqiqəlik sükutla anılıb, ardınca Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilib.





Konfransda çıxış edən Azərbaycan Respublikası Prezidentinin Ağdam, Füzuli və Xocavənd rayonları üzrə xüsusi nümayəndəsi Emin Hüseynov qeyd edib ki, ölkə başçısı cənab İlham Əliyevin rəhbərliyi ilə işğaldan azad olunmuş ərazilərdə aparılan genişmiqyaslı bərpa və quruculuq işləri yalnız infrastrukturla məhdudlaşmır, burada hüquqi dövlətin və konstitusion prinsiplərin bərqərar olunması istiqamətində də mühüm addımlar atılır. Konstitusiya ilə təsbit olunmuş vətəndaş hüquqlarının təmin edilməsi, qanunun aliliyinin qorunması və ictimai institutların fəal iştirakı bölgənin dayanıqlı inkişafı üçün əsas şərt kimi dəyərləndirilib.

Baş Prokurorluğun İstintaq idarəsinin rəisi Nemət Əvəzov isə çıxışında bildirib ki, hüquqi dövlətin təməl prinsiplərindən biri ədalətli və şəffaf istintaq prosesinin təmin edilməsidir. O qeyd edib ki, Konstitusiya və suverenlik anlayışları hüquq-mühafizə orqanlarının fəaliyyətində əsas meyarlar kimi çıxış edir və bu çərçivədə cinayətlərin obyektiv araşdırılması, insan hüquq və azadlıqlarının qorunması prokurorluq orqanlarının başlıca vəzifələrindəndir. İşğaldan azad olunmuş ərazilərdə hüquqi mühitin formalaşdırılması isə bu bölgələrdə hüquqi dövlət quruculuğuna ciddi töhfə verir.

Daha sonra çıxış edən Ağdam rayon prokuroru Vasif Süleymanov, Baş Prokurorluğun Mətbuat xidmətinin böyük prokuroru Kənan Zeynalov, Ədliyyə Akademiyasının kafedra müdiri, hüquq elmləri doktoru



Mətanət Əsgərova, Azərbaycan Mətbuat Şurasının İdarə Heyətinin üzvü Umud Mirzəyev və Ağdam Dövlət Sosial-İqtisadi Kollecinin nümayəndəsi Neymət Rüstəmli işğaldan azad olunmuş ərazilərdə hüquqi maarifləndirmə, ictimai nəzarət mexanizmləri və hüquqi dövlət quruculuğunda medianın və vətəndaş cəmiyyətinin rolu kimi aktual məsələlər ətrafında çıxış ediblər.

Konfrans çərçivəsində dövlət qurumları ilə qeyri-hökumət təşkilatları və media arasında əməkdaşlığın gücləndirilməsi, ictimai iştirakçılığın genişləndirilməsi və hüquqi maarifləndirmə strategiyalarının təkmilləşdirilməsi mövzusunda fikir mübadiləsi aparılıb. İştirakçılar vətəndaşların hüquqi biliklərinin artırılması və hüquqi informasiyanın operativ və dəqiq şəkildə cəmiyyətə çatdırılmasının vacibliyini xüsusi olaraq vurğulayıblar.

Tədbirin sonunda "Xalqın adamı" adlı sənədli film nümayiş etdirilib, Ümummilli Lider Heydər Əliyevin konstitusiya quruculuğundakı rolu və müasir suveren dövlətçiliyin formalaşmasındakı xidmətləri bir daha xatırlanıb.

Sonda xatirə fotoşəkili çəkilib.



# Baş Prokurorluqda Milli Mətbuat Günü münasibətilə media nümayəndələri ilə görüş keçirilib



2025-ci il iyulun 18-də Milli Mətbuat Günü münasibətilə Azərbaycan Respublikasının Baş Prokurorluğunda media nümayəndələri ilə görüş keçirilib.

Tədbirdə Baş Prokurorluğun idarə və şöbə rəisləri, digər prokurorluq əməkdaşları, eləcə də onlayn və çap mediasının, televiziya və radio kanallarının nümayəndələri iştirak ediblər.

Görüşün açılışında qonaqlar salamlanaraq, tədbirin əsas məqsədi – prokurorluq orqanları ilə media arasında əməkdaşlığın gücləndirilməsi, qarşılıqlı fəaliyyətin inkişaf etdirilməsi və gələcək hədəflərin müəyyən olunması kimi qeyd edilib.

Baş Prokurorluğun Mətbuat xidmətinin rəhbəri Saleh Hacıyev çıxış edərək, prokurorluq orqanları ilə media arasında düzgün, şəffaf və davamlı informasiya mübadiləsinin əhəmiyyətini vurğulayıb. O, mövcud əməkdaşlıq təcrübəsini qiymətləndirərək bu istiqamətdə qarşıda duran hədəfləri iştirakçıların diqqətinə çatdırıb.

Daha sonra Təşkilat və icraya nəzarət idarəsinin rəisi Tural Aslanov çıxış edərək, dövlət strukturlarında ictimai iştirakçılığın genişləndirilməsində və ictimai nəzarətin gücləndirilməsində medianın mühüm rolunu qeyd edib.

Hüquqi təminat və insan hüquqları məsələləri idarəsinin rəisi Aynur Osmanova “Konstitusiya və Suverenlik İli” çərçivəsində həyata keçirilən islahatlar, hüquqi dövlət quruculuğu və insan hüquqlarının müda-






fiəsi istiqamətində görülən tədbirlər barədə ətraflı məlumat verib. O, ictimai şüurun formalaşması və hüquqi maarifləndirmə prosesində medianın mühüm rolunu xüsusi vurğulayıb, bu sahədə qarşılıqlı əməkdaşlığın əhəmiyyətinə diqqət çəkib.



Kriminalistika və İnformasiya texnologiyaları idarəsinin rəisi Talıb Cəfərov isə çıxışında rəqəmsal dövrdə informasiya təhlükəsizliyi, kibercinayətkarlıqla mübarizə və bu istiqamətdə medianın rolu barədə danışıb. O, bu sahədə maarifləndirmə və ictimaiyyətin düzgün məlumatlandırılmasının vacibliyini önə çəkib.



Tədbirdə media nümayəndələri – Milli.az xəbər portalının baş redaktoru Asif Mehman, Report İnformasiya Agentliyinin müxbiri Səlcuq Elçin və İctimai Televiziya və Radio Yayımları Şirkətinin müxbiri Valeh Dadaşov çıxış edərək, prokurorluq-media münasibətləri barədə öz fikirlərini bölüşüb, əməkdaşlığın daha da inkişaf etdirilməsi üçün müxtəlif təkliflər irəli sürüblər.

Görüş çərçivəsində mətbuatın hüquqi maarifləndirmə, ictimai rəyin formalaşdırılması və ictimai nəzarət mexanizmlərinin gücləndirilməsi baxımından cəmiyyətdəki rolu ətrafında geniş fikir mübadiləsi aparılıb.

Tədbirin sonunda “Xalqın adamı” adlı sənədli film nümayiş etdirilib, Ümummilli Lider Heydər Əliyevin konstitusiya quruculuğundakı rolu və müasir suveren dövlətçiliyin formalaşmasındakı xidmətləri bir daha xatırlanıb.

Sonda xatirə fotoşəkili çəkilib.

# Azərbaycan Respublikası Dövlət Sərhəd Xidmətinin inzibati binasında Dövlət Sərhəd Xidməti ilə birgə korrupsiyaya qarşı mübarizənin əhəmiyyəti mövzusunda maarifləndirici tədbir keçirilmişdir





Azərbaycan Respublikası Prezidentinin 4 aprel 2022-ci il tarixli 3199 nömrəli Sərəncamı ilə təsdiq edilmiş "Korrupsiyaya qarşı mübarizənin gücləndirilməsinə dair 2022-2026-cı illər üçün Milli Fəaliyyət Planı"nın icrası çərçivəsində cari ilin 5 avqust tarixində Dövlət Sərhəd Xidmətinin inzibati binasında həmin Xidmətin zabit və gizir heyətinin iştirakı ilə korrupsiyaya qarşı mübarizəyə həsr olunmuş maarifləndirici tədbir keçirilmişdir.

Tədbiri giriş nitqi ilə açan Dövlət Sərhəd Xidməti rəisinin müavini Abbas Xəlilov sözügedən təlimin təşkilatçılığı ilə bağlı aidiyyəti qurumların birgə fəaliyyətinin səmərəliliyini vurğulayaraq korrupsiyaya qarşı mübarizə ilə bağlı maarifləndirici tədbirlərin keçirilməsinin gələcəkdə qurumun fəaliyyətində şəffaflığın təmin edilməsində mühüm əhəmiyyətə malik olacağını bildirdi.

Tədbirdə Baş prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsinin Preventiv tədbirlər və təhqiqat idarəsinin prokuroru Fərid Qarakişiyev "Korrupsiyanın anlayışı, korrupsiya ilə əlaqədar hüquqpozmalar və bu hüquqpozmalara görə məsuliyyət", Təşkilati və informasiya təminatı idarəsinin prokuroru İlkin Babazadə isə "Korrupsiyaya qarşı mübarizə sahəsində preventiv tədbirlərin əhəmiyyəti, bu sahədə beynəlxalq təcrübə, maraqlar toqquşmasının qarşısının alınması və etik davranış qaydaları korrupsiyaya qarşı effektiv mübarizə aləti kimi" mövzusunda çıxışlar edərək korrupsiyanın milli təhlükəsizliyə, dövlətçilik prinsiplərinə vurduğu zərərlər, korrupsiyaya qarşı mübarizədə şəffaflığın və hesabatlılığın vacibliyini vurğulamışlar.

Tədbirin sonunda dinləyicilərin sualları cavablandırılmışdır.

# Baş Prokurorluğun nümayəndəsi dövlət qurumları İT rəhbərlərinin VI Zirvə Toplantısında iştirak edib





2025-ci il sentyabrın 5-də dövlət qurumlarının informasiya təhlükəsizliyi sahəsində rəhbər heyəti arasında təcrübə mübadiləsinin aparılması, mövcud problemlərin və yeni imkanların müzakirəsi məqsədilə Xüsusi Rabitə və İnformasiya Təhlükəsizliyi Dövlət Xidmətinin təşkilatçılığı ilə “Dövlət qurumları İT rəhbərlərinin VI Zirvə Toplantısı” keçirilib.

Tədbirdə 70-dən çox dövlət qurumunun nümayəndəsi iştirak edib, Azərbaycan Respublikasının Baş Prokurorluğunu toplantıda Kriminalistika və informasiya texnologiyaları idarəsinin Kibertəhlükəsizlik şöbəsinin rəisi Aydın Verdiyev təmsil edib.

Toplantı çərçivəsində rəqəmsallaşmanın dərinləşməsi fonunda artan risklər diqqətə çatdırılıb, qlobal statistikalara əsasən dövlət qurumlarına qarşı həyata keçirilən hücumların 40 faizdən çoxunun kritik infrastruktura yönəldiyi vurğulanıb. Bununla yanaşı, ölkəmizdə icra olunmuş “Bug Bounty” proqramının əhəmiyyəti və əldə olunmuş nəticələri, dövlət qurumları ilə özəl sektor arasında əməkdaşlığın zəruriliyi, həmçinin beynəlxalq təcrübə mübadiləsinin vacibliyi qeyd edilib.

Sonda informasiya təhlükəsizliyi sahəsində dövlət qulluqçularının əməyinin stimullaşdırılması, kiberinsidentlər üzrə təcrübələrin paylaşılması, mövcud tendensiyalar, təhlükələr və qarşıya çıxan problemlər ətrafında geniş müzakirələr aparılıb, açıq debat şəklində fikir mübadiləsi həyata keçirilib.

Qeyd olunub ki, informasiya təhlükəsizliyi bu gün yalnız texniki məsələ olmayıb, milli təhlükəsizlik, iqtisadi sabitlik və cəmiyyətin etimadının təmin olunması baxımından mühüm əhəmiyyət kəsb edir.

# Baş Prokurorluqda kriminoloji təhlil mövzusunda distant kurs keçirilib



2025-ci il sentyabrın 18-də Baş Prokurorluğun Elm-Tədris Mərkəzində prokurorluq orqanlarının əməkdaşları üçün "Prokurorluq orqanlarında kriminoloji təhlil aparılması metodikası" mövzusunda distant kurs təşkil olunub.

Tədbirdə təlimçi qismində Baş Prokurorluğun təcrübəli əməkdaşları çıxış edərək mövzu ilə bağlı mühazirə və təqdimatlar ediblər. Kurs zamanı kriminologiya elminin əsas anlayışları, cinayətkarlığın profilaktikası, kriminoloji viktimologiya, cinayətkarların şəxsiyyəti və fərdi cinayət davranışı, eləcə də digər aktual məsələlər dinləyicilərə ətraflı şəkildə təqdim olunub.

İştirakçılar kurs müddətində mövzulara böyük maraq göstərərək fəal müzakirələr aparmış, ünvanlanan suallar təlimçilər tərəfindən ətraflı cavablandırılıb.



# Prokurorluq orqanlarında könüllü qanvermə aksiyası keçirilib






Prokurorluq işçilərinin peşə bayramı günü və prokurorluq orqanlarının yaranmasının 107-ci ildönümü ərəfəsində ənənəvi olaraq qan köçürülməsinə ehtiyac duyan vətəndaşlarımıza dəstək vermək məqsədilə 2025-ci il sentyabrın 19-da Baş Prokurorluğun mərkəzi aparatı, Baş prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsi, Hərbi prokurorluq, Naxçıvan Muxtar Respublikası Prokurorluğu, eləcə də rayon, şəhər prokurorluqları və ərazi hərbi prokurorluqlarının əməkdaşlarının iştirakı ilə könüllü qanvermə aksiyası keçirilib.

Azərbaycan Respublikası Səhiyyə Nazirliyi "Respublika Qan Bankı" publik hüquqi şəxsin birgə təşkilatçılığı ilə reallaşdırılan aksiyada ümumilikdə 204 nəfər prokurorluq əməkdaşı iştirak edib.







# Baş Prokurorluqda “Azərbaycan Respublikasının Konstitusiyası və Dövlət Suverenliyi” mövzusunda hüquq viktorinası keçirilib



2025-ci ilin “Konstitusiya və Suverenlik İli” elan edilməsi, həmçinin “Prokurorluq işçilərinin peşə bayramı günü və prokurorluq orqanlarının yaradılmasının 107-ci ildönümü” ilə əlaqədar olaraq sentyabrın 24-də Baş Prokurorluqda ali təhsil müəssisələrinin tələbə və kursantları arasında “Azərbaycan Respublikasının Konstitusiyası və Dövlət Suverenliyi” mövzusunda hüquq viktorinası təşkil olunub.

Tədbirdə 300-ə yaxın tələbə və kursant iştirak edib, qiymətləndirmə Baş Prokurorluğun əmək-daşlarından ibarət münsiflər heyəti tərəfindən aparılıb. Təhsil müəssisələrinin professor-müəllim heyətinin nümayəndələri də ekspert qismində prosesə cəlb olunub.

Nəticələr:

Komanda mərhələsi üzrə:

I yer – Daxili İşlər Nazirliyinin Polis Akademiyası

II yer – Dövlət Gömrük Komitəsi Akademiyası

III yer – Milli Aviasiya Akademiyası

Kapitan mərhələsi üzrə:

I yer – Mirzəzadə Cavid Ceyhun oğlu (Bakı Dövlət Universiteti), Gülnar Nəsirova (“ADA” Universiteti), İsgəndərli Firidun Səhman oğlu (Milli Aviasiya Akademiyası)

II yer – Quliyev Fuad Anar oğlu (Dövlət Təhlükəsizliyi Xidmətinin Heydər Əliyev adına Akademiyası)

III yer – Əsədli Afiq Anar oğlu (Qarabağ Universiteti)

Xüsusi nominasiyalar üzrə:

Naxçıvan Dövlət Universiteti – “Suverenlik və Müdafiə Qalası”

Fövqəladə Hallar Nazirliyi Akademiyası – “Xilasetmə və Dövlətçilik Qoruyucuları”

Heydər Əliyev adına Hərbi İnstitutu – “Dövlətçiliyin Qoruyucuları”

Viktorina çərçivəsində iştirakçılar və azarkeşlər Dövlət Təhlükəsizliyi Xidmətinin Heydər Əliyev adına Akademiyası və Heydər Əliyev adına Hərbi İnstitutunun gənclərinin vətənpərvərlik mövzusunda bədii ifalarını dinləyiblər.

Sonda bütün iştirakçılar sertifikatlarla təltif olunub.







## Azərbaycan Respublikasının Baş Prokurorluğuna hakimliyə namizədlərin təlim səfəri təşkil olunub

Azərbaycan Respublikası Məhkəmə-Hüquq Şurası və Ədliyyə Nazirliyinin Ədliyyə Akademiyası tərəfindən uzunmüddətli təlim proqramına cəlb edilmiş hakimliyə namizədlərin Azərbaycan Respublikasının Baş Prokurorluğuna təlim səfəri 2025-ci ilin 25 sentyabr tarixində təşkil olunub.

Səfər çərçivəsində Baş Prokurorluğun Elm-Tədris Mərkəzində iştirakçılara Baş Prokurorluğun tarixi inkişafı, qanunun aliliyinin təminində və ədalət mühakiməsinin həyata keçirilməsində oynadığı mühüm rol, habelə prokurorluq orqanlarının strukturu və fəaliyyətinin əsas prinsipləri barədə ətraflı məlumat verilib.

Daha sonra onlar Baş Prokurorluğun inzibati binasında yaradılmış şərait, Elm Tədris Mərkəzinin, o cümlədən kriminalistika laboratoriyası, istintaq hərəkətlərinin aparıldığı otaqlar, kitabxana, muzey və Vətən müharibəsinə həsr edilən tarixi-memorial qalereya ilə tanış olublar.









# Prokurorluq əməkdaşları uşaq və körpələr evlərini ziyarət edib




Prokurorluq orqanlarının yaradılmasının 107-ci ildönümü və 1 oktyabr – "Prokurorluq işçilərinin peşə bayramı günü" münasibətilə həyata keçirilən kompleks tədbirlərin davamı olaraq, 2025-ci il sentyabrın 26-da bir qrup prokurorluq əməkdaşı paytaxtın Nizami, Suraxanı və Xətai rayonlarında yerləşən uşaq və körpələr evlərini ziyarət edib.

Ziyarət zamanı prokurorluq əməkdaşları xüsusi qayğıya ehtiyacı olan, eləcə də valideyn himayəsindən məhrum uşaqlarla görüşərək onların mövcud problemləri, təlim-tədris prosesi və məişət şəraiti ilə maraqlanıblar. Həmçinin uşaqlara müxtəlif hədiyyələr və dərs ləvazimatları təqdim olunub, xatirə şəkilləri çəkilib.

Qeyd edək ki, bu qəbildən olan humanitar aksiyaların gələcəkdə də davam etdirilməsi nəzərdə tutulur.



# Prokurorluğun 107-ci ildönümünə həsr olunmuş interaktiv istintaq kvesti keçirilib



2025-ci il sentyabrın 26-da Azərbaycan Respublikası Baş Prokurorluğunun Elm-Tədris Mərkəzində prokurorluq orqanlarının yaradılmasının 107-ci ildönümü münasibətilə interaktiv istintaq kvesti təşkil olunub.

Tədbirin keçirilməsində əsas məqsəd prokurorluq orqanlarının istintaq fəaliyyətinin xüsusiyyətlərini tələbə gənclərə interaktiv və maarifləndirici formatda təqdim etmək, onların nəzəri biliklərini praktiki situasiyalarda tətbiq etməsinə imkan yaratmaq və istintaq prosesi ilə yaxından tanış olmalarını təmin etmək olub.



Kvestdə tərəfdaş ali təhsil müəssisələrini təmsil edən tələbə və kursantlardan ibarət 6 komanda – Bakı Dövlət Universiteti, Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyası, “ADA” Universiteti, Milli Aviasiya Akademiyası, Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin Polis Akademiyası və Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsinin Akademiyasının komandaları iştirak ediblər.

Komandalar xüsusi proqramlaşdırılmış virtual platforma üzərindən cinayət işinin müxtəlif mərhələlərinə aid istintaq hərəkətlərini – hadisə yerinə baxış, şahidlərin dindirilməsi, ekspertizaların təyin edilməsi və sorğuların göndərilməsi üzrə tapşırıqları icra ediblər.

Maraqlı və gərgin intellektual mübarizə şəraitində keçən tədbir gənclər tərəfindən böyük maraqla qarşılanıb. Prokurorluq orqanlarının maarifləndirici fəaliyyətinin və tələbələrin hüquqi biliklərinin təkmilləşdirilməsinə yönəlmiş innovativ təşəbbüslərin bariz nümunəsi olan kvestin nəticələrinə əsasən, Milli Aviasiya Akademiyasının komandası birinci yerə layiq görülüb. İkinci yeri Bakı Dövlət Universitetinin, üçüncü yeri isə Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin Polis Akademiyasının komandaları qazanıblar.

Sonda komandaların üzvlərinə sertifikatlar təqdim olunub, xatirə fotoşəkilləri çəkdirilib.





# Baş prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsində əməliyyat müşavirəsi keçirilib



2025-ci il iyulun 17-də Azərbaycan Respublikası Baş prokurorunun müavini - Baş prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsinin rəisi Nazim Rəcəbovun sədrliyi ilə Baş prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsində 2025-ci ilin birinci yarımili ərzində korrupsiyaya qarşı mübarizə sahəsində görülmüş işlərin vəziyyəti və qarşıda duran vəzifələrin müzakirəsinə həsr olunmuş əməliyyat müşavirəsi keçirilmişdir.

Müşavirəni giriş nitqi ilə açan Nazim Rəcəbov bildirib ki, hesabat dövründə Prezident cənab İlham Əliyevin siyasi kursunun əsas prioritetlərindən biri kimi korrupsiyaya qarşı mübarizə tədbirləri daha da gücləndirilmişdir. Bu sahədə ölkədə iqtisadiyyatın liberallaşdırılması, bürokratik maneələrin aradan qaldırılması, məmur-vətəndaş münasibətlərinin şəffaf və sağlam əsaslarla qurulması istiqamətində ardıcıl hüquqi və institusional islahatlar həyata keçirilmişdir.

Daha sonra Baş İdarə rəisi Nazim Rəcəbov hesabat dövrü ərzində Baş İdarədə baxılmış müraciətlər, cinayət xarakterli məlumatlar, həyata keçirilmiş əməliyyat və qabaqlayıcı tədbirlər, onların müsbət nəticələri, beynəlxalq təşkilatlar və qeyri-hökumət təşkilatları ilə qarşılıqlı əməkdaşlıq, Baş İdarədə başlanmış, ibtidai istintaqı tamamlanmış və məhkəmələrə göndərilmiş cinayət işləri, istintaq zamanı vurulmuş ziyanın ödənilməsi ilə əlaqədar görülmüş tədbirlər barədə olan statistik məlumatları müqayisəli şəkildə təhlil etməklə müşavirə iştirakçılarının diqqətinə çatdırmışdır.

Bildirilmişdir ki, qeyd olunan dövrdə Baş İdarə tərəfindən vətəndaşların 5713 müraciətinə baxılmışdır.

Bundan başqa, əlaqəli dövlət qurumları ilə birgə yerinə yetirilmiş tədbirlər nəticəsində vətəndaşlar tərəfindən "161-Qaynar xətt" əlaqə mərkəzinə daxil olmuş müraciətlərdən böyük əksəriyyətinin müsbət həll edilməsi təmin edilmiş, zəruri hallarda cinayət-hüquqi tədbirlər görülmüşdür.

Baş İdarə tərəfindən korrupsiyaya qarşı mübarizədə qabaqlayıcı tədbirlərin mühüm əhəmiyyəti nəzərə alınaraq, korrupsiya cinayətlərinə şərait yaradan halların aradan qaldırılması istiqamətində prokuror təsir tədbirlərinin tətbiqindən də müvafiq dövr ərzində istifadə edilmiş, yol verilmiş qanun pozuntularının səbəblərinin müəyyən edilməsi və gələcəkdə bir daha törədilməməsi üçün müxtəlif qurumlara 66 təqdimat göndərilmişdir. Təqdimatlara əsasən həmin qurumların bir sıra işçiləri intizam məsuliyyətinə cəlb edilmiş və bu kimi digər zəruri tədbirlərin görülməsi təmin olunmuşdur.

Əməliyyat qurumları tərəfindən 59 cinayət işi başlanmış, keçirilmiş 12 əməliyyat-axtarış tədbiri nəticəsində korrupsiya cinayəti törədən 10 şəxs cinayət başında yaxalanmış, habelə axtarışda olan 7 nəfər saxlanılmışdır.

Hesabat dövrü ərzində Baş İdarə tərəfindən 113 şəxs barəsində 72 cinayət işinin ibtidai istintaqı tamamlanmış, onlardan 85 şəxs barəsində 54 cinayət işi baxılması üçün məhkəmələrə göndərilmişdir. Məhkəmələrə göndərilmiş cinayət işlərinin mütləq əksəriyyəti üzrə ittiham hökmləri çıxarılmış, qalanları isə hazırda məhkəmə baxışındadır.

Hesabat dövrü ərzində istintaqı başa çatdırılmış cinayət işləri üzrə ümumilikdə özgə əmlakına vurulmuş 23 milyon 512 min 325 manat məbləğində maddi ziyandan 5 milyon 634 min 673 manatının ödənilməsi təmin olunmuşdur.

Zərərin ödənilməsi məqsədilə istintaqı başa çatdırılmış cinayət işləri üzrə 12 milyon 2 min 365 manat məbləğində əmlak üzərinə həbs qoyulması təmin olunmuşdur.

Nazim Rəcəbov həmçinin bildirib ki, hesabat dövründə Baş İdarənin beynəlxalq fəaliyyəti istiqamətində də mühüm nailiyyətlər əldə olunmuş, Azərbaycanın korrupsiyaya qarşı mübarizə sahəsində beynəlxalq nüfuzu və etimadı daha da artmışdır. Bu xüsusda may ayında Bakı şəhərində keçirilmiş Azərbaycan Respublikası Prokurorluğu və BMT-nin Korrupsiyaya qarşı Mübarizə üzrə Hüquq Mühafizə Orqanlarının Qlobal Əməliyyat Şəbəkəsinin (GlobE Network) birgə təşkilatçılığı ilə GlobE Şəbəkəsinin İdarəetmə Komitəsinin Onuncu Görüşü və Altıncı Plenar İclası Azərbaycan Prokurorluğunun qlobal antikorrupsiya platformalarında fəallığının və təşəbbüskarlığının növbəti təzahürü olmuşdur.

Müşavirədə Azərbaycan Respublikasının Baş prokuroru Kamran Əliyevin müvafiq göstərişləri də iştirakçılara çatdırılıb. Daxil olmuş müraciətlərinə baxılmasının nəticəsi barədə vətəndaşların dəqiq və dolğun şəkildə məlumatlandırılması, "161-Qaynar xətt" əlaqə mərkəzinin fəaliyyətinin daha da gücləndirilməsi, korrupsiyaya daha çox məruz qalan sahələr üzrə davamlı təhlillərin aparılması istiqamətlərində işlərin davam etdirilməsinin vacibliyi xüsusi qeyd olunub.

Əməliyyat müşavirəsinin sonunda Nazim Rəcəbov vurğulayıb ki, əməliyyat-axtarış tədbirlərinin həyata keçirilməsinə nəzarət daimi diqqətdə saxlanılmalı, cinayət işlərinin istintaqı zamanı vurulmuş maddi ziyanın ödənilməsi, əmlakın bərpası və qətimkan tədbirlərinin səmərəli tətbiqinə xüsusi önəm verilməlidir. O, bu kimi məsələlər ətrafında aparılan geniş təhlillərdən sonra qarşıdakı dövr üçün müvafiq tapşırıq və tövsiyələrini müşavirə iştirakçılarına verib.

# Hərbi prokuror Naxçıvanda görüş keçirib



2025-ci il iyulun 4-də Azərbaycan Respublikası Baş prokurorunun müavini - hərbi prokuror ədliyyə polkovniki Bəhruz Əhmədov Daxili İşlər Nazirliyinin Daxili Qoşunlarının komandanının müavini general-mayor İnqilab Muradovla birlikdə Hərbi Prokurorluğun rəhbər vəzifəli şəxslərinin və Daxili Qoşunların yüksəkrütbəli hərbi qulluqçularının iştirakı ilə Daxili Qoşunların Naxçıvanda qulluq edən hərbi qulluqçuları ilə görüşüblər.

Keçirilən tədbirdən öncə Ümummilli Lider Heydər Əliyevin abidəsi və şəhidlərimizin şərəfinə yaradılmış guşə ziyarət edilib, aziz və unudulmaz xatirələri bir dəqiqəlik sükutla anılıb.

Görüşdə Dövlət Himni səsləndirilib, iştirakçılara Baş Prokurorluğun rəhbərliyinin tövsiyələri çatdırılıb.

Çıxışlarda dövlətimizin başçısı, Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi, Birinci vitse-prezident Mehriban Əliyevanın dəstəyi və xalqın əzmkarlığı ilə əldə olunan uğurlardan, o cümlədən qüdrətli Silahlı Qüvvələrin formalaşdırılmasından danışılıb.

Daha sonra hərbi qulluqçular qarşısında hüquqi maarifləndirici məzmunlu çıxışlar olub, onları maraqlandıran suallar cavablandırılıb. Həmçinin hərbçilərin məişət və xidmət şəraiti, eləcə də, qayğı və problemləri ilə bağlı fikirləri dinlənilib.

Sonda xidmətdə fərqlənən hərbi qulluqçulara hədiyyələr təqdim edilib.



# Hərbi Prokurorluq: Birinci yarımildə qeydə alınmış cinayətlər ötən ilin müvafiq dövrü ilə müqayisədə 10 faiz azalıb



17 iyul 2025-ci il tarixində Azərbaycan Respublikasının Hərbi Prokurorluğunda cinayətkarlığa qarşı mübarizə, qanunçuluq və hüquq qaydasının möhkəmləndirilməsi, insan və vətəndaş hüquq və azadlıqlarının qorunması sahəsində 2025-ci ilin birinci yarımili ərzində görülmüş işlərin vəziyyətinin və qarşıda duran vəzifələrin müzakirəsinə həsr olunmuş geniş kollegiya iclası keçirilib.

Bildirilib ki, əvvəlcə Hərbi Prokurorluğun inzibati binasında yerləşən "Heydər Əliyev guşəsi"ndə Ulu Öndərin büstü önünə gül dəstələri düzülərək, tarixi şəxsiyyətin parlaq xatirəsinə dərin ehtiram ifadə olunub.

Kollegiya iclası başlamamışdan öncə iştirakçılar Ümummilli Lider Heydər Əliyevin və canlarını Vətən uğrunda fəda etmiş bütün şəhidlərin əziz və unudulmaz xatirəsini bir dəqiqəlik sükutla yad edib, qazilərə şəfa diləyiblər.

Hesabat məruzəsi ilə çıxış edən Baş prokurorunun müavini – Azərbaycan Respublikasının Hərbi prokuroru, ədliyyə polkovniki Bəhruz Əhmədov, əvvəlcə, dünya şöhrətli siyasətçi, müasir Azərbaycanın memarı və qurucusu Heydər Əliyevin mükəmməl siyasətini dövrün tələbləri ilə uzlaşdıraraq yeni müstəvidə yüksək məharətlə davam etdirən Prezident İlham Əliyevin rəhbərliyi ilə son 22 ilə yaxın müddət ərzində ölkəmizdə bütün sahələrdə əldə olunmuş böyük uğurlardan, o cümlədən 2025-ci ilin birinci yarımili ərzində də ölkəmizin qüdrətlənməsi və əhalinin rifahının yaxşılaşdırılması prosesinin davamlılığının təmin olunmasından bəhs edib. Bəhruz Əhmədov qeyd edib ki, əldə olunan uğurlarda Birinci vitse-prezident Mehriban Əliyevanın çoxşaxəli fəaliyyəti mühüm əhəmiyyət kəsb etməkdədir.

Hərbi prokuror bildirib ki, ötən illərdə olduğu kimi, 2025-ci ilin birinci yarımilində də Baş prokuror, I dərəcəli dövlət ədliyyə müşaviri Kamran Əliyevin rəhbərliyi ilə prokurorluğun, o cümlədən hərbi prokurorluğun uğurları davamlı hal alıb, Hərbi Prokurorluq orqanlarının fəaliyyəti səmərəli olmaqla Silahlı Qüvvələrdə nizam-intizamın davamlılığına, cinayətkarlığın və digər hüquqazidd əməllərin qarşısının alınmasına, qanunçuluq və hüquq qaydasının möhkəmləndirilməsinə, insan və vətəndaş hüquq və azadlıqlarının qorunmasına yönəldilib. Vurğulanıb ki, cinayət işlərinin başlanmasının qanuniliyinə və əsaslılığına xüsusi diqqət yetirilməsi, icraatda olan işlər üzrə bütün halların hərtərəfli, tam və obyektiv araşdırılması istiqamətində həyata keçirilmiş fəaliyyət, düzgün qurulmuş istintaq metodikası və taktikası, səriştəli aparılan istintaq



hərəkətləri, tələb edilən səviyyədə prosessual rəhbərlik, eləcə də, işçilərin peşəkarlığı və əzmi sayəsində qeydə alınmış cinayətlərin ümumilikdə 99,2 faizi açılıb.

Ədliyyə polkovniki Bəhruz Əhmədov qeyd edib ki, insan hüquq və azadlıqlarının daha etibarlı müdafiəsi, nizam-intizamın və qanunçuluğun möhkəmləndirilməsi, eləcə də, cinayətkarlığa qarşı mübarizə istiqamətində əldə olunan müsbət nəticələrdə Hərbi Prokurorluq orqanları ilə Müdafiə Nazirliyi, Dövlət Sərhəd Xidməti, Daxili Qoşunlar və digər hərbi qurumlar, həmçinin qeyri-hökumət təşkilatları arasında yaranmış qarşılıqlı sağlam və işgüzar əlaqələrin də çox böyük əhəmiyyəti olub. Belə ki, hər il olduğu kimi, 2025-ci ilin birinci yarımilində də aidiyyəti dövlət orqanları ilə birgə hazırlanmış müvafiq tədbirlər planları əsasında mütəmadi olaraq hərbi qulluqçularla görüşlər təşkil olunub, onların qayğı və problemləri ilə maraqlanılıb, həmçinin fərdi qəbullar keçirilib. Eyni zamanda, bayramlarda və digər əlamətdar günlərdə hərbi hissələrin dislokasiya olunduğu müvafiq rayonların icra hakimiyyəti orqanları ilə birgə hərbi qulluqçuların iştirakı ilə tədbirlər, o cümlədən bayram mərasimləri keçirilib və xidmətdə fərqlənənlərə hədiyyələr təqdim olunub. Qeyd edilənlərlə bərabər, Silahlı Qüvvələrdə ayrı-ayrı, xüsusən də ölümlə nəticələnən cinayətlərin qarşısının alınması məqsədilə, hər zaman olduğu kimi, hesabat dövründə də məhkəmə və istintaq təcrübəsi ümumiləşdirilərək, müxtəlif vaxtlarda Respublika Hərbi Prokurorluğunun kollegiya iclaslarında silahlı birləşmələrin rəhbər vəzifəli şəxslərinin iştirakı ilə müzakirə edilib, kollegiyaların qərarlarına əsasən zəruri tədbirlərin görülməsi təmin olunub. Sözügedən istiqamətdə səmərəliliyi artırmaq məqsədilə aidiyyəti dövlət qurumları ilə birgə bir sıra digər işlər də görülüb.

Bütün bunların nəticəsində də hesabat dövründə qeydə alınmış cinayətlər ötən ilin birinci yarımili ilə müqayisədə ümumilikdə 10 faiz, qeyri-hərbi cinayətlər 2,5 faiz, hərbi xidmət əleyhinə olan cinayətlər isə 18,6 faiz azalıb.

Eyni zamanda, 2024-cü ilin birinci yarımili ilə müqayisədə, 2025-ci ilin birinci yarımilində qeydə alınmış hərbi xidmətdən yayınma cinayətləri ümumilikdə 43,9, o cümlədən hərbi xidmət vəzifələrinin icrasından boyun qaçırma cinayətləri 36,4, hərbi hissəni və ya xidmət yerini özbaşına tərketmə cinayətləri 45,3, fərarilik cinayətləri 70, eləcə də, vəzifə səlahiyyətlərindən sui-istifadə və ya vəzifə səlahiyyətlərini aşma cinayətləri 52,9, yol hərəkəti və nəqliyyat vasitələrinin istismarı qaydalarını pozma cinayətləri 18,2, özünüöldürmə həddinə çatdırma cinayətləri 50 faiz azalıb, qəsdən adamöldürmə və qəsdən sağlamlığa ağır zərərvurma cinayətləri isə ümumiyyətlə qeydə alınmayıb.

Sonra məruzə ətrafında çıxışlar olub. Çıxışçılar hesabat dövründə görülmüş işlərdən danışıb, qarşıda duran vəzifələrin yerinə yetirilməsi üçün həyata keçiriləcək tədbirlər barədə ətraflı məlumat veriblər.

İclasda, həmçinin hesabat dövrü ərzində görülmüş müsbət işlərlə yanaşı, “Prokurorluq haqqında” Qanunda nəzərdə tutulmuş fəaliyyət istiqamətləri üzrə işin səmərəliliyinə mənfi təsir göstərən hallar da ətraflı təhlil olunmaqla, onların aradan qaldırılması üçün zəruri tədbirlərin görülməsi, işin effektivliyinin daim artırılması tələb edilib.

Kollegiya iclasına yekun vuran Hərbi prokuror Bəhruz Əhmədov bildirib ki, Hərbi Prokurorluğun kollektivi Silahlı Qüvvələrdə hərbi intizamın, qanunçuluğun və hüquq qaydasının daha da möhkəmləndirilməsi istiqamətindəki fəaliyyətinin səmərəliliyini daim artıracaq, insan hüquq və azadlıqlarının etibarlı müdafiəsində, cinayətkarlığa və digər qanun pozuntularına qarşı mübarizədə üzərinə düşən bütün vəzifələri ləyaqətlə yerinə yetirəcək.

## Hərbi prokuror DSX-nin çətin relyefdə qulluq edən hərbi qulluqçuları ilə görüşüb



18 iyul 2025-ci il tarixində Azərbaycan Respublikası Baş prokurorunun müavini - Hərbi prokuror ədliyyə polkovniki Bəhruz Əhmədovun Hərbi Prokurorluğun rəhbər vəzifəli şəxslərinin iştirakı ilə Dövlət Sərhəd Xidmətinin (DSX) çətin relyefdə qulluq edən hərbi qulluqçuları ilə görüşü keçirilib.

Tədbirdən əvvəl Ümummilli Lider Heydər Əliyevin abidəsi və şəhidlərimizin şərəfinə yaradılmış guşə ziyarət olunub. Ulu Öndərin və şəhidlərin əziz, unudulmaz xatirələri bir dəqiqəlik sükutla yad edilib.

Sonra tədbirdə Dövlət Himni səsləndirilib, Baş Prokurorluğun rəhbərliyinin tövsiyələri iştirakçılara çatdırılıb.

Çıxışçılar sərhədçilərin peşə bayramını təbrik ediblər. Həmçinin onlar Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi, Birinci vitse-prezident Mehriban Əliyevanın dəstəyi və xalqın əzmi ilə əldə olunan uğurlardan, eləcə də qüdrətli Silahlı Qüvvələrin, o cümlədən DSX-nin formalaşdırılmasından, 44 günlük Vətən müharibəsində qazanılan Qələbədən bəhs ediblər.

Daha sonra hərbi qulluqçular qarşısında hüquqi maarifləndirici məzmunda çıxışlar olub, onları maraqlandıran suallar cavablandırılıb. Eyni zamanda, hərbi qulluqçuların məişət və xidmət şəraiti, eləcə də, qayğı və problemləri ilə bağlı fikirləri dinlənilib.

Sonda xidmətdə fərqlənən hərbi qulluqçulara bayram münasibətilə hədiyyələr təqdim edilib.

## Hərbi Prokurorluqda “962” Etimad xətti yaradılıb




Prokurorluq orqanlarının fəaliyyətində operativliyin təmin edilməsi və vətəndaşların məmnunluq səviyyəsinin yüksəldilməsi istiqamətində mütəmadi olaraq işlər görülməkdədir.

20 avqust 2025-ci il tarixində həyata keçirilən tədbirlərin davamı kimi Baş prokurorun tapşırıq və tövsiyələri əsasında Hərbi prokurorun təşəbbüsü və rəhbərliyi ilə Hərbi Prokurorluqda aparılan köklü və intensiv islahatlar çərçivəsində "962" Etimad xətti yaradılıb.

Məqsəd Silahlı Qüvvələrdə korrupsiyaya qarşı mübarizə və ona şərait yaradan halların aradan qaldırılmasını, şəffaflığın artırılmasını, hərbi qulluqçular və onların ailə üzvləri ilə Hərbi Prokurorluq arasındakı etimadın möhkəmləndirilməsini, cinayətkarlığa və digər qanun pozuntularına qarşı tədbirlərin çevikliyini, vətəndaşların hüquqlarının daha etibarlı müdafiəsini, eləcə də müraciət imkanının asanlaşdırılmasını, bir sözlə, istənilən neqativ halın və ağır nəticənin vaxtında qarşısının alınmasını təmin etməkdir.

Bildirilib ki, aşkarlığın, əlçatanlığın və operativliyin təmin edilməsi məqsədilə müasir informasiya-kommunikasiya texnologiyalarından istifadə edilməklə səs yazıları qeydə alınacaq və xətt fasiləsiz fəaliyyət göstərəcək Müraciətlərin qeydə alınması və cavablandırılması respublikanın istənilən regionundan stasionar telefonlar, eləcə də mobil operatorlar vasitəsilə ödənişsiz həyata keçiriləcək.

# Hərbi prokuror Heydər Əliyev adına Hərbi İnstitutun kursantları ilə görüşüb



Cari ilin sentyabrın 27-də Anım Günü ilə əlaqədar Hərbi Prokurorluqda Hərbi Prokurorluğun və Heydər Əliyev adına Hərbi İnstitutun rəhbərliyinin iştirakı ilə həmin təhsil müəssisəsinin kursantları ilə birlikdə tədbir keçirilib.

Əvvəlcə Hərbi Prokurorluğun inzibati binasında yerləşən "Heydər Əliyev guşəsi"ndə Ulu Öndər Heydər Əliyevin büstü önünə gül dəstələri düzülərək, dahi şəxsiyyətin xatirəsinə dərin ehtiram ifadə olunub.

Ardınca Hərbi Prokurorluğun nəzdində fəaliyyət göstərən "Soyqırımı" memorial muzeyi ziyarət edilib.

Tədbir Ulu Öndər Heydər Əliyevin və ölkəmizin müstəqilliyi və ərazi bütövlüyü uğrunda canlarını fəda etmiş şəhidlərin əziz və unudulmaz xatirələrinin bir dəqiqəlik sükutla yad edilməsi ilə başlayıb.

Tədbirdə çıxış edən Baş prokurorun müavini - hərbi prokuror ədliyyə polkovniki Bəhruz Əhmədov bildirib ki, müasir Azərbaycanın memarı və qurucusu Ümummilli Lider Heydər Əliyevin müdrik siyasətini zamanın tələblərinə uyğun şəkildə uğurla davam etdirən Prezident İlham Əliyevin dərin düşüncəsi və yorulmaz fəaliyyəti ilə xalqın müdrikliyinin və əzmkarlığının vəhdəti sayəsində dünyada baş verən neqativ proseslərə rəğmən, dövlətimiz qüdrətlənir, işğaldan azad olunmuş ərazilərimiz də daxil olmaqla, regionlarımız hərtərəfli inkişaf edir. Qazanılan ardıcıl uğurlara Birinci vitse-prezident Mehriban Əliyevanın çoxşaxəli və zəngin fəaliyyəti mühüm töhfələr verir.

Ölkəmizin sürətli inkişafının Silahlı Qüvvələrin qüdrətlənməsinə də səbəb olduğunu deyən Hərbi prokuror diqqətə çatdırıb ki, Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyevin yüksək diqqət və qayğısı sayəsində müasir tələblərə tam cavab verən, istənilən döyüş tapşırığını ən yüksək səviyyədə yerinə yetirməyə qadir olan Azərbaycan Silahlı Qüvvələri formalaşıb. Bu da hərbi uğurlarımızı şərtləndirib. Nəticədə düşmənin 2020-ci il sentyabrın 27-dən başlayaraq törətdiyi növbəti təxribatların qarşısının alınması, eləcə də antiterror əməliyyatları zamanı müdrik və qətiyyətli Ali Baş Komandanın rəhbərliyi ilə Azərbaycan Silahlı Qüvvələri öz gücünü, qüdrətini, hərbçilərimiz isə peşəkarlığını və yüksək döyüş hazırlığını əyani şəkildə sübut edib, Zəfər təmin olunub.

Digər çıxış edənlər də Vətən müharibəsindən, Müzəffər Ali Baş Komandanın rəhbərliyi ilə əldə olunan tarixi Qələbədən bəhs ediblər. Eyni zamanda, çıxışçılar hərbçilərə göstərilən diqqət və qayğıya görə Hərbi prokurora və prokurorluğun kollektivinə təşəkkür ediblər.

Sonda Hərbi prokuror Bəhruz Əhmədov təhsil göstəriciləri yüksək olan kursantlara hədiyyələr təqdim edib.



## Hərbi Prokurorluqda milli prokurorluq orqanlarının yaradılmasının 107-ci ildönümünə həsr olunmuş tədbir keçirilib



Cari ilin sentyabrın 30-da Azərbaycan Respublikası Hərbi Prokurorluğunun mərkəzi aparatında Respublika Hərbi Prokurorluğunun, Bakı Hərbi Prokurorluğunun əməkdaşlarının və prokurorluğun veteranlarının, eləcə də media nümayəndələrinin iştirakı ilə milli prokurorluq orqanlarının yaradılmasının 107-ci ildönümünə həsr olunmuş mərasim keçirilib.

Tədbir iştirakçıları əvvəlcə Hərbi Prokurorluğun inzibati binasında yerləşən "Heydər Əliyev guşəsi"ndə Azərbaycan xalqının Ümummilli Liderinin büstü önünə gül dəstələri düzərək, dünyaşöhrətli şəxsiyyətin əziz və unudulmaz xatirəsinə dərin ehtiramlarını ifadə ediblər.

Mərasim iştirakçıları ölkəmizin ərazi bütövlüyü uğrunda canlarını fəda etmiş şəhidlərimizin əziz və unudulmaz xatirəsini bir dəqiqəlik sükutla anıb, yaralılara şəfa diləyiblər.

Azərbaycan Respublikası baş prokurorunun müavini - Azərbaycan Respublikasının Hərbi prokuroru, ədliyyə general-mayoru Bəhruz Əhmədov prokurorluq əməkdaşlarını, prokurorluğun veteranlarını, o cümlədən mərasim iştirakçılarını 1 oktyabr - prokurorluq işçilərinin peşə bayramı günü münasibətilə təbrik edərək onlara xoş arzularını çatdırıb.

Bildirilib ki, Azərbaycan prokurorluq orqanları 80 il ərzində dövlətin etibarlı sütunlarından biri kimi fəaliyyət göstərsə də, prokurorluq işçilərinin peşə bayramının qeyd edilməsi ilə əlaqədar dövlət səviyyəsində heç bir təşəbbüs göstərilməyib, bununla əlaqədar hər hansı rəsmi tədbir görülməyib. Məhz Ulu Öndər Heydər Əliyevin 1998-ci il iyulun 17-də imzaladığı Sərəncamla 1 oktyabr - prokurorluq işçilərinin peşə bayramı gününün təsis edilməsi tarixi ədalətin bərpa olunması ilə yanaşı, hakimiyyət orqanları arasında xüsusi yeri olan prokurorluğa dövlət səviyyəsində göstərilən qayğının ifadəsi və onun roluna rəsmi münasibətin təzahürü olub.

Ümummilli Lider Heydər Əliyevin Azərbaycanın firavan gələcəyinə hesablanmış mükəmməl siyasətini dövrün tələblərinə uyğun yeni müstəvidə davam etdirən Azərbaycan Prezidenti İlham Əliyevin rəhbərliyi ilə ölkəmizdə bütün sahələrdə əldə olunmuş böyük uğurlardan və görülən müstəsna işlərdən, dövlətimizin daha da qüdrətlənməsindən bəhs edilərək vurğulanıb ki, qazanılan uğurlara Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban xanım Əliyevanın çoxşaxəli fəaliyyəti misilsiz töhfələr verir.

Prokurorluğa, o cümlədən Hərbi Prokurorluğa dövlət səviyyəsində göstərilən diqqət və qayğıdan bəhs edən Bəhruz Əhmədov bunun işin səmərəliliyini şərtləndirdiyini qeyd edərək, Baş prokuror Kamran Əliyevin rəhbərliyi ilə prokurorluğun uğurlu fəaliyyətindən danışıb.

Sonda xidməti vəzifələrini nümunəvi icra etdiklərinə görə mükafatlandırılmış prokurorluq əməkdaşlarının bir qisminə Hərbi prokuror tərəfindən təltiflər, prokurorluğun bir qrup veteranlarına isə hədiyyələr təqdim olunub.



## Naxçıvan Muxtar Respublikası Prokurorluğunda "Açıq Qapı" günü keçirilib

Cari ilin sentyabr ayının 24-də Naxçıvan Muxtar Respublikası Prokurorluğunda Naxçıvan Dövlət Universitetinin Hüquq fakültəsinin tələbələri üçün prokurorluq işçilərinin peşə bayramı günü və prokurorluq orqanlarının yaradılmasının 107-ci ildönümü ilə əlaqədar "Açıq Qapı" günü keçirilib.



Tədbir çərçivəsində Muxtar Respublika Prokurorluğun əməkdaşları: baş ədliyyə müşaviri Faiq Səfərov, baş ədliyyə müşaviri Anar Məmmədov, kiçik ədliyyə müşaviri Turqay Həşimli və ədliyyə müşaviri Pərvanə Hüseynova tələbələrə prokurorluq orqanlarının yaranma tarixi, Prokurorlugun inkişafında Ümummilli Lider Heydər Əliyevin əvəzsiz rolu və töhfələri barədə ətraflı məlumatlar veriblər.

Həmçinin, müasir prokurorluğun formalaşması və inkişafı istiqamətində ölkə Prezidenti cənab İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən islahatlardan, prokurorluğun fəaliyyət istiqamətləri, struktur qurumları və eləcə də Elektron Prokurorluq İnformasiya Sistemi (EPİS) barədə ətraflı məlumat verilib, tələbələri maraqlandıran çoxsaylı sualları cavablandırıblar.

Sonra isə şərti hadisə yerinə baxış zamanı hadisə yerinin müayinə üsulları, hadisə yerində olan dəlillərin rəsmiləşdirilməsi, üzərində aşkar olunan əl-barmaq və digər izlərinin fiksasiya edilməsi, götürülməsi və rəsmiləşdirilməsi qaydası, həmçinin canlı şəxsin əl-barmaq izlərinin götürülməsi və intihar hadisəsi ilə bağlı hadisə yerinin və meyitin müayinəsi əyani olaraq tələbələrə izah olunub. Prokurorluğun inzibati binası ilə tanışlıqdan sonra iştirakçılarla xatirə fotoşəkili çəkilib.





# Naxçıvan Muxtar Respublikası Prokurorluğunda əməliyyat müşavirəsi keçirilib



Cari ilin iyul ayının 14-də Naxçıvan Muxtar Respublikası prokurorunun rəhbərliyi ilə Muxtar Respublika Prokurorluğunun mərkəzi aparatı və tabe rayon (şəhər) prokurorluqlarının əməkdaşlarının iştirakı ilə 2025-ci ilin birinci yarımili ərzində görülən işlərin müzakirəsinə dair əməliyyat müşavirəsi keçirilib.

Müşavirə iştirakçıları tərəfindən öncə Ümummilli Lider Heydər Əliyevin və Azərbaycanın Respublikasının ərazi bütövlüyü və suverenliyi uğrunda canlarından keçmiş şəhidlərimizin ruhu bir dəqiqəlik sükutla yad edilib.

Giriş nitqi ilə çıxış edən Naxçıvan Muxtar Respublikasının prokuroru, III dərəcəli dövlət ədliyyə müşaviri Sənan Paşayev müasir prokurorluq orqanlarının formalaşmasında və inkişafında Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin müstəsna xidmətlərindən, eləcə də Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin prokurorluq orqanlarına diqqət və qayğısından bəhs etmişdir.

Sonra Muxtar Respublikada cinayətkarlığa qarşı mübarizə, ədalət mühakiməsinin həyata keçirilməsində iştirak, qanunların icra və tətbiq olunmasına nəzarət və qanunla müəyyən edilmiş digər sahələrdə görülmüş işlərin vəziyyəti, əldə olunmuş nailiyyətlər, yol verilmiş nöqsanlar müzakirə edilmişdir.

Naxçıvan Muxtar Respublikasının prokuroru 2025-ci ilin I yarımili ərzində prokurorluq və digər hüquq-mühafizə orqanlarının istintaq, təhqiqat və əməliyyat orqanları tərəfindən görülmüş işlərin vəziyyəti barədə ətraflı məruzə ilə çıxış edərək ötən ilin müvafiq dövrü ilə müqayisədə muxtar respublikada qeydə alınmış cinayət hadisələrinin sayının əsasən sabit qaldığını, daxili işlər, eləcə də dövlət təhlükəsizlik orqanları ilə birgə səmərəli əməkdaşlıq nəticəsində cinayətlərin açılmasının 97% təşkil etdiyini qeyd edərək, həm prokurorluq, həm də digər hüquq-mühafizə orqanlarında təhqiqat və istintaqın keyfiyyətinin daha da artırılması istiqamətində zəruri tədbirlərin görülməsinin vacibliyini vurğulamışdır.

Müşavirədə qeyd olunmuşdur ki, Naxçıvan Muxtar Respublikasının prokurorluq orqanlarında müraciətlərə baxılması işinin keyfiyyətcə yeni səviyyəyə qalxması, müraciətlərə baxılması prosesi üzərində nəzarətin gücləndirilməsi, hüquqi təbliğat və profilaktiki söhbətlər nəticəsində 2024-cü ilin birinci yarımili ilə müqayisədə 2025-ci ilin müvafiq dövründə daxil olan müraciətlərin sayı azalmışdır və bundan sonra da vətəndaşların müraciətlərinə həssaslıqla yanaşılması, davamlı olaraq bu sahədə profilaktiki tədbirlərin həyata keçirilməsi diqqətdə saxlanılmalıdır.

Həmçinin, müşavirədə çıxış edən Muxtar Respublika prokurorunun müavini ədliyyə müşaviri Amil Rəhimov prokurorluq və digər hüquq-mühafizə orqanlarının istintaq və təhqiqat qurumlarında cinayət işləri və araşdırma materialları üzrə səmərəliliyin və keyfiyyətin artırılması istiqamətində bütün zəruri tədbirlərin görüləcəyini bildirib.

Məruzə ətrafında çıxışlar və müzakirələrdən sonra əməliyyat müşavirəsinə yekun vuran Naxçıvan Muxtar Respublikasının prokuroru Sənan Paşayev muxtar respublikanın prokurorluq orqanlarının bundan sonra da digər hüquq-mühafizə orqanları ilə əlaqəli şəkildə üzərlərinə düşən vəzifələri layiqincə yerinə yetirəcəyinə əminliyini ifadə edib.

# Naxçıvan Muxtar Respulikası Pokurorluğunun təşkilatçılığı ilə kiberhücumlara qarşı mübarizə və təhlükəsizlik tədbiləri ilə bağlı tədbirlər davam etdrilir





Kibercinayətkarlıq hallarının artması məqsədilə Naxçıvan Muxtar Respulikası Prokurorluğunun təşkilatçılığı Naxçıvan MR Daxili İşlər Nazirliyi, Azərbaycan Respublikası Mərkəzi Bankının Naxçıvan MR İdarəsinin və Naxçıvan Dövlət Universitetinin aidiyyəti əməkdaşlarının iştirakı ilə 04.07.2025-ci il tarixdə Naxçıvan MR Dövlət Arxiv İdarəsində, 09.07.2025-ci il tarixdə Naxçıvan MR Qida Təhlükəsizliyi Agentliyində, 29.07.2025-ci il tarixdə Naxçıvan MR Dövlət Şəhərsalma və Arxitektura Komitəsində, 28.08.2025-ci il tarixdə isə Naxçıvan MR Dövlət Statistika Komitəsində müvafiq maarifləndirmə tədbirləri keçirilib.

Keçirilən tədbirlərdə Prokurorluğun Hüquqi təminat və insan hüquqları məsələləri şöbəsinin rəisi, baş ədliyyə müşaviri Faiq Səfərov, Daxili İşlər Nazirliyinin Cinayət-axtarışı idarəsinin Kibercinayətkarlıqla Mübarizə bölməsinin baş əməliyyat müvəkkili polis kapitanı Əli Qasımlı, Təlimçilər: Azərbaycan Respublikası Mərkəzi Bankının Naxçıvan Muxtar Respublikası İdarəsinin Maliyyə bazarı iştirakçılarının hüquqlarının müdafiəsi bölməsinin rəhbəri Mərhəmət Bayramov və Naxçıvan Dövlət Universitetinin İnformasiya texnologiyaları şöbəsinin müdiri Hüseyn Əsgərli mövzu ilə bağlı slaytlar vasitəsi ilə iştirakçılara məlumat verərək sualları cavablandırıblar.





# Naxçıvan Dövlət Universitetində “Gələcək peşəm: prokuror” adlı tədbir keçirilib

2025-ci il sentyabr ayının 30-da Naxçıvan Dövlət Universitetində Naxçıvan Muxtar Respublikası Prokurorluğu əməkdaşlarının iştirakı ilə “Gələcək peşəm: prokuror” adlı panel müzakirə keçirilib.

Panel müzakirənin moderatoru Naxçıvan Dövlət Universitetin hüquqşünası Nurtən Həsənova, qonaqları isə Naxçıvan Muxtar Respublikası Prokurorluğunun əməkdaşları: baş ədliyyə müşaviri Faiq Səfərov, kiçik ədliyyə müşaviri Turqay Həşimli və III dərəcəli hüquqşünas Gülçin İsgəndərova olub.

Panel müzakirədə çıxış edən prokurorluq əməkdaşları Prokurorluğun dövlət təsisatları sistemindəki yeri və rolu, Azərbaycan Prokurorluğunun yaranma tarixi və inkişaf mərhələləri, Prokurorluğa Ulu Öndər Heydər Əliyev qayğısı, Prokurorluğun müasirləşdirilməsi istiqamətində dövlət başçısı cənab İlham Əliyev tərəfindən həyata keçirilən tədbirlər, Prokurorluğun fəaliyyət istiqamətləri və fəaliyyətinin əsas prinsipləri, prokurorluğa işə qəbul qaydaları və praktikada yaranan məsələlərlə bağlı çıxışlar ediblər.

Daha sonra tədbir tələbələrin sualları ilə davam edib. Naxçıvan Dövlət Universitetinin hüquqşünaslıq ixtisasının tələbələri prokurorluğun hüquq-mühafizə orqanları sistemində yeri, cinayət-prosessual qanunvericiliyin tətbiqinin aktual problemləri, prokurorluq orqanlarına qəbul olmaq üçün meyarlar barədə panel çıxışçılarına sualları ünvanlayıb, müzakirələr ediblər.



# Naxçıvan Muxtar Respublikası Prokurorluğu tərəfindən Muxtar Respublikanın mərkəzi və yerli icra hakimiyyəti orqanlarında "Ümummilli Lider Heydər Əliyev müstəqil Azərbaycan Konstitusiyasının müəllifidir" mövzusunda tədbirlər keçirilib





Azərbaycan Respublikası Konstitusiyasının hüquqi və tarixi əhəmiyyəti və dövlət suverenliyimizin mahiyyətinin izah olunması məqsədilə Naxçıvan Muxtar Respublikası Prokurorluğunun təşkilatçılığı Naxçıvan Muxtar Respublikasının İnsan Hüquqları üzrə Müvəkkili (Ombudsman) və Naxçıvan Dövlət Universiteti ilə birlikdə Naxçıvan Muxtar Respublikasının yerli icra hakimiyyəti orqanlarında, ali və orta-ixtisas təhsili müəssisələrində "Ümummilli Lider Heydər Əliyev müstəqil Azərbaycan Konstitusiyasının müəllifidir" mövzusunda 21.07.2025-ci il tarixdə Sədərək rayon Mədəniyyət evində, 22.09.2025-ci il tarixdə Naxçıvan Şəhər İcra Hakimiyyətinin böyük akt zalında, 03.10.2025-ci il tarixdə isə Naxçıvan Muxtar Respublikasının Gənclər və İdman Nazirliyində müvafiq tədbirlər keçirilib.

Tədbir iştirakçıları əvvəlcə Ulu Öndər Heydər Əliyevin abidəsini ziyarət edərək, rayon (şəhər) Mədəniyyət evlərində tədbirləri davam etdilər. Tədbirdə Ulu Öndərin və şəhidlərin xatirəsi yad edilərək Dövlət himni






səsləndirilmişdir. Yerli icra hakimiyyətləri başçılarının müavinləri, Yeni Azərbaycan Partiyası rayon (şəhər) təşkilatlarının sədrləri, Naxçıvan Muxtar Respublikası Prokurorluğunun şöbə rəisi, baş ədliyyə müşaviri Faiq Səfərov, Naxçıvan Dövlət Universitetinin və Naxçıvan Muxtar Respublikası İnsan Hüquqları üzrə Müvəkkil (Ombudsman) Təsisatının əməkdaşları çıxış etmişlər. Şagirdlərin bədii qiraətindən sonra Naxçıvan televiziyasının hazırladığı film nümayiş etdirilib.

## Naxçıvan Muxtar Respublikası Prokurorluğunun rəhbər heyəti və əməkdaşları 1 oktyabr – "Prokurorluq işçilərinin peşə bayramı günü" münasibəti ilə Ümummilli Lider Heydər Əliyevin abidəsini və Şəhidlər xiyabanını ziyarət edib



Naxçıvan Muxtar Respublikası Prokurorluğunun rəhbər heyəti və əməkdaşları 1 oktyabr – "Prokurorluq işçilərinin peşə bayramı günü" münasibəti ilə Ümummilli Lider Heydər Əliyevin abidəsini və Şəhidlər xiyabanını ziyarət edib.

Milli prokurorluq orqanlarının yaradılmasının 107-ci ildönümü və "Prokurorluq işçilərinin peşə bayramı günü" münasibətilə oktyabrın 1-də Naxçıvan Muxtar Respublikası prokuroru Sənan Paşayev və prokurorluğun şəxsi heyəti Ümummilli Lider Heydər Əliyevin Naxçıvan şəhərinin baş meydanında ucaldılan əzəmətli abidəsini ziyarət edib önünə gül dəstələri qoyaraq dərin ehtiramlarını bildiriblər, eləcə də Şəhidlər Xiyabanını ziyarət edərək şəhidlərin əziz xatirəsini yad ediblər.

# Bakı şəhər prokurorluğunun 2025-ci ilin I yarımilinə həsr olunmuş əməliyyat müşavirəsi keçirilib



İyul ayının 17-də Bakı şəhər prokurorluğu orqanları tərəfindən 2025-ci ilin birinci yarımilində cinayətkarlığa qarşı mübarizə, istintaq işi, prokuror nəzarəti sahələrində görülmüş işlərin vəziyyəti və qarşıda duran vəzifələrin müzakirəsinə həsr olunmuş geniş əməliyyat müşavirəsi keçirilmişdir.

Əvvəlcə müşavirə iştirakçıları Ümummilli Lider Heydər Əliyevin xatirəsinə ehtiram əlaməti olaraq büstü önünə tər güllər düzmüş, habelə ölkəmizin ərazi bütövlüyü uğrunda canlarını fəda etmiş şəhidlərimizin əziz xatirəsini bir dəqiqəlik sükutla yad etmişdir.

Müşavirədə çıxış edən Bakı şəhər prokuroru Elşən Abbasov 2025-ci ilin birinci yarımilində ölkə Prezidenti İlham Əliyev tərəfindən həyata keçirilən uğurlu siyasi, iqtisadi, sosial, hərbi quruculuq və diplomatik siyasət nəticəsində cəmiyyətin bütün sahələrində tərəqqi və inkişafa nail olunmaqla, ölkəmizin suverenliyinin daha da möhkəmləndiyini bildirmişdir.

Şəhid ailələrinin, müharibə iştirakçılarının qayğıları Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban xanım Əliyeva tərəfindən daim nəzarətdə saxlanılmaqla, onların müraciətlərinin vaxtında həlli istiqamətində zəruri tədbirlərin görülməsi təmin edilir.

Dövlət başçısı tərəfindən prokurorluq orqanlarının inkişafının daim diqqətdə saxlanıldığı, xidməti vəzifələrin icrası üçün bütün şəraitin yaradıldığı, cari ilin aprel ayının 18-də Pirallahı, 25-də Nəsimi rayon prokurorluqlarının yeni inzibati binalarının, may ayının 8-də Bakı şəhər prokurorluğunun yeni inzibati korpusunun istifadəyə verilməsinin prokurorluq əməkdaşlarına olan qayğının təcəssümü kimi vurğulanmışdır.

2025-ci ilin "Konstitusiya və Suverenlik ili" elan olunması ilə əlaqədar, paytaxtın prokurorluq orqanlarının da bu mühüm tədbirlərdə yaxından iştirak etməsi, 8 may 2025-ci il tarixdə Bakı şəhər prokurorluğunda, 23 may 2025-ci il tarixdə Nəsimi rayon prokurorluğunda konstitusiya quruculuğu və suverenliyin təmin olunması mövzularında konfrans və seminarların keçirildiyi, bu mövzuda tədbirlərin davam etdiriləcəyi qeyd olunmuşdur.

Əməliyyat müşavirəsində Azərbaycan Respublikasının Baş prokurorunun müəyyənləşdirdiyi vəzifələrin icrası üzrə Bakı şəhərinin prokurorluq orqanlarının digər hüquq mühafizə orqanları ilə birlikdə cinayətkarlığa qarşı mübarizə, vətəndaş məmnunluğunun təmin olunması istiqamətində görülən işlər barədə ətraflı məlumat verilmişdir.

Qeyd olunmuşdur ki, 2025-ci ilin birinci yarımilii ərzində Bakı şəhərinin prokurorluq və daxili işlər orqanları üzrə cəmi 7549 törədilmiş cinayət hadisəsi qeydiyyata alınmışdır ki, onların 92,6 %-nin açılması təmin olunmuşdur.

Bakı şəhərinin daxili işlər orqanları ilə birlikdə qarşılıqlı işgüzar münasibətlər qurulmaqla həyata keçirilən tədbirlər nəticəsində 2025-ci ilin birinci yarımilində törədilən 12 qəsdən adam öldürmə cinayətlərinin hamısının açılması təmin edilmişdir.

Qəsdən adam öldürmə, özünü öldürmə həddinə çatdırma, oğurluq, mənimsəmə və israf etmə, dələduzluq, hədə-qorxu ilə tələb etmə, xuliqanlıq, narkotik vasitələrlə bağlı cinayətlər, yol hərəkəti və nəqliyyat vasitələrinin istismarı qaydalarını pozma, o cümlədən ölümlə nəticələnən yol-nəqliyyat hadisələrinin sayı azalmış, qəsdən adam öldürməyə cəhd, qəsdən sağlamlığa ağır və az





ağır zərər vurma, adam oğurluğu, quldurluq, ekoloji cinayətlərin sayında isə artım müşahidə olunmuşdur.

Bildirilmişdir ki, ümumilikdə şəhərin prokurorluq orqanları tərəfindən hesabat dövründə 130 cinayət işinin ibtidai istintaqı tamamlanmış, onlardan 86 iş baxılması üçün müvafiq məhkəmələrə göndərilmişdir. Paytaxtın daxili işlər orqanlarının istintaq qurumları tərəfindən isə hesabat dövründə cəmi 2722 cinayət işinin istintaqı tamamlanaraq, 2151 iş məhkəmələrə göndərilmişdir.

Bakı şəhəri üzrə prokurorluq orqanları tərəfindən ibtidai istintaqı tamamlanmış cinayət işləri üzrə ümumilikdə dövlətə, fiziki və hüquqi şəxslərə vurulmuş 9.934.994,14 manat məbləğində maddi ziyanın 5.279.487,65 manatı və ya 53,1%-nin ödənilməsi təmin edilmişdir.

Müşavirədə həmçinin axtarışda olan, xəbərsiz itkin düşmüş şəxslərin tapılması istiqamətində intensiv istintaq və əməliyyat-axtarış tədbirlərinin aparılması ilə bağlı konkret tapşırıqlar verilmişdir.

Vətəndaş müraciətlərinə baxılması və onların qəbulu ilə əlaqədar işin təşkilinin daim diqqət mərkəzində saxlanılması istiqamətində zəruri tədbirlərin görülməsi tələb olunmuş, xüsusilə Azərbaycan Respublikasının ərazi bütövlüyü uğrunda şəhid olmuş və itkin düşmüş şəxslərin ailə üzvlərinin, yaxın qohumlarının, o cümlədən sağlamlığını itirmiş vətəndaşlarımızın müraciətlərinə təxirəsalınmadan baxılmaqla, onların dərhal qəbul edilmələrinin təmin edilməsi, bu kateqoriyadan olan şəxslərə diqqət göstərilməsinin vacibliyi vurğulanmışdır.

Hesabat dövründə Bakı şəhər prokurorluğuna 9225 müraciət daxil olaraq baxılmış, ümumilikdə 1214 vətəndaş qəbulu həyata keçirilmiş, onlardan 158 nəfər Bakı şəhər prokuroru tərəfindən qəbul edilmişdir.

“Elektron Prokurorluq” informasiya sisteminin tətbiqinin prokurorluq orqanlarında işin səmərəliliyinin artırılmasına müsbət təsiri xüsusi qeyd olunmaqla, bütün prokurorluq işçilərinin gündəlik fəaliyyətlərində sistemin imkanlarından istifadə etməsi vurğulanmışdır.

Bakı şəhər prokurorluğunun əlaqədar struktur qurumları və müvafiq tabe prokurorlar tərəfindən daxili işlər orqanları ilə əlaqəli şəkildə cari ilin birinci yarımilinin nəticələrinə görə artım dinamikası müşahidə olunan cinayətlərin profilaktikası istiqamətində müvafiq tədbirlərin görülməsi, eyni zamanda, cəzanın labüdlüyü prinsipinin təmin edilməsi məqsədilə bağlı qalmış qəsdən adam öldürmə cinayətlərinin açılması və təqsirkar şəxslərin cinayət məsuliyyətinə cəlb olunması üçün müvafiq tədbirlərin görülməsinin zəruriliyi diqqətə çatdırılmışdır.

Həmçinin hesabat dövründə prokurorluq əməkdaşları tərəfindən xidməti, icra və əmək intizamı qaydalarına riayət olunmasına ciddi nəzarət edilməklə, Bakı şəhər prokurorluq orqanlarının 3 əməkdaşının intizam tənbeh tədbiri qismində tutduqları vəzifədən azad olunmaları qeyd olunmuşdur.

Əməliyyat müşavirəsində Bakı şəhərinin tabe rayon prokurorları hesabat məruzə ilə çıxış edərək, görülən işlərin vəziyyəti barədə məlumat vermiş, yol verilmiş nöqsanların aradan qaldırılması üçün zəruri tədbirlərin görüləcəyini bildirmişlər.

Əməliyyat müşavirəsinə yekun vuran Bakı şəhər prokuroru Elşən Abbasov şəhər prokurorluğunun kollektivinin bundan sonra da cinayətkarlığa qarşı mübarizənin gücləndirilməsi, insan və vətəndaş hüquq və azadlıqlarının və ölkəmizdə bərqərar olmuş dayanıqlı ictimai-siyasi sabitliyin qorunması üçün səlahiyyət hədləri daxilində zəruri tədbirlərin görülməsini təmin edəcəklərinə əminliyini ifadə etmişdir.

## Bakı şəhər prokurorluğunda “Azərbaycan Prokurorluğu: Suverenliyin təminatında rolu” adlı seminar keçirilib









Ölkəmizdə həyata keçirilən hüquqi islahatlar və dövlət suverenliyinin təminatında prokurorluq orqanlarının rolunun maarifləndirilməsi məqsədilə sentyabrın 26-da Bakı şəhər prokurorluğunda “Azərbaycan Prokurorluğu: Suverenliyin təminatında rolu” mövzusunda seminar təşkil olunub.

Tədbirdə Bakı şəhər və tabe rayon prokurorluqlarının əməkdaşları, ali təhsil müəssisələrinin hüquqşünaslıq ixtisası üzrə təhsil alan tələbələri, habelə media nümayəndələri iştirak ediblər. Seminar iştirakçıları prokurorluq fəaliyyətinin müasir tələblərini, vətəndaşlarla qarşılıqlı münasibətlər və hüquqi maarifləndirmə istiqamətlərini ətraflı öyrənmək imkanı əldə ediblər.

Seminarı giriş sözü ilə açan Bakı şəhər prokurorunun müavini Toğrul Muxtarov iştirakçıları salamlayaraq tədbirin əhəmiyyətindən danışıb. O, seminarın əsas məqsədinin hüquqşünaslıq ixtisası üzrə təhsil alan gənclərin peşəkar inkişafına dəstək vermək, prokurorluq orqanlarının fəaliyyəti ilə yaxından tanışlıq yaratmaq və cəmiyyətdə hüquqi maarifləndirməni artırmaq olduğunu vurğulayıb.

Baş Prokurorluğun Mətbuat xidmətinin böyük prokuroru Kənan Zeynalov seminar iştirakçılarına çıxış edərək hüquqi maarifləndirmənin önəmini, prokurorluq orqanlarının müasir dövrdə qarşılaşdığı çağırışları, həmçinin cəmiyyətlə effektiv əlaqələrin prokurorluğun fəaliyyətindəki rolunu diqqətə çatdırıb.

Baş Prokurorluğun Elm-Tədris Mərkəzinin şöbə rəisi Nigar Qələndərli “Konstitusiya və Suverenlik İli: Azərbaycan dövlətçilik tarixində yeni mərhələ və Prokurorluğun dövlət suverenliyinin təminində rolu” mövzusunda çıxış edərək seminar iştirakçılarını ətraflı şəkildə məlumatlandırıb. O, çıxışında Konstitusiya və Suverenlik ili çərçivəsində prokurorluq fəaliyyətinin prioritet istiqamətlərini xüsusi vurğulayıb, dövlət suverenliyinin qorunmasında prokurorluq orqanlarının hüquqi və praktiki funksiyalarını izah edib. Eyni zamanda, hüquqi nəzarət mexanizmlərinin rolu, qanunun aliliyinin təmin olunması üçün prokurorluq tərəfindən tətbiq olunan prosedurlar və istintaq proseslərinin səmərəliliyi barədə iştirakçılara geniş təqdimat verilib.

Daxili İşlər Nazirliyinin Polis Akademiyasının kafedra rəisi, dosent, hüquq üzrə fəlsəfə doktoru Səyyad Ağayev çıxış edərək dövlətçilik ənənələrinin möhkəmləndirilməsində hüquq-mühafizə orqanlarının birgə fəaliyyətinin zəruriliyini, prokurorluğun bu istiqamətdə mühüm rolunu diqqətə çatdırıb.

Seminar interaktiv formatda davam edib. Tələbələr çıxışçılara hüquqi sahədə maraqlandıran suallar ünvanlayaraq ətraflı cavablar əldə ediblər. Eyni zamanda, seminar zamanı prokurorluq işinin praktiki nüansları, vətəndaş müraciətlərinə baxılması və ictimaiyyətlə əlaqələrin təşkili sahəsində real təcrübələr təqdim olunub.

# Bakı şəhər prokurorluğunda "Açıq qapı" günü keçirilib




1 oktyabr – Azərbaycan Respublikası prokurorluq işçilərinin peşə bayramı və prokurorluq orqanlarının yaranmasının 107-ci ildönümü münasibətilə Bakı şəhər prokurorluğunun inzibati binasının yeni korpusunda hüquqşünaslıq ixtisası üzrə təhsil alan tələbələrin və media nümayəndələrinin iştirakı ilə "Açıq qapı" günü keçirilib.

26 sentyabr 2025-ci il tarixində baş tutan tədbirin məqsədi gənc hüquqşünasların prokurorluq orqanlarının fəaliyyəti ilə yaxından tanış olmalarına, nəzəri biliklərini praktik müstəvidə tətbiq etmələrinə və cəmiyyətdə prokurorluğun fəaliyyətinə dair maarifləndirici məlumatların artırılmasına şərait yaratmaq olub.

Ulu Öndər Heydər Əliyev və bütün şəhidlərin əziz və unudulmaz xatirələri bir dəqiqəlik sükutla anıldıqdan sonra açılışda çıxış edən Bakı şəhər prokurorunun müavini Toğrul Muxtarov qonaqları salamlayaraq bu cür təşəbbüslərin gənclərin peşəkar formalaşmasında və gələcək fəaliyyətə hazırlanmasında mühüm rol oynadığını vurğulayıb. O, rayon prokurorluqlarının səlahiyyətləri, gündəlik iş prinsipləri barədə ətraflı məlumat verib və iştirakçıların suallarını cavablandırıb.











Bakı şəhər prokurorunun köməkçisi Famil Axundov çıxışında prokurorluğun əsas fəaliyyət istiqamətləri və prioritetləri barədə danışıb.

Daha sonra Baş Prokurorluğun Mətbuat xidmətinin böyük prokuroru Kənan Zeynalov "Azərbaycan Prokurorluğunun inkişaf yolu: tarixi mərhələlər və müasir çağırışlar" mövzusunda təqdimatla çıxış edib. O, Ulu Öndər Heydər Əliyevin rəhbərliyi ilə əsası qoyulmuş və Prezident İlham Əliyevin rəhbərliyi ilə davam etdirilən hüquq islahatlarının dövlətçiliyin möhkəmlənməsinə, qanunun aliliyinin təmin olunmasına və prokurorluq orqanlarının müasir tələblərə uyğun fəaliyyətinə xidmət etdiyini qeyd edib.

Tədbir çərçivəsində Bakı şəhər prokurorluğunun əməkdaşları Yaqub Məmmədov, Əfqan Qafarov və Ramil Səfərov daxili işlər orqanlarının istintaq, təhqiqat və əməliyyat-axtarış fəaliyyətində qanunçuluğa prokuror nəzarəti, prokurorluqda istintaqın təşkili və ona nəzarət, həmçinin prokurorluq orqanlarında müraciətlərə baxılması və vətəndaş məmnunluğu mövzularında çıxış edərək öz bilik və təcrübələrini iştirakçılarla bölüşüblər.

Gənc hüquqşünaslar və media nümayəndələri ilə səmərəli müzakirələr aparılıb, iştirakçılara kriminalistik avadanlıqlar, habelə Elektron Prokurorluq İnformasiya Sistemi (EPİS) nümayiş etdirilərək onların istintaq prosesində tətbiqi izah olunub.

Sonda iştirakçılar inzibati binada yaradılmış iş şəraiti ilə tanış olub, prokurorluğun gündəlik fəaliyyəti barədə əyani məlumat əldə ediblər. Tədbir xatirə fotosu ilə başa çatıb.



# Mətbuat xidmətinin məlumatları

**Azərbaycan Respublikası vətəndaşlarının və azərbaycan əsilli şəxslərin Rusiya Federasiyasında işgəncəyə məruz qalmaları və xüsusi amansızlıqla qəsdən öldürülmələri faktı üzrə cinayət işi başlanıb**




Azərbaycan Respublikası vətəndaşlarının və azərbaycan əsilli şəxslərin Rusiya Federasiyasının hüquq-mühafizə orqanlarının əməkdaşları tərəfindən işgəncələrə məruz qoyulmaqla iki nəfərin xüsusi amansızlıqla qəsdən öldürülməsi faktı üzrə Azərbaycan Respublikasının Baş prokuroru tərəfindən cinayət işi başlanıb

İlkin istintaqla müəyyən edilmişdir ki, İyunun 27-də səhər saatlarında Rusiya Federasiyasının Milli Qvardiyasının, Daxili İşlər Nazirliyinin və Federal Təhlükəsizlik Xidmətinin Sverdlovsk vilayəti üzrə əməkdaşlarının iştirakı ilə Yekaterinburq şəhərində həyata keçirilmiş birgə əməliyyat-axtarış tədbirləri zamanı Yekaterinburq şəhərində müxtəlif ünvanlarda yaşayan Azərbaycan Respublikası vətəndaşları və azərbaycan əsilli şəxslər əvvəlki dövrlərdə törədilmiş cinayətlərdə iştirak etməkdə şübhəli bilinərək saxlanılıb.

Rusiya Federasiyasının adları qeyd olunan əməliyyat-axtarış fəaliyyəti subyektlərinin səlahiyyətli vəzifəli şəxsləri tərəfindən bir qrup halında azadlığı məhdudlaşdırılmaqla faktiki köməksiz vəziyyətdə olan, özünü zərbələrdən qorumaq imkanı olmayan Azərbaycan vətəndaşları və azərbaycan əsilli digər şəxslərə həm saxlama prosesində, həm daşındıqları nəqliyyat vasitələrində, əməliyyat-axtarış subyektlərinin yerləşdiyi inzibati binalarda bərk küt əşyalarla bədənlərinin müxtəlif nahiyyətlərinə çoxsaylı zərbələr endirilməklə işgəncələrə məruz qoyulmuş və ağır bədən xəsarətləri yetirilmişdir.

Nəticədə 1966-cı il təvəllüdlü - 60 yaşlı, xırda sahibkarlıq fəaliyyəti ilə məşğul olan Azərbaycan Respublikasının vətəndaşı Hüseyn Səfərov həmin gün saat 15 radələrində Yekaterinburq şəhərində daxili işlər orqanının inzibati binasında, onun qardaşı – 1970-ci il təvəllüdlü - 55 yaşlı, taksi sürücüsü kimi fəaliyyət göstərən iki övlad atası Ziyəddin Səfərov isə səhər saatlarında əməliyyat qurumuna məxsus xidməti avtomobildə aldığı xəsarətlər nəticəsində xüsusi amansızlıqla qəsdən öldürülmüşdür.

İstintaq zamanı təyin edilmiş Məhkəmə tibbi-ekspertizasının rəyinə əsasən Səfərov Hüseyn Mehti oğluna yetirilmiş çoxsaylı xəsarətlər, o cümlədən qabırğaların çoxsaylı sınıqları və sair fonunda yaranmış postravmatik və posthemorrogik şok nəticəsində, sonuncunun qardaşı 10.12.1970-ci il təvəllüdlü Səfərov Ziyəddin Mehti oğlu isə ona yetirilmiş çoxsaylı xəsarətlər fonunda yaranmış postravmatik şok nəticəsində öldürülmüşdür.

Həmçinin Rusiya Federasiyasının səlahiyyətli əməliyyat-axtarış qurumları tərəfindən saxlanılmış digər çoxsaylı şəxslərə qarşı da eyni üsulla işgəncələr tətbiq edilməsi nəticəsində müxtəlif dərəcəli bədən xəsarətləri almış digər Azərbaycan Respublikası vətəndaşlarının olması və hazırda Rusiya Federasiyası ərazisində tibb müəssisəsində müalicələrinini davam etdirilməsi müəyyən edilmişdir.

Toplanmış materiallar əsasında Azərbaycan Respublikası Baş prokuroru tərəfindən Cinayət Məcəlləsinin 12.2 (ölkə xaricində Azərbaycan Respublikasının vətəndaşına qarşı cinayət törədildikdə məsuliyyətin Azərbaycan qanunvericiliyi ilə müəyyən olunması), 120.2.1 (bir qrup şəxs tərəfindən qəsdən adam öldürmə), 120.2.4 (xüsusi amansızlıqla və ya ümumi təhlükəli üsulla adam öldürmə), 120.2.7 (iki və ya daha çox şəxsi öldürmə), 120.2.9 (qabaqcadan əlbir olan bir qrup şəxs tərəfindən adam öldürmə), 309.2 (vəzifə səlahiyyətlərini aşma ağır nəticələrə səbəb olduqda) və 293.3-cü (işgəncə vermə və ya digər qəddar, qeyri-insani və ya ləyaqəti alçaldan rəftara və ya cəzaya məruz qoyma, bu hərəkətlər ehtiyatsızlıqdan zərərçəkmiş şəxsin ölümünə səbəb olduqda) maddələri ilə cinayət işi başlanıb.

İbtidai istintaqın aparılması Baş Prokurorluğun İstintaq idarəsinə həvalə olunub, cinayət işi üzrə istintaq qrupu yaradılmaqla aktiv istintaq tədbirləri icra edilir.

Azərbaycan Respublikasının Baş Prokurorluğu tərəfindən beynəlxalq hüquq normalarına uyğun olaraq müvafiq dövlətlərə hüquqi yardım sorğuları göndərilərək, istintaqın effektiv aparılması və cinayətkarların müəyyən edilərək məsuliyyətə cəlb olunması üçün zəruri əməkdaşlıq təmin ediləcəkdir.

**#hüquqimaarifləndirmə – Konstitusiya Məhkəməsinin Plenumu Azərbaycan Respublikası Konstitusiyasının 60-cı maddəsi baxımından Azərbaycan Respublikası Cinayət-Prosessual Məcəlləsinin 509.1-ci maddəsini həmin Məcəllənin 520.7-ci maddəsi ilə əlaqəli şəkildə şərh etmişdir**

Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin Plenumunun 18 iyun 2025-ci il tarixli qərarına əsasən Konstitusiya Məhkəməsinin Plenumu hesab edir ki, məhkumun cəzadan azad edilməsinin bilavasitə zərərçəkmişin

iradəsinə bağlı olması və onun marağının tam şəkildə ödənilməsindən asılı edilməsi, baxılan məsələnin zərərçəkmiş şəxsə vurulmuş ziyanın ödənilməsinə birbaşa təsir etməsi kimi halların mövcudluğu bu məsələ ilə bağlı qəbul edilən qərarın bilavasitə onun mənafeyinə toxunduğuna dəlalət edir ki, bu hallarda zərər çəkən şəxsə həmin qərardan apellyasiya və kassasiya şikayəti vermək hüququnun inkar edilməsi onun Konstitusiya ilə bəyan edilən məhkəmə müdafiəsi hüququnun pozulması ilə nəticələnərdi.




Həmin qərara əsasən, Azərbaycan Respublikası Cinayət-Prosessual Məcəlləsinin 520.2-ci maddəsinə və Konstitusiya Məhkəməsi Plenumunun bu Qərarının təsviri-əsaslandırıcı hissəsində əks olunmuş hüquqi mövqelərə əsasən Azərbaycan Respublikası Cinayət-Prosessual Məcəlləsinin 509.1.1–509.1.8-ci maddələri ilə nəzərdə tutulmuş məsələlərlə bağlı qəbul edilmiş məhkəmə qərarından zərər çəkmiş şəxsin apellyasiya və ya kassasiya şikayəti vermək hüququ istisna edilir.

Azərbaycan Respublikası Konstitusiyasının 60-cı maddəsindən və Azərbaycan Respublikası Cinayət-Prosessual Məcəlləsinin 383.1.5, 409.4, 520.7-ci maddələrinin müddəalarından irəli gələrək, hökm və ya məhkəmənin digər yekun qərarlarının icrası qaydasında baxılan məsələlərə dair qəbul edilmiş məhkəmə qərarları yalnız zərər çəkmiş şəxsin mənafelərinə toxunduğu hallarda, zərər çəkmiş şəxs həmin qərarlardan apellyasiya və kassasiya şikayəti vermək hüququna malikdir.

Qərar dərc edildiyi gündən qüvvəyə minir, qətidir, heç bir orqan və ya şəxs tərəfindən ləğv oluna, dəyişdirilə, yaxud rəsmi təfsir edilə bilməz.

## Azərbaycan Respublikası Baş Prokurorluğu və Daxili İşlər Nazirliyinin Mətbuat xidmətlərinin birgə məlumatı : Samuxda qonşusunu qəsdən öldürməkdə şübhəli bilinən şəxs tutulub




İyunun 29-da Samux rayonu, Burunqovaq kənd sakini 1937-ci il təvəllüdlü Yahuzə Bəkirovanın yaşadığı evdə üzərində zorakılıq əlamətləri olan meyitinin aşkar olunması ilə bağlı Samux rayon prokurorluğuna məlumat daxil olub.

Prokurorluq və polis əməkdaşları tərəfindən birgə icra olunan kompleks istintaq və əməliyyat-axtarış tədbirləri nəticəsində cinayətin üstü "isti izlərlə" açılıb.

Həyata keçirilmiş tədbirlərlə zərərçəkmiş Yahuzə Bəkirovanın həmkəndlisi 1987-ci il təvəllüdlü Arzu Alıyev tərəfindən aralarında yaranmış şəxsi münasibətlər zəminində baş verən münaqişə zamanı qəsdən öldürülməsinə əsaslı şübhələr müəyyən edilib.

Faktla bağlı Samux rayon prokurorluğunda Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 120.1-ci maddəsi (qəsdən adam öldürmə) ilə cinayət işi başlanıb.

Arzu Alıyev polis əməkdaşları tərəfindən saxlanılaraq istintaqa təhvil verilib və prokurorluq tərəfindən şübhəli şəxs qismində tutulub.

Hazırda cinayət işi üzrə ibtidai istintaq davam etdirilir.

## Cinayətkarlığa qarşı mübarizə sahəsində beynəlxalq əməkdaşlıq uğurla davam etdirilir




Birləşmiş Ərəb Əmirliklərinin səlahiyyətli orqanları tərəfindən adam oğurluğu, qanunsuz azadlıqdan məhrumetmə, öldürməklə hədələmə, qəsdən sağlamlığa ağır zərər vurma və seksual xarakterli zorakılıq hərəkətləri törətməkdə təqsirləndirilərək beynəlxalq axtarışa elan edilmiş 1985-ci il təvəllüdlü Qazaxıstan Respublikasının vətəndaşı Zhanbolat Serikov cari ilin yanvar ayında ölkəmizdə müəyyən edilərək, Baş Prokurorluğun vəsatətinə əsasən barəsində həbs qətimkan tədbiri seçilmişdir.

Baş Prokurorluq tərəfindən Birləşmiş Ərəb Əmirliklərinin səlahiyyətli orqanlarının ekstradisiyaya dair vəsatəti həm birinci, həm apellyasiya, həm də kassasiya instansiyalarında müdafiə edilmişdir.

Azərbaycan Respublikası ilə Birləşmiş Ərəb Əmirlikləri arasında qüvvədə olan ekstradisiya haqqında müqaviləyə əsasən, Bakı Ağır Cinayətlər Məhkəməsininin qərarına uyğun olaraq Zhanbolat Serikov Ədliyyə Nazirliyinin Penitensiar Xidmətinin xüsusi konvoyunun müşayiəti ilə adıçəkilən ölkənin hüquq-mühafizə orqanlarına təhvil verilmişdir.

### Rüşvət müqabilində gömrük sərhədindən malların keçirilməsinə şərait yaradan vəzifəli şəxslər barəsində cinayət işi məhkəməyə göndərilib




Dövlət Gömrük Komitəsinin Xaçmaz Gömrük İdarəsinin vəzifəli şəxsləri və qaçaqmalçılıq cinayətini törətmiş digər şəxslərin qanunsuz hərəkətləri ilə bağlı həmin Komitədən Baş prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsinə daxil olmuş cinayət işinin ibtidai istintaqı yekunlaşdırılıb.

İstintaqla Xaçmaz Gömrük İdarəsinin Əməliyyat və təhqiqat şöbəsinin böyük əməliyyat müvəkkili Hidayət Məmmədovun həmin şöbənin Hədəfləmə və koordinasiya bölməsinə təhkim edilmiş "Azərterminalkompleks" Birliyinin Gömrük fəaliyyətinə dəstəyin təşkili idarəsinin Gömrük işinə yardım şöbəsinin sabiq əməkdaşı Bayram Məmmədovla cinayət əlaqəsinə girərək 29 dekabr 2024-cü il tarixdə ona müraciət etmiş Arzu Abdullayev və Mirxan Dadaşov tərəfindən qabaqcadan əlbir olan bir qrup şəxs halında Azərbaycan Respublikasına məxsus aksiz markası ilə markalanmalı olan, lakin belə marka ilə markalanmamış 427 min manatdan artıq dəyərdə elektron siqaretlərin gömrük sərhədindən gömrük nəzarətindən kənar qaçaqmalçılıq yolu ilə keçirilməsinə şərait yaradılması müqabilində 3 min manat məbləğində pul vəsaitini rüşvət qismində almasına əsaslı şübhələr müəyyən edilib.

Bundan başqa Hidayət Məmmədovun 28 mart 2025-ci il tarixdə ona müraciət etmiş Arzu Abdullayev və Haysuf Hacıyevin qabaqcadan əlbir olan bir qrup şəxs halında içərisində ümumilikdə 291 min manatdan artıq dəyərdə olan aqrokimyəvi dərman və qanunla dövlət qeydiyyatı tələb olunan, lakin dövlət qeydiyyatından keçməyən dərman vasitələrinin qaçaqmalçılıq yolu ilə keçirilməsinə şərait yaradılması müqabilində sonuncunun 3 min manat məbləğində pul vəsaitinin verilməsi barədə təklifini qəbul edərək həmin malların qaçaqmalçılıq yolu ilə ölkə ərazisinə keçirilməsini təmin etməsinə əsaslı şübhələr müəyyən edilib.

Toplanmış sübutlar əsasında Hidayət Məmmədova Cinayət Məcəlləsinin 32.5, 200-1.2.2, 32.5, 200-1.2.3 (qabaqcadan əlbir olan bir qrup şəxs tərəfindən külli miqdarda dərman vasitələrinin dövriyyəsinə köməklik göstərmə), 32.5, 206.3.1, 32.5, 206.3.2, 206.3.2 (qabaqcadan əlbir olan bir qrup şəxs tərəfindən qaçaqmalçılıq və təkrar qaçaqmalçılığa köməklik göstərmə), 32.5, 213-1.2.1, 32.5, 213-1.2.3 (qabaqcadan əlbir olan bir qrup şəxs tərəfindən külli miqdarda aksiz markası ilə markalanmalı olan malların belə marka olmadan qanunsuz dövriyyəsinə köməklik göstərmə), 308.2 (ağır nəticələrə səbəb olan vəzifə səlahiyyətlərindən sui-istifadə etmə), 311.3.1 və 311.3.2 (qabaqcadan əlbir olan bir qrup şəxs tərəfindən təkrar rüşvət alma), Bayram Məmmədova həmin Məcəllənin 32.5, 213-1.2.1, 32.5, 213-1.2.3, 32.5, 206.3.2, 308.2 və 311.3.1, Arzu Abdullayevə həmin Məcəllənin 200-1.2.2, 200-1.2.3, 206.3.1, 206.3.2, 213-1.2.1, 213-1.2.3 və 312.2 (vəzifəli şəxs tərəfindən bilə-bilə qanunsuz hərəkətlər (hərəkətsizlik) etməyə görə rüşvət vermə), Mirxan Dadaşova həmin Məcəllənin 213-1.2.1, 213-1.2.3 və 206.3.2, Haysuf Hacıyevə isə həmin Məcəllənin 200-1.2.2, 200-1.2.3 və 206.3.2-ci maddələri ilə yekun ittiham elan edilərək Hidayət Məmmədov, Bayram Məmmədov və Arzu Abdullayev barəsində iş üzrə istintaq orqanının vəsatəti və ibtidai araşdırmaya prosessual rəhbərliyi həyata keçirən prokurorun təqdimatı əsasında məhkəmənin qərarı ilə həbs, Mirxan Dadaşov və Haysuf Hacıyev barəsində isə polisin nəzarəti altına vermə növündə qətimkan tədbiri seçilib.

Cinayət işi baxılması üçün aidiyyəti üzrə Sumqayıt Ağır Cinayətlər Məhkəməsinə göndərilib.

### #Hüquqimaarifləndirmə #Cinayətprosessualhüququ – Cinayət prosessual hüquqda ekspert və mütəxəssis

Ekspert elm, texnika, incəsənət və digər peşə sahəsində xüsusi biliklərdən istifadə etməklə rəy verməyə qadir olan cinayət prosesində şəxsi marağı olmayan, öz razılığı əsasında materialların tədqiqinin aparılması üçün cinayət prosesini həyata keçirən orqan və ya onun tələbi ilə ekspert müəssisəsinin rəhbərliyi tərəfindən təyin edilmiş şəxsdir.




Ekspert cinayət prosesi iştirakçılarının təklif etdikləri şəxslər sırasından təyin edilə və ya müdafiə tərəfindən dəvət oluna bilər.

Ekspert qarşısına qoyulmuş suallar üzrə rəy vermək üçün kifayət qədər elm, texnika, incəsənət və digər peşə sahələrinə aid xüsusi biliklərə malik olmalıdır.

Mütəxəssis cinayət prosesində şəxsi marağı olmayan, öz razılığı əsasında istintaq və ya digər prosessual hərəkətlərin aparılmasında elm, texnika, incəsənət və digər peşə sahəsindəki xüsusi bilik və bacarığından istifadə edərək kömək göstərmək üçün cinayət prosesini həyata keçirən orqan tərəfindən təyin edilmiş şəxsdir.

Yetkinlik yaşına çatmamış zərər çəkmiş, şübhəli və ya təqsirləndirilən şəxsin, habelə şahidin dindirilməsində iştirak etmiş müəllim mütəxəssis hesab olunur.

Mütəxəssis cinayət prosesi iştirakçılarının təklif etdikləri şəxslər sırasından təyin edilə bilər.

### Yetkinlik yaşına çatmayan şəxsin öldürülməsi faktı üzrə cinayət işi başlanıb




Avqustun 19-da saat 21 radələrində Gəncə şəhəri ərazisində yetkinlik yaşına çatmayan K.N-nin (şərti) öldürülməsi barədə şəhər prokurorluğuna məlumat daxil olub.

Araşdırmalarla yetkinlik yaşına çatmayan R.B-nin (şərti) Gəncə şəhəri, "Dəmiryolu vağzalı" adlanan ərazisində aralarında yaranmış mübahisə zamanı bıçaqla xəsarət yetirərək K.N-ni (şərti) qəsdən öldürməsinə əsaslı şübhələr müəyyən edilib

Faktla bağlı Gəncə şəhər prokurorluğunda Cinayət Məcəlləsinin 120.1 (qəsdən adam öldürmə) maddəsilə cinayət işi başlanıb, R.B (şərti) iş üzrə şübhəli şəxs qismində tutulub.

Hazırda ibtidai istintaq davam edir.

### #SORĞUYACAVAB - Qəsdən adam öldürməkdə şübhəli bilinən şəxs tutulub




Avqustun 20-də paytaxtın Xətai rayonu ərazisində yerləşən mənzillərdən birində 1965-ci il təvəllüdlü Firdovsi Həsənovun üzərində xəsarət izləri olan meyitinin aşkar edilməsi barədə rayon prokurorluğuna məlumat daxil olub.

İlkin araşdırmalarla 1993-cü il təvəllüdlü Rəhim Qasımovun bıçaqla xəsarət yetirərək Firdovsi Həsənovu qəsdən öldürməsinə əsaslı şübhələr müəyyən edilib.

Faktla bağlı Xətai rayon prokurorluğunda Cinayət Məcəlləsinin 120.1-ci (qəsdən adam öldürmə) maddəsi ilə cinayət işi basJanaraq ibtidai istintaq aparılır.

Rəhim Qasımov iş üzrə şübhəli şəxs qismində tutulub.

### İtkin düşmüş şəxsin istintaq yolu ilə qəsdən öldürüldüyü müəyyən olunub




Ötən illərdən bağlı qalmış cinayət işlərinin üstünün açılması, o cümlədən itkin düşmüş şəxslərlə bağlı faktların araşdırılması məqsədilə Baş Prokurorluq tərəfindən kompleks tədbirlər həyata keçirilir.

Həyata keçirilən tədbirlərin davamı olaraq, 5 ay əvvəl itkin düşmüş şəxsin qəsdən öldürülməsi faktı müəyyən olunub.

Belə ki, Qazax rayonunun Aşağı Salahlı kənd sakini, 1994-cü il təvəllüdlü Tamerlan Sadıqovun cari il martın 20-də itkin düşməsi faktı üzrə Qazax rayon prokurorluğunda Cinayət Məcəlləsinin 125-ci (özünü öldürmə həddinə çatdırma) maddəsi ilə cinayət işi başlanıb.

Prokurorluq tərəfindən icra olunan çoxsaylı istintaq hərəkətləri, verilmiş əməliyyat tapşırıqları və digər prosessual hərəkətlər nəticəsində Tamerlan Sadıqovun həmkəndlisi, 1988-ci il təvəllüdlü Xaliq Məmmədrzayev tərəfindən qəsdən öldürüldükdən sonra fərdi yaşayış evinin həyatində basdırılmasına əsaslı şübhələr müəyyən olunub.

T.Sadıqovun meyiti basdırıldığı yerdən qazılaraq çıxarılıb və aidiyyəti üzrə müayinənin aparılması üçün ekspertizaya təqdim edilib.

Xaliq Məmmədrzayev avqustun 20-də cinayət işi üzrə prokurorluq tərəfindən şübhəli şəxs qismində tutulub.

Hazırda iş üzrə istintaq davam etdirilir.

**#hüquqimaarifləndirmə #cinayətprosessualhüququ - Cinayət-prosessual fəaliyyət qabiliyyəti**




Fəaliyyət qabiliyyəti olmayanlardan başqa cinayət prosesinin bütün yetkinlik yaşına çatmış iştirakçıları Azərbaycan Respublikasının Cinayət-Prosessual Məcəlləsində nəzərdə tutulmuş hüquqlarını müstəqil həyata keçirə bilərlər.

Cinayət prosesində aşağıdakılar fəaliyyət qabiliyyəti olmayanlar hesab olunurlar:

- Azərbaycan Respublikasının qanunvericiliyinə uyğun olaraq fəaliyyət qabiliyyəti olmayan hesab edilmiş şəxs;
- 14 yaşına çatmamış zərər çəkmiş şəxs, mülki iddiaçı, şübhəli və ya təqsirləndirilən şəxs, yaxud mülki cavabdeh.

Ruhi xəstəlik, müvəqqəti ruhi pozuntu və ya əqli gerilik nəticəsində öz hüquqlarını və vəzifələrini müstəqil həyata keçirmək qabiliyyətinə malik olmayan zərər çəkmiş şəxsi, mülki iddiaçını, şübhəli və ya təqsirləndirilən şəxsi, yaxud mülki cavabdehi məhkəmə cinayət prosessual qaydada fəaliyyət qabiliyyəti olmayan şəxs hesab edə bilər. Məhkəmə öz hüquqlarını və vəzifələrini yenidən müstəqil həyata keçirmək qabiliyyəti əldə etmiş göstərilən şəxsin cinayət-prosessual fəaliyyət qabiliyyətini bərpa edir.

14 yaşdan 18 yaşadək olan zərər çəkmiş şəxs, mülki iddiaçı, şübhəli və ya təqsirləndirilən şəxs, yaxud mülki cavabdeh məhdud fəaliyyət qabiliyyətlidir. Həmin şəxslərin cinayət prosesinin iştirakçıları qismində öz hüquqlarını müstəqil həyata keçirmək imkanları Cinayət-Prosessual Məcəlləsində nəzərdə tutulmuş hallarda onların qanuni nümayəndələrinin razılığı ilə məhdudlaşdırılır.

Zərər çəkmiş şəxsin, mülki iddiaçının, şübhəli və ya təqsirləndirilən şəxsin, habelə mülki cavabdehin cinayət-prosessual fəaliyyət qabiliyyəti cinayət prosesi üzrə icraat həyata keçirildiyi an üçün müəyyən edilir.

Yetkinlik yaşına çatmamış və ya 14 yaşına çatmış cinayət prosesi iştirakçısının cinayət-prosessual fəaliyyət qabiliyyətini cinayət prosesini həyata keçirən orqan müvafiq hüdudlarda tanıyır.

Cinayət prosesinin fəaliyyət qabiliyyəti olmayan iştirakçısı Cinayət-Prosessual Məcəlləyə uyğun olaraq öz hüquqlarını müstəqil həyata keçirə bilməz. Həmin hüquqları Cinayət-Prosessual Məcəllədə nəzərdə tutulmuş qaydada onun qanuni nümayəndəsi həyata keçirir.

Nümayəndəsi olmayan zərər çəkmiş şəxs fəaliyyət qabiliyyəti olmayan hesab edildikdə cinayət prosesində onun xüsusi ittihamçı qismində iştirakına xitam verilir, cinayət təqibi xüsusi ittiham qaydasında həyata keçirildikdə isə cinayət təqibi üzrə icraat dayandırılır.

Fəaliyyət qabiliyyəti olmayan mülki iddiaçının qanuni nümayəndəsi yoxdursa, cinayət prosesində onun iştirakına xitam verilir.

Mülki cavabdeh fəaliyyət qabiliyyəti olmayan hesab edildikdə onun cinayət prosesində iştirakına xitam verilir, ona qarşı verilmiş iddia isə cinayət prosesi daxilində baxılmamış saxlanılır.

Cinayət prosesinin məhdud fəaliyyət qabiliyyətli iştirakçısı qanuni nümayəndəsinin razılığı olmadan aşağıdakıları edə bilməz:

– barəsində cinayət qanunu ilə nəzərdə tutulmuş hərəkətin edilməsinə dair şikayətdən imtina etmək;
– zərər çəkmiş, şübhəli və ya təqsirləndirilən şəxslə barışmaq;
– ona qarşı verilmiş mülki iddianı qəbul etmək;
– ona qarşı verilmiş mülki iddiadan imtina etmək;
– öz qanuni mənafeyinin müdafiəsi üçün verilmiş şikayətdən imtina etmək.

**30 il əvvəl Suraxanıda qəsdən öldürülmüş zərərçəkmişin şəxsiyyətinin müəyyən edilməsinə dəstək göstərilməsi üçün əhaliyə müraciət**

Ötən illərdən bağlı qalan qəsdən adam öldürmə cinayətlərinin açılması istiqamətində prokurorluq və daxili işlər orqanlarının səmərəli fəaliyyəti davam etdirilir.

Bakı şəhərinin Suraxanı rayon prokurorluğu və rayon polis idarəsinin əməkdaşları tərəfindən peşəkarlıqla həyata keçirilən birgə istintaq və əməliyyat-axtarış tədbirləri nəticəsində 30 il əvvəl, 1995-ci ilin may ayında




paytaxtın hava limanından taksi fəaliyyəti ilə məşğul olan şəxslər tərəfindən müştəri qismində götürülmüş kişi cinsli şəxsin quldurluqla əlaqədar kəsiçi-deşici alətlə Suraxanı rayonu, Yeni Suraxanı qəsəbəsində qəsdən öldürülməsi cinayətinin üstü açılmaqla, təqsirləndirilən şəxslərin məsuliyyətə cəlb olunması təmin edilmişdir.

Hazırda iş üzrə zərərçəkmişin şəxsiyyətinin müəyyənləşdirilməsi zərurəti yaranmışdır.

Bununla əlaqədar, Azərbaycan Respublikasının Baş Prokurorluğu zərərçəkmişin şəxsiyyətinin müəyyən edilməsinə dəstək göstərməsi üçün əhaliyə müraciət edir:

Zərərçəkmiş şəxsin fərdi əlamətləri:

– Doğum ili: 1955-1970-ci illər aralığında
– Boy: təxminən 175 sm
– Sol dirsək oynağının ön səthində çapıq izləri
– Sol saidin yuxarı və orta 1/3 hissəsinin ön səthində 11 ədəd köhnə, kənarları hamar çapıqlanmış toxuma izləri
– 1995-ci ilin aprel-may aylarında xarici ölkədən (əsasən MDB dövlətləri, o cümlədən Rusiya Federasiyası) hava yolu ilə ölkəyə qayıdıb və həmin dövrdən etibarən itkin düşüb
– MDB dövlətlərində, o cümlədən Rusiya Federasiyasında daimi və ya müvəqqəti yaşayan və yaxud işləmiş

Bu xüsusiyyətlərə uyğun olan və ya belə bir şəxs barədə məlumatı olan şəxslərdən xahiş olunur ki, Bakı şəhər prokurorluğu və ya Suraxanı rayon prokurorluğuna aşağıdakı telefon nömrələri vasitəsilə məlumat versinlər:

(+994 12) 361 04 06
(+994 12) 361 04 09
(+994 12) 361 02 51
“961 Çağrı Mərkəzi”

Baş Prokurorluq ictimaiyyətə öncədən göstərdiyi diqqət, dəstək və əməkdaşlığa görə dərin təşəkkürünü bildirir. Hər bir vətəndaşın verdiyi məlumatın istintaq prosesinə böyük töhfə verdiyini vurğulayır və aidiyyəti şəxsləri məlumat verməyə çağırır.

## Baş Prokurorluqdan özəl turizm agentliyi qismində fəaliyyət göstərən MMC-lər tərəfindən tur paketlərinin və aviabiletlərin alınması ilə əlaqədar vətəndaşların aldadılması faktları ilə bağlı müraciət




Özəl turizm agentliyi qismində fəaliyyət göstərən “JOY TOUR” və “JOY TRAVEL” məhdud məsuliyyətli cəmiyyətlərinin vəzifəli şəxslərinin qanunsuz əməllərinə dair Bakı şəhəri Xətai rayon prokurorluğuna çoxsaylı müraciətlər daxil olub.

Həmin müraciətlər əsasında aparılmış araşdırmalarla müəssisənin təsisçisi İlyasov Rəşad İsgəndər oğlunun öz qulluq mövqeyindən qulluq mənafeyinin ziddinə istifadə edərək müxtəlif xarici ölkələrə səyahət etmək üçün tur paketlərinin və aviabiletlərin alınması məqsədilə müəssisəyə müraciət edən 20-dən artıq şəxsdən aldatmaqla və etibardan sui-istifadə etməklə pul vəsaitlərini alaraq şəxsi ehtiyaclarına sərf edib dələduzluq etməsinə əsaslı şübhələr müəyyən edilib.

Fakta görə rayon prokurorluğunda Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 178.2.2 (dələduzluq, təkrar törədildikdə), 178.2.4 (dələduzluq, xeyli miqdarda ziyan vurmaqla törədildikdə) və 308.1-ci (vəzifə səlahiyyətlərindən sui-istifadə) maddələri ilə cinayət işi başlanıb, Rəşad İlyasov həmin maddələrlə təqsirləndirilən şəxs qismində cəlb edilərək müstəntiqin vəsatəti və ibtidai araşdırmaya prosessual rəhbərliyi həyata keçirən prokurorun təqdimatı əsasında məhkəmənin qərarı ilə onun barəsində həbs qətimkan tədbiri seçilmişdir.

Hazırda ibtida istintaq çərçivəsində “JOY TOUR” və “JOY TRAVEL” məhdud məsuliyyətli cəmiyyətlərində baş vermiş hüquqpozmalar nəticəsində vurulmuş maddi ziyanın və həmin hüquqpozmalara məsul şəxslərin müəyyən edilməsi məqsədi ilə müəssisələrin maliyyə-təsərrüfat fəaliyyətinin kompleks yoxlanılması üçün auditor yoxlaması təyin edilməklə icrası Azərbaycan Respublikasının Auditorlar Palatasına tapşırılıb və müvafiq yoxlamaların nəticəsindən asılı olaraq baş vermiş cinayətin bütün iştirakçılarının ifşa və məsuliyyətə cəlb olunması təmin olunacaqdır.

Bununla əlaqədar, təqsirləndirilən şəxsin qanunsuz əməllərinə məruz qalmış vətəndaşlardan Bakı şəhəri Xətai rayon prokurorluğuna müraciət etmələri xahiş olunur.

# İbtidai araşdırmaya prosessual rəhbərliyin və istintaqa nəzarət fəaliyyətinin həyata keçirilməsinin təşkili və istiqamətləri

**Azərbaycan Prokurorluğunun yarandığı dövrdən bu günə kimi onun əsas fəaliyyət istiqamətləri sırasında ibtidai araşdırmaya prosessual rəhbərlik və nəzarət funksiyasının düzgün təşkili və həyata keçirilməsi mühüm yer tutur. Azərbaycan Respublikasının prokurorluq orqanlarında ibtidai araşdırmaya prosessual rəhbərlik və istintaqa nəzarət funksiyası Azərbaycan Respublikasının Konstitusiyasında, Cinayət və Cinayət-prosessual məcəllələrində, "Prokurorluq haqqında" Qanununda, Respublikamızın tərəfdar çıxdığı beynəlxalq müqavilələrdə təsbit olunmuş norma və prinsiplər əsasında, habelə Azərbaycan Respublikasının Baş Prokurorluğu üzrə 20 iyun 2020-ci il tarixli Sərəncamla təşkil edilmiş İşçi qrupu tərəfindən layihəsi hazırlanaraq, Baş Prokurorluğun 30 iyul 2020-ci il tarixli Kollegiya iclasında təsdiq olunmuş və 01 avqust 2020-ci il tarixdən etibarən bütün prokurorluq orqanlarında qüvvəyə minmiş "İşin Təşkili Qaydaları"na əsasən həyata keçirilir.**

Prokurorluğun "nəzarət" funksiyası Azərbaycanda sovet hakimiyyəti zamanlarında, habelə müstəqilliyimizin ilk dövrlərini də əhatə edən uzun müddət kəsiyində təkamül prosesini keçərək hazırkı formasını əldə etmişdir.

Müstəqil Azərbaycan Respublikasının 1995-ci ildə qəbul olunmuş əsas qanunu olan Konstitusiyamızda prokurorluq orqanlarına konstitusion status verilərək Azərbaycan Respublikasının Prokurorluğuna xüsusi maddə həsr edilmiş, bu mühüm təsisatın dövlət idarəetmə sistemində yeri məhkəmə hakimiyyəti orqanları sırasında müəyyən edilmiş, onun statusu, təşkili və fəaliyyət prinsipləri, səlahiyyət və vəzifələri dəqiqləşdirilmişdir. Konstitusiyanın müddəaları əsasında 7 dekabr 1999-cu ildə qəbul olunmuş "Prokurorluq haqqında" Azərbaycan Respublikasının qanununda prokurorluq sovetlər dönəmindən qalmış bir sıra totalitar rejimə xas funksiyalardan azad edilmiş, o cümlədən həbsə alma səlahiyyəti prokurorluqdan götürülərək məhkəmələrə verilmiş, idarə, müəssisə və təşkilatlar tərəfindən qanunların eyni cür və dürüst icrasına prokurorluq tərəfindən nəzarət (ümumi nəzarət), məhkəmələr üzərində prokurorluğun nəzarəti ləğv edilmiş, onun fəaliyyətinin forma və metodlarının demokratik prinsiplərə və beynəlxalq standartlara cavab verməsi təmin edilmişdir.

Həmçinin 2002-ci il sentyabr ayının 19-da "Azərbaycan Respublikasının Konstitusiyasına dəyişiklik edilməsi haqqında" referendum aktı qüvvəyə minməklə prokurorluğa qanunvericilik təşəbbüsü hüququnun verilməsi və digər tədbirlər nəticəsində prokurorluğun hüquq sistemində rolu yüksəlmiş, həyata keçirilmiş islahatlar nəticəsində prokurorluğun insan hüquq və azadlıqlarının təmin edilməsində, demokratik inkişafa maneə törədən halların aradan qaldırılmasında əhəmiyyəti artmışdır.

"Prokurorluq haqqında" Qanunda prokurorluğun əsas fəaliyyət istiqamətləri göstərilməklə, bu istiqamətlər sırasında prokurorluğun cinayət işi başlamaqla ibtidai istintaq aparması, cinayət işləri üzrə ibtidai araşdırmaya prosessual rəhbərliyin və qanunlara riayət edilməsinin təmin olunması, o cümlədən təhqiqat və əməliyyat-axtarış orqanlarının fəaliyyətində qanunların icra və tətbiq olunmasına nəzarətin həyata keçirilməsi öz əksini tapmışdır.



Azərbaycan Respublikasının cinayət-prosessual qanunvericiliyi beynəlxalq sənədlərin müddəalarına uyğun olaraq, prokurorların cinayət təqibinin insan hüquq və azadlıqları təmin edilməklə, qanunun tələblərinin pozulması hallarına yol verilmədən, hərtərəfli, tam və obyektiv aparılmasına ca-

vabdeh olduğunu, cinayət işləri üzrə ibtidai araşdırmaya prosessual rəhbərliyi həyata keçirdiyini, təhqiqata və ibtidai istintaqa nəzarət etdiyini, məhkəmədə dövlət ittihamının müdafiəsini həyata keçirdiyini müəyyən etmişdir. Bundan irəli gələrək cinayət-prosessual qanunla cinayət prosesində iştirak edən prokurorlara, onların üzərinə qoyulmuş vəzifələrin yerinə yetirilməsinin təmin edilməsi üçün bir sıra səlahiyyətlər verilmişdir.

Bildiyimiz kimi, Azərbaycan Respublikası CPM-nin 215-ci maddəsinə əsasən, cinayət işləri üzrə ibtidai istintaq prokurorluq və Azərbaycan Respublikasının müvafiq icra hakimiyyəti orqanları tərəfindən aparılır. Bu orqanlardan yalnız prokurorluq məhkəmə hakimiyyəti sisteminə aiddir, digərləri isə icra hakimiyyəti orqanları sisteminə daxildir. Buna görə də prokurorluq tərəfindən Cinayət Məcəlləsinin hansı maddəsi ilə istintaq aparıldığı, yəni prokurorluq orqanlarının istintaq aidiyyəti qanunla - CPM-nin 215.3-cü maddəsi ilə müəyyən edilmişdir. Digər hüquq mühafizə orqanlarının (CPM-nin 215-ci maddəsində göstərilən) istintaq aidiyyəti Azərbaycan Respublikası Prezidentinin 25 avqust 2000-ci il tarixli (sonradan edilmiş əlavə və dəyişiklərlə) "Azərbaycan Respublikası Cinayət-Prosessual Məcəlləsinin təsdiq edilməsi, qüvvəyə minməsi və bununla bağlı hüquqi tənzimləmə məsələləri haqqında" Azərbaycan Respublikası Qanununun və həmin Qanunla təsdiq edilmiş "Azərbaycan Respublikası Cinayət-Prosessual Məcəlləsinin təsdiq edilməsi barədə" Fərmanı ilə müəyyən edilir.

İbtidai araşdırma fəaliyyəti cinayət işi üzrə ibtidai istintaq və təhqiqat növündə məhkəməyədək aparılan icraatı nəzərdə tutur. İbtidai araşdırmaya prosessual rəhbərlik ərazi prokurorlarının, habelə Azərbaycan Respublikası Baş Prokurorluğuna daxil olan struktur qurumları tərəfindən müvafiq icra hakimiyyəti orqanlarının istintaq, təhqiqat və əməliyyat-axtarış fəaliyyətində qanunların icrasına nəzarət və aidiyyəti istintaq qurumlarında ibtidai araşdırmaya prosessual rəhbərlik formasında həyata keçirilir.

"Prokurorluq haqqında" Qanun və qüvvədə olan cinayət-prosessual qanunvericiliyi ilə cinayət işləri üzrə aparılan ibtidai araşdırmaya prosessual rəhbərlik prokurora həvalə edilməklə, prokurorun cinayət təqibi ilə bağlı həyata keçirdiyi əsas vəzifələrdən biri kimi müəyyən olunmuşdur. Qanunun tələbinə görə ibtidai araşdırmaya prosessual rəhbərliyi həyata keçirən prokurorlar cinayət işi üzrə məhkəməyədək icraat zamanı cinayət-prosessual qanunvericiliyin müddəalarının icrasına və tətbiqinə məsuliyyət daşıyırlar. İbtidai araşdırmaya prosessual rəhbərliyin həyata keçirilməsi təhqiqat və istintaq orqanlarının fəaliyyətinin qanuniliyinin təmin edilməsinin zəruriliyi ilə şərtlənir. Prokurorun prosessual rəhbərliyi olmadan cinayət prosesinin bu mərhələsində qanunların icrasına mükəmməl nəzarət mümkün deyildir. Təhqiqat və ibtidai istintaq mərhələsində prokurorun ibtidai araşdırmaya prosessual rəhbərliyi təhqiqatçı və müstəntiqin hərəkətlərinin qanuniliyini təmin edən effektiv vasitədir.

Prokurorun ibtidai araşdırmaya prosessual rəhbərliyinin məqsədi ayrı-ayrı istintaq hərəkətlərinin, ümumiyyətlə istintaqın yüksək peşəkarlıq səviyyəsində aparılmasının, istintaq zamanı qanun pozuntularına yol verilməsinin qarşısının alınmasının, insan və vətəndaş hüquq və azadlıqlarının daha etibarlı şəkildə qorunmasının, hər bir cinayət əməli törətmiş şəxsin ifşa edilərək cinayət məsuliyyətinə cəlb edilməsinin mümkünlüyünün, cinayət törətməkdə təqsiri olmayan heç kəsin cinayət məsuliyyətinə cəlb edilməməsinin, cinayət-prosessual qanunvericiliyin müddəalarının icra və tətbiqinin, cinayət işlərinin hərtərəfli, tam və obyektiv araşdırılmasının təmin edilməsindən ibarətdir.

Məhkəməyədək icraat zamanı cinayət-prosessual qanunvericiliyin müddəalarının icrasına və tətbiqinə məsuliyyət daşıması ilə əlaqədar olaraq üzərinə düşən vacib vəzifələrin yerinə yetirilməsini təmin etmək məqsədi ilə qanun ibtidai araşdırmaya prosessual rəhbərliyi həyata keçirən prokurorun geniş səlahiyyətlərini müəyyən etmişdir. Belə ki, Cinayət-Prosessual Məcəllənin 84.5-ci maddəsində göstərildiyi kimi, ibtidai araşdırmaya prosessual rəhbərliyi həyata keçirən prokuror material və cinayət işi üzrə aparılan təhqiqata və istintaqa nəzarət edərkən bir sıra hüquqları həyata keçirir, o cümlədən törədilmiş və ya hazırlanan cinayətlər haqqında daxil olmuş ərizə və digər məlumatların təhqiqat və ibtidai istintaq orqanları tərəfindən qəbulu, qeydiyyatı və həll edilməsində qanunların tələblərinin yerinə yetirilməsi vəziyyətini yoxlayır, təhqiqatçı və müstəntiqdən cinayət işinin materiallarını, ibtidai araşdırmanın gedişi haqda məlumatları tələb edərək, habelə ibtidai araşdırmanın gedişi ilə yerində tanış olaraq cinayət işlərinin materiallarını və sənədlərini yoxlayır, cinayət işinin ibtidai istintaqını aparan bir orqandan digərinə verilməsi halları istisna olmaqla, istintaqın tam, hərtərəfli və obyektiv aparılmasını

təmin etmək məqsədilə, habelə qanunun tələblərinin pozulması ilə istintaq edilən cinayət işini təhqiqatçının və ya müstəntiqin icraatından götürərək digər təhqiqatçının və ya müstəntiqin icraatına vermək, eyni zamanda təhqiqatçı və müstəntiqə, habelə onların özü-özünə verilmiş etirazlara baxmaq, hadisənin araşdırılması, qətimkan tədbirinin seçilməsi, dəyişdirilməsi və ya ləğv edilməsi, əməlin tövsifi, cinayət törətmiş şəxsin axtarışı, ittiham aktının məzmunu, qərarların qəbul edilməsi, habelə istintaq və ya digər prosessual hərəkətlərin aparılması barədə təhqiqatçıya və ya müstəntiqə yazılı göstərişlər vermək və sair digər hüquqlara malikdir.

Cinayət prosesində prokurorun prosessual rəhbərliyi həyata keçirmək səlahiyyəti nə dərəcədə əhəmiyyətlidirsə, eyni zamanda prokuror tərəfindən ibtidai araşdırmaya, təhqiqat və əməliyyat axtarış fəaliyyətində qanunların icrasına nəzarəti həyata keçirmək funksiyası da bir o qədər əhəmiyyət kəsb edən məsələdir.

Cinayət prosesində prokuror nəzarəti institutunun əsas məqsədi qanunların tələblərinə əməl olunmasını təmin etməkdən, vətəndaşların hüquq və azadlıqlarını, hüquqi şəxslərin qanuni mənafelərini qorumaqdan, cinayətkarlıqla mübarizədə qətiyyətli olmaqdan ibarətdir.

Təhqiqat və ibtidai istintaq üzərində prokuror nəzarəti prokurorun təhqiqat və ibtidai istintaq orqanlarının prosessual fəaliyyətinin qanuna uyğunluğunun təmin olunmasına yönəlmiş fəaliyyətini özündə ehtiva edir. Bu nəzarət qanun çərçivəsində və qanuna əsasən həyata keçirilməklə onun formaları Cinayət-Prosessual Məcəllə, “Prokurorluq haqqında” Qanun və “İşin Təşkili Qaydaları” ilə müəyyən edilir.

Fəaliyyətinin xüsusiyyətlərinə görə prokuror nəzarəti təhqiqat və ibtidai istintaq orqanlarının bütün fəaliyyəti üzərində törədilmiş və ya hazırlanan cinayətlər barədə məlumatın daxil olduğu andan işin baxılması üçün məhkəməyə göndərildiyi vaxta qədər qanunlara əməl olunmasının vəziyyətini izləməyə imkan verir. Prokuror nəzarəti mahiyyətcə hüquq pozuntularının faktiki hallarının müəyyən edilməsi və pozulmuş hüquqların bərpa edilməsinə dair prosessual fəaliyyətdir.

Ümumilikdə istintaqa nəzarət işinin təşkili dedikdə, istintaqa nəzarətin bilavasitə ibtidai araşdırmaya prosessual rəhbərliyi həyata keçirən prokurorun özü tərəfindən həyata keçirilməsi, (hansı ki, bu həmin statusda olan prokurorun bilavasitə vəzifəsi kimi qanunda nəzərdə tutulur), digər tərəfdən isə yuxarı prokuror tərəfindən istintaqa nəzarət işinin təşkil olunması və bu nəzarətin həyata keçirilməsi başa düşülür.

Qanunvericiliyə əsasən “yuxarı prokuror”un xüsusi statusu vardır və onun səlahiyyətləri ilə bağlı məsələlər konkret olaraq tənzimlənmişdir.

Belə ki, Azərbaycan Respublikası Cinayət-Prosessual Məcəlləsində 25 halda yuxarı prokuror anlayışından istifadə edilmişdir. Məcəllənin 46, 84, 85, 112, 122, 212, 218, 281, 282, 290, 450, 451 və 452-ci maddələrində “yuxarı prokuror”un səlahiyyətlərinin dairəsi müəyyənləşdirilmişdir.

Qanunvericiliyin tələblərinə əsasən “yuxarı prokuror”un səlahiyyətlərinə aşağıdakılar aid edilmişdir:

– İbtidai araşdırmaya prosessual rəhbərliyi həyata keçirən prokurora icrası məcburi olan göstərişlər verir; (CPM 84.8-ci m.)

– Cinayət təqibi üzrə məhkəməyədək icraatın gedişi zamanı ibtidai araşdırmaya prosessual rəhbərliyi həyata keçirən prokurora verilmiş etirazlara baxır; (CPM 112-ci m.)

– İbtidai araşdırmaya prosessual rəhbərliyi həyata keçirən prokurorun hərəkətindən və ya qərarından cinayət prosesinin iştirakçıları, habelə bu Məcəllədə nəzərdə tutulmuş hallarda və qaydada cinayət prosesində iştirak edən digər şəxslər tərəfindən verilmiş şikayətlərə baxır; (CPM 122-ci m.)

– Təhqiqatçının, müstəntiqin və ya ibtidai araşdırmaya prosessual rəhbərliyi həyata keçirən prokurorun cinayət işinin başlanmasının rədd edilməsi haqqında qərarından verilmiş şikayətlərə baxır. Kifayət qədər əsaslar olduğu təqdirdə göstərilən qərarı ləğv edir, 10 (on) gündən artıq olmayan müddətdə əlavə yoxlama keçirilməklə və yaxud keçirilməməklə cinayət işinin başlanması haqqında qərar qəbul edir və onu ibtidai istintaqın aparılması üçün ibtidai araşdırmaya prosessual rəhbərliyi həyata keçirən prokurora göndərir, yaxud cinayət işinin başlanmasının rədd edilməsi haqqında çıxarılmış qərarı dəyişdirilmədən saxlayır; (CPM 212-ci m.)

– Təqsirləndirilən şəxslər barəsində seçilmiş həbs, ev dustaqlığı qətimkan tədbirlərinin təkrar uzadılması barədə məhkəmə nəzarətini həyata keçirən məhkəmələrə müvafiq təqdimatlar verir; (CPM 159-cu m.)

– Cinayət işləri üzrə istintaq müddətlərinin uzadılması barədə qərarlar qəbul edir; (CPM 218-ci m.)

– Cinayət işləri üzrə icraata xitam verilməsi və icraatın dayandırılması haqqında qərarların qa-

nuniliyini yoxlayır. Kifayət qədər əsaslar olduğu təqdirdə göstərilən qərarları ləğv edir, yaxud çıxarılmış qərarı dəyişdirilmədən saxlayır; (CPM 279 və 281-ci m.)

– Cinayət prosesini həyata keçirən orqanın prosessual hərəkətlərindən və ya qərarlarından şikayətlərə məhkəmə nəzarətini həyata keçirən məhkəmələrdə baxılarkən məhkəmə iclasında iştirak edir; (CPM 450-ci m.)

– Elan olunduqdan sonra 3 (üç) gün müddətində həbs qismində qətimkan tədbirinin seçilməsi və ya bundan imtina barədə, habelə həbsdə saxlama müddətinin uzadılması barədə hakimin qərarından protest verir. (CPM 452-ci m.)

Təhqiqat və ibtidai istintaqa birbaşa nəzarət edən prokurorun və yuxarı prokurorun fəaliyyətinin artırılması, bu sahədə daha səmərəli iş üslubunun tətbiqinin, konkret nəticələrin əldə olunmasına yönəlmiş üsul və vasitələrdən istifadənin təmin edilməsi məqsədilə Azərbaycan Respublikası Prezidentinin 2020-ci il 10 iyun tarixli 2088 nömrəli Sərəncamı ilə təsdiq edilmiş Azərbaycan Respublikası Baş Prokurorluğunun Yeni Strukturuna əsasən, Mərkəzi aparat üzrə struktur qurumların sayı 15-dən 18-ə artırılaraq Xidməti araşdırmalar idarəsi, Cinayət təqibindən kənar icraatlar idarəsi və Xüsusi müsadirə məsələlərinin əlaqələndirilməsi idarəsi Yeni Struktura daxil edilmişdir.

Həmçinin idarəçilik, icra və intizam, kadrlarla iş, sənədlərin dövriyyəsi, prosessual rəhbərlik və nəzarət fəaliyyətinin təşkili, eləcə də struktur qurumlarla rayon (şəhər) prokurorluqları arasında münasibətlərin tənzimlənməsi kimi ayrı-ayrı sferaların tənzimlənməsini müasir tələblər səviyyəsində təmin etmək məqsədi ilə Azərbaycan Respublikasının Baş Prokurorluğu üzrə 01 avqust 2020-ci il tarixdən qüvvəyə minmiş "İşin Təşkili Qaydalari" ilə birlikdə istintaqa nəzarətin həyata keçirilməsi də mahiyyət etibarı ilə yenilənmişdir. Rayon (şəhər) prokurorluqlarında istintaqı aparılan ağır və xüsusilə ağır cinayətlər üzrə ittiham aktlarının Baş prokurorun birinci müavini tərəfindən təsdiqlənməsi təcrübəsindən imtina edilmiş, ittiham aktlarının qanunla səlahiyyət verilmiş ibtidai araşdırmaya prosessual rəhbərliyi həyata keçirən prokuror tərəfindən təsdiqlənməsi qaydası təsbit edilmişdir.

Bundan əlavə, nəzarətin tamamilə elektron qaydada həyata keçirilməsi prosedurları müəyyənləşdirilmişdir. Belə ki, tabe prokurorluqlarda cinayət işinin istintaqının aparılmasına, törədilmiş və ya hazırlanan cinayətlər haqqında məlumatlara baxılmasına, qanunvericiliyin tələblərinə uyğun həyata keçirilməsinə mütəmadi olaraq, "Elektron cinayət" proqramının imkanlarından istifadə etməklə nəzarət edilməsi qaydası təsbit edilmişdir.

Mərkəzi icra hakimiyyəti orqanlarının aidiyyəti qurumlarının istintaq, təhqiqat və əməliyyat-axtarış fəaliyyətində qanunların icrasına nəzarəti həyata keçirən Baş Prokurorluğun müvafiq struktur qurumları törədilmiş və ya hazırlanan cinayətlərə dair ərizə və məlumatların qəbulu, qeydiyyatı və həll edilməsi zamanı qanunçuluğa riayət olunması, istintaq və təhqiqat orqanlarında qəbul olunmuş qərarların qanuniliyinin və əsaslılığının yoxlanılması, əsassız və qanunsuz qərarların ləğv edilməsi, istintaq və təhqiqatın hərtərəfli, tam və obyektiv aparılması, cinayət təqibi çərçivəsində insan hüquqlarının və azadlıqlarının qorunması, pozulmuş hüquqların bərpası sahəsində qanunvericiliklə üzərlərinə qoyulmuş vəzifələrin həyata keçirilməsini təmin edirlər.

Baş Prokurorluğun "İşin Təşkili Qaydaları" ilə Baş Prokurorluğun istintaq, təhqiqat və əməliyyat-axtarış fəaliyyətində qanunların icrasına nəzarəti həyata keçirən struktur qurumlarına və bütün tabe prokurorluqlara müstəntiq və təhqiqatçıların fəaliyyətinin səmərəliliyinin artırılması, ciddi nəzarət mexanizminin yaradılması, tabeçilikdə olan əməkdaşların məsuliyyətinin yüksəldilməsi, xidməti və icra intizamının möhkəmləndirilməsi, istintaq üsul və metodlarının təkmilləşdirilməsi, ibtidai araşdırmaya prosessual rəhbərliyin gücləndirilməsi, bununla yanaşı ibtidai araşdırma zamanı insan hüquq və azadlıqlarının pozulması, qeyri-qanuni istintaq üsullarının tətbiqi barədə daxil olmuş müraciətlərə vaxtında baxılması və zəruri tədbirlərin görülməsi tapşırılmışdır.

Hesab edirik ki, məhz bu tapşırıqların vaxtında və düzgün icra edilməsi bir daha prokuror nəzarətinin və prosessual rəhbərlik sahəsində müsbət iş təcrübəsinin, o cümlədən istintaq, təhqiqat və əməliyyat-axtarış fəaliyyətində qanunların icrasının, istintaqın tam, obyektiv və hərtərəfli aparılmasını təmin edən işlərin uğurla davam etdirilməsinə öz töhfəsini verəcək və prokurorluq əməkdaşlarının fəaliyyətində müsbət təcrübənin təşviqinə xidmət etmiş olacaqdır.

**Fazil Həsənəliyev,**
**Baş Prokurorluğun**
**Elm-Tədris Mərkəzinin rəisi,**
**III dərəcəli dövlət ədliyyə müşaviri.**

## Süni intellekt – cinayətin subyekti

**Süni intellekt son vaxtlar gündəlik həyatımızda sıx rastlaşdığımız və istifadəsindən yararlandığımız texnoloji bir yenilikdir. Qabaqcıl ölkələr və şirkətlər bu inqilabi yeniliyin faydasından yararlanmağı hədəfləyərək bu sahəyə iri həcmli investisiyalar qoyurlar. Bəşəriyyətimiz buxar maşınlarının istehsal prosesinə inteqrasiyası ilə başlayan 1-ci sənaye inqilabından elektrik enerjisinin ixtirası ilə istehsal prosesinin daha da şaxələndirildiyi 2-ci sənaye inqilabına, ardınca rəqəmsal texnologiyanın tətbiqi ilə qlobal xarakter alan 3-cü sənaye inqilabına keçid edərək artıq təkmilləşdirilmiş robotexnika və süni intellektin tətbiqi ilə başlayan 4-cü sənaye inqilabına keçid mərhələsindədir.**



Məqsədi insanlar tərəfindən yerinə yetirilə bilməyən, çətin və ya çox vaxt aparan işlərin avtomatlaşdırılaraq asanlaşdırılması olan süni intellekt insanların hərəkətlərini öyrənmək və təqlid etmək üçün tələb olunan zəkanın proqramlaşdırılmış mexanizmlərdə simulyasiyasıdır. Robotdan fərqli olaraq süni zəka təcrübə ilə öyrənə bilir və tapşırıqları insana bənzər şəkildə yerinə yetirməyi bacarır. Başqa sözlə, robot əvvəlcədən müəyyən edilən konkret alqoritmlər üzərində işləyir bundan kənara çıxa bilmir. Süni intellekt isə avtonom rejimdə hərəkət edir və müəyyən məqamlarda müstəqil qərar verə bilir.

Bir çox qlobal şirkətlər tərəfindən uğurla tətbiq olunan və səmərəsindən faydalanılan süni intellekt tədricən həyatın daha geniş sahələrini əhatə etməkdədir. Sosial, iqtisadi, təhlükəsizlik və s. cəhətdən müsbət və mənfi cəhətləri cox müzakirə olunan süni intellektin bir də hüquqi məsuliyyət problemi artıq doktrinal polemikaların predmetinə çevrilmişdir. Süni intellektin hüquqi məsuliyyəti məsələsinə hipotetik yanaşaraq əgər süni intellekt müstəqil qərar vermək imkanına malikdirsə və bundan irəli gələrək səhv qərar vermək riski də varsa o zaman öz qərarının nəticələri üçün hesabat vermək qabiliyyəti və məsuliyyəti olmalıdır fikrini irəli sürənlərlə yanaşı, süni intellektin nə qədər özünü doğruldacağı və hara qədər təkmilləşdirilə biəcəyi bəlli olmadığı üçün bu barədə düşünməyin hələ tez oduğunu irəli sürərək onun hüquqi məsuliyyət mexanizminin necə tənzimlənəcəyinə skeptik yanaşan mövqelər də vardır. Lakin təkzibolunmaz reallıq ondadır ki, süni intellektin hüquq pozuntusu törədə biləcəyi mümkündür. Nəzərə alaq ki, "Tesla" şirkətinin istehsal etdiyi süni intellektlə təchiz olunmuş sürücüsüz avtomobillər və ya "Google"un "Waymo" layihəsi əsasında hərəkət edən sürücüsüz avtomobillər yol hərəkəti qaydasını pozarsa və bunun nəticəsində kiməsə xəsarət yetirərsə (yaxud ölümünə səbəb olarsa) hüquqi məsuliyyət məsələsi necə tənzimlənəcək. Yaxud da, süni intellekt tərəfindən real olaraq yol verilmiş hüquq pozuntuları – "Air Canada" şirkətinin tətbiq etdiyi "chatbot"un sərnişinlərə yanlış məlumat verməsi səbəbindən şirkətin böyük həcmdə təzminat ödəməli olması, "i-Tutor group" şirkətinin insan resursları ilə bağlı tətbiq etdiyi "İBM" şirkətinə məxsus süni intellektin diskriminasiyaya yol verməsi səbəbindən məhkəməyə verilməsi, "Ava Trade" şirkətinin tətbiq etdiyi "Microsoft" şirkətinə məxsus süni intellektin sahibkarlara yanlış birja məlumatları təqdim edərək maddi ziyana düşmələrinə səbəb olması, "Amazon" şirkətinin tətbiq etdiyi süni intellektin alıcılara yanlış kosmetik vasitələr göndərərək sağlamlıqlarına zərər vurmasını və s. bənzər halları nəzərə alsaq bu kimi hüquqi mübahisələrin hansı qaydada tənzimlənəcəyi ilə bağlı xeyli suallar yaranır.

Süni intellektin mülki hüquqi məsuliyyətə səbəb olan əməlləri ilə bağlı məsələlərin istehsalçı şirkətə qarşı məhkəmələrdə iddia qaldırılması yolu ilə aradan qaldırılması mümkündür. Bu zaman süni intellekti istehsal edən şəxslərin və zərərçəkənlərin fərqli ölkələrdə olması poblemi ilə üzləşilə bilinəcəyi üçün təbii ki, burada məhkəmə qərarlarının qarşılıqlı olaraq tanınması və icrası ilə bağlı beynəlxalq hüquqi tənzimləməyə də, gərək yaranacaqdır. Lakin süni intellektin ictimai təhlükəli nəticələrə səbəb ola bilən əməlləri ilə bağlı məsələ o qədər də asan olmayacaq. Bu cür əməllərin

anqlo-sakson (common law) hüquq sistemində "tort law" icraatı çərçivəsində səhlənkar hərəkət (negligence) kimi qiymətləndirilərək ziyan və üstəgəl məhkəmə xərclərindən (legal costs) ibarət təzminat ödənişi ilə həlli mümkündür. Lakin roman-german (civil law) hüquq sistemində (o cümlədən Azərbaycan Respublikasının qanunvericiliyində) ehtiyatsızlıqdan (və ya səhlənkarlıqdan) törədilən və ictimai təhlükəli nəticələrə səbəb olan əməllər cinayət hesab olunduğu üçün süni intellektin səbəb olduğu bu cür nəticələr təbii olaraq cinayət hesab ediləcək. Bu isə özlüyündə maraq doğuran bəzi suallar yaradacaqdır:

– Süni intellekt cinayətin subyekti ola bilərmi?

– Onun törətdiyi cinayət əməlləri ilə bağlı məsuliyyətə kim cəlb olunmalıdır?

– Süni intellektin özü cinayət məsuliyyətinə cəlb olunmalıdırsa cəzadan irəli gələn məhrumiyyətlərə məruz qalıb iztirab çəkmək, peşmançılıq duymaq, islah olunmaq, özünü tərbiyələndirmə kimi insana xas xüsusiyyətlərə malik olmayan, yarı robot yarı canlı hesab edə biləcəyimiz varlıqlara tətbiq edəcəyimiz cəza nə dərəcədə məqsədinə nail olacaq? Yeni cəza növləri yaxud cinayət-hüquqi tədbirlər düşünülə bilərmi?

– Onu istehsal edən şəxs (fiziki və ya hüquqi şəxs) cinayət məsuliyyətinə cəlb olunmalıdırsa bu zaman başqa bir ölkədə yerləşən həmin şəxsi cinayət prosesinə daxil edib mühakimə etmək mümkün olacaqmı? Üstəlik təqsirsizlik prezumpsiyasını da göz önünə gətirsək süni intellekt sensorlar vasitəsilə məlumat toplayaraq həmin ana uyğun olaraq özü müstəqil qərar qəbul edir və bu qərara uyğun davranırsa bu zaman onu hazırlayan şəxs təqsiri olmadan məsuliyyətə necə cəlb olunacaq?

– Cinayət-hüquqi tədbir olaraq süni intellektin tətbiqinə məhdudiyyət qoyula bilərmi? Bu halda digər istifadəçilərin mənafeyi nəzərə alına bilinəcəkmi?

Hazırkı dövr üçün konspirativ səslənə bilər, lakin yaxın gələcəkdə süni intellektin tətbiqinin genişlənərək həyatın bir çox sahələrini əhatə edəcəyi şübhə doğurmur. Ona görə də, süni intellektin səbəb ola biləcəyi hüquq pozuntularından irəli gələn məsuliyyətlə bağlı hüquqi tənzimetmənin yaradılması və ondan da əvvəl müvafiq hüquqi ideologiyanın formalaşması mühümdür.

**Anar Həsənov,**
**Naxçıvan şəhər prokurorunun**
**müavini ədliyyə müşaviri.**

## Konstitusion vəzifələr və vətəndaşlıq borcu

Hər bir insan vətəndaşı olduğu ölkə qarşısında müəyyən vəzifə və mənəvi məsuliyyət daşıyır. Bu isə vətəndaşlıq borcu və ya vətəndaşların konstitusion vəzifələri ilə bağlıdır. Cəmiyyətdə hər bir şəxsin davranışı və fəaliyyəti isə onun əməllərində ifadə olunur. Elə əməllər ki, bunlar nə cəmiyyətə, nə də şəxsiyyətin mənafeyinə zərər vurmasın. Yəni, hüquqauyğun davranış hesab edilsin. Hüquqauyğun davranış isə dövlətin hüquq normalarında nəzərdə tutulan ictimai və şəxsi mənafelərin ödənilməsinə yönəlmiş sosial-faydalı hərəkətdir.

Azərbaycan Respublikası Konsitutsiyasının 4-cü fəsli vətəndaşların əsas vəzifələrinə həsr olunub. Əsas Qanunumuzda qeyd olunur ki, dövlət və cəmiyyət qarşısında hər bir şəxs onun hüquq və azadlıqlarından bilavasitə irəli gələn vəzifələr daşıyır. Hər kəsin üzərinə vəzifələr yalnız Azərbaycan Respublikasının Konstitusiyası ilə və ya qanunla qoyula bilər. Hər bir şəxs Azərbaycan Respublikasının Konstitusiyasına və qanunlarına əməl etməli, başqa şəxslərin hüquq və azadlıqlarına hörmət bəsləməli, qanunla müəyyən edilmiş digər vəzifələri yerinə yetirməlidir. Hər bir şəxs həm dövlət qarşısında, həm də cəmiyyət qarşısında müəyyən öhdəliklər daşıyır. Cəmiyyətin mütəşəkkilliyi isə ümumi maraqlarla şəxsi maraqların harmoniyasından yaranır. Belə maraqların ahəngdarlığı ictimai həyatın sabitliyini və inkişafını təmin edir. Çünki, hər birimiz yaşadığımız cəmiyyətin bir üzvü kimi müəyyən öhdəliklər daşıyırıq. Şəxsi hüquq və vəzifələr bir-biri ilə sıx bağlı olan və hüquq münasibətlərinin məzmununu müəyyən edən ən vacib ünsürlərdən biridir. Ulu Öndər Heydər Əliyev deyirdi: ***"Heç bir vətəndaş ictimai-siyasi həyata biganə qalmamalıdır".*** Türkiyə Cümhuriyyətinin qurucusu Mustafa Kamal Atatürk isə qeyd edirdi ki, ***"Vətənini ən çox sevən vəzifəsini ən yaxşı yerinə yetirəndir".***

Vətən millətin və xalqın yer üzərindəki ünvanıdır. Vətənə sədaqət isə müqəddəsdir. Ulu Öndər Heydər Əliyev qeyd edirdi ki, ***"Gərək nəbzin Vətənin nəbzi ilə vursun".*** Bu müqəddəslik isə həm mənəvi borc, həm də konstitusion vəzifədir. Vəzifəyə seçilmə və ya təyinat yolu ilə qanunvericilik, icra və ya məhkəmə hakimiyyəti orqanlarında işləyən şəxslər öz vəzifələrini dürüst və layiqincə yerinə yetirməməyə görə məsuliyyət daşıyırlar və qanunla müəyyən edilmiş hallarda and içirlər. Vətənə səadqət vəzifəsindən və kimliyindən asılı olmayaq hər bir vətəndaşın müqəddəs borcudur. Əxlaqi baxımdan isə Vətənə sədaqət hər bir şəxsdə vətənpərvərlik hisslərinin olması ilə müəyyən edilir. Vətənə sədaqət vətənpərvərlikdən başlayır. Vətənə sədaqət təkcə vətəndaşların "Sədaqət andı" ilə məhdudlaşmır. Ümummilli Liderimiz deyirdi ki, ***"Vətənpərvərlik insanın daxilindəki duyğulardır. Əgər bunlar yoxdursa, o insan mənəviyyatsızdır".***

Konstitusiyada təsbit olunmuş digər bir vəzifə isə dövlət rəmzlərinə hörmətdir. Hər bir vətəndaş Azərbaycan Respublikasının dövlət rəmzlərinə - bayrağına, gerbinə və himninə hörmət etməlidir. Azərbaycan Respublikasının dövlət rəmzləri Azərbaycan Respublikasının Dövlət Bayrağı, Azərbaycan Respublikasının Dövlət Gerbi və

Azərbaycan Respublikasının Dövlət Himnidir. Dövlər rəmzləri hər bir dövlətin varlığını təəcəssüm etdirən əsas amildir. Ulu Öndər qeyd edirdi: ***"Xalqımız üçün qürur hissini yaradan, iftixar hissini verən odur ki, o, artıq azad yaşayır, öz taleyinin sahibidir və Azərbaycan xalqının dünya xalqları içərisində imzası var".*** Bəli, xalqın imzası onun dövlət rəmzlərində ifadəsidir. Azərbaycan Respublikasının Dövlət Bayrağı Azərbaycan dövlətinin suverenliyinin rəmzidir. Azərbaycan Xalq Cümhuriyyətinin üçrəngli Dövlət Bayrağı ilk dəfə 1918-ci il noyabrın 9-da Azərbaycan Xalq Cümhuriyyəti Nazirlər Şurasının binası üzərində qaldırılıb. 1920-ci il aprelin 27-nə – Azərbaycan Xalq Cümhuriyyətinin süqutuna qədər dövlət bayrağı statusuna malik olan bu bayraq Sovet Rusiyasının qoşunlarının Azərbaycanı işğal etməsi nəticəsində 1920-ci il mayın 3-də Azərbaycan parlamentinin binası üzərindən endirilib. Azərbaycan Xalq Cümhuriyyətinin yadigarı olan həmin bayraq 1990-cı il noyabrın 17-də Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri, xalqımızın Ümummilli Lideri Heydər Əliyevin təşəbbüsü və rəhbərliyi ilə keçirilən sessiyada Naxçıvan Muxtar Respublikasının dövlət bayrağı kimi təsdiq edilib. Eyni zamanda, Naxçıvan Muxtar Respublikası Ali Məclisi bu bayrağın Azərbaycanın rəsmi dövlət rəmzi kimi tanınması barədə Azərbaycan SSR Ali Soveti qarşısında vəsatət qaldırıb. 1991-ci il fevralın 5-də Azərbaycan Respublikasının Ali Soveti həmin vəsatətə baxıb və bu bayrağın yenidən Azərbaycanın Dövlət Bayrağı kimi qəbul olunması haqqında qərar qəbul edib. Sonralar Ümummilli Lider bu barədə deyirdi: ***"Mən belə fikirdəyəm ki, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin qəbul etdiyi qərarlar Azərbaycan Respublikasının işinə çox təsir etdi və Azərbaycan rəhbərliyi bir neçə belə qərarın qəbul edilməsində məcburiyyət qarşısında qaldı. Naxçıvan Muxtar Respublikasının üzərində bu bayraq 1990-cı il noyabrın 17-də, Azərbaycan Respublikasında isə 1991-ci il fevralın 5-də dalğalandı".*** Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 2009-cu il noyabrın 17-də imzaladığı Sərəncamla hər il noyabrın 9-u ölkədə Dövlət Bayrağı Günü kimi qeyd edilir. 2010-cu il sentyabrın 1-də Bakıda Dövlət Bayrağı Meydanının təntənəli açılış mərasimində Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Dövlət Bayrağının xüsusi əhəmiyyətini vurğulayaraq demişdir: ***"Bizim bayrağımız qürur mənbəyimizdir. Bizim bayrağımız canımızdır, ürəyimizdir. Bu gün Azərbaycanın hər bir yerində Dövlət Bayrağı dalğalanır. Azərbaycan ərazi bütövlüyünü bərpa edəndən sonra milli Dövlət Bayrağımız bu gün hələ də işğal altında olan torpaqlarda qaldırılacaqdır. Bizim bayrağımız Dağlıq Qarabağda, Xankəndidə, Şuşada dalğalanacaqdır. O günü biz hər an öz işimizlə yaxınlaşdırmalıyıq və yaxınlaşdırırıq. Eşq olsun, Azərbaycan Bayrağına!".*** Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev 2023-cü il oktyabrın 15-də Xankəndi şəhərində Azərbaycan Respublikasının Dövlət Bayrağını ucaltdıqdan sonra çıxış edərkən söyləmişdir: "***Mən qürur hissi ilə Azərbaycan Bayrağını bu gün qaldırmışam və doğma xalqıma bir daha demək istəyirəm ki, biz bu Qələbəyə layiqik. Azərbaycan xalqı bu Qələbəni öz qanı, canı bahasına əldə etmişdir. Bu gün burada qaldırdığım Bayraq burada əbədi dalğalanacaq və biz burada əbədi yaşayacağıq".*** Ölkə Prezidentinin Sərəncamı ilə 2010-cu ildən etibarən hər il noyabr ayının 9-u Azərbaycanda Dövlət Bayrağı Günü kimi qeyd olunur.

Azərbaycan Respublikasının Dövlət Gerbi Azərbaycan dövlətinin müstəqilliyinin rəmzidir. Müasir Dövlət Gerbi Azərbaycan Xalq Cümhuriyyəti dövründə yaradılmış gerb layihəsinin müəyyən dəyişikliklər edilmiş formasıdır. Azərbaycan Xalq Cümhuriyyəti hökuməti 1920-ci il yanvarın 30-da Dövlət Gerbi haqqında müsabiqə elan etmiş və müsabiqədən keçəcək gerb nümunəsinin həmin il mayın 28-də qəbul ediləcəyi haqqında qərar çıxarmışdır. Lakin 1920-ci il aprelin 28-də Azərbaycan Xalq Cümhuriyyətinin süqutu nəticəsində Dövlət Gerbi haqqında qərarın qəbulu mümkün olmamışdır. 1990-cı il noyabrın 17-də Naxçıvan Muxtar Respublikasının Ali Məclisi Dövlət Gerbi ilə bağlı məsələni müzakirə edərək, Azərbaycan SSR Ali Soveti qarşısında Azərbaycanın Dövlət Gerbinin hazırlanması üçün yeni müsabiqənin elan olunması haqqında vəsatət qaldırmışdır. 1993-cü il yanvarın 19-da Konstitusiya Qanunu ilə Azərbaycan Respublikasının Dövlət Gerbi kimi təsdiq edilmişdir. 2018-ci il noyabrın 2-də "Azərbaycan Respublikası Dövlət Gerbinin təsvirinin təsdiq edilməsi haqqında" Azərbaycan Respublikasının Konstitusiya Qanunu qəbul edilmişdir.

Azərbaycan Respublikasının Dövlət himni Azərbaycan dövlətinin, onun müstəqilliyinin və birliyinin müqəddəs rəmzidir. 1920-ci il yanvarın 30-da Azərbaycan Xalq Cümhuriyyətinin Nazirlər Şurası Cümhuriyyətin milli himninin hazırlanması haqqında qərar qəbul etdi və bu məqsədlə Xalq Maarif Nazirliyi tərəfindən müsabiqə elan olundu. Lakin 1920-ci il aprelin 28-də Xalq Cümhuriyyətinin süqutu Azərbaycanın milli himnini qəbul etməyə imkan vermədi. 1992-ci il mayın 27-də Azərbaycan Respublikasının Milli Məclisi "Azərbaycan Respublikasının Dövlət himni haqqında" Qanun qəbul etdi. Azərbaycan Respublikasının 1993-cü il 2 mart tarixli Qanunu ilə "Azərbaycan Respublikasının Dövlət Himni haqqında Əsasnamə" təsdiqlənmişdir. "Azərbaycan Respublikası Dövlət Himninin musiqisinin və mətninin təsdiq edilməsi haqqında" Azərbaycan Respublikasının 2018-ci il 2 noyabr tarixli Konstitusiya Qanununa uyğun olaraq musiqisi Üzeyir Hacıbəyliyə, sözləri Əhməd Cavada məxsus olan "Azərbaycan marşı" Azərbaycan Respublikasının Dövlət Himni kimi təsdiq edildi. Ümummilli Lider Heydər Əliyev demişdir: ***"Biz öz himnimizi, bayrağımızı özümüz qədər sevməliyik. Çünki bu, bizim Vətənimizə, millətimizə, dövlətimizə olan sədaqət, sevgi və məhəbbətin rəmzidir!".***

Konstitusiyada qeyd olunur ki, Vətəni müdafiə hər bir vətəndaşın borcudur. Qanunla müəyyən edilmiş qaydada vətəndaşlar hərbi xidmət keçirlər. Vətənin müdafiəsində iştirak etmək və hərbi xidmət hər bir vətəndaşın hüquqi vəzifəsi olmaqla yanaşı, həm də

onun müqəddəs borcudur. Ulu Öndər qeyd edirdi ki, ***"Xalqın, Vətənin taleyi hər bir insanın taleyinə çevrilməlidir". Hər bir Vətən övladı bilir ki, Vətən ancaq üzərində gəzdiyimiz, yaşadığımız torpaq parçası deyil. Vətən uğrunda nə qədər qurbanlar verilib. Özünün bayrağı, müstəqilliyi, suverenliyi, milli dövlət himni, sərhədləri olan torpağa Vətən deyilir. "Əgər hər hansı ölkənin xalqları öz hüquqlarını anlayır və onları qoruya bilirsə, o zaman ən kiçik dövlət belə ən böyük məmləkət qədər güclü olar"*** – deyirdi Ulu Öndər. Vətən azadlıqdır. Torpağın Vətən olması üçün düşmənlərlə mübarizə aparmaq, onun üzərində zəfər qazanmaq lazımdır. Xalq yalnız öz Vətənini qorumaqla gələcəyinə təminat verə bilər. Vətənə olan sevgimiz bizi ucaldır. Vətənin müdafiəsi bizim üçün inanc, iman olmalıdır. 44 günlük Vətən müharibəsində isə xalqımız Ali Baş Komandanın rəhbərliyi altında müqəddəs Vətən torpaqlarını işğaldan azad etdi. 2020-ci il noyabrın 8-i Azərbaycan tarixinə qızıl hərflərlə Zəfər günü kimi yazıldı. Uğrunda minlərlə şəhid verdiyimiz bu torpağın mənəvi dəyəri çox yüksəkdir. Vətən bizə əcdadlarımızın ən dəyərli əmanətidir. Onu qorumaq isə hər birimizin borcudur. Şair Məmməd Arazın poetik dili ilə desək: Vətən daşı olmayandan, olmaz ölkə vətəndaşı.

***"Mədəniyyət bəşəriyyətin topladığı ən yaxşı nümunələrlə xalqları zənginləşdirir"*** – deyirdi Ulu Öndər. Tarix və mədəniyyət abidələrini qorumaq isə hər bir şəxsin borcudur. Çünki, tariximizin hər səhifəsi bizim üçün əzizdir. Tarix və mədəniyyət abidələrinin qorunması, öyrənilməsi və ondan səmərəli istifadə edilməsi ilə bağlı münasibətlər isə müfaviq qanunvericlik aktları ilə tənzimlənir. Lakin, tarix və mədəniyyət abidələrini qorumaq təkcə qanunvericlik aktları ilə yox, həm də vətəndaşlıq borcu naminə olmalıdır. Çünki, Ulu Öndərin qeyd etdiyi kimi: ***"Yüksək mədəniyyətə malik olan xalq həmişə irəli gedəcək, həmişə yaşayacaq, həmişə inkişaf edəcəkdir".***

Ətraf mühitin qorunması hər bir şəxsin borcudur. Ətraf mühiti qorumaq və ona qayğı ilə yanaşmaq vəzifəsi həm hüquqi, həm də əxlaqi dəyərlərlə ölçülür. Hər bir şəxs öz həyat fəaliyyəti prosesində bu və ya digər formada təbiətlə, ətraf mühitlə təmasda olur. Bu görə də hər kəs istər məişətdə, istərsə də istirahət zamanı qanunvericiliklə müəyyən edilmiş vəzifəsini yerinə yetirməlidir. Ətraf mühiti qorumaq vəzifəsi əmək fəaliyyəti nəticəsində təbiətdən istifadə edən və ətraf mühitə təsir edə biləcək hər bir şəxsin üzərinə düşür. Təbiəti qorumaq üçün məcburiyyətdən öncə təbiətə sevgi lazımdır. Bəli, təbiət düşünür və düşündürür. Təbiət haqqında yalnız hər il 5 iyun – Ümumdünya ətraf mühitin mühafizəsi günündə yox, ilin bütün günlərində düşünməliyik. Hər bir şəxsin ətraf mühiti qorumaq və ona qayğı ilə yanaşmaq vəzifəsi həm hüquqi, həm də əxlaqi dəyərlərlə ölçülür. Ətraf mühiti qorumaq və ona qayğı ilıə yanaşmaq cəmiyyətin hər bir üzvünün mənəvi borcudur. Ulu Öndər Heydər Əliyevin "Bakını yaşıllıqlar diyarına çevirək" təşəbbüsü ilə köhnə Bakıda yeni bağlar, xiyabanlar, yaşıllıq zonaları salınmışdı. Ulu Öndər bu prosesin icrası məsələsinə məntiqi yanaşaraq qeyd etmişdi: "Bakı şəhərində 1 milyon 261 min adam yaşayır. Əgər şəhərin hər bir sakini bir neçə il ərzində ikicə ağac əkib yetişdirsə, Bakının ətrafında neçə-neçə park və meşə salınar".

Ümummilli Lider Heydər Əliyevin ölkənin ekoloji vəziyyətinin yaxşılaşdırılması, ağacların əkilməsi, xüsusən də Bakıda və Abşeron yarımadasında yaşıllıq zolaqların genişləndirilməsi üçün verdiyi tapşırıqlar, su ehtiyatlarının çirklənməsinin qarşısının alınması, ölkənin su təchizatı, inkişafı və dirçəlişi istiqamətində gördüyü tədbirlər onun layiqli davamçısı ölkə Prezidenti cənab İlham Əliyevin rəhbərliyi altında bu gün də uğurla davam etdirilir. 15 dekabr 2023-cü ildə BMT-nin İqlim Dəyişikliyi üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyasının ölkəmizdə keçirilməsi ilə əlaqədar Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin sədrliyi ilə keçirilən müşavirədə cənab Prezident bildirmişdir: ***"Mən şübhə etmirəm ki, COP-29 beynəlxalq konfransını da biz yüksək səviyyədə keçirəcəyik, bu, ölkəmizin, xalqımızın növbəti böyük uğuru olacaq. Eyni zamanda, Azərbaycan neft-qaz ölkəsi kimi bu sahədə də özünü göstərəcəkdir və dünyada hər kəs bir daha görəcək ki, bizim gündəliyimiz yaşıl enerji ilə bağlıdır. Yaşıl enerji növlərinin yaradılması və yaşıl enerjinin dünya bazarlarına nəqli hazırda bizim enerji siyasətimizin prioritetidir. Bu, reallıqdır və bütün dünya bunu bir daha görəcək."***

Biz Konstitusiya ilə hər bir şəxsin üzərinə qoyulan vəzifələr barədə qeyd etdik. Bu vəzifələr hər birimiz üçün vətəndaşlıq borcudur. Heç kəs Azərbaycan Respublikasının Konstitusiyasına və ya qanunlarına zidd vəzifələrin icrasına məcbur edilə bilməz. Konstitusiyanın və qanunların pozulması, o cümlədən Konstitusiyada və qanunlarda nəzərdə tutulan hüquqlardan sui-istifadə və ya vəzifələrin yerinə yetirilməməsi qanunla müəyyən edilən məsuliyyətə səbəb olur. Yəni, hüquqi vəzifələr hüquq və azadalıqların məhdudlaşdırılmasını tələb edir. Bu məhdudlaşdırmalar isə başqa şəxslərin hüquq və azadlıqlarını lazımı şəkildə qəbul etmək və ona hörmətlə yanaşmaqda ifadə olunur.

Hər bir şəxs isə cəmiyyət qarşısında öz məsuliyyətini dərk edərək vətəndaşı olduğu dövlətin əbədiliyi, mənsub olduğu xalqın tərəqqisi naminə öz vətəndaşlıq borcunu layiqincə yerinə yetirməlidir. Çünki, bu əminliyi və inamı bizə müstəqil Azərbaycan dövlətinin qurucusu və memarı Ulu Öndər vermişdir: ***"Mən inanıram, əminəm ki, biz müstəqilliyinin geniş yoluna çıxacağıq və Azərbaycan müstəqil dövlət kimi yaşayacaq, Azərbaycanın dövlət müstəqilliyi əbədi, dönməz olacaq və bizim müstəqilliyimizi, milli azadlığımızı heç kəs heç bir yolla sarsıda bilməyəcəkdir".***

**Faiq Səfərov,**
**Naxçıvan Muxtar Respublikası**
**Prokurorluğunun Hüquqi təminat və**
**insan hüquqları məsələləri şöbəsinin rəisi,**
**baş ədliyyə müşaviri.**

# TÜRK DÖVLƏTLƏRİNDƏ PROKURORLUQ ORQANLARININ KONSTİTUSİONAL-HÜQUQİ STATUSU VƏ MÜQAYİSƏLİ TƏHLİLİ

**GİRİŞ:** Türk xalqlarının minilliklərə söykənən dövlətçilik ənənəsi, hüquq və idarəçilik mədəniyyəti bəşər sivilizasiyasının dövlətçilik tarixinin mühüm tərkib hissəsidir. Tarixi mənbələr göstərir ki, Böyük Hun, Göytürk və digər türkmənşəli imperiyalar dövründə ənənəvi idarəçilik prinsipləri, hüquq normaları və dövlətin mövcudluğunun yeganə dayaqlarından biri olan törə qaydaları türklərin böyük dövlətçilik məktəbi yaratmağında birbaşa rol oynamışdır. Təsadüfi deyil ki, əsrlərin sınağından keçmiş bu tarixi irs türk xalqlarının milli kimliyinin mühüm elementi kimi bu gün də türk dövlətlərində müasir dövlət quruculuğu proseslərinin ənənəvi və hüquqi özülünü təşkil edir.

Bu gün müstəqil türk dövlətləri olan Azərbaycan, Türkiyə, Qazaxıstan, Qırğızıstan, Özbəkistan və Türkmənistan yarandığı dövrdən bəri müxtəlif siyasi və hüquqi inkişaf yolu keçsələr də, ortaq tarixi köklərdən və hüquq ənənələrindən qaynaqlanan oxşar hüquq institutlarına malikdirlər. Buna görə də, son dövrlərdə, türk dövlətlərinin vahid platforması olan Türk Dövlətləri Təşkilatı çərçivəsində bütün sahələrdə olduğu kimi hüquqi islahatlar sahəsində də ardıcıl və yekdil addımların atılması bir tərəfdən tarixi dövlətçilik irsinə sonsuz sədaqət nümunəsi, digər tərəfdən isə hüquq və ədliyyə sahəsində təcrübə mübadiləsi, vahid yanaşmaların formalaşdırılması və milli qanunvericiliklərin uyğunlaşdırılması istiqamətində mühüm addımlar sisteminin üzvi hissəsi kimi böyük əhəmiyyət kəsb edir.

Bu kontekstdə türk dövlətlərində ayrı-ayrılıqda hüquq institutlarının işlənib-araşdırılması olduqca səmərəli fəaliyyət olmaqla bərabər, hüquq institutlarının spesifik xüsusiyyətlərini üzə çıxarmağa, digər tərəfdən isə ümumtürk hüquq sisteminin ümumi prinsiplərini müəyyənləşdirməyə imkan verir. Bu baxımdan, ən önəmli hüquq institutlarından bir olan prokurorluq orqanlarının konstitusional-hüquqi statusunun müqayisəli təhlili xüsusi aktuallıq kəsb edir. [1, 2]

Məqalənin bu mövzuda işlənməsi yalnız nəzəri baxımdan deyil, həm də praktiki baxımdan böyük əhəmiyyət daşıyır. Nəzəri müstəvidə məqalə prokurorluq orqanlarının dövlət hakimiyyəti sistemindəki mövqeyini və funksional rolunu müəyyənləşdirir və aydınlaşdırır. Praktiki baxımdan isə çoxtərəfli formatda türk dövlətləri arasında qarşılıqlı hüquqi əməkdaşlığın güclənməsinə, prokurorluq institutunun fəaliyyətində qabaqcıl təcrübələrin paylaşılmasına və inteqrasiya proseslərinə töhfə verir.

**ƏSAS HİSSƏ:** Müasir dövrdə türk dövlətlərində mühüm hüquq institutlarından biri kimi prokurorluq statusu, təşkilati quruluşu, funksiyaları və təyinat mexanizmləri baxımından öz spesifikliyi ilə diqqəti cəlb edir. Qeyd etmək yerinə düşər ki, türk dövlətlərinin hüquq sistemində bu institutun formalaşması təqribən eyni dövrə təsadüf etsə də, postsovet türk dövlətlərində nisbətən paralel gedən bu proses Türkiyə hüquq sistemində fərqli inkişaf yolu keçmişdir. Lakin, Sovetlər Birliyinin dağılmasından sonra müstəqillik qazanan türk dövlətlərində prokurorluq institutunun inkişafı və formalaşması özünəməxsus xarakter almış, yeni hüquqi və funksional mexanizmlərin yaradılması ilə prokurorluq orqanlarının fəaliyyəti və iş prinsipi təkmilləşdirilmişdir. Məhz, bu baxımdan prokurorluq orqanlarının konstitusional-hüquqi statusunun 2 istiqamət üzrə araşdırılması sistemli və müqayisəli hüquqşünaslıq yanaşmasının keyfiyyətinə təminat verəcəkdir:

a. *Tarixi əsaslar*
b. *Konstitusional əsaslar*

### 1. Tarixi əsaslar

Hər şeydən əvvəl qeyd etmək lazımdır ki, türk dövlətlərində prokurorluq orqanlarının yaranmasının tarixi XIX əsrin sonu-XX əsrin əvvəllərinə təsadüf edir. Belə ki, ümumi yanaşma ilə türk dövlətləri içərisində ilk dəfə olaraq 1879-cu ilin iyul ayında (hicri 1293-cü ildə) Türkiyə Cümhuriyyətinin hüquqi varisi olduğu Osmanlı dövlətinin qəbul etdiyi 1876-cı il Əsas Qanununun 91-ci maddəsinə[3] əsaslanaraq qəbul edilən ***"Məhakim-i nizamiyyənin təşkilatı qanun-i müvəqqəti"*** yəni, ***"Nizamiyyə məhkəmələrinin təşkili haqqında müvəqqəti qanun"***la prokurorluq və ya əsl adı ilə "müdde-i umumilik" *(Azərbaycan dilinə tərcümədə **"müdde" iddiaçı, ittiham edən, "umumilik" isə ümumilik, ictimai** mənasına gəlir)* institutu yaradılmışdır.[4] Nəzərə almaq lazımdır ki, bu institutun XIX əsrə qədər mövcud olmasının ən obyektiv səbəbi islam hüququnun tətbiq edildiyi dövlətlərdə cinayət işləri üzrə istintaq prosesinin birbaşa məhkəmə tərəfindən aparılması idi. Daha konkret desək, islam hüququnda prokurorluq institutu mövcud deyildi. Buna baxmayaraq, adı çəkilən həmin qanunun "müdde-i umumilər" adlanan ikinci fəslinin 56-cı maddəsi ilə bütün nizamiyyə məhkəmələrində prokurorluq orqanları təsis edilmişdi.[5] Həmin maddədə prokurorun əsas vəzifə və səlahiyyətləri göstərilərək deyilirdi: *"Müdde-i umumilər ədliyyə işlərində ictimai hüquqları qorumaq üçün Sultan tərəfindən təyin*

*edilən məmurlardır. Onların əsas vəzifəsi isə asayişin və ictimai hüququn qorunması məqsədilə qanuni hökmlərin düzgün icrasına nəzarət etməkdən ibarətdir."* Buradan görmək olur ki, Tənzimat dövrü Osmanlı dövlətində prokurorun vəzifə və səlahiyyətləri müasir prokurorluq institutuna olan yanaşmadan demək olar ki, fərqlənmirdi.

Cümhuriyyət elan edildikdən sonra prokurorluq institutunun legitim bir institut kimi qorunub saxlanması 1925-ci ildə 669 saylı Danıştay Qanunu ilə rəsmiləşdirildi və "müdde-i umumilər" adı ilə prokurorluq orqanları yenidən təşkil olundu[6].

Qeyd olunanlarla yanaşı müasir türk dövlətləri kontekstində prokurorluq institutunun yaranması Azərbaycan Xalq Cümhuriyyətinin adı ilə bağlıdır. Belə ki, *müasir türk dövlətlərinin tarixində ilk dəfə olaraq* Azərbaycan Xalq Cümhuriyyətinin Nazirlər Şurasının ***1 oktyabr 1918-ci il tarixli qərarı*** ilə Bakı Dairə Məhkəməsinin tərkibində prokurorluq orqanları fəaliyyətə başlamışdı[7]. Qısamüddətli fəaliyyəti ərzində ardıcıllıqla Baş prokurorlar F.Xoyski, X.Xasməmmədov, A.Safikürdski, T.Makinskinin rəhbərliyi ilə ilk milli prokurorluq orqanları bir sıra böyük uğurlara (məsələn, kütləvi şəkildə erməni soyqırımına məruz qalmış şəxslər barəsində cinayət işlərinin başlanılması, maddi sübutların toplanması və sənədləşdirilməsi və.s kimi) imza atmış, lakin, 1920-ci il sovet işğalı bu fəaliyyətin davamlılığına imkan verməmişdir[8].

Mərkəzi Asiya türk dövlətlərində isə prokurorluq orqanlarının formalaşması və təşəkkülü nisbətən daha sonraya – sovetlər dönəminə təsadüf edir. Belə ki, Ümumrusiya Mərkəzi İcraiyyə Komitəsinin 28 may 1922-ci il tarixli fərmanı ilə ***"Prokuror nəzarəti haqqında Əsasnamə"*** qəbul edilmiş, qanunlara əməl olunmasına nəzarət və cinayətkarlığa qarşı mübarizə aparmaq məqsədi ilə Xalq Ədliyyə Komissarlığının (Xalq Komissarlığının) tərkibində Dövlət Prokurorluğu yaradılmışdı[9]. Həmin dövrdə sovetlər dövrünü yaşayan bütün müttəfiq respublikalar kimi Mərkəzi Asiya türk dövlətlərində də Xalq Ədliyyə Komissarlığı tabeliyində prokurorluq orqanları yaradıldı. Qəbul edilmiş qərara əsasən "Prokuror nəzarəti haqqında Əsasnamə" təsdiq edildi və Xalq Ədliyyə Komissarı həm də prokuror vəzifələrini yerinə yetirməyə başladı. Beləliklə, 1922-ci ildən etibarən Qazaxıstan, Özbəkistan və Türkmənistanda ilk prokurorluq orqanları fəaliyyətə başladı[9, 10]. Bundan fərqli olaraq, Qırğızıstanda prokurorluq orqanları 1924-cü ilin noyabrında yaradıldı. Buna səbəb 14 oktyabr 1924-cü ildə Rusiya Sovet Sosialist Federativ Respublikasının tərkibində Qara-Qırğız Muxtar Vilayətinin nisbətən sonra yaradılması oldu.[11] Məhz, bu muxtar vilayətin təşkilindən sonra ***1924-cü il noyabrın 22-də*** Qara-Qırğız Muxtar Vilayəti İnqilab Komitəsinin Rəyasət Heyətinin 6 saylı qərarı ilə 15 nəfərdən ibarət ilk milli prokurorluq orqanları yaradıldı[12]. Həmin dövrdə prokurorluq orqanları digər sovet respublikalarında olduğu kimi Xalq Ədliyyə Komissarlığı sisteminə, vilayət prokurorunun xidməti isə vilayət komitəsinin strukturuna daxil edildi[11]. 1936-cı ildə Qırğızıstan SSR təşkil olunan zaman isə prokurorluq Xalq Ədliyyə Komissarlığı sistemindən ayrılaraq müstəqil struktur kimi təşkil olundu. Qırğızıstan MSSR Prokurorluğunun bazasında Qırğızıstan SSR Prokurorluğu yaradıldı.

## 2. Konstitusional əsaslar

### 2.1. Konstitusional status baxımından

***Azərbaycan Respublikası Konstitusiyasının 133-cü, Türkiyə Respublikasının Konstitusiyasının 140-cı, Özbəkistan Respublikası Konstitusiyasının 143-146-cı (XXV fəsil), Qazaxıstan Respublikası Konstitusiyasının 83-cü, Qırğızıstan Respublikası Konstitusiyasının 78-ci, Türkənistan Respublikası Konstitusiyasının isə 129-133-cü maddələri*** prokurorluq orqanlarının konstitusional-hüquqi statusunu nizamlayır. Qeyd olunan maddələr üzrə prokurorluq orqanlarının konstitusional-hüquqi statusuna nəzər yetirdiyimizdə müşahidə edə bilərik ki, bu status müasir türk dövlətlərinin Konstitusiyalarında dolğunluq və əhatəlilik cəhətdən fərqli səviyyədə tənzimlənmişdir. Belə ki, Azərbaycan Respublikasının Konstitusiyasının 133-cü maddəsində göstərilir ki, *"Azərbaycan Respublikasının Prokurorluğu qanunla nəzərdə tutulmuş qaydada və hallarda qanunların icra və tətbiq olunmasına nəzarət edir; qanunla nəzərdə tutulmuş hallarda cinayət işləri başlayır və istintaq aparır; məhkəmədə dövlət ittihamını müdafiə edir; məhkəmədə iddia qaldırır; məhkəmə qərarlarından protest verir"*[13]. Bu paraqraf prokurorluq orqanlarının konstitusional-hüquqi əsasını təşkil edən qanunçuluğa nəzarət funksiyasını açıq şəkildə müəyyən edir və prokurorluğu dövlətin məhkəmə hakimiyyəti sistemində ayrılmaz bir institut kimi təqdim edir. Bu xüsusiyyətinə görə konstitusiyamızın 133-cü maddəsi ölkəmizin konstitusiyasında prokurorluq orqanlarının statusunun vahid maddə ilə tənzimlənməsinə baxmayaraq, məzmunu və mahiyyəti etibarilə olduqca əhatəli və təkmildir.

Özbəkistan Respublikasında isə konstitusional əsas daha geniş və bir neçə maddə üzrə təsbit olunmuşdur.[14] Özbəkistan Respublikası Konstitusiyasının 143-146-cı maddələri göstərir ki, *"qanunlara ciddi və vahid əməl olunmasına nəzarəti Özbəkistan Respublikasının Baş prokuroru və ona tabe olan prokurorlar həyata keçirirlər"* (maddə 143) və prokurorluq orqanları *"öz səlahiyyətlərini hər hansı dövlət orqanlarından, ictimai birliklərdən və vəzifəli şəxslərdən asılı olmayaraq həyata keçirirlər və yalnız Özbəkistan Respublikasının Konstitusiyasına və qanunlarına tabedirlər"* (maddə

145)[14]. Bu müddəalar prokurorluğun həm müstəqilliyini, həm də dövlət orqanlarından siyasi asılılığa yol verilməməsini konstitusional əsas kimi müəyyən edir.

Qazaxıstan Respublikasının Konstitusiyasının 83-cü maddəsində prokurorluğun konstitusional statusu, həmçinin onun mərkəzləşdirilmiş təşkilati-quruluşu və səlahiyyətləri təsbit olunmuşdur.[15] Maddəyə əsasən, "Prokurorluq dövlət adından və qanunla müəyyən edilmiş hədlərdə və qaydada Qazaxıstan Respublikasının ərazisində qanunçuluğa riayət olunmasına nəzarət edir, məhkəmədə dövlətin mənafeyini təmsil edir və dövlət adından cinayət təqibini həyata keçirir". Diqqət etdiyimizdə görürük ki, burada prokurorluq institutunun dövlət hüquq sistemində konstitusional rolu açıq ifadə olunmuşdur və digər türk dövlətlərində prokurorluq orqanlarının səlahiyyətləri ilə demək olar ki, analoji səciyyə daşıyır.

Qırğızıstan Respublikasının Konstitusiyasının 78-ci maddəsində isə qeyd olunur ki, *"Qanunvericilik aktlarının dəqiq və vahid icrasına nəzarət Qırğızıstan Respublikasının Prokurorluğu tərəfindən öz səlahiyyətləri daxilində həyata keçirilir"*[16]. Diqqət etdiyimizdə görə bilirik ki, Qırğızıstan Konstitusiyası prokurorluğun statusunu daha çox ümumi təsbit edir, hüquq sistemindəkini yerini qeyd etməklə kifayətlənir. Bu, onu deməyə əsas verir ki, Qırğızıstanda prokurorluq orqanlarının statusu daha çox qanunla tənzimlənir.

Türkmənistan Respublikasının Konstitusiyasının 129-133-cü maddələrində prokurorluğun konstitusional əsaslarını geniş şəkildə müəyyən edir. Xüsusilə, Türkmənistan Respublikasının Konstitusiyasının 132-ci maddəsində vurğulanır ki, *"Baş prokuror və ona tabe olan prokurorlar öz səlahiyyətlərini həyata keçirərkən yalnız qanunu rəhbər tuturlar"*[17]. Bu, prokurorluğun fəaliyyətinin konstitusiyaya və qanunlara tam uyğun olmasını təmin edir və prokurorluğun müstəqilliyini bir prinsip kimi konstitusional statusa qədər qaldırır.

Türkiyə Respublikası Konstitusiyasında prokurorluq orqanlarının statusu isə nisbətən daha fərqlidir. Belə ki, konstitusiyanın 140-cı maddəsi göstərir ki, Türkiyə hüquq sistemində prokurorluq müstəqil orqan statusuna malik deyil və məhkəmə hakimiyyətin tərkibində digər prokurorluq orqanlarına münasibətdə daha məhdud statusa malikdir. Konstitusiyada qeyd olunan"Hakimlər və prokurorlar məhkəmə və inzibati məhkəmələrin hakimləri və prokurorları vəzifəsini yerinə yetirirlər. Bu vəzifələri peşəkar hakimlər və prokurorlar həyata keçirirlər" ifadələri prokurorluğun konstitusional əsaslarını digər postsovet türk ölkələri ilə müqayisədə fərqləndirir[18].

## 2.2. Təşkilati quruluş

Türk dövlətlərində prokurorluq orqanlarının təşkilati quruluşu da konstitusiyalarda yer yerilən əsas məsələlərdən biridir. Lakin, qeyd etmək yerinə düşər ki, bu istiqamət üzrə Azərbaycan, Türkiyə, Özbəkistan, Qazaxıstan və Türkmənistan Konstitusiyalarında müddəalara rast gəldiyimiz halda, Qırğızıstan Konstitusiyasında belə müddəaya yer verilməmişdir.

Azərbaycan Respublikasının Konstitusiyasının 133-cü maddəsində qeyd olunur ki, *"Azərbaycan Respublikasının Prokurorluğu ərazi və ixtisaslaşdırılmış prokurorların Azərbaycan Respublikası Baş prokuroruna tabeliyinə əsaslanan vahid mərkəzləşdirilmiş orqandır"*[19]. Bu müddəanın birbaşa konstitusiyada qeyd olunması prokurorluğun vahid idarəetmə prinsipinə əsaslanan ali təşkilati quruluşundan xəbər verir. Bu baxımdan, analoji mərkəzləşdirilmiş prokurorluq sisteminə Özbəkistan, Qazaxıstan və Türkmənistan Respublikalarının Konstitusiyasında da rast gəlmək mümkündür:

1. **Özbəkistan RK. Maddə 144. I hissə**

*"Özbəkistan Respublikasının Baş Prokuroru prokurorluq orqanlarının mərkəzləşdirilmiş sisteminə rəhbərlik edir."*[20]

2. **Qazaxıstan RK. Maddə 83. II hissə**

*"Respublika Prokurorluğu aşağı prokurorların yuxarı prokurorlara və respublikanın Baş prokuroruna tabe olması ilə vahid mərkəzləşdirilmiş sistem təşkil edir."*[21]

3. **Türkmənistan RK. Maddə 131. I hissə**

*"Türkmənistanın Baş Prokuroru dövlət ittihamı orqanlarının vahid mərkəzləşdirilmiş sisteminə rəhbərlik edir."*[22]

Qırğızıstan Respublikasının Konstitusiyasında prokurorluq orqanlarının statusunun 78-ci maddə ilə nizamlanmasına baxmayaraq, bu maddədə Qırğızıstanda prokurorluq orqanlarının təşkilati quruluşu ilə bağlı məsələlərə rast gəlinmir. Bununla belə, Qırğızıstanda prokurorluq orqanlarının təşkilati quruluşu ***"Qırğızıstan Respublikasının Prokurorluğu haqqında" Qırğızıstan Respublikasının Konstitusiya Qanununun*** *"Prokurorluq sistemi" adlı 10-cu maddəsinin I və II hissələri* ilə müəyyən olunur.[23] Həmin maddədə deyilir:

I hissə

*"Qırğız Respublikasında Prokurorluq sistemi Baş Prokurorluq, hərbi prokurorluq, rayonların, Bişkeş və Oş şəhərlərinin prokurorluqları, habelə ixtisaslaşmış prokurorluqlar və qarnizonların rayon (şəhər) və hərbi prokurorluqlarından ibarətdir."*

II hissə

*"Qırğızıstan Respublikasının prokurorluq orqanlarında prokurorluğun vahid sisteminə daxil olan qurumlar yaradıla bilər."*

Türkiyə Respublikası Konstitusiyasının 140-cı maddəsində mahiyyəti üzrə prokurorluq məhkəmə haki-

miyyətin bir hissəsi kimi təsbit olunub. Belə ki, demək olar ki, 140-cı maddənin bütün bəndlərində hakimlər və prokurorlar üçün eyni statuslar müəyyən olunub.[24] Lakin, vahid və mərkəzləşmiş prokurorluq sistemi haqqında heç bir müddəa qeyd edilməyib. Buna baxmayaraq, Türkiyədə prokurorluq sistemi vahid və sistemləşmişdir. Prokurorluq sisteminin başında olan "Yargıtay Cümhuriyyət Başsavcısı" (Ali Məhkəmə yanında Baş Prokuror) ölkənin baş prokuroru hesab olunur və kassasiya mərhələsində dövlət ittihamını müdafiə edir. Baş prokurorluğun sisteminə bundan əlavə hər bir məhkəmə dairəsində olan Cümhuriyyət Başsavcıları (baş prokurorlar) və Cümhuriyyət Savcıları (prokurorlar) daxildir.

### 2.3. Səlahiyyətlər və funksiyalar

Müqayisələr göstərir ki, müasir türk dövlətlərinin konstitusiyalarında prokurorluq orqanlarının səlahiyyət və funksiyaları ümumi prinsiplər və spesifik icra mexanizləri çərçivəsində müəyyən olunmuşdur. Belə ki, Azərbaycan (Maddə 133), Özbəkistan (Maddələr 143–146), Qazaxıstan (Maddə 83), Qırğızıstan (Maddə 78) və Türkmənistan (Maddələr 130–132) Konstitusiyalarında prokurorluğun ***qanunların icrasına nəzarət və cinayət işlərinin aparılması*** funksiyası əsas səlahiyyətləri kimi göstərilir. Bu göstərir ki, post-sovet məkanında prokurorluq dövlət hüquq sistemində ***qanunların icrasına vahid hüquqi nəzarət institut kimi*** qəbul edilir. Eyni zamanda, Azərbaycan, Özbəkistan və Qazaxıstan modelində **dövlət mənafeyinin məhkəmədə qorunması və dövlət ittihamçılığı funksiyası** açıq şəkildə təsbit olunub ki, bu da prokurorluğun mərkəzləşdirilmiş və dövlət hüquq sisteminə inteqrasiya olunmuş statusunu təmin edir.

Qeyd etdiyimiz oxşarlıqlarla yanaşı müasir türk dövlətlərinin konstitusiyalarında prokurorluq orqanlarının bir sıra spesifik funksiya və səlahiyyətləri də mövcuddur. Hansı ki;

Azərbaycan Respublikasının Konstitusiyasında prokurorluğun funksiyaları həm qanunların icrasına nəzarət, həm cinayət işlərinin başlanması və istintaq, həm məhkəmədə iddia qaldırmaq, həm də məhkəmə qərarlarına protest vermək kimi geniş və spesifikdir[25]. Bu, onu dövlətin hüquq sistemində daha aktiv və funksional institut kimi qərarlaşdırır. Özbəkistan Respublikası Konstitusiyasında da prokurorluq orqanlarının oxşar funksiyaları göstərilmişdir. Lakin, əlavə olaraq **siyasi neytrallıq** və **müstəqillik prinsipi** konstitusional səviyyədə vurğulanması olduqca əhəmiyyətli bir hal kimi vurğulanmalıdır (Maddə 145)[26].

Qazaxıstan Respublikası Konstitusiyasında prokurorluq orqanlarının konstitusional səlahiyyətləri dövlət mənafeyinin qorunması və qanunçuluğa nəzarət ilə məhdudlaşır (Maddə 83, I bənd). Digər cəhətdən konstitusiyaya görə Baş prokuror yalnız Prezident qarşısında hesabatlıdır (Maddə 83, II bənd)[27]. Bu isə funksiyaların müstəqil icra imkanlarının bu və ya digər cəhətdən məhdudlaşdırması riskini özündə ehtiva edir.

Qırğızıstan Respublikası Konstitusiyada funksiyalar daha ümumi təsbit olunmuşdur (Maddə 78)[28]. Prokurorluq orqanlarının səlahiyyətlərinin konstitusional şəkildə qanunların icrası və cinayət təqibi olaraq qeyd edilməsi prokurorluq orqanlarının səlahiyyətləri baxımından hüquqi elastikliyi artırsa da, konstitusioanl şəkildə vahid və geniş səlahiyyət dairəsinin olmaması koordinasiya və idarəetmədə qeyri-müəyyənlik yaradır.

Türkmənistan Respublikasının Konstitusiyasında prokurorluğun səlahiyyətləri əməliyyat və cinayət təhqiqatının qanuniliyinə nəzarət (Maddə 130) və məhkəmə icraatında iştirak (Maddə 129, II bənd) ilə məhdudlaşdırılıb[29]. Burada əsas diqqət cəlb edən məqamlardan biri spesifikliyin geniş səlahiyyətlərdən çox, səlahiyyətlərin qanuniliyə fokuslanmasında özünü göstərir. Belə ki, konstitusiyanın 133-cü maddəsinə əsasən, prokurorluq orqanlarının digər səlahiyyətlərinin qanunla nizamlanmasının birbaşa təsbit olunması da əhəmiyyətli məqamlardan biri kimi vurğulanmalıdır.

Türkiyə Respublikası Konstitusiyada prokurorluq orqanları hakimlər korpusunun tərkib hissəsi olduğu üçün funksiyalar daha çox qanunla tənzimlənir və konstitusiyada detallı təsbit olunmur, bu isə müstəqil səlahiyyət dairəsinin digər ölkələrlə müqayisədə məhdud olduğunu növbəti nümunəsi kimi çıxış edir.

### 2.4. Kadr siyasəti və təyinat mexanizmləri

Prokurorluq orqanlarının fəaliyyətinin səmərəliliyini təmin edən əsas amillərdən biri də kadr siyasəti və təyinat mexanizmlərinin konstitusional şəkildə tənzimlənməsidir. Müqayisələr göstərir ki, Azərbaycan, Özbəkistan, Qazaxıstan və Türkmənistan Konstitusiyaları bu məsələyə xüsusi diqqət yetirir, Qırğızıstan və Türkiyə Konstitusiyaları isə bu istiqamətə daha ümumi yanaşma nümayiş etdirirlər. Belə ki, **Azərbaycan** *(Maddə 133),* **Özbəkistan** *(Maddə 144),* **Qazaxıstan** *(Maddə 83)* və **Türkmənistan** *(Maddə 131)* konstitusiyalarında ***Baş prokurorun xüsusi statusu və təyinat mexanizmi*** ayrıca təsbit olunmuşdur. Bu ölkələrdə baş prokurorun təyin edilməsi dövlətin ali hakimiyyət subyektlərinin — prezident, parlament və ya onların birgə iştirakının səlahiyyətinə daxil edilir. Bu oxşarlıq o mənaya gəlir ki, prokurorluğun kadr siyasətində yüksək siyasi legitimliyin təmin olunması mühüm şərt kimi *hakimiyyətlərin bölgüsünün balanslaşdırılmasına* xidmət edir.

Qeyd olunan oxşarlıqlarla yanaşı kadr siyasəti və təyinat mexanizmləri istiqaməti üzrə spesifik əlamətlərdə mövcuddur. Belə ki, **Azərbaycan Respublikası Konstitusiyasının 133-cü maddəsinə əsasən,** Baş Prokuror Azərbaycan Respublikasının Prezidenti tərəfindən, Milli Məclisin razılığı ilə vəzifəyə təyin edilir və azad olunur *(III bənd).* Azərbaycan Respublikası Baş prokurorunun müavinlərini, respublika ixtisaslaşdırılmış prokurorluqlarına rəhbərlik edən prokurorları, Naxçıvan Muxtar Respublikasının prokurorunu Azərbaycan Respublikası Baş prokurorunun təqdimatı ilə Azərbaycan Respublikasının Prezidenti vəzifəyə təyin və vəzifədən azad edir *(IV bənd)*[30]. Ərazi və ixtisaslaşdırılmış prokurorları Azərbaycan Respublikası Prezidentinin razılığı ilə Azərbaycan Respublikasının Baş prokuroru vəzifəyə təyin və vəzifədən azad edir *(V bənd).* Azərbaycan Respublikası Konstitusiyasında prokurorluq orqanlarında təyinatlarla bağlı olan məsələlərdə ***həm Prezidentin, həm də parlamentin iştirakı*** nəzərdə tutulur ki, bu da ***hakimiyyətlər bölgüsü prinsipinin balanslaşdırılmış formada tətbiqinin*** sübutdur.

**Özbəkistan Respublikası Konstitusiyasının 143 və 144-cü maddələrində** göstərilir ki, prokurorluq sisteminə Baş Prokuror rəhbərlik edir. Özbəkistan Respublikasının Qaraqalpaqıstan Muxtar Respublikasının prokuroru isə Baş Prokurorla razılaşdırılmaqla yerli ali nümayəndəlik orqanı tərəfindən təyin edilir *(Maddə 144, II bənd)*[31]. Rayonların, şəhərlərin və qəsəbələrin prokurorlarını Özbəkistan Respublikasının Baş prokuroru təyin edir *(Maddə 144, III bənd).* Özbəkistan Respublikasının Baş prokuroru, Qaraqalpaqıstan Muxtar Respublikasının prokuroru, rayon, şəhər və qəsəbə prokurorlarının səlahiyyət müddəti beş ildir *(Maddə 144, IV bənd).* Eyni şəxs ardıcıl iki müddətdən artıq Özbəkistan Respublikasının Baş prokuroru vəzifəsini tuta bilməz *(Maddə 144, V bənd).* Göründüyü kimi Özbəkistan Respublikasında prokurorluq orqanlarının konstitusional statusunun mütərəqqi və spesifik cəhəti kimi bu modeldə **rotasiya prinsipi** və **mərkəz-yerli balansının qorunması prinsipinin** mövcud olmasıdır.

**Qazaxıstan Respublikasının Konstitusiyasının 83-cü maddəsinə** əsasən, Respublikanın Baş Prokuror yalnız Prezident qarşısında cavabdehdir və o öz səlahiyyətləri ərzində Senatın razılığı olmadan həbs edilə, məhkəməyə verilə, cinayət yerində tutulma və ya ağır cinayətlər haqqında iş istisna olmaqla, məhkəmə tərəfindən təyin edilmiş inzibati tədbirlərə cəlb edilə və ya cinayət məsuliyyətinə cəlb edilə bilməz *(III bənd)*[32]. Baş prokurorun səlahiyyət müddəti beş ildir (III bənd). ***Prezidentin prokurorluq orqanları sahəsindəki dominant rolu*** və ***Baş Prokurorun xüsusi hüquqi immunitetinin konstitusional təminatının olması*** Qazaxıstan Respublikasında prokurorluq orqanlarının konstituional statusu etibarilə, spesifik cəhəti olmaqla bərabər, Respublika Baş prokurorunun səlahiyyətləri, təşkili və fəaliyyət qaydasının konstitusiya qanunu ilə müəyyən edilməsi *(IV bənd)* də prokurorluq orqanlarına dövlət səviyyəsində göstərilən diqqətin nümunəsidir.

**Türkmənistan Respublikasının Konstitusiyasında** prokurorluq orqanlarının kadr siyasəti və təyinat mexanizmləri ilə bağlı geniş məlumatlar qeyd edilməmişdir. Bununla belə Baş Prokurorun və digər prokurorların vəzifəyə təyin və azad olunma qaydasının qanunla müəyyən edilməsi konstitusiyasının **131-ci maddəsində** göstərilmişdir[33]. Burada, kadr siyasəti və təyinat mexanizmləri ilə bağlı digər türk dövlətlərinin konstitusiyalarının əksinə konkret siyasi institutların rolu göstərilmədən, konstitusiyada ümumi prinsiplər müəyyən olunmuş və bu kimi məsələlər normativ hüquqi aktların *(Prokurorluq orqanlarının səlahiyyətləri, formalaşma qaydası və fəaliyyəti **qanunla** müəyyən edilir.)* tənzimetməsinə buraxılmışdır *(Maddə 133).*

Qırğızıstan Respublikaların Konstitusiyasında prokurorluq orqanların konstitusional hüquq statusunda kadr siyasəti və təyinat mexanizmləri ilə bağlı məlumatlara demək olar ki, rast gəlinmir. Yalnız, Türkiyə Respublikası Konstitusiyasının 140-cı maddəsinin bir neçə bəndində kadr siyasəti və təyinat mexanizmləri ilə bağlı məsələlərə rast gələ bilərik. Belə ki, 140-cı maddənin III hissəsində açıq şəkildə göstərilir ki, *prokurorların ixtisasları, onların təyinatları, hüquq və vəzifələri, maaşları və əlavələri, ixtisaslarının artırılması, vəzifələrində və vəzifələrində müvəqqəti və ya daimi dəyişikliklər, intizam icraatının başlanması və intizam tənbehlərinin tətbiqi, cinayətlərin təhqiqatı və məhkəməyə verilməsi, onların cinayət işi ilə əlaqədar və ya təqsirləndirilən şəxs qismində cəlb edilməsi ilə bağlı işlərə baxılması, peşə, onların ixtisasartırma hazırlığı və digər kadr məsələləri məhkəmələrin müstəqilliyi və səlahiyyət təminatı prinsiplərinə uyğun olaraq **qanunla** tənzimlənir*[34]. Nəzərə almaq lazımdır ki, bu, prokurorluğun kadr siyasətini birbaşa **məhkəmə hakimiyyətinin müstəqilliyi** prinsipi ilə əlaqələndirən mühüm konstitusional xüsusiyyətdir.

Maddənin IV hissəsinə görə prokurorlar ***65 (altmış beş) yaşına çatana qədər*** xidmət edirlər. Bu hədd kadr siyasətinə yaş həddi ilə sabitlik gətirir və peşəkar fəaliyyətin uzunmüddətli davamlılığını təmin edir. Digər tərəfdən prokurorlar qanunda nəzərdə tutulmuş vəzifələrdən başqa ***heç bir rəsmi və ya şəxsi vəzifə*** götürə bilməməsi isə Türkiyə Konstitusiyasında həm siyasi neytrallığı, həm də tam peşəkar müstəqilliyi

qorumağa yönəlmiş konstitusional hüquqi tənzimetmədir *(V hissə).*

## NƏTİCƏ:

Türk dövlətlərində prokurorluq orqanlarının konstitusional-hüquqi statusunun müqayisəli təhlili göstərir ki, bu institutlar tarixi köklər və ortaq hüquq ənənələri ilə bağlı olmaqla yanaşı, hər bir ölkənin milli hüquq sisteminə uyğun spesifik xüsusiyyətlər də daşıyır. Azərbaycan, Özbəkistan, Qazaxıstan və Türkmənistan modelində vahid və mərkəzləşdirilmiş prokurorluq sistemi mövcud olduğu halda, Türkiyə və Qırğızıstan nümunəsində daha fərqli hüquqi tənzimləmə prinsipləri diqqət çəkir. Beləliklə, heç şübhə etmirik ki, bu müxtəlifliklər fonunda ortaq cəhətlərin müəyyənləşdirilməsi və qabaqcıl təcrübələrin paylaşılması yalnız milli hüquq sistemlərinin təkmilləşdirilməsi üçün deyil, türk dövlətlərində prokurorluq institutunun ortaq hüquqi prinsiplər üzərində inkişafı gələcəkdə vahid ümumtürk hüquq məkanının formalaşmasına möhkəm zəmin yaradacaqdır.

**Mirzəzadə Yusif Emin oğlu,**
**Naxçıvan Dövlət Universitetinin**
**“Hüquqşünaslıq” ixtisası üzrə tələbəsi.**

**İstifadə olunmuş mənbələr:**

1. Türk Dövlətləri Təşkilatının rəsmi internet saytı. Ədliyyə və Hüquq-mühafizə orqanları ilə əməkdaşlıq. Ətraflı: https://www.turkicstates.org/az/areas-of-cooperation-detail/15-cooperation-on-justice
2. Xalq qəzeti. 2024. “Baş Prokurorluq türk dövlətləri ilə əmkdaşlığı inkişaf etdirir”. Ətraflı: https://xalqqazeti.az/az/last-news/182100-bas-prokurorluq-tdt-olkeleri-ile
3. 1876-cı il Osmanlı Konstitusiyası. Ətraflı: https://www.anayasa.gov.tr/tr/mevzuat/onceki-anayasalar/1876-k%C3%A2n%C3%BBn-i-es%C3%A2s%C3%AE/
4. Durhan, İbrahim. “TANZİMAT DÖNEMİNDE OSMANLI YARGI TEŞKİLÂTINDAKİ GELİŞMELER”. Erzincan Binali Yıldırım Üniversitesi Hukuk Fakültesi Dergisi, c. XII, sy. 3-4, 2008, ss. 55-111.
5. Tanzimat dönemi Hukuk Mevzuatı. Düstur, I tərtibat, C.IV, s.244. Baxmaq üçün: https://acikerisim.tbmm.gov.tr/items/943870e6-d252-4eeb-a24d-eddaad616be8
6. Savcılık hakkında. Ətraflı: https://tr.wikipedia.org/wiki/Savc%C4%B1
7. E.Süleymanova. “Xalq Cümhuriyyəti və insan hüquqları”. Azərbaycan Qəzeti. Ətraflı: https://www.azerbaijan-news.az/az/posts/detail/xalq-cumhuriyyeti-ve-insan-huquqlari-188074
8. R.Əliyev. “Azərbaycan Respublikasının Prokurorluğu”. Respublika Qəzeti. 2020. Ətraflı: https://genprosecutor.gov.az/az/post/2762
9. Ресей прокуратурасының тарихы. Baxmaq üçün: https://web.archive.org/web/20080604184411/http://genproc.gov.ru/structure/history/
10. Қазақстан прокуратурасының тарихы. Baxmaq üçün: https://stud.kz/referat/show/378
11. Qara-Qırğız Muxtar Vilayəti haqqında. Ətraflı: https://az.wikipedia.org/wiki/Qara-Q%C4%B1r%C4%9F%C4%B1z_Muxtar_Vilay%C9%99ti
12. Кыргыз Республикасынын прокуратура органдарынын тарыхы. Ətraflı: https://prokuror.kg/history/kg
13. Azərbaycan Respublikasının Konstitusiyası. Baxmaq üçün: https://e-qanun.az/framework/897
14. O'zbekiston Respublikasi Konstitutsiyasi. Baxmaq üçün: https://constitution.uz/en/clause/index#chapter17
15. Қазақстан Республикасының Конституциясы. Baxmaq üçün: https://www.akorda.kz/en/constitution-of-the-republic-of-kazakhstan-50912
16. Кыргыз Республикасынын Конституциясы. Baxmaq üçün: https://www.gov.kg/ky/p/constitution
17. Türkmenistan Respublikasynyň konstitusiýasy. Baxmaq üçün: https://www.constituteproject.org/constitution/Turkmenistan_2016
18. Türkiye Cümhuriyyeti Anayasası. Baxmaq üçün: https://www.mevzuat.gov.tr/mevzuat?MevzuatNo=2709&MevzuatTur=1&MevzuatTertip=5
19. Azərbaycan Respublikasının Konstitusiyası. Baxmaq üçün: https://e-qanun.az/framework/897
20. O'zbekiston Respublikasi Konstitutsiyasi. Baxmaq üçün: https://constitution.uz/en/clause/index#chapter17
21. Қазақстан Республикасының Конституциясы. Baxmaq üçün: https://www.akorda.kz/en/constitution-of-the-republic-of-kazakhstan-50912
22. Türkmenistan Respublikasynyň konstitusiýasy. Baxmaq üçün: https://www.constituteproject.org/constitution/Turkmenistan_2016
23. Конституционный Закон Кыргызской Республики "О прокуратуре Кыргызской Республики". Baxmaq üçün: https://kenesh.kg/ru/posts/5066
24. Türkiye Cümhuriyyeti Anayasası. Baxmaq üçün: https://www.mevzuat.gov.tr/mevzuat?MevzuatNo=2709&MevzuatTur=1&MevzuatTertip=5
25. Azərbaycan Respublikasının Konstitusiyası. Baxmaq üçün: https://e-qanun.az/framework/897
26. O'zbekiston Respublikasi Konstitutsiyasi. Baxmaq üçün: https://constitution.uz/en/clause/index#chapter17
27. Қазақстан Республикасының Конституциясы. Baxmaq üçün: https://www.akorda.kz/en/constitution-of-the-republic-of-kazakhstan-50912
28. Кыргыз Республикасынын Конституциясы. Baxmaq üçün: https://www.gov.kg/ky/p/constitution
29. Türkmenistan Respublikasynyň konstitusiýasy. Baxmaq üçün: https://www.constituteproject.org/constitution/Turkmenistan_2016
30. Azərbaycan Respublikasının Konstitusiyası. Baxmaq üçün: https://e-qanun.az/framework/897
31. O'zbekiston Respublikasi Konstitutsiyasi. Baxmaq üçün: https://constitution.uz/en/clause/index#chapter17
32. Қазақстан Республикасының Конституциясы. Baxmaq üçün: https://www.akorda.kz/en/constitution-of-the-republic-of-kazakhstan-50912
33. Türkmenistan Respublikasynyň konstitusiýasy. Baxmaq üçün: https://www.constituteproject.org/constitution/Turkmenistan_2016
34. Türkiye Cümhuriyyeti Anayasası. Baxmaq üçün: https://www.mevzuat.gov.tr/mevzuat?MevzuatNo=2709&MevzuatTur=1&MevzuatTertip=5

# Prosecutor's Role in Protecting Human Rights

Prosecutors occupy a unique position at the intersection of criminal justice and human rights, serving not merely as state representatives seeking convictions but also as guardians of legality, fairness, and the rule of law (1). Under domestic law, they are charged with initiating and conducting criminal proceedings, while under international law they have increasingly come to embody society's commitment to accountability for the gravest human rights violations (2).Their dual role as enforcers of criminal responsibility and protectors of fundamental rights creates an inherent tension: while they must pursue justice by prosecuting offenders, they must simultaneously ensure that the rights of defendants, victims, and society at large are preserved. This tension forms the basis of the central question of this study: to what extent do prosecutors safeguard human rights while pursuing justice? This paper will explore this question by examining both Azerbaijani and international perspectives

In the Azerbaijani Constitution, the Prosecutor's Office is responsible for supervising the enforcement and application of laws in accordance with legal procedures, initiating and conducting criminal investigations where prescribed by law, representing the state in criminal proceedings, filing claims in court, and lodging protests against judicial decisions (3). The law governing the Prosecutor's Office outlines the fundamental principles of prosecutorial activity, which include legality; equality of all persons before the law; respect for the rights and freedoms of individuals and the rights of legal entities; objectivity, impartiality, and reliance on facts; unity and centralization, with territorial and specialized prosecutors subordinate to the Prosecutor General of Azerbaijan; and political neutrality (4).

Beyond defendants' rights, prosecutors are also critical in safeguarding the rights of victims. In cases involving gender-based violence, trafficking, or hate crimes, prosecutors carry the responsibility of ensuring victims' participation, protection, and access to justice. Azerbaijani law allows prosecutors to bring civil claims, underscoring their role as advocates not just for the state but also for those most affected by crime (5). At the same time, prosecutors supervise law enforcement agencies to prevent abuse of power, a function especially vital in contexts where police misconduct or unlawful detention are common (6). The Azerbaijani framework illustrates how domestic law entrusts prosecutors with a dual responsibility: enforcing legality while protecting the rights of defendants and victims. This dual role is evident in recent cases, such as the Safarov brothers' case, where Azerbaijani prosecutors not only acted to hold accountable those responsible for their deaths but also ensured that the victims' human rights were upheld throughout the investigation. On June 27, 2025 the two Azerbaijani men died in Russian police custody after allegedly being tortured and beaten to death by Russian law enforcement officers. Witness accounts and an independent autopsy in Baku later revealed that the brothers – 60-year-old Huseyn and 55-year-old Ziyaddin – suffered extensive physical abuse (multiple rib fractures, internal injuries) while in custody, leading to fatal traumatic shock (7). Russian officials initially claimed one brother died of heart failure and gave no cause for the other's death, but Azerbaijan's forensic examination found this to be a "blatant falsehood," documenting that both men were viciously beaten (8).

On July 1, 2025, the Prosecutor General of Azerbaijan officially initiated a criminal case into the Safarov brothers' deaths, treating the matter as a serious human rights violation (9). Notably, the case was opened under Article 12.2 of the Criminal Code – asserting extraterritorial jurisdiction since Azerbaijani citizens were victims abroad – along with multiple grave charges: premeditated murder by a group, murder with extreme cruelty, murder of two or more persons, murder of a obviously helpless person, and crucially torture by officials causing grave consequences (10). By including the specific charge of torture (11), the prosecution underscored its commitment to safeguarding human rights; it signaled zero tolerance for torture or cruel treatment, aligning with Azerbaijan's international obligations against torture (12).

While the Safarov brother's case is ongoing, the prosecutors' decisive measures have been internationally noted as an example of accountability. Azerbaijan's Prosecutor General vowed to take *"all necessary measures to ensure effective investigation... and [the] liability of guilty individuals,"* using every legal tool available (13). This proactive stance highlights the extent to which prosecutors can safeguard human rights: by bringing charges for torture and unlawful killings, they affirm victims' rights and deter future abuses. The case supports the research assertion by showing that Azerbaijani prosecutors, in fulfilling their duties, can uphold human rights principles in tandem with enforcing the law.

When viewed through the lens of international standards,the European Court of Human Rights has emphasized that Article 6 § 1 requires prosecution authorities to disclose all material evidence in their possession, both for and against the accused (14). In *Rowe and Davis v. United Kingdom* (15), the Court held that failing to disclose exculpatory material violates the principle of equality of arms guaranteed by Article 6 of the European Convention on Human Rights, which ensures the right to a fair trial. Similarly, the Court has held that reliance on evidence obtained through torture renders a trial automatically unfair in violation of Article 3 (16). These standards make clear that prosecutors are not merely case-builders but must act as impartial guarantors of justice.

Moreover on the international level, prosecutors have been central to advancing accountability for mass atrocities. The Nuremberg Trials after World War II pioneered the concept that individuals, including heads of state, can be held criminally responsible for crimes against humanity and war crimes, laying the groundwork for modern international criminal law (17). Subsequent ad hoc tribunals such as the International Criminal Tribunal for the Former Yugoslavia (ICTY) (18) and for Rwanda (ICTR) (19) reinforced this prosecutorial role, pursuing justice for genocide and ethnic cleansing. The establishment of the permanent International Criminal Court (ICC) in 2002 marked a significant evolution, institutionalizing the Office of the Prosecutor as an independent body charged with investigating and prosecuting genocide, war crimes, and crimes against humanity under the Rome Statute. Recent developments highlight the continued importance of this role: in 2024 ICC Prosecutor Karim Khan sought arrest warrants against Israeli and Hamas leaders over alleged crimes in Gaza (20), and in 2025 announced warrants for Haibatullah Akhundzada (21) and Abdul Hakim Haqqani (22), Afghan officials, accused of persecuting women and girls, the Court's first such action in Afghanistan since 2007. These examples demonstrate the global scope of prosecutorial authority in enforcing human rights norms.

International standards further clarify the responsibilities of prosecutors. The International Association of Prosecutors and similar bodies have underscored that prosecutorial discretion must never be exercised for discriminatory or political purposes (23). A significant example of prosecutorial discretion used for political purposes is the case of Yulia Tymoshenko, former Prime Minister of Ukraine. In 2011, Tymoshenko was charged with abuse of power for her involvement in a 2009 gas deal with Russia. The charges were widely seen as politically motivated, aiming to neutralize a key political opponent to then-President Viktor Yanukovych (24). The trial was criticized for procedural flaws and a lack of evidence, with many international observers, including the European Union (25) and the United States (26), condemning the case as a politically driven attempt to suppress opposition. Tymoshenko was convicted and sentenced to seven years in prison, but her conviction was later overturned after the Euromaidan revolution in 2014 (27). The case remains a clear example of how prosecutors can be used to target political figures for political gain, undermining judicial independence and human rights.

The challenges prosecutors face extend beyond political interference. Resource and capacity constraints often undermine their ability to pursue complex human rights cases, particularly in post-conflict or transitional societies. Limited budgets, insufficient training in international human rights law, and lack of forensic expertise can weaken prosecutions and lead to impunity. Moreover, prosecutors must constantly balance the rights of victims and defendants, a tension at the heart of their role. Advocating vigorously for victims' rights while ensuring equality of arms for defendants requires not only legal expertise but also institutional safeguards to prevent overreach.

Looking forward, strengthening prosecutorial independence is critical. International recommendations emphasize guarantees of institutional, functional, and financial autonomy to prevent undue interference (28). Capacity building is equally important. Training in international human rights law, forensic methods, and emerging fields such as digital evidence is necessary to equip prosecutors for new challenges. UNESCO and the International Association of Prosecutors recently launched guidelines on digital evidence collection, emphasizing the need to balance prosecutorial efficiency with the protection of privacy and freedom of expression (29). The scope of prosecutorial mandates is also expanding, with growing recognition of the need to address environmental crimes, gender-based violence, and digital rights violations as human rights issues. Finally, restorative justice approaches, focusing on reconciliation and long-term peace rather than purely punitive measures, may offer prosecutors new tools to address the social dimensions of rights violations.

In conclusion, prosecutors are indispensable actors in both enforcing criminal accountability and safeguarding fundamental rights. Their effectiveness de-

pends on independence from political interference, adherence to human rights standards, and the existence of robust accountability mechanisms. As illustrated by international tribunals, they can be powerful agents of justice on the global stage. Ultimately, the role of the prosecutor is not only punitive but also preventive: by upholding fair trial rights, investigating abuses, and protecting victims, prosecutors contribute to a justice system that deters future violations and reinforces public trust in the rule of law.

**Damirova Dinara,**
**Student,**
**ADA University.**

**SOURCES USED**

1. United Nations. (1990). Guidelines on the Role of Prosecutors (Havana Guidelines), adopted by the Eighth United Nations Congress on the Prevention of Crime and the Treatment of Offenders.
2. International Association of Prosecutors. (1999, April 23). Standards of professional responsibility and statement of the essential duties and rights of prosecutors.
3. Constitution of the Republic of Azerbaijan. (1995). Article 133.
4. Azerbaijan Law Governing the Prosecutor's Office(1999, December 7). Article 5.
5. Criminal Procedure Code of the Republic of Azerbaijan,Article 84.2.3
6. Ibid, Article 84.5.
7. Azerbaijan State News Agency (AZERTAC). (02 July 2025). Prosecutor General's Office: Preliminary evidence and proof of Yekaterinburg crimes sent to relevant Russian authorities.
8. Ibid
9. Azerbaijan State News Agency (AZERTAC), Investigation Department: Safarov Brothers Died from Post-Traumatic and Post-Hemorrhagic Shock
10. Azerbaijan, Criminal Code of the Republic of Azerbaijan ,Article 12.2
11. ibid, Article 293.3
12. Reuters(2025), Azerbaijan Prosecutors Pursue Justice in the Deaths of Safarov Brothers,
13. Azerbaijan State News Agency (AZERTAC). (02 July 2025). Prosecutor General's Office: Preliminary evidence and proof of Yekaterinburg crimes sent to relevant Russian authorities.
14. Edwards v. the United Kingdom, Application No. 13071/87, Judgment of 16 December 1992, § 36, European Court of Human Rights.
15. Rowe and Davis v. the United Kingdom, Application No. 28901/95, Judgment of 16 February 2000, § 60, European Court of Human Rights.
16. Othman (Abu Qatada) v. the United Kingdom, Application No. 8139/09, Judgment of 17 January 2012, European Court of Human Rights.
17. International Military Tribunal, Judgment of 1 October 1946, in The Trial of German Major War Criminals. Proceedings of the International Military Tribunal Sitting at Nuremberg, Germany, Part 22 (22nd August 1946 to 1st October 1946), p. 467 (1946).
18. United Nations, International Criminal Tribunal for the Former Yugoslavia (1993–2017)
19. United Nations, Statute of the International Criminal Tribunal for the Prosecution of Persons Responsible for Genocide and Other Serious Violations of International Humanitarian Law Committed in the Territory of Rwanda and Rwandan Citizens Responsible for Genocide and Other Such Violations Committed in the Territory of Neighbouring States, Between 1 January 1994 and 31 December 1994 (International Tribunal for Rwanda), 1994
20. Decision on Israel's challenge to the jurisdiction of the Court pursuant to article 19(2) of the Rome Statute, ICC-01/18-374, Pre-Trial Chamber, 21 November 2024.
21. Office of the Prosecutor, Prosecution's Application under Article 58 for a Warrant of Arrest against Haibatullah Akhundzada, ICC-02/17-224-Red (Int'l Crim. Ct. Jan. 23, 2025)
22. Office of the Prosecutor, Prosecution's Application under Article 58 for a Warrant of Arrest against Abdul Hakim Haqqani, ICC-02/17-225-Red (Int'l Crim. Ct. Jan. 23, 2025).
23. International Association of Prosecutors, Standards of Professional Responsibility and Statement of the Essential Duties and Rights of Prosecutors, 1999
24. Sereda, A. (2018). Gendered obstacles and opportunities for women seeking positions of prime minister and president: The case of Yulia Tymoshenko of Ukraine, 1999-2010.
25. European Parliament. (2011, November 25). Resolution on Ukraine's selective justice system and the case of Yulia Tymoshenko. European Parliament.
26. U.S. Helsinki Commission. (2011, October 11). Conviction of former Prime Minister Tymoshenko a serious setback for Ukrainian democracy. U.S. Commission on Security and Cooperation in Europe.
27. "Yulia Tymoshenko," Iowa State University Archives of Women's Political Communication, accessed March 16, 2017. On February 22, 2014 the Verkhovna Rada (Supreme Council of Ukraine) adopted a decree based on the decision of the European Court of Human Rights and corresponding decision of the Committee of Ministers of the Council of Europe, and Tymoshenko was released the same day.
28. OECD (2020), The Independence of Prosecutors in Eastern Europe, Central Asia and Asia Pacific
29. UNESCO, and International Association of Prosecutors. 2025. Guidelines for Prosecutors on Digital Evidence Collection in Compliance with International Standards on Freedom of Expression and Privacy.

# Прокуратура XXI века и её роль в обществе: цифровизация, глобальные вызовы и практика Азербайджана

**Аннотация**

В статье анализируются современные подходы прокуратуры XXI века с акцентом на её роль в обеспечении правопорядка, цифровизацию процессов и реагирование на глобальные вызовы, включая транснациональную преступность и киберугрозы. Особое внимание уделяется внедрению технологий искусственного интеллекта, образовательной деятельности и механизмам взаимодействия с обществом для повышения доверия к правовой системе. На примере Азербайджана показано, как централизованная структура прокуратуры интегрирует инновационные инструменты, обеспечивает прозрачность работы и участвует в международном сотрудничестве. Выводы статьи подтверждают, что современная прокуратура выступает не только гарантом законности внутри страны, но и активным участником глобального правового пространства, адаптируя лучшие практики к национальным условиям.

**Введение**

Прокуратура XXI века сохраняет традиционные функции надзора за соблюдением закона и поддержания государственного обвинения, одновременно адаптируясь к новым вызовам и условиям цифровой эпохи. Актуальность темы определяется процессами цифровизации, усложнением преступных схем и повышенными требованиями к прозрачности и этичности прокурорской деятельности. Всё большое значение приобретают современные технологии, образовательная деятельность и прямой доверительный диалог с гражданами. Целью данной работы является анализ современных инновационных практик в деятельности прокуратуры, направленных на повышение её эффективности и укрепление взаимодействия с обществом. Для достижения цели поставлены следующие задачи: выявить тенденции цифровизации и использования искусственного интеллекта, рассмотреть зарубежный опыт просветительской деятельности, проанализировать механизмы прямой коммуникации с гражданами и оценить значимость этих практик для Азербайджана.

**1. Традиционная роль прокуратуры**

Прокуратура в современном обществе рассматривается как ключевой элемент правового государства и гарант справедливости. В Азербайджане она занимает особое место в системе государственных институтов, что закреплено в Конституции. Статья 133 определяет её функции, к которым относится надзор за исполнением законов, возбуждение уголовных дел и поддержание государственного обвинения. Такое закрепление придаёт органу устойчивость и институциональную значимость и выгодно отличает его от стран, где статус прокуратуры определяется лишь обычным законодательством, например, в США или Великобритании. Это наглядно демонстрирует стремление Азербайджана к укреплению правового государства и верховенства закона. Помимо Конституции важное значение имеет Закон «О прокуратуре». В статье 4 закреплены направления деятельности, охватывающие уголовный процесс, а также гражданско-правовую и административную сферу. Благодаря этому прокуратура выступает универсальным органом, способным защищать интересы социально уязвимых категорий граждан, контролировать законность применения административных взысканий и обеспечивать надзор за деятельностью государственных органов.

Организационная структура прокуратуры Азербайджана отражает многоуровневый характер ее деятельности. Помимо Генеральной прокуратуры функционируют специализированные органы, включая антикоррупционную и военную прокуратуры. Антикоррупционная прокуратура через Главное управление концентрирует усилия на борьбе с экономической преступностью, тогда как военная прокуратура обеспечивает защиту прав военнослужащих и надзор за делами, связанными с военной службой. В отличие от ряда стран, где аналогичные функции выполняют независимые агентства или общие судебные органы, прокуратура Азербайджана не подчиняется ни одной ветви власти и выбрала централизованную модель, обеспечивающую согласованность практики и единство подходов. В централизованных системах прокуратуры в некоторых странах существует риск, что концентрация полномочий на высшем уровне может замедлять принятие решений и создавать бюрократические процедуры. В Азербайджане эти потенциальные трудности успешно компенсируются за счёт цифровизации, повышения прозрачности и активного взаимодействия с гражданским обществом.

Такая организация работы прокуратуры обеспечивает её результативность и прозрачность, однако в практике уголовного преследования важно также учитывать баланс между действиями и за-

щитой прав личности. Проблематика баланса между эффективностью уголовного преследования и защитой прав личности обсуждается в научной литературе. Энтони Дафф обращает внимание на то, что прокурор выполняет не только процессуальные функции, но и роль морального агента, принимающего решения с учётом общественного восприятия справедливости. Его подход подчёркивает, что формальные доказательства недостаточны без оценки социального контекста и правовых последствий. На практике это означает необходимость методических ориентиров, независимых процедур проверки спорных решений и прозрачных показателей результативности. Сравнительный анализ Даффа показывает, что в разных правовых системах роль прокуратуры трактуется по-разному. В англосаксонских странах прокурор одновременно выступает посредником, оценивающим общественные интересы и решающим, какие дела требуют уголовного преследования, в США его деятельность подвержена политическому влиянию, тогда как в континентальной Европе главенствует принцип законности. Универсальной модели не существует каждая система сочетает преимущества и риски. Для Азербайджана наиболее перспективным является поиск баланса между централизованным управлением и расширением профессиональной автономии, что позволяет сохранять единство при одновременном укреплении доверия общества.

## 2. Международная кооперация и новые приоритеты прокуратуры XXI века

Прокуратура XXI века перестала быть исключительно национальным институтом уголовного преследования и стала участником глобального диалога о справедливости. Современный прокурор действует в условиях не только правовой, но и технологической, социальной и этической многослойности. Современные прокуроры сталкиваются с беспрецедентными задачами международного масштаба. Транснациональная преступность, включая наркотрафик, торговлю людьми, оружием, отмывание денег, контрабанду природных ресурсов и киберпреступность, подрывает международную безопасность, нарушает права человека и ослабляет социально-экономическое развитие. По оценкам UNODC, преступные сети лишь в 2009 году создавали доход около 1,5 % мирового ВВП. Борьба с транснациональной преступностью требует скоординированных международных расследований и обмена данными между прокуратурами различных стран.

Цифровизация усилила масштабы преступности, поскольку интернет и мессенджеры позволяют злоумышленникам координировать действия из разных стран и мгновенно переводить средства через различные юрисдикции. Единичная кибератака может исходить одновременно из нескольких точек мира, а жертвами становятся граждане разных стран. Современные киберугрозы перестали быть исключительно техническим феноменом и превратились в комплексное правовое и социальное явление, требующее от прокуратуры адаптации к многоуровневой динамике преступности. Кроме того,по мнению Д.Уолла, миф о независимом киберпреступнике давно не соответствует действительности подавляющее большинство атак совершается организованными преступными сетями. Это означает, что современная прокуратура должна быть готова работать против сложных структур, где ключевую роль играют не отдельные личности, а устойчивые цифровые сообщества. Особенно актуальной становится проблема юрисдикции: преступник может находиться в одной стране, сервер в другой, а жертвы в третьей. Таким образом, национальные механизмы преследования не способны эффективно решать такие дела без международного сотрудничества. Для Азербайджана ключевое значение имеет участие в совместных проектах и обмен опытом с зарубежными партнерами, что напрямую способствует укреплению глобального правового пространства.

Сложность киберугроз усиливает аргумент о необходимости внедрения в прокуратуру новых технологий — от анализа больших данных до применения искусственного интеллекта. Киберпреступность проявляется и в социальном измерении, подрывая доверие не только к технологиям, но и к государственным институтам. Когда государство не способно обеспечить цифровую безопасность граждан, снижается доверие к эффективности работы прокуратуры и судебной системе. Для прокуроров XXI века это означает необходимость постоянного взаимодействия с зарубежными коллегами, обмена цифровыми доказательствами и разработки общих инструментов расследования. Прокуратура Азербайджана активно участвует в международных форумах, включая конференции Международной ассоциации прокуроров (IAP), где обсуждаются инновационные решения для борьбы с киберпреступностью, в том числе применение искусственного интеллекта, и вырабатываются согласованные подходы к глобальным угрозам.

Помимо киберугроз, прокуратура сталкивается с другими транснациональными преступлениями, среди которых особое место занимают экологические нарушения и преступления в сфере цифровой экономики. Прокуратура Азербайджана активно борется с экологическими правонарушениями, включая незаконную вырубку лесов, торговлю животными и

загрязнение среды. Эти преступления часто трансграничны и оказывают влияние на глобальное изменение климата и здоровье населения. Государство усиливает расследование таких правонарушений, включая нарушения, допущенные в период оккупации, и участвует в международных инициативах. На открытии 29-й Ежегодной конференции и Общего собрания Международной ассоциации прокуроров в Баку Генеральный прокурор Кямран Алиев отметил историческое значение проведения COP29 в Азербайджане и признание международным сообществом вклада страны в защиту окружающей среды. Одним из инструментов совершенствования правоприменительной практики прокуратуры в этой сфере является участие в проекте ECOLEAD, который позволяет внедрять современные стандарты расследования экологических правонарушений и вырабатывать совместные подходы к трансграничным делам. Это укрепляет компетентность прокуроров и доверие общества к государственным институтам, обеспечивающим соблюдение экологического законодательства. Параллельно новые технологии и развитие цифровой экономики создают дополнительные вызовы для прокуратуры. Возникают преступления, связанные с отмыванием денег через криптовалюты и мошенничеством в цифровой экономике, причём по оценкам экспертов ежегодный объём отмытых средств через цифровые схемы сопоставим с традиционными методами. В Азербайджане криптовалюты пока не регулируются, но планируется разработка соответствующего законодательства для повышения прозрачности транзакций и усиления контроля за цифровыми активами.

Возрастающая сложность современных транснациональных преступлений, включая экологические нарушения и преступления в сфере цифровой экономики, усиливает значение роли прокуроров. Их компетентность, беспристрастность и неподкупность напрямую влияют на эффективность расследований и доверие общества к правосудию. В этой связи разработаны кодексы этики и регламенты о конфликтах интересов, которые определяют стандарты профессионального поведения, правила взаимодействия с коллегами и гражданами, а также порядок предотвращения личной заинтересованности при принятии решений. Эти нормы требуют от прокуроров учитывать права человека, действовать во благо общества и сохранять независимость от политического давления, что критично для расследования сложных и трансграничных дел.

### 3. Использование искусственного интеллекта в деятельности прокуратуры

В ряде стран прокуратура XXI века активно внедряет технологии искусственного интеллекта. В Китае на базе Шанхайской народной прокуратуры Пудунского района создан «ИИ-прокурор», обученный на большом массиве уголовных дел, способный формировать проекты обвинительных заключений по типовым преступлениям, включая кредитное мошенничество, кражи и опасное вождение. Для Азербайджана, где цифровизация прокуратуры пока находится на начальном этапе, такие инструменты особенно актуальны с учётом роста интернет-преступлений, киберпреступлений и финансовых махинаций. В этой связи с 2023 года реализуются проекты «электронная прокуратура», направленные на автоматизацию процессов подачи и рассмотрения документов, повышение прозрачности работы органов и ускорение взаимодействия с гражданами и организациями.

Но в то же время опыт зарубежных стран показывает, что использование искусственного интеллекта в правовой сфере связано с рисками, прежде всего касающимися точности и достоверности автоматически сгенерированных материалов. Автоматизированные системы могут формировать юридические документы или ссылки на решения, не соответствующие действительности, что подчёркивает необходимость проверки всех данных квалифицированными специалистами. Такие ограничения демонстрируют, что ИИ не способен полностью заменить профессиональное суждение прокурора или юриста и должен рассматриваться как вспомогательный инструмент, способствующий снижению рутинной нагрузки и ускорению обработки информации. Кроме того, ни одна система не учитывает мотивы и психологическое состояние участников процесса, социально-моральный контекст преступления и не несёт юридической ответственности за результаты расследования. Для эффективного внедрения технологий ИИ требуется сочетание цифровых инноваций с нормативным регулированием, разработка стандартов верификации данных, контроль качества работы систем и обучение персонала. Для Азербайджана это приобретает особую значимость с учётом необходимости поддержания ключевой роли прокурора как гаранта достоверности и законности процессуальных действий.

В ряде стран прокуроры выходят за рамки судебных залов и активно вовлекаются в жизнь сообществ. В Австралии реализуется практика «Youth Engagement Prosecutors», при которой прокуроры специализируются на работе с трудными подростками, проводят наставничество, обучают правовым навыкам и помогают интегрироваться в общество. Такая деятельность выходит за рамки формального просвещения и демонстрирует социальную роль прокуратуры как инструмента профилактики правонарушений и поддержки уязвимых групп населения.

Подобные тенденции проявляются и в Азербайджане. Так, весной 2025 года Научно-образовательный центр Генеральной прокуратуры подписал меморандум с Университетом экономики (UNEC) о совместных конференциях, семинарах и подготовке учебных материалов. Кроме того, прокуратура активно участвует в акциях правового просвещения, организует встречи с молодёжью и поддерживает проекты по формированию правосознания, включая передачу учебных материалов для образовательных и военных учреждений. Усиливается и механизм прямой связи с населением. Например, военной прокуратурой создана круглосуточная «линия доверия 962» для военнослужащих и их семей. Она позволяет оперативно сообщать о коррупции и других нарушениях в армии, а также получать разъяснения от прокуроров. Роль прокуратуры в данном случае заключается в контроле за соблюдением законности, квалифицированной обработке обращений, что позволяет оперативно выявлять нарушения.

**Заключение**

Современное развитие прокуратуры невозможно рассматривать вне контекста глобальных трансформаций, связанных с цифровизацией, международным сотрудничеством и изменением ожиданий общества. Эти процессы открывают новые возможности для повышения результативности работы прокуратуры, но одновременно создают риски, требующие научного осмысления и практических решений.

Во-первых, цифровизация и внедрение технологий искусственного интеллекта формируют новую профессиональную идентичность прокурора, объединяющего юридические и технологические компетенции. Это позволяет ускорять обработку материалов и повышать точность подготовки процессуальных документов, однако требует строгого контроля за цифровыми инструментами, включая процедуры верификации данных, обучение прокуроров цифровой грамотности и работу совместных экспертных групп с ИТ-специалистами.

Во-вторых, глобализация права и рост транснациональной преступности требуют баланса между национальной моделью прокуратуры и международным сотрудничеством. Для Азербайджана это означает сочетание централизованной структуры с гибкими инструментами взаимодействия с зарубежными коллегами, создание национальных центров обмена цифровыми доказательствами и проведение совместных учебных программ с партнёрами из других стран.

Во-третьих, просветительская миссия прокуратуры укрепляет доверие общества и формирует правовую культуру. Эффективность этого направления можно повышать через образовательные платформы для школьников и студентов, интерактивные онлайн-курсы по правам человека, расширение общественных консультаций и вовлечение граждан в мониторинг работы прокуратуры.

Отсюда следует, что современная прокуратура может успешно сочетать традиционные функции, инновационные технологии и просветительскую деятельность, что способствует совершенствованию её работы, укреплению доверия общества и формированию основы для устойчивого развития национальной правовой системы.

**Лала Бабазаде,**
**Академия государственного управления при Президенте Азербайджанской Республики/**

**Список использованной литературы**

1. Конституция Азербайджанской Республики. Баку: Азернешр, 2023.
2. Закон Азербайджанской Республики «О прокуратуре» от 7 декабря 1999 г. № 767-IQ (с последующими изменениями и дополнениями). Официальный текст: e-qanun.az. (дата обращения: 24.09.2025). Перевод с азербайджанского языка.
3. Duff, A. (2010). The Boundaries of the Criminal Law. Oxford University Press. – P. 45-62.
4. Wall, D. Cybercrime: The Transformation of Crime in the Information Age. Cambridge: Polity Press, 2007. – P. 27-35
5. United Nations Office on Drugs and Crime (UNODC). The Globalization of Crime: A Transnational Organized Crime Threat Assessment. Vienna: UNODC, 2010. – unodc.org (дата обращения: 24.09.2025).
6. International Association of Prosecutors (IAP). Annual Conference Reports. The Hague, 2022–2025. – iap-association.org (дата обращения: 24.09.2025).
7. В Баку состоялась церемония открытия ежегодной конференции и Общего собрания Международной ассоциации прокуроров // AZERTAC. – 2024. – azertag.az (дата обращения: 23.09.2025).
8. Генеральная прокуратура Азербайджанской Республики. ECOLEAD layihəsi haqqında. genprosecutor.gov.az (дата обращения: 24.09.2025).
9. Научно-образовательный центр и Университет экономики (UNEC) подписали меморандум о сотрудничестве. - unec.edu.az (дата обращения: 24.09.2025).
10. OECD. Governing with Artificial Intelligence: Trends and Early Lessons from the Use of AI across Functions of Government. Paris: OECD Publishing, 2025 -oecd.org (дата обращения: 24.09.2025).

## Tonqa Krallığının Antikorrupsiya Müvəkkili ilə müsahibə



**Sual: Hörmətli Kris LaHatte, “Azərbaycan Prokurorluğu” elmi-praktiki jurnalı Azərbaycan Respublikasının Prokurorluğunun rəsmi mətbu orqanıdır. Oxucularımız üçün səfərinizlə bağlı təəssürat və fikirlərinizi bölüşməyinizi xahiş edirik.**

**Cavab:** Mən ötən ilin 1 iyul tarixindən etibarən Komissar vəzifəsinə təyin olunmuşam. Yeni bir ofis yaratmışıq, çünki bundan əvvəl Korrupsiyaya Qarşı Mübarizə Komissiyası mövcud deyildi. Əvvəlcə yalnız mən və icraçı direktor fəaliyyətə başlamışdıq, hazırda isə artıq kifayət qədər əməkdaş cəlb etmişik. Hazırda istintaq qrupu və korrupsiyaya qarşı mübarizə qrupu, həmçinin digər dəstəkçi əməkdaşlarımız fəaliyyət göstərir. Eyni zamanda, informasiya texnologiyaları sistemimizi qurmuşuq və yaxın vaxtlardan başlayaraq müraciətləri qəbul edib istintaqlara başlamışıq. Bizim üçün bu, yeni təcrübədir, çünki əvvəllər belə bir ofis fəaliyyəti ilə məşğul olmamışıq və bu işləri addım-addım öyrənirik.

Mən dünyanın bu bölgəsində olmuşam, lakin Azərbaycanda ilk dəfədir ki, səfər edirəm. Təxminən bir il Qazaxıstanda – Almatıda yaşamışam. Düzünü desəm, Bakı Almatıdan daha gözəldir. Xüsusilə yerləşdiyim



“Marriott Boulevard” otelinin ətrafındakı bağları, eləcə də şəhərdə gəzərkən hər tərəfdə ağacların və yaşıllığın olmasını çox bəyəndim. Bu, şəhərə nəfəs verir, onu daha canlı göstərir. Azərbaycan şərabından bir butulka qırmızı şərab da aldım, hələ dadmamışam, lakin dadacağam. Burada olmaq mənim üçün çox faydalıdır, çünki müxtəlif iş üsullarını öyrənirik. Hər dəfə kiminləsə ünsiyyətdə olduqda, öz vəzifəmi necə daha yaxşı yerinə yetirə biləcəyim barədə yeni bilik qazanıram. Bu imkana görə minnətdaram. Təşəkkür edirəm.

**Sual: GlobE Şəbəkəsinin 6-cı Plenar iclasının keçirilməsi ikitərəfli münasibətlərin inkişafı baxımından hansı yeni imkanlar açır?**

**Cavab:** Bu o deməkdir ki, əgər ölkəmdən kənarda hər hansı qurumla əlaqə yaratmağa ehtiyac yaranarsa, belə konfranslarda tərəfdaşlarla tanış olduqda ünsiyyət çox asanlaşır. GlobE sistemləri vasitəsilə rəsmi əlaqə yolları mövcuddur, lakin qarşı tərəfi şəxsən tanımaq əməkdaşlıqda mühüm fərq yaradır.

**Sual: Korrupsiyaya qarşı mübarizədə fəal informasiya mübadiləsinin əhəmiyyəti barədə fikirlərinizi bölüşməyinizi istərdik.**

**Cavab:** Əvvəlki sistemlər çox ləng idi və ölkələr məlumat paylaşmaqda çəkinirdilər. Yeni sistemin isə bu prosesi daha sürətli və səmərəli edəcəyinə ümid edirik. Çünki bu gün insanlar dünyanın müxtəlif ölkələri arasında asanlıqla hərəkət edə bilirlər. Bu, təkcə aviasiya vasitəsilə deyil, həm də internet üzərindən baş verir. İnsanlar digər ölkələrdə qanunsuz fəaliyyət göstərə bilirlər və bu da bizə təsir edir. Məlumat mübadiləsi real vəziyyəti müəyyənləşdirməyə imkan yaradır.

**Sual: Hüquq-mühafizə orqanları əməkdaşlarının nəzəri biliklərinin və peşə bacarıqlarının artırılması hər zaman vacib və faydalıdır. Bu sahədə təcrübənizi bölüşməyinizi xahiş edirik.**

**Cavab:** Mən vəzifəmdə hələ çox yeniyəm – cəmi 10 aydır fəaliyyət göstərirəm. Lakin biz istintaqa yardım göstərmək üçün polis istintaqçılarını işə götürmüşük. Tonga Respublikasında polis, Ombudsman,



Baş Auditor, həmçinin Baş Prokurorun vəzifəsini icra edən qurumlarla sıx əməkdaşlıq edirik. Daxili məlumat mübadiləsi aparırıq. Eyni zamanda, GlobE vasitəsilə beynəlxalq miqyasda da məlumat mübadiləsini genişləndirməyi ümid edirik. Tonga ada dövlətidir və oraya daima hava və dəniz yolu ilə insanlar daxil olur. Bu isə qaçaqmalçılıq riskini artırır. Ən ciddi problemlərdən biri metanfetaminlə mübarizədir. Məlumat mübadiləsi narkotik vasitələrin qanunsuz dövriyyəsinə, eləcə də pul vəsaitlərinin yuyulmasına qarşı mübarizədə mühüm rol oynayır.

**Sual: Ətraf mühitin mühafizəsi və ekologiyanın qorunması ölkəmiz üçün prioritetdir. Sizin ölkənizdə ekosistemin müdafiəsi istiqamətində hansı tədbirlər görülür?**

**Cavab:** Bu məsələ birbaşa Korrupsiyaya Qarşı Mübarizə Komissiyasının səlahiyyətinə daxil olmasa da, Tonga adanın qorunması üzrə təşəbbüslərdə fəal iştirak edir. Çünki iqlim dəyişikliyi bizə ciddi təsir göstərir. Ada yalnız bir neçə metr dəniz səviyyəsindən yuxarıdır və qlobal istiləşmə ciddi təhlükə yaradır. Ona görə də, karbonun tutulması və digər tədbirlər istiqamətində beynəlxalq təşəbbüslərə fəal qoşuluruq.

**Sual: Ölkələrimizin hüquq-mühafizə orqanları arasında ikitərəfli və beynəlxalq təşkilatlar çərçivəsində əməkdaşlıq imkanlarını necə qiymətləndirirsiniz?**

**Cavab:** Biz hər kəslə əməkdaşlığa hazırıq. Tonga bəzən "dost adalar" adlandırılır. Biz bütün ölkələrlə dost münasibətlərdə olmaq istəyirik. ABŞ və Çin ilə də əməkdaşlıq edirik, mübahisələrdə iştirak etməyə çalışmırıq. Azərbaycanla aramızda böyük məsafə olsa da, əgər azərbaycanlılarla tonqalılardan kimsə arasında hər hansı məsələ yaranarsa, biz sizinlə dialoqa hazırıq və problemi həll etməyə çalışarıq. Təşəkkür edirəm.

**"Azərbaycan Prokurorluğu" jurnalının redaksiya heyəti adından sizə bu maraqlı müsahibəyə görə təşəkkür edirik. Bir daha Azərbaycana xoş gəlmisiniz!**

**Cavab:** Çox sağ olun.

## Uqanda Hökümətinin Baş Müfəttişinin müavini xanım Patricia Achan Okiria ilə müsahibə

***– Mən doktor Patricia Achan Okiria. Mən Uqanda Hökumətinin Baş Müfəttişinin müaviniyəm. Uqanda Hökumətinin Müfəttişliyi Uqandada korrupsiya hallarını araşdırdığımız və mühakimə etdiyimiz aparıcı və korrupsiya agentliyidir. Mən bu konfransı təşkil etdiyinə görə GlobE şəbəkəsinə çox minnətdaram, çünki konfrans korrupsiyaya qarşı mübarizədə oxşar qurumlardan çoxlu insanla görüşmək imkanıdır. Biz fikir mübadiləsi aparırıq, korrupsiyaya qarşı mübarizədə yeni strategiyalar əldə edirik, ölkələrimizdəki korrupsiya hallarına qarşı yeni innovativ yanaşmalar haqqında öyrənirik. Təşəkkür edirəm.***



**Sual: "Azərbaycan Prokurorluğu" elmi-praktiki jurnalı Azərbaycan Respublikasının Prokurorluğunun rəsmi mətbu orqanıdır. Oxucularımız üçün səfərinizlə bağlı təəssürat və fikirlərinizi bölüşməyinizi xahiş edirik.**

Mənim səfərim çox yaxşı keçdi. Azərbaycan möhtəşəm bir yerdir, xüsusən də gözəl Bakı şəhəri. Mən burada ilk dəfəyəm və bu şəhərin gözəlliyini qiymətləndirirəm. Və bilirsiniz ki, işlədiyimiz mühit də işinizin nə qədər uğurlu getdiyini müəyyən edir. Siz Azərbaycanın Bakı şəhəri kimi yaxşı mühitdə işlədiyiniz zaman inanıram ki, korrupsiyaya qarşı mübarizənizdə çox yaxşı irəliləyiş əldə edirsiniz.

**Sual: GlobE Şəbəkəsinin 6-cı Plenar iclasının keçirilməsi ikitərəfli münasibətlərin inkişafı baxımından hansı yeni imkanlar açır?**

İkili münasibətlər baxımından düşünürəm ki, bu, korrupsiyaya qarşı mübarizə aparan qurumların bir

araya gəlməsi, ideyalar mübadiləsi aparması, digər regionlardan və şəbəkələrdən ən yaxşı təcrübələri öyrənməsi üçün çox yaxşı bir fürsətdir.

GlobE Şəbəkəsinin bu Altıncı Plenar İclası, əslində, bu ikitərəfli münasibətlərin daha da inkişaf etməsinə və möhkəmlənməsinə kömək edir.

Çünki biz, Şərqi Afrika regionu olaraq, BMT-nin Narkotiklər və Cinayətkarlıq üzrə İdarəsinin (UNODC) müxtəlif təlimlərindən, həmkar-həmkara öyrənmə proqramlarından və ən yaxşı təcrübə mübadiləsindən faydalanmışıq.

Amma indi bu iclas bizə dünyanın müxtəlif yerlərindən gələn insanlarla tanış olmaq üçün daha geniş imkan yaradır.

Məncə, bu Altıncı Plenar İclasın gözəlliyi də elə bundadır — bu, əlaqə qurmaq üçündür, korrupsiya ilə mübarizədə yeni metodları öyrənmək üçündür, digər ölkələrin uğurlarını, uğurlu təcrübə və nümunə işlərini eşitmək üçündür.

Ona görə də düşünürəm ki, bu tədbir olduqca vacibdir.

**Sual: Korrupsiyaya qarşı mübarizədə fəal informasiya mübadiləsinin əhəmiyyəti barədə fikirlərinizi bölüşməyinizi istərdik.**

Mən hesab edirəm ki, korrupsiyaya qarşı mübarizədə məlumat mübadiləsi strategiyası son dərəcə vacibdir. Çünki bu strategiya korrupsiya əleyhinə qurumların məlumat, kəşfiyyat və hətta ən yaxşı təcrübələri bölüşməsinə imkan yaradır. Bu isə həmin qurumların korrupsiya hallarını aşkar etmək, qarşısını almaq və hətta təqib etmək qabiliyyətini artırır.

Məsələn, istintaq prosesində məlumatların genişləndirilməsi və aşkarlama imkanlarının artırılması, qurumlar arasında məlumat mübadiləsinin aparılması nəticəsində əvvəllər görünməyən müəyyən əlaqə və nümunələrin müəyyənləşdirilməsinə gətirib çıxarır. Bu isə mürəkkəb korrupsiya şəbəkələrinin və müxtəlif yurisdiksiyalar və sektorlar üzrə yayılan sxemlərin aşkarlanmasına kömək edir.

Məlumat mübadiləsi həmçinin koordinasiyanın güclənməsində əsas rol oynayır. Əgər mən digər ölkədə baş verənləri bilirəmsə və onlar da bizdəki vəziyyətdən xəbərdardırsa, biz daha səmərəli şəkildə koordinasiya oluna bilirik. Məlumat mübadiləsi müxtəlif korrupsiya əleyhinə qurumlar, strukturlar və digər maraqlı tərəflər arasında daha sıx əlaqələndirməyə şərait yaradır. Bu koordinasiya, xüsusilə birgə əməliyyatlar, birgə istintaqlar və transsərhəd korrupsiya hallarında olduqca vacibdir.

Bundan əlavə, məlumat mübadiləsi ittihamların gücləndirilməsinə də yardım edir. Çünki əgər bizdə əhatəli və etibarlı məlumat bazası varsa, bu, daha güclü və hüquqi cəhətdən əsaslandırılmış işin qurulması üçün zəruridir. Məlumat mübadiləsi bu proseslərdə tələb olunan sübut və kəşfiyyat məlumatını təmin edir.

Eyni zamanda, bu yanaşma potensialın artırılması və bilik mübadiləsi baxımından da çox vacibdir. Bu, qurumlara həmkar-həmkara öyrənmə yolu ilə, ən yaxşı təcrübələr vasitəsilə bir-birindən öyrənmək imkanı verir. Onlar həm uğurlu təcrübələrdən, həm də qarşılaşdıqları çətinliklərdən faydalanırlar. Bu mübadilə biliklərin açıq şəkildə paylaşılmasına və daha geniş, səmərəli korrupsiya əleyhinə strategiyaların formalaşmasına şərait yaradır.

Mənim fikrimcə, məlumat mübadiləsi ictimai etimadın və şəffaflığın artırılmasında da çox mühüm rol oynayır. Əgər ictimaiyyət baş verənlərdən xəbərdardırsa, işlərin gedişatı barədə məlumatlandırılırsa, bu, ictimaiyyətin qurumlara olan etimadını gücləndirir. Şəffaflıq və hesabatlılığın təşviqi, həmçinin bu məlumat mübadiləsi ictimaiyyətin korrupsiyaya qarşı fəaliyyətlərə inamını artırır.

Korrupsiya əleyhinə qurumlar öz fəaliyyətləri, nailiyyətləri və nəticələri barədə məlumat paylaşdıqda, bu, insanlar arasında daha yüksək etimad və şəffaflıq mühiti yaradır.

Nəticə etibarilə, səmərəli məlumat mübadiləsi korrupsiya əleyhinə qurumların fəaliyyətinin effektivliyini artırır — aşkarlama, istintaq, təqib və ümumi profilaktik tədbirlərin keyfiyyətini yüksəldir. Bundan əlavə, bu, qurumlar arasında əməkdaşlıq mühitini gücləndirir və onların resurslarını birləşdirərək korrupsiyaya qarşı daha təsirli mübarizə aparmalarına imkan yaradır.

Beləliklə, mən hesab edirəm ki, aktiv məlumat mübadiləsinin və paylaşımının ən böyük üstünlüyü də elə budur — xüsusilə korrupsiyaya qarşı mübarizədə.

**Sual: Hüquq-mühafizə orqanları əməkdaşlarının nəzəri biliklərinin və peşə bacarıqlarının artırılması hər zaman vacib və faydalıdır. Bu sahədə təcrübənizi bölüşməyinizi xahiş edirik.**

Mən artıq 20 ildən çoxdur ki, Yaxşı İdarəetmə və korrupsiya əleyhinə fəaliyyət sahəsində çalışıram və bu illər ərzində müşahidə etmişəm ki, korrupsiya amöba kimi daim dəyişir və formalarını dəyişərək inkişaf edir. Buna görə də biz korrupsiyaya qarşı mübarizədə yeni strategiyalar hazırlamalıyıq.

Uqandanın Hökumət Müfəttişliyi (Inspectorate of Government) olaraq biz həyat tərzi auditini (lifestyle audit) tətbiq etmişik. Bu metod bizə bir şəxsin gizli şəkildə əldə etdiyi resursları daha tez izləməyə və müəyyənləşdirməyə kömək edir. Biz şəxsin həyat tərzinə baxırıq — əgər kimsə qanunsuz yolla gəlir əldə edirsə və bu gəliri, məsələn, daşınmaz əmlaka yatırırsa, onun yaşayış səviyyəsi qəfil yüksəlir. Biz bu dəyişiklikləri müəyyən dövr ərzində təhlil edərək, həmin şəxsin korrupsiyaya bulaşıb-bulaşmadığı barədə ilkin siqnalları əldə edirik.

İkinci olaraq, biz prokuror rəhbərliyində istintaq (prosecution-led investigation) modelini tətbiq etmişik.




Bu yanaşmada müstəntiq və prokuror birgə işləyirlər. Prokuror müstəntiqə işin məhkəmədə sübuta yetirilməsi üçün hansı dəlillərin lazım olduğunu bildirir və bu, işi daha güclü və hüquqi cəhətdən əsaslı edir.

Biz həm istintaqçılarımızı, həm də prokurorlarımızı bu istiqamətdə təlimləndirmişik və nəticədə işlərimizin məhkəmələrdə baxılması zamanı yüksək ittiham (məhkumluq) göstəricilərinə nail olmuşuq. Çünki artıq prokuror və müstəntiq korrupsiya ilə bağlı işlərdə bir-biri ilə çox sıx əməkdaşlıq edir.

Prokuror rəhbərliyində istintaq yanaşması Uqandada əldə etdiyimiz uğurlu təcrübələrdən biri olub və özünü tam şəkildə doğruldub.

Mənim fikrimcə, bilik və təlim səviyyəsini artırmaqla biz əməkdaşlarımızı yeni biliklərlə, innovativ yanaşmalarla və müasir strategiyalarla təchiz edirik. Bunun nəticəsində korrupsiyaya qarşı mübarizədə daha effektiv nəticələr əldə edirik — Uqandadan gətirdiyim nümunələr də bunun bariz göstəricisidir.

**Sual: Ətraf mühitin mühafizəsi və ekologiyanın qorunması ölkəmiz üçün prioritetdir. Sizin ölkənizdə ekosistemin müdafiəsi istiqamətində hansı tədbirlər görülür?**

İlk növbədə, bizim 10 milli dəyərimiz var. Və birinci milli dəyərimiz — insanlığa və ətraf mühitə hörmət prinsipidir. Bizdə ətraf mühitin qorunması və tənzimlənməsi ilə məşğul olan Milli Ətraf Mühit İdarəsi (National Environmental Authority) fəaliyyət göstərir. İnsanlar öz ətraflarını yaşıllaşdırmağa, daha çox ağac əkməyə, ətrafı təmiz saxlamağa və zibilləməməyə təşviq olunurlar.

Mən geri dönərkən çox gözəl bir şəhər gördüm. Hətta bilmirəm, küçələr nə vaxt süpürülür, amma hər zaman təmiz olur. Bəlkə də gecələr təmizlənir. Amma bizim ölkəmizdə birinci prioritet — ətraf mühitin qorunmasıdır. Hazırda Uqandada yağış mövsümüdür və bizdə torpaq sürüşmələri, palçıq axıntıları kimi hadisələr baş verir.

Bəs niyə bu baş verir? Çünki insanlar ekosistemi pozublar — ağacları kəsərək və ya kömür istehsalı ilə məşğul olaraq təbiət tarazlığını zədələyiblər. Lakin bu gün uqandalılar artıq ətraf mühitin qorunmasının, ağac əkilməsinin və təbiətin yaşıl saxlanmasının əhəmiyyətini anlayırlar.

Biz vətəndaşlarımızı mümkün qədər çox ağac əkməyə və ətrafı yaşıllaşdırmağa təşviq edirik. Bu, ölkəmizin əsas prioritetlərindən biridir — ekosistemi qorumaq və insanla təbiət arasında hörməti təmin etmək.

Çünki əgər ətraf mühit pozularsa, insan özü də zərər görür. Ekosistem bütöv bir dövran təşkil edir və onun hər hansı hissəsinə zərər dəyməsi bütün sistemə təsir edir.

**Sual: Ölkələrimizin hüquq-mühafizə orqanları arasında ikitərəfli və beynəlxalq təşkilatlar çərçivəsində əməkdaşlıq imkanlarını necə qiymətləndirirsiniz?**

Əslində, biz artıq beynəlxalq korrupsiya əleyhinə qurumlarla, Afrika korrupsiya əleyhinə qurumları ilə və hətta Şərqi Afrika blokunda əməkdaşlıq etmişik. Yəni bu əməkdaşlıq bizim üçün yeni deyil. Biz artıq qarşılıqlı hüquqi yardım (mutual legal assistance) mexanizmlərindən istifadə etmişik, və indi isə daha qeyri-formal əməkdaşlıq mərhələsinə keçirik.

Artıq uzun prosedurlara, sənədlərin hazırlanmasına ehtiyac qalmır — bu, sadəcə bir zəng məsafəsindədir. Əgər mən sizi bu kimi tədbirlərdə bir neçə dəfə görmüşəmsə və əlaqə vasitələrimiz varsa, hər hansı vəziyyətdə sadəcə zəng edib deyə bilirəm: "Xahiş edirəm, bu məsələni ölkənizdə yoxlayın və mənə məlumat verin."

Bu ikitərəfli əməkdaşlıq modeli işi çox asanlaşdırıb, çünki biz birbaşa əməkdaşlıq edə bilirik. Məsələn, əgər mənim qonşu ölkəm Keniya ilə bağlı məlumata ehtiyacım varsa, sadəcə Korrupsiya Əleyhinə Agentliyin rəhbərinə zəng edirəm, o isə həmin məsələ üzrə məsul direktoru təyin edir və qısa müddətdə mənə məlumat çatdırılır. Eyni şəkildə, əgər onlar mənə müraciət edirlərsə, mən də eyni çevikliklə cavab verə bilirəm.

Bu ikitərəfli əməkdaşlıq, korrupsiyaya qarşı mübarizədə çox vacibdir. Çünki bu yanaşma bizə işlərin yubanmasının qarşısını almağa, yığılıb qalmış işləri həll etməyə və birgə əməliyyatlar və birgə təşəbbüslər həyata keçirməyə imkan yaradır.

Korrupsiyaya qarşı mübarizə bütöv bir yanaşma tələb edir — burada koordinasiya, əməkdaşlıq və birgə fəaliyyət vacibdir. Biz bunu "üç C" adlandırırıq: Coordination, Cooperation və Collaboration.

Əgər korrupsiya əleyhinə qurumlar bu üç C prinsipinə əməl etsələr — yəni koordinasiyanı, əməkdaşlığı və birgə fəaliyyəti təmin etsələr — o zaman mübarizə daha effektiv, daha çevik və daha səmərəli olur. Bu da məhz korrupsiyaya qarşı mübarizədə tətbiq edilməli olan bütüncül yanaşmadır.

**Hörmətli Patricia Achan Okiria, "Azərbaycan Prokurorluğu" jurnalının redaksiya heyəti adından sizə bu maraqlı müsahibəyə görə təşəkkür edirik. Bir daha Azərbaycana xoş gəlmisiniz!**

**Müsahibəyə üçün çox sağolun!**

# Противодействие киберпреступлениям в странах Организации Тюркских государств: проблемы и перспективы сотрудничества

**Рыскелдиев Е.К.**
**Доцент Кафедры уголовного преследования и оперативно-розыскной деятельности Института профессионального обучения, старший советник юстиции, магистр права (Академия правоохранительных органов при Генеральной прокуратуре Республики Казахстан.**
e-mail: erikson200717@gmail.com)

**Аннотация.** Статья раскрывает определенные актуальные проблемы и перспективы противодействия киберпреступности в странах Организации Тюркских государств (далее - ОТГ). Внимание уделено опыту Казахстана и перспективам межгосударственного сотрудничества в данной сфере. Изложены идеи о необходимости формирования единой региональной стратегии по кибербезопасности, предусматривающее от обмена информацией до координации действий правоохранительных органов.

**Ключевые слова:** киберпреступность, ОТГ, Казахстан, информационная безопасность, цифровая трансформация, международное сотрудничество.

В век развития информационных технологий и глобальной цифровизации интернет пространство стало неотъемлемой частью большинства экономически активных жителей планеты.

Онлайн работа, получение и предоставление услуг, документооборот, паспортизация, финансово-банковский сектор и кредитование населения всё больше поглощают современное общество.

Результаты исследования ООН по индексу развития электронного правительства указывают на существенное прогрессирование цифрового управления. В 2024 году 71,5% государств-членов ООН в настоящее время находятся на высоком или очень высоком уровне развития данного направления.

Казахстан в данном рейтинге расположился на 28-й строчке.

Вместе с тем, информационно-коммуникационные технологии наряду с преимуществами создают новые риски, связанные с киберпреступностью, масштаб которой продолжает расти, порой с непредсказуемой прогрессией.

Согласно отчету Интерпола более половины зарегистрированных в 2023 году в странах Азии и СНГ криминальных инцидентов связаны именно с фишингом и различными атаками на критически важную инфраструктуру.

Для стран ОТГ, объединяющих Казахстан, Азербайджан, Узбекистан, Кыргызстан, Турцию и ряд наблюдателей, вопросы обеспечения кибербезопасности становятся одними из приоритетных направлений в рамках государственной и региональной политики.

Под эгидой противодействия современной глобальной угрозе страны ОТГ, в целом, на внутригосударственном и региональном уровне принимают определенные меры по защите информационно-коммуникационных технологий.

К примеру, Республика Казахстан за последние годы приняла ряд ключевых, в том числе программных документов, такие как Государственная программа "Цифровой Казахстан" (2018–2022) и Концепция кибербезопасности "Киберщит Казахстана" (утверждена постановлением Правительства РК от 30.06.2017 № 407).

В структуре Министерства цифрового развития функционирует Национальный координационный центр по информационной безопасности (KZ-CERT), а в Министерстве внутренних дел осенью 2024 года образовано подразделение по противодействию киберпреступлений.

Органы прокуратуры, будучи локомотивом правоохранительного блока по внедрению цифровых технологий, аккумулировали сервера, актуализацию и техническое сопровождение информационных систем в сфере уголовного преследования.

Расследование уголовных дел в электронном формате посредством онлайн платформы web-ERDR явилось надежным путеводителем интенсивной надзорной деятельности, позволяющей дистанционно и оперативно проверять, давать оценку практически каждому следственному действию.

Примечательно, что Турция будучи участником Будапештской конвенции о киберпреступности с 2014 года, согласно исследованиям компании Kaspersky, по итогам 2023 года стала одним из самых уязвимых регионов в мире по киберзащищённости.

Агентство по информационным технологиям и коммуникациям (BTK) и Национальный центр реагирования на киберинциденты (USOM) координируют работу по защите инфраструктуры.

Несмотря на отсутствие профильного закона, касающегося исключительно киберпреступлений, власти Турции отмечают о принятии существенных мер по кибербезопасности. К примеру, по инициативе Совета научно-технических исследований (TUBITAK) проводятся научно-технические и опытно-конструкторские проекты в области кибербезопасности.

Небезынтересным представляется опыт Узбекистана, где действует Стратегия цифровой трансформации на 2020–2030 гг.

В конце прошлого года принят ряд существенных поправок в правовые акты, регулирующие административную ответственность, деятельность Центрального банка, банков второго уровня, в Закон "О защите информации в автоматизированной банковской системе" и еще несколько законов в связи с совершенствованием законодательства в сфере обеспечения кибербезопасности.

Уполномоченным координатором в сфере противодействия кибератакам является относительно не-

давно созданный Центр реагирования на компьютерные инциденты UZ-CERT.

Создана нормативная и правовая база по внедрению в Академии МВД Узбекистана бакалавра по профильной специальности “Деятельность по борьбе с преступностью в сфере цифровых технологий”, открытие которой планируется уже в текущем году. Образовательные программы по аналогичной специальности предусмотрены и в магистратуре.

Относительно Кыргызстана и Азербайджана можно обозначить, что обе страны проделывают динамичные шаги по совершенствованию законодательства в соответствии с международными стандартами, активно развивают CERT-структуры, цифровые платформы госуслуг и модернизируют инфраструктуру IT-технологии.

В качестве проблемы регионального взаимодействия следует отметить, что на сегодня не существует единой координационной платформы в рамках ОТГ по обмену информацией о киберугрозах. Сотрудничество ограничено двусторонними соглашениями и эпизодическим участием в международных мероприятиях.

Основными проблемами являются:

- разнородность законодательных подходов;

- отсутствие единой терминологии и протоколов реагирования;

- недостаточный уровень технической оснащенности органов.

Именно поэтому страны ОТГ стремятся к активному международному сотрудничеству и продуктивному партнерству.

В частности, в октябре 2024 года в городе Шуша (Азербайджан) проведен Международный форум подразделений финансовой разведки стран ОТГ.

Наряду с главной темой мероприятия затронуты тесно связанные вопросы усиления сотрудничества и создания правовой базы для институционализации усилий.

На сессиях форума презентованы внедряемые и рабочие инновационные решения, как Система мониторинга подозрительных действий (SAMS) в Азербайджане, а также опыт Венгрии в борьбе с онлайн-мошенничеством.

В свете изложенного представляется целесообразным создание в рамках ОТГ следующих механизмов:

- объединенного центра реагирования на киберинциденты (OTG-CERT), одновременно обеспечивающего взаимодействие не только стран-участниц ОТГ, но и с другими государствами и международными организациями;

- разработка Единой концепции кибербезопасности ОТГ, позволяющая определить единые подходы, понимание способов противодействия кибератакам, определяющую общую и единую терминологию;

- согласование подходов к гармонизации уголовного законодательства и иных правовых актов по совместным действиям, предположим, в банковском секторе;

Не менее важным представляется проведение ежегодных учений и семинаров между правоохранительными и иными заинтересованными государственными органами стран ОТГ.

Таким образом, противодействие киберпреступности в современных условиях требует системного и межгосударственного подхода, основанного на единой цели, соответственно, действующего по основному стандартному методу и карающего в одинаковой степени.

Для этого страны ОТГ обладают значительным потенциалом по формированию региональной модели киберзаслона на основе взаимного доверия, правовой совместимости и технической координации. В свою очередь Казахстан, имея развитую институциональную базу и богатый опыт в данной сфере, может стать инициатором создания регионального центра компетенций и площадкой для реализации совместных действий.

**Список использованной литературы:**

1. Концепция кибербезопасности (“Киберщит Казахстана”): Постановление Правительства Республики Казахстан от 30 июня 2017 года № 407 (с изменениями и дополнениями по состоянию на 09.04.2025). [Электронный ресурс]. – URL: http://10.61.42.188/rus/docs/P1700000407 (дата обращения: 09.04.2025).
2. Сайт Организации Объединенных Наций – https://www.news.un.org (дата обращения: 09.04.2025).
3. Статья “Эксперты призвали усилить кибербезопасность в Турции на фоне угроз” // Интернет-издание МК-Турция. [Электронный ресурс]. – URL: https://mk-turkey.ru/bezopasnost/2024/10/25/ (дата обращения: 10.04.2025).
4. Об информатизации: закон Республики Узбекистан от 11 декабря 2003 года № 560-II (с изменениями и дополнениями по состоянию на 11.09.2024 г.). [Электронный ресурс] – URL: http://lex.uz/acts82956 (дата обращения: 10.04.2025).
5. Официальный сайт Агентства по информационным технологиям Турции (BTK) – https://www.btk.gov.tr (дата обращения: 08.04.2025).
6. Статистика МВД РК по преступлениям, совершаемым с использованием информационно-коммуникационных технологий, 2023 г.

**Qeyd:** 23.09.2021 tarixində imzalanmış “Azərbaycan Respublikası Baş Prokurorluğunun Elm-Tədris Mərkəzi və Qazaxıstan Respublikasının Baş Prokurorluğu yanında Hüquq-mühafizə orqanlarının Akademiyası arasında tədris və elmi-tədqiqat fəaliyyəti sahəsində əməkdaşlıq haqqında memorandum”un icrası çərçivəsində hazırlanan “Противодействие киберпреступлениям в странах Организации Тюркских государств: проблемы и перспективы сотрудничества” adlı icmal məqaləsində əks olunan fikirlər və sitatlar müəllifi Riskeldiyev E.K. və Akademiya rəhbərliyi ilə razılaşdırılmışdır. Orijinal məzmun qorunulmuşdur və heç bir əlavə xarici məlumat daxil edilməmişdir.

## Prokurorluğun veteranları yubileyləri münasibətilə Baş prokuror adından təbrik edilib





9 iyul 2025-ci il tarixində Azərbaycan Prokurorluğunun veteranları – Mehman Vahabov və Afər Nəsirovun 70 illik, Məbud Hüseynovun isə 85 illik yubileyləri münasibətilə Baş prokuror Kamran Əliyevin adından təbrik məktubları və hədiyyələrlə təltif olunublar.

Görüş zamanı veteranlar öz xidmət illərindən danışaraq, Prezident İlham Əliyevin diqqət və qayğısı nəticəsində prokurorluq orqanlarının inkişaf etdiyini, həmçinin əməkdaşların və veteranların sosial rifahının yüksəldiyini vurğulayıblar.

Tədbirdə, dövlətçilik maraqlarını daim müdafiə edən, peşəkar fəaliyyəti ilə fərqlənən veteran prokurorların gənc nəsil üçün nümunə olduqları xüsusi qeyd edilib.

## Veteran prokurorluq işçiləri təbrik edilib




21 avqust 2025-ci il tarixində Azərbaycan Prokurorluğunun veteranı İsmayılov Mobil Vahid oğlunun 70 illik yubileyinin tamam olması ilə əlaqədar Baş prokuror Kamran Əliyevin adından təbrik məktubu təqdim edilib.

Görüş zamanı veteran prokuror xatirələrini bölüşərək Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev tərəfindən göstərilən qayğı nəticəsində prokurorluq orqanlarının maddi-texniki bazasının möhkəmlənməsini, prokurorluq işçilərinin, onun veteranlarının maddi və sosial rifahının yüksəlməsini qeyd edib.

Mobil İsmayılov 1977-ci ildən prokurorluq orqanlarında qulluğa qəbul olunmuş, əvvəllər Səbail, Suraxanı rayon prokurorluqlarında müstəntiq və böyük müstəntiq, Bakı şəhər prokurorluğunda şöbə prokuroru, Baş Prokurorluqda idarə prokuroru və böyük prokuror, Səbail rayon prokurorunun müavini, həmçinin Sabirabad, Saatlı, Cəlilabad rayon və Şirvan şəhər prokuroru vəzifələrində işləyib.

Söhbət zamanı dövlətçilik maraqlarının keşiyində hər zaman mətinliklə duran, şərəfli inkişaf yolu keçmiş, prokurorluğun adını daim uca tutan veteranlarımızın ömür yolunun gənc nəsil prokurorluq işçiləri üçün örnək olması vurğulanıb.

***

08 sentyabr 2025-ci il tarixində Azərbaycan Prokurorluğunun veteranı Əliyev Nizami Əhməd oğlunun 85 illik yubileyinin tamam olması ilə əlaqədar Baş prokuror Kamran Əliyevin adından təbrik məktubu təqdim edilib.

Görüş zamanı veteran prokuror xatirələrini bölüşərək Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev tərəfindən göstərilən qayğı nəticəsində prokurorluq orqanlarının maddi-texniki bazasının möhkəmləndirilməsi, prokurorluq işçilərinin və onun veteranlarının maddi və sosial rifahının yüksəlməsini qeyd edib.





Nizami Əliyev 1962-ci ildən prokurorluq orqanlarında qulluğa qəbul olunmuş, əvvəllər Bakı şəhər Yasamal və Nəsimi rayon prokurorluqlarının müstəntiqi, Nərimanov rayon prokurorunun müavini və Binəqədi rayon prokuroru, Bakı şəhər prokurorunun müavini və birinci müavini, Respublika Prokurorluğunda idarənin böyük prokuroru və idarə rəisinin müavini, Bakı şəhər prokuroru, Respublika Prokurorluğunun Beynəlxalq münasibətlərin, həmçinin Azərbaycan Respublikasının Silahlı Qüvvələrində qanunlarına icrasına və Milli təhlükəsizlik orqanlarında istintaqa nəzarət idarələrinin rəisi vəzifələrində, bundan əlavə Respublika Nəqliyyat prokurorluğunda və Baş Prokurorluqda müxtəlif vəzifələrdə işləyib.

Söhbət zamanı dövlətçilik maraqlarının keşiyində hər zaman mətinliklə duran, şərəfli inkişaf yolu keçmiş, prokurorluğun adını daim uca tutan veteranlarımızın ömür yolunun gənc nəsil prokurorluq işçiləri üçün örnək olması vurğulanıb.

***





08 sentyabr 2025-ci il tarixində Azərbaycan Prokurorluğunun veteranı Məhərrəmov Məhərrəm Əşrəf oğlunun 70 illik yubileyinin tamam olması ilə əlaqədar Baş prokuror Kamran Əliyevin adından təbrik məktubu təqdim edilib.

Görüş zamanı veteran prokuror xatirələrini bölüşərək Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev tərəfindən göstərilən qayğı nəticəsində prokurorluq orqanlarının maddi-texniki bazasının möhkəmləndirilməsi, prokurorluq işçilərinin və onun veteranlarının maddi və sosial rifahının yüksəlməsini qeyd edib.

Məhərrəm Məhərrəmov 1992-ci ildən hərbi prokurorluq orqanlarında qulluğa qəbul olunmuş, Azərbaycan Respublikası Hərbi Prokurorluğunun idarə və şöbələrində prokuror və böyük prokuror vəzifələrində işləyib.

Söhbət zamanı dövlətçilik maraqlarının keşiyində hər zaman mətinliklə duran, şərəfli inkişaf yolu keçmiş, prokurorluğun adını daim uca tutan veteranlarımızın ömür yolunun gənc nəsil prokurorluq işçiləri üçün örnək olması vurğulanıb.

## Prokurorluğun veteranları və gənc prokurorluq işçiləri arasında görüş keçirilib

Sentyabrın 25-də Baş Prokurorluq və Bakı şəhər prokurorluğunun inzibati binasında 1 Oktyabr - Prokurorluq işçilərinin peşə bayramı günü və Milli prokurorluq orqanlarının yaranmasının 107-ci ildönümü ilə əlaqədar prokurorluğun veteranları və gənc prokurorluq işçiləri arasında görüş keçirilib.



Görüşdə müasir Azərbaycanın qurucusu dünya şöhrətli dövlət xadimi Ümummilli Lider Heydər Əliyevin göstərdiyi misilsiz fədakarlıq vurğulanaraq Müzəffər Ali Baş Komandan cənab İlham Əliyevin rəhbərliyi ilə 2020-ci ildə ordumuzun əldə etdiyi möhtəşəm qələbə sayəsində ərazi bütövlüyümüzün və 2023-cü ildə isə 23 saatlıq lokal antiterror tədbirləri ilə suverenliyimizin bərpa edilməsindən bəhs edilib.






Suverenliyimizin ölkə başçısı İlham Əliyev tərəfindən beynəlxalq aləmdə təsdiq edilməsi, avqust ayının 8-də Ermənistan və Azərbaycan arasında sülh müqaviləsinin paraflanması xüsusilə qeyd edilib.

Ölkə başçısı və Birinci vitse-prezident Mehriban xanım Əliyevanın yorulmaz fəaliyyəti nəticəsində Şərqi Zəngəzur və Qarabağ bölgəsində aparılan kompleks quruculuq işləri barədə gənc hüquqşünaslara danışılıb və "Böyük Qayıdış"ın reallaşmasının əhəmiyyəti xüsusi vurğulanıb.

Veteranlar görüşdə prokurorluq orqanlarındakı xatirələrini danışıb, gənc prokurorluq işçiləri ilə öz bilik və təcrübələrini bölüşüb, hazırda prokurorluq orqanlarında aparılan dinamik islahatlar, eləcə də maddi və texniki bazanın möhkəmləndirilməsi istiqamətində göstərilən dövlət qayğısı yüksək qiymətləndirilib.

Görüşdə veteranlar prokurorluq orqanlarında çalışmağın şərəfli, eyni zamanda bir o qədər çətin və məsuliyyətli olmasını vurğulayaraq gənclərə uğurlar arzu edib.

## Baş prokurorun adından veterana təbrik məktubu təqdim edilib




26 sentyabr 2025-ci il tarixində Azərbaycan Prokurorluğunun veteranı Bayramov Əli Yusif oğlunun 80 illik yubileyinin tamam olması ilə əlaqədar Baş prokuror Kamran Əliyevin adından təbrik məktubu təqdim edilib.

Görüş zamanı veteran prokuror xatirələrini bölüşərək Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev tərəfindən göstərilən qayğı nəticəsində prokurorluq orqanlarının maddi-texniki bazasının möhkəmləndirilməsi, prokurorluq işçilərinin və onun veteranlarının maddi və sosial rifahının yüksəlməsini qeyd edib.

Söhbət zamanı dövlətçilik maraqlarının keşiyində hər zaman mətinliklə duran, şərəfli inkişaf yolu keçmiş, prokurorluğun adını daim uca tutan veteranlarımızın ömür yolunun gənc nəsil prokurorluq işçiləri üçün örnək olması vurğulanıb.

Əli Bayramov 1974-cü ildən prokurorluq orqanlarında qulluğa qəbul olunaraq, müstəntiq, prokuror köməkçisi, Baş prokuror yanında mühüm işlər üzrə müstəntiq və rayon prokuroru vəzifələrində işləyib.

# Prokurorluğun veteranı Durhəsən İmanovun müsahibəsi



Ali təhsilimi başa vurduqdan sonra 1978-ci ildə prokurorluq orqanlarında qulluğa qəbul olunaraq, Vartaşen (indiki Oğuz) rayon prokurorluğuna stajçı müstəntiq təyin edilmişəm, daha sonra həmin rayonda müstəntiq işləmişəm. Həmin vaxt rayon prokuroru Həsən Qasımov idi. O zaman rayon prokurorluğunda 2 ştat vahidi var idi, Prokuror və müstəntiq. Həsən müəllim məni çox səmimi qarşıladı, öz tövsiyələrini verdi, işlədiyim müddətdə məsləhətlərini əsirgəmirdi, mənim prokurorluq işçisi kimi formalaşmağımda Həsən müəllimin məsləhətlərinin rolu çox **olubdur.**



**Durhəsən müəllim, Siz çox gənc yaşınızda prokurorluqda texniki işçi kimi işləməyə başlamısınız. İşə başladığınız ilk günü necə xatırlayırsınız? Operativ işə keçmək arzusu sizdə necə yarandı?**

Orta məktəbdə oxuyarkən arzum hüquq təhsili almaq və prokurorluq orqanlarında işləmək olmuşdur. Bu arzu ilə də Kirov adına Azərbaycan Dövlət Universitetinin (indiki BDU) Hüquq fakültəsinə qəbul olmuşam. Prokurorluğa işə ilk dəfə 1973-cü ildə Bakı şəhər prokurorluğunda texniki işçi kimi başlamışam.

**1978-ci ildən Vartaşen (indiki Oğuz) rayon prokurorluğunda stajçı müstəntiq, sonra müstəntiq kimi iş fəaliyyətinizə davam etmişsiniz. Peşəkar işçi kimi formalaşmağınızda hansı həmkarınızın rolunu qeyd etmək istəyərdiniz?**

**Cəmi 31 yaşında Vartaşen (indiki Oğuz) rayonunun prokuroru vəzifəsinə təyin olunmusuz. Üzərinizə bir rayon çərçivəsində qanunun aliliyini qorumaq kimi böyük bir məsuliyyət düşmüşdür. Bu vəzifələrin öhdəsindən necə gəlirdiniz?**



Mənə gənc yaşımda çox böyük etimad göstərilərək rayon prokuroru vəzifəsinə təyin edilmişəm. Bu məndə çox böyük məsuliyyət yaradırdı. Rayon prokuroru təyin edilərkən 1982-ci ildə Ulu Öndərimiz Heydər Əliyev məni qəbul edərkən prokuror vəzifəsinin şərəfli, eyni zamanda çətin və məsuliyyətli olduğunu, mənə böyük etimad göstərildiyini deyərək öz tövsiyələrini verdi. Qanunun aliliyinin qorunmasını, obyektiv və ədalətli olmağı tapşırdı.Ulu Öndərlə görüş mənim hafizəmdə çox böyük iz buraxdı. Onun tövsiyə və tapşırıqlarını öz fəaliyyətim boyunca daim rəhbər tuturdum. Mən həmişə çalışmışam ki, mənə göstərilən bu böyük etimadı öz işimlə doğruldum. İşlədiyim bütün dövr-

lərdə qanunun aliliyini qorumaq, obyektiv və ədalətli olmaq, dövlətçiliyin maraqlarına xidmət etmək, prokurorluq adını və nüfuzunu uca tutmaq mənim prinsipal mövqeyim olub.







**Siz uzun müddət prokurorluq orqanlarında müxtəlif rayonlarda prokuror işləmisiz, Şəmkir, Siyəzən, Qusar, Abşeron  və Bakının ən böyük rayonlarından biri olan Nərimanov rayon prokurorluğu,lakin Azərbaycan müstəqilliyini bərpa etdiyi zaman siz Laçın rayon prokuroru olmuşsunuz. Dövlətçiliyin ən çətin dövrü haqqında xatirələrinizi bölüşməyinizi xahiş edərdik.**

1987-1992-ci illərdə Laçın rayon prokurorluğu vəzifəsində işləmişəm. Həmin illər çox ağır dövr idi. Qarabağda müharibə gedirdi. Ermənistan tərəfindən mütəmadi olaraq rayonun sərhəd kəndləri müxtəlif silahlarla atəşə tutulurdu. Əhali daim təşviş içində idi. Ölkədə hərc-mərclik hökm sürürdü. Özbaşınalıq, xaos və anarxiya baş alıb gedirdi. Bütün bunlar prokurorluğun normal fəaliyyət göstərməsində çox çətinliklər yaradırdı. Belə bir şəraitdə rayon prokurorluğunun işçiləri üzərinə düşən vəzifələri rayonun digər hüquq mühafizə orqanları ilə birlikdə əlaqəli şəkildə ağır şəraitdə yerinə yetirirdilər.

1992-ci ildə siz Respublika Baş Prokurorluğunda iş fəaliyyətinizi Təşkilat-nəzarət idarəsinin prokuroru kimi davam etmişiniz. Sovet İttifaqının dağılmasından sonra Azərbaycan üçün gərgin dövrlər idi. O illər barədə ətraflı danışmağınızı xahiş edərdik.

Müstəqilliyin ilk illərində ölkədə qeyri-sabit ictimai-siyasi vəziyyət mövcud idi. Ölkə müharibə şəraitində yaşayırdı. Özbaşınalıq, anarxiya, xaos mövcud idi. Belə bir şərait prokurorluğun normal fəaliyyət göstərməsində çətinliklər yaradırdı. Bütün bunlara baxmayaraq prokurorluğun əməkdaşları üzərlərinə düşən vəzifələri layiqincə icra etməyə çalışırdılar.

Azərbaycan Prokurorluğunun normal fəaliyyət göstərməsi Ulu Öndər Heydər Əliyevin xalqın təkidli tələbi ilə növbəti dəfə hakimiyyətə qayıdışından sonra yenidən bərpa olundu. Ölkəmizin bütün sahələrində olduğu kimi prokurorluq orqanlarında da islahatlar həyata keçirilməyə başlamıldı. Ulu Öndər Heydər Əliyevin təşəbbüsü ilə prokurorluğun fəaliyyətini tənzimləyən qanunlar qəbul edildi. "Prokurorluq haqqında qanun", "Prokurorluq orqanlarında qulluq keçmə haqqında qanun", Prokurorluqda işə qəbul olunmaq üçün namizədlərlə müsabiqə keçirilməsi qaydaları haqqında əsasnamə və digər qanunlar qəbul edildi. Beləliklə Azərbaycan prokurorluq orqanlarının fəaliyyəti beynəlxalq standartlara uyğun yenidən formalaşdırılaraq dövlət orqanları sırasında öz layiqli yerini tutdu. Ulu



Öndər Heydər Əliyevin hakimiyyətdə olduğu bütün dövrlərdə prokurorluğa böyük dəstək xüsusi diqqət və qayğı göstərilmişdir. Prokurorluğun daha da inkişaf etdirilməsi üçün bugün də möhtərəm Prezidentimiz cənab İlham Əliyev tərəfində xüsusi münasibət göstərilir. İslahatların dərinləşdirilməsi fonunda xüsusi ilə də 2020-ci ildə Vətən müharibəsində əldə olunan zəfərdən sonra prokurorluq orqanlarında bir sıra reformların həyata keçirilməsi təqdirə layiqdir.

**2001-ci ildə Sizi Azərbaycan Respublikası Baş Prokurorluğunun Kadrlar idarəsinin rəisi vəzifəsinə təyin ediblər. Fikrimizcə bu çox çətin və məsuliyyətli bir vəzifədir, bu dövrdə ilk dəfə prokurluğa test üsulu ilə müsabiqə keçirilmişdir. Bu barədə xatirələrindən nə deyə bilərsiniz?**

Ulu Öndərimiz Heydər Əliyevin 19 iyun 2001-ci il tarixli fərmanı ilə qəbul edilmiş prokurorluqda işə qəbul olunmaq üçün namizədlərlə müsabiqə keçirilmə qaydaları haqqında əsasnamə Azərbaycan prokurorluğunda həyata keçirilən islahatların uğurlarından olmaqla, prokurorluğun kadr tərkibinin yenidən formalaşdırılması kimi əhəmiyyətli məsələnin hüquqi əsasını təşkil etmişdir. 2002-ci ildə ilk dəfə olaraq prokurorluq orqanlarına işə qəbulun demokratik prinsiplərə uyğun şəffaf prosedurlarla müsabiqə yolu ilə həyata keçirilməsi nəticəsində prokurorluğun kadr tərkibinin yüksək mənəvi keyfiyyətlər və dərin biliyə malik vətənpərvər, dövlətçilik prinsiplərinə sadiq gənc hüquqşünaslardan formalaşdırılmasına nail olunmuşdur. Bu sahədə iş bu gün də uğurla davam etdirilir. Prokurorluğun maddi-texniki bazasının yaxşılaşdırılması prokurorluq işçilərininn və onun veteranlarının sosial vəziyyətinin yaxşılaşdırılması başda ölkə başçısı olmaqla prokurorluğun rəhbərliyinin daimi diqqətindədir.



**Təcrübəli prokurorluq işçisi kimi gənc həmkarlarınıza hansı tövsiyələri vermək istərdiniz?**

Daim qanunun aliliyini qorumağı, dövlətçiliyə sadiq, obyektiv, ədalətli olmağı və prokurorluğun adını uca tutmağı tövsiyə edirəm.



## AZƏRBAYCAN RESPUBLİKASININ QANUNU

### Azərbaycan Respublikasının Cinayət Məcəlləsində, Azərbaycan Respublikasının Cinayət-Prosessual Məcəlləsində və Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində dəyişiklik edilməsi haqqında

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 6-cı və 17-ci bəndlərini rəhbər tutaraq **qərara alır:**

**Maddə 1**

Azərbaycan Respublikasının Cinayət Məcəlləsində (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2000, № 4 (II kitab), maddə 251 (Cild I); 2024, № 1, maddələr 8, 18, № 3, maddə 250, № 7, maddə 772, № 11, maddə 1189, № 12 (II kitab), maddələr 1330, 1350; 2025, № 1, maddə 1, № 2, maddələr 98, 99, № 3, maddələr 217, 221; Azərbaycan Respublikasının 2025-ci il 11 aprel tarixli 172-VIIQD və 178-VIIQD nömrəli qanunları) aşağıdakı dəyişikliklər edilsin:

**1.1.** 73.2-ci maddədə "142.1" rəqəmləri "141.2-1, 142.1, 142.2" rəqəmləri ilə əvəz edilsin;

**1.2.** 136.2-1-ci maddənin sanksiyası aşağıdakı redaksiyada verilsin:

"üç ilədək müddətə müəyyən vəzifə tutma və ya müəyyən fəaliyyətlə məşğul olma hüququndan məhrum edilməklə və ya edilməməklə iki ildən dörd ilədək müddətə azadlığın məhdudlaşdırılması və ya iki ildən dörd ilədək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır.";

**1.3.** 138.2-ci maddənin sanksiyası aşağıdakı redaksiyada verilsin:

"üç ilədək müddətə müəyyən vəzifə tutma və ya müəyyən fəaliyyətlə məşğul olma hüququndan məhrum edilməklə və ya edilməməklə bir ildən üç ilədək müddətə azadlığın məhdudlaşdırılması və ya iki ildən dörd ilədək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır.";

**1.4.** 141-ci maddə üzrə:

**1.4.1.** 141.2-ci maddənin dispozisiyasında "Xüsusi ali tibbi" sözləri "Müvafiq ali tibb" sözləri ilə əvəz edilsin;

**1.4.2.** aşağıdakı məzmunda 141.2-1-ci maddə əlavə edilsin:

**"141.2-1.** Bu Məcəllənin 141.1 və 141.2-ci maddələrində nəzərdə tutulmuş əməllər nəticəsində zərərçəkmiş şəxsin sağlamlığına ehtiyatsızlıqdan az ağır zərər vurulduqda —

iki ilədək müddətə müəyyən vəzifə tutma və ya müəyyən fəaliyyətlə məşğul olma hüququndan məhrum edilməklə və ya edilməməklə bir ilədək müddətə azadlığın məhdudlaşdırılması və ya bir ilədək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır.";

**1.4.3.** 141.3-cü maddənin sanksiyası aşağıdakı redaksiyada verilsin:

"üç ilədək müddətə müəyyən vəzifə tutma və ya müəyyən fəaliyyətlə məşğul olma hüququndan məhrum edilməklə və ya edilməməklə iki ilədək müddətə azadlığın məhdudlaşdırılması və ya iki ilədək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır.";

**1.5.** 142-ci maddə aşağıdakı redaksiyada verilsin:

**"Maddə 142. Tibbi xidmətin göstərilməsi qaydalarını pozma**

**142.1.** Qanuna və ya xüsusi qaydalara uyğun olaraq şəxsə kömək etməyə borclu olan tibb işçisinin üzrlü səbəblər olmadan tibbi yardım göstərməməsi, yaxud tibb işçisinin işə vicdansız və ya laqeyd münasibəti nəticəsində öz peşə vəzifəsini yerinə yetirməməsi və ya lazımi qaydada yerinə yetirməməsi ehtiyatsızlıqdan şəxsin sağlamlığına az ağır zərər vurulmasına səbəb olduqda —

iki ilədək müddətə müəyyən vəzifə tutma və ya müəyyən fəaliyyətlə məşğul olma hüququndan məhrum edilməklə və ya edilməməklə bir ilədək müddətə azadlığın məhdudlaşdırılması və ya bir ilədək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır.

**142.2.** Ali və ya orta ixtisas tibb təhsili olmayan, habelə qanunda nəzərdə tutulmuş sertifikasiya şəhadətnaməsi olmayan və ya qüvvədə olmayan şəxs tərəfindən praktik tibb fəaliyyətinin həyata keçirilməsi, habelə tibb işçisi tərəfindən ixtisasına uyğun olmayan tibbi xidmətin göstərilməsi, yaxud dövlət tibb müəssisələrinin nizamnamələrində və ya özəl tibb fəaliyyəti sahəsində onlara verilmiş lisenziyada göstərilən işlərdən və xidmətlərdən kənar (ilkin tibbi yardım istisna olmaqla) tibb fəaliyyətinin həyata keçirilməsi ehtiyatsızlıqdan şəxsin sağlamlığına az ağır zərər vurulmasına səbəb olduqda —

iki ilədək müddətə müəyyən vəzifə tutma və ya müəyyən fəaliyyətlə məşğul olma hüququndan məhrum edilməklə və ya edilməməklə bir ilədək müddətə azadlığın məhdudlaşdırılması və ya bir ilədək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır.

**142.3.** Bu Məcəllənin 142.1 və 142.2-ci maddələrində nəzərdə tutulmuş əməllər ehtiyatsızlıqdan zərərçəkmiş şəxsin sağlamlığına ağır zərərin vurulmasına səbəb olduqda —

üç ilədək müddətə müəyyən vəzifə tutma və ya müəyyən fəaliyyətlə məşğul olma hüququndan məhrum edilməklə və ya edilməməklə iki ilədək müddətə azadlığın məhdudlaşdırılması və ya iki ilədək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır.

**142.4.** Bu Məcəllənin 142.1 və 142.2-ci maddələrində nəzərdə tutulmuş əməllər ehtiyatsızlıqdan zərərçəkmiş şəxsin ölümünə səbəb olduqda —

üç ilədək müddətə müəyyən vəzifə tutma və ya müəyyən fəaliyyətlə məşğul olma hüququndan məhrum

edilməklə iki ildən dörd ilədək müddətə azadlığın məhdudlaşdırılması və ya iki ildən dörd ilədək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır.

**142.5.** Bu Məcəllənin 142.1 və 142.2-ci maddələrində nəzərdə tutulmuş əməllər ehtiyatsızlıqdan iki və daha çox şəxsin ölümünə səbəb olduqda —

üç ilədək müddətə müəyyən vəzifə tutma və ya müəyyən fəaliyyətlə məşğul olma hüququndan məhrum edilməklə dörd ildən yeddi ilədək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır.".

**Maddə 2**

Azərbaycan Respublikası Cinayət-Prosessual Məcəlləsinin (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2000, № 8 (II kitab), maddə 585 (Cild I); 2024, № 1, maddə 4, № 4, maddələr 362, 365, 368, № 6 (I kitab), maddə 631; 2025, № 1, maddə 1, № 2, maddə 98; Azərbaycan Respublikasının 2025-ci il 28 fevral tarixli 147-VIIQD nömrəli Qanunu) 215.3.1-ci maddəsinə "135—138," rəqəmlərindən sonra "142 (cinayət işi prokurorluqda başlandıqda)," sözləri əlavə edilsin.

**Maddə 3**

Azərbaycan Respublikası İnzibati Xətalar Məcəlləsinin (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2016, № 2 (I kitab), maddə 202 (Cild I); 2024, № 1, maddə 18, № 2, maddə 135, № 4, maddə 362, № 5 (I kitab), maddələr 487, 489, 492, 503, № 7, maddələr 750, 768, 771, 772, № 12 (I kitab), maddə 1280 (II kitab), maddələr 1330, 1350; 2025, № 1, maddələr 1, 15, № 2, maddə 99, № 3, maddə 217; Azərbaycan Respublikasının 2025-ci il 14 fevral tarixli 138-VIIQD nömrəli, 7 mart tarixli 152-VIIQD nömrəli, 11 aprel tarixli 178-VIIQD nömrəli və 1 may tarixli 189-VIIQD nömrəli qanunları) 215-ci maddəsində aşağıdakı dəyişikliklər edilsin:

**3.1.** adında "vətəndaşların" sözü "şəxslərin" sözü ilə əvəz edilsin;

**3.2.** 215.1-ci maddənin dispozisiyası aşağıdakı redaksiyada verilsin:

**"215.1.** Ali və ya orta ixtisas tibb təhsili olmayan, habelə qanunda nəzərdə tutulmuş sertifikasiya şəhadətnaməsi olmayan və ya qüvvədə olmayan şəxs tərəfindən praktik tibb fəaliyyətinin həyata keçirilməsinə, habelə tibb işçisi tərəfindən ixtisasına uyğun olmayan tibbi xidmətin göstərilməsinə, yaxud tibb fəaliyyəti ilə məşğul olan şəxslər tərəfindən dövlət tibb müəssisələrinin nizamnamələrində və ya özəl tibb fəaliyyəti sahəsində onlara verilmiş lisenziyada göstərilən işlərdən və xidmətlərdən kənar (ilkin tibbi yardım istisna olmaqla) tibb fəaliyyətinin həyata keçirilməsinə görə —";

**3.3.** 215.4-cü maddənin dispozisiyasında "Qanunvericiliyə uyğun olaraq sertifikasiyadan keçməyən şəxslərin (işçilərin)" sözləri "Ali və ya orta ixtisas tibb təhsili olmayan, habelə qanunda nəzərdə tutulmuş sertifikasiya şəhadətnaməsi olmayan və ya qüvvədə olmayan şəxslərin" sözləri ilə əvəz edilsin;

**3.4.** aşağıdakı məzmunda 215.5-ci maddə əlavə edilsin:

**"215.5.** Tibb işçisinin işə vicdansız və ya laqeyd münasibəti nəticəsində öz peşə vəzifəsini yerinə yetirməməsi və ya lazımi qaydada yerinə yetirməməsi ehtiyatsızlıqdan şəxsin sağlamlığına yüngül zərər vurulmasına səbəb olduqda —

fiziki şəxslər beş yüz manatdan səkkiz yüz manatadək məbləğdə, vəzifəli şəxslər min manatdan min beş yüz manatadək məbləğdə, hüquqi şəxslər yeddi min manatdan doqquz min manatadək məbləğdə cərimə edilir.".

**Azərbaycan Respublikasının Prezidenti**
**İlham ƏLİYEV**
Bakı şəhəri, 13 iyun 2025-ci il
№ 212-VIIQD

## AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN FƏRMANI

### «Azərbaycan Respublikasının Cinayət Məcəlləsində, Azərbaycan Respublikasının Cinayət-Prosessual Məcəlləsində və Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində dəyişiklik edilməsi haqqında» Azərbaycan Respublikasının 2025-ci il 13 iyun tarixli 212-VIIQD nömrəli Qanununun tətbiqi və «Azərbaycan Respublikası Cinayət-Prosessual Məcəlləsinin təsdiq edilməsi, qüvvəyə minməsi və bununla bağlı hüquqi tənzimləmə məsələləri haqqında» Azərbaycan Respublikası Qanununun və həmin Qanunla təsdiq edilmiş Azərbaycan Respublikası Cinayət-Prosessual Məcəlləsinin tətbiq edilməsi barədə» Azərbaycan Respublikası Prezidentinin 2000-ci il 25 avqust tarixli 387 nömrəli Fərmanında dəyişiklik edilməsi haqqında

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 19-cu və 32-ci bəndlərini rəhbər tutaraq, "Azərbaycan Respublikasının Cinayət Məcəlləsində, Azərbaycan Respublikasının Cinayət-Prosessual Məcəlləsində və Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikasının 2025-ci il 13 iyun tarixli 212-VIIQD nömrəli Qanununun qüvvəyə minməsi ilə əlaqədar həmin Qanunun tətbiqini təmin etmək məqsədilə **qərara alıram:**

**1.** Azərbaycan Respublikasının Nazirlər Kabineti:

**1.1.** Azərbaycan Respublikası İnzibati Xətalar Məcəlləsinin 215.5-ci maddəsində nəzərdə tutulmuş inzibati xətalar haqqında işlərə baxmağa səlahiyyəti olan orqan

barədə təkliflərini hazırlayıb iki ay müddətində Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

**1.2.** "Azərbaycan Respublikasının Cinayət Məcəlləsində, Azərbaycan Respublikasının Cinayət-Prosessual Məcəlləsində və Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikasının 2025-ci il 13 iyun tarixli 212-VIIQD nömrəli Qanunundan irəli gələn digər məsələləri həll etsin.

**2.** "Azərbaycan Respublikası Cinayət-Prosessual Məcəlləsinin təsdiq edilməsi, qüvvəyə minməsi və bununla bağlı hüquqi tənzimləmə məsələləri haqqında" Azərbaycan Respublikası Qanununun və həmin Qanunla təsdiq edilmiş Azərbaycan Respublikası Cinayət-Prosessual Məcəlləsinin tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2000-ci il 25 avqust tarixli 387 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2000, № 8 (III kitab), maddə 610 (Cild I); 2024, № 1, maddələr 24, 33, № 4, maddə 387, № 8, maddə 945; Azərbaycan Respublikası Prezidentinin 2025-ci il 19 aprel tarixli 373 nömrəli Fərmanı) 3-cü hissəsinin ikinci abzasında "139—144" rəqəmləri "139—141, 142 (cinayət işi Azərbaycan Respublikasının daxili işlər (polis) orqanları tərəfindən başlandıqda), 143-144" sözləri ilə əvəz edilsin.

**Azərbaycan Respublikasının Prezidenti**
**İlham ƏLİYEV**
Bakı şəhəri, 1 iyul 2025-ci il
№ 430

## AZƏRBAYCAN RESPUBLİKASININ QANUNU

### "Prokurorluq orqanlarında qulluq keçmə haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 5-ci bəndini rəhbər tutaraq **qərara alır:**

**Maddə 1**

"Prokurorluq orqanlarında qulluq keçmə haqqında" Azərbaycan Respublikasının Qanununda (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2001, № 7, maddə 452 (Cild I); 2024, № 12 (II kitab), maddə 1337) aşağıdakı dəyişikliklər edilsin:

**1.1.** 18.7-ci maddənin ikinci cümləsində "attestasiyadan" sözü "müsahibədən" sözü ilə əvəz edilsin;

**1.2.** 29.2.9-cu maddənin sonunda nöqtə işarəsi nöqtəli vergül işarəsi ilə əvəz edilsin və aşağıdakı məzmunda 29.2.10-cu maddə əlavə edilsin:

**"29.2.10.** prokurorluqda qulluqda olmanın son yaş həddinə çatdıqda.";

**1.3.** 32-ci maddə üzrə:

**1.3.1.** 32.2-ci maddədə "yaş həddi 60" sözləri "son yaş həddi 65" sözləri ilə əvəz edilsin;

**1.3.2.** 32.3-cü maddənin ikinci, üçüncü və dördüncü cümlələri çıxarılsın;

**1.3.3.** 32.4-cü maddədə "Yaş" sözü "Son yaş" sözləri ilə əvəz edilsin.

**Maddə 2. Keçid müddəa**

Bu Qanunun 1.3-cü maddəsi bu Qanun qüvvəyə mindiyi gün prokurorluqda qulluqda olan və həmin gündən sonra prokurorluğa qulluğa qəbul edilən prokurorluq işçilərinə şamil edilir.

**Azərbaycan Respublikasının Prezidenti**
**İlham ƏLİYEV**
Bakı şəhəri, 8 iyul 2025-ci il
№ 236-VIIQD

## AZƏRBAYCAN RESPUBLİKASININ QANUNU

### Azərbaycan Respublikasının Mülki Prosessual Məcəlləsində, Azərbaycan Respublikasının Cinayət-Prosessual Məcəlləsində və Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində dəyişiklik edilməsi haqqında

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 6-cı və 17-ci bəndlərini rəhbər tutaraq **qərara alır:**

**Maddə 1.** Azərbaycan Respublikasının Mülki Prosessual Məcəlləsində (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2000, № 1, maddə 17 (Cild I); 2024, № 1, maddə 13, № 4, maddələr 362, 367, № 5 (I kitab), maddə 484, № 6 (I kitab), maddə 637, № 12 (I kitab), maddə 1283; Azərbaycan Respublikasının 2025-ci il 28 fevral tarixli 147-VIIQD nömrəli, 11 aprel tarixli 172-VIIQD nömrəli, 16 may tarixli 196-VIIQD nömrəli və 21 iyun tarixli 216-VIIQD nömrəli qanunları) aşağıdakı dəyişikliklər edilsin:

**1.1.** 265.4-cü maddədə "prokurora xəbər verir" sözləri "materialları ibtidai araşdırmaya prosessual rəhbərliyi həyata keçirən prokurora göndərir" sözləri ilə əvəz edilsin;

**1.2.** 307.2.4-cü maddə ləğv edilsin.

**Maddə 2.** Azərbaycan Respublikasının Cinayət-Prosessual Məcəlləsinə (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2000, № 8 (II kitab), maddə 585 (Cild I); 2024, № 1, maddə 4, № 4, maddələr 362, 365, 368, № 6 (I kitab), maddə 631; 2025, № 1, maddə 1, № 2, maddə 98; Azərbaycan Respublikasının 2025-ci il 28 fevral tarixli 147-VIIQD nömrəli, 16 may tarixli 199-VIIQD nömrəli, 13 iyun tarixli 211-VIIQD və 212-VIIQD nömrəli qanunları) aşağıdakı məzmunda 212.5-ci maddə əlavə edilsin:

**"212.5.** İcraatında mülki iş, kommersiya və ya inzibati mübahisələr üzrə, yaxud inzibati xəta haqqında iş olan hakim, səlahiyyətli orqan (vəzifəli şəxs) həmin iş üzrə şəxsin əməllərində cinayətin əlamətlərini aşkar etdikdə, bu barədə Azərbaycan Respublikasının Mülki Prosessual Məcəlləsinə və Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsinə uyğun olaraq qəbul etdiyi xüsusi qərardadı və ya məhkəmədə olan materialları ibtidai araşdırmaya prosessual rəhbərliyi həyata keçirən prokurora göndərir. Göndərilmiş xüsusi qərardad və ya materiallar üzrə cinayət işinin başlanmasının rədd edilməsi haqqında ləğv edilməmiş qərar olduqda, həmin məsələ bu Məcəllənin 212.4.1-ci maddəsində nəzərdə tutulmuş qaydada həll edilir.".

**Maddə 3.** Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2016, № 2 (I kitab), maddə 202 (Cild I); 2024, № 1, maddə 18, № 2, maddə 135, № 4, maddə 362, № 5 (I kitab), maddələr 487, 489, 492, 503, № 7, maddələr 750, 768, 771, 772, № 12 (I kitab), maddə 1280, (II kitab), maddələr 1330, 1350; 2025, № 1, maddələr 1, 15, № 2, maddə 99, № 3, maddə 217; Azərbaycan Respublikasının 2025-ci il 14 fevral tarixli 138-VIIQD nömrəli, 7 mart tarixli 152-VIIQD nömrəli, 11 aprel tarixli 178-VIIQD nömrəli, 1 may tarixli 189-VIIQD nömrəli, 16 may tarixli 199-VIIQD nömrəli və 13 iyun tarixli 212-VIIQD nömrəli qanunları) aşağıdakı dəyişikliklər edilsin:

**3.1.** 85-ci maddə üzrə:

**3.1.1.** adında "prokurora, ibtidai istintaq və ya təhqiqat orqanına verilməsi" sözləri "ibtidai araşdırmaya prosessual rəhbərliyi həyata keçirən prokurora göndərilməsi" sözləri ilə əvəz edilsin;

**3.1.2.** mətndə "prokurora, ibtidai istintaq və ya təhqiqat orqanına" sözləri "ibtidai araşdırmaya prosessual rəhbərliyi həyata keçirən prokurora" sözləri ilə əvəz edilsin;

**3.2.** 114.2.3-cü maddədə "prokurora, təhqiqat və ya istintaq orqanına" sözləri "ibtidai araşdırmaya prosessual rəhbərliyi həyata keçirən prokurora" sözləri ilə əvəz edilsin;

**3.3.** 129-cu maddə üzrə:

**3.3.1.** 129.1.3-cü maddədə "şikayət verən şəxsin yaşayış yeri və ya hüquqi şəxsin ünvanının olduğu" sözləri "inzibati xətanın törədildiyi" sözləri ilə əvəz edilsin və həmin maddəyə "məhkəməsinə" sözündən sonra "(bu Məcəllənin 129.1.3-1-ci maddəsində nəzərdə tutulmuş hal istisna olmaqla)" sözləri əlavə edilsin;

**3.3.2.** aşağıdakı məzmunda 129.1.3-1-ci və 129.1-1-ci maddələr əlavə edilsin:

**"129.1.3-1.** bu Məcəllənin 122.1-ci və 127-3.2-ci maddələrində nəzərdə tutulmuş inzibati tənbeh vermə haqqında elektron qərarlardan məhkəməyə verilən şikayət — şikayət verən şəxsin yaşayış yeri və ya hüquqi şəxsin ünvanının olduğu yer üzrə rayon (şəhər) məhkəməsinə;";

**"129.1-1.** Bu Məcəllənin 129.1.3-cü maddəsinə uyğun olaraq şikayətə baxmağa hazırlıq zamanı bu Məcəllənin 128.1-ci maddəsində göstərilən şəxslər tərəfindən şikayətə həmin şəxslərin yaşayış yeri və ya hüquqi şəxsin ünvanının olduğu yer üzrə baxılması haqqında vəsatət verilə bilər.";

**3.4.** 132.2-ci maddəyə "olmadıqda," sözündən sonra "habelə bu Məcəllənin 129.1-1-ci maddəsində nəzərdə tutulan vəsatət təmin edildikdə" sözləri əlavə edilsin;

**3.5.** 150-ci maddə üzrə:

**3.5.1.** 150.5.2-ci maddə üzrə:

**3.5.1.1.** birinci cümləyə "təşkilatlarına" sözündən sonra ", elektron pul təşkilatlarına" sözləri əlavə edilsin;

**3.5.1.2.** ikinci və üçüncü cümlələrə "təşkilatı" sözündən sonra ", elektron pul təşkilatı" sözləri əlavə edilsin;

**3.5.2.** 150.7-ci maddəyə "təşkilatlarında" sözündən sonra ", elektron pul təşkilatlarında" sözləri əlavə edilsin;

**3.6.** 293.5-ci maddənin dispozisiyasında "aeroportların" sözü "hava limanlarının" sözləri ilə əvəz edilsin;

**3.7.** 432-ci maddə üzrə:

**3.7.1.** 432.1-ci maddənin dispozisiyasından "qrant alan" sözləri çıxarılsın;

**3.7.2.** 432.4-cü maddənin dispozisiyasında "Qeyri-hökumət təşkilatları, xarici dövlətlərin qeyri-hökumət təşkilatlarının Azərbaycan Respublikasındakı filial və ya nümayəndəlikləri, yaxud banklar" sözləri "Bu Məcəllənin 432.2-ci maddəsində nəzərdə tutulan hallar istisna olmaqla, Azərbaycan Respublikasının resipiyentləri, yaxud banklar və digər ödəniş xidməti təchizatçıları" sözləri ilə əvəz edilsin;

**3.8.** aşağıdakı məzmunda 432-1-ci maddə əlavə edilsin:

**"Maddə 432-1. Qeyri-hökumət təşkilatı tərəfindən xidmətlərin göstərilməsi və işlərin görülməsi ilə bağlı qanunvericiliyin tələblərinin pozulması**

**432-1.1.** Qeyri-hökumət təşkilatı tərəfindən xarici maliyyə mənbələri hesabına xidmətlərin göstərilməsi və ya işlərin görülməsi haqqında müqavilələrin qeydiyyat üçün qanunvericiliklə müəyyən edilmiş müddətlərdə müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqana (quruma) təqdim edilməməsinə görə —

vəzifəli şəxslər min beş yüz manatdan iki min beş yüz manatadək məbləğdə, hüquqi şəxslər beş min

manatdan yeddi min manatadək məbləğdə cərimə edilir.

**432-1.2.** Xarici maliyyə mənbələri hesabına xidmətlərin göstərilməsi və ya işlərin görülməsi haqqında müqavilə olmadan və ya qeydiyyata alınmamış belə müqavilə üzrə qeyri-hökumət təşkilatı tərəfindən xidmətlərin göstərilməsinə və ya işlərin görülməsinə, yaxud bununla əlaqədar maliyyə vəsaiti və (və ya) başqa maddi formada vəsait qəbul edilməsinə görə —

vəzifəli şəxslər iki min beş yüz manatdan beş min manatadək məbləğdə, hüquqi şəxslər səkkiz min manatdan on beş min manatadək məbləğdə cərimə edilir.

**432-1.3.** Qeyri-hökumət təşkilatları, yaxud banklar və digər ödəniş xidməti təchizatçıları tərəfindən "Qeyri-hökumət təşkilatları (ictimai birliklər və fondlar) haqqında" Azərbaycan Respublikasının Qanunu ilə müəyyən edilmiş qaydada qeydiyyata alınmamış xarici maliyyə mənbələri hesabına xidmətlərin göstərilməsi və ya işlərin görülməsi haqqında müqavilə üzrə bank əməliyyatlarının və hər hansı digər əməliyyatların aparılmasına görə —

vəzifəli şəxslər iki min beş yüz manatdan beş min manatadək məbləğdə, hüquqi şəxslər beş min manatdan səkkiz min manatadək məbləğdə cərimə edilir.";

**3.9.** 528.3-cü maddənin dispozisiyasına "təşkilatı" sözündən sonra ", elektron pul təşkilatı" sözləri əlavə edilsin;

**3.10.** 592-1-ci maddə üzrə:

**3.10.1.** adında "Məsafədən idarə edilən pilotsuz uçan aparatların" sözləri "Mülki pilotsuz uçuş aparatlarının" sözləri ilə əvəz edilsin;

**3.10.2.** dispozisiyada "məsafədən idarə edilən pilotsuz uçan aparatların" sözləri "mülki pilotsuz uçuş aparatlarının (uşaqların istifadəsi üçün nəzərdə tutulmuş oyuncaq pilotsuz uçuş aparatları istisna olmaqla)" sözləri ilə əvəz edilsin;

**3.10.3.** sanksiyada "məsafədən idarə edilən pilotsuz uçan aparatlar" sözləri "mülki pilotsuz uçuş aparatları" sözləri ilə əvəz edilsin;

**3.11.** 598.8-1-ci maddənin dispozisiyasında "qrant və ianələr" sözləri "əmlaklarının pul və ya digər şəkildə formalaşdırılma mənbələri" sözləri ilə əvəz edilsin;

**3.12.** 600-cü maddə aşağıdakı redaksiyada verilsin:

**"Maddə 600. Dövlət qulluqçularının reyestrinin aparılması qaydasının pozulması**

**600.1.** Dövlət qulluqçularının reyestrinə səlahiyyətli vəzifəli şəxs tərəfindən daxil edilməli olan məlumatların qanunvericiliklə müəyyən edilmiş müddətdə daxil edilməməsinə və ya məlumatlarda dəyişiklik edilməməsinə görə —

vəzifəli şəxslər üç yüz manatdan altı yüz manatadək məbləğdə cərimə edilir.

**600.2.** Bu Məcəllənin 600.1-ci maddəsində nəzərdə tutulmuş inzibati xətanın inzibati tənbeh almış səlahiyyətli vəzifəli şəxs tərəfindən inzibati tənbeh vermə haqqında qərar qüvvəyə mindiyi gündən bir il ərzində təkrar törədilməsinə görə —

vəzifəli şəxslər yeddi yüz manatdan min manatadək məbləğdə cərimə edilir.

**Qeyd:** Bu Məcəllənin 600.1-ci və 600.2-ci maddələrində "səlahiyyətli vəzifəli şəxs" dedikdə dövlət orqanının (qurumunun) Dövlət qulluqçularının reyestrində qeydiyyatdan keçmiş və müvafiq hüquqlar verilmiş məsul şəxsləri nəzərdə tutulur.".

**Azərbaycan Respublikasının Prezidenti**
**İlham ƏLİYEV**
Bakı şəhəri, 8 iyul 2025-ci il
№ 239-VIIQD

## AZƏRBAYCAN RESPUBLİKASI PREZIDENTININ SƏRƏNCAMI

### "Narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının qanunsuz dövriyyəsinə və narkomanlığa qarşı mübarizəyə dair 2025—2030-cu illər üçün Dövlət Proqramı"nın təsdiq edilməsi haqqında

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 3-cü və 32-ci bəndlərini rəhbər tutaraq, narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının qanunsuz dövriyyəsinə və narkomanlığa qarşı mübarizənin gücləndirilməsi, eləcə də bu sahədə həyata keçirilən sistemli və kompleks tədbirlərin davamlılığının təmin edilməsi məqsədilə **qərara alıram:**

**1.** "Narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının qanunsuz dövriyyəsinə və narkomanlığa qarşı mübarizəyə dair 2025—2030-cu illər üçün Dövlət Proqramı" (bundan sonra — Dövlət Proqramı) təsdiq edilsin (əlavə olunur).

**2.** Azərbaycan Respublikasının Nazirlər Kabineti:

**2.1.** Dövlət Proqramında nəzərdə tutulan tədbirlərin əlaqələndirilməsini və icrasına nəzarəti həyata keçirsin;

**2.2.** bu Sərəncamdan irəli gələn digər məsələləri həll etsin.

**3.** Azərbaycan Respublikasının Narkomanlığa və Narkotik Vasitələrin Qanunsuz Dövriyyəsinə Qarşı Mübarizə üzrə Dövlət Komissiyası:

**3.1.** Dövlət Proqramında nəzərdə tutulan tədbirlərin icrasının monitorinqini və qiymətləndirilməsini həyata keçirsin;

**3.2.** Dövlət Proqramında nəzərdə tutulan tədbirlərin icra vəziyyəti barədə ildə bir dəfə Azərbaycan Respublikasının Prezidentinə məlumat versin.

**Azərbaycan Respublikasının Prezidenti**
**İlham ƏLİYEV**
Bakı şəhəri, 17 sentyabr 2025-ci il
№ 721

**AZƏRBAYCAN RESPUBLİKASI ADINDAN**

## Azərbaycan Respublikası Konstitusiyasının 60-cı maddəsi baxımından Azərbaycan Respublikası Cinayət-Prosessual Məcəlləsinin 509.1-ci maddəsinin həmin Məcəllənin 520.7-ci maddəsi ilə əlaqəli şəkildə şərh edilməsinə dair

AZƏRBAYCAN RESPUBLİKASI KONSTİTUSİYA MƏHKƏMƏSİ PLENUMUNUN QƏRARI

**Bakı şəhəri,** **18 iyun 2025-ci il**

Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin Plenumu Fərhad Abdullayev (sədr), Sona Salmanova, Humay Əfəndiyeva, Rövşən İsmayılov, Ceyhun Qaracayev, Fikrət Məmmədov, İsa Nəcəfov, Kamran Şəfiyev (məruzəçi-hakim) və Xanlar Vəliyevdən ibarət tərkibdə,

məhkəmə katibi Fəraid Əliyevin iştirakı ilə,

Azərbaycan Respublikası Konstitusiyasının 130-cu maddəsinin VI hissəsinə, "Konstitusiya Məhkəməsi haqqında" Azərbaycan Respublikası Qanununun 27.2 və 33-cü maddələrinə və Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin Daxili Nizamnaməsinin 39-cu maddəsinə müvafiq olaraq, xüsusi konstitusiya icraatının yazılı prosedur qaydasında keçirilən məhkəmə iclasında Azərbaycan Respublikası Konstitusiyasının 60-cı maddəsi baxımından Azərbaycan Respublikası Cinayət-Prosessual Məcəlləsinin 509.1-ci maddəsinin həmin Məcəllənin 520.7-ci maddəsi ilə əlaqəli şəkildə şərh edilməsinə dair konstitusiya işinə baxdı.

İş üzrə hakim K.Şəfiyevin məruzəsini, maraqlı subyektlər Bakı Apellyasiya Məhkəməsinin müraciətini və Azərbaycan Respublikası Milli Məclisi Aparatının mülahizəsini, Azərbaycan Respublikasının Ali Məhkəməsi, Azərbaycan Respublikasının Prokurorluğu, Azərbaycan Respublikasının Vəkillər Kollegiyası tərəfindən təqdim edilmiş mütəxəssis mülahizələrini, ekspertlər Bakı Dövlət Universitetinin Hüquq fakültəsinin Cinayət prosesi kafedrasının professoru, hüquq elmləri doktoru M.Qəfərovun və həmin kafedranın dosenti, hüquq elmləri doktoru Ə.Qasımovun rəyini və iş materiallarını araşdırıb müzakirə edərək, Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin Plenumu **müəyyən etdi:**

Bakı Apellyasiya Məhkəməsi Azərbaycan Respublikasının Konstitusiya Məhkəməsinə (bundan sonra — Konstitusiya Məhkəməsi) müraciət edərək Azərbaycan Respublikası Cinayət-Prosessual Məcəlləsinin (bundan sonra — Cinayət-Prosessual Məcəllə) 509.1-ci maddəsində nəzərdə tutulmuş hallarda hökmün və ya məhkəmənin digər yekun qərarının icrası qaydasında çıxarılmış məhkəmə qərarlarından zərər çəkmiş şəxslər tərəfindən apellyasiya və ya kassasiya şikayəti verilə bilməsinin mümkünlüyü baxımından həmin Məcəllənin 520.7-ci maddəsinin şərh edilməsini xahiş etmişdir.

Müraciətdə göstərilmişdir ki, Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi Penitensiar Xidmətinin (bundan sonra — Ədliyyə Nazirliyinin Penitensiar Xidməti) 6 saylı cəzaçəkmə müəssisəsində cəza çəkən məhkum İ.İsazadə, onun məntəqə tipli cəzaçəkmə müəssisəsinə keçirilməsinə dair ərizə ilə məhkəməyə müraciət etmişdir.

Bakı şəhəri Nizami Rayon Məhkəməsinin 17 oktyabr 2024-cü il tarixli qərarı ilə məhkumun ərizəsi təmin edilmiş, İ.İsazadə cəzasının qalan müddətini çəkmək üçün məntəqə tipli cəzaçəkmə müəssisəsinə keçirilmişdir.

Həmin qərardan iş üzrə zərər çəkmiş şəxsin nümayəndəsi apellyasiya şikayəti vermiş, məhkumun zərər çəkmiş şəxsə vurduğu ziyanı ödəməməsini əsas gətirərək Bakı şəhəri Nizami Rayon Məhkəməsinin 17 oktyabr 2024-cü il tarixli qərarının ləğv edilməsini xahiş etmişdir.

Müraciətdə qeyd olunur ki, Cinayət-Prosessual Məcəllənin 520.7-ci maddəsinə əsasən, hökmün və ya məhkəmənin digər yekun qərarının icrası qaydasında çıxarılmış məhkəmə qərarından bu Məcəllədə nəzərdə tutulmuş qaydada apellyasiya və ya kassasiya şikayəti yaxud protesti verilə bilər. Bununla belə, məhz zərər çəkmiş şəxsin bu kateqoriyalı işlər üzrə şikayət vermək hüququnun olması qanunvericilikdə birmənalı müəyyən edilmədiyindən qeyd edilən məsələ ilə bağlı şərh verilməsinə zərurət yaranmışdır.

Bakı Apellyasiya Məhkəməsi müraciətdə göstərmişdir ki, təcrübədə mövcud olan bir yanaşmaya görə hökmün və ya məhkəmənin digər yekun qərarının icrası qaydasında çıxarılmış məhkəmə qərarından Cinayət-Prosessual Məcəllədə nəzərdə tutulmuş qaydada zərər çəkmiş şəxs tərəfindən apellyasiya və ya kassasiya şikayəti verilə bilər.

Digər yanaşma isə ondan ibarətdir ki, Cinayət-Prosessual Məcəllənin 520.2-ci maddəsinə görə hökmün və ya məhkəmənin digər yekun qərarının icrası qaydasında məsələlər üzrə məhkəmə iclasında iştirak etmək hüququna məhkum, onun müdafiəçisi, qanuni nümayəndəsi, hökmün və ya məhkəmənin digər yekun qərarının icra edilməsi vəzifəsi üzərinə qoyulmuş müəssisə və ya orqanın nümayəndəsi və prokuror malikdirlər. Həmin şəxslər sırasında zərər çəkmiş şəxs və onun vəkili (nümayəndəsi) göstərilmədiyindən, yəni qanuna görə zərərçəkmiş şəxsin və onun vəkilinin (nümayəndəsinin) belə icraatda iştirak etmək hüququ nəzərdə tutulmadığından, onlar bu qaydada çıxarılmış qərarlardan şikayət vermək hüququna malik deyillər.

Müraciət edən qanunvericiliyin eyni qaydada tətbiqinə nail olmaq, eləcə də hüquqi müəyyənlik prinsipinin tələblərinə əməl edilməsi məqsədi ilə göstərilən normaların

şərh edilməsi üçün Konstitusiya Məhkəməsinə müraciət edilməsini zəruri hesab etmişdir.

Konstitusiya Məhkəməsinin Plenumu müraciətlə bağlı aşağıdakıların qeyd edir.

Azərbaycan Respublikası Konstitusiyasının (bundan sonra — Konstitusiya) 60-cı maddəsinin I hissəsinə müvafiq olaraq, hər kəsin hüquq və azadlıqlarının inzibati qaydada və məhkəmədə müdafiəsinə təminat verilir.

Hüquq və azadlıqların inzibati və məhkəmə təminatı hüququ hər kəsin məhkəməyə müraciət etmək hüququ ilə yanaşı, işinin ədalətli araşdırılmasını, eləcə də hüquq və azadlıqları pozulduğu halda məhkəmə aktlarından qanunvericiliklə müəyyən edilmiş qaydada yuxarı instansiya məhkəmələrinə şikayət vermək hüququnu ehtiva edir.

Konstitusiya Məhkəməsinin Plenumu "Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 71.1-ci maddəsinin şərh edilməsi haqqında" 2010-cu il 13 dekabr tarixli Qərarında vurğulamışdır ki, məhkəməyə müraciət etmək hüququnun əsassız məhdudlaşdırılması və ya nəzərdə tutulmaması son nəticədə Konstitusiyada müdafiəsinə təminat verilən hüquqların bəyanedici xarakter daşıdığına dəlalət etmiş olur.

Nəzərə alınmalıdır ki, məhkəmə müdafiəsi hüququnun vacibliyinə baxmayaraq, o mütləq xarakter daşımır və qanunvericilik tərəfindən müəyyən edilmiş hədlərdə konkret məhdudiyyətlərə məruz qala bilər. Bu hüququn səmərəli həyata keçirilməsinin təmin olunması məqsədilə Cinayət-Prosessual Məcəllədə məhkəmə müdafiəsi hüququna müəyyən məhdudiyyətlər qoyan bir sıra şərtlər (şikayətə və ya protestə dair tələblər, prosessual müddətlər və s.) nəzərdə tutulmuşdur. Belə məhdudlaşdırıcı tədbirlərdən biri də yuxarı instansiya məhkəmələrinə şikayət və ya protest vermək hüququna malik olan şəxslərin dairəsi ilə bağlıdır.

Zərər çəkmiş şəxsin şikayət hüququ ilə bağlı göstərilməlidir ki, Cinayət-Prosessual Məcəllənin 87.6.14-cü maddəsinə görə, zərərçəkmiş şəxs təhqiqatçının, müstəntiqin, prokurorun və ya məhkəmənin qərarlarından və hərəkətlərindən, o cümlədən hökmdən və məhkəmənin digər qərarlarından apellyasiya, kassasiya və ya əlavə kassasiya şikayəti verə bilər.

Həmçinin Cinayət-Prosessual Məcəllənin şərh edilməsi xahiş olunan 520.7-ci maddəsində göstərilmişdir ki, hökmün və ya məhkəmənin digər yekun qərarının icrası qaydasında çıxarılmış məhkəmə qərarından bu Məcəllədə nəzərdə tutulmuş qaydada apellyasiya və ya kassasiya şikayəti yaxud protesti verilə bilər.

Qeyd olunan qanunvericilik normaları ilə zərər çəkmiş şəxsə tanınan şikayət hüququ Cinayət-Prosessual Məcəllənin digər müddəaları vasitəsilə konkretləşdirilmişdir. Belə ki, həmin Məcəllənin 383.1.5-ci maddəsinə əsasən, zərər çəkmiş şəxs (xüsusi ittihamçı) və onun nümayəndəsi zərər çəkmiş şəxsin mənafelərinə aid hissədə apellyasiya şikayəti vermək hüququna malikdir.

Zərər çəkmiş şəxs, onun qanuni nümayəndəsi və ya nümayəndəsi hökmdən yalnız zərər çəkmişə ziyan vurmuş şəxsə və hərəkətlərə aid hissədən kassasiya şikayəti vermək hüququna malikdirlər (Cinayət-Prosessual Məcəllənin 409.4-cü maddəsi).

Göründüyü kimi, qanunverici zərərçəkmişin apellyasiya və kassasiya şikayəti vermək hüququnu məhz qəbul edilən hökmün və ya digər məhkəmə qərarının onun mənafeyinə toxunub-toxunmaması ilə şərtləndirmişdir.

Odur ki, Konstitusiya Məhkəməsinin Plenumu hökmün və ya məhkəmənin digər yekun qərarının icrası qaydasında çıxarılmış məhkəmə qərarının zərərçəkmiş şəxsin mənafelərinə təsir edib-etmədiyinin müəyyənləşdirilməsi üçün Cinayət-Prosessual Məcəllənin 509.1-ci maddəsində nəzərdə tutulmuş halların dairəsinin, cəzanın məqsədlərinin, cəzanın icrası prosesində zərər çəkmişin hüquqi statusu kimi məsələlərin nəzərdən keçirilməsini zəruri hesab edir.

Məhkəmənin hökmü çıxarıldıqdan sonra onun icrası qurtaranadək məhkum edilmiş şəxs aşağıdakı məsələlərə dair ərizə ilə məhkəməyə müraciət etmək hüququna malikdir:

– cəzanın çəkilməsinin təxirə salınması haqqında;

– xəstəliyə və ya ittiham hökmünün icrası müddətinin başa çatmasına görə cəza çəkməkdən azad edilməsi haqqında;

– cəzadan şərti olaraq vaxtından əvvəl azad edilməsi haqqında;

– cəzanın çəkilməmiş hissəsinin daha yüngül cəza ilə əvəz edilməsi haqqında;

– cəzaçəkmə və ya tərbiyə müəssisələrinin növünün dəyişdirilməsi haqqında;

– amnistiyanın tətbiq edilməməsi və ya düzgün tətbiq edilməməsi haqqında;

– müalicə müəssisəsində saxlanılma vaxtının cəzaçəkmə müddətinə daxil edilməsi haqqında;

– məhkumluğun vaxtından əvvəl götürülməsi haqqında;

– bu Məcəllədə nəzərdə tutulmuş digər məsələlər haqqında (Cinayət-Prosessual Məcəllənin 509.1.1—509.1.9-cu maddələri).

Cinayət-Prosessual Məcəllənin 520.2-ci maddəsində hökmün və ya məhkəmənin digər yekun qərarının icrası qaydasında məsələlər üzrə məhkəmə iclasında iştirak etmək hüququna malik şəxslərə məhkum və onun müdafiəçisi və ya qanuni nümayəndəsi, hökmün və ya məhkəmənin digər yekun qərarının icra edilməsi vəzifəsi üzərinə qoyulmuş müəssisə və ya orqanın nümayəndəsi və prokuror aid edilmişdir.

İlk növbədə qeyd olunmalıdır ki, prokuror (dövlət ittihamçısı) və zərər çəkmiş şəxs cinayət prosesində ittiham tərəfinə aid olmaqla yanaşı, müdafiə etdikləri maraqların özünəməxsusluğu ilə fərqlənirlər. Belə ki, zərər çəkmiş şəxs cinayət qanunu ilə nəzərdə tutulmuş əməl nəticəsində birbaşa mənəvi, fiziki və ya maddi ziyana məruz qalan şəxs olduğundan, yəni cinayət əməli nəticəsidə bilavasitə zərər çəkdiyindən, prosesdə iştirakda əsas marağı cinayət törədilməsi nəticəsində pozulmuş bütün hüquqlarının bərpa edilməsindən, ona vurulmuş maddi və mənəvi zərərin ödənilməsindən ibarətdir.

Cinayət prosesində zərər çəkmiş cinayətin açılmasında, iş üzrə həqiqətin müəyyən edilməsində, təqsirləndirilən şəxsin ifşa olunmasında, onun əməlinin düzgün tövsif

edilməsində və törədilmiş cinayətə görə ədalətli cəzanın təyin edilməsində maraqlı şəxs olmaqla təqsirləndirilən şəxsə qarşı duran tərəf qismində çıxış edir (Konstitusiya Məhkəməsi Plenumunun "Azərbaycan Respublikası Mülki Prosessual Məcəlləsinin 403.2-ci maddəsinin şərh edilməsinə dair" 24 iyul 2020-ci il tarixli Qərarı).

Bu baxımdan öz maraqlarını müdafiə etmək üçün zərər çəkən şəxsə qanunvericiliklə cinayət prosesində ittiham tərəfində iştirak etmək hüququ tanınmışdır.

Dövlət ittihamçısı isə yalnız zərər çəkmiş şəxsin hüquq və qanuni maraqlarını deyil, bütövlükdə cəmiyyət və dövlətin ictimai əhəmiyyət kəsb edən maraqlarını müdafiə edən şəxs kimi çıxış edir. Bu maraq cinayət və cinayət prosessual qanunvericiliyin vəzifələrinin icra edilməsinə, cinayət törətmiş şəxslərin qanunvericiliklə müəyyən edilmiş qaydada məsuliyyətə cəlb edilməsinə və cəzalandırılmasına nail olmaq vasitəsilə cəmiyyətin təhlükəsizliyinin, qanunun aliliyinin təmin olunmasına yönəlmişdir.

Cəza ilə bağlı nəzərə alınmalıdır ki, bu, məhkəmə hökmü ilə təyin edilən cinayət-hüquqi xarakterli tədbir olmaqla, məhz ədalətli cəzanın təyini cinayət işləri üzrə ədalət mühakiməsinin məqsədlərinə nail olunmasına xidmət edir.

Azərbaycan Respublikası Cinayət Məcəlləsinin (bundan sonra — Cinayət Məcəlləsi) 41.2-ci maddəsində göstərilmişdir ki, cəza sosial ədalətin bərpası, məhkumun islah edilməsi və həm məhkumlar, həm də başqa şəxslər tərəfindən yeni cinayətlər törədilməsinin qarşısını almaq məqsədi ilə tətbiq edilir.

Cəzanın sosial ədalətin bərpası məqsədi ilə bağlı qeyd edilməlidir ki, cinayət cəmiyyət tərəfindən qəbul edilən dəyərlər sistemini pozan ictimai təhlükəli hərəkət olduğundan bu nəticələri aradan qaldırmaq sosial ədalətin bərpasına xidmət edir. Sosial ədalətin bərpası cəmiyyətin şüurunda hüquq pozuntusunun nəticəsiz qalmayacağına dair inamı formalaşdırmaqla, onun hüquqa olan etimadını gücləndirir, habelə cəmiyyətdə dövlətin cinayət törətmiş şəxsi cəzalandırmağa qadir olmasına dair əminliyi təmin etmiş olur.

Oxşar hüquqi mövqe Konstitusiya Məhkəməsi Plenumunun "Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 46.2, 46.3-cü maddələrinin və Azərbaycan Respublikası Cinayət-Prosessual Məcəlləsinin 346.1.14-cü maddəsinin şərh edilməsinə dair" 2011-ci il 14 noyabr tarixli Qərarında ifadə olunmuşdur.

Cinayət qanunvericiliyində cəzaya münasibətdə sosial ədalətin nədən ibarət olması ilə bağlı ədalət prinsipini və cəzanın təyin edilməsinin ümumi əsaslarını nəzərdə tutan Cinayət Məcəlləsinin 8 və 58-ci maddələrində açıqlanmışdır.

Törədilmiş əməl ilə onun ictimai təhlükəlilik dərəcəsi və xarakteri, onu törədən şəxsin şəxsiyyəti arasında olan proporsionallıq cinayət cəzasının ədalətlilik meyarı kimi çıxış edir. Bu baxımdan o halda "sosial" ədalətin bərpası məqsədinə nail oluna bilər ki, təyin edilmiş cəza zərər çəkənin mənafeləri də nəzərə alınmaqla cinayətin xarakterinə və ictimai təhlükəlilik dərəcəsinə, təqsirkarın şəxsiyyətinə, o cümlədən cəzanı yüngülləşdirən və ağırlaşdıran hallara uyğun olsun və yalnız zərərçəkmiş şəxsdə deyil, bütövlükdə cəmiyyətdə ədalətin bərqərar olduğuna əminlik yaratsın.

Konstitusiya Məhkəməsinin Plenumu qeyd etməyi zəruri hesab edir ki, cəzanın bir-birilə əlaqəli olan üç məqsədindən biri kimi sosial ədalətin bərpası əsasən cəzanın təyin olunması ilə bağlı olsa da, digər iki məqsədinə — məhkumun islah edilməsinə və yeni cinayətlərin törədilməsinin qarşısını alınmasına bilavasitə təyin edilmiş cəzanın icrası prosesində nail olunmağa çalışılır.

Təsadüfi deyildir ki, Azərbaycan Respublikası Cəzaların İcrası Məcəlləsinin (bundan sonra — Cəzaların İcrası Məcəlləsi) 2.1-ci maddəsində həmin Məcəllənin məqsədi kimi məhkumların islah edilməsi, həm məhkumlar, həm də başqa şəxslər tərəfindən yeni cinayətlər törədilməsinin qarşısının alınması müəyyən olunmuşdur.

Cəzanın mühüm məqsədlərindən olan məhkumların islah edilməsi onların törətdikləri əməlin təhlükəliliyini dərk etməsi, gələcəkdə bu cür davranışlardan çəkinməsi və cəmiyyət üçün faydalı bir üzvə çevrilməsi üçün islahedilmə vasitələrinin tətbiqinə yönələn proses olmaqla, cəzaların çəkilməsinin prinsipləri, qayda və şərtləri ilə bağlı məsələlər birbaşa qanunvericiliklə tənzimlənir.

Cəzanın icrası prosesi ilə bağlı olan münasibətlər publik xarakterli olmaqla bir tərəfdən məhkum, digər tərəfdən isə cəzanı və cinayət-hüquqi xarakterli digər tədbirləri icra edən müəssisə və orqanlar arasında yarandığından, cəzanın təyin edildiyi cinayət prosesindən fərqli olaraq onun icrası prosesində zərər çəkmiş şəxsin iştirakı istisna olunur.

Nəzərə alınmalıdır ki, cəzaların icrası qanunvericiliyi qanunçuluq, humanizm, demokratizm, məhkumların və barəsində cinayət-hüquqi tədbirlər tətbiq edilən hüquqi şəxslərin qanun qarşısında bərabərliyi, cəzaların icrasının fərdiləşdirilməsi, məcburetmə tədbirlərindən və məhkumların islah edilmə vasitələrindən məqsədəuyğun istifadə edilməsi, onlarda qanuna itaətin həvəsləndirilməsi və cəzanın islahedici təsirinin artırılması prinsiplərinə əsaslanır (Cəzaların İcrası Məcəlləsinin 7-ci maddəsi).

Məhz bu prinsiplərdən irəli gələrək qanunvericilikdə məhkumların xəstəliyə görə cəza çəkməkdən azad edilməsinin, cəzadan şərti olaraq vaxtından əvvəl azad olunmasının, məhkumluğun vaxtından əvvəl götürülməsinin və s. mümkünlüyü öz əksini tapmış, bu hüquqların həyata keçirilməsinin qayda və şərtləri tənzimlənmişdir.

Qeyd edilməlidir ki, cəzanın icrası prosesi cəzanın qanunauyğun surətdə çəkilməsinə və onun məqsədlərinin həyata keçirilməsinə xidmət etdiyindən, məhkumların hüquqi və sosial reabilitasiyasına yönələn stimullaşdırıcı normaların tətbiqi də dövlət tərəfindən müəyyən olunan cəzanın icra mexanizminin tərkib hissəsini təşkil edir.

Belə tədbirlərin tətbiqi nəinki cəzanın əsas məqsədlərindən biri olan sosial ədalətin bərpa edilməsi məqsədinə xələl gətirmir, əksinə, cəza çəkdiyi müddətdə davranışı, əməyə və təhsilə münasibəti və s. amillər nəzərə alınmaqla islah olunduğunu nümayiş etdirən məhkumlarla, cəzanın icrası qaydalarına və şərtlərinə riayət etməyən, onları pozan şəxslər arasında fərq qoyulması əslində cəzaların icrasının fərdiləşdirilməsi, humanizm prinsiplərinin realizəsinə xidmət etmiş olur.

Göstərilməlidir ki, yuxarıda qeyd edilən, eləcə də Cinayət-Prosessual Məcəllənin 509.1-ci maddəsində öz əksini tapan digər məsələlər ilə bağlı məhkəmə iclasında məhkumun iştirak hüququnun tanınması həmin məsələlərin hər birinin həllinin bilavasitə məhkumun maraqlarına toxunmasından, hökmün və ya məhkəmənin digər yekun qərarının icra edilməsi vəzifəsi üzərinə qoyulmuş müəssisə və ya orqanın nümayəndəsinin iştirak hüququnun tanınması isə sonuncuların icra prosesində birbaşa iştirak etmiş şəxs olmasından irəli gəlirsə, prokurorun belə iştirak hüququ isə dövlət və ictimai maraqların təmin edilməsi zərurətindən irəli gəlir.

Belə ki, cəza dövlət adından çıxarılan məhkəmə qərarı ilə təyin edildiyindən onun qanunauyğun şəkildə icrası, eləcə də cəzaların icrası mexanizminə daxil olan vasitələrin qanuni və əsaslı şəkildə tətbiqi yalnız zərər çəkən şəxsin deyil, bütövlükdə dövlətin və cəmiyyətin marağında olan məsələdir.

Bu maraqların qorunması məqsədilə Cəzaların İcrası Məcəlləsinin 21-ci maddəsində də göstərilmişdir ki, prokurorluğun məhkəmələr tərəfindən təyin edilmiş cəzaların məqsədinə nail olunmasında iştirakı hökmün və ya məhkəmənin digər yekun qərarının icrası qaydasında məsələlərə dair müraciətlərə məhkəmə iclasında baxılarkən cinayət-prosessual qanunvericiliyi ilə müəyyən edilmiş qaydada həyata keçirilir.

Prokurorun qeyd olunan məsələlərin həllində iştirakı cəzanın məqsədlərinin qorunmasına, müvafiq ərizələrə baxılarkən cinayət-prosessual qanunvericiliyin tələblərinə riayət edilməsinə, eləcə də məhkumların hüquqlarının qorunmasına yönəlmişdir.

Müraciətə səbəb olmuş cəzaçəkmə və ya tərbiyə müəssisələrinin növünün dəyişdirilməsi haqqında ərizələrə baxılması məsələsi ilə bağlı qeyd olunmalıdır ki, Cəzaların İcrası Məcəlləsinin 70.1-ci maddəsinə müvafiq olaraq, ömürlük azadlıqdan məhrum etmə növündə cəzaya məhkum olunmuş şəxslər istisna olmaqla, davranışından və əməyə münasibətindən asılı olaraq məhkumlar cəzaçəkmə müəssisəsinin bir növündən digərinə keçirilə bilərlər.

Cəzaçəkmə müəssisəsinin növünün dəyişdirilməsi cəzadan şərti olaraq vaxtından əvvəl azad etmə, cəzanın çəkilməmiş hissəsini daha yüngül cəza növü ilə əvəz etmə kimi məhkumlara tətbiq olunan və onların islah olunmasını təşviq edən həvəsləndirici tədbirdir.

Qeyd olunmalıdır ki, cinayət qanunu ilə müxtəlif növ cəzaçəkmə müəssisələrinin müəyyən edilməsi məhkumların islah edilməsi məqsədinə xidmət edir. Müəyyən müddətə azadlıqdan məhrum etmə cəzasına məhkum olunmuş şəxslər üçün Cinayət Məcəlləsinin 56-cı maddəsində nəzərdə tutulan cəzaçəkmə müəssisələrinin təsnifatı cəmiyyətdə qəbul olunmuş insanın davranışını müəyyən edən normalara məhkumlarda formalaşmış baxışların səhv olduğunu dərk etməyə yönələn fərdi tərbiyə işinin aparılması üçün əlverişli şərait yaradır. Məhkumun ona təyin olunmuş cəzanın və tətbiq olunmuş dövlət məcburiyyət tədbirlərinin əhəmiyyətini dərk etməsi cəzanın məqsədinə nail olmanın əsas şərtlərindən biridir (Konstitusiya Məhkəməsi Plenumunun "Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 56.1.3-cü maddəsinin şərh edilməsinə dair" 2012-ci il 12 yanvar tarixli Qərarı).

Nəzərə alınmalıdır ki, cəzaçəkmə müəssisəsinin növünün dəyişdirilməsi məhkumun cəza müddətində göstərdiyi nümunəvi davranış, islah olunma səviyyəsi və cəmiyyət üçün təhlükə dərəcəsi nəzərə alınmaqla və yalnız cəzanın qanunvericiliklə müəyyən edilmiş müvafiq hissələrini çəkdikdən sonra tətbiq olunur. Sərt rejimli müəssisədən daha yumşaq rejimli müəssisəyə keçid məhkumun sosial adaptasiya prosesini asanlaşdırır və onun reabilitasiyasına kömək edir.

Bu baxımdan, cəzaçəkmə müəssisəsinin növünün ağır rejimli müəssisədən daha yüngül rejimli müəssisəyə dəyişdirilməsi cəzaların icrası qanunvericiliyinin məqsəd və prinsiplərindən irəli gələrək məhkumun islah edilməsi prosesinin tərkib hissəsi olduğundan, zərər çəkmiş şəxsin hüquq və mənafelərinə birbaşa təsir etmir. Odur ki, istər məhkumun öz ərizəsi, istərsə də cəzaçəkmə müəssisəsinin təqdimatı ilə qaldırılan həmin məsələnin məhkəmə tərəfindən həlli zərər çəkmiş şəxsin mövqeyindən asılı olan məsələ kimi qiymətləndirilə bilməz.

Göstərilənlərlə yanaşı, Konstitusiya Məhkəməsinin Plenumu qeyd etməyi vacib hesab edir ki, istər cəzaçəkmə müəssisəsinin növünün dəyişdirilməsi, istərsə də Cinayət-Prosessual Məcəllənin 509-cu maddəsində göstərilən digər məsələlərlə bağlı müraciət və təqdimatlara baxarkən, məhkəmələr onların məzmunu və təqdim edilən materiallarla, cəzaçəkmə müəssisəsinin mülahizəsi ilə kifayətlənməməli, müraciətin (təqdimatın) əsaslılığının yoxlanılması üçün (məhkumun davranışını düzgün qiymətləndirmək, onun tərəfindən yeni cinayətlərin törədilməsi, cəzanın icrasından yayınması riskini müəyyənləşdirmək və s.) bütün prosessual hüquqi imkanlardan istifadə etməlidir.

Qanuni və əsaslı qərarın qəbulunun təmin edilməsi məqsədilə Cinayət-Prosessual Məcəllənin 520.4-cü maddəsində göstərilmişdir ki, məsələ mülki iddiaya aid olduqda, məhkəmə iclasına həmçinin mülki iddiaçı və ya onun nümayəndəsi çağırıla bilər. Hökmün və ya məhkəmənin digər yekun qərarının icrası qaydasında məsələlər üzrə hakim məhkəmə iclasında ifadələri dinləmək, müraciətdə göstərilən halları təsdiq və ya təkzib edən şəxsləri çağırıb dindirmək, müraciətin əsaslılığının yoxlanılması üçün zəruri olan sənəd və maddi sübutlar tələb etmək hüququna malikdir.

Bu baxımdan məsələnin mahiyyəti, cinayətin xarakteri, təqsirkarın şəxsiyyəti və digər halları nəzərə almaqla məhkəmə tərəfindən zərər çəkən şəxsin məhkəmə iclasına çağırılmasının və dindirilməsinin mümkünlüyü istisna edilmir.

Azərbaycan Respublikası Ali Məhkəməsinin Plenumu "Cəzadan şərti olaraq vaxtından əvvəl azad etmə, cəzanın çəkilməmiş hissəsini daha yüngül cəza növü ilə əvəz etmə, cəzaçəkmə müəssisəsinin növünün dəyişdirilməsi və xəstəliyə görə cəzanı çəkməkdən azad etmə ilə bağlı məhkəmə təcrübəsi haqqında" 2010-cu il 8 oktyabr tarixli Qərarının 11-ci bəndində qeyd etmişdir ki, əgər müraciət etmiş məhkum hökmlə zərər çəkmiş şəxsə və ya mülki iddiaçıya müəyyən pul məbləği və ya hər hansı bir əşya ödəməlidirsə, bu halda zərərçəkmiş şəxsin və ya mülki iddiaçının (tələbkarın) məhkəməyə çağırılması da məqsədəmüvafiqdir.

Bununla belə göstərilən hallarda zərərçəkmiş şəxsin (mülki iddiaçının) çağırılıb dindirilməsi sonuncunun mövqeyinin məhkəmə üçün məcburi olması və qəbul ediləcək qərarın zərər çəkən şəxsin mövqeyindən asılı edilməsi kimi başa düşülməməli və nəzərə alınmalıdır ki, belə prosessual hərəkətlər məhkəmə tərəfindən işin hərtərəfli araşdırılmasına və məhkumun davranışının düzgün qiymətləndirilməsinə xidmət edir.

Konstitusiya Məhkəməsinin Plenumu hesab edir ki, Cinayət-Prosessual Məcəllənin 509-cu maddəsi üzrə baxılan məsələlər, bir qayda olaraq, bilavasitə zərərçəkmişin marağına toxunmadığındandır ki, həmin Məcəllənin 520.2-ci maddəsində iclasda iştirak etmək hüququna malik şəxslər sırasında zərər çəkmiş şəxs öz əksini tapmamışdır.

Həmin məsələlərə baxılarkən məhkumlara stimullaşdırıcı tədbirlərin əsassız və qanunsuz tətbiq edilməməsi, cəzanın məqsədinə nail olmaq üçün qanunvericiliklə müəyyən edilmiş bütün qayda və tələblərə riayət olunması ilə bağlı bütövlükdə cəmiyyətin marağının müdafiəsi isə prokurora hökmün və ya məhkəmənin digər yekun qərarının icrası qaydasında icraat üzrə məhkəmə iclaslarında iştirak etmək, öz yekun sözündə məhkəməyə müraciətin təmin və ya rədd edilməsini təklif etmək imkanının yaradılması (Cinayət-Prosessual Məcəllənin 520.6.5-ci maddəsi), eləcə də qəbul edilmiş qərarlardan protest vermək hüququnun tanınması vasitəsilə təmin edilir.

Qeyd olunanlarla yanaşı göstərilməsi zəruridir ki, hökm və ya məhkəmənin digər yekun qərarlarının icrası qaydasında icraat zamanı baxılan müəyyən məsələlərin bilavasitə zərər çəkən şəxsin mənafeyinə toxuna bilməsinin mümkünlüyü də istisna olunmamalıdır. Məsələn, Cinayət-Prosessual Məcəllənin 511-1.2-ci maddəsinin tələbinə əsasən, məhkumun Cinayət Məcəlləsinin 80-1-ci maddəsinə müvafiq olaraq zərər çəkmiş şəxslə barışmaqla, cinayət nəticəsində vurulmuş ziyanı və ya əldə edilmiş gəliri tamamilə ödəməklə bağlı cəza çəkməkdən azad edilməsi zərər çəkmiş şəxsin və mülki iddiaçının notariat qaydasında təsdiq edilmiş ərizəsi və Cinayət Məcəlləsinin 73-1.2 və 73-2.2-ci maddələri ilə müəyyən edilmiş məbləğin dövlət büdcəsinə ödənilməsini təsdiq edən müvafiq sənəd nəzərə alınmaqla tətbiq edilir. Zərər çəkmiş şəxs və mülki iddiaçının notariat qaydasında təsdiq edilmiş ərizəsi olmadığı hallarda həmin şəxslərin və ya onların qanuni nümayəndələrinin məhkəmə iclasında iştirakı məcburidir.

Eyni zamanda məhkəmə iclasında müraciətlə mənafeyinə toxunulan şəxslər, habelə onların müdafiəçiləri və nümayəndələri iştirak etdikdə, onlara izahat vermək və etirazlarını bildirmək imkanı yaradılması ilə bağlı normalar da bilavasitə qanunvericilikdə öz əksini tapmışdır (Cinayət-Prosessual Məcəllənin 520.6.3-cü maddəsi).

Məhkumun cəzadan azad edilməsinin bilavasitə zərərçəkmişin iradəsinə bağlı olması və onun marağının tam şəkildə ödənilməsindən asılı edilməsi, baxılan məsələnin zərərçəkmiş şəxsə vurulmuş ziyanın ödənilməsinə birbaşa təsir etməsi kimi halların mövcudluğu bu məsələ ilə bağlı qəbul edilən qərarın bilavasitə onun mənafeyinə toxunduğuna dəlalət edir ki, bu hallarda zərər çəkən şəxsə həmin qərardan apellyasiya və kassasiya şikayəti vermək hüququnun inkar edilməsi onun Konstitusiya ilə bəyan edilən məhkəmə müdafiəsi hüququnun pozulması ilə nəticələnərdi.

Göstərilənlərə əsasən Konstitusiya Məhkəməsinin Plenumu aşağıdakı nəticələrə gəlir:

Cinayət-Prosessual Məcəllənin 520.2-ci maddəsinə tələblərinə və Konstitusiya Məhkəməsi Plenumunun bu Qərarının təsviri-əsaslandırıcı hissəsində əks olunmuş hüquqi mövqelərə əsasən Cinayət-Prosessual Məcəllənin 509.1.1—509.1.8-ci maddələri ilə nəzərdə tutulmuş məsələlərlə bağlı qəbul edilmiş məhkəmə qərarından zərər çəkmiş şəxsin apellyasiya və ya kassasiya şikayəti vermək hüququ istisna edilir;

Konstitusiyanın 60-cı maddəsindən və Cinayət-Prosessual Məcəllənin 383.1.5, 409.4, 520.7-ci maddələrinin müddəalarından irəli gələrək, hökm və ya məhkəmənin digər yekun qərarlarının icrası qaydasında baxılan məsələlərə dair qəbul edilmiş məhkəmə qərarları yalnız zərər çəkmiş şəxsin mənafelərinə toxunduğu hallarda, zərər çəkmiş şəxs həmin qərarlardan apellyasiya və kassasiya şikayəti vermək hüququna malikdir.

Azərbaycan Respublikası Konstitusiyasının 130-cu maddəsinin VI hissəsini və "Konstitusiya Məhkəməsi haqqında" Azərbaycan Respublikası Qanununun 60, 62, 63, 65—67 və 69-cu maddələrini rəhbər tutaraq, Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin Plenumu **qərara aldı:**

**1.** Azərbaycan Respublikası Cinayət-Prosessual Məcəlləsinin 520.2 -ci maddəsinə və Konstitusiya Məhkəməsi Plenumunun bu Qərarının təsviri-əsaslandırıcı hissəsində əks olunmuş hüquqi mövqelərə əsasən Azərbaycan Respublikası Cinayət-Prosessual Məcəlləsinin 509.1.1—509.1.8-ci maddələri ilə nəzərdə tutulmuş məsələlərlə bağlı qəbul edilmiş məhkəmə qərarından zərər çəkmiş şəxsin apellyasiya və ya kassasiya şikayəti vermək hüququ istisna edilir.

**2.** Azərbaycan Respublikası Konstitusiyasının 60-cı maddəsindən və Azərbaycan Respublikası Cinayət-Prosessual Məcəlləsinin 383.1.5, 409.4, 520.7-ci maddələrinin müddəalarından irəli gələrək, hökm və ya məhkəmənin digər yekun qərarlarının icrası qaydasında baxılan məsələlərə dair qəbul edilmiş məhkəmə qərarları yalnız zərər çəkmiş şəxsin mənafelərinə toxunduğu hallarda, zərər çəkmiş şəxs həmin qərarlardan apellyasiya və kassasiya şikayəti vermək hüququna malikdir.

**3.** Qərar dərc edildiyi gündən qüvvəyə minir.

**4.** Qərar Azərbaycan Respublikasının rəsmi dövlət qəzetlərində və "Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin Məlumatı"nda dərc edilsin, habelə Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin rəsmi internet saytında yerləşdirilsin.

**5.** Qərar qətidir, heç bir orqan və ya şəxs tərəfindən ləğv edilə, dəyişdirilə və ya rəsmi təfsir edilə bilməz.

**Sədr Fərhad ABDULLAYEV**

## AZƏRBAYCAN RESPUBLİKASININ BAŞ PROKURORLUĞU
## Ə M R
## № 2-2-100/310-k

**Azərbaycan Respublikası Baş prokurorunun "Azərbaycan Respublikası Baş Prokurorluğunun Etik Davranış Komissiyasının yaradılması haqqında" 05.08.2020-ci il tarixli 11/852-k nömrəli və "Azərbaycan Respublikası Baş Prokurorluğunun Müsabiqə Komissiyasının tərkibi haqqında" 05.08.2020-ci il tarixli 11/854-k nömrəli əmrlərində dəyişiklik edilməsi barədə**

**Bakı şəhəri** **08 iyul 2025-ci il**

Baş Prokurorluq üzrə müvafiq əmrlərə əsasən kadr dəyişikliklərinin həyata keçirilməsi nəzərə alınmaqla, "Prokurorluq haqqında" Azərbaycan Respublikası Qanununun 10-cu maddəsini rəhbər tutaraq,

**Ə M R E D İ R Ə M:**

**1.** "Azərbaycan Respublikası Baş Prokurorluğunun Etik Davranış Komissiyasının yaradılması haqqında" 05.08.2020-ci il tarixli 11/852-k nömrəli əmrin 1-ci bəndində "Talıb Cəfərov" sözləri "Fazil Həsənəliyev" sözləri ilə, "Ceyhun Kazımov" sözləri "Erkin Əlixanov" sözləri ilə, "Murad Dadaşov" sözləri "Talıb Cəfərov" sözləri ilə əvəz edilsin.

**2.** "Azərbaycan Respublikası Baş Prokurorluğunun Müsabiqə Komissiyasının tərkibi haqqında" 05.08.2020-ci il tarixli 11/854-k nömrəli əmrin 1-ci bəndində "Fazil Həsənəliyev" sözləri "Mahir Abbasov" sözləri ilə, "Talıb Cəfərov" sözləri "Fazil Həsənəliyev" sözləri ilə əvəz edilsin.

**3.** Əmr elan edilməsi üçün Baş Prokurorluğun struktur qurumlarına və bütün tabe prokurorluqlara göndərilsin, "Azərbaycan Prokurorluğu" elmi-praktiki jurnalında dərc edilsin və "Prokurorluğun Normativ Xarakterli Hüquqi Sənədlərinin Reyestri"nə daxil edilsin.

**Azərbaycan Respublikasının**
**Baş prokuroru**
**I dərəcəli dövlət ədliyyə müşaviri**
**Kamran Əliyev**

## AZƏRBAYCAN RESPUBLİKASININ BAŞ PROKURORLUĞU
## Ə M R
## № 150/62

**"Azərbaycan Respublikası Prokurorluğu orqanlarının sosial media siyasətinə dair Təlimat"dan irəli gələn vəzifələrin icrası barədə" 23.12.2021-ci il tarixli 15/27 №-li, "Azərbaycan Respublikası Prokurorluğu orqanlarında "İlin ən yaxşı prokuroru" müsabiqəsinin keçirilməsi üzrə Komissiyanın yaradılması haqqında" 17.12.2024-cü il tarixli 150/56 №-li əmrlərində və Azərbaycan Respublikası Baş prokurorunun 27 avqust 2020-ci il tarixli 15/1 №-li əmri ilə təsdiq edilmiş "Azərbaycan Respublikası Prezidentinin 22 iyul 2020-ci il tarixli, 2173 nömrəli Sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasında insan alverinə qarşı mübarizəyə dair 2020-2024-cü illər üçün Milli Fəaliyyət Planı"nın icrası ilə əlaqədar Azərbaycan Respublikası Prokurorluğunun Tədbirlər Planı"nda, "Azərbaycan Respublikası Prezidentinin 27 dekabr 2011-ci il tarixli, 1938 nömrəli Sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasında insan hüquq və azadlıqlarının müdafiəsinin səmərəliliyini artırmaq sahəsində Milli Fəaliyyət Proqramı"nın icrası ilə əlaqədar Azərbaycan Respublikası Prokurorluğunun Tədbirlər Planı"nda və 05.04.2022-ci il tarixli 15/32 №-li əmri ilə təsdiq edilmiş "Azərbaycan Respublikası Baş Prokurorluğunun böhran vəziyyətlərinin kommunikasiya planı"nda dəyişiklik edilməsi barədə**

**Bakı şəhəri** **14 iyul 2025-ci il**

Baş Prokurorluq üzrə müvafiq əmrlərə əsasən kadr dəyişiklikləri həyata keçirildiyindən "Prokurorluq haqqında" Azərbaycan Respublikası Qanununun 10-cu maddəsini rəhbər tutaraq,

**ƏMR EDİRƏM:**

**1.** "Azərbaycan Respublikası Prokurorluğu orqanlarının sosial media siyasətinə dair Təlimat"dan irəli gələn vəzifələrin icrası barədə" 23.12.2021-ci il tarixli 15/27 №-li əmrində aşağıdakı dəyişikliklər edilsin:

**1.1.** 1-ci bənddə "Əfəndiyeva Aynur Vüsət qızı" sözləri "Həsənova Aysel Həsən qızı" sözləri ilə, "Əliyeva Mələk Vasif qızı" sözləri isə "Qəhrəmanova Suad Fəxrəddin qızı" sözləri ilə əvəz edilsin;

**1.2.** 3-cü bənddə "vəzifəsini icra edən" sözləri çıxarılsın.

**2.** "Azərbaycan Respublikası Prokurorluğu orqanlarında "İlin ən yaxşı prokuroru" müsabiqəsinin keçirilməsi üzrə Komissiyanın yaradılması haqqında" 17.12.2024-cü il tarixli 150/56 №-li əmrin 1-ci bəndində "Komissiyanın üzvləri" siyahısında aşağıdakı dəyişikliklər edilsin:

**2.1.** "Fazil Həsənəliyev" sözləri "Mahir Abbasov" sözləri ilə əvəz edilsin;

**2.2.** "Natiq Abdullayev" sözləri "Ceyhun Kazımov" sözləri ilə əvəz edilsin;

**2.3.** "Ceyhun Kazımov" sözləri "Erkin Əlixanov" sözləri ilə əvəz edilsin;

**2.4.** "Mahir Abbasov" sözləri "Natiq Abdullayev" sözləri ilə əvəz edilsin;

**2.5.** "Erkin Əlixanov" sözləri "Səbuhi Alıyev" sözləri ilə əvəz edilsin;

**2.6.** "Murad Dadaşov" sözləri "Talıb Cəfərov" sözləri ilə əvəz edilsin;

**2.7.** "Talıb Cəfərov" sözləri "Fazil Həsənəliyev" sözləri ilə əvəz edilsin;

**2.8.** "Səbuhi Alıyev" sözləri "Natiq Eyvazov" sözləri ilə əvəz edilsin;

**2.9.** "Natiq Eyvazov" sözləri "İsfəndiyar Hacıyev" sözləri ilə əvəz edilsin;

**3.** Azərbaycan Respublikası Baş prokurorunun 27 avqust 2020-ci il tarixli 15/1 №-li əmri ilə təsdiq edilmiş "Azərbaycan Respublikası Prezidentinin 22 iyul 2020-ci il tarixli, 2173 nömrəli Sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasında insan alverinə qarşı mübarizəyə dair 2020-2024-cü illər üçün Milli Fəaliyyət Planı"nın icrası ilə əlaqədar Azərbaycan Respublikası Prokurorluğunun Tədbirlər Planı"nın müəyyən edilmiş tədbir üzrə "İçraçılar" sütununda aşağıdakı dəyişikliklər edilsin:

**3.1.** 3-cü, 5-ci, 6-cı və 12-ci sətirlərdə "N.Abdullayev" sözü "C.Kazımov" sözü ilə əvəz edilsin;

**3.2.** 4-cü, 8-ci, 9-cu və 10-cu sətirlərdə "N.Abdullayev" sözü "C.Kazımov" sözü ilə, "T.Cəfərov" sözü isə "F.Həsənəliyev" sözü ilə əvəz edilsin;

**3.3.** 7-ci sətirdə "E.Əlixanov" sözü "S.Alıyev" sözü ilə, "N.Abdullayev" sözü isə "C.Kazımov" sözü ilə əvəz edilsin;

**3.4.** 11-ci sətirdə "R.Səfəralıyev" sözü "R.Abdullayev" sözü ilə əvəz edilsin;

**3.5.** 14-cü sətirdə "N.Abdullayev" sözü "C.Kazımov" sözü ilə, "E.Sultanov" sözü isə "S.İsmayılov" sözü ilə əvəz edilsin;

**3.6.** 16-cı sətirdə "S.Şahverdiyev" sözü "S.Paşayev" sözü ilə, "İ.Abbasov" sözü "E.Abbasov" sözü ilə, "N.Abdullayev" sözü isə "C.Kazımov" sözü ilə əvəz edilsin.

**4.** Azərbaycan Respublikası Baş prokurorunun 27 avqust 2020-ci il tarixli 15/1 №-li əmri ilə təsdiq edilmiş "Azərbaycan Respublikası Prezidentinin 27 dekabr 2011-ci il tarixli, 1938 nömrəli Sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasında insan hüquq və azadlıqlarının müdafiəsinin səmərəliliyini artırmaq sahəsində Milli Fəaliyyət Proqramı"nın icrası ilə əlaqədar Azərbaycan Respublikası Prokurorluğunun Tədbirlər Planı"nında aşağıdakı dəyişikliklər edilsin:

**4.1.** 1-ci, 2-ci, 3-cü, 17-ci, 23-cü, 24-cü, 27-ci və 32-ci sətirlərdə "X.Vəliyev" sözü "B.Əhmədov" sözü ilə, "S.Şahverdiyev" sözü "S.Paşayev" sözü ilə, "İ.Abbasov" sözü "E.Abbasov" sözü ilə əvəz edilsin və "Y.Həsənov" sözü çıxarılsın;

**4.2.** 5-ci, 6-cı, 7-ci, 8-ci və 9-cu sətirlərdə "X.Vəliyev" sözü "B.Əhmədov" sözü ilə, "S.Şahverdiyev" sözü "S.Paşayev" sözü ilə, "İ.Abbasov" sözü "E.Abbasov" sözü ilə, "F.Həsənəliyev" sözü "M.Abbasov" sözü ilə, "N.Abdullayev" sözü "C.Kazımov" sözü ilə, "M.Abbasov" sözü "N.Abdullayev" sözü ilə, "C.Kazımov" sözü "E.Əlixanov" sözü ilə, "F.Nağıyev" sözü "F.Hümmətov" sözü ilə əvəz edilsin və "Y.Həsənov" sözü çıxarılsın;

**4.3.** 13-cü və 14-cü sətirlərdə "S.Şahverdiyev" sözü "S.Paşayev" sözü ilə, "F.Həsənəliyev" sözü "M.Abbasov" sözü ilə və "N.Abdullayev" sözü "C.Kazımov" sözü ilə əvəz edilsin;

**4.4.** 4-cü sətirdə "X.Vəliyev" sözü "B.Əhmədov" sözü ilə, "S.Şahverdiyev" sözü "S.Paşayev" sözü ilə, "F.Həsənəliyev" sözü "M.Abbasov" sözü ilə əvəz edilsin və "Y.Həsənov" sözü çıxarılsın;

**4.5.** 16-cı sətirdə "X.Vəliyev" sözü "B.Əhmədov" sözü ilə, "S.Şahverdiyev" sözü "S.Paşayev" sözü ilə, "İ.Abbasov" sözü "E.Abbasov" sözü ilə, "E.Sultanov" sözü "S.İsmayılov" sözü ilə, "R.Səfəralıyev" sözü "R.Abdullayev" sözü ilə əvəz edilsin və "Y.Həsənov" sözü çıxarılsın;

**4.6.** 19-cu sətirdə "X.Vəliyev" sözü "B.Əhmədov" sözü ilə, "S.Şahverdiyev" sözü "S.Paşayev" sözü ilə, "T.Cəfərov" sözü "F.Həsənəliyev" sözü ilə əvəz edilsin və "Y.Həsənov" sözü çıxarılsın;

**4.7.** 20-ci sətirdə "X.Vəliyev" sözü "B.Əhmədov" sözü ilə, "S.Şahverdiyev" sözü "S.Paşayev" sözü ilə, "İ.Abbasov" sözü "E.Abbasov" sözü ilə, "T.Cəfərov" sözü "F.Həsənəliyev" sözü ilə əvəz edilsin və "Y.Həsənov" sözü çıxarılsın;

**4.8.** 21-ci sətirdə "S.Şahverdiyev" sözü "S.Paşayev" sözü ilə, "T.Cəfərov" sözü "F.Həsənəliyev" sözü ilə əvəz edilsin;

**4.9.** 22-ci sətirdə "Tədbirin adı" sütununda "kütləvi informasiya vasitələrinin" sözləri "medianın" sözü ilə əvəz edilsin və "İcraçılar" sütununda "T.Cəfərov" sözü "F.Həsənəliyev" sözü ilə əvəz edilsin;

**4.10.** 28-ci sətirdə "X.Vəliyev" sözü "B.Əhmədov" sözü ilə, "S.Şahverdiyev" sözü "S.Paşayev" sözü ilə, "F.Həsənəliyev" sözü "M.Abbasov" sözü ilə, "N.Abdullayev" sözü "C.Kazımov" sözü ilə, "M.Abbasov" sözü "N.Abdullayev" sözü ilə, "C.Kazımov" sözü "E.Əlixanov" sözü ilə əvəz edilsin və "Y.Həsənov" sözü çıxarılsın;

**4.11.** 30-cu sətirdə "Tədbirin adı" sütununda "Kütləvi informasiya vasitələrində" sözləri "mediada" sözləri ilə əvəz edilsin.

**5.** Azərbaycan Respublikası Baş prokurorunun 05.04.2022-ci il tarixli 15/32 №-li əmri ilə təsdiq edilmiş "Azərbaycan Respublikası Baş Prokurorluğunun böhran vəziyyətlərinin kommunikasiya planı"nın 4.5-ci bəndində aşağıdakı dəyişikliklər edilsin:

**5.1.** "Analitiklər qrupu" üzrə "Talıb Cəfərov" sözləri "Fazil Həsənəliyev" sözləri ilə və "050-210-22-48" rəqəmləri "050-211-63-18" rəqəmləri ilə əvəz edilsin;

**5.2.** "Çevik reaksiya qrupu" üzrə "Fazil Həsənəliyev" sözləri "Mahir Abbasov" sözləri ilə və "050-211-63-18" rəqəmləri "050-244-07-99" rəqəmləri ilə, "Natiq Abdullayev" sözləri "Ceyhun Kazımov" sözləri ilə və "050-234-22-00" rəqəmləri "050-211-89-10" rəqəmləri ilə, "Mahir Abbasov" sözləri "Natiq Abdullayev" sözləri ilə və "050-244-07-99" rəqəmləri "050-234-22-00" rəqəmləri ilə, "Ceyhun Kazımov" sözləri "Erkin Əlixanov" sözləri ilə və "050-211-89-10" rəqəmləri "050-202-10-30" rəqəmləri ilə, "Murad Dadaşov" sözləri "Talıb Cəfərov" sözləri ilə və "050-211-58-22" rəqəmləri "050-210-22-48" rəqəmləri ilə əvəz edilsin;

**5.3.** "Çevik reaksiya qrupu" üzrə "Sənədlərlə və müraciətlərlə işin təşkili idarəsinin rəisi" sözlərindən sonra "vəzifəsini icra edən" sözləri çıxarılsın;

**5.4.** "Maraqlı tərəflərlə iş üzrə səlahiyyətli şəxslər qrupu" üzrə "Natiq Abdullayev" sözləri "Ceyhun Kazımov" sözləri ilə, "Mahir Abbasov" sözləri "Natiq Abdullayev" sözləri ilə, "Ceyhun Kazımov" sözləri "Erkin Əlixanov" sözləri ilə əvəz edilsin;

**5.5.** "Sosial və onlayn mediada işin təşkili üzrə səlahiyyətli şəxslər qrupu" üzrə "Murad Dadaşov" sözləri "Talıb Cəfərov" sözləri ilə əvəz edilsin.

**6.** Əmr elan olunması üçün Baş Prokurorluğun struktur qurumlarına, Bakı şəhər prokurorluğuna və tabe rayon prokurorluqlarına göndərilsin, "Azərbaycan Prokurorluğu" jurnalında dərc edilsin və "Prokurorluğun Normativ Reyestri"nə daxil edilsin.

**Azərbaycan Respublikasının**
**Baş prokuroru**
**I dərəcəli dövlət ədliyyə müşaviri**
**Kamran Əliyev**

**AZƏRBAYCAN RESPUBLİKASININ BAŞ PROKURORLUĞU**
**Ə M R**
**№ 090/71**

**Azərbaycan Respublikası Baş prokurorunun "Azərbaycan Prokurorluğu" elmi-praktiki jurnalının redaksiya heyətinin yeni tərkibinin təsdiq edilməsi haqqında" 19.05.2021-ci il tarixli 09/06 №-li və "Azərbaycan Respublikasının Baş Prokurorluğunda fövqəladə hallar üzrə komissiyanın yaradılması haqqında" 28.10.2022-ci il tarixli 09/21 №-li əmrlərində dəyişiklik edilməsi, habelə "Prokurorluq işçilərinin sosial müdafiəsi və maddi təminatı məsələlərinin həlli üzrə komissiyanın yeni tərkibinin təsdiq edilməsi haqqında" 22.06.2020-ci il tarixli 10/69 №-li əmrin ləğv edilməsi barədə**

**Bakı şəhəri** **16 iyul 2025-ci il**

Prokurorluq haqqında" Azərbaycan Respublikası Qanununun 10-cu maddəsini rəhbər tutaraq,

**ƏMR EDİRƏM:**

**1.** "Azərbaycan Prokurorluğu" elmi-praktiki jurnalının redaksiya heyətinin yeni tərkibinin təsdiq edilməsi haqqında" 19.05.2021-ci il tarixli 09/06 №-li əmrin 1-ci bəndində "Talıb Cəfərov" sözləri "Fazil Həsənəliyev" sözləri ilə, "Erkin Əlixanov" sözləri "Səbuhi Alıyev" sözləri ilə, "Mahir Abbasov" sözləri isə "Natiq Abdullayev" sözləri ilə əvəz edilsin.

**2.** "Azərbaycan Respublikasının Baş Prokurorluğunda fövqəladə hallar üzrə komissiyanın yaradılması haqqında" 28.10.2022-ci il tarixli 09/21 №-li əmrin 1-ci bəndində "Komissiyanın üzvləri" cədvəlində müvafiq ardıcıllıq üzrə aşağıdakı dəyişikliklər edilsin:

**2.1.** "Fazil Həsənəliyev" sözləri "Mahir Abbasov" sözləri ilə əvəz edilsin;

**2.2.** "Natiq Abdullayev" sözləri "Ceyhun Kazımov" sözləri ilə əvəz edilsin;

**2.3.** "Ceyhun Kazımov" sözləri "Erkin Əlixanov" sözləri ilə əvəz edilsin;

**2.4.** “Mahir Abbasov” sözləri “Natiq Abdullayev” sözləri ilə əvəz edilsin;
**2.5.** “Erkin Əlixanov” sözləri “Səbuhi Alıyev” sözləri ilə əvəz edilsin;
**2.6.** “Murad Dadaşov” sözləri “Talıb Cəfərov” sözləri ilə əvəz edilsin;
**2.7.** “Talıb Cəfərov” sözləri “Fazil Həsənəliyev” sözləri ilə əvəz edilsin.

**3.** Azərbaycan Respublikası Baş Prokurorluğunun Kollegiyasının 30 iyul 2020-ci il tarixli 02 nömrəli qərarı ilə təsdiq edilmiş və Baş Prokurorluq üzrə eyni tarixli 10/82 nömrəli əmrlə icraya yönəldilmiş “İşin Təşkili Qaydaları” nın 34-cü bəndinə əsasən prokurorluq işçilərinin sosial müdafiəsi və maddi təminatı ilə bağlı məsələlərin həllini həyata keçirən prokurorluğun “Ad hoc” qurumu olan “Əmək məsələləri komissiyası”nın yaradılmasından və faktiki olaraq Komissiyanın tərkibi formalaşdırılmaqla vəzifələrinin icrasına başlamasından sonra, Prokurorluq işçilərinin sosial müdafiəsi və maddi təminatı məsələlərinin həlli üzrə komissiyanın fəaliyyətini dayandırması nəzərə alınaraq “Prokurorluq işçilərinin sosial müdafiəsi və maddi təminatı məsələlərinin həlli üzrə komissiyanın yeni tərkibinin təsdiq edilməsi haqqında” 22.06.2020-ci il tarixli 10/69 №-li əmr ləğv edilsin.

**4.** Əmr elan olunması üçün Baş Prokurorluğun struktur qurumlarına, Baş Prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsinə, Respublika Hərbi, Naxçıvan Muxtar Respublikası və Bakı şəhər, habelə tabe rayon (şəhər), ərazi hərbi prokurorluqlarına göndərilsin.

**5.** Əmr “Azərbaycan Prokurorluğu” jurnalında dərc edilsin və “Prokurorluğun Normativ Reyestri”nə daxil edilsin.

**Azərbaycan Respublikasının**
**Baş prokuroru**
**I dərəcəli dövlət ədliyyə müşaviri** **Kamran Əliyev**

**AZƏRBAYCAN RESPUBLİKASININ BAŞ PROKURORLUĞU**
**Ə M R**
**№ 2-2-100/393-k**

**Azərbaycan Respublikası Baş prokurorunun “Azərbaycan Respublikası Baş Prokurorluğunun İntizam Komissiyasının yaradılması haqqında” 05.08.2020-ci il tarixli 11/851-k nömrəli əmrində dəyişiklik edilməsi barədə**

**Bakı şəhəri** **29 iyul 2025-ci il**

Baş Prokurorluq üzrə müvafiq əmrlərə əsasən kadr dəyişikliklərinin həyata keçirilməsi nəzərə alınmaqla, “Prokurorluq haqqında” Azərbaycan Respublikası Qanununun 10-cu maddəsini rəhbər tutaraq,

**Ə M R E D İ R Ə M:**

**1.** “Azərbaycan Respublikası Baş Prokurorluğunun İntizam Komissiyasının yaradılması haqqında” 05.08.2020-ci il tarixli 11/851-k nömrəli əmrin 1-ci bəndində “Mahir Abbasov” sözləri “Natiq Abdullayev” sözləri ilə, “Erkin Əlixanov” sözləri “Səbuhi Alıyev” sözləri ilə əvəz edilsin.

**2.** Əmr elan edilməsi üçün Baş Prokurorluğun struktur qurumlarına və bütün tabe prokurorluqlara göndərilsin, “Azərbaycan Prokurorluğu” elmi-praktiki jurnalında dərc edilsin və “Prokurorluğun Normativ Xarakterli Hüquqi Sənədlərinin Reyestri”nə daxil edilsin.

**Azərbaycan Respublikasının**
**Baş prokuroru**
**I dərəcəli dövlət ədliyyə müşaviri** **Kamran Əliyev**

**AZƏRBAYCAN RESPUBLİKASININ BAŞ PROKURORLUĞU**
**Ə M R**
**№ 090/73**

**Azərbaycan Respublikası Hərbi Prokurorluğunun Kollegiyasının tərkibinin təsdiq edilməsi haqqında**

**Bakı şəhəri** **11 avqust 2025-ci il**

Azərbaycan Respublikası Baş Prokurorluğu üzrə 01 avqust 2025-ci il tarixli, 2-2-100/11-s nömrəli əmrlə Azərbaycan Respublikası Hərbi Prokurorluğunun yeni strukturu təsdiq edilmişdir.

Bununla əlaqədar, "Prokurorluq haqqında" Azərbaycan Respublikasının Qanununun 10 və 12-ci maddələrini rəhbər tutaraq,

**ƏMR EDİRƏM:**

**1.** Azərbaycan Respublikası Hərbi Prokurorluğunun Kollegiyası aşağıdakı tərkibdə təsdiq edilsin:

***Kollegiyanın sədri:***

Azərbaycan Respublikası Baş prokurorunun müavini – Azərbaycan Respublikasının Hərbi prokuroru

***Kollegiyanın üzvləri:***

Azərbaycan Respublikası Hərbi prokurorunun müavini
Azərbaycan Respublikası Hərbi prokurorunun müavini
Azərbaycan Respublikası Hərbi prokurorunun müavini
Azərbaycan Respublikası Hərbi Prokurorluğunun İstintaq idarəsinin rəisi
Azərbaycan Respublikası Hərbi Prokurorluğunun Hərbi prokurorluqlarda istintaqa nəzarət idarəsinin rəisi
Azərbaycan Respublikası Hərbi Prokurorluğunun Dövlət ittihamının müdafiəsi üzrə idarəsinin rəisi
Azərbaycan Respublikası Hərbi Prokurorluğunun Təhqiqata nəzarət idarəsinin rəisi
Azərbaycan Respublikası Hərbi Prokurorluğunun Təşkilat və icraya nəzarət şöbəsinin rəisi

**2.** Azərbaycan Respublikası Baş Prokurorluğu üzrə "Azərbaycan Respublikası Hərbi Prokurorluğunun Kollegiyasının tərkibinin təsdiq edilməsi haqqında" 24 iyul 2020-ci il tarixli 10/80 nömrəli və "Azərbaycan Respublikası Hərbi Prokurorluğunun Kollegiyasının tərkibində dəyişiklik edilməsi haqqında" 18 may 2023-cü il tarixli 09/23 nömrəli əmrləri ləğv edilsin.

**3.** Əmr elan edilməsi üçün əlaqədar struktur qurumlara göndərilsin, "Prokurorluğun normativ xarakterli hüquqi sənədlərinin Reyestri"nə daxil edilsin.

**Əsas:** Azərbaycan Respublikası Baş prokurorunun müavini – Azərbaycan Respublikası Hərbi prokurorunun 07 avqust 2025-ci il tarixli məktubu

**Azərbaycan Respublikasının**
**Baş prokuroru**
**I dərəcəli dövlət ədliyyə müşaviri** **Kamran Əliyev**

**AZƏRBAYCAN RESPUBLİKASININ BAŞ PROKURORLUĞU**
**Ə M R**
**№ 090/75**

**Azərbaycan Respublikası Baş Prokurorluğunun İstintaq idarəsində ibtidai araşdırma zamanı götürülmüş maddi sübutların və digər əşyaların məhv edilməsi ilə bağlı komissiyanın yaradılması haqqında**

**Bakı şəhəri** **04 sentyabr 2025-ci il**

Baş Prokurorluğunun "İşin Təşkili Qaydaları"nın 355.12-ci yarımbəndinin tələbinə əsasən İstintaq idarəsində ibtidai araşdırma zamanı götürülmüş maddi sübutların və digər əşyaların Azərbaycan Respublikası Cinayət Prosessual Məcəlləsi ilə müəyyən edilmiş hallar üzrə məhv edilməsinin təmin olunması məqsədilə "Prokurorluq haqqında" Azərbaycan Respublikasının Qanununun 10-cu maddəsini rəhbər tutaraq,

**ƏMR EDİRƏM:**

**1.** Baş Prokurorluğun İstintaq idarəsində ibtidai araşdırma zamanı götürülmüş maddi sübutların və digər əşyaların məhv edilməsi ilə əlaqədar olaraq aşağıdakı tərkibdə daimi komissiya yaradılsın:

***Komissiyanın sədri:***

**Nazim Rəşidov** — Azərbaycan Respublikasının Baş Prokurorluğunun İstintaq idarəsinin rəis müavini

***Komissiyanın üzvləri:***

**Emil Tağıyev** — Azərbaycan Respublikasının Baş Prokurorluğunun İstintaq idarəsinin böyük prokuroru

**Pərviz Mirhəşimov** — Azərbaycan Respublikasının Baş Prokurorluğunun İstintaq idarəsinin böyük prokuroru

**Nurlana Babayeva** — Azərbaycan Respublikasının Baş Prokurorluğunun İstintaq idarəsinin böyük məsləhətçisi

**Fərid Əsədullayev** — Azərbaycan Respublikasının Baş Prokurorluğunun İstintaq idarəsinin böyük mütəxəssisi

**2.** Əmr məlumat və icra edilməsi üçün Azərbaycan Respublikasının Baş Prokurorluğunun İstintaq idarəsinə göndərilsin, "Prokurorluğun normativ xarakterli hüquqi sənədlərinin Reyestri"nə daxil edilsin.

***Əsas:*** Azərbaycan Respublikası Baş Prokurorluğunun İstintaq idarəsinin rəisi, III dərəcəli dövlət ədliyyə müşaviri Nemət Əvəzovun 02 sentyabr 2025-ci il tarixli məktubu.

**Azərbaycan Respublikasının**
**Baş prokuroru**
**I dərəcəli dövlət ədliyyə müşaviri** **Kamran Əliyev**

**AZƏRBAYCAN RESPUBLİKASININ BAŞ PROKURORLUĞU**
**Ə M R**
**№ 090/76**

**“Prokuror nəzarəti və prosessual rəhbərlik təcrübəsi” jurnalının təsis edilməsi və redaksiya heyətinin tərkibinin müəyyən edilməsi haqqında**

**Bakı şəhəri** **05 sentyabr 2025-ci il**

Baş Prokurorluq üzrə 17 dekabr 2024-cü tarixli 150/55 əmrlə təsdiq edilmiş "Azərbaycan Respublikası Prokurorluğu orqanlarında “İlin ən yaxşı prokuroru” müsabiqəsinin keçirilməsi haqqında Təlimat"a müvafiq olaraq prokurorluq əməkdaşlarının peşəkarlıq səviyyəsinin artırılması, onların yaradıcı potensialının aşkara çıxarılması, habelə işçilər arasında motivasiyanın və inkişaf yönümlü sağlam rəqabətin gücləndirilməsi, peşəkar kadr ehtiyatı potensialının formalaşdırılması məqsədilə Azərbaycan Respublikası Prokurorluğu orqanlarında hər il “İlin ən yaxşı prokuroru” müsabiqəsinin keçirilməsi nəzərdə tutulur.

Müsabiqə qaliblərinin və iştirakçılarının müsbət iş təcrübəsinin təbliği, bununla da həmin əməkdaşların xidməti fəaliyyətlərinə olan müsbət yanaşmalarının təşviqi, eyni zamanda ibtidai araşdırmaya prosessual rəhbərliyin və prokuror nəzarətinin icrası zamanı, habelə cinayət təqibindən kənar icraat üzrə təcrübədə rast gəlinən çətinliklərin, qanunvericilikdə aşkar edilmiş boşluq və zidiyyətlərin aradan qaldırılması istiqamətində hüquqi yanaşmanın əks etdirilməsi, onların həlli ilə bağlı konkret təkliflərin irəli sürülməsi məqsədilə “Prokuror nəzarəti və prosessual rəhbərlik təcrübəsi” adlı yeni jurnal təsis edilməlidir.

Yuxarıda qeyd edilənləri və “Prokurorluq haqqında” Azərbaycan Respublikası Qanununun 10 və 40-cı maddələrini rəhbər tutaraq,

**Ə M R   E D İ R Ə M:**

**1.** “Prokuror nəzarəti və prosessual rəhbərlik təcrübəsi” jurnalı təsis edilsin.

**2.** Jurnalın redaksiya heyəti aşağıdakı tərkibdə müəyyən edilsin:

***Baş redaktor:***

**Elmar Camalov** Azərbaycan Respublikası Baş prokurorunun müavini

***Baş redaktorun müavini:***

**Fazil Həsənəliyev** Elm-Tədris Mərkəzinin rəisi

***Redaksiya heyətinin üzvləri:***

| | |
|---|---|
| **Tural Aslanov** | Təşkilat və icraya nəzarət idarəsinin rəisi |
| **Natiq Hüseynov** | Kadrlar idarəsinin rəisi |
| **Mahir Abbasov** | Prokurorluqda istintaqa nəzarət idarəsinin rəisi |
| **Ceyhun Kazımov** | Daxili işlər orqanlarının istintaq, təhqiqat və əməliyyat- axtarış fəaliyyətində qanunların icrasına nəzarət idarəsinin rəisi |
| **Erkin Əlixanov** | Ədliyyə, gömrük və vergi orqanlarının istintaq, təhqiqat və əməliyyat-axtarış fəaliyyətində qanunların icrasına nəzarət idarəsinin rəisi |
| **Natiq Abdullayev** | Dövlət təhlükəsizliyi, fövqəladə fallar və sərhəd xidməti orqanlarının istintaq, təhqiqat və əməliyyat-axtarış fəaliyyətində qanunların icrasına nəzarət idarəsinin rəisi |
| **Elnur Musayev** | Cinayət təqibindən kənar icraatlar idarəsinin rəisi |
| **Kamal Qılıcov** | Xidməti araşdırmalar idarəsinin rəisi |
| **Vüqar Əliyev** | Xüsusi müsadirə məsələlərinin əlaqələndirilməsi idarəsinin rəisi |
| **Aynur Osmanova** | Hüquqi təminat və insan hüquqları məsələləri idarəsinin rəisi |
| **Səbuhi Alıyev** | Beynəlxalq hüquqi əməkdaşlıq idarəsinin rəisi |
| **Talıb Cəfərov** | Kriminalistika və informasiya texnologiyaları idarəsinin rəisi |
| **Sahib İsmayılov** | Sənədlərlə və müraciətlərlə işin təşkili idarəsinin rəisi |
| **Saleh Hacıyev** | Mətbuat Xidmətinin rəhbəri |
| **İsfəndiyar Hacıyev** | Baş prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsinin Təşkilati və informasiya təminatı idarəsinin rəisi |
| **Natiq Eyvazov** | Baş prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsinin Preventiv tədbirlər və təhqiqat idarəsinin rəisi |

***Məsul katib:***

| | |
|---|---|
| **Ruslan Ağayev** | Elm-Tədris Mərkəzinin Strateji planlaşdırma və risklərin müəyyən edilməsi şöbəsinin prokuroru. |

**3.** “Prokuror nəzarəti və prosessual rəhbərlik təcrübəsi” jurnalının fəaliyyəti üçün məsul qurum Baş Prokurorluğun Elm-Tədris Mərkəzi müəyyən olunsun və Mərkəzin rəisi tərəfindən bu sahədə işin müasir tələblər səviyyəsində səmərəli təşkili və digər struktur qurumlarla əlaqəli fəaliyyəti təmin edilsin.

**4.** Əmr məlumat və icra olunması üçün Baş Prokurorluğun müvafiq struktur qurumlarına göndərilsin, “Prokurorluğun Normativ Xarakterli Hüquqi Sənədlərinin Reyestri”nə daxil edilsin.

**Azərbaycan Respublikasının**
**Baş prokuroru**
**I dərəcəli dövlət ədliyyə müşaviri** **Kamran Əliyev**